**Vidadi Mustafayev**

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ İRAN MEDİASINDA

**Bakı – Elm – 2023**

*Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*

**Elmi redaktor:** **Gövhər Baxşəliyeva**
*akademik*

**Rəyçilər:** **Ruhəngiz Cümşüdlü**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Vüqar Məmmədov**
*filologiya üzrə fəlsəfə doktoru*

**Vidadi Kamal oğlu Mustafayev.** 44 günlük Vətən müharibəsi İran mediasında. Bakı, 2023, –384 səh.

**ISBN:** 978-9952-569-34-6

Kitabda keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qısa aktiv mərhələləri (aprel 2016, iyul 2020) və 44 günlük Vətən müharibəsinin gedişi, həmçinin 2020-ci ilin sonuna qədərki dövrdə cərəyan etmiş hadisələrin İranın əsasən dörd mərkəzi (“irna”, “tasnim”, “farsnews”, “isna”) və bir yerli (“anaj”, Təbriz, Şərqi Azərbaycan) xəbər agentliklərinin saytlarında işıqlandırılması xronoloji ardıcıllıqla öz əksini tapmışdır.

Həmçinin həmin saytlarda keçmiş münaqişənin tarixi, mahiyyəti, ona İranın münasibəti, eyni zamanda qeyd edilən mərhələlərdə baş verən mühüm hadisələrə dair müxtəlif xarakterli şərhlər, müsahibələr, publisistik və analitik yazıların qısa icmalı və onlara münasibət yer almışdır.

Kitabda qeyd edilən məsələlərə cənubi azərbaycanlıların müxtəlif sosial qruplarının münasibəti də az-çox dərəcədə nəzərdən keçirilmişdir.

© Vidadi Mustafayev, 2023

## MÜNDƏRİCAT

**GİRİŞ** ........................................ 8
İranın kütləvi informasiya vasitələri ........................ 13

**I FƏSİL**
44 günlük Vətən müharibəsindən əvvəlki dövr .................. 15

**I . Dörd gün: İki İran və Azərbaycan** ...................... 15
1. İrimiqyaslı qısamüddətli hərbi əməliyyat .................. 15

2. Erməni millətçilərinin xəstə təxəyyülü ermənilərin bədbəxtliyinin və qonşularının başağrılarının mənbəyidir ...................... 16

3. Dünya və region dövlətləri və beynəlxalq təşkilatların yeni hərbi münaqişəyə münasibəti ................ 20

4. İran İslam Respublikasının yeni Ermənistan hərbi münaqişəsinə münasibəti ........................ 20
4.1. İran İslam Respublikasının rəsmi mövqeyi ............ 21
4.1.1. Bitərəflik ........................................ 22
4.2. Hakimiyyətyönümlü kütləvi informasiya vasitələrinin mövqeyi ........................................ 23
4.2.1. Məsələnin sülh yolu ilə həll edilməsi ............... 25
4.2.2. İranın regiondan kənarda yerləşən dövlətlərin vasitəçiliyinə qarşı olması ........................ 26
4.3. Özlərini müstəqil kimi təqdim edən ekspertlərin mövqeyi ........................................ 37
4.4. Mütəxəssis və ekspert rəyləri .............................. 39

5. Cənubi azərbaycanlıların mövqeyi ............................ 48
5.1. Hakimiyyətdə təmsil olunanlar və hakimiyyətə yaxın olanlar ........................................ 48
5.2. İran türkləri və İran azərilərinin mövqeyi ............... 63

5.3. Cənubi Azərbaycan elmi ictimaiyyətinin mövqeyi və ya "Qarabağ İslam torpağı" mövzusunda elmi-siyasi konfranslar ............................ 70

6. Müharibənin gedişində Ermənistanın Dağlıq Qarabağın müstəqilliyini tanımaq məsələsini qaldırması və həmin məsələyə İranın münasibəti ............ 89

7. "Azəri" adlanan ziyalıların Cənubi azərbaycanlıların milli kimliyinin zəiflədilməsinə yönəlmiş elmi konfransı ........................................................ 91

**Nəticə** ........................................................................ 98

**II. Tovuz döyüşləri** ........................................................ 101

**Nəticə** ........................................................................ 109

**II FƏSİL**
44 günlük Vətən müharibəsi ................................................ 112

1. 44 günlük Vətən müharibəsi ............................................ 112
1.1. Vətən müharibəsinin gedişinin işıqlandırılması ......... 113
1.2. Vətən müharibəsi haqqında xəbərlərin əsas xüsusiyyətləri ........................................................ 136
1.2.1. İran İslam Respulikasının xəbər agentliyi ("irna ir." saytı) ........................................................ 136
1.2.2. Özünü özəl analitik informasiya agentliyi kimi təqdim edən və İranın İslam İnqilabı Keşikçiləri Korpusuna bağlı Tasnim agentliyi (tasnimnews.com) ................................................ 138
1.2.3. Özünü 2003-cü ildə təsis edilmiş ilk özəl analitik informasiya agentliyi kimi təqdim edən və İranın İslam İnqilabı Keşikçiləri Korpusuna bağlı Fars agentliyi (farsnews.ir) ................................ 139
1.2.4. İran Tələbələri Xəbər Agentliyi (isna.ir) ............ 141
1.2.5. Analitik informasiya saytı ANAJ (anaj.ir) .......... 145
1.2.6. Cənubi Azərbaycanın digər saytları .................... 146

2 . 44 günlük Vətən müharibəsi haqqında şərhlər, müsahibələr və analitik yazılar ........................................ 150
2.1. İran saytlarında getmiş şərh, müsahibə və analitik yazıların qısa xülasəsi ........................................ 187
2.1.1. İİR Xəbər agentliyinin saytı (“irna”) .................... 187
2.1.2. “tasnim” saytı ........................................ 188
2.1.3. “farsnews” saytı ........................................ 189
2.1.4. “isna” saytı ........................................ 189
2.1.5. “anaj” saytı ........................................ 189
2.1.6. Əlavə ........................................ 190
a. “tabrizebidar” saytı ........................................ 190
b. “tabrizeman” saytı ........................................ 190

3. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti ilə bağlı fikirlər ........................................ 191

4. Vətən müharibəsinin gedişi ilə bağlı fikirlər ..................... 197

5. Azərbaycana qarşı təxribat: İsrail və xüsusən “terrorist” mövzusunun israrla təkrar edilməsi ...................... 201

6. İran İslam Respublikasının Vətən müharibəsində tutduğu mövqe haqqında ........................................ 207

7. İranın Azərbaycanla sərhəddə fəaliyyəti haqqında ........... 234

8. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi haqqında ........................................ 245

9. Vətən müharibəsinə Cənubi Azərbaycanın və cənubi azərbaycanlıların münasibəti ........................................ 254
9.1. Vətən müharibəsinə Cənubi Azərbaycanın münasibəti ........................................ 254
9.2. Vətən müharibəsinə cənubi azərbaycanlıların münasibəti ........................................ 267

**III FƏSİL**
44 günlük Vətən müharibəsində qələbədən ilin sonuna qədərki dövr ........................................ 278

Azərbaycanın işğal olunmuş ərazilərinin qalan hissəsinin – 3 rayonun işğalçılardan döyüşsüz təmizlənməsi və ilin sonuna qədərki vəziyyət haqqında....................278
**Nəticə**....................339

**Əlavələr**....................341
**I. Mətndə adları getmiş bəzi şəxslər haqqında qısa məlumatlar**....................341

**II. Mövzu ilə bağlı tərəfimizdən yazılmış operativ qeyd, şərh və digər məzmunlu yazılar (vidadimustafayev.wordpress.com saytında)**....................343
1. 28 sentyabr 2020: Новая военная провокация Армении против Азербайджана....................343
2. 23 oktyabr 2020: İran generalı müharibənin harada getdiyini niyə bilmir?....................347
3. 23 oktyabr 2020: Meydan saxtakarlarındır....................349
4. 30 oktyabr 2020: İran sərhəd bölgəsinə qoşun toplamaqda davam edir. Nə olub, görəsən?....................350
5. 7 noyabr 2020: “İran komandanları Rəhbərin mövqeyini qulaqardına vururlar”....................351
6. 13 noyabr 2020: İranda müəyyən qüvvələr yas içindədirlər....................353
7. 13 noyabr 2020: İran İslam Respublikası üçün "yeni və gözlənilməz" geosiyasi reallıq....................354
8. 16 noyabr 2020: Fars müəllif: Rusiyanı ancaq İran xilas edə bilər....................356
9. 24 noyabr 2020: Öz millətinin düşməni olan “ziyalı”lar....................359
10. 26 noyabr 2020: Ehtiyatlı olmalı. Şiə “qardaşlar” da senatı dəstəkləmək istəyirlər....................363

11. 1 dekabr 2020: Rusların bir hissəsi
nə məzhəbə qulluq edir?....................................................365

12. 3 dekabr 2020: Təklif “Rusiya sülhməramlıları
Azərbaycanda” saytı yaradılsın..........................................365

13. 4 dekabr 2020: Türkiyə və İran......................................366

14. 6 dekabr 2020: İranda dostları olan erməni
quldur və terroristindən sitat gətirirlər ...............................367

15. 13 dekabr 2020: Bir bayatının gücü və
ya milli azlıqlara qarşı yeni planlar....................................367

16. 14 dekabr 2020: Panfarsistlər
sevinsinlər, ya ağlasınlar? ..................................................375

17. 17dekabr 2020: Tutuquşu...............................................377

18. 18 dekabr 2020: Karların könlündəki .........................377

19. 27 dekabr 2020: Cənubi azərbaycanlılara
təklif və ya 44 günlük Vətən müharibəsi cənubi
azərbaycanlıların gözü ilə ..................................................379

20. 29 dekabr 2020: “Mədəni” qərblilər ............................382

# GİRİŞ

1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətində Ermənistan və dünya ermənilərinin millətçi dairələrinin himayəsi və birbaşa iştirakı ilə başlanan separatizm hərəkatı keçmiş SSRİ rəhbərliyinin ermənipərəst və yarıtmaz fəaliyyəti nəticəsində regionda, xüsusən Azərbaycanda böyük bir böhranın əsasını qoydu. SSRİ-nin dağılmasından sonra xarici qüvvələr tərəfindən birbaşa dəstəklənən Ermənistan Azərbaycana qarşı hərbi təcavüz etməyə cəsarət etdi. Azərbaycanda daxili siyasi qeyri-stabillik və hərc-mərclik nəticəsində Azərbaycan ərazisinin 20%-i Ermənistan Silahlı Qüvvələri tərəfindən müvəqqəti işğal olunmuş və 1994-cü ildə hərbi əməliyyatlar atəşkəs sazişi ilə dayandırılmışdı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həmin dövrdən yeni mərhələyə – münaqişənin danışıqlar yolu ilə həll edilməsi mərhələsinə qədəm qoydu. Həmin vaxtdan 1992-ci ildə yaradılmış (1995-ci ilə qədər ATƏM (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi), sonra ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı)) Minsk qrupu və qrupun həmsədr ölkələrinin nümayəndələrinin iştirakı ilə danışıqlar aparılmış və Ermənistana beynəlxalq təşkilatlar və ictimaiyyət tərəfindən heç bir təzyiq göstərilmədiyindən onun qeyri-konstruktiv və əslində, işğalı qanunilәşdirmək səyləri sayəsində heç bir nəticə əldə olunmamışdır. Əksinə, cəzasızlıqdan ilham alan Ermənistan yeni ərazilər işğal edib Azərbaycanı işğalla barışmağa məcbur etmək niyyətini göstərmək üçün tez-tez hərbi təxribatlara əl atır və hər dəfə ağır zərbə aldıqdan sonra yenə də pozucu əməllərə hazırlaşırdı.

Ermənistan 2016-cı ilin aprel ayında Azərbaycana qarşı genişmiqyaslı hərbi təxribata başlasa da, tezliklə qəti əks-hücumla üzləşmiş, ağır itkilər verərək müttəfiqi Rusiya Federasiyasına müraciət etmiş və onun köməyi ilə hərbi əməliyyatların dayandı-

rılmasına nail olmuşdu. Dördgünlük hərbi əməliyyatlar nəticəsində Azərbaycan ilk dəfə ərazilərinin, cüzi də olsa, bir hissəsini işğaldan azad etmiş və bir sıra strateji yüksəklikləri öz nəzarətinə keçirmişdi. Bundan nəticə çıxarmayan və lazımi dərs almayan Ermənistan 2020-ci ilin iyul ayında Qarabağ regionundan kənarda növbəti irimiqyaslı hərbi təxribata başlamış və ağır məğlubiyyətə uğrayaraq yenidən hərbi müttəfiqi olan Rusiyanın köməyi ilə atəşin dayandırılmasına nail ola bilmişdi. Bununla belə, öz təcavüzkar niyyətindən əl çəkməyərək və ən mühümü, Rusiyanın "xilasedici kəməri"nə bel bağlayaraq sentyabr ayında yenidən irimiqyaslı hərbi təxribata əl atdı. Buna cavab olaraq hərbi əməliyyatlara başlayan Azərbaycan bu dəfə düşməni lokal cəzalandırmaqla kifayətlənməyərək onu ölkə ərazisindən tamamilə qovmağı qarşısına məqsəd qoydu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi və hərbi rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu arxasında dəmir yumruq kimi birləşmiş xalqın dəstəyini hiss edərək 44 gün ərzində düşməni darmadağın etdi və onu kapitulyasiya aktına imza atmağa məcbur etdi. 2020-ci ilin sentyabr ayının 27-də başlanan və noyabr ayının 10-da şanlı, parlaq tarixi qələbə ilə başa çatan müharibədən sonra regionda və Ermənistan ilə Azərbaycan arasında tamamilə yeni münasibətlər formalaşmağa başladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ermənilərin "Böyük Ermənistan" xülyasının reallaşdırılması səyləri nəticəsində meydana gəlsə də, tezliklə regional və qlobal güclər SSRİ-nin dağılmasından sonra meydana gələn yeni, Cənubi Qafqaz regionunda yaranmış hakimiyyət boşluğunu doldurmaq üçün həmin münaqişədən istifadə etməyə çalışırdı. Münaqişəni həll etmək şüarı ilə Cənubi Qafqaza ayaq açan regional və qlobal güclər, artıq yaxşı məlum olduğu kimi, ondan öz strateji və regional maraqlarını təmin etmək üçün istifadə etməyə səy göstərərək, onun həllinə yardım göstərmək əvəzinə, dondurulması istiqamətində hərəkət edirdilər. Yeni regionda möhkəmlənmək uğrunda

mübarizə aparan regional və qlobal dövlətlərin təsir dairəsi və nüfuz uğrunda rəqabəti vəziyyəti daha da gərginləşdirir və münaqişənin həllinə əngəl törədirdi.

Cənubi Qafqaz regionunda və ilk növbədə, əksəriyyəti müsəlman və şiə məzhəbli əhaliyə malik olan Azərbaycanda və Azərbaycan vasitəsilə regionda möhkəmlənməyə çalışan regional dövlətlərdən biri də İran İslam Respublikası idi. İran-İraq müharibəsindən (1980-1988) yeni çıxmış, beynəlxalq sanksiyalarla üzləşmiş və beynəlxalq təcrid vəziyyətində olan İran qeyd edilən münaqişədən həmin vəziyyətdən çıxmaq üçün istifadə etməyə çalışırdı. Buna görə, demək olar ki, İran bu və ya digər dərəcədə həmin münaqişənin gedişinə təsir göstərirdi.

Azərbaycanın cənub qonşusu İran İslam Respublikası bütün bu illər ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və müharibədən sonra Ermənistan-Azərbaycan münasibətlərinə və yeni reallıqlara mahiyyətcə sabit, lakin forma və mərhələlər baxımından fərqli mövqe nümayiş etdirmişdir.

İran İslam Respublikasında islam dini (şiəlik məzhəbi) və ruhanilərin ali hakimiyyəti elan edilsə də, Şərq (islam) və Qərb (respublika) norma və prinsiplərini müxtəlif sahələr arasında paylayaraq birləşdirməyə çalışılsa da, nəticədə, ziddiyyətli siyasi sistemin formalaşmasına zəmin yaradılmışdır. Bundan əlavə, istənilən cəmiyyətdə siyasi sistemindən asılı olmayaraq, iqtisadi-ictimai münasibətlərin xarakterinə uyğun olaraq müxtəlif sosial qrupların formalaşması onların eyni sistem daxilində maraqların ən asan və hərtərəfli şəkildə təmin olunması vasitəsi olan hakimiyyət uğrunda mübarizəsini şərtləndirirdi.

İran İslam Respublikasının milli maraqları ilə siyasi sistemin və teokratik rejimin eqoistik maraqları arasında mövcud olan müəyyən ziddiyyətlər də həm daxili siyasətə, həm də xarici siyasətə, eyni zamanda daxili siyasi-ictimai proseslər xarici siyasətə birbaşa təsir göstərir.

Ölkə daxilində və onun xarici münasibətlərində gedən siyasi-ictimai proseslərə ən operativ münasibət kütləvi informasiya vasitələrində (xüsusən mətbu və elektron) öz əksini tapır. Kütləvi informasiya vasitələrini diqqətlə nəzərdən keçirdikdə ölkənin bu və ya digər regional və beynəlxalq məsələlərə yanaşmasında mövcud olan müxtəlifliyi dərhal görmək olur. Başqa sözlə, kütləvi informasiya vasitələrinin köməyi ilə ölkənin xarici aləmdə, o cümlədən qonşularda, regionda, baş verən hadisələrə münasibətini kompleks şəkildə müəyyən etmək olur. Burada rəsmi mövqe ilə yanaşı, qeyri-rəsmi mövqe, xarici siyasətə birbaşa təsir göstərən mərkəzlərin mövqeləri, müxtəlif sosial qrupların rəsmi siyasəti bu və ya digər məsələdə dəstəkləməsi və ya tənqid etməsi geniş şəkildə əks olunur. Yəni kütləvi informasiya vasitələri hadisələrin və onlara yanaşmaların bütöv mənzərəsini yaratmağa imkan verir.

İran İslam Respublikasında daxili və xarici siyasətin əsas istiqamətləri ümumi şəkildə rəhbər (rəhbərlik) tərəfindən müəyyən olunur və icra hakimiyyəti və bilavasitə xarici işər nazirliyi tərəfindən həyata keçirilir. İran İslam Respublikasında icra hakimiyyətindən əlavə, ölkədə dinin və din biliciləri hesab edilən ruhanilərin ali hakimiyyətini daxili və xarici təhdidlərdən qorumaq üçün təşkil edilən İslam İnqilabı Keşikçiləri Korpusuna (İİKK) Əsas qanuna əsasən İslam inqilabı ixracı missiyası (xarici siyasətin xüsusi beynəlxalq hüquqa zidd olan digər ölkələrin və ilk növbədə, müsəlman ölkələrinin daxili işlərinə qarışmaq) həvalə edilmişdir. İcra hakimiyyətindən əlavə, İİKK-ın da xarici siyasət funksiyası yerinə yetirməsi apriori olaraq xarici siyasətin ziddiyyətli xarakter daşıyacağını şərtləndirir. Həmin ziddiyyəti İİR-in müsəlman ölkələri, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərində tez-tez uzun və qısamüddətli gərginliklərin yaranmasında müşahidə etmək olar. İİR-ın daxili və xarici siyasətinə, Cənubi Qafqaz regionundakı siyasətinə, o cümlədən keçmiş Azərbaycan-

Ermənistan, Dağlıq Qarabağ münaqişəsi və Vətən müharibəsindəki, eyni zamanda ondan sonrakı dövrdə regionda siyasətinə aid ən operativ məlumatı, qeyd edildiyi kimi, kütləvi informasiya vasitələrindən əldə etmək olar.

Kütləvi informasiya vasitələrinə diqqət yetirmək həm də ona görə vacibdir ki, İran İslam Respublikasında xarici siyasət sahəsində, hər bir ölkədə olduğu kimi, iyerarxik olsa da, bir neçə qərarvermə mərkəzi fəaliyyət göstərir. İran üçün xarakterik cəhət xarici siyasətin bütün dünyada qəbul olunmuş ənənəvi vasitələrdən əlavə, həm də açıq şəkildə hərbi-ideoloji qurumlar tərəfindən həyata keçirilməsidir. Ona görə həmin mərkəzlərin maraqlarının toqquşması təbiidir. Bütün bu deyilənlər hər birinin malik olduğu, təsir göstərdiyi  çoxsaylı kütləvi informasiya orqanlarının fəaliyyətində aydın şəkildə özünü göstərir.

## İRANIN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

İranda kütləvi informasiya – yazılı və elektron, audio və video şəbəkəsi çox genişdir.

Belə ki, ölkədə 30-a yaxın ümum-İran xəbər agentliyi, 20 daxili, 20 xaricilər üçün, 31 ostan telekanalı fəaliyyət göstərir və 50 dən çox ümum-İran qəzeti çap olunur.

İran ostanlarında\vilayətlərində 6948 adda çap məhsulu – qəzet və jurnal, ondan bir qədər az – 4720 adda elektron informasiya (onlayn və oflayn qəzet və jurnal) vasitələri fəaliyyət göstərir.

Bundan əlavə, hər bir mərkəzi və yerli idarə, qurum, təşkilatın və s. öz saytı fəaliyyət göstərir.

Bunların hamısını nəzərdən keçirmək imkan xaricində və lazımsız olduğundan bizim mövzumuzla bağlı cəmi bir neçə mərkəzi və nüfuzlu xəbər agentliyinin yayımladığı materiallarla tanış olmaq kifayət edir, çünki haqqında bəhs edilən mövzu ilə bağlı xəbərlər təkrar edilir, yalnız hadisələr haqqında analitik yazılar, müsahibə və şərh xarakterli yazılar bir-birindən fərqlənir. Bu da agentliyin məxsus olduğu dövlət və qeyri-dövlət qurumunun mövqeyi ilə bağlıdır.

İran İslam Respublikasının haqqında danışılan keçmiş münaqişəyə münasibəti və münaqişənin özü artıq elmi araşdırmaların mövzusu olduğundan və həmin sahədə çoxsaylı müxtəlif həcmli elmi əsərlər meydana gəldiyindən biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli (1994-2020) mərhələsinin qısamüddətli aktiv və artıq regionda və Azərbaycan və Ermənistan arasında qüvvələr balansının Azərbaycanın xeyrinə dəyişdiyini, eyni zamanda Azərbaycanın işğal olunmuş öz ərazilərini hərbi yolla azad etməyə qadir olduğunu nümayiş etdirən 4 günlük müharibə (1-5 aprel 2016) və Tovuz döyüşəri (12-16 iyul 2022) adlanan mərhələlərinin və 44 günlük qalibiyyətli Vətən müharibəsinin (27 sentyabr – 10 noyabr 2020)

gedişi və həmin ilin sonuna qədərki hadisələrin İran İslam Respublikasının kütləvi informasiya vasitələrində inikasını nəzərdən keçirməyi vacib hesab edirik.

Əvvəlcə qeyd etməyi lazım bilirik ki, 2016-cı il Dördgünlük müharibənin və ondan sonra İran İslam Respublikasında adı qeyd edilən keçmiş münaqişəyə münasibətin İranın kütləvi informasiya vasitələrində inikası haqqında həmin il yazılmış yazını burada nəzərə çatdırmağı zəruri hesab edirik. Təqdim edilən mətndə yuxarıdakı girişdə ifadə olunan fikirlərin təkrarına rast gəlinə bilər. Yazının 2016-cı ildə yazıldığını nəzərə alaraq orada dəyişiklik etməməyi qərara aldıq.

# I FƏSİL

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏN ƏVVƏLKİ DÖVR

## I. DÖRD GÜN: İKİ İRAN VƏ AZƏRBAYCAN

### 1. İRİMİQYASLI QISAMÜDDƏTLİ HƏRBİ ƏMƏLİYYAT

2016-cı ilin aprel ayının 1-dən 2-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələri Ermənistanın işğal etdiyi torpaqlarda hərbi təxribatının – təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin "ön mövqelərini sıradan çıxarmaq" planının – qarşısını alıb düşmənin "ön və dərinlikdə cəmləşən qüvvələrini …sıradan çıxararaq" onu həmin ərazilərdən qovmaq əməliyyatına başlamış, lakin xarici qüvvələrin təsiri və təzyiqi ilə artıq aprel ayının 3-də hərbi əməliyyatları birtərəfli qaydada dayandırmışdır. Bundan istifadə edən Ermənistan itirilmiş mövqelərini geri qaytarmağa cəhd göstərsə də, daha güclü zərbə alaraq hərbi əməliyyatları dayandırmağa məcbur olmuşdur. Bununla da artıq aprelin 5-də yenidən atəşkəs elan edilmişdir. Azərbaycan ilk iki gün və ya gün yarım ərzində xeyli ərazini düşməndən təmizləsə də, son nəticədə cəbhənin şimal və cənub istiqamətlərində bir neçə yüksəkliyi və bir kəndi əlində saxlamış və bütövlükdə ərazinin 5%-ni düşməndən təmizləmiş və düşmənin xeyli sayda canlı qüvvəsini və xüsusən də hərbi texnikasını məhv etmişdir.

Bununla da 1994-cü ildən indiyə kimi düşmənlə silahlı toqquşmalarda ilk və çox mühüm uğur əldə etmişdir.

## 2. ERMƏNİ MİLLƏTÇİLƏRİNİN XƏSTƏ TƏXƏYYÜLÜ ERMƏNİLƏRİN BƏDBƏXTLİYİNİN VƏ QONŞULARININ BAŞAĞRILARININ MƏNBƏYİDİR

Məlum olduğu kimi, özlərinə dövlət qurmaq və onu "dənizdən-dənizə" qədər çatdırmaq xülyası ilə yaşayan erməni millətçiləri beynəlxalq həyatda meydana gələn dəyişikliklərdən istifadə edərək, həm millətçilərin zorakılıq üsullarını qəbul etməyən dinc erməni əhalisinə, həm də əsrlərlə birgə və qonşu olaraq yaşadıqları qeyri-erməni dinc sakinlərə qarşı vəhşiliklər, soyqırımı törətməklə öz planlarını həyata keçirməyə təşəbbüslər etmiş və hər dəfə də layiqli cəzalarını almışlar. Bir tərəfdən onlardan alət kimi istifadə edən qüvvələr öz məqsədlərinə nail olduqdan sonra erməni millətçilərini taleyin ixtiyarına buraxır, digər tərəfdən zorakılıq və soyqırımı tətbiq etdiyi əhalinin ciddi müqaviməti ilə üzləşirdilər. Lakin öz tarixi təcrübələrindən ibrət dərsi almayan erməni millətçiləri qonşularla düşmənçilik münasibətlərinin yaranması və dərinləşməsinə yönəlmiş sərsəm ideyalarını həyata keçirmək cəhdlərindən imtina etməmişlər. Erməni millətçiləri üçün yeni belə bir fürsət iqtisadi baxımdan çökməkdə olan SSRİ-nin dirçəldilməsinə yönəlmiş və 1985-ci ildən yeni Baş katib tərəfindən "yenidənqurma və aşkarlıq" adlandırılan yeni siyasi kursun elan edilməsi ilə yarandı. SSRİ-nin iqtisadi problemlərini siyasi islahatlar yolu ilə həll etmək ideyasının tamamilə əsasız və kökündən yanlış olduğu dərhal meydana çıxdı və hakimiyyətə can atan siyasi qüvvələr siyasi stabilliyi tamamilə zəiflədərək iqtisadi problemlərin həllini arxa plana keçirdilər. Keçmiş SSRİ məkanında indiyə kimi nəzarətdə, həm də bir çox hallarda ciddi nəzarətdə olan milli, dini, liberal, mühafizəkar və s. qüvvələr geniş fəaliyyət imkanı qazandılar. SSRİ Sov.KP Mərkəzi Komitəsində və Baş katibin ətrafında toplanmış yüksək vəzifəli erməni məmurlar həmin tarixi mərhələdə bir kommunist kimi deyil, sırf millətçi kimi çıxış edərək artıq 1987-ci ildə Azərbaycan Respublikasının

Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana verilməsi uğrunda ideoloji kampaniyaya başladılar və Ermənistanda cəmləşmiş millətçilərin aktiv fəaliyyətə keçməsi üçün işarə vermiş oldular. SSRİ mərkəzi hakimiyyəti vaxtında lazımi tədbirlər görə bilmədiyindən və əslində, oradakı müəyyən dağıdıcı qüvvələrin səyi ilə görmədiyindən kiçik bir vilayətdə, SSRİ-nin 1\6000-də aşkarlıq, demokratiya, yenidənqurma pərdəsi altında millətçilik hərəkətlərindən antisovet qüvvələr geniş şəkildə istifadə etməyə başladılar və həmin hadisə SSRİ kimi super dövlətin çökməsinin səbəblərindən biri kimi çıxış etdi. 1988-ci ildən başlayaraq dünyanın hərbi cəhətdən ən qüdrətli dövləti olan SSRİ-də ermənilərin azərbaycanlılara qarşı hərbi təcavüzü başlandı və həmin dövlətin süqutu ilə iki respublika arasında irimiqyaslı müharibəyə çevrildi. SSRİ-nin dağılmasının əsas subyekti olan Rusiya Federasiyası Cənubi Qafqazda öz mövqelərini itirməkdən qorxuya düşərək müharibənin davam etməsi məqsədilə gah bu, gah digər tərəfə yardım edirdi. Lakin Azərbaycan Respublikasında siyasətdən uzaq qüvvələr hakimiyyətə gələrək açıq anti-Rusiya mövqeyi nümayiş etdirdikləri zaman Rusiya Ermənistanı dəstəkləyərək Azərbaycan ərazilərinin 20%-nin işğal olunmasına yardım etdi. Lakin münaqişənin birdəfəlik həllində maraqlı olmayan Rusiya 1994-cü ildə atəşkəsə və münaqişənin dondurulmasına nail oldu.

SSRİ-də yenidənqurma və aşkarlıq kursunun öz mənfi təsirlərini getdikcə daha aşkar göstərdiyi, artıq Ermənistanın Azərbaycana qarşı təcavüzü başlanan və genişlənən zaman İran İslam Respublikası beynəlxalq ictimaiyyətin təzyiqi və ABŞ-ın İrana qarşı birbaşa hərbi əməliyyatlara başlaması nəticəsində 8 illik İran-İraq müharibəsində atəşkəs elan olunmasına razılıq verməyə məcbur oldu (1988). Müharibə illərində Qərb dünyası və bəzi hallarda Şərq bloku tərəfindən də təcrid olunan İran beynəlxalq münasibətlərdə özü üçün yaranmış vəziyyəti dəyişmək məcburiyyətində idi. Bunu İranın daxilində yaranmış yeni siyasi vəziyyət – inqilab lideri Xomeyninin ölümü, yeni liderin seçilməsi, əvvəlcə parlament, sonra prezident seçkilərindən sonra hakimiyyətə gələn keçmiş inqilabçı qüvvələr yeni daxili və xarici siyasət kursu elan

edib həyata keçirməyə başladılar. İran İslam Respublikasının xarici siyasət kursu mövcud beynəlxalq təcrid vəziyyətindən çıxmaq vəzifəsinə xidmət edirdi və "bütün dövlətlərlə münasibətlərin normallaşdırılması kursu" adlanırdı. Həmin kursu həyata keçirmək əzmini nümayiş etdirmək üçün ən yaxşı fürsət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi idi. Münaqişənin birinci mərhələsi SSRİ daxilində getdiyindən İran həmin münaqişə ilə bağlı heç bir mövqe bildirmir və təbii olaraq, onu SSRİ-nin daxil məsələsi hesab edirdi. Bununla yanaşı, aşkarlıq və yenidənqurma kursunun yaratdığı şəraitdən istifadə edərək dini təbliğatı gücləndirir, dini qüvvələri təşkil etməyə xüsusi diqqət yetirirdi. SSRİ-nin dağılması və İranın şimal sərhədlərində biri digərinə təcavüz edən iki yeni dövlətin öz müstəqilliyini bərpa etməsi və daha genişmiqyaslı müharibə mərhələsinə keçməsi İran İslam Respublikasını öz milli maraqlarını təmin etməyə yönəlmiş siyasət yeritməyə məcbur edirdi. İran digər dövlətlər kimi SSRİ-nin belə asanlıqla dağılacağını gözləmədiyindən öz müstəqilliklərini bərpa etmiş dövlətləri tanımaqda bir qədər tərəddüd etsə də, onları tanıdığını elan etdi və dərhal da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən öz beynəlxalq mövqeyini bir qədər yaxşılaşdırmaq üçün istifadə etməyə başladı. Azərbaycan Respublikasının hakimiyyətində müəyyən İran meyilli qüvvələrin olmasından istifadə edərək həmin respublika ilə yaxınlaşmağa və münaqişənin həllində vasitəçilik missiyası yerinə yetirməyə başladı. İran həmin vaxt Azərbaycanda islamçı qüvvələrin hakimiyyətə gələ biləcəyini güman edərək öz mövqeyini möhkəmlətmək üçün geniş fəaliyyət göstərməyə səy edirdi. Bu məqsədinə, demək olar ki, xeyli yaxınlaşdığı zaman, yəni 1992-ci ilin may ayının 8-də Tehranda Azərbaycan və Ermənistan rəhbərlərinin atəşkəs sazişi imzalaması zamanı Rusiya öz mövqelərinin zəifləməsindən qorxuya düşərək hərbi əməliyyatların davam etdirilməsinə qərar verdi və həmin gün Şuşa şəhəri ermənilər tərəfindən işğal olundu. Bununla da İranın münaqişənin həllində müstəqil rol oynamaq səyinə son qoyuldu. Həmin hadisələr Azərbaycanda hakimiyyət

böhranı yaratdı və iranyönümlü qüvvələrin hakimiyyətdən kənarlaşması və türkiyəyönümlü qüvvələrin (AXC) hakimiyyətə gəlişi ilə nəticələndi. Bundan sonra İran-Azərbaycan münasibətlərində gərginlik və İranın münaqişəyə münasibətində yeni mərhələnin – Ermənistanı dəstəkləmək mərhələsinin, başlanğıcı qoyuldu. Hadisələrin gedişinə heç bir təsir göstərə bilməyən İran müharibə alovlarının öz ərazisinə keçməsinin və hərbi əməliyyatların nəticələrinin daxili siyasi-ictimai proseslərə təsirinin qarşısının alınmasına yönəldi. Öz ərazisində siyasi və geosiyasi mülahizələrə görə milyonlarla əfqan qaçqınına sığınacaq vermiş İran onun ərazisinə qaçmış azsaylı azərbaycanlını dərhal Azərbaycan ərazisinə keçirmiş, onlara və digər müharibə qaçqınlarına Azərbaycan ərazisində humanitar yardım təşkil etmişdir. Bundan sonra İran müharibə tərəflərinə müxtəlif xarakterli yardımlar göstərərək onun uzanmasına şərait yaratmış və həmin siyasətini atəşkəs elan olunana qədər davam etdirmişdir.

Yenidən hakimiyyətə qayıdan görkəmli siyasi xadim Heydər Əliyevin səyi ilə iki ölkə arasında münasibətlər normallaşdırılmış və münasibətlərdə yeni mərhələnin – əməkdaşlıq və qardaşlığın əsası qoyulmuşdur. Atəşkəsdən sonrakı dövrdə İran İslam Respublikası Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıdığını və münaqişənin sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu dəfələrlə müxtəlif səviyyələrdə bəyan etmişdir. Eyni zamanda Ermənistanı təcavüzkar kimi tanımamış, işğalçı qüvvələrin işğal olunmuş ərazilərdən çıxmasını tələb etməmiş, Ermənistanla əməkdaşlığı genişləndirmiş və müxtəlif təyinatlı ittifaqlar təşkil etmişdir. Məhz belə bir şəraitdə Azərbaycan Respublikası Rusiyanı, İranı və regionda maraqları olan bütün dövlətləri qane edən status-kvonu dəyişmək əzmində olduğunu nümayiş etdirmiş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyinə diqqəti çəkmişdir.

## 3. DÜNYA, REGİON DÖVLƏTLƏRİ VƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN YENİ HƏRBİ MÜNAQİŞƏYƏ MÜNASİBƏTİ

2016-cı ilin aprel ayının əvvəlində yeni hərbi münaqişənin başlanması və davam etməsi xəbəri yayılandan dərhal sonra region, qonşu, böyük dövlətlər, regional və beynəlxalq təşkilatlar münaqişəyə münasibət bildirməyə başladılar. Bu barədə daxili və xarici KİV-də kifayət qədər məlumat yayıldığından onları təkrar etməyə ehtiyac yoxdur. Yalnız bir daha onu təkrar etmək gərəkdir ki, Belarus Respublikası, Pakistan İslam Respublikası, Türkiyə Respublikası və İslam Əməkdaşıq Təşkilatı Azərbaycanın ədalətli mövqeyini dəstəkləmiş, məsələnin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına tərəfdar olduqlarını bir daha bəyan etmişlər. Bütün qalan dövlət və təşkilatlar hərbi qarşıdurmanın dayandırılmasına və məsələnin sülh yolu ilə həll edilməsinə çağırışlar etmişlər. Belə ölkələrdən biri də cənub qonşumuz İran İslam Respublikası olmuşdur.

## 4. İRAN İSLAM RESPUBLİKASININ YENİ ERMƏNİSTAN HƏRBİ MÜNAQİŞƏSİNƏ MÜNASİBƏTİ

Biz Dördgünlük müharibə günləri və ondan sonrakı təqribən bir ay ərzində İran İslam Respublikasının və orada mövcud olan müxtəlif siyasi qüvvələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində mövqeyini İran kütləvi informasiya vasitələrinin internet resursları əsasında müəyyən etməyə çalışmışıq. Belə hesab edirik ki, məsələyə belə geniş yanaşma İran İslam Respublikasının haqqında danışılan münaqişəyə həqiqi münasibətini müəyyən etməyə, eləcə də onun dəyişə bilmək ehtimalını üzə çıxarmağa yardım göstərə bilər. İran İslam Respublikası siyasi sistemin mahiyyətinə uyğun olaraq ictimai fikrin bütün sahələrində gedən proseslərə, eləcə də onların ötürülməsi və mübadiləsi vasitələrinə ciddi nəzarət etsə də, siyasi sistem çərçivəsində və qeyd

edilən hərtərəfli nəzarət şəraitində müxtəlif internet resurslarının fəaliyyətinə imkan yaratdığından, biz onları şərti olaraq bir neçə qrupa ayıraraq nəzərdən keçirməyi vacib hesab edirik.

## 4.1. İran İslam Respublikasının rəsmi mövqeyi

Artıq aprel ayının 3-də İranın rəsmi KİV-də ölkənin Müdafiə nazirinin Ermənistan və Azərbaycan Müdafiə nazirlərinə zəng edərək onları atəşi dayandırmağa və təmkin göstərməyə çağırdığı geniş əksini tapmışdır. İran İslam Respublikası şimal sərhədi boyunca müharibə getdiyini görüb onun uzanacağını güman edərək dərhal həmin münaqişədə *bitərəf* mövqe tutduğunu elan etmişdir.

Belə ki, aprelin 4-də Parlamentin Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsində Ermənistan-Azərbaycan silahlı münaqişəsi müzakirə olunmuş, müzakirə zamanı Xarici İşlər Nazirliyinin nümayəndəsi münaqişə barəsində məlumat vermiş və elan etmişdir ki, İran həmin məsələdə *bitərəf* mövqe tutur. Komitənin sədr müavininin İran ərazisinə mərmi düşməsi barədə sualına cavab verərkən XİN nümayəndəsi hadisənin qəsdən törədilmədiyini bildirməklə kifayətlənib. Halbuki top mərmilərinin İrana Ermənistan tərəfindən atıldığı məlum idi. Həmin hadisə ilə bağlı digər məlumatda qeyd edilir ki, İran ərazisinə mərmi atıldıqdan sonra İranın Sərhəd Qoşunlarının komandanı hər iki ölkədən olan kolleqaları ilə əlaqə saxlayaraq onlara hadisənin təkrar olunmaması haqqında xəbərdarlıq etmiş və İranın öz ərazisini qorumaq sahəsində ciddi addımlar atacağını bildirmiş və guya onlar da belə halın təkrar olunacağına yol verməyəcəklərini öhdələrinə götürmüşlər. İranın həmin hədə-qorxusundan sonra Ermənistan tərəfdən İran ərazisinə daha bir top mərmisi atılmış və ciddi xəsarətə səbəb olmuşdur. Bu dəfə bitərəf İran hadisəyə heç bir münasibət bildirməmişdir.

### 4.1.1. Bitərəflik

İran İslam inqilabından əvvəl və sonra beynəlxalq aləmdə bitərəf siyasət yeritdiyini iddia etdiyindən ölkənin siyasi fikrində bitərəflik nəzəri cəhətdən ən çox araşdırılan mövzulardan biridir.

Bitərəflik əsasən iki yerə bölünür: passiv bitərəflik və aktiv bitərəflik. Passiv bitərəflik, yəni hər hansı bir müharibəyə müdaxilə etməmək və müharibə biznesi ilə məşğul olmaq. Fəal bitərəflik hər hansı bir şəkildə müharibə tərəflərindən kiməsə yardım göstərməyi qadağan etsə də, diplomatik və digər qeyri-hərbi sahədə haqlı və ədalətli tərəfin müdafiə olunmasını və təcavüzkarın pislənməsini qadağan etmir.

Bitərəfliyin bir mühüm cəhəti var, o da hərbi əməliyyatlar gedən zaman bitərəf ölkənin külli miqdarda gəlir əldə etmək imkanına malik olmasıdır. Yəni bitərəf ölkə əməldə başqaları arasında müharibənin davam etməsində maddi mənfəət baxımından maraqlıdır. Həmin ölkə özünün bir çox maraqlarının təmin olunmasına da nail olmaq imkanı əldə etmiş olur.

İranda ölkənin xarici siyasətini araşdırarkən bitərəflik əsasən bu iki cəhətdən nəzərdən keçirilir. Belə ki, İranın Pəhləvi rejimi zamanı xarici siyasəti asılı və passiv bitərəflik, İslam inqilabında sonra fəal\aktiv bitərəflik kimi dəyərləndirilir

Ona görə də İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tutduğu bitərəflik mövqeyinin xarakterini müəyyən etmək çox maraqlı olardı. İran siyasi fikrində İranın qeyd edilən münaqişədə tutduğu mövqe bitərəflik prizmasından dəyərləndirilməsə də, rəsmi açıqlamalarında bu barədə bir söz deyilməsə də, elə həmin açıqlamalar aydın şəkildə göstərir ki, İran həmin münaqişədə passiv bitərəflik mövqeyi tuturdu. Əgər Azərbaycanın 20 ildən çox müddətdə hərbi təcavüzə məruz qaldığını nəzərə alsaq, sonuncu hadisədə İranın bitərəflik, həm də növü göstərilməsə də, passiv bitərəflik elan etməsi Ermənistanın təcavüzkar siyasətini dəstəkləmək anlamına gəlir. İranın həmin mövqeyini hətta Azərbaycanın ərazi bütövlüyünü sözdə tanıması da əsaslı şəkildə dəyişmir.

İran İslam Respublikasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və xüsusən də son Dördgünlük müharibəyə münasibəti rəsmi və hakimiyyətin müxtəlif qollarına və strukturlarına yaxın KİV və internet resurslarında daha geniş şəkildə öz əksini tapır.

## 4.2. Hakimiyyətyönümlü kütləvi informasiya vasitələrinin mövqeyi

Biz aşağıda həmin informasiya mənbələri və ötürücülərinin bəzilərində rast gəlinən bir sıra materialları nəzərə çatdırmaq istəyirik.

02.04.2016-cı il tarixində www.gumpress.ir saytında "Qarabağda Azərbaycan Respublikası ilə Ermənistan arasında silahlı münaqişə" adlı yazı yerləşdirilibdir. Ermənistanın yaydığı xəbərlərlə başlayır. Yazı İranın tələbə xəbər agentliyinə – İSNA-ya, o da rus saytı olan "Sputnik"ə istinad edir. Burada Qarabağ ayrıca məkan kimi göstərilir və hər iki dövlətin həmin əraziyə iddia etdiyi kimi cəfəng bir fikir ifadə olunur.

03.04.2016-cı il tarixində İranın gənc jurnalistlər klubunun siyasi qrupunun müdafiə və təhlükəsizlik üzrə müxbiri Məhəmməd Zərçinin məlumat xarakterli "Qarabağ müharibəsi ilə regionda böhran dominosu tamamlanmış olur" adlı yazısı müxtəlif saytlarda yerləşdirilmişdir.

Bir çox yazılarda olduğu kimi, burada da Qarabağ ilə Dağlıq Qarabağ qəsdən bir-birinə qarışdırılır. Göstərilir ki, əksəriyyəti erməni olmaqla, **150 min** əhalisi və sahəsi **12 min** kvadrat kilometr olan **Qarabağ** SSRİ zamanı Azərbaycanın tərkibinə ***qatılmışdır***. [Əgər söhbət Qarabağ bölgəsindən gedirsə, onun əhalisi burada göstərilən qədər deyil və əksəriyyəti də erməni deyil, əksinə bu bölgənin əhalisinin tərkibində ermənilər heç 10% də təşkil etməmişlər].

İranın mövqeyindən danışarkən qeyd edilir ki, İran tərəfləri təmkinli olmağa dəvət edir. İran parlamentinin spikeri Əli Laricanı "Hər iki ölkə parlamentləri və hökumətlərini atəşi dayandırmağa və sakitlik bərqərar etməyə çağırıb. İran XİN də münaqişənin gərginləşməsindən narahatlıq keçirdiyini ifadə edərək, təcili olaraq münaqişəni dayandırmağa, səyləri sülhün bərqərar olması və münaqişənin Sülh və **BMT** qrupları çərçivəsində həllinə yönəltməyə çağırmışdır. Bu barədə danışan XİN sözçüsü yeganə yolun **ikitərəfli** müzakirələr olduğunu vurğulayır.

Eyni zamanda təəssüflə qeyd edilir ki, bəzi dövlətlər tərəfləri dəstəkləmək siyasəti seçmişlər. Belə dövlətlərdən biri **Türkiyədir** və açıq şəkildə Azərbaycanı dəstəklədiyini bəyan edir. Amma Türkiyənin mövqeyindən təəssüf hissi keçirən müəllif dəstəkləmək siyasəti yeridən digər ölkələrin adlarını çəkmir.

Göründüyü kimi, hərbi əməliyyatlar getdiyi vaxt İran rəsmiləri tərəfləri təmkinli olmağa, atəşi dayandırmağa çağırır və Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bəyan etmirlər. Məsələnin **BMT** çərçivəsində həll edilməsi məsələsi elə ifadə olunub ki, heç nə anlamaq olmur. Bilinmir ki, BMT Minsk qrupu nəzərdə tutulur, yoxsa hansısa sülh və BMT qrupları, məlum deyil. Türkiyənin Azərbaycana diplomatik və siyasi dəstək göstərməsindən müəllif və İranın niyə təəssüfləndiyinin səbəbi qaranlıq qalır.

Aydın olan odur ki, İran siyasi analitikləri münaqişə ilə bağlı yazılarında İran İslam Respublikasının xarici siyasət kursunun əsas prinsiplərini və əslində prinsipsizliyini – Qərbin regionda mövcudluğuna qarşı durmaq, onların rolunu azaltmaq və münaqişənin region dövlətlərinin iştirakı ilə həll edilməsinə nail olmaq siyasətini əsaslandırırlar. Amma göründüyü kimi, müəllif Türkiyənin öz mövqeyini açıq-aşkar bəyan etməsindən narahatlıq ifadə etsə də, münaqişənin həll edilməməsində ən maraqlı tərəf olan Ermənistana yalnız siyasi və diplomatik deyil, həm də hər cür hərbi və iqtisadi dəstək göstərən Rusiyanın adını çəkmir. Biz hələ müəllifin İranın da sözdə Azərbaycanı, əməldə isə Ermənistanı dəstəkləməsindən danışmadığını qeyd etmirik.

İranın rəsmi xəbər agentliyi İRNA "Əsre İran" xəbər portalında 6.04.2016-cı il tarixində yerləşdirilmiş İman Əhmədivəndin "Qarabağ münaqişəsi və İranın xarici siyasəti" adlı qeydlərini paylaşmışdır.

Yazıda göstərilir ki, **"Naqornı Qarabağ"** ***Cənubi Qafqazda*** bir bölgədir və Azərbaycan ərazisindədir. Müəllif terminlərin işlənməsində diqqətli olsa da, məsələnin mahiyyəti ilə bağlı tamamilə yeni baxış irəli sürür. Guya azərbaycanlılar çar Rusiyasının süqutundan sonra Türkiyəyə çıxış üçün Dağlıq Qarabağı ermənilərə verib əvəzində onlardan ərazi alaraq Naxçıvanla birləşib Türkiyəyə bilavasitə çıxış əldə etmək istəyirdilər ki, buna da ermənilər razı olmayıb.

Müəllif erməni-azərbaycanlı münaqişəsinin bəzi psixoloji və digər cəhətlərinə nəzər salıb Ermənistanın keçmiş prezidenti L.Ter-Petrosyanın problemin həllində vasitəçilərin mənfi rolu, artıq həmin problemin vasitəçilər arasında mübarizə meydanına çevrilməsi haqqında fikrini qeyd etdikdən sonra İranın mövqeyi haqqında mülahizələrini səsləndirir. O göstərir ki, İran sərhədləri boyu gərginliyin artmasında maraqlı deyil. Bununla belə, bölgədə NATO sülhməramlılarının yerləşdirilməsini də istəmir. Çünki onların burada mövcudluğu İranın narazılıq və narahatlıq mənbəyidir. İran üçün iki prinsip əsasdır.

### 4.2.1. Məsələnin sülh yolu ilə həll edilməsi

Danışıqlardan başqa digər həll yolu mövcud deyil, ona görə də **tərəflərin güc** tətbiq etmək **haqqı** yoxdur. [Burada təcavüzkar Ermənistanla təcavüzə məruz qalan Azərbaycan arasında heç bir fərq qoyulmur, ona görə də ədalətli müharibə anlayışının mövcud olduğu unudulur. Digər maraqlı cəhət həmin hüququn mənbəyi məsələsidir, bəlkə, bu haqqı İran vermir].

### 4.2.2. İranın regiondan kənarda yerləşən dövlətlərin vasitəçiliyinə qarşı olması

Müəllifin əqidəsinə görə, münaqişə kompleks şəkildə və aşağıda qeyd edilən prinsip əsasında həll edilməlidir: "Axıracan razılaşdırılmamış nə varsa, razılaşdırılmamış hesab edilir". Müəllif İranın münaqişəyə münasibətinin mahiyyətini belə bəyan edir: "Tərəflər qəbul edilə biləcək qərara gəlməyincə, **mövcud vəziyyətin\status-kvonun qorunub saxlanmasından** başqa digər rasional\ağlabatan yol yoxdur".

İranın Dağlıq Qarabağ siyasətinin ən önəmli cəhəti isə aşağıdakı cümlədə ifadə olunmuşdur: "Mövcud vəziyyətin\status-kvonun qorunub **saxlanması Tehran və İrəvanın ortaq mövqeyi**dir. İran Ermənistan və Azərbaycan silahlı qüvvələri arasında **tarazlığı**n saxlanmasında böyük rol oynamışdır. Hazırkı vəziyyət həmin qüvvələr balansına əsaslanır. Lakin İran bununla kifayətlənmir. **Nüvə problemi həll olunduqdan sonra İran özünün daha fəal, xüsusi rolunu oynayacaqdır**".

Burada İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqe aydın şəkildə bəyan edilmişdir. Həmin mövqeyin Ermənistanın mövqeyi ilə üst-üstə düşdüyü xüsusi vurğulanır.

6 aprel 2016-cı il tarixində www.siasatrooz.ir saytında "Zərif: İranın məqsədi Azərbaycan və Ermənistan münaqişəsinə son qoymaqdır" adlı yazı yerləşdirilmişdir. Yazı İran, Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin İranın Ramsar şəhərində aprelin 5-də keçirilmiş 4-cü üçtərəfli görüşünə həsr olunsa da, əsas yeri Ermənistan Silahlı Qüvvələrinin təxribatına Azərbaycan Silahlı Qüvvələrinin layiqli cavabı ilə bağlı yaranmış vəziyyətin şərhi tutur. Maraqlıdır ki, İranda rəsmi dairələrə yaxın şəxslər və qurumlar tərəfindən hazırlanmış az-az yazılardandır ki, obyektlər və hadisələr öz adları ilə adlandırılır. Birinci dəfədir ki, **atəşkəs rejiminin Rusiyanın razılığı\yaşıl işığı və himayəsi** ilə Ermənistan tərəfindən pozulduğu, silahlı münaqişənin Dağlıq Qarabağ ətrafındakı rayonlarda qoşunların təmas xəttində getdiyi, döyüşlər

zamanı əksəriyyəti ermənilər olmaqla, 100-dən çox hərbçinin həlak olduğu vurğulanır.

İranın nüvə probleminin həllindən sonra və onunla bağlı sanksiyaların aradan qaldırılması ilə yaranan yeni şəraitdə bu ölkə özünü daha inamlı hiss edir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində daha yaxından iştirak etmək istədiyini nümayiş etdirir. Yazıda bununla bağlı göstərilir ki, İran və Türkiyə münaqişə tərəfləri ilə adıçəkilən böhranın həll edilməsi və **işğal olunmuş Azərbaycan torpaqlarının qaytarılması** yollarının müəyyən edilməsi sahəsində məsləhətləşmələr apara bilərlər və Ramsar görüşü belə təşəbbüsün başlanğıcı ola bilər.

İranın vasitəçilik ideyasını vurğulaması 9 aprel 2016-cı il tarixində internet saytında (fardannews. com) yerləşdirilmiş yazıda ("İrandiplomasi"dən götürülmüş) bir qədər də inkişaf etdirilir. Yazının adı həmin iddianı əks etdirir: "**İran Qarabağ böhranını həll edə bilən yeganə dövlətdir**".

Yazıda İrana belə bir imkan yaradan bəzi amillər qeyd olunur:

1. İranın Ermənistanla ənənəvi olaraq yaxın münasibətləri var;

2. Azərbaycanla münasibətlər enişli-yoxuşlu olsa da, artıq yaxşılaşıb. Əsas məsələ odur ki, hər iki dövlətdən heç biri İranı özünün düşməni saymır;

3. Rusiya Ermənistanla hərbi müttəfiqdir, orada hərbi bazası var, Azərbaycanla da yaxın münasibətləri var və həmin ölkəyə silah satır və regionda xarici dövlətlərin mövcudluğuna qarşıdır;

4. Türkiyə qeyd-şərtsiz, daim Azərbaycanı dəstəkləyir.

İranın üstünlükləri nədən ibarətdir:

- **Ancaq İran** Cənubi Qafqazda sabitliyin yaranmasına çalışır;
- İran tərəflərdən heç birinə silah satmır;
- İran və Avropa İttifaqının son silahlı münaqişədə eyni mövqe tutması; yəni hər iki qurum münaqişə tərəflərindən atəşi dərhal dayandırmağı və atəşkəs rejiminə əməl etməyi tələb etdi. Aİ da İran kimi vaxtilə qəbul olunmuş sanksiyaya əsasən münaqişə tərəflərinə silah satmır.

Bütün bunlar yazı müəllifinə görə, İrana imkan yaradır ki, danışıqlar masası arxasında yer tutsun.

Yuxarıda qeyd edildiyi kimi, həmin yazıya İranın yeni şəraitdə yeni iddialarının inikası kimi baxmaq olar. Eyni zamanda İranın Cənubi Qafqazda aparıcı dövlət rolu oynamaq iddiasını reallaşdırmaq istiqamətində fəaliyyət göstərməsi böhranın həllinin tezləşməsi deyil, daha da çətinləşməsi demək olardı. İran guya Aİ-nin dəstəyi ilə regiondan Rusiya və Türkiyəni sıxışdıra bilər. Yazıda İran-Rusiya strateji əməkdaşlığı nədənsə unudulur, Türkiyəyə münasibətdə isə islam birliyi tezisi unudulur. Avropa İttifaqına gəldikdə həmin təşkilatın müəyyən mənada NATO-nun siyasi forması olduğu, indiyə kimi anti-Qərb idelogiyası və siyasəti yeridildiyi (Qərbin İranın qonşuluğunda mövcudluğuna qarşı mübarizə aparması) tamamilə unudulur və Aİ ilə müttəfiqlik ideyasına işarə edilir.

6 aprel 2016-cı il tarixində "roozannws.ir" saytında beynəlxalq məsələlər sahəsində Mərkəzi Asiya və Qafqaz üzrə **ekspert** doktor Şəib Bəhmənlə Dağlıq Qarabağ ətrafında son günlər cərəyan edən hadisələrlə bağlı müsahibə dərc edilmişdir. Saytın əməkdaşının suallarını cavablandıran mütəxəssis yuxarıda irəli sürülən iddiaların tamamilə əsassız olduğunu göstərir. O qeyd edir ki, hazırkı şəraitdə nə münaqişə tərəfləri, nə regionun əsas dövlətləri, nə də regionüstü güclər, o cümlədən Aİ İranın həmin münaqişədə müstəqil vasitəçi rolu oynamasına razı deyillər, ona görə də həmin sahədə İran heç bir rol oynaya bilməz. Silahlı münaqişənin davam etməsi İranın təhlükəsizliyi üçün ciddi təhdidlər yaratmaqla yanaşı, bir sıra iqtisadi və siyasi problemlər (qaçqınlar axını başlasa) yarada bilər, ona görə **İranın əsas vəzifəsi münaqişənin genişlənməsinin qarşısını almaqdır**. İran həmin məqsədinə ancaq fəal bitərəflik siyasəti – münaqişə tərəflərindən heç birini dəstəkləməmək və himayə etməmək yeritməklə nail ola bilər. Suallara cavab verərkən doktor maraqlı bir məqama toxunur. O da bundan ibarətdir ki, İranın münaqişəyə münasibətinin əsasında artıq mövcud olan **qüvvələr balansının pozulmasına yol verməmək** durur. Doktorun fikrinə görə, münaqişə ilə bağlı olan

bütün region və regionüstü iri dövlətlər məhz qüvvələr balansının pozulmasına yol verməmək siyasəti yeridirlər. Çünki münaqişədə tərəflərdən birinin qalib gəlməsi yaranmış balansın pozulmasına və regionda rəqabətin şiddətlənməsinə səbəb olacaqdır. Buna görə İran, əgər silahlı münaqişə **müharibəyə** çevrilərsə, onda vəziyyətdən asılı olaraq, yəni qüvvələr nisbətinin pozulmasının qarşısını almaq üçün **gah bu, gah da digər tərəfə hərbi yardım edə bilər**. Sualları cavablayan doktor qeyd edir ki, indiyə kimi bütün dövlətlər münaqişə tərəfləri ilə münasibətlərini həmin prinsip əsasında qurmuş və davam etdirmişlər.

Göründüyü kimi, doktor Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində böyük dövlətlər, regional güclər və İranın mövqeyinin onların bölgədə mövcudluğu və təsirlərini saxlamaq və gücləndirməkdən ibarət olan maraqlarından asılı olduğunu obyektiv şəkildə əks etdirmişdir. Müsahibə verən doktor ikinci müəllifdir ki, İranın münaqişəyə münasibətini örtüksüz-pərdəsiz, açıq şəkildə bəyan edir və həmin mövqeyinin digər ölkələr və güclərin mövqeyindən fərqlənmədiyini vurğulayır, hərçənd Türkiyənin tamamilə fərqli, sabit və həmişə bəyan edilən mövqeyindən ayrıca söz açmır.

İranın, beynəlxalq və regional güclərin qeyd edilən mövqeyi, çox güman ki, zorla münaqişə tərəfinə çevrilmiş Azərbaycanı öz ərazi bütövlüyünü bərpa etmək istiqamətində ciddi addımlar atmaqdan çəkindirməyə yönəlmiş mövqedir. Çünki dünyanın istənilən nöqtəsində baş verən hərbi-siyasi dəyişikliklər qüvvələr nisbətinin dəyişməsi deməkdir və demək olar ki, qarşısıalınmazdır, yəni tərəflərdən biri üstün gələ bilir. Həmçinin belə sual meydana gəlir ki, dünya dövlətləri XX əsrin 90-cı illərində niyə Cənubi Qafqazda yenicə formalaşmaqda olan qüvvələr balansının Ermənistanın xeyrinə dəyişməsinə imkan verdilər və nəinki imkan verdilər, həmçinin burada yeni bir müharibə ocağı yaratdılar. Amma indi qüvvələr balansının dəyişməsi təhlükəsindən danışılır və onun qorunmasının İran üçün əhəmiyyətindən söz açılır. Münaqişəyə həmin prizmadan yanaşmaq onun dondurulması və status-kvonun saxlanmasını müdafiə etmək deməkdir. Bu, ola bilər ki,

İranın maraqlarına cavab verir, lakin Azərbaycanın maraqlarına qətiyyən cavab vermir. Ona görə Azərbaycana qonşuların, böyük dövlətlərin mövqelərinin mahiyyətini bilmək vacibdir, lakin öz maraqlarını təmin etmək istiqamətində düşünülmüş siyasətini davam etdirməlidir. Artıq qeyd edildiyi kimi, beynəlxalq münasibətlər tarixi əslində qüvvələr balansının daim müsbət və mütərəqqi istiqamətdə, yəni iqtisadi, siyasi, mədəni əlaqələrin genişlənməsi yolundakı maneələri aradan qaldırmaq istiqamətində dəyişməsi tarixidir və hər mərhələnin sonunda yeni vəziyyət qeyd edilən sahələrin inkişafına yardım edirsə, hamı tərəfindən həvəslə qəbul edilir, yox əgər həmin yolda yeni maneələr yaradırsa, hamı tərəfindən rədd edilir və onun dəyişdirilməsi istiqamətində bəzən uzun sürən fəaliyyət başlanır. Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi Ermənistan-Azərbaycan qüvvələr nisbətinin dəyişməsi demək olacaqdır, lakin bu dəyişiklik Cənubi Qafqazda bütün sahələrdə əlaqələrin, eləcə də Cənubi Qafqazla bütün regionların və bütövlükdə dünyanın intensiv qarşılıqlı əlaqələr mərhələsinin başlanğıcı olacaqdır. Ona görə belə dəyişiklik regionun, dünyanın və deməli, tarixi tərəqqinin maraqlarına cavab verir, hərçənd ola bilər ki, bəzi dövlətlərin yaxın və qərəzli mövqeləri təmin edilməsin və bu da tamamilə təbiidir. Bütövlükdə haqq, ədalət və gələcəkyönümlülük Azərbaycanın tərəfindədir və qonşuların xəbərdarlığına ciddi əhəmiyyət vermədən öz məqsədinə doğru irəliləməkdə davam etməlidir. Uğur onun tərəfindədir.

Həmin müsahibə ilə bağlı bir cəhət də diqqəti daha çox cəlb edir. Göründüyü kimi, iranlı doktor artıq Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüquq normalarından danışmır, əksinə, İranın şərtləri sadalanır və məlum olur ki, münaqişə zonasında status-kvonun qorunub saxlanmasında hamıdan maraqlı tərəflərdən biri İrandır, deməli, indiyə kimi də Ermənistana həmin məsələdə dəstək göstərmişdir. Yəqin ki, İranın mövqeyini bundan aşkar bəyan etmək qeyri-mümkündür. İrandan kənarda çoxlarının illərlə dediklərini, nəhayət, İran nümayəndələri özləri etiraf etdilər. Onlar tərəflər arasında irimiqyaslı döyüşlər getdiyi zaman əsl mövqelərini gizlətməyə ehtiyac duymamışlar.

19.02.1395/07.04.2016-cı il tarixində İRİ R.Tv agentliyi öz saytında "Qarabağ münaqişəsinin tarixi: keçmişi və səbəbləri" adlı analitik yazı yerləşdirmişdir. Yazıya ön söz kimi "İndiyə kimi Qarabağ münaqişəsi ilə bağlı BMT TŞ 4 və AP 1 Qətnamə qəbul etmişdir" kimi çox vacib epiqraf verilmişdir.

Yazının əsas mətni tarixi ekskursla başlanır. Göstərilir ki, çar Rusiyası bolşeviklərə məğlub olduqdan sonra, **Naqornı** Qarabağ əvvəlcə özlərini müstəqil adlandıran Azərbaycan və Ermənistan respublikaları **arasında** iddia obyektinə çevrildi, sonra SSRİ sürətlə 1923-cü ildə (?! - V.M.) regionu öz **nəzarəti altına alaraq** onun adını "Naqornu Qarabağ ostanı" (?! - V.M.) qoydu və Azərbaycan bölgələrinin (mənateğ) nəzarəti altına **verdi**. 1988-ci ildə **Qarabağ** (?!-V.M.) elan etdi ki, Azərbaycanın bir hissəsi olmaq istəmir və 1988-ci ilin fevral ayında ermənilər (?!) tərəfindən **tutuldu**. 1991-ci ildə **Qarabağ** (?!) referendum keçirərək müstəqillik elan etdi. Onun özünü müstəqil elan etməsi (?!) 1991-ci ildən 1994-cü ilə qədər davam edən qanlı müharibəyə səbəb oldu. Bu iki ölkə (görəsən, nə nəzərdə tutulur, yəqin, Dağlıq Qarabağ demək istəyir, hələ ki, Ermənistanın adı çəkilmir) **1980-ci illərin əvvəllərindən** (?!) Qarabağ uğrunda **8** (?! - V.M.) dəfə vuruşdular və nəhayət 1994-cü ildə sınıq atəşkəsə nail olundu və atəşkəs hərdənbir pozulurdu. Növbəti dəfə bu iki ölkə 2 aprel 2016-cı il tarixində **münaqişə obyekti olan Qarabağ** uğrunda silahlı toqquşmanın başlandığını elan etdilər.

**Məsələnin keçmişi**

Qərəbağ və ya Qarabağ (Azərbaycan türkcəsində Qarabağ, ermənicə (erməni əlifbası ilə verilir və farsca təkrar olunur, Artsax)) Səfəvi zamanından başlayaraq **İranın** siyasi vahidlərindən biri idi və Gülüstan sülhü ilə çar Rusiyasına **verildi.**

**Sovetlər dövründə** Qarabağın **bir hissəsi** Azərbaycan SSR-ə birləşdi (?), Zəngəzur hissəsi Ermənistan SSR-ə verildi. Onun əhalisinin əksəriyyəti erməni olan dağlıq hissəsi muxtar vilayət adı ilə Azərbaycan SSR-in **nəzarəti altına** (? - V.M.) **keçdi**.

Nəhayət, sonrakı icmalda Azərbaycan ərazilərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən **işğal olunduğu** və Ermənistanla

atəşkəs razılaşması imzalandığı göstərilir. Yazıda deyilir ki, 1994-cü ildən bu yana daimi sülh əldə edilməsi və müharibədən əvvəlki vəziyyətin bərpa olunması istiqamətində addımlar atılmış, lakin onların heç biri məsələnin qəti həlli ilə nəticələnməmişdir. Yazıda qondarma respublikanın heç kim tərəfindən tanınmadığı göstərilir. BMT öz sənədlərində həmin ərazini Azərbaycanın tərkib hissəsi hesab edir və muxtar vilayət adlandırır. Yazıda cədvəl şəklində BMT TŞ 4 (822 – aprel, 1993; 853 – iyul, 1993; 879 – oktyabr və 884 – noyabr 1993) və AP (Strasburq, 2009) Qətnamələri haqqında məlumat verilir. Qətnamələrin qısa məzmunu verilərkən göstərilir ki, **BMT TŞ Qətnamələrində Beynəlxalq sərhədlərin dəyişdirilməsinin yolverilməz olması, zorla başqa dövlətin ərazisini işğal etməyin yolverilməz olması və işğalçı qüvvələrin dərhal Azərbaycan ərazilərindən çıxarılması tələbi (1;3) Azərbaycanın ərazi bütövlüyü və suverenliyi (2) vurğulanır. AP Qətnaməsində isə münaqişənin BMT TŞ Qətnamələri əsasında həll edilməsi vurğulanır.**

Sonra son hadisələrə müxtəlif dövlətlər və təşkilatların münasibəti haqqında icmal məlumat qeyd edilir.

Daha sonra münasibətlərin gərginləşməsinin səbəbləri haqqında iki mülahizə nəzərdən keçirilir.

1. ABŞ və Qərbin adından **Türkiyə** gərginliyin artması üçün məsuliyyət daşıyır. Qərbin regionda gərginliyi qızışdırmaqda Rusiyanı, İranı mühasirəyə almaq, **terroristləri** həmin regiona cəlb etmək, Suriyada Rusiya və İranın nailiyyətlərini heçə endirmək məqsədi, Türkiyənin PKK-ya qarşı mübarizədə Ermənistana təzyiq göstərmək səyi səbəblər kimi qeyd olunur.

2. Rusiya məsuliyyət daşıyır, çünki vurulmuş təyyarəyə görə heysiyyətini bərpa etmək, Suriya kürdlərinə görə Türkiyəyə təzyiq göstərmək və Krım məsələsində Aİ-na təzyiq göstərmək siyasəti səbəblər kimi göstərilir.

Bəziləri son silahlı toqquşmanın səbəblərindən biri kimi daxili narazılıqları kənara sıxışdırmaq istəyini qeyd edirlər.

Perspektivi

**Bəzi ekspertlər** vurğulayırlar ki, Qarabağ Azərbaycanın ondan ayrılmış tərkib hissədir və qaytarılmalıdır. BMT də Qarabağı Azərbaycanın ərazisi hesab edir. **Qaytarmaq ideyasını Türkiyə dəstəkləyir.**

Digər ekspertlər, məsələn, Karen Xanləri, İran parlamentinin erməni deputatı Qarabağ məsələsini kimlik məsələsi hesab edir və göstərir ki, Qarabağ (?-V.M.) **tarix boyu erməni kimliyinə malik olub (? - V.M.)** və etnik baxımdan Ermənistan ermənilərindən heç nə ilə fərqlənmir. Onun fikrincə, məsələni referendum yolu ilə, məntəqənin demoqrafik xüsusiyyətləri əsasında həll etmək olmaz. Məsələnin yeganə həll yolu Azərbaycan Respublikasının **mülkiyyət hüququnu (? - V.M.)** dərk etməsi və ədalətə əməl etməsidir

Azərbaycan Vaşinqtonda keçirilən Nüvə sammitinə **dəvət olunmadığından** (belə də ağ yalan olar? - V.M.) və ABŞ-ın Azərbaycanı insan hüquqlarına görə tənqidindən narazıdır. Digər tərəfdən, Azərbaycan İranın Qarabağ münaqişəsinin həllinə yardım göstərmək istəyini dəstəkləmişdir.

Ermənistan müzakirələrdə üstün mövqedə olduğu üçün mövcud vəziyyətin saxlanmasını istəyir. Ona görə də İranın vasitəçilik təklifi və planını **rədd etdi.**

"Hər necə olsa da, bu məsələ Azərbaycan Respublikası üçün bir **MİLLİ VƏ SİYASİ HEYSİYYƏT** məsələsinə çevrilmişdir".

Ermənilər üçün bu məsələ "**kimlik rəngi**" kəsb edib və **Qarabağı** heç cür əldən verməyə **razı ola bilməzlər**. Əgər qaytarsa, onda **Qarabağ** ermənilər üçün bir "kimlik kompleksinə" çeviriləcəkdir.

Görək bu "milli heysiyyət" və "kimlik böhranı" əvəzinə digər seçim təklif ediləcəkmi? Və ən əsası, həmin layihə işləyəcəkmi?

Göründüyü kimi, rəsmi və rəsmiyə yaxın saytlarda yerləşdirilən yazıların çoxundan nisbi neytrallığı (**qətnamələrin qısa icmalının verilməsi**) ilə fərqlənən həmin yazıda saxta tarixi ekskurs verilir, çünki Artsax adlı siyasi-ərazi vahidi tarixə məlum deyil. Azərbaycan dövlətlərinin tərkibində olan Qarabağ bəylər-

bəyliyi sonralar Qarabağ xanlığı ilə əvəz olunmuş və burada erməni inzibati-ərazi vahidi haqqında danışmaq artıqdır. Ermənistan Respublikasının təcavüzkar və təhrikedici siyasəti və əməllərinə baxmayaraq, Qarabağ Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi idi və eyni vəziyyət Azərbaycan Sovet Sosialist Respublikası təsis edildikdə də davam etmişdir. Ermənistan sovetləşdikdən sonra həmin məsələni qaldırdı və nəticədə ermənilərin də yaşadığı Dağlıq Qarabağa Muxtar vilayət statusu verildi. Yəni Dağlıq Qarabağ heç vaxt Ermənistan adlı ölkə və ya dövlətin (çünki belə dövlət olmamışdır) tərkibində olmamışdır, ermənilər də bu bölgədə heç vaxt əksəriyyət təşkil etməmişlər. Əslində Qarabağda ermənilərin nə vaxtsa mövcud olmasından danışmaq tarixi həqiqətləri təhrif etmək deməkdir. Qarabağda albanlar yaşamış və onların bir hissəsi xristianlıqda qalaraq erməni kilsəsinin əvvəlcə guya himayəsini hiss etmiş, lakin əslində erməniləşdirilməyə məruz qalmışlar. Erməni təzyiqi xristian albanların daha kütləvi şəkildə islamı qəbul etməsinə və nəticədə, erməniləşdirilmiş albanların demoqrafik vəziyyətində əsaslı dəyişikliyə səbəb olmuşdur. İndi isə ermənilər həmin siyasəti davam etdirərək albanların tarixi ərazilərinin bir hissəsinə sahib olmağa çalışırlar.

Yazıda nədənsə, İran tərəfinin mövqeyindən söz açılmır və üstüörtülü şəkildə ermənilərə haqq qazandırılır və müəyyən dərəcədə onların istəkləri əsaslandırılır, hərçənd ermənilərə istinad edilsə belə. Qəribədir ki, İranın dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığı və dəstəklədiyini bəyan etdiyi unudulur və burada nəzərə çatdırılmır. Son irimiqyaslı hərbi əməliyyatlar haqqında və hadisələrin sonrakı inkişaf perspektivi haqqında deyilənlərə müəllifin subyektiv mülahizələri kimi baxaraq onları dəyərləndirməyə ehtiyac görülmür. Hərçənd müəllif yazının əvvəlində verilmiş qətnamələrdən çıxış edərək münaqişənin həlli yolunun artıq müəyyən edildiyini vurğulamalı idi. Maraqlıdır ki, İranın erməni deputatının mövqeyi əks olunur, lakin nə şimali, nə də cənubi azərbaycanlı ekspertə istinad edilmir. İradları davam etdirmək olar.

Bunula belə mənzərənin daha dolğun olması üçün daha bir neçə materialı gözdən keçirmək faydasız olmazdı.

07.04.2016-cı il tarixində İran islam inqilabı mədəniyyət agentliyinin saytında (www.farhangnews.ir) "Qarabağ ətrafında münaqişənin davam etməsi ilə bağlı, **İranın ana torpağı (? - V.M.)** uğrunda silahlı toqquşmalar, Qafqazda münaqişə niyə başa çatmır?" adlı yazı yerləşdirilmişdir.

Yazıda göstərilir ki, Qafqaz o qədər də uzaq olmayan dövrə qədər **İranın siyasi və mədəni hakimiyyəti** altında idi, yalnız Qacar şahlarının bacarıqsızlığı üzündən İrandan ayrılıbdır.

[Burada İran hakimiyyəti anlayışı və Qacarların həmin məntəqəni verməsi ifadələri təkcə bu yazı üçün deyil, demək olar ki, İran tarixşünaslığı üçün ümumi bir müddəadır. Həmin ərazi İranın – fars etnosunun dövləti mənasında, ərazisi anlayışı yanlışdır. Qacarlar bölgəni Rusiyaya vermədilər, orada öz hakimiyyətlərini qura bilmədilər. Həm də həmin məsələdə Qacarları günahlandırmaqdansa, Zəndləri qınamaq lazımdır. Çünki həmin sülalə Səfəvilər dövlətini davam etdirmək və bərpa etmək iddiası ilə çıxış etsə də, onu bərpa edə bilmədi.]

Burada doğru qeyd edilir ki, indiyə kimi Qarabağın dağlıq hissəsi beynəlxalq birlik tərəfindən Azərbaycan Respublikasının tərkib hissəsi kimi tanınır. Eyni zamanda qeyd olunur ki, Qarabağ (?) müharibəsi Azərbaycanın cənub-qərbində yerləşən **Qarabağ** nahiyyəsində **əksəriyyəti (? - V.M.)** erməni olan və Ermənistan tərəfindən dəstəklənən **əhali** (? - V.M.) ilə Azərbaycan Respublikası arasında baş verdi. Daha sonra Azərbaycana iftira ilə deyilir ki, qarşıdurma gücləndikcə tərəflərin **hər biri** "nəzarəti altında olan ərazini digər etnosdan təmizləməyə" çalışdı. Müəllif göstərir ki, müharibə nəticəsində 30 min insanın həlak olması və bir milyon adamın qaçqın olması müharibə illərində **ermənilərin üstün** olduğunu göstərirdi.

Müəllif bundan əvvəlki müharibənin və indiki gərginliyin səbəbini **türk-erməni** gizli rəqabətində və onların bir-birinə tarixi nifrətində görür.

Müəllifin ümumiləşdirməsi son dərəcə qərəzli xarakter daşıyır.

[Məlum deyil ki, nəyin əsasında azərbaycanlıların ermənilərə tarixən nifrət etdikləri söylənir. Bunu İran türklərinin nümunəsində də araşdırmaq olar. Nifrət birtərəfli olub, ermənin türkə, nəinki qarşılıqlı.]

Yazıda doğru olaraq göstərilir ki, atəşkəsdən keçən 20 ildən çox bir zaman ərzində Azərbaycan heç vaxt öz qanuni hüququndan geri çəkilmədi və daim həmin bölgəni gələcəkdə geri alacağından danışdı.

Tarixdən danışarkən qeyd edilir ki, Səfəvilərdən başlayaraq Qarabağ **İranın** (?) inzibati-ərazi vahidlərindən biri olmuş, Qacarlar zamanı Rusiyaya **verilmiş (? - V.M.)** və SSRİ zamanı onun bir hissəsi (?) Azərbaycanın tərkibinə daxil edilmiş, bir hissəsi [yəni Zəngəzur] Ermənistana verilmiş, əhalisinin əksəriyyəti erməni olan dağlıq hissəsi isə Dağlıq Qarabağ Muxtar Vilayət adı ilə Azərbaycanın nəzarətinə keçmişdir (?).

Müəllif doğru olaraq, Rusiyanın cənuba doğru irəlilədiyi zamandan ermənilərdən istifadə etdiyini və Ermənistanın hazırkı müvəqqəti üstünlüyünün də Rusiyanın yardımı ilə bağlı olduğunu qeyd edir. Daha sonra göstərilir ki, Ermənistanın üstün mövqeyi, məsələnin siyasi yolla həll edilməməsi Azərbaycanı məcbur edir ki, hərbi vasitəyə əl atsın. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu barədə dəfələrlə xəbərdarlıq etmişdi.

Silahlı münaqişənin indi başlanmasının səbəbi a) Vaşinqtonla mehriban münasibətlərin olmasında; b) hərbi qüvvələr balansının Azərbaycanın xeyrinə dəyişməsində; c) regionda mövcud olan gərginlikdən istifadə edərək münaqişəni dini münaqişəyə çevirməkdə; d) ictimai fikri daxili problemlərdən yayındırmaq cəhdində axtarılır.

Yazıda İranın mövqeyi bir cümlə ilə verilir: "İran silahlı münaqişədən narahatdır".

Bütövlükdə götürülsə, yazı zahirən obyektiv, təsviri xarakter daşıyır, lakin mahiyyət etibarı ilə ermənipərəst mövqedən yanaşma nümayiş etdirilir. Çünki Qarabağın guya İrandan müharibə

nəticəsində Rusiyaya və SSRİ zamanı bir hissəsinin Azərbaycana verilməsi belə təsəvvür yaradılmasına xidmət edir ki, Azərbaycanın bölgəyə iddiası Ermənistandan daha əsaslı deyil. Bütün digər, zahirən doğru faktlar və mülahizələr həmin fikrin təsirini zəiflədə bilmir.

## 4.3. Özlərini müstəqil kimi təqdim edən ekspertlərin mövqeyi

03.04.2016-cı il tarixində İranın Azərbaycanda keçmiş səfiri, hazırda müstəqil siyasi şərhçi kimi fəaliyyət göstərən Əfşar Süleymaninin "Qarabağda atəş alovlarının ucalmasında Moskvanın izi" adlı yazısı müxtəlif saytlarda, bəzən dəyişik adlarla, yerləşdirilmişdir.

Müəllif atəşkəs rejiminin Ermənistan tərəfindən daha geniş miqyasda pozulduğunu və onun nəticəsində daha şiddətli silahlı toqquşmaya, daha çox insan itkisinə səbəb olduğunu vurğulayır.

Hərbi əməliyyatlar və Minsk qrupunun ona münasibətinə qısa nəzər salan müəllif qeyd edir ki, Azərbaycan torpaqlarının 20%-nin Ermənistan tərəfindən işğal olunmasında Rusiyanın həlledici rol oynadığı nəzərə alınsa, demək olar ki, atəşkəs rejimi Rusiyanın təhriki ilə Ermənistan tərəfindən pozulmuşdur. Həqiqətən də, Rusiya son 25 ildə Ermənistandan Azərbaycanın işğal olunmuş əraziləri və Dağlıq Qarabağ ermənilərindən Cənubi Qafqazda öz mövqeyini möhkəmlətmək üçün istifadə etmişdir. Müəllifə görə, Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda, Bakı-Ankara münasibətlərinin xarakterini nəzərə alan Rusiya münaqişənin yeni mərhələsinin arxasında durmaqla bir neçə məqsəd güdür:

1. Bakıya xatırlatmaq istəyir ki, Rusiya və Türkiyə arasında gərginlik yarananda Türkiyə tərəfə meyil etməsin.

2. Rusiya Suriyadan hərbi hava qüvvələrinin əksəriyyətini çıxardıqdan sonra Qərbə göstərmək istəyir ki, onun əlində Dağlıq Qarabağ rıçaqı vardır.

3. Rusiya Azərbaycana mesaj verir ki, Azərbaycan "Avrasiya təşkilatı"na üzv olsa, onda ərazilərinin bir hissəsinin işğaldan azad olmasına yardım edə bilər, əks halda, gərginliyi gücləndirməkdə davam edəcəkdir. Rusiya Azərbaycan-Qərb əməkdaşlığından narazıdır.

Rusiya postsovet məkanında böhranlar yaradaraq onlardan öz məqsədləri üçün istifadə edir. Əgər keçmiş sovet respublikaları Rusiyaya meyil etsələr, onda böhranları aradan qaldıra bilər.

4. Rusiya Ermənistandan Türkiyə əleyhinə istifadə edir və həmin məqsədlə Suriya erməniləri və PPK üzvlərini Dağlıq Qarabağda yerləşdirir.

Yazının sonunda müəllif proqnozlar verir:

1. Hərbi əməliyyatlar uzun sürə bilməz, çünki atəşkəs sazişinə görə münaqişə Minsk qrupu tərəfindən həll edilməlidir.

2. Böyük dövlətlər Azərbaycanın qalib gələrək torpaqlarını azad etməsinə imkan verməzlər, çünki burada onların hər birinin öz payı vardır.

3. Yeni şəraitdə ABŞ və Aİ bəyanatları deyil, əməli hərəkətləri daha mühüm əhəmiyyət kəsb edəcəkdir.

4. Azərbaycan-Türkiyə əlaqələrinin genişliyi və dərinliyi Azərbaycanın onu Rusiya ilə əvəz etməsinə əsas vermir. Türkiyə daim Azərbaycanı dəstəkləmiş və Ermənistanla sərhədləri açmaqdan imtina etmişdir.

Nəhayət, müəllif belə bir nəticəyə gəlir ki, Rusiya bütün səylərinə baxmayaraq, keçmiş Sovetlərə oxşar bir birlik yaratmağa nail ola bilməyəcək. Putinin yaratdığı "Avrasiya birliyi" də bir nəticə verməyəcək. Rusiyanın regionda mənfi hərəkətləri ona baha başa gəlir və gözlədiyi nəticəni əldə edə bilmir. Ona görə Rusiya məcburdur ki, regionda öz imkanları daxilində və daxili problemlərini nəzərə alaraq müsbət addımlar ataraq layiq olduğu paya malik olsun.

Əgər Rusiya dörd tərəfində – Ukrayna, Gürcüstan, Azərbaycanda, yandırdığı alovları ram etməsə, tezliklə həmin atəş onun ərazisinə keçəcəkdir və həmin ölkə üçün çox ağır nəticələr verəcəkdir.

Yazı ilə bağlı təkcə onu demək olar ki, İranda indiyə qədər münaqişə ilə bağlı yazılmış yazılar arasında ən obyektiv yazı hesab oluna bilərdi. Lakin müəllifin milli\vətəndaşlıq mənsubiyyəti həmin məsələdə İranın oynadığı mənfi rola toxunmağa imkan vermir. Rusiyanın Cənubi Qafqazda mövqeyinin güclü olması Ermənistandan deyil, İrandan asılıdır, çünki İran bölgədə Rusiyanın nüfuzunun artmasının onun milli maraqlarına cavab verdiyini, Türkiyənin isə vermədiyini hesab edir

### 4.4. Mütəxəssis və ekspert rəyləri

www.khabaronline.ir saytında 17 fərvərdin 1395\5 aprel 2016-cı il tarixində "Əmir Əhmədiyan cavab verir; Azərbaycan müqəssirdir, yoxsa Ermənistan" adlı müsahibə yerləşdirilmişdir. Saytın təqdimatına görə, Bəhram Əmir Əhmədiyan Mərkəzi Asiya və Qafqaz məsələləri üzrə İranın aparıcı mütəxəssisi, ekspertidir.

Suallara cavab verərkən məsələnin yaxın keçmişindən danışan doktor Əhmədiyan qeyd edir ki, Qarabağ SSRİ zamanı Azərbaycan torpağı idi. SSRİ dağılanda əhalisinin 79%-ni ermənilər təşkil edirdi (**Qarabağın?-V.M.**). Davam edərək deyir ki, 1988-ci ildən başlayaraq tərəflər arasında **bölgəyə nəzarət** (?-V.M.) üstündə silahlı qarşıdurma başladı və Ermənistan bölgəni işğal etdi. Həmin **məntəqə** (? - V.M.) müstəqillik elan etdi, lakin beynəlxalq birlik tərəfindən tanınmadı.

Son hadisələrdə Azərbaycanın mövqeyi ilə bağlı suala cavab verərkən doktor Əhmədiyan qeyd edir ki, Azərbaycan həmişə məsələnin həllinə maraq göstərib, lakin sonuncu addımı ilə, görünür, beynəlxalq birliyi sınağa çəkmək istəyir. Azərbaycan beynəlxalq birliyin həmin məsələyə həssaslığı və reaksiyasını ölçmək və bunun nəticəsində öz vəzifəsini müəyyən etmək istəyir. Əgər məsələni həll edə bilməsə, yanaşmasını dəyişmək və ya başqa bir yerə tapşırmaq haqqında düşünməyi müəyyən etmək istəyir.

Münaqişəyə Azərbaycanda münasibətlə bağlı suala cavab verərkən Əhmədiyan vurğulayır ki, Azərbaycan **qüdrətli ordu yarada bilib** və həmin ordunun əli ilə Dağlıq Qarabağı geri qaytarmağa ümid edir. İctimai rəy də bunu tələb edir, çünki belə sual ortaya çıxır ki, əgər torpaqları geri qaytarmaq məsələsi gündəmdə deyilsə, onda bu ordu və ona çəkilən xərclər nəyə lazımdır.

Ermənistanın siyasəti ilə bağlı suala cavab verərkən qeyd edir ki, onun fikrincə, [yeni hərbi təxribat] Rusiya ilə razılaşdırılmışdır, çünki Ermənistanın Rusiya ilə strateji əməkdaşlıq müqaviləsi var. Rusiyanın Ermənistanda hərbi bazası var, Rusiyanın Milli təhlükəsizlik doktrinasına əsasən, Rusiya və müttəfiqlərinə qarşı hər cür təhdid Rusiyanın fəaliyyətə keçməsinə səbəb olur, hətta silahdan istifadə hüququnu da özündə saxladığı vurğulanır. Digər tərəfdən, Rusiya ola bilər ki, Azərbaycanla əlaqələrini yenidən qurmaq istəyir.

"İndiki böhranda İran hansı mövqe tutmalıdır?" sualını cavablandırarkən doktor Əhmədiyan deyir: "Hər halda bizim Ermənistanla münasibətlərimiz daha yaxşıdır, amma tədbirlə hər iki tərəfi təmkinli olmağa dəvət etməyə səy etməliyik ki, atmosferi sakitliyə yönəldə bilək. ***Ermənistanla*** 40 km ortaq sərhədimiz var və Ermənistanın işğalında olan Qarabağda ***daha 80 km və cəmi 120 km***, nəticədə yəqin ki, ilk baxışda Ermənistanın bu münaqişədə uğuru bizim xeyrimizə ola bilər, lakin münaqişənin davam etməsi region ölkələrinin hamısının ziyanına olacaq. Türkiyə Azərbaycanı dəstəkləyir və bizim tərəfimizdən belə d a v r a n ı ş ı n **t ə k r a r ı** münaqişə və böhranın daha da mürəkkəbləşməsinə gətirib çıxara bilər".

Beynəlxalq birliyin səyi niyə nəticə vermir, sualına cavabda qeyd edilir ki, əhalinin **əksəri ermənidir** (? - V.M.). Bölgə Azərbaycanın bir hissəsi hesab olunur. Beynəlxalq birliyin səyləri nəticəsiz qalmış və o, defakto vəziyyəti tanıyır. Ermənistan məntəqəni geri qaytarmaq istəmir, Azərbaycan da mövcud vəziyyətin davam etməsini qəbul etmir.

Münaqişənin perspektivi barədə suala cavab verərkən doktor Əhmədiyan deyir: “Reallıq ondan ibarətdir ki, həmin böhran regional münaqişələrdə” kor ləkəyə” (blind spot) çevrilibdir. Tərəflərdən heç biri digərinin şərtlərini qəbul etməyə hazır deyil, macəra beləcə qalır. Nəticədə Qarabağ bölgəsinin aydın və konkret perspektivini təsəvvür etmək çətindir, yəqin ki, münaqişə hələ davam edəcək”.

Göründüyü kimi, müsahibə münaqişə davam etdiyi zaman götürülmüşdür. Yəni hadisələr davam etdiyi zaman ona münasibət bildirmək çox çətin olsa da, müsahibə verən məsələyə bütövlükdə obyektiv yanaşmağa səy göstərmişdir. Əgər müsahibədən sonra hazırlanan mətnə “lazımi” düzəlişlər edilməsə idi, onda doktor Əhmədiyanın mövqeyi haqqında daha ətraflı təsəvvürümüz olardı. Qeyd edildiyi kimi, doktor məsələyə bütövlükdə obyektiv və təbii ki, İranın mövqeyindən yanaşıbdır. Yəni müsahibənin əsas sualına birbaşa və aydın cavab verməmişdir. Bu da İranın rəsmi mövqeyinə – ərazi bütövlüyünü tanımaq (Azərbaycana münasibətdə), millətlərin öz müqəddəratını təyin etmək hüququnu tanımaq (Ermənistana münasibətdə) tam uyğundur. İranda bunun nəzəri əsasını, artıq dəfələrlə qeyd olunduğu kimi, ermənilərin Qarabağda (?) əksəriyyət təşkil etməsi və bölgənin nəzəri cəhətdən Azərbaycanın hesab edilməsində görürlər. Müsahibə verən də həmin mövqeyi bir daha vurğulayır. Doktorun Qarabağ ilə Dağlıq Qarabağı bir-birindən fərqləndirmədiyini iddia etmək gülünc olardı. Ona görə, onun Qarabağ bölgəsinin əhalisinin əksəriyyətinin erməni olduğunu deməsi də inandırıcı görünmür, bu “düzəliş”, yəqin ki, müsahibə nəşrə hazırlananda edilmişdir.

Haqqında danışılan müsahibədə indiyə qədər müşahidə edilməmiş bir yeniliyi xüsusi vurğulamaq lazımdır. İranın mövqeyindən danışarkən müəllif qeyd edir ki, İranın Ermənistanla daha yaxşı münasibətləri olması səbəbindən Ermənistanın bu münaqişədə uğurunun İranın xeyrinə olduğunu güman edirlər, çünki müştərək sərhəd xeyli artmış olur. İndiyə kimi nəzərdən keçirilən materiallarda İranın nadir hallarda ifadə olunan əsas mövqeyi “tərəflərdən heç birinin üstün gəlməməsi” kimi qeyd

olunur və daha çox vurğulanan isə bölgədə sülh və sakitliyin bərqərar olması və münaqişənin ədalətli şəkildə, dinc formada həllinə tərəfdarlıq göstərilir. İranda rəsmi səviyyədə Ermənistan işğalçı tərəf kimi göstərilmir və işğal olunmuş ərazilərin boşaldılması tələbi irəli sürülmür. Müsahibədə isə Ermənistanın qələbəsinin İranın xeyrinə olduğu düşünüldüyü göstərilir. Mətndə göstərildiyi kimi, İranın hansısa "davranışının təkrarı"nın doğru olmadığı vurğulanır. Redaktə zamanı hansısa ifadə, söz buraxıldığından cümlənin mənası aydın olmur. Aydın olan odur ki, İran, yaxud İranda hansısa qüvvələr, ola bilsin ki, Ermənistanı dəstəklədiklərini açıq şəkildə bəyan edibdir. Müsahibə verən İran tərəfindən belə davranışın təkrarının münaqişənin daha da mürəkkəbləşməsinə səbəb olacağını bəyan edir. Həmin "davranış" sözü altında nə başa düşüldüyü məlum olmur. Həmin müsahibə İranın münaqişə ilə bağlı mövqeyini düzgün dərk etmək və qiymətləndirmək baxımından çox maraqlıdır.

Onu da əlavə etmək olar ki, müsahibədə son müharibədə Azərbaycanın nəzərdə tutduğu məqsəd haqqında da maraqlı yanaşma özünü göstərir.

Bir daha qeyd etmək olar ki, həmin müsahibəni Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında nisbətən obyektiv yazılar sırasına aid etmək olar.

İranın www.armandaily.ir saytında **prof**. Cahangir Kəraminin 8.04.2016-cı il tarixində "**Türkiyə Regionda böhran yaratmaqla məşğuldur**" adlı yazısı yerləşdirilmişdir. Məzmunu və mahiyyəti adında əks olunan yazıda iddia edilir ki, atəşkəsi pozmaq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin **iradəsi xaricindədir**. Müəllifə görə, **Türkiyənin** məqsədi Rusiyanı Ermənistanı müdafiə etməyə məcbur etmək, bununla da Qərblə qarşıdurmanı gücləndirmək və Rusiyanın mövqeyini zəiflətməkdir.

Təəssüf ki, İranın əsas regional rəqibi olan Türkiyəni nüfuzdan salmağa çalışan müəllif İranın mövqeyi haqqında bir söz demir.

www.tnwes.ir saytında yerləşdirilmiş 5.05.2016-cı il tarixli "İranın münaqişənin həllinə hazır olması" başlıqlı yazıda İranın

Bakıdakı səfirinin çıxışından bəzi parçalar verilmişdir. Ən maraqlı cəhət həmin xəbərin "Azərtac"a istinadən verilməsidir. Bundan daha maraqlısı isə məlumatın "Azərtac"dan Bakıda yox, həmin agentliyin İranda xüsusi nümayəndəsindən alınmasıdır. Məlumat "Azərtac"ın həmin nümayəndəsinə istinadən verilir. Çox maraqlı bir vəziyyət yaranır, İran səfirinin sözləri hər yerdə baş olan İran agentliklərindən, XİN-in özündən, səfirlikdən deyil, hətta Bakıda deyil, Tehranda "Azərtac"ın nümayəndəsinə istinadən verilir, özü də, deyəsən, yerli və elə də tanınmış olmayan bir saytda yayılır. Hər halda, internetdə fars dilli saytlarda 05.05.2016-cı il tarixinin sonuna kimi həmin hadisəyə həsr olunmuş ayrıca xəbərə və məlumata rast gəlinmədi.

15 fərvərdin 1395\3aprel 2016-cı il tarixində "mazandməclis.ir" saytında Parlament xəbər agentliyindən\Xaneye mellət götürülmüş xırda qırmızı rəngli hərflərlə "Azərbaycan və Ermənistan müharibəyə başlamışlar" və iri qara hərflərlə isə "Köhnə Qarabağ yarası üzərinə Yaxın və Orta Şərq duzu" yazılmış başlıqlı material yerləşdirilmişdir.

Yazıda Qarabağ məntəqəsinin Azərbaycan-Ermənistan **sərhədində** yerləşdiyi qeyd edilir və sonra IX çağırış (2012 - V.2016) İran Parlamenti Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsi sədrinin müavini Ərdəbildən deputat, anti-Azərbaycan və antitürk mövqeyi ilə seçilən Mənsur Həqiqətpurun Parlament xəbər agentliyinə\Xaneye millətə dedikləri verilir. Deputat bildirir ki, münaqişə insan və maddi itkilərə səbəb olur, ona görə tezliklə onun genişlənməsinin qarşısı alınmalıdır. Münaqişə ancaq silah istehsalçıları üçün sərfəlidir, eyni zamanda regionun daxili işlərinə qarışmaq üçün şərait yaradır və heç kimin maraqlarına cavab vermir. Tehran münaqişədən narahatdır.

Daha sonra materialda maraqlı bir tezis irəli sürülür, qabağa gedərək deyə bilərik ki, alman və fransız dilindən tərcümə edilmiş eyni hadisə ilə bağlı yazılarda da həmin tezis xüsusi vurğulanır. Yazıda deyilir: "Bölgə haqqında onu demək lazımdır ki, **nəzəri cəhətdən** Azərbaycan torpağında yerləşsə də, əsas məsələ bundan

ibarətdir ki, **QARABAĞIN** (? ! - V.M.) əhalisinin **ƏKSƏRİYYƏTİNİ** (? - V.M.) ermənilər təşkil edirlər".

Agentliyin öz tərəfindən əlavə etdiyi dəqiqləşdirici, lakin tamamilə saxta və məkrli fikir ermənilərə haqq qazandırmaq məqsədi güdür. Yazı müəllifi bir şeyi unudur ki, İranda əhalisinin əksəriyyəti fars olmayan çox bölgələr vardır.

Bütövlükdə isə onu demək olar ki, parlamentin deputatı üçün Ermənistanın təcavüzkar olması, başqa ölkənin ərazisinin işğal olunmasının heç bir əhəmiyyəti yoxdur, onun üçün vacib olan qonşuluqda sakitliyin olmasıdır. Parlamentin Xarici Siyasət və Milli Təhlükəsizlik Komitəsinin sədr müavininin mövqeyi İran İslam Respublikasının haqqında danışılan münaqişədə tutduğu mövqeyin ən sadə formada bəyan edilməsidir.

4 aprel 2016-cı il tarixində saytlardan birində (www.khordadnwes.ir) müəllifi göstərilməyən "İran, Rusiya və Türkiyə "Qarabağ" böhranında hansı rola malikdirlər" adlı yazı yerləşdirilmişdir. Yazının adının yuxarısında kiçik hərflərlə yazılmışdır "Azərbaycan Respublikası ilə Ermənistan arasında **sərhəd (?!- V.M.)** gərginliyinin şiddətləndiyi bir vaxtda".

Münaqişədə Rusiyanın rolundan danışan müəllif coğrafiya və siyasi coğrafiya elmindən kasıb olduğunu nümayiş etdirərək **Rusiyanın Ermənistanla həmsərhəd** olduğunu və Ermənistanı müdafiə etdiyini yazır. Türkiyəyə gəlincə, həmin ölkə Azərbaycanla dil birliyinə, onunla geniş siyasi, diplomatik və iqtisadi əlaqələrə malik olduğundan Azərbaycanı dəstəkləyir. Ona görə də İranın vasitəçilik missiyası özünü daha qabarıq göstərir. Çünki İran həmin münaqişədə **bilavasitə iştirak etmir** və digər tərəfdən İran hər iki dövlətin **tarixi vətənidir (? - V.M.).** İranın fikrincə, məsələnin **hərbi həlli yoxdur** və İİR regiondan kənar dövlətlərin məsələnin həllində iştirakına qarşı çıxır. İran belə hesab edir ki, yalnız regional dövlətlər vasitəçi ola bilərlər. İranın mövqeyi ondan ibarətdir ki, "Tərəflər hər iki tərəfi qane edən razılaşma paketinə nail olana qədər regionda sülhü təmin etməyin, mövcud **vəziyyətin qorunub saxlanmasından** başqa bir ağlabatan həll yolu

yoxdur. Bu təkcə İranın deyil, həm də **Tehranla İrəvanın ümumi** mövqeyidir".

Beləliklə, müəllif İranın ermənipərəst mövqeyə malik olduğunu aydın şəkildə bəyan edir. İranın mövqeyi Ermənistanın mövqeyi ilə üst-üstə düşür və hər iki tərəf status-kvonun davam etməsinin tərəfdarıdır. Belə olan halda, İranın tərəflər arasında danışıqlara qoşulmasının Azərbaycan üçün hansı nəticələr verə biləcəyi haqda heç bir şübhə yeri qalmır.

Məlum olduğu kimi, 5 aprel 2016-cı il tarixində İranın Ramsar şəhərində İran İslam Respublikası, Azərbaycan Respublikası və Türkiyə Respublikası xarici işlər nazirlərinin 4-cü üçtərəfli görüşü keçirilmiş və əməkdaşlıq sənədlərinin imzalanması ilə yanaşı, Birgə bəyanat da qəbul olunmuşdur. İran xarici işlər nazirliyinin saytında (www.mfa.gov.ir) birgə bəyanatda yer alan mühüm cəhətlər qısa şəkildə sadalanır. Orada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı deyilir: "Azərbaycan-Ermənistan münaqişəsinin tezliklə dinc yolla və beynəlxalq hüquq əsasında həll edilməsi tələbi".

Burada münaqişə tərəflərinin adları qeyd edilərkən Azərbaycanın adının birinci yazıldığı və Dağlıq Qarabağ adının qeyd edilmədiyi, ərazi bütövlüyü prinsipinin göstərilmədiyi diqqətimizi çəkdiyindən Bəyannamənin Azərbaycan dilindəki variantına baxmalı olduq. Azərbaycan dilində həmin məsələ ilə bağlı hissə belədir: "Nazirlər regionda sülh və sabitliyin möhkəmləndirilməsində birgə maraqlarını vurğuladılar və bu xüsusda suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və bütün mübahisələrin dinc yolla nizamlanması da daxil olmaqla, beynəlxalq hüququn prinsiplərinə öhdəliklərini vurğuladılar;

- Bu xüsusda, yuxarıda qeyd olunmuş prinsiplər əsasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən qısa müddətdə həll olunmasının vacibliyini vurğuladılar".

Təəssüf ki, Bəyannamənin fars dilində mətni internetdə yerləşdirilmədiyindən orijinalda necə verildiyi haqqında fikir demək

çətin olsa da, yuxarıda qeyd edilən qısa xülasə əsasında da mülahizə yürütmək olar. Yəni münaqişəni başlayanın Azərbaycan olduğu ön plana çəkilir, münaqişənin obyekti göstərilmir və həll prinsipləri sırasında yalnız beynəlxalq hüquq qeyd olunur. İİR Xarici İşlər Nazirliyinin özünün imzaladığı sənədi bu cür təqdim etməsi, yuxarıda nəzərdən keçirilmiş bəzi yazılardakı mövqeyi aydın dərk etməyə əsaslı yardım edir.

Ona görə də İran ictimai, siyasi, elmi, publisistik fikrində haqqında danışılan münaqişəyə münasibət barədə yazıları nəzərdən keçirmək vacibdir.

İranda 2014-cü ilin yayından fəaliyyətə başlayan və əsasən islahatçılardan təşkil olumuş "NEDAYE İRANİYAN" (İranlıların səsi\çağırışı) partiyasının saytında (irneda.ir) Seyd Məhəmməd Sadeq Xərrazi tərəfindən əsası qoyulmuş və 2007-ci ilin martından fəaliyyətə başlayan İran diplomatiyası www.irdiplomasy.ir saytında 04.04.2016-cı il tarixində yerləşdirilmiş "Qarabağ saziş haqqına çevrilmişdir" (Qarabağ vəchəlmosalehe şode əst) adlı yazı verilmişdir.

Seyid Məhəmməd Sadiq Xərrazi 1989-1995-ci illərdə İranın BMT-də daimi nümayəndəsinin müavini və səfir, 2002-2006-cı illərdə Fransada səfir və 1997-2005-ci illərdə prezident olmuş Seyid Məhəmməd Xatəminin böyük müşaviri olmuşdur. 2014-cü ildən "Nedaye iraniyan" partiyasının sədridir. Onu da qeyd edək ki, əmisi Seyid Əlinəği (Kamal) Xərrazi 1989-1997-ci illərdə İranın BMT-də daimi nümayəndəsi və səfiri, 1997-2005-ci illərdə xarici işlər naziri olmuş və bacısı da İranın ali rəhbəri Xameneinin gəlinidir.

Materialın əsas başlığından yuxarıda kiçik hərflərlə yazılıb: "Azərbaycan və Ermənistan qərar qəbul edənlər deyil".

Yazıda **İran-Ermənistan Dostluq Cəmiyyətinin sədri** Məhəmməd Rza Dəmavəndinin məsələyə yanaşması öz əksini tapmışdır. [Əlbəttə, bu da təsadüfi deyil ki, həmin şəxsin fikirləri təqdim olunur.]

Təmas xəttində silahlı münaqişənin gərginliyi belə sual yaradır ki, hazırkı vəziyyətin səbəbi nədir? Bəzi mülahizələrə işarə

edən müəllif belə fikrə gəlir ki, hadisənin və qərarın mənbəyi azəri və ermənilərin səlahiyyətləri çərçivəsindən kənardadır. Hər iki tərəf icraçıdır, odur ki, Qarabağ razılaşma dəyərinə və ya haradasa, başqa bir yerdə müəyyən imtiyaz əldə etmək üçün oyun meydanına çevrilmişdir. Və müəllifin gəldiyi əsas nəticə belədir: "Qarabağ **problem** deyil və silahlı toqquşmanın\ döyüşlərin güclənməsi üçün **heç bir səbəb** də **yox** idi".

Digər məsələ, Minsk qrupudur, onun məsələni həll etməyə gücü yoxdur. Başqa bir məsələ ondan ibarətdir ki, gərək qəbul edək ki, əgər Azərbaycan və Ermənistan arasında Qarabağ ətrafında münaqişə həll edilməli olsa, **region daxilində və regional oyunçulara diqqət yetirməklə həll oluna bilər**. [Yəni biz qoymarıq ki, digərləri həll etsin.] Əgər kimsə, başqa regiondan və başqa prizmadan məsələyə müdaxilə edirsə, demək, onlar öz məqsədlərini güdürlər və onların məqsədi regionun maraqlarına uyğun olmayacaqdır. Həmin məsələ Minsk qrupunun məsələnin həllində uğursuzluğunun əsas səbəbidir. [Yəni biz qoymarıq ki, məsələ bizim istəmədiyimiz kimi həll olunsun.] ABŞ, Fransa və regiondan kənar digər ölkələrin maraqları regionda mövcud olan reallıqla ziddiyyət təşkil edir. Onlar indiyə kimi bir iş görə bilməmiş və görə də bilməzlər. Vəziyyət yenidən əvvəlki vəziyyətə qayıtmış olur və bunun sonu görünmür. Qarabağ böhranı yenidən və başqasının təşəbbüsü ilə təkrar ola bilər.

Göründüyü kimi, İran onun iştirakı olmadan məsələnin həllinə razı deyil və həmin istiqamətdə hansı addımlar atdığı bizə məlum deyil. Ən əsası odur ki, İran məsələyə münasibətdə öz mövqeyini bildirmir və digər vaxtlar dediyi sözləri – məsələnin sülh yolu ilə beynəlxalq hüquq normaları əsasında Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmasına tərəfdar olduğunu təkrar etmir. Bu o deməkdir ki, İran rəsmilərinin hərdənbir dedikləri həmin ifadələrə ciddi əhəmiyyət vermək olmaz. Çünki onlar söz olaraq qalır və istənilən vaxt onları dəyişmək olar, necə deyərlər, demişəm, deməmiş olum.

04.04.2016-cı il tarixində **doktor** Əlireza Rezaxahın “Xorasan” qəzetində dərc edilmiş yazısı “Qarabağın köhnə yarasının üstü niyə açıldı?” adlanır (http://www.tasnimnews.com)

Münaqişə haqqında məlumat verən müəllif qeyd edir ki, **Qarabağ** [bölgəsi] **nəzəri cəhətdən** Azərbaycan ərazisində olsa da, **əksəriyyət** əhalisi **ermənilərdir**. **Qarabağ** 1991-ci ildə müstəqillik elan etdi və həmin hadisə **qəflətən** Ermənistan ilə Azərbaycan arasında müharibəyə səbəb oldu. Müharibə nəticəsində yüz minlərlə insan qaçqına çevrildi. Guya **Qarabağın** təhlükəsizliyini **yarım hərbi** erməni dəstələri təmin edir.

Münaqişə tarixi və ərazi münaqişəsi hesab edilir. Münaqişənin yaranması səbəbləri qismində həmçinin Moskva və Ankara arasında, eyni zamanda Moskva və Vaşinqton arasında mübarizə də qeyd edilir. Müəllif xəbərdarlıq edir ki, münaqişənin uzanması terroristlərin bura axışmasına şərait yarada bilər.

Göründüyü kimi, **elmlər doktoru**nun yazısı sadə qəzetçinin yazısından heç nə ilə fərqlənmir və eyni müddəalar təkrar olunur. Ermənistanın böyük dövlətçilik xülyası qeyd olunmur. Bütün bunlar dolayısı ilə oxucuda Azərbaycana qarşı mənfi münasibət yaratmaq kimi çirkin məqsədə xidmət edir.

## 5. CƏNUBİ AZƏRBAYCANLILARIN MÖVQEYİ

### 5.1. Hakimiyyətdə təmsil olunanlar və hakimiyyətə yaxın olanlar

04.04.2016-cı il tarixində İranın bəzi internet saytlarında [http://tnews.ir/httpI//asrtabriz.ir-dən götürülüb, www.javanpress.ir Qərbi Azərbaycan saytıdır – bu iki Azərbaycan saytı İranın mövqeyi haqqında qeydlərə rəhbərin mövqeyini xatırlatmaqla başlayıblar] “İran İslam Respublikasının Qarabağda yeni silahlı münaqişə haqqında mövqeyi” adlı yazı yerləşdirilmişdir.

Yazıda deyilir ki, İranın Ali Lideri Qarabağın işğalı barəsində buyurur: “Qarabağ islam torpağıdır və İran İslam Respublikası

həmişə Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləmişdir və Qarabağ qaçqınlarının öz doğma yurd-yuvalarına qayıtmalarını tələb etmişdir".

Daha sonra İran Parlamentinin spikeri Ə.Laricanın dünən (03.04) parlament iclasından əvvəl hər iki ölkə parlamentlərinə və hökumətlərinə müraciət edərək onları atəşkəsi bərpa etmək və münaqişənin sülh yolu ilə həllinə dəstək göstərməyə dəvət etdiyi qeyd olunur.

İranın müdafiə nazirinin də hər iki ölkənin müdafiə nazirləri ilə telefon əlaqəsi yaradaraq onları atəşi dayandırmağa və məsələni danışıqlar yolu ilə həll etməyə çağırdığı və İran XİN-nin də eyni mövqe nümayiş etdirdiyi vurğulanır.

Burada qeyd edilməlidir ki, bir-iki Cənubi Azərbaycan saytı istisna olunmaqla, nəzərdən keçirilən yazıların heç birində İranın mövqeyindən danışarkən rəhbərin mövqeyinə işarə edilmir. Belə təsəvvür yaranır ki, İranın ali liderinin mövqeyinin İranın rəsmi mövqeyinin müəyyən edilməsinə heç bir təsiri yoxdur. Burada onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, zahirən Cənubi Azərbaycan, lakin anti-Azərbaycan və antitürk istiqamətli saytlardan biri olan www.azariha.org saytı rəhbərin əslində belə sözlər demədiyini sübut etməyə çalışır ("Qarabağ islam torpağıdır" cümləsi Böyük inqilab rəhbərinə məxsus deyildir. 16 fərvərdin 1395\05.04.2016). Əgər, doğrudan da, rəhbər Qarabağ torpağını islam və islam ölkəsi olan Azərbaycan ərazisi hesab etmirsə, onda İranın həmin məsələdə mövqeyinə rəhbərin mövqeyinin birbaşa və həlledici təsir göstərdiyini qeyd etmək olar. Lakin "azariha" saytının anti-Azərbaycan iddiasının əksinə olaraq, Rəhbər Qarabağ müsəlmanlarının hüquqlarını müdafiə etmiş, Ermənistan və ermənilərin törətdikləri vəhşilikləri pisləmişdir. Konkret olaraq Qarabağ haqqında isə Həcc ziyarəti məsələləri ilə məşğul olan vəzifəli şəxslərin qarşısında çıxış edərkən Bosniya müsəlmanlarına edilən zülmdən danışarkən əlavə edərək belə demişdir: "Elə bizim öz yanımızda Azərbaycan Respublikasının bir bölgəsi olan Qarabağda müsəlmanlara qarşı törədilənlər, elə həmin faciələr kimidir?" [Böyük Rəhbərlik məqamının Həcc məsulları və həmin

işlə məşğul olanlarla görüşü zamanı bəyanatları-31.10.1373\21.01.1995]. Doğruluğunu “azariha” saytı yoxlaya bilər. Burada rəhbər İslam yox, Azərbaycan Respublikasının bölgəsi\məntəqəsi deyir. Buna görə İranın rəsmi mövqeyində Rəhbərin mövqeyinin nəzərə alınmadığından danışmaq olar.

5 aprel 2016\ “yolpress.ir” saytında verilən məlumata görə, İran parlamentinin iki erməni deputatından biri Karen Xanləri bəyan edib: “Ali rəhbərin buyurduğu kimi, Qarabağ islam ərazisidir, Azərbaycan torpağıdır”.

Milli kimlik uğrunda mübarizə aparan qüvvələr və xüsusən gənclərdən fərqli olaraq, hakimiyyətdə təmsil olunmuş azərbaycanlılar son hadisələrə münasibət bildirməyə tələsməmişlər. Bu sıradan azərbaycanlı millət vəkili istisna təşkil etmişdir.

İran və Cənubi Azərbaycan saytlarının verdiyi məlumata görə, Təbrizdən millət vəkili Əlirza Monadi Səfidan **3 aprel 2016**-cı il tarixində məclisdə çıxış edərkən Azərbaycanın, bölgənin və dünyanın bir nömrəli hadisəsinə çevrilmiş hadisə - Azərbaycanın erməni silahlı təxribatlarına son qoymaq məqsədilə işğal olunmuş ərazilərini işğalçılardan təmizləmək istiqamətində atdığı addımlar barədə mövqe bildirərkən Ermənistanın Azərbaycana təcavüz etdiyinə işarə edərək aşağıdakıları bəyan etmişdir: “İran dövlətindən xahiş edirəm ki, Ermənistanın Qarabağda törətdiyi cinayətləri pisləsin. Böyük Rəhbərin buyurduğu kimi, Qarabağ İslam torpağıdır, Qarabağ Azərbaycan torpağıdır. Biz ən qəti şəkildə ermənilərin Qarabağa **təcavüzü** və törətdiyi vəhşilikləri pisləməliyik. Biz Qarabağın Ermənistanın **işğalı**ndan azad olunmasını tələb edirik. Qarabağ Azərbaycana qaytarılmalıdır. Biz orada 13 nəfər əziz müsəlmanın şəhadətə yetirilməsini pisləyirik”.

Cənubi Azərbaycanda fəaliyyət göstərən milliyönümlü saytlar azərbaycanlı rəsmilərin mövqe bildirməyə təşəbbüs göstərmədiklərini nəzərə alaraq onlardan bəzilərinin mövqeyini öyrənməyə cəhd etmişdir. Belə ki, 15 01 1395\03 04 2016-cı il tarixində Urmunyus agentliyinin müxbiri Urmiyadan millət vəkili Nadir Qazipurdan Qarabağda baş verən son hadisələrlə bağlı müsahibə

almışdır. Müsahibə "Qarabağ xalqı (?) **özü** həmin bölgənin gələcəyi haqqında qərar qəbul etməlidir, Azərbaycan-Ermənistan münaqişəsi danışıqlar yolu ilə **İranın nəzarəti** altında həll oluna bilər" başlığı altında verilmişdir.

Millət vəkili hadisəyə münasibət bildirərək demişdir ki, müqəddəs İslam Respublikası bölgədə **sakitliyin** tərəfdarıdır və hər iki tərəfi atəşkəsə dəvət edir. İran güclü dövlətdir və bu iki ölkənin **haqqı yoxdur** ki, münaqişənin hüdudlarını İranın sərhədlərinə qədər genişləndirsin. Ermənistan ilə Azərbaycan arasında Qarabağ üzərində **mülkiyyət** üstündə kəskin münaqişə mövcuddur, hər halda, İran hər bir ölkədə olan **iranlıların** və müsəlmanların hamisidir. O, Qarabağın gələcəyinin **həmin bölgənin əhalisinin istəyindən** asılı olduğunu qeyd edərək demişdir ki, ümumi səslər, yəni referendum həmin bölgənin mülkiyyət məsələsini müəyyən edəcəkdir, amma **əlamətlər** göstərir ki, bu bölgə müsəlmanlar yaşayan ərazidir. Qarabağ əhalisi öz gələcəyi barədə fikrini bidirməlidir, həmin məsələ İran İslam Respublikasının **iştirakı** ilə həll edilə bilər.

Bax belə, bu azərbaycanlı deputatın sözlərindən onun nəinki azərbaycanlı olduğu, hətta haqq və ədalət tərəfdarı olduğu hiss olunmur. Əksinə, millət vəkili artıq yuxarıda dəfələrlə qeyd olunmuş mövqeni – bölgədə sakitlik olması və İranın münaqişənin həll olunmasında, daha doğrusu, dondurulmasında iştirakının təmin edilməsi mövqeyini bir daha təkrar etmişdir. Millət vəkili Azərbaycana öz ərazisini azad etmək haqqı vermir və guya məsələnin Qarabağ əhalisinin rəyindən asılı olduğunu qeyd edir. Bu da, yəqin ki, onun əslində məsələdən xəbərsiz olması, yaxud xəbərsiz olduğunu göstərməsi, lakin rəy bildirməyə can atması ilə izah oluna bilər, çünki bu adam parlamentdə müzakirə olunan bütün məsələlərə münasibət bildirməsi ilə məşhurdur.

17.01.1395\05.04.2016-cı il tarixində ANAJ xəbər agentliyinin saytında ("anaj.ir") Ərdəbildən IX çağırış İran parlamentinin millət vəkili, məclisin Xarici Siyasət və Milli Təhlükəsizlik Komissiyasının sədr müavini Mənsur Həzrətpur ilə agentliyin nüma-

yəndəsinin müsahibəsi ("Azərbaycanlılar milli iradəyə söykənərək Qarabağı azad edə bilərlər") yayılmışdır. Müxbirin suallarına cavab verərkən millət vəkili aşağıdakıları demişdir.

Azərbaycan doğru yol seçibdir, çünki başqalarına ümid etmək və siyasi çəkişmələrlə məsələni həll etmək olmaz. Bundan sonra da Minsk qrupuna bel bağlasan, bir nəticə alınmayacaqdır, çünki həmin qurum Azərbaycanın Ermənistana qarşı addımlar atmasına qarşı çıxır.

Azərbaycan çoxdan milli iradəyə və İslam dünyasının gücünə dayanaraq Qarabağı geri almaq istiqamətində addımlar atmalı idi. O daha sonra bəyan etmişdir ki, Azərbaycanın öz hərbi uğurlarını davam etdirəcəyinə şübhə edir, hələlik mövqelər təsbit olunmalıdır. Qarabağ torpağı Azərbaycana məxsusdur. Azərbaycan ərazisinin 20%-i işğal olunub. "Azərbaycanlılar milli iradə sərgiləsələr, Qarabağı azad etmək gücünə malik olacaqlar". Qarabağ İslam dünyasına məxsusdur. Ermənilər bunu bilmədilər ki, "Bir ölkənin ərazisini işğal edib özünü ora sırımaq və sonra da kimliyi qorumaqdan dəm vurmaq olmaz". Qarabağ Azərbaycan mülküdür və diqqətsizlik və səhlənkarlıq üzündən müvəqqəti olaraq əldən veriblər. Bəziləri son hadisələri Rusiya və Türkiyənin öz aralarında mübarizəsini Qarabağa keçirdikləri kimi izah edirlər. Əgər son müharibənin səbəbi və amili Rusiya və Türkiyənin təhrikləridirsə, onda İran bu oyun və mübarizəyə qatıla bilməz, çünki bu bir sadiq döyüşü deyil, ona görə **biz vəziyyətə nəzarət edib onun daha da genişlənməsinə yol verməməliyik.**

Göründüyü kimi, azərbaycanlı deputat bütün aspektlərdən Azərbaycanın haqq işini dəstəkləyir və İranın mövqeyinin özünü qorumaqdan ibarət oduğu fikrini təkrar edir.

Artıq aprel ayının 5-də (2016) "tabrizebidar.ir" saytında onun siyasi xidmət qurumu tərəfindən hazırlanmış "Qarabağ və görünməyən İran həlqəsi" adlı yazı yerləşdirilmişdir və "dana.ir", "newsfile.ir" və b. saytlar tərəfindən təkrar edilmişdir.

"Tebrizebidar" saytının adı pafoslu – **oyaq Təbriz** olsa da, əslində din pərdəsi altında və İran adına islam dəyərləri, teokrati-

yanı müdafiə etmək, dünyəviliyə qarşı mübarizə aparmağı qarşısına məqsəd qoyduğunu iddia edərək, hakim fars millətçiliyinin, fars dili, mədəniyyətinin keşiyində ayıq-sayıq dayanan, türklük və milli kimliyə qarşı fəal mübarizə aparan bir saytdır.

Yuxarıda adı çəkilən yazıda qeyd olunur ki, Qarabağ müharibəsinin alovlanması yenidən İranın mövqeyini gündəmə gətirir. Belə bir sual meydana gəlir ki, "millətçi cərəyanlara yaxın olan radikalların daim təkrar etdiyi kimi, həqiqətən də, İran Qarabağ müharibəsində öz **azəri qardaşlarını** tək qoydumu?"

İranın Əsas qanununda qeyd olunan əsas prinsipləri – müsəlmanlar qarşısında qardaşlıq öhdəliyi və müstəzəfləri təmənnasız dəstəkləmək – xatırladaraq, Rəfsəncaninin Azərbaycana səfərini qeyd edərək, bunların iki ölkə arasında ən yaxın münasibətlər üçün zəmin ola biləcəyi vurğulanan yazıda əsassız iftiraya əl atılır: "Azərbaycan Prezidenti Heydər Əliyev və onun millətçi sələfi Qarabağı təcavüzkar ermənilərin boyunduruğundan\zülmündən azad etmək üçün İranla həmrəy və bir olmaq əvəzinə, İrandan aralanmaq, onu özünə rəqib hesab etmək, İranı [parçalamaq] və azərilər yaşayan ostanları\vilayətləri ayırmaq haqqında fikirləşirdilər".

Sonra İranın Birinci Qarabağ müharibəsində rolu araşdırılır.

5 il əvvəl **Ərdəbil imam cüməsi**, Rəhbərin ostanda nümayəndəsi Seyid Həsən Amili Azərbaycan Respublikasında islamçılardan birinin vəfatının 40-ı münasibətilə yaydığı məktubunda bu barədə yazırdı: "Qarabağ münaqişəsi SSRİ-nin dağılmasından çox əvvəl və Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında **ittifaq** yaranmasının qarşısının alınması məqsədilə yaradılmışdı". Qarabağ müharibəsi başlayanda İranın iki yolu vardı: ya müharibəyə müdaxilə etməli idi, ya da bitərəf qalmalı idi. Beynəlxalq şərait birinciyə imkan vermirdi, ikincisi isə daxili səbəb və elan edilmiş qardaşlıq və müsəlmanlıq baxımından mümkün deyildi. Odur ki, hər iki amilin problem yaratmaması üçün orta yol seçildi. "Azərbaycan ordusunu dəstəkləmək və ona hərbi təlim keçmək, müqavimət dəstələri yaratmaq, silah-sursat və hərbi təlimat göndərmək, hərbi planlar hazırlamaq". Bizi ermənilərə silah göndərməkdə ittiham edirlər, bu rəzalətdən irəli

gələn ittihamdır, biz ermənilərə deyil, öz azəri **din qardaşlarımıza** silah və sursat göndərdik. İranın hərbi təlim mərkəzi Ermənistanda deyil, Azərbaycanda yerləşirdi.

İranın Azərbaycana hərbi yardımı barədə ikinci açıqlama 1391\2012-ci ildə İran İslam İnqilabı Keşikçiləri Korpusunun ovaxtkı baş komandanı Möhsün Rezayinin İranın Azərbaycan dilində xaricə yayımlanan "Səhər" televiziya kanalına müsahibəsində edildi. O demişdir: "Şəxsən göstəriş verdim ki, Qarabağda vəziyyət müəyyən edilsin, Azərbaycan Respublikasının ordusu münasib hərbi təchizatla təmin edilsin və lazımi hərbi təlimlər keçirilsin. Həmin vaxt hətta Azərbaycan ordusuna xüsusi təlim keçilməsi haqqında lazımi sərəncam verdim. Qarabağ müharibəsində xeyli sayda iranlı iştirak etdi, yaralılar ölkəyə gətirildi, lakin Qarabağ müharibəsi şəhidlərinin bir çoxu Bakıda dəfn olunubdur".

Bu barədə İran parlamentinin deputatı Mənsur Həqiqətpurun Azərbaycan Parlamentinin deputatı Siyavuş Novruzova yazdığı çoxlu sayda məktublarında məlumat verilibdir. Həqiqətpur yazır: "Yaxşı olardı biləsiniz ki, mən özüm, Qarabağ müharibəsi zamanı mərhum Heydər Əliyevin xüsusi müşaviri olmuşam... Yadımdadır, bir dəfə azəri silahlı qüvvələr [parad zamanı] Heydər Əliyevin önündən keçərkən mənə dedi ki, istəyirəm, səni Azərbaycanın "Şərəf" ordeni ilə təltif edim. Mən siyasi amillər səbəbindən razı olmadım. O daha sonra öz məktubunda yazır: "Əgər istənilən bir kəs sübut etsə ki, biz bircə erməniyə belə hərbi yardım göstərmişik, onda mən onların bütün iddialarını qəbul etməyə hazıram... əgər bu yardımlar olmasa idi, indi ölkə ərazisinin 20%-i yox, 50%-dən çoxu işğal altında idi".

Nəhayət, iki il əvvəl Qarabağ müharibəsi zamanı "Bozqurd" batalyonunun komandiri olmuş Nurəddin Xoca ilə söhbətində bunu təsdiq etdiyi vurğulanır. Ondan soruşulanda ki, Qarabağ müharibəsi zamanı qonşu ölkələrdən yardım istənilibmi, o deyib: "Zəngilan hadisələri zamanı İrandan kömək istədik. Əgər həmin

vaxt İran ordusunun artilleriya atəşləri olmasa idi, Zəngilan əhalisi qırğınla üzləşəcəkdi. Əgər iranlıların köməyi olmasa idi, Xocalıdan daha dəhşətli faciə baş verərdi”.

Qeyd edilir ki, İranın yardımı özünü həmçinin OMON komandiri Rövşən Cavodovu dəstəkləməkdə göstərirdi. Sonra yazıda Heydər Əliyevin ünvanına iftira səsləndirilir, belə ki, R.Cavadovun Ə.Elçibəylə söhbəti H.Əliyevlə söhbət kimi təqdim olunur. Fars dilində verilən qısa tərcümə mətnində prezidentin adı göstərilmir və deyilir ki, prezident and içdikdən sonra onunla görüşdə... dedi. Hazırkı yazıda prezident sözündən sonra mötərizədə Heydər Əliyev yazılıbdır. Prezidentin guya İranı və farsları əsas düşmən saydığı vurğulanır. Yazı zamanı əsasən dəqiq istinadlara əsaslanan müəllifin bu səhvini diqqətsizliklə izah etmək çətindir, əslində, bu, qərəzli şəkildə edilmiş bir dəqiqləşdirmə [mötərizədə] hesab olunmalıdır.

Çünki İranın hazırkı prezidentinin Azərbaycan Respublikası ilə münasibətləri və əməkdaşlığı daha da genişləndirmək və dərinləşdirmək siyasəti fars şovinistləri və milli kimliyini islam vasitəsilə daha da gücləndirən fars ruhanilərini və milli kimliyini islam vasitəsi ilə daha da zəifldən, yalnız bu gününü düşünən türk ruhanilərini qane etmir.

Sonda indiyə kimi yardım faktlarının elan edilməməsinin bir sıra beynəlxalq və daxili səbəbləri və mülahizələri qeyd edilir. Yazı, qeyd edildiyi kimi, “Təbrizebidar” saytının siyasi xidməti tərəfindən hazırlanıb.

Cənubi Azərbaycan dini-rəsmi şəxsiyyətlərindən biri olan rəhbərin Ərdəbil ostanında nümayəndəsi Ərdəbil şəhərinin cümə imamı S.H.Amili Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın və azərilərin, əsas vurğunu müsəlmanlara etməklə haqq işinə qəti dəstək göstərməsi ilə Rəhbərin Cənubi Azərbaycanında daha üç nümayəndəsindən ciddi şəkildə fərqlənir. Sonuncu hadisə zamanı da həmin mövqeyini qətiyyətlə təkrar etmişdir.

A M İ L İ

http://azeri.sahartv.ir/ 8 aprel 2016

Məzlumu himayə etmək İslam inqilabının hədəf və məqsədlərinin başlıca prinsipidir.

Ərdəbilin imam cüməsi deyib: Məzlumu himayə etmək İslam inqilabının hədəf və məqsədlərinin başlıca prinsipidir. Bu məzlumun Fələstində, Yəməndə, İraqda, Suriyada, ***Qarabağda***, ***Nardaranda (?)***, Bəhreyndə və ya hər hansı başqa bir yerdə olmasının əhəmiyyəti yoxdur.

Amili digər müsəlmanlara münasibətdə dövlətlərin adlarını göstərdiyi halda, Azərbaycanın işğal olunmuş bölgəsinin və təhrikedici məqsədlə bir qəsəbənin adını qeyd edir. Amili Bakı qəsəbələrindən birinin adını qeyd etməklə özünün islam həmrəyliyi şüarı altında daha çox nə başa düşdüyünü aydın nümayiş etdirir. Bütün bunlara baxmayaraq Amili özünü Azərbaycanın haqq işinin müdafiəçisi kimi təqdim edirdi.

Təsnim xəbər agentliyinin verdiyi məlumata görə, Vəli Fəqihin (Rəhbərin) Ərdəbil vilayətindəki nümayəndəsi və Ərdəbilin imam cüməsi Ayətullah Seyid Həsən Amili cümə namazı xütbələrində Qarabağ məntəqəsində yaşanan son toqquşmalara işarə edərək deyib: “Bu hadisədə Azərbaycan xalqının kədərini bölüşürük və Azərbaycanın ərazi bütövlüyünü, bu ölkə ərazilərinin geri qaytarılmasını müdafiə etməyi özümüzə borc bilirik”.

Ayətullah Seyid Həsən Amili əlavə edib: “Məzlumu himayə etmək İslam inqilabının hədəf və məqsədlərinin əsas prinsiplərindən biridir və bu məzlumun dünyanın hansı nöqtəsində olmasının heç bir fərqi yoxdur. İstər Fələstində olsun, istər İraqda, istər Suriyada, istər **Qarabağda**, istər ***Nardaranda***, istərsə də Bəhreyndə”.

Ərdəbilin imam cüməsi həmçinin deyib: “Qənaətimizə görə, Qarabağın Azərbaycana qaytarılması ilə yanaşı, məntəqənin sərhədləri və məntəqə əhalisinin tərkibi Stalin tərəfindən xalqlar arasında ixtilafların törədilməsi məqsədilə dəyişdirilməsindən daha öncəki dövrə qaytarılmalıdır. Bugünkü toqquşmaların kökü Stalinin həmin mənfur hərəkətinə uzanır. Azərbaycan bu məsələdə

öz dostunu və düşmənini, xalqa və ərazi bütövlüyünə xidmət və ya xəyanət edənləri tanımalıdır".

Ərdəbilin imam cüməsi həmçinin deyib: "ABŞ hökuməti regionda özünə baza düzəltməyə çalışır. ***İranın qonşuluğunda yerləşən Qarabağ***dan daha yaxşı yer ola bilərmi? Qarabağ regionda öz şeytani məqsədlərini gerçəkləşdirməsi üçün ABŞ-ın arxa bağçasına çevrilib. Azərbaycanın "Əsrin müqaviləsi" adlı iri neft layihəsini Amerikaya verməsinə və Amerikanın Minsk Qrupunda ən çox sədrliyə malik olmasına baxmayaraq, ABŞ Azərbaycan üçün heç bir iş görməyib".

Vəli Fəqihin Ərdəbil vilayəti üzrə nümayəndəsi və Ərdəbilin imam cüməsi həmçinin deyib: İsrail, Avropa Birliyi, BMT-nin Təhlükəsizlik Şurası və NATO Qarabağ məsələsindəki digər xainlərdir.

http://qafqaz.ir/ saytında 10 may 2016 tarixində S.H.Amilinin münaqişə və son hərbi toqquşmaya münasibəti ilə bağlı başqa bir yazı yerləşdirilmişdir.

Seyid Həsən Amili: İmkan verilsə, Qarabağda döyüşə getməyə hazıram.

Ayətullah Xameneinin Ərdəbil vilayətində nümayəndəsi və imam cüməsi Ayətullah Seyid Həsən Amili: "Cümə xütbələrində ermənilərə lənət oxuyuruq".

http://qafqaz.ir/ 9 aprel 2016. "Qarabağ müharibəsində Azərbaycanın yüksək səviyyəli rəhbərlərinin" rolu ilə bağlı müsahibə. Qarabağda Azərbaycan və Ermənistan arasında yeni toqquşmaların başlamasının ardınca "Elpress" müxbiri beynəlxalq və region məsələləri üzrə ekspert doktor Məhəmməd Əli Pərğu ilə müsahibə aparmışdır. Həmin müsahibə oxuculara təqdim edilir. Müsahibə saytda yerləşdirildiyindən qeyri-elmi və ideoloji-təbliğati xarakter daşıdığından onu burada təkrar etməyə ehtiyac yoxdur. Sadəcə olaraq müsahibə verən ekspert doktorun bəzi fikirləri ilə tanış olmaq maraqlı olardı.

Doktora görə, Qarabağ hansısa statusa malik olan ayrıca bir bölgədir və Azərbaycan ilə Ermənistan arasında yerləşir. [Bu ona bənzəyir ki, deyəsən, İranın Xorasan vilayəti Əfqanıstan ilə İran

arasında yerləşir.] Doktor digər eyni mövqeli həmkarları kimi, Qarabağ bölgəsi ilə Dağlıq Qarabağı qəsdən səhv salaraq Qarabağ əhalisinin 80%-nin **erməni,** 20%-nin **müsəlman** olduğunu iddia edir. Daha maraqlısı isə budur ki, əhalidən danışarkən bizim ***alim*** ermənilərə münasibətdə etnik əlamətdən azərbaycanlılara münasibətdə dini əlamətdən istifadə edir.

Doktorun fikrincə, 20 il öncə elə-belə müharibə başladı. Qarabağda soyqırım oldu, 30 min insan həlak oldu. Doktora məlum deyil ki, müharibə və təcavüzə kim başladı, kimlər həlak oldu. Alim sadəcə olaraq guya faktları sadalayır, vəssalam.

Müharibənin səbəblərini hər iki ölkənin istək və baxışlarında axtarmağın vacibliyini vurğulayan doktor səbəblərdən birini də Azərbaycanda xəyanətdə görməyə çalışır və oxucunun diqqətini Ermənistandan yayındıraraq Azərbaycana yönəldir. Ona görə də belə nəticəyə gəlir ki, müharibə baş verdi.

Doktor tərəflərin mövqeyini şərh edərkən əvvəlcə qeyd edir ki, tərəflər bir-birini günahlandırır. Ermənistan Qarabağda erməni əhalisinin ***çoxluğunu*** bəhanə edərək regionda demokratiya yaratmağı və ərazini Ermənistana birləşdirməyi öz haqqı hesab edir. [Alimin mövqeyi bəlli deyil, elə Ermənistanın demokratiya yaratmaq istəməsi məsələsi də qaranlıq qalır.] "Ona görə də belə istənilməz hərəkətə əl atdı". [Ermənistanın hərəkəti təcavüz yox, sadəcə olaraq arzuolunmaz bir hərəkət idi.] Alimin fikrincə, Azərbaycan ***coğrafi mövqeyi*** əsas gətirərək Qarabağı müdafiə etməyi özünün borcu bildi. [Belə çıxır ki, Azərbaycan öz ərazisini yox, yaxında olan bölgəni müdafiə edirdi.] O daha sonra ünvanını göstərmədən bəzilərinin "Azərbaycan Respublikasının ümumi quruluşu əleyhinə və qarşı tərəfin xeyrinə siyasət işlətdi"yini vurğulayır. Məhz həmin qüvvə müharibəni alovlandırmaqda maraqlı idi.

Doktor daha sonra bildirir ki, əgər **hər iki ölkə** rəhbərləri və rəsmiləri ağıllı və **beynəlxalq qanunlar əsasında** hərəkət etsə idilər, müharibə baş verməyəcəkdi, hətta baş versə idi, tez bitəcəkdi.

Ermənistandan diqqəti yayındıran doktor Azərbaycanın hansı beynəlxalq hüquqa əməl etmədiyi haqqında açıqlama vermir.

Müsahibədə deyilir ki, bu münaqişədən 100% xeyir görən İsraildir və hazırkı münaqişəni də o alovlandırır. Sonra əlavə edilir ki, müharibəni həmçinin Amerika alovlandırıb.

Pərğu sonra İranın **Azərbaycan Respublikasına dost və qardaş ölkə** kimi dəfələrlə **İsraillə əlaqə yaratmamaq** barədə çağırışlar etdiyini, lakin “qardaş ölkənin bu sözləri eşitmədi”yindən gileylənir. O vurğulayır ki, Dördgünlük müharibənin baş verməsinin əsas səbəbkarı **İsraildir.**

Göründüyü kimi, doktor fürsətdən istifadə edərək İsrailə qarşı çox ucuz təbliğatla məşğul olur və belə təsəvvür yaratmağa çalışır ki, münaqişə tərəfi Ermənistan yox, İsraildir.

Doktor İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqe ilə bağlı suala cavab verərkən bildirir: “Ürəkağrıdıcı hadisə baş verən zaman İnqilabın Böyük Rəhbəri Ayətullah Xamenei həzrətləri **Qarabağı islam torpağı** adlandırdı” və buna əsasən Azərbaycana “**hərbi qüvvə** və məsləhətçilər göndərdi... İranın böyük generalları, o cümlədən Noi Əqdəm, Mənsur Həqiqətpur, hətta Möhsin Rizayi (? - V.M.) cənabları və digər dostlar bu müharibədə iştirak etdilər”, İmam Xomeyni komitəsi (İmdad komitəsi) maddi yardım və İran İslam Respublikasının Qırmızı Aypara Cəmiyyəti tibbi yardım göstərdi. Müsahibədə qeyd olunur ki, İİR islam dininin məzlumlara kömək barədə göstərişinə əməl edərək “Qarabağ müharibəsində Azərbaycana ***hərbi*** və maddi yardım göstərdi, onu dəstəklədi”.

Doktor İranın Azərbaycan Respublikasına hərbi, maddi və tibbi yardım göstərdiyini doğru qeyd edir. Digər İran məlumatlarına əsasən, İranın hərbi yardımı bir neçə zabitin məsləhətçi qismində hərbi əməliyyatlarda iştirak etməsi, 150 nəfər bəsicin (könüllülərdən ibarət yarıhərbi milis) cəbhədə olması (bəziləri şəhid olub) və 25 mln. dol. kredit ayrılmasından (həmin vəsait dəyərində silah satılmasından) ibarət olub. Bütün bunlar, hələlik Azərbaycan tərəfindən təsdiq edilmədiyindən, nə qədər həqiqətə uyğun olması haqqında fikir söyləmək çətin olsa da, hətta bir nəfər belə yardım edibsə, onun haqqı unudulmamalıdır və minnətdarlıqla yad edilməlidir. Amma əsas məsələ ondan ibarətdir ki,

doktor Azərbaycana yardımdan danışır və Ermənistana göstərilən “**həyati yardım**”dan bir kəlmə də demir. Hamıya məlumdur ki, Ermənistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində müvəqqəti uğuru hərbi cəhətdən Rusiyanın, maddi təminat baxımından İranın bilavasitə yardımlarından asılı idi. İranın Ermənistana yardımı Rusiyanın hərbi yardımından daha çox əhəmiyyət daşıyırdı, çünki ərzaq və digər həyati vasitələrlə təmin olunmayan silahlı qüvvələr cəbhədə uzun müddət davam gətirə bilməzdi. İran Ermənistan üçün həmin illərdə “**nəfəslik”** rolu oynamışdır. Doktor həmin yardımdan deyil, Azərbaycana qısa müddətli cüzi hərbi yardımdan danışır. Burada da cənab doktor Ermənistandan diqqəti yayındıraraq onu Azərbaycana yönəldir.

Doktor 2013-cü ildə Təbriz (!) universitetində Qarabağa həsr olunmuş beynəlxalq konfrans keçirmək təşəbbüsünü də İranın Azərbaycana yardımı sırasında qeyd edir.

Konfrans mahiyyət etibarilə Azərbaycan Respublikasının maraqlarına qarşı yönəldiyindən Xarici İşlər Nazirliyi İİR-in Bakıdakı səfirini çağıraraq ona öz etirazını bildirmiş və nəticədə əvvəlcə konfransın keçirilmə vaxtı təxirə salınmış və sonra heç keçirilməmişdir. Əlavə etmək lazımdır ki, konfrans haqqında elanda verilən məlumatda, yəni müzakirə edilməli olan istiqamətlər və mövzular sırasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsas səbəbkarı olan Ermənistanın təcavüzkar siyasətinin araşdırılmasına yer ayrılmamışdır və Dağlıq Qarabağ deyil, Qarabağ əsas müzakirə mövzusu seçilmiş və ilk baxışdan belə təəssürat yaranırdı ki, Qarabağ ayrıca bir bölgə kimi nəzərdən keçirilməli imiş. Belə müzakirələrdə hansı nəticələrə gəlinəcəyini təxmini də olsa, qabaqcadan söyləmək olardı. Artıq yuxarıda nəzərdən keçirilmiş bir çox yazılarda Dağlıq Qarabağ əvəzinə, Qarabağdan və hansı aspektdə danışıldığı haqqında müəyyən məlumat verilmişdir.

Türkiyə, Amerika və digər dövlətlərin münaqişədə rolu ilə bağlı suala cavab verərkən doktor deyir: “Rusiya, Amerika və Türkiyə kimi ölkələr öz **pis niyyətlərinə** çatmaq üçün bu müha-

ribəni qızışdırırlar". O, sözünə davam edərək Türkiyə və Amerikanın öz silahlarını satmaq, İŞİD-in fəaliyyəti üçün yeni region müəyyən etmək məqsədilə Cənubi Qafqazda böhranı qızışdırdıqlarını vurğulayır. Doktor fikirlərini bir qədər də aydınlaşdıraraq göstərir ki, əsas məqsəd regionda böhranı qızışdırmaqla **Rusiya** və **İranın** başını qatmaq və İsrailə Fələstinə qarşı siyasətini davam etdirməyə şərait yaratmaqdır. Amma əsas müharibə qızışdırıcısı Amerikadır. Münaqişənin həllini çətinləşdirən bəzi digər məsələlərə də (Rusiyanın Ermənistanı dəstəkləməsi, Türkiyə, NATO) toxunan doktor indiyə qədər istər vasitəçilərin (ATƏT-in Minsk qrupu həmsədrləri), istər böyük dövlətlərin başçılarının, Ermənistanı dəstəkləyən dövlətlərin daim vurğuladığı fikri bir daha orijinal formada təkrar edir: "Ermənistan və Azərbaycan dövlətləri ağıllı olmalı, özgələrə məntəqəyə müdaxilə edib, insanların qanını tökməsinə icazə verməməli, özləri diplomatik yollar və müzakirələrlə bir nəticəyə gəlməlidirlər".

Müsahibə verən doktor gah Rusiyanı müharibə qızışdıranlar sırasında, gah da regionda gərginliyin Rusiyanın (və İranın) maraqlarına qarşı yönəldiyini qeyd edir. Onun mövqeyində ən əsas cəhət, artıq qeyd edildiyi kimi, Qarabağa ayrıca bir bölgə kimi baxmasıdır, ona görə məsləhət görür ki, Azərbaycan və Ermənistan **bölgəyə özləri müdaxilə** edib məsələni danışıqlar yolu ilə həll etsinlər. Bu hansı məntiqə söykənir, məlum deyil.

Sonrakı sual müsahibə aparanın, Qafqaz saytının və müsahibə verənin iç üzünü tamamilə aşkar edir. Belə ki, **Bakı (? - V.M.) dövlətinin** rolundan, onun müharibənin başa çatmasında ***maraqlı olmadığı*** haqqında danışmaq xahiş olunur.

Cavabdan aydın olur ki, Azərbaycan rəhbərliyinin müharibəni başa çatdırmaq istəməsinin əsas "səbəbi İran İslam Respublikasının bu məsələdə təsirli rol oynaması idi. Onlar belə düşünürdü ki, müharibənin İranın vasitəsi ilə başa çatdığı surətdə İran, Azərbaycanda təsirli rola malik olacaq". Doktor daha sonra ABŞ-ın rolundan danışaraq onu "Qafqaz və Yaxın Şərqin ən böyük düşməni" adlandırır və əlavə edir ki, ABŞ-ın məqsədi İranı mü-

hasirəyə almaq, onun sərhədlərində münaqişə yaradaraq təhlükəsizliyini zəifləmək, İsrailin geosiyasi mövqeyini möhkəmləndirməkdir. Müsahibədə “Amerikanın Azərbaycan xalqı ilə düşmənçiliyi”nin dərin kökləri olduğu və onun əsasında Amerikanın “**İslam mədəniyyəti** ilə düşmənçiliyi” durduğu bəyan edilir. Ona görə, doktor Azərbaycan rəhbərliyini “**kinli düşmən”**ə münasibətdə ayıq-sayıq olmağa çağırır.

Müsahibə verən doktor münaqişənin mahiyyəti, Ermənistanın təcavüzkar siyasəti, onun beynəlxalq və regional hamilərindən danışmaq əvəzinə, əsas diqqəti əsas məsələdən yayındıraraq cəfəng iddialarla (ABŞ-ın Azərbaycanın kinli düşməni və s. olması) ABŞ və İsrailə qarşı təbliğata yönəldir .

Doktor və ya sayt, ona bənzər doktorlar, saytlar kimi Azərbaycan Respublikası terminini işlətməkdən çəkinirlər və özlərini guya İranın münaqişənin həllində aparıcı rol oynaya bilməsi kimi bir iddia ilə aldatmaqdan xoşlanırlar. İranın müharibənin başa çatmasında necə həlledici rol oynayacağı məlum deyil. Əgər söhbət siyasi-diplomatik roldan gedirsə, onda doktor bilməli idi ki, Azərbaycan tərəfinin səriştəsizliyi üzündən İranın roluna şişirdilmiş münasibət bəsləməsi ona baha başa gəlmiş və ərazilərin işğal miqyasının genişlənməsinə səbəb olmuşdur. Əgər hərbi yardımdan söhbət gedirsə, artıq qeyd edilmişdir ki, İranın hərbi yardımı bir neçə məsləhətçi zabit, 150 könüllü və 25 mln. dollar kreditdən ibarət olmuşdur və həmin yardımla müharibənin gedişində dönüş yaratmaq mümkün idimi? Doktorun, yəqin ki, İranın digər müəlliflərinin öz ölkələrinin münaqişədə mövqeyi və rolu haqqında yazılarından xəbəri olmamış olmaz. Onlar İranın Azərbaycana, istəsə belə, hərbi yardım göstərməsinin qeyri-mümkünlüyünün səbəbləri və Ermənistanla yaxınlaşması haqqında daha əsaslı fikirlər söyləmiş və səbəblər göstərmişlər. Ona görə də həmin məsələni yalnız Azərbaycan rəhbərliyinin mövqeyi ilə izah etməyin heç bir əsası yoxdur. Məsələnin həmin cəhəti ilə bağlı ən mühüm məqam ondan ibarətdir ki, bir tərəfdən Azərbaycana hərbi yardımdan, digər tərəfdən Azərbaycanın həmin hərbi yardıma etiraz etməsindən danışılır. Azərbaycan rəhbərliyinin istəyi olmadan

müharibə cəbhəsində Azərbaycan ordusunda müşavir, məsləhətçi kimi necə fəaliyyət göstərmək olardı? Bunlar məntiqsizliyin nümunələridir.

Göründüyü kimi, müsahibədə alimdən daha çox publisistin düşüncələri özünü göstərir, mətn farscadan çox pis tərcümə olunub. Müsahibə verən şəxs məsələyə aydınlıq gətirmək əvəzinə, obyektiv həqiqətin üstünə pərdə çəkir. Dağlıq Qarabağ yerinə, Qarabağ deyir və buradan da məntiqi olaraq bilərəkdən digər təhriflər – bölgənin sərhəddə yerləşməsi, əhalisinin əksəriyyətinin ermənilərdən ibarət olması və s. meydana gəlir, tərəflərə eyni münasibət nümayiş etdirilir, İranın yardımlarının əhəmiyyəti şişirdilir, fürsətdən istifadə edərək dinin təbliği və anti-Amerika, anti-Türkiyə və anti-İsrail təbliğatı ilə məşğul olunur. Nədənsə, İranın Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıdığının qeyd olunması unudulur. İranın rəsmi mövqeyinə uyğun olaraq işğalçı qoşunların **dost və qardaş Azərbaycandan** çıxarılmasının vacibliyi vurğulanmır, tərəfləri ağıllı olmağa çağırmaqla kifayətlənilir. Müsahibə saytın Azərbaycan dilində versiyasında yerləşdirilmiş və Azərbaycan Respublikası vətəndaşlarına ünvanlandığından, demək olar ki, qarşıya qoyulmuş əsas məqsəd Azərbaycan hakimiyyətinə etimadsızlıq yaratmaq, Azərbaycanın strateji tərəfdaşı və Avropa ölkələri Minsk qrupuna daxil olan dövlətlər, eləcə də qonşu region ölkələri arasında münaqişədə öz mövqeyini açıq şəkildə bəyan edən yeganə ölkə olan Türkiyəyə, həmçinin Azərbaycanla müxtəlif səviyyədə və müxtəlif sahələrdə əməkdaşlıq edən ABŞ və İsrailə qarşı mənfi münasibət formalaşdırmaq, İran İslam Respublikasının kömək etmək istədiyini vurğulamaq və Ermənistanı isə bitərəf kimi göstərməkdir və s. və i.a.

## 5.2. İran türkləri və İran azərilərinin mövqeyi

Həmin mövzuya keçməzdən əvvəl qeyd etmək lazımdır ki, yuxarıda haqqında danışılan yazılardan da göründüyü kimi, İranda rəsmi və onlara yaxın olan dairələrdə və onları təmsil edən

ayrı-ayrı müəlliflərin yazılarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yanaşma və mövqe birmənalı deyil. Bir-iki yazı istisna olmaqla, əksər yazılarda məsələnin mahiyyətinə qərəzli yanaşma öz əksini tapmış və münaqişədə Ermənistan və Azərbaycan bərabər, iddiaçı tərəflər kimi göstərilir. Azərbaycanın işğala məruz qalan tərəf olduğu, öz suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizə apardığı, BMT TŞ Azərbaycan ərazilərinin işğaldan azad edilməsi barədə Qətnamələri, bir yazı istisna olmaqla, yada salınmır. Qəribə də olsa, bir çox yazıda ermənilərə onunla haqq qazandırılır ki, guya onlar **Qarabağda** əksəriyyət təşkil edirdilər. Həmin əsassız müddəanın təkrarlanmasının mənasını anlamaq olmur, çünki İranda belə bölgələr çoxdur və İran dəfələrlə bölgədə əksəriyyət təşkil edən milli-etnik azlıqların milli hüquqlar uğrunda çıxışlarını silah gücünə yatırdıbdır. İndi ermənilərin guya Qarabağda [diqqət etməli ki, Dağlıq Qarabağda yox, bütün Qarabağda] sayca üstünlük təşkil etməsi mühüm bir əsas kimi təqdim olunur. İranın bir sıra müəlliflərinin həmin əsassız məsələni vurğulaması, yəqin ki, bir gün İranın üzünə çəkiləcəkdir. Azərbaycan haqqında həqiqəti deməkdən çəkinənlər artıq Qarabağ bölgəsini Ermənistan ərazisi hesab edir, ona görə də silahlı qarşıdurmanın guya Ermənistan-Azərbaycan sərhədində baş verdiyini yazırlar. Yazılar, qeyd edildiyi kimi, müxtəlif xarakterli, səviyyəli və yönümlüdür, burada ilk orijinal söz deməkdən tutmuş, təbliğat və antitəbliğata qədər bütün spektrlər yer almışdır. Yazılarda Türkiyə, İsrail əleyhinə təbliğata geniş yer ayrılmışdır.

Amma xarakterindən, məqsədindən, yönümündən asılı olmayaraq həmin yazıların ortaq cəhəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv – tarixi və ətraflı məlumatın verilməməsidir. Halbuki internetdə\wikipedia-da fars dilində bir çox hallarda birtərəfli olsa da, mövzu ilə bağlı kifayət qədər məlumat vardır. Haqqında danışılan yazıların çoxunun giriş hissəsində internet resursunun əsasən bir yazısından istifadə edilmişdir (Cənge Qarabağ). Lakin az-çox obyektiv olmaq istəyən müəllif internetdə yerləşdirilmiş və mövzu ilə bağlı materialları

öyrənməli və əsaslı bir şey yazmalı idi. Amma, görünür ki, doktorlar mövzudan xəbərsiz olduqlarından daha çox səthi məlumata əsaslanaraq, necə deyərlər, operativ politoloji təhlil verməyə çalışmış və ümumi ideoloji yönümləri qeyri-elmi, obyektiv olmayan və deməli, qərəzli mövqe nümayiş etdirmələrinə zəmin yaratmışdır.

Lakin İran internet resurslarında bir-iki nisbətən obyektiv yazı istisna olmaqla, qərəzli və birtərəfli yazılar ictimai-siyasi fikrin formalaşmasının yeganə mənbəyi deyildir.

Beləliklə, cənubi **azərbaycanlıların\türklərin** 2016-cı il aprel ayında baş vermiş Dörd günlük müharibəyə münasibəti.

3 aprel 2016-cı il tarixində Təbriz şəhərində gecə çəkilmiş qısa görüntüdə eşidilən şüar belədir: “**TƏBRİZ BAKIYA DAYAQDIR!**”

03.04.2016 GAMAC-ın (Güney Azərbaycan Milli Azadlıq Cəbhəsi) Qarabağda baş verən son hadisələrlə bağlı yaydığı bəyanatda, o cümlədən deyilir: “İşğal olunmuş **torpaqlarımızı** Güney Azərbaycan məsələsi olaraq görürük”.

“İran dövlətini insanlıq və millətimiz adına qınayırıq”. (boa.az)

Güneyli soydaşlarımız cəbhədə baş verən son olaylarla bağlı Azərbaycan Prezidentinə müraciət ediblər. Müraciətdə azərbaycanlı gənclərin Azərbaycan ordusu sıralarına daxil olmalarına icazə verilməsi xahiş olunur. (mənbə: Günaztv)

03.04.2016-cı il tarixində **Qaşqay** türk gənclərinin bir qrupu adından işğal olunmuş Qarabağla bağlı bəyanatı yayılmışdır (www.araz news.org). Bəyanatda Qaşqay fəal türk gənclərinin daim Azərbaycan gəncləri və türk dünyasının ədalətli tələbləri ilə həmrəy olduğu və bu günlərdə isə Azərbaycan gənclərinin səsinə səs verərək “mənhus işğalçılıq hadisəsinə və türk millətinin ərazisinə təcavüzə qarşı mübarizəyə” hazır olduqları vurğulanır. Qaşqay gənclərinin lazım gələrsə, Azərbaycan Respublikasına hər cür yardım – canlı qüvvə, silah-sursat, ərzaq, dava-dərman və s. göstərməyə hazır olduğu bəyan edilir. Eyni zamanda vurğulanır ki, yalnız ermənilər deyil, hər bir kəs bilməlidir ki, türk millətinin

torpaqlarına təcavüz etmək istəyən hər bir ölkə bizim ümumi düşmənimiz hesab olunur. İran İslam Respublikasının Ermənistanı dəstəkləməsi kəskin pislənir. Bəyanatda deyilir: "**Türk torpağı üzərində uçmaq istəyən qartal qanad salar**".

15.01.1395\03.04.2016-cı il tarixində Urmiyə universitetləri tələbələrinin bir qrupu "Qarabağın işğal olunmuş rayonlarında hadisələr və İran kütləvi informasiya vasitələri" adlı bəyanat qəbul edib və 4 aprel tarixində www.araznews.org-da yayılıb. Bəyanatda son hadisələrin Ermənistan və ermənilərə "Azərbaycan xalqının qəzəbi və iradəsinin nümayiş etdirildiyi" vurğulanır. Bəyanatda Arazın cənubunda Şimal ilə geniş xalq həmrəyliyi, gənclərin Azərbaycanın ədalətli mövqeyi və gördüyü tədbirləri müdafiə etdiyi, virtual KİV-də geniş dəstək göstərdiyi xüsusi qeyd olunur. Bütün bunlar "Milli şüurun artmasının və Qarabağın işğal olunmuş rayonlarının Azərbaycan türk milləti üçün əhəmiyyətinin ən yüksək səviyyədə müəyyən edilməsi, ölçülməsi demək idi".

Bəyanatda İranın rəsmi KİV-nin məsələyə yanaşmasından qəti narazılıq ifadə olunur. Bəyanatda daha sonra Cənubi Azərbaycandan olan deputatların niyə susması sualı verilir. İran liderinə təklif edilir ki, Qarabağın azad edilməsini dini vəzifə elan etsin. İran rəsmi KİV-nin Azərbaycan müsəlmanları əleyhinə zəhər yağdırmasına mane olmağa çağırılır. Bəyanatda vurğulanır ki, xarici şovinist oppozisiya və İranın rəsmi KİV-nin Azərbaycana münasibətdə ümumi mövqedə dayanması Azərbaycan türk milləti üçün qəbuledilməzdir. Bəyanatda deyilir ki, Qarabağın azadlığı uğrunda ölümü şərəf və iftixar hesab edirik. Bəyanatın sonunda deyilir: "Biz Azərbaycan ordusunu müdafiə edir və onun qələbəsi və Qarabağı azad etməsini öz qələbəmiz hesab edirik".

16.01.1395\04.04.2016-cı il tarixində Zəncan Universitetinin türk\azərbaycanlı tələbələrindən bir qrupu Qarabağda son hadisələrlə bağlı bəyanat yaymışlar. Bəyanat 05.04.2016-cı il tarixində www.nasimezanjan.ir saytında "İslam Respublikasının rəhbərləri daxildə və region səviyyəsində öz anti-türk siyasətini dəyişməlidir" adı ilə yerləşdirilmişdir.

Bəyanatda Quran ayələrinə istinad edilərək Ermənistanın həm Azərbaycanın cənubunda – Qərbi Azərbaycanda, xüsusən Urmiyə və Səlmasda, həm də şimalında törətdiyi saysız-hesabsız qırğınları nəzərə alaraq İran İslam Respublikasının rəhbərləri təcavüzə məruz qalan Azərbaycan Respublikasına dəstək göstərməməkdə qınanır. Bəyanatda deyilir: "Biz türk tələbələr və Azərbaycan Tələbə Hərəkatının üzvləri İran İslam Respublikasının Qarabağ məsələsində son 25 ildə və xüsusən, son günlərdə, tutduğu mövqedən kəskin narazı olduğumuzu və hiddətimizi bildiririk". Bəyanatda cümə namazı xütbələrində hətta türk\Azərbaycan şəhərləri imam cümələrin sükut etdiyi, İran RTv-nin BBC və digər antitürk radio-televiziyaları kimi davrandığı pislənir. "Azərbaycan Respublikasının xalqı bizim dil bir, din bir, soy-kökü bir qardaşlarımızdır. Biz antitürk siyasətin dəyişdirilməsini və qardaşlarımızın köməyinə tələsməyi tələb edirik. Kim kömək etməsə, **bizdən deyil**".

05.04.2016-cı il tarixində Güney Azərbaycan Demokrat Partiyası və Azərbaycan Öyrənci Hərəkatının "Bu can sənə qurban Azərbaycan" adlı birgə bəyanatı yayılmışdır.

Güney Azərbaycan Demokrat Partiyası (GADP) və Azərbaycan Öyrənci Hərəkatı (AZOH) Cəbhədə baş verən son olaylarla bağlı ortaq bəyanat yayıb. Bəyanatın mətni aşağıda verilir:

İşğalçı Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan Ordusunun mövqelərini atəşə tutması nəticəsində qəhrəman ordumuz 29 şəhid verərək düşmənin hücumlarının qarşısını alıb.

Birinci Qarabağ savaşı zamanı işğal edilmiş ərazilərimizi Güneyli-Quzeyli Azərbaycan xalqının milli məsələsi görür və daim ərazi bütövlüyümüzü müdafiə edirik. Eyni zamanda xalqımızın qəhrəman ordusunun son günlər işğal edilmiş ərazilərimizə doğru irəliləməsi bizi çox sevindirir, gec də olsa, düşmənə ordumuzun savaş ruhunun zəifləmədiyini göstərir.

Biz millət olaraq qəlblərdə heç zaman parçalanmamışıq yalnız xəritə üzərində düşmənlər bizi bölüblər. Ermənilər isə bizim bütövlüyümüzü hədəfə alaraq haqsız olaraq ərazilərimizi işğal

ediblər. Bütün beynəlxalq təşkilatların çıxardığı qərar və qətnamələrə baxmayaraq, öz cinayətkarlıqlarından əl çəkmirlər, təəssüf ki, adını islam dövləti qoyan İran da həmişə müsəlman-türk qatillərinə yardım edir. Azərbaycan milli məsələsinin isə diplomatik yolla həllinin yalnız sözdə dəstəkçisi olduğunu deyir.

Biz Güney Azərbaycan Demokrat Partiyası və AZOH təşkilatı olaraq Güney Azərbaycan türkləri Quzey Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və vətənimiz Azərbaycanın hər qarış torpağını canımız qədər sevirik. Hazırda Qarabağ cəbhəsində gedən döyüşləri Azərbaycan ordusunun haqq savaşı kimi görür və qəhrəman ordumuzun ərazi bütövlüyünü bərpa edərək erməni quldurlarından təmizləyəcəyinə tam inanırıq.

Bütöv Azərbaycan arzusu ilə,
Qarabağ bizimdir, Bizim qalacaq!
Güney Azərbaycan Demokrat Partiyası - GADP
Azərbaycan Öyrənci Hərəkatı - AZOH
05.04.2016

Qərbi Azərbaycan ostanının\ vilayətinin mərkəzi Urmiyə şəhərində 5 aprel 2016-cı il tarixində Azərbaycanın son hərbi uğurları ilə bağlı çoxsaylı şəbnamə (gizli vərəq) yayımlanmışdır. Vərəq cənubi azərbaycanlıları ayıq olmağa, burada bəzi qüvvələrə ikinci Qarabağ yaratmağa icazə verməməyə, Cənubi Azərbaycanın ərazi bütövlüyünü qorumağa çağırır. Şəbnamənin sonunda deyilir: “Biz, Azərbaycan Milli Hərəkatı və Azərbaycanın qərbinin türk millətini təmsil edən bir qrup bəyan edirik: həmişə və bütün şəraitlərdə Şimali Azərbaycan xalqı, dövləti və ordusunun yanındayıq. Biz, lazım gələrsə, Qarabağ cəbhəsinə getməyə və işğal olunmuş **torpaqlarımızı** qəsbkar Ermənistan rejiminin işğalından azad etməyə hazırıq”. (araznews.org)

Cənubi azərbaycanlıların Azərbaycan Respublikasına göstərdikləri mənəvi dəstək haqqında GünAztv icmal məlumat vermişdir.

http://www.gunaz.tv
08.04.2016

Dağlıq Qarabağla bağlı Təbrizdən Azərbaycana növbəti dəstək GünAz TV: İran Parlamenti seçkilərinin ikinci turuna Təbrizdən olan **namizədlər** Dağlıq Qarabağ məsələsində Azərbaycan Respublikasının haqlı mövqeyini dəstəkləyiblər.

Güney Azərbaycan əhalisi Dağlıq Qarabağda toqquşmalar kəskinləşdikdən sonra Azərbaycan Respublikasının dövləti və onun doğma millətinə müxtəlif formalarda dəstək verməyə çalışır. Bir çox soydaşımız hətta savaşa qoşulmaq üçün cəbhə xəttinə getməyi də təklif edib.

İran Parlamenti seçkilərinin ikinci turuna Təbrizdən olan **namizədlər** isə Dağlıq Qarabağ məsələsində Azərbaycanın yanında olduqlarını xüsusi vurğulayıblar. Mirəli Əsgər Musəvi, Abbas Abbaszadə, Şəhabəddin Bimiqdar və Xanım Zəhra Sai birgə **bəyanat** yayaraq Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətini qınayıb və Azərbaycan xalqına dəstək nümayiş etdiriblər. "Biz Azərbaycan millətinin öz torpaqları üzərində hakimiyyətinin bərpa olunmasını dəstəkləyirik" – deyə Bəyanatda qeyd olunub.

Bundan öncə isə Urmudan İran Parlamenti seçkilərinin ikinci turuna **namizəd** Seyid Hadi Bahaduri, **digər namizəd** Ruhulla Həzrətpur, Urmunun millət vəkili Nadir Qazipur və digər azərbaycanlı məsullar oxşar bəyanatlar verərək Azərbaycan Respublikasına öz dəstəklərini nümayiş etdiriblər.

**Ərdəbildə** isə xalq küçələrə çıxaraq, müxtəlif yerlərdə Azərbaycan dövlətini və ordusunu dəstəkləyən şüarlar yazıb və parçalar asıblar. Ərdəbildə azərbaycanlılar "Qarabağ islam yurdudur", "Qarabağ Azərbaycanındır" kimi şüarları divarlara yazıb, şəhərin müxtəlif yerlərində plakatlar asıblar.

Cənubi azərbaycanlılar və onları təmsil edən müxalif demokratik təşkilatlar Azərbaycanın haqq mübarizəsini dəstəkləməyi özlərinin eyni xalqın bir parçası kimi təbii milli-mənəvi borcu hesab edirdilər. Parlamentdə kürsü uğrunda mübarizə aparan şəxslər isə konyukturaya uyğun olaraq şəraitdən istifadə edərək seçici səsləri üçün onların səsinə səs verdiklərini nümayiş etdirirdilər və səmimiyyətlərinə inanmaq o qədər də sadə məsələ deyildi. Digər

tərəfdən, azərbaycanlı siyasətçilər (yenidən deputat olmaq istəyənlər) və siyasətçi olmaq istəyənlərin Azərbaycanın ədalətli mübarizəsini dəstəkləməsi qeyd edilməlidir.

## 5.3. Cənubi Azərbaycan elmi ictimaiyyətinin mövqeyi və ya "Qarabağ İslam torpağı" mövzusunda elmi-siyasi konfranslar

Cənubi Azərbaycanın elmi mərkəzlərində operativ şəkildə son hadisələri araşdırmaq üçün elmi toplantılar keçirilmişdir.

18 fərvərdin 1395\6 aprel 2016-cı il tarixində Təbrizdə Kitab evində alimlərin, jurnalistlərin, vətəndaşların və gənclərin bir qrupunun iştirakı ilə "Qarabağ İslam torpağı\İran, Türkiyə, Rusiya, Amerika və İsrailin Ermənistan-Azərbaycan münaqişəsində mövqeyinin işıqlı və qaranlıq tərəfləri" adlı toplantıda Qarabağda baş verən son hadisələr araşdırılmışdır. (www.asretabriz.ir 19.01.1395\07.04.2016)

Azərbaycan dilində keçirilən konfransda çıxış edən Qafqaz regionu üzrə araşdırmaçı Mehdi Nəlbəndi münaqişə bölgəsinin tarixindən danışaraq dedi: "Məsələnin zahiri belədir ki, 22 il bundan əvvəl Ermənistan Azərbaycan Respublikasına qarşı müharibəyə başlayaraq onun ərazisinin **20%-ni işğal etdi**". Çıxış edən məsələnin mahiyyətini dərk etmək üçün keçmişə nəzər salmağı vacib hesab edərək bildirir ki, Rusiya çarizmi devrildikdən və Cənubi Qafqazda ***kiçik*** respublikalar yarandıqdan sonra Qarabağ **Rusiya və Osmanlı** arasında mühüm mübahisə (?) obyekti idi. İranın mövqeyindən danışan natiq bildirdi ki, İranın mövqeyi **İşğalı rədd etməsi və Qarabağı Azərbaycan torpağı hesab etməsinə əsaslanır**. Ona görə də müharibə başlayanda İran ən çox müşavir, maddi və hərbi yardımı Azərbaycana göstərdi, təəssüf ki, Ermənistanla qonşuluq səbəbindən bu barədə faktlar az işıqlandırılmışdır.

O bəyan etdi ki, İranın Ermənistana **silahla** kömək etdiyini iddia edənlər bu barədə bir dənə də sənəd göstərə bilmirlər. Natiq

İranın Ermənistanla əlaqələri kəsməməsinə irad tutanlara cavab olaraq Türkiyə Prezidentinin İrəvana səfərini və Azərbaycanın keçmiş prezidenti Əbülfəz Elçibəyin guya Qarabağın Ermənistan tərəfindən işğal olunmasına razı, İran tərəfindən azad olunmasına razı olmadığı barədə fikrini vurğulayaraq, İranın həmin məsələdə başının uca olduğunu qeyd edir.

Sonra çıxış edən Qafqaz regionu üzrə **jurnalist**\icmalçı Məsud Sədr Məhəmmədi dedi: "Qarabağ müharibəsinin mahiyyətini düzgün dərk etmək üçün böyük dövlətlərin, o cümlədən Rusiyanın siyasətini araşdırmaq lazımdır. O, İsrailin regiona islam inqilabının ixrac olunmaması üçün orada gərginliyi gücləndirməklə məşğul olduğu barədə fikir irəli sürdü. Onun fikrincə, Minsk qrupu həmin məsələni həll etməyə qadir deyil, Amerika və Rusiya məsələnin həllinin şərtləri barədə razılığa gələ bilməzlər, çünki həmin münaqişəni saxlamaqla **İrana** təzyiq göstərməyə çalışırlar.

İclasda çıxış edən İranın İstanbulda keçmiş mədəniyyət attaşesi olmuş hüccətülislam Şəbani Qarabağ məsələsinin Türkiyə üçün əhəmiyyətindən danışaraq göstərdi ki, Türkiyəni tanımaq üçün əvvəlcə oradakı kölgə güc mərkəzlərini bilmək lazımdır. [Yığıncaq haqqında verilən geniş məlumat burada bitir.]

Məlumat yarımçıqlıq təsiri bağışladığından münasibət bildirmək çətindir. Bununla belə, İranın Azərbaycana yardımından, böhranın davam etməsində Rusiya, ABŞ, İsrail və Türkiyənin maraqlı olmasından danışıldığını görürük.

23.01.1395\11.04.2016-cı il tarixində Təbrizdə **AzərAran** mədəniyyət müəssisəsində universitet professorları, müəllimləri, ekspertlər, alimlər, jurnalistlər və media fəallarının iştirakı ilə "Qarabağ münaqişəsində son dəyişikliklərin araşdırılması" mövzusunda elmi konfrans keçirilmişdir. (Bu barədə məlumat və hesabat Cənubi və ilk növbədə, Şərqi Azərbaycan saytlarında yerləşdirilmişdir: www.nasrnews.ir – keçirilmə faktı haqqında xəbər; elpress.ir – geniş hesabat.)

İnternet saytlarında həmin tədbir haqqında məlumat Azərbaycan dilinə tərcümədə aşağıdakı ad altında getmişdir: "Təb-

rizdə ekspertlərin iştirakı ilə keçirilən elmi yığıncaqda araşdırıldı: İranın Azərbaycan Respublikasını dəstəkləməsinin deyilməmiş tarixindən xarici aktorların Qarabağ münaqişəsində roluna qədər".

Yığıncağı Qafqaz regionu üzrə tədqiqatçı və **Azər Aran müəssisəsinin** müdiri Məhəmməd Rza Kəffaş Cəmşid açaraq Qarabağ münaqişəsinin anatomiyasına İranın maraqları baxımından nəzər saldı, həmin maraqlar və ideoloji yönümün İranın münaqişəyə qatılmasının zəruriliyinə işarə edərək, Qarabağı Fələstin (?-V.M.) adlandırdı. O, sonra münaqişənin tarixindən danışaraq İranın Azərbaycan Respublikasına yardımından (iranlı hərbi müşavirlər, Azərbaycan Silahlı Qüvvələrinə təlim keçilməsi, hərbi dəstək və qaçqınlara humanitar yardım) danışdı. O, Rəhbərin bir neçə dəfə Qarabağın işğal edilməsini rədd etməsi və İranın vasitəçilik rolunu siyasi dəstəyin təzahürləri adlandırdı. **Qarabağın** müstəqillik tərəfdarlarının İran diplomatları olan təyyarəyə atəş açmalarını İranın işğal olunmuş torpaqları geri qaytarmaqda **kömək** müqabilində ödədiyi qiymət hesab edir.

Onun fikrincə, son münaqişə başlayanda hamı bilirdi ki, müharibə davam edə bilməz, çünki **hər iki tərəf** müharibəyə hazır deyil. Azərbaycan neftinin qiymətinin **aşağı** düşməsinə və daxili problemlərə görə, Ermənistan isə mühasirədə olduğuna görə. Çıxış edən dedi ki, Rusiyanın, **Türkiyə**nin rolu haqqında fərziyyələr nəzərə alınsa belə, region dövlətləri münaqişənin kəskinləşməsinin tərəfdarı deyillər, lakin onlar münaqişənin **həllinin də tərəfdarı deyillər (?!!)** və onu dondurulmuş vəziyyətdə saxlayaraq bir-birindən güzəştlərə nail olmaq üçün istifadə edirlər. İranın son münaqişədə rolu məntiqidir və işğalçılığı rədd etmək prinsipinə əsaslanır.

Kəffaş Azərbaycanın son hərbi uğuru və bir neçə yüksəkliyi ələ keçirməsini özünəinam hissinin güclənməsi və münaqişənin əvvəlində aldığı yaraların sağaldılması istiqamətində addım kimi dəyərləndirdi. Çıxış edən Azərbaycan rəhbərliyinə islamçı qüvvələrin və İslam dünyasının potensialından istifadə etməyi məsləhət görür.

İkinci çıxış edən, Qafqaz və Anadolu [yəni Türkiyə] sahəsində jurnalist və icmalçı Mehdi Nalbəndi Qarabağ münaqişəsinin uzanması və İslam torpaqlarının bu parçasının azad edilməməsi amili kimi Azərbaycan rəhbərliyi və ictimai fikrinin **meyilsizliyini** qeyd edir. O, İranın hər cür işğala qarşı olduğunu xatırladaraq vurğulayır ki, İranın birinci və axırıncı mövqeyi rəhbərin "**Qarabağ islam torpağıdır**" cümləsində ifadə olunub. O qeyd edir ki, pərdə arxasındakı əllər münaqişənin müsəlmanların, İranın əli ilə həll olunmasına mane olurlar. O sual edir ki, niyə regionun **iki** güclü dövləti Minsk qrupunun üzvü deyil. [Əgər İran və Türkiyə nəzərdə tutulursa, yada salınmalıdır ki, Türkiyə Minsk qrupunun üzvüdür, yox əgər həmsədr kimi üzvlük nəzərdə tutulursa, onda irad düzgündür.]

Natiq qeyd edir ki, bu gün, Pakistandan tutmuş İsrailə qədər, hamı Qarabağ münaqişəsindən pay istəyir, halbuki münaqişənin həll yolu onun **erməni-azəri** münaqişəsinə çevrilməsidir. Çıxış edən İranın məsul şəxslərinin **bəzilərinin** Qarabağ münaqişəsinin əhəmiyyətini axıracan **dərk etmədiyini**, azərbaycanlıların regionun tarixində **inkaredilməz payı** olduğunu qeyd edərək vurğulayır: "Biz münaqişədə tamamilə **bitərəf ola bilmərik**, çünki Qarabağın islam torpağı olduğuna əminik və hər cürə işğalçılığa qarşıyıq". O daha sonra maraqlı bir məqama toxunmuşdur. Belə ki, belə bir fikrə aydınlıq gətirmişdir ki, azərbaycanlılar\iranlılar (**biz**) bir tərəfdən Azərbaycan hökumətini Avrovijinə, Nardaran hadisələrinə görə tənqid edir, digər tərəfdən Qarabağ münaqişəsində dəstəkləyirlər. O deyir: "Məgər Qarabağ hazırki iqtidara məxsusdur, iqtidarlar dəyişir, Qarabağı dəstəkləməyin əsasını inqilabın yüksək idealları və İslam torpağının işğalının rədd edilməsi təşkil edir". O, döyüşlərdə həlak olmuş azərbaycanlıları şəhid adlandırmağı zəruri hesab edərək göstərir ki, son hadisələr orada **İslamı** gücləndirəcəkdir. Azərbaycanlı **ziyalılar** Minsk qrupunun fəaliyyətindən ümidsiz olaraq ərazilərin geri qaytarılmasında **islam aləmi və İrana** daha çox ümid

bəsləyirlər. Təbrizli jurnalist çıxışının sonunda dedi: "Arzu edirik, Qarabağın geri alınması ilə Şuşada azan səsi ucalsın və biz cümə namazına yığışaq".

Sonrakı natiq, Təbriz Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər kafedrasının müdiri, doktor Rəcəb İzədi Qarabağ münaqişəsində böyük dövlətlərin rolundan danışaraq onların, ümumiyyətlə, istənilən münaqişənin tez həll olunmasında maraqlı olmadıqlarını vurğuladı. Onun fikrincə, nə **ABŞ, nə də Rusiya** münaqişənin başa çatmasını istəyir. Belə bir şəraitdə İranın vəzifəsi Cənubi Qafqaza daha geniş diqqət yetirməkdir. Böyük dövlətlər münaqişənin başa çatmasını təmin etmək yox, onun genişlənməsi və güclənməsinə yol verməməyə çalışırlar. O dedi: "**Özünün ərazi bütövlüyünü təmin etmək Azərbaycan hökumətinin vəzifəsidir".**

O, İranın son hadisələr zamanı tərəfləri atəşkəsə və təmkinli olmağa çağırdığını qeyd edərək, ümid etdiyini bildirdi ki, Qarabağ Suriya və Krım kimi Rusiya və ABŞ arasında mübarizə meydanına çevrilməyəcək və Türkiyə də İranla tarixi əlaqələrini nəzərə alaraq regionda təhlükəsizliyin təmin edilməsi sahəsində **İranla əməkdaşlıq** edəcək, çünki İsraildən və ya başqa yerdən bəzi qüvvələr vəziyyəti gərginləşdirməyə çalışa bilərlər. O, həmçinin İranın birinci Qarabağ savaşı zamanı Azərbaycan Respublikasına yardımına toxunaraq dedi: "Bunu Azərbaycan Respublikasının həm xalqı, həm də hakimiyyəti yaxşı bilir".

Elmi konfrans müzakirələr, sual-cavabla davam etmişdir. Elmi yığıncaqda, həmçinin Azər Aran Müəssisəsinin idarə heyətinin sədri, universitetin professoru, doktor Məhəmməd Əli Mütəfəkkir Azad; Təbriz Universitetinin İran Tarixi və Mədəniyyəti İnstitutunun direktoru doktor Məhəmməd Əli Porğu; Azad Təbriz Universitetinin siyasi elmlər müəllimi (professor), doktor Cəmşidi Rad; Təbriz Universitetinin tarix müəllimi (professor), doktor Rəhim Nikbəxt; Qafqaz və Anadolu məsələləri üzrə ekspertlər Möhsün Məhəmmədzadə və Həmid Qüdsi; media fəalları Səxavət Xeyrxah, Puyacuş Peyman, Şəhriyar Şəfii, Ramin Nizamixah,

Məhəmməd Söhrabi və mədəni fəal, universitet müəllimi (professor), doktor Ruhulla Mütəfəkkir Azad iştirak etmişlər.

Göründüyü kimi, elmi konfrans çox yüksək səviyyədə keçmiş, çıxış edən alimlər və mütəxəssislər məsələlərə elmi, hərtərəfli, obyektiv və təbii ki, öz ölkələrinin – İran İslam Respublikasının maraqları prizmasından yanaşmışlar. Burada diqqəti çəkən ən mühüm cəhət, İran İslam Respublikası rəhbərlərinə Qarabağ münaqişəsinə münasibətdə özünün elan etdiyi baza prinsipləri, o cümlədən hər cür işğala qarşı olmaq prinsipini və regionun tarixində əvəzsiz rol oynamış Azərbaycan xalqının maraqlarını nəzərə almaq çağırışı edilməsidir.

Həmin elmi toplantı haqqında eyni hesabat bir sıra dəyişikliklərlə, bəlkə, səhvə yol verməklə www.islamri.com saytında eyni tarixdə, lakin qısa adla "Qarabağ münaqişəsində sonuncu dəyişikliklərin araşdırılması" yerləşdirilmişdir. Burada elmi toplantı ixtisaslaşmış elmi (təxəssosi-elmi) konfrans adlandırılır. Konfransın **Azərbaycan beynəlxalq işçi qrupları masaları** müdirlərinin səyi ilə keçirildiyi göstərilir. Daha sonra iclası Aran Müəssisəsinin idarə heyətinin sədri, ostan elita evinin Azərbaycan masasının müdiri doktor Mütəfəkkir Azadın açması və mövzu ilə bağlı məlumat verməsi və çıxış edənləri təqdim etməsi qeyd olunur. Doktor Məhəmmədrza Kəffaş Cəmşid Qafqaz üzrə tədqiqatçı, Elita evinin Türkiyə masasının müdiri kimi təqdim olunur və iclasda iştirak edən digər iştirakçıların adları qeyd olunmur. Amma hesabatın məzmunu eynidir.

14 ordibeheşt 1395\3may 2016-cı il tarixində Ərdəbilin Mühəqqiq Ərdəbili Universitetində Azərbaycan Respublikasının mədəni inkişaf bürosunun Qafqaz mədəniyyət mərkəzi və Mühəqqiq Ərdəbili Universitetinin təşəbbüsü ilə Fundamental elmlər fakültəsində "Qarabağda dəyişikliklər-nəticələr və təhlükəsizlik böhranı" mövzusunda elmi sessiya keçirildi. (www.gafgaz.ir)

Sessiya doktor Hüseyninin Qarabağ tarixinə üç sahədə – coğrafiya, din və siyasi tarix – baxış çıxışı ilə başlandı. Qarabağın **Xəzər dənizi ilə Gürcüstan və Ermənisrtan arasında, Araz və Kür çaylarının arasında** yerləşdiyini qeyd edən müəllif burada

əhalinin əvvəlcə səma cisimlərinə sitayiş etdiyini, sonra xristianlığın meydana gəlməsi ilə xristianlığa və daha sonra islama sitayiş etdiyini göstərir. Regionun siyasi tarixindən bəhs edən natiq burada meydana gələn və **IV əsrə qədər (? - V.M.)** mövcud olan dövlətin Albaniya olması, onu müsəlman Şəddadi dövlətinin əvəz etməsi, lakin **səlib yürşlərindən sonra (? - V.M.)** hakimiyyətin xristianların əlinə keçməsi və Səfəvilərin (**?** - V.M) hakimiyyətə gəlməsi ilə hakimiyyətin yenidən **müsəlmanların (?)** əlinə keçməsi haqqında danışdı.

İkinci çıxış edən, doktor Səhranəvərd son hadisələr – Dördgünlük müharibəyə toxunaraq bəyan etdi: “Münaqişə xarici amillər, o cümlədən **Türkiyənin (? - V.M.)** təsiri nəticəsində başlandı”. Münaqişənin tarixini qısa şəkildə yada salan çıxışçı ötən 22 ildə Minsk qrupunun münaqişənin həlli istiqamətində heç bir iş görmədiyini xüsusi vurğuladı. O qeyd etdi ki, birinci mərhələdə Azərbaycan Respublikasının ərazisinin 20%-i işğal olundu və 1 mln.-dan çox müsəlman azərbaycanlı öz yurd-yuvasından məcburi köçkün vəziyyətinə düşdü. Bu 22 il ərzində Azərbaycanın işğal olunmuş torpaqlarında ermənilər **islam dininin müqəddəs dəyərlərini geniş miqyasda təhqir etdilər**, bir çox məscidin funksiyası dəyişdirildi. Natiq münaqişədə İranın mövqeyindən danışarkən bildirdi ki, əgər münaqişənin tarixinə nəzər salsaq, həmin ölkənin yardımların **çoxunu Azərbaycana** etdiyini görərik, hətta həmin vaxta aid sənədlərdə Azərbaycanın İrana **borcu** qeyd edilmişdir və indiyə qədər həmin borclar qaytarılmayıbdır. Türkiyənin mövqeyindən danışan natiq həmin ölkənin regionda daha təsirli rol oynamağa çalışdığını, özünü Azərbaycanın **böyük qardaşı** hesab etdiyini və münaqişənin daha çox **qızışdırılmasına** səbəb olduğunu vurğulamışdır.

Natiqin fikrincə, münaqişənin davam etməsində maraqlı ölkələrdən biri də İsraildir. Natiq Azərbaycanın İsraillə əməkdaşlığa tərəfdar olmasına təəssüf edir. Dörd günlük hərbi əməliyyatlar nəticəsində Azərbaycan ermənilərin əlində olan torpaqlarının **5.2%-ni** geri ala bilmişdir.

Qərbin və böyük dövlətlərin mövqeyindən danışan natiq belə bir cəhətə diqqəti yönəldir: böyük dövlətlər qondarma Dağlıq Qarabağ respublikasının müstəqilliyini tanımasalar da, onlardan bəziləri, məsələn, **Fransa, İngiltərə, ABŞ** və b. tanınmamış qurumun ərazisində yaşayan sakinlərə **viza verir.**

İranın mövqeyindən danışan alim deyir: "Böyük Rəhbər öz bəyanatlarında buyurmuşlar: Qarabağ islam torpağıdır və burada öldürülən hər bir kəs şəhid hesab olunur". Natiq qeyd etdi: "Azərbaycan ostanlarının imam cümələrinin bəyanatları və ən mühümü, Ərdəbil ostanının imam cüməsi ayətullah Seyid Həsən Amilinin cümə namazı xütbəsində buyurduğu fikir: "Mən şəxsən Qarabağ cəbhəsinə getməyə və azərbaycanlı qardaşlarıma kömək etməyə hazıram" son dərəcə mühüm bir hadisə sayılır və onu göstərir ki, bu hadisələr zamanı **biz** (! - V.M.) Azərbaycan **xalqının** yanındayıq". Həmin bəyanatlar Azərbaycan Respublikasında geniş əks-səda doğurdu və natiqin fikrincə, bəzi inadkar KİV nümayəndələrinin İranın Qarabağ münaqişəsində mövqeyi ilə bağlı informasiya şantajının neytrallaşdırılmasında mühüm paya malik olmuşdur.

Toplantı suallara cavablarla başa çatdı və belə toplantıların daim keçirilməsi arzusu ifadə olundu.

Bizcə, haqqında danışılan toplantıda edilən çıxışlar, xüsusən ikinci natiqin çıxışı, haqqında şərhə ehtiyac yoxdur, çünki çıxışlarda Cənubi Azərbaycanın elmi ictimaiyyətinin münaqişə haqqında doğru-dürüst məlumata malik olduğu öz əksini tapmaqla yanaşı, Azərbaycan xalqının ədalətli mübarizəsində onunla həmrəy olduğu birmənalı şəkildə vurğulanmışdır. Bu, Azərbaycan Respublikası vətəndaşları üçün təbii görünsə də, İran İslam Respublikasının rəhbərləri və ölkədə mövcud olan bütün millətçi fars və öz xalqının maraqlarına qarşı ideoloji mübarizə aparan "**azəri**" manqurdlar üçün çox mühüm mesaj hesab edilməlidir.

Həmin məsələ ilə bağlı sonuncu tədbir haqqında ətraflı məlumat verməklə mövzunu tarix etibarilə həmin sonuncu hadisənin tarixi, 7-8 may 2016-cı illə başa vurmağı zəruri sayırıq, çünki

5 apreldən sonra münaqişənin yeni şəraitdə ikinci siyasi-diplomatik dövrü başlanmış və prezidentlərin görüşü (16 may 2016, Vyana) ilə həmin mərhələnin yeni dövrünə start verilmişdir. Yəni tarixi dövr, mahiyyət etibarilə də fərqli bir mərhələ olduğu üçün, müstəqil bir araşdırmanın obyekti ola bilər.

Burada gələcək tədqiqatlar üçün müəyyən mənada mənbə rolunu oynaya bilən materiallar xronoloji ardıcılıqla şərh edilmişdir və əsas diqqət İrandan fərqli baxışa yönəldilmişdir.

18 ordibeheşt 1395\7 may  2016-cı il tarixində Təbriz Universitetində Azərbaycan Respublikasından gəlmiş qonaqların iştirakı ilə "İslam torpağı" mövzusunda dəyirmi masa keçirilmişdir. Qarabağ münaqişəsi ilə bağlı atəşkəsdən sonra, Azərbaycan və Ermənistan prezidentlərinin görüşündən (Vyana, 16 may 2016) əvvəl İranda (Cənubi Azərbaycanda) keçirilmiş sonuncu elmi-siyasi tədbir haqqında ayrıca danışmaq zəruri görünür. Çünki hadisənin işıqlandırılmasına, həm də bəzən eyni saytlar tərəfindən, müxtəlif və fərqli mövqe nümayiş etdirilir.

Tədbir haqqında ev sahibinin – Təbriz Universitetinin saytında (www.tabrizu.ac.ir) yerləşdirilən məlumat:

"Təbriz Universiteti

Təbriz Universitetində "**İslam toprağı**" (farsca başlıqda belə gedir) mövzusunda dəyirmi masa keçirildi.

Təbriz şəhərində Azərbaycan Respublikası siyasi partiya başçıları, alimləri, ekspertlərinin və ölkəmizin bu sahədə fəallarının iştirakı ilə **Qarabağ mövzusunda** "İslam torpağı" [adlı] dəyirmi masa keçirildi.

Təbriz Universiteti ümumi əlaqələr şöbəsinin məlumatına görə "İslam torpağı" dəyirmi masası Qarabağ münaqişəsinin kökləri, səbəbləri, tarixi və **islam ərazisinin bir hissəsi** kimi keçmişinin elmi araşdırılması, zor tətbiq edilməsi, qətliam törədilməsini pisləmək məqsədilə keçirildi.

Konfransda Azərbaycan Respublikası Parlamentinin deputatı, Vəhdət partiyasının sədri Tahir Kərimli, Azərbaycan Ədalət partiyasının sədri İlyas İsmayılov, Qarabağ İslam Müqavimət Hərəkatının başçısı Rövşən Əhmədli, Qarabağ Azadlıq Təşkilatının

başçısı Akif Nağı, Azərbaycanın siyasi məsələlər üzrə eksperti Zərdüşt Əlizadə, Qarabağ İslam Müqavimət Hərəkatının üzvü Məhəmməd Cəbrayılov, Azərbaycan Respublikası Ziyalılar Birliyinin sədri Eldəniz Quliyev, Təbriz Universitetinin **rektoru** doktor Məhəmməd Rza Purməhəmmədi, **Aran müəssisəsinin**\institutunun idarə heyətinin üzvü və Təbriz Universitetinin müəllimi doktor Məhəmmədəli Mütəfəkkir Azad, Təbriz Universitetinin müəllimi doktor Ruhulla Mütəfəkkir Azad, **İİR R\Tv** Şərqi Azərbaycan idarəsinin baş direktorunun müşaviri Mehdi Nalbəndi, Qarabağ müharibəsində iştirak etmiş komandirlərdən\sərdar general Kəbiri, Təbriz Universitetinin müəllimi **Rəhim Nikbəxt, Aran müəssisəsinin**\institutunun direktoru doktor Məhəmmədrza Kəffaş, "**Məhde Azadi**" qəzetinin müdiri Seyid Məsud Peyman, eləcə də bir qrup media fəalı iştirak edirdilər.

Həmin məlumatda deyilir: "**Təşkilatçılar** münaqişə, ölkəmizin Azərbaycan müsəlmanlarına yardımları, həmçinin beynəlxalq tanınmış sərhədlərə ehtiramın zəruriliyi haqqında mütəxəssis fikirlərini bildirdilər".

Həmin məlumata əsasən, "İslam torpağı" adlı dəyirmi masa Təbriz Universitetinin **İran Tarixi və Mədəniyyəti İnstitutu** və **Aran Beynəlxalq Araşdırmalar İnstitutu**nun təşəbbüsü ilə keçirilmişdir".

Yuxarıda verilən məlumat, necə deyərlər, universitetin tədbir haqqında rəsmi məlumatIdır. Sonrakı məlumat, icmal və şərhlərdə həmin məlumat ilə əsaslı fərqlərin olduğu özünü göstəir, ona görə də həmin tədbir barədə fars və Azərbaycan dillərində mövcud və əlçatan internet materiallarını nəzərdən keçirməyi lazım bildik.

tabrizebidar.ir\19 ordibeheşt 1395\8 may 2016

"Təbriz Universitetində "**İslam torpağı**" [adlı] dəyirmi masada müzakirə edildi:

"Minsk qrupu Qarabağın işğal olunmuş ərazilərinin Azərbaycan Respublikasına qaytarılması üçün heç bir iradə nümayiş etdirmir, Qafqazda daha bir **xristian** dövləti yaratmağa çalışırlar".

Təbriz Universitetində Azərbaycan Respublikasından gəlmiş bir qrup siyasi partiya, qeyri hökumət təşkilatlarının rəhbərlərinin iştirakı ilə "İslam torpağı" [mövzusunda] dəyirmi masa keçirildi".

Qeyd etmək lazımdır ki, dəyirmi masa Azərbaycan dilində keçirilmiş və hesabat fars dilində dərc olunmuşdur, ona görə də çıxışçıların sözləri tərcümədən (Azərbaycan dilindən fars dilinə) tərcümədə (fars dilindən Azərbaycan dilinə) verilir.

"Təbrizebidar"ın verdiyi məlumata görə, Təbriz Universiteti **Tarix və mədəniyyət müəssisəsinin** təşəbbüsü, "**Azər Aran**" mədəniyyət və "**Qədim diyar**" müəssisələrinin iştirakı ilə **Şuşa şəhəri** əhalisinin kütləvi qətlinin ildönümünə həsr olunmuş toplantıda Qarabağ müharibəsində iştirak etmiş [hərbi] məsləhətçilərdən biri, hazırda Şərqi Azərbaycan ostandarının ali müşaviri olan sərdar\komandir general Kəbiri [Seyid Hüccət] zorla qəbul etdirilmiş 8 illik İran-İraq müharibəsini  Qarabağ müharibəsi ilə müqayisə edərək dedi: "Biz İraqın İrana zorla qəbul etdirdiyi 8 illik müharibədə nəinki bir qarış torpağımızın da təcavüzkarın əlində qalmasına yol vermədik, hətta düşməni cəzalandırmaq üçün onun ərazisinə daxil olaraq, onun bir sıra mühüm şəhərlərini ələ keçirə bildik. Azərbaycan Respublikası da Ermənistanla müharibə dövründə **xəyanətkar əllər olmasa idi**, bütün işğal olunmuş ərazilərini geri qaytara bilərdi".

O davam edərək dedi: "İran İslam Respublikası Qarabağ müharibəsi dövründə öz loqistik,  təchizat, təlim və siyasi yardımlarını Azərbaycan Respublikası hökuməti və müsəlman xalqından əsirgəmədi. Azərbaycana  **birbaşa yardımdan** biri həmin il (? - V.M.) **25 mln**. dollar dəyərində **silah satılması** idi. Həmçinin Azərbaycan və İran hökumətləri arasında razılaşmaya uyğun olaraq, iranlı təlimatçıların nəzarəti altında **8 min** azərbaycanlı hərbçiyə təlim keçildi və onların təlim-məşqlərini mərhum Heydər Əliyev bir neçə dəfə müşahidə etmişdi".

Kəbiri sonralar Azərbaycan kütləvi informasiya vasitələrində bu müharibədə İran İslam Respublikasının erməni silahlı qüvvələrinə yardım göstərməkdə ittiham edilməsindən təəssüfləndi-

yini bildirdi və bu cür ab-hava yaratmağın səbəbini İranı Azərbaycandan və əksinə, uzaqlaşdırmaq istəyən pərdə arxasındakı əllər olmasında gördü.

Toplantıda çıxış edən Təbriz Universitetinin rektoru dedi: "İran və Azərbaycan xalqları və dövlətləri arasındakı münasibətlər sırf qonşuluq münasibətləri deyil, hər iki xalqın ortaq deyimi ilə ifadə etsək, onu "can qardaşlığı" (orijinalda belədir) kimi xarakterizə edə bilərik". Doktor Məhəmmədrza Purməhəmədi sözünə davam edərək dedi: "İslamın əziz Peyğəmbərinin buyruğuna əsasən, bir müsəlman digər müsəlmanın yardım çağırışını eşidirsə və ondan öz köməyini əsirgəyirsə, o, müsəlman deyil. Buna görə, İran İslam Respublikası hökuməti və xalqı Qarabağ münaqişəsində həmişə **öz azəri qardaş və bacılarının** yanında olmuşlar". O əlavə etdi: "Elmi mərkəzlər **həmin məsələnin** həqiqətini əks etdirməyə səy göstərməlidirlər və bu baxımdan Təbriz Universiteti, Azərbacan siyasi partiya və Qarabağın azad edilməsi uğrunda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının başçılarını dəvət edərək **bu yolda** addım atmışdır".

Təbriz Universitetinin professoru, doktor Məhəmmədəli Mütəfəkkire Azad [İqtisadiyyat, menecment və marketinq fakültəsinin dekanı, azərbaycanlı - Sarablı] öz qısa çıxışında dedi ki, Qarabağ müharibəsi zamanı İran həqiqi mənada Azərbaycanın yanında olub, ona real kömək göstəribdir, amma işğaldan sonra gördük ki, Minsk qrupu Azərbaycanın ərazi bütövlüyünü həqiqi mənada müdafiə etməmişdir.

Konfransda çıxış edən Azərbaycan Parlamentini deputatı Tahir Kərimli İranın Qarabağ müharibəsində müsbət və konstruktiv rolunu qeyd edərək bildirdi ki, İran xarici işlər naziri Ə.Vilayətinin Bakıya gəlişi [03.11.1991] İranın Azərbaycanı dəstəklədiyinin göstəricisi idi.

O qeyd etdi ki, Ermənistan xristian dövlətlərinin arbitrliyi ilə işğal edilmiş ərazilər üzərində hakimiyyətini rəsmiləşdirməyə çalışır. BMT TŞ Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın işğalçı qüvvələrinin həmin ərazidən dərhal çıxarılmasının zəruriliyi ba-

rədə 4 qətnamə qəbul etmişdir ki, indiyə kimi onlar yerinə yetirilməyibdir. Azərbaycan Respublikası Vəhdət partiyasının sədri sözünə davam edərək dedi: "Son zamanlar Ermənistanda dünyanın bir neçə dilində kitab çap olunmuşdur. Şifahi tarix janrında hazırlanmış kitabda Qarabağın işğalında iştirak etmiş zabitlərin faciəvi əməlləri: müsəlman qadınlarına təcavüz etmələri, uşaqları qətlə yetirmələri, Şuşa cümə məscidini donuzluğa çevirdikləri təsvir olunur və hər bir vicdanlı insanın və təəssübkeş müsəlmanın ürəyini ağrıdır". T.Kərimli neçə il əvvəl Tehranda İran İslam Respublikasını lideri ilə görüşünü xatırlayaraq vurğuladı: "Rəhbərin Qarabağdan danışarkən, onu "xake eslam" və ya "islam torpağı" adlandırmasını çox ürəyəyatan**xoş** hesab edirəm".

Azərbaycan Respublikası Ədalət partiyasının sədri İlyas İsmayılov Qarabağın işğal olunması tarixinə qısa nəzər salaraq dedi: "1985-ci ildə Afinada konfrans təşkil olundu, həmin konfransda neçə islam ölkəsinin əhatəsində olan Ermənistanın ərazisinin genişləndirilməsi vurğulandı. Həmin məqsədlə iki plan - ərazinin Gürcüstan və Azərbaycan istiqamətində genişləndirilməsi planları müzakirə edildikdən sonra ikinci plan qəbul olundu". Natiq sözünə davam edərək dedi: "Qarabağın işğalından 25 il keçir və həmin müddət ərzində münaqişənin həlli ABŞ, Rusiya və Fransadan ibarət Minsk qrupuna həvalə edilmişdir. Həmin qrup işğal olunmuş ərazilərin Azərbaycana qaytarılması üçün heç bir iradə göstərmədiyindən dost və qonşu ölkələrdə yardım axtarmaq və Azərbaycan gənclərinin gücünə arxalanaraq işğala son qoymaq yolu ilə gedilməlidir". O əlavə edərək dedi: "Bəziləri belə təsəvvür yaratmağa çalışırlar ki, guya Azərbaycan Respublikasında Qarabağı Ermənistandan geri almaq iradəsi yoxdur. Mən bəyan edirəm ki, bu tamamilə səhv fikirdir və Azərbaycan xalqı hər an Qarabağın azad edilməsi xəbərini eşitmək istəyir. Biz bunu sonuncu Dördgünlük müharibə zamanı əyani şəkildə gördük".

Siyasi analitik [universitetdə siyasi coğrafiyanı tədris edir və Aran araşdırma mərkəzinin rəisi] doktor Məhəmmədrza Kəffaş Cəmşid çıxışı zamanı İnqilab Rəhbərinin "Ermənistan dövləti və Qarabağ erməniləri bölgənin müsəlmanlarına zülm edirlər və biz

***Qarabağ ermənilərinin (?)*** Ermənistanın dəstəyi ilə həyata keçirdikləri hərəkətləri pisləyirik” sözlərinə işarə edərək dedi: “İran İslam Respublikasının Qarabağ münaqişəsində qəti siyasəti işğalı rədd etmək, işğalçını pisləmək və işğalın aradan qaldırılmasının vacibliyi prinsiplərinə **əsaslanır** və biz həmişə Rəhbərin buyurduqlarına əsaslanan siyasəti vurğulamışıq”. O, sözünə davam edərək dedi: “Sonuncu Dördgünlük müharibə zamanı da Urmiyə, Təbriz, Ərdəbil və ölkənin digər şəhərlərinin **imam cümələri** Qarabağın Azərbaycan Respublikasına məxsus olduğunu vurğuladılar və İran İslam Respublikasının xarici işlər naziri aydın şəkildə bildirdi ki, İran Azərbaycan Respublikasına **terrorizmin** təsirinə qarşı hər cür müdafiə və kəşfiyyat-informasiya dəstəyi göstərməyə hazırdır”. Kəffaş dedi: “Bir neçə deputat da öz çıxışlarında və müsahibələrində [yuxarıda göstərildiyi kimi, bir nəfər məclisdə, digər 2-3 nəfər deputat isə onlardan müsahibə alanda] yuxarıda qeyd edilən mövqeyi vurğulayıblar”.

İclasda çıxış edən Qarabağ İslam Müqavimət Hərəkatının katibi Rövşən Əhmədli Azərbaycan Respublikasında kommunizm hakimiyyəti illərinə işarə edərək dedi: “Bizim ölkəmizdə bir vaxtlar adamlara cənazə namazı qılmağa icazə vermirdilər və **ölülər gecə (?)** və kommunist rejimi əsgərlərindən gizlin **dəfn** olunurdu. Bu bir misaldır və göstərir ki, bizim atalarımız dinimizi dinsizliyin tüğyan etdiyi bir şəraitdə bizə çatdırıblar və yüz əlbəttə ki, aradan gedən deyil və Azərbaycanda indinin özündə həqiqi dindarlar çoxsaylı problemlərlə üzləşirlər”. O davam edərək dedi: “Gələn il Qarabağın işğalı və işğal zamanı erməni silahlı qüvvələrinin törətdiyi cinayətlərin 25 ili tamam oacaq, ona görə Allahdan arzu edək ki, işğal bir rübdən çox davam etməsin”.

Qarabağ Azadlıq Təşkilatının baş katibi tədbirin Şuşa şəhərinin işğalının ildönümündə keçirilməsi və Qarabağ mövzusunda Azərbaycan və İranın ortaq mövqelərə malik olduqlarını bir daha vurğulayaraq dedi: “Şuşa Azərbaycanın tarixi və mədəniyyət şəhəridir və işğal olunmuş digər şəhərlərlə birlikdə Azərbaycanın bir parçasıdır”. Akif Nağı davam edərək dedi: “Qarabağ məsələsi hərbi yoldan daha çox **siyasi yolla** həll edilə bilər”.

“Xristian dövlətlər nüfuzlu beynəlxalq qurumlarda malik olduqları təsirdən istifadə edərək **Cənubi Qafqazda** ikinci **xristian** (?) dövləti yaratmaq istəyirlər. Həmin məsələnin kökünü axtarmaq üçün tarixə müraciət edərək Rusiyanın erməniləri Qarabağa köçürməsi və burada demoqrafik tarazlığı alt-üst etməsinin səbəbini tapmalıyıq”.

O davam edərək dedi: “Qarabağın işğalına son qoyulması üçün 20 ildən çoxdur ki, xristian vasitəçilərə ümid bəslədikdən sonra bu gün belə bir qənaətə gəlmişik ki, Qarabağın azadlığı üçün öz qüvvəmizə arxalanaq və bu yolda islam ölkələrindən və onların da başında Türkiyə və İrandan yardım istəyək. Nəhayət, belə bir sual vermək istəyirəm, əgər Ermənistan torpağı Azərbaycanın işğalında olsa idi, həmin dövlət işğalın aradan qaldırılması üçün 3 islam dövlətinin vasitəçiliyinə razı olardımı?”.

Təbriz Universitetinin professoru, doktor Ruhulla Mütəfəkkir Azad qısa çıxışı zamanı dedi: “Keçən il Hüseynin ərbəin [qırx] mərasimində əllərində Azərbaycan bayrağı olan böyük sayda azərbaycanlı gənc gördüm və fikirləşdim ki, bu gənclərlə Qarabağı işğaldan azad etmək olar”. O davamında dedi: “Fələstinin qəsbkar sionist rejimi tərəfindən işğalından 75 il keçməsi və həmin müddətdə bir neçə nəslin bir-birini əvəz etməsindən sonra bu gün onun azad olması perspektivi bir qədər şübhəli görünür. Olmaya-olmaya belə bir tale illər keçəndən sonra Qarabağın da başına gəlsin və sizin övladlarınız Qarabağın Azərbaycana aid olduğunu keçmiş tarixdən bir xatirə kimi yadda saxlasınlar”.

Qafqaz məsələləri üzrə analitik Mehdi Nəlbəndi Qarabağı Qafqaz Fələstini adlandırdı və bir fərqin olduğunu – Azərbaycan dövlətinin mövcud olduğunu qeyd etdi. O dedi: “Hər bir iranlı həmvətən üçün Xocalı ilə Xürrəmşəhr arasında fərq yoxdur. Müsəlman iranlıların ürəyi bu işğaldan qan ağlayır və biz də sizin kimi son hərbi uğurlara ürəkdən sevinirik. Bakıda və Təbrizdə çoxlu erməni yaşayır və sərbəst şəkildə dolanır, bu göstərir ki, BİZİM din-ainlə heç bir problemimiz yoxdur, bizim işğal və işğalçı

ilə problemimiz vardır”. O sonda dedi: “Arzu edirəm, Şuşa məscidindən yenidən azan səsi gəlsin və Allahın köməyi ilə, o gün uzaqda olmayacaqdır”.

Azərbaycan Ziyalılar Birliyinin sədri Elçin Quliyev Qarabağ müharibəsi zamanı Hüseyn Fəhmide [1967-1980; cəbhədə qumbara ilə tankı partladıb] kimi qəhrəmanların olduğuna işarə edərək dedi: “Qarabağ şəhidləri arasında 15 yaşlı şəhidimiz olub ki, şəhadət vaxtı uca səslə deyibdir: “Vətən torpağının azadlığı uğrunda vücudumun hər bir parçasını fəda etməyə hazıram”.

Elmi konfransın sonunda çıxış edən jurnalist və siyasi analitik Zərdüşt Əlizadə bəyan etdi ki, Ermənistan-Azərbaycan müharibəsinin kökünü Rusiya fikir otaqlarında, prezidentinin müşavirlərində və xarici işlər nazirliyinin komitələrində axtarmaq lazımdır. O davam edərək dedi: “Totalitar və avtoritar dövlətlər iki millət arasında nifrət yaratmağa zəmin hazırlamaq üçün əvvəlcə tarixçiləri, yazıçıları, incəsənət xadimlərini qabağa verir və onların arasından bəziləri bilə-bilə, bəziləri isə nadanlıq səbəbindən meydana girərək nifrət zəhəri səpməyə başlayırlar”.

Əlizadə davam etdi: “Necə olmuşdur ki, biz 1988-ci ilə kimi ermənilərlə mehriban yaşamışıq, amma bundan sonra qırğınlar və genosidlə üzləşmişik”.

Həmin siyasi təhlilçi davam edərək dedi: “25 ildir ki, Rusiya Qarabağ münaqişəsini bəhanə edərək Ermənistan və Azərbaycanı idarə edir, münaqişənin kökü burada axtarılmalıdır”.

Elmi konfransda, həmçinin Muxtar Sədr Məhəmmədi, İbrahim Qiblə Arbatan və Qurban Cəbrail işğalı rədd edən və Qarabağın azadlığı mövzusunda şeirlər oxudular.

Dəyirmi masa haqqında www.asrtabriz.ir-(07 05.2016); – ,www.gathreh.com, gafgaz.ir – (19.02\08 05 2016); –tnews.ir, (07.05.2016) saytlarında qeyd edilən tarixlərdə fotosessiya formasında məlumat verilmişdir.

Təbriz Universiteti İran Tarixi və Mədəniyyəti İnstitutunun iranhci.tabrizu.ac.ir və universitetin Su diskurs otağının wdr.tabrizu.ac.ir saytında 19.02.1395\08.05.2016 tarixində - arannewsun

hesabatı dərc olunub və “təbrizebidar” saytında yerləşdirilmiş hesabatın eynisidir. iikss.com \20.02.1395\09.05.2016 İran Qarabağ müharibəsində 8000 Azərbaycan əsgərinə təlim keçib adı ilə arannewsun materialı\\foto məlumat və ya eyni hesabat şəklində məlumat vermişdir. Mövzu ilə bağlı www.anaj.ir(09 05 2016/) saytında bir nəfər şimallı islamçı fəalın tədbiri müsbət qiymətləndirməsi haqqında qısa məlumat; news.tamashagar.com və www.khabaronline.ir – (20 02 1395\09 05 2016) saytlarında isə Azərbaycan Respublikasından olan iştirakçıların tədbiri müsbət qiymətləndirmələri haqqında material verilibdir.

Saytda (“tabrizebidar”) həmin konfransla bağlı yerləşdirilmiş ikinci yazı “Rəhbəre Conbeş Moğavemət Eslami Qarabağ: Hoşdar be Ərmənestan mohemtərin pəyame neşəste “Eslam torpağı” (Qarabağ İslam Müqavimət Hərəkatının rəhbəri: Ermənistana xəbərdarlıq “İslam torpağı” konfransının ən mühüm mesajıdır.) adlanır. (tebrizebidar.ir 21 ordibeheşt 1395\10 may 2016).

Rövşən Əhmədli Təbriz Universitetində keçirilmiş “İslam torpağı” adlı konfransın təşkil edilməsini müsbət qiymətləndirərək iştirakçıların Qarabağ münaqişəsinin bütün aspektlərini nəzərdən keçirdiyini qeyd etdi.

Əhmədli vurğuladı ki, elmi konfransda, həmçinin Ermənistana Qarabağa hücumların davam etdirilməsinin nəticələri haqqında xəbərdarlıq edildi.

Qeyd edildiyi kimi, elmi konfrans Azərbaycan mediasında və ilk növbədə, həm də Azərbaycan dilində yayımlanan İran saytlarında geniş işıqlandırılmışdı. Aşağıda həmin yazılar haqqında qısa məlumat verilir.

http://facthaber.com

Təbrizdə “**İslam torpağı və Qarabağ**” mövzusunda elmi konfrans keçirilib.

Fars dilində hesabatda qeyd edilməyən, lakin burada əks olunan bəzi yeni məlumatlara diqqət çəkməyi lazım bildik.

Tədbirdə çıxış edən general Kəbir isə İslam Respublikasının Azərbaycana münaqişənin lap başlanğıcında - **doxsanıncı illərdə** - etdiyi köməklərdən danışıb. İranlı general o zaman iki dövlət

arasındakı razılaşmaya əsasən cəbhə bölgəsində fəaliyyət göstərdiyini deyib: “Mən tək deyildim. **Daha əvvəl general Nouəqdəm, general Zari və general Əlaəddin də könüllü şəkildə həmin prosesə qoşulmuşdular. İrandan 150 nəfərdən çox könüllü**, **20** milyon dollarlıq silah-sursat **aparmışdıq**. Cəbhə bölgəsində 8 min nəfərə hərbi təlim keçdik, müxtəlif silahlar və texnika ilə davranmağı öyrətdik. Azərbaycanlı qardaşlarımız heyrətamiz dərəcədə cəfakeş, şəhidpərvər idilər, onların bir çoxu ermənilərlə savaşda şəhidlik zirvəsinə yüksəldi.”

[Farscada İranın Azərbaycana **25** mln. Dollarlıq silah **satdığı** göstərilir. Tahir Kərimlinin çıxışında “**Qərb”** termini və **Ermənistan** sözü “**xristian”** termini ilə əvəz edilmişdir. Müqayisə göstərir ki, tam fərqli hesabatlar verilir. Yuxarıdakı hesabatda İran tərəfdən üç və Azərbaycan tərəfdən üç nəfərin çıxışı haqqında məlumat verilir. “Təbrize bidar” saytında şairlər istisna olmaqla, bütün çıxışlar haqqında hesabat verilmişdir. “Faktxheber” saytında tədbirin nə vaxt keçirildiyi tarix ayrıca göstərilmir, bu, bir qədər keçəndən sonra oxucu üçün problem yaradır.]

http://www.karabakh.az/

TƏBRİZ UNİVERSİTETİNDƏ **ŞUŞANIN İŞĞALININ İLDÖNÜMÜ**NƏ HƏSR EDİLMİŞ KONFRANS KEÇİRİLİB

Fakt haqqında məlumat verilib.

Qarabağ şəhidləri haqqında kitab paylandığı xəbəri digər məlumatlarda qeyd olunmayıbdır.

http://interaztv.com/

8 may 2016

Təbrizdə Qarabağla bağlı konfrans keçirilib

Təbriz Universiteti tərəfindən təşkil olunan elmi-praktiki konfrans **Şuşanın işğalı**nın ildönümünə həsr edilib

“İslam Azəri” saytına istinadən Akif Nağı, R.Əhmədli və iranlı Mehdi Nalbəndinin çıxışları haqqında qısa məlumat veribdir.

http://m.apa.az/

Təbriz Universitetində “**Şuşanın işğalı”**nın ildönümünə həsr edilmiş konfrans keçirilib.

07.05.2016

"Karabakh.az" saytında verilən məlumat təkrar olunur. Yəqin ki, ikinci birincinin məlumatını yayıbdır.

Xəbər verdiyimiz kimi, Azərbaycandan ictimai-siyasi xadimlərdən ibarət nümayəndə heyəti Qarabağla bağlı İranda səfərdə olublar. Təbrizdə keçirilən "**Müsəlman** torpaqları və Qarabağ" adlı konfransda iştirak ediblər.

Səfərin ikinci günü azərbaycanlı qonaqlar Ərdəbildə Ayətullah Xameneinin Ərdəbil ostanının nümayəndəsi və imam cüməsi Ayətullah Seyid Həsən Amilinin qonağı olublar. Seyid Həsən Amili görüş zamanı bildirib: "Qarabağ bizi ən çox narahat edən məsələdir. Biz cümə xütbələrində ermənilərə lənət oxuyuruq. Qarabağın çox tezliklə azad olunmasını istəyirik. Amerika və Rusiya Qarabağı öz məqsədləri üçün əllərində saxlayıblar. Onların əli ilə Qarabağı azad etmək mümkün deyil. Millət səhnəyə gələrsə, heç bir xarici dövlət heç nə edə bilməz. Qarabağın azadlığı dini inamın, imanın güclənməsindən keçir. Qarabağda hərb qaçılmazdır. Əgər imkan verilərsə, şərait olarsa, Qarabağda döyüşə getməyə hazıram, bunu özümə borc bilirəm. İranla Azərbaycan bir-birinə daha çox yaxınlaşmalı, birlikdə hərəkət etməlidirlər".

Azərbaycan nümayəndə heyətinə daxil olanlar da, öz növbəsində, təşəkkürlərini bildirib, əlaqələrin genişlənməsi üçün təkliflərini veriblər.

Qeyd edək ki, İranın Təbriz və Ərdəbil şəhərlərində Şuşanın işğalının ildönümünə həsr edilən tədbirlər keçirilib. Azərbaycandan Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı, Ədalət partiyasının sədri, sabiq millət vəkili İlyas İsmayılov, Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli, Qarabağ Uğrunda İslami Müqavimət Hərəkatının sədri Rövşən Əhmədli, **yazıçı və publisist** Eldəniz Quliyev, politoloq Zərdüşt Əlizadə, şair-publisist Qurban Cəbrayılov tədbirlərə qatılıblar.

Yuxarıda qeyd edilənlər haqqında danışılan tədbirlərin Azərbaycanın qeyri-hökumət və az tanınan saytlarında da bu və ya digər dərəcədə işıqlandırıldığını göstərir.

## 6. MÜHARİBƏNİN GEDİŞİNDƏ ERMƏNİSTANIN DAĞLIQ QARABAĞIN MÜSTƏQİLLİYİNİ TANIMAQ MƏSƏLƏSİNİ QALDIRMASI VƏ HƏMİN MƏSƏLƏYƏ İRANIN MÜNASİBƏTİ

Ermənistan son zərbədən özünə gələ bilməyərək onun psixoloji təsirini yumşaltmaq üçün müxtəlif üsullar, vasitələr, bəyanatlara əl atır. Bir tərəfdən özünün qonşularına qarşı ərazi iddiasına əsaslanan siyasətinin uğursuzluğunda Rusiyanı günahkar hesab edən ölkənin vətəndaşları onun prezidentini terrorist adlandırır, bayrağını tapdalayırlar, Ermənistanın o vaxtkı prezidenti isə şərtləri yerinə yetirilməsə, danışığa getməyəcəyini elan edir. Digər tərəfdən bir qrup müxalif-millətçi erməni deputatı xalqı daha dərin bataqlığa sürükləmək məqsədilə bir də Dağlıq Qarabağın müstəqilliyini tanımaq haqqında hökumətə qanun layihəsi təqdim edir və o da ermənilərin istəyinə qarşı çıxmağa cürət etmədiyini nümayiş etdirərək layihəni müzakirəsiz-filansız qəbul edir (03.05.2016) və parlamentə göndərir. Parlament 05.05.2016-cı il tarixində həmin qanun layihəsini müzakirə etməli idi, lakin onun müzakirəsini ayın onuna kimi təxirə saldı. Yəqin ki, beynəlxalq ictimaiyyətin reaksiyasından çəkindi, lakin sadəcə olaraq təxirə salması bir tərəfdən kiməsə təzyiq göstərmək, digər tərəfdən beynəlxalq birliyin münasibətini hərtərəfli yoxlamaq məqsədi güdür.

Beynəlxalq birliyə daxil olan ölkələrin çoxu və aparıcı dövlətlər həmin məsələyə artıq öz münasibətini bildirmişdir. Həmin ölkələrdən biri, bəlkə də, birincisi, cənub qonşumuz İran İslam Respublikasıdır. İranın Azərbaycan Respublikasında səfirinin KİV nümayəndələri ilə görüşündə İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində dəfələrlə bəyan etdiyi mövqeyini bir daha, lakin bir qədər daha dəqiq şəkildə bəyan edibdir. O, İranın Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyini tanıdığını və ona hörmət etdiyini bəyan etmişdir.

İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüquq normalarından çıxış etməsi təqdirəlayiqdir. Amma İran bunu öz dostu və qardaşı Ermənistanı incitməmək üçün özünəməxsus şəkildə edir. Həmin bəyanatla bağlı fars dilli saytlardan birində (realiran.net) yer almış yazıda (Behnam Talebi. "İranın Ermənistan ilə Azərbaycan arasında münaqişədə ikili mövqeyi" 16.02.1395\05.05.2016) İranın tərəflərə vasitəçilik təklif etməsinin tərzi və ərazi bütövlüyü ilə bağlı bəyanatı kəskin tənqid edilir. Belə hesab edilir ki, səfirin vasitəsi ilə vasitəçilik təklif etmək həmin təklifin əhəmiyyətini heçə endirir və ən mühümü, təklif edən tərəfin özünəinamsızlığını göstərir. Yazıda daha sonra qeyd edilir ki, səfir bir tərəfdən İranın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıdığı və ehtiram etdiyini, digər tərəfdən münaqişənin ölkələrin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu vurğulayır. Müəllif soruşur ki, bəlkə, Ermənistanın da ərazi bütövlüyü pozulmuşdur? Yazı müəllifi özünü müsəlman dünyasının hamisi hesab edən İranın Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin İslam dini üçün müqəddəs hesab olunan maddi və mənəvi abidələrin dağıdılması və s. qarşı etiraz etməməsinin təəccüb doğurduğunu vurğulayır. Yəni İran Ermənistanı incitmək istəmir. Maraqlıdır ki, İran səfirinin bəyanatı İranın çoxsaylı rəsmi və qeyri rəsmi dünyəvi və dini, siyasi və mədəni, mərkəzi və yerli saytlarının heç birində öz əksini tapmamışdır, yalnız bir saytdan başqa. Həmin saytda materialın verilməsi tərzi isə İranın həmin sözlərinə görə sanki Ermənistan qarşısında xəcalət çəkdiyini nümayiş etdirir. Xəbərin təqdimatından belə başa düşmək olar ki, baxın bunu səfir deyir, Bakıdakı səfir deyir və bizim heç xəbərimiz də yoxdur.

## 7. “AZƏRİ” ADLANAN ZİYALILARIN CƏNUBİ AZƏRBAYCANLILARIN MİLLİ KİMLİYİNİN ZƏİFLƏDİLMƏSİNƏ YÖNƏLMİŞ ELMİ KONFRANSI

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində dönüş nöqtəsi ola biləcək Dördgünlük müharibə İran ictimai fikrində də Azərbaycan Respublikasının xeyrinə dönüşün yaranmasının əsasını qoydu. Yuxarıda haqqında danışılan bütün materiallarda Azərbaycanın hərbi uğurundan danışılır, bir çox materialda Azərbaycanın ədalətli mövqeyi müdafiə olunur. Bununla bağlı, göründüyü kimi, İranın Azərbaycan ostanlarında elmi tədbirlər, dəyirmi masa və birgə dəyirmi masa keçirilmişdir. Hadisələrin bu istiqamətdə cərəyan etməsi müəyyən qrupları qane etmədiyindən cənubi azərbaycanlılara və Azərbaycan Respublikasına tamamilə düşmən münasibət əks etdirən elmi tədbirin qətnaməsi meydana gəlmişdir. Daha doğrusu, İranda hamının, o cümlədən guya azərbaycanlıların hamısının Azərbaycan Respublikasının öz suverenliyi və ərazi bütövlüyü uğrunda ədalətli mübarizəsini dəstəkləmədiyini nümayiş etdirmək lazım idi və həmin məqsədlə ölkənin paytaxtı Tehranda İranın əsas universiteti olan Tehran Universitetində tamamilə uydurma bir mövzu ilə bağlı elmi seminar keçirilmiş və həmin tədbirin qətnaməsi yayılmışdır. Məlum olduğu kimi, elmi seminarda qətnamə qəbul olunmur, qətnamə siyasi iclasların yekununda qəbul olunur. Ona görə də bu tədbiri elmi tədbir adlandırmaq olmaz, bu, hökumət alimlərinin hansısa sifarişi yerinə yetirməsi idi. Çünki qətnamədə hər hansı elmi nəticədən söhbət getmir, sənəddə azərbaycanlılara qarşı təhdidlər və Azərbaycan Respublikasına qarşı böhtan, iftira və qatı düşmənçilik ifadə olunur.

Beləliklə, www.azariha.org saytında 26 ordibeheşt 1396\15 may 2016-cı il tarixində yerləşdirilən materiala görə, 22 ordibeheşt 1395\11 may 2016-cı il tarixində Tehran Universitetinin Ədəbiyyat fakültəsinin Kamal zalında “azəri elitası”nın çoxsaylı

nümayəndələrinin təşkil etdiyi “Vətənxahane azəri” (Azəri vətənpərvərləri) mövzusunda seminar keçirilmiş və seminarda “Etnik vandalizm”in meydana gəlməsi haqqında xəbərdarlıq məsələsi qaldırılmışdır.

Aşağıda fars dilində getmiş materialın tərcüməsi verilir.

Tehran Universitetində azəri elitasının çoxsaylı nümayəndələrinin təşkil etdiyi seminarda çıxış edənlər Azərbaycanda etnik\qövmi vandalizmin formalaşması və siyasi və mədəni sferalarda fəaliyyət göstərən məmurların etnik uzaqlaşma\divergensiya prosesinə diqqətsizliyi barədə xəbərdarlıq etdilər.

22 ordibeheşt 1395\11may 2016-cı il tarixində Tehran Universitetinin Ədəbiyyat fakültəsi tələbə, müəllim, professor və yazıçılardan ibarət bir qrup azərbaycanlı vətəndaş cəmiyyəti fəalının ev sahibi idi. Onlar özlərinin dedikləri kimi, İranı əsas götürərək şimal-qərbdə [Cənubi Azərbaycanda] etnik məsələlərlə bağlı narahatlıqları müzakirə etmək üçün toplanmışdılar.

Seminarda çıxış edənlərin fikrincə, son illərdə etnosentrizm\etnik millətçilik yeni forma kəsb etmiş və bəzən dövlətin dəstəyi və subsidiyalarından yararlanaraq milli hakimiyyəti zəifləmtəyə çalışır.

Çıxış edənlər vurğuladılar ki, Azərbaycan həmişə irançılıq mərkəzi olmuş, lakin son illərdə həmin aparıcı rol bir tərəfdən dövlətin diqqətsizliyi, digər tərəfdən bəzi ***qonşu*** dövlətlərin plan cızmaları sayəsində zəifləməyə üz qoymuş və buna bəzi məlum siyasi dairələr səy göstərmişlər.

Seminarın əsas məruzəçiləri, Həmid Əhmədi və Kave Bəyat milli birliyin keçmişdə olduğu kimi, hazırda da **Azərbaycanın aparıcı rolu** ilə qorunmasının vacibliyini vurğuladılar.

Seminarın yekununda iranlı kimliyi və milli birlik sahəsində meydana gələn narahatlıqların bir qismini əhatə edən b ə y a n a t oxundu.

Bəyanat ostan idarəçiliyinə ***əcnəbi meyilli cərəyanın*** “nüfuz” etməsi, bəzi məmurların ölkənin düşmənlərinin siyasi ədəbiyyatından istifadə etməsi barədə xəbərdarlıq edib aidiyyəti qurumlardan son bir neçə ildə ölkənin şimal-qərbində mədəniyyət

sahəsində yeritdiyi siyasətə yenidən baxılmasını tələb etdi. Seminarda ***Bakı rejimi*** tərəfindən IV ***dırnaqarası*** dünya azərbaycanlıları qurultayının keçirilməsi kəskin tənqid edildi və bildirildi ki, həmin qurultay, əslində, Bakı rejiminin ***anti-İran siyasətini*** həyata keçirmək üçün bir bəhanədir və dünya azərilərini təmsil etmir.

"Azəri vətənxahları seminarı" adı altında Tehran Universitetinin Kamal zalında 22 ordibeheşt\11 may tarixində keçirilən toplantı saat 17-də başa çatdı.

"Azəri vətənxahları seminarı"nın **yekun bəyanatı**

Biz neçə ildir müxtəlif siyasi və ideoloji meyl və istiqamətə malik olan, lakin İranın milli maraqlarını əsas götürərək ictimai və mədəni fəaliyyətlə məşğul olan Azərbaycan vətəndaş cəmiyyətinin bir qrup fəalı aşağıdakıları bəyan edirik:

1. Azərbaycan keçən əsrlərdən irançılıq və dövlətçilik mərkəzidir. Bu diyarın siyasi xadimləri, ən azı yeni dövrdə, milli İran dövlətinin əsaslarının qoyulduğu Səfəvilər dövründən, həmişə İranın birliyini öz siyasi gündəliyində saxlamışlar və bundan sonra da belə olacaq.

2. İran keçid mərhələsində olan bir ölkədir və çoxsaylı böhranlarla üz-üzədir. Həmin böhranları həll etmək üçün gələcəyə və milli maraqlara riayət etməyə yönələn düşünülmüş addımlar və həmrəyliyə ehtiyac vardır, nəinki böhranların güclənməsi və uçurumların dərinləşməsinə səbəb olan və ölkə bədxahlarının əlində bəhanəyə çevrilən seçki vədlərinə. Buna görə ölkənin mövcudluğu ilə bağlı cinayətlərin, o cümlədən ərazi bütövlüyünə və milli varlığa qarşı mütəşəkkil hərəkətlərin və milli ədavət səpilməsinin cinayət hesab edilməsi sahəsində hüquqi boşluğun doldurulması üçün İslam Şura Məclisində qanun qəbul edilməsi lazımdır.

3. Hüquq və vəzifə bir-birindən ayrılmaz iki kateqoriyadır. O kəslər ki, tələb etmək, hüquq istəmək yolu ilə öz məlum niyyətlərini həyata keçirməyə çalışırlar, indiyə kimi öz vətəndaşlıq borclarını yerinə yetirməyə əhəmiyyət verməyiblər və ölkənin siyasi həyatında ona sədaqət əlaməti müşahidə olunmayıbdır. Aydındır ki, bu qrupun tələbləri də ölkə üçün problem yaratmağa və

milli həyatı təhlükəyə atmaq istiqamətində edilir. Məktəblərdə **yerli** dilin tədrisi kimi məsələlər, yəqin ki, yerli siyasi dairələrin bir hissəsinin diqqətini çəkir, amma Azərbaycan xalq **kütləsi** arasında tarixi və **nəzəri** mövqeyi yoxdur, başqa sözlə, **küçə və bazar əhlini** narahat etmir. Digər tərəfdən, bu qəbildən olan tələblərin, xüsusən özünü heç bir vəzifəyə bağlı bilməyən insanlar tərəfindən irəli sürülən tələblərin sonu təsəvvür edilmir. Buna görə biz ***azərilərin*** fikrincə, belə tələblər peşəkar səviyyədə və daha dərindən araşdırılmalı və milli birliyə bağlı qurumlar və şəxslər tərəfindən yoxlanılmalıdır.

4. Təcrübə və nəzəriyyə göstərmişdir ki, etnik millətçilik inkişafa maneədir. Müəyyən dövr etnik problemləri təcrübədən keçirmiş bütün cəmiyyətlər belə bir həqiqəti dərk etmişlər ki, millətaltı [forumilli\ milli\siyasi\dövlət kimliyindən daha kiçik kimlik, məsələn etnik, dini və s.] mənsubluq əsasında ictimai və siyasi fəaliyyət son nəticədə iqtisadi sabitsizliyə, kapital axınına və inkişaf etməməyə səbəb olur. Təəssüf ki, son illərdə ictimai müəssisələr ***etnik irtica***nın böyüməsi və çiçəklənməsi (əziz Azərbaycan müasir tarix ərzində daim ona müqavimət göstərmişdir) üçün münasib şərait yaratmışdır. Deməli, "dövlət olmağ"ın şəni və mənası, son məqsədi ölkənin süqutuna aparan bu qəbil qüvvələri ram etmək və nəzarətdə saxlamaqdır, nəinki İran milləti və İran kimliyinə alternativ bir istiqamətdə bəsləməsi, tərbiyə etməsidir.

5. Görünür, Xarici İşlər Nazirliyi və digər səlahiyyətli qurumlar ***BAKI Respublikasında*** [cərəyan edən] anti-İran siyasi hərəkətlərə münasibətdə passivlik göstərir və ***mahiyyəti başdan ayağa saxta*** və təhrif olunan ölkənin yüksək məqamlı rəsmilərinin tarixi sistematik şəkildə təhrif etmələrinə diqqət yetirmirlər. ***Biz AZƏRİ*** elmi ictimaiyyəti və vətəndaş cəmiyyəti fəallarının bir hissəsi kimi qeyd edirik ki, son yüz ildə öz nahiyəmizdə əldə etdiyimiz təcrübəyə əsasən ***bu yeni təsis edilmiş dövlətin*** gizli niyyət və siyasətindən şübhələnir və əminik ki, şimal-qərbdə şübhəli etnik hərəkətlərin arxasında bu ***anti-İran dövləti*** durur. Həmin mövzu ilə bağlı qeyd edirik ki, şimal sərhədlərində İran os-

tanlarından birinin adı ilə adlanan başqa bir ***dövləti tanımaq uzaqgörənlikdən və tədbirdən uzaq idi*** və ümid edirik ki, ölkənin qərb sərhədlərində bu səhvin bir daha təkrarlanmasının şahidi olmarıq.

6. Etnik vandalizm pis bir ictimai-siyasi zədə hadisəsi kimi meydana gəlmiş, keçən illərdə daha da intesivləşmiş və ölkənin şimal-qərbində ictimai-siyasi həyatın bütün vətəndaş cəmiyyəti sahələrinə, aspektlərinə yayılmaqdadır.

Bu vurğunluq siyasətdən tutmuş idmana kimi böyük bir sahəni əhatə edir və həmin məsələdə İran dövlətindən güzəştlər qoparmaq üçün xarici qüvvələrdən və əcnəbi dövlətlərdən dəstək kimi istifadə edir.

Fikirləşməyə dəyən və narahatlıq doğuran cəhət ən yüksək səviyyədə qərar tutan qurumlar və məmurların bu ciddi patologiyaya az diqqət yetirmələridir və bu da qısa və orta vədəli müddətdə Mərənd, Marağa, Urmiyə, Ərdəbil, Zəncan və Təbriz kimi böyük şəhərlərdə vətəndaş cəmiyyətini aradan qaldıraraq ədəbi, kino, siyasi və tələbə birlikləri üzərində gərgin və zəhərli bir atmosfer yarada bilər.

7. Şimal-qərbdə istehsal olunmuş bəzi mədəniyyət məhsullarının İran kimliyinə aidiyyəti yoxdur. Mədəniyyət və İslami İrşad Nazirliyinin idarələri vətəndaşlar və həmvətənlər arasında bir-birinə qarşı dərin nifrət yaymaqda olan [etnik nifrət yayan] mətbuata qarşı laqeyddir. Mədəniyyət və İslami İrşad Nazirliyinin nəzarəti altında olan sahələrdə nəşr edilmiş kitab və jurnallar baş verəcəyini indidən proqnozlaşdırmaq mümkün olan faciənin dərinliyini göstərir. Biz ümumi qurumlardan, xüsusən bələdiyyələr, ostandarlıqlar, Mədəniyyət və İslami İrşad Nazirliyi və s. tələb edirik ki, nifrət diskursu və uzaqlaşma yaratmağı öz fəaliyyət kursu seçmiş naşirlər və nəşriyyatlara [maliyyə] yardımlarını kəssin və xatırladırıq ki, dünyada elə bir ölkə tapılmaz ki, ölkə düşmənlərinə siyasi və maliyyə yardımı göstərsin.

8. Fars Dili və Ədəbiyyatı Akademiyasına paralel olaraq hər hansı bir akademiya və ya qurumun təsis edilməsi [İran Prezidentinin 2013-cü ildə seçki kampaniyası zamanı türk dili akademiyası yaratmaq vədi] ölkənin ali maraqlarına ziddir və ölkənin

birliyinin zəifləməsinə və ya xaricəyönəlik ünsürlərinin bəzilərinin dövlətin imkanlarından sui-istifadə etməsinə səbəb olacaqdır. Buna görə icra hakimiyyəti və buna məsuliyyət daşıyanlardan, səlahiyyətli şəxslərdən tələb edirik ki, bir qrup hərc-mərc yaratmaq tərəfdarı və anti-İranistin hay-küy salmasını nəzərə almadan Fars Dili və Ədəbiyyatı Akademiyasının şimal-qərbdə gücləndirilməsinə səy göstərərək Təbrizdə və bölgənin digər mədəniyyət mərkəzlərində akademiyanın İran dilləri və dialektləri qrupunu təsis etsin.

9. Azərbaycan vətəndaş cəmiyyətinin bir hissəsi kimi xəbərdarlıq edirik ki, əcnəbiyönümlü ünsürlərin və fərdlərin ostan idarə başçılarına təsiri ciddi məsələdir və ostanın bəzi səlahiyyətli şəxslərinin keçmiş siyasi ədəbiyyat və taktikalardan, Pişəvəri Demokrat Firqəsindən istifadə etməsini müşahidə etmək narahatlıq doğurur.

10. Toplantı iştirakçıları ***Bakı rejiminin*** diaspora idarəsinin ***sözdə*** Dünya Azərbaycanlılarının Dördüncü Qurultayını keçirməsini pisləyir və qeyd edirik ki, belə toplantılar nəticədə Azərbaycan adının Arazdan şimala qoyulmasının saxtalığını xatırladır və hər şeydən əvvəl bu təzə təsis edilmiş ölkənin ***varlığının fəlsəfəsini sual altına alır***. Biz azəri vətənxahları xəbərdar edir və vətəndaş cəmiyyəti adından Bakının siyasətinə aydın cavab kimi gələcəkdə azərilər və talışların dünya qurultayını keçirməyə çalışacağımızı vurğulayırıq.

11. Azərbaycan dili və dialekti ölkənin ən əhəmiyyətli mədəni xəzinələrindən biridir və onun İstanbul və ya Qafqaz türk dili və ədəbiyyatının ***təcavüzündən*** və ya həmin dildə ***əritmək*** təşəbbüslərindən qorunması vacibdir. Şimal-qərb irşad idarələri həmin məsələyə tamamilə laqeyd olub bu prosesin qarşısını almaq üçün hiss olunacaq səy göstərmirlər. Buna görə Azərbaycanın İranxah təbəqəsi kimi azəri dili və dialektinin Qafqaz və İstanbul türk dili qarşısında ***zəiflədilməsi*** ilə bağlı xəbərdarlıq etməyi lazım bilərək, aidiyyəti orqan və şəxslərdən tələb edirik ki, həmin prosesin təhlükələrindən agah olsunlar.

12. Universitetlərin və qarnizonların məhəlliləşdirilməsi\lokallaşdırılması milli birlik və davamlı inteqrasiya prosesinin əsas problemlərindən biridir. Ölkənin əhalisinin bir hissəsinin daim ölkə daxilində dövr etməli olduğunu nəzərə alsaq, deyə bilərik ki, son on illikdə lokallaşdırma və yerlilərdən təyinatlar milli təhlükəsizlik, birlik və inteqrasiya prosesi üçün müstəqil təhdidə çevrilib. Digər tərəfdən, müdirlərin yerlilərdən təyin edilməsi ləyaqətlilərin hakimiyyəti, meritokratiya prinsipinə kölgə salıb siyasi sövdələşmələr üçün zəmin yaradır.

13. Azərbaycanda ***etnik irtica*** yalnız fars dili və iranlılıq üçün deyil, həm də iran milliyyətinin məzhəbi, şiə aspekti üçün təhlükədir. Bu cərəyanın fəlsəfi qaynağı antiiranizm və antişiəlikdir və onun gələcəyinin karikaturasını ***qeyri-qanuni Bakı rejiminin*** antişiə siyasətində görmək olar.

Sonda elan edirik

Hətta əgər ölkə rəsmiləri və hakimiyyət orqanları istər mərkəzdə, istərsə ostanlarda, bizi milli həmrəylik, birlik və ölkənin əzəməti uğrunda mübarizədə tək qoyub onun zəifledilməsi və məhv olmasına çalışanların yanında olsalar belə, biz müstəqil şəkildə öz yolumuza davam edərək vətənimizin yüksəlişi üçün səylərimizi əsirgəməyəcəyik.

Tehran Universiteti 22 ordibeheşt 1395\11 may 2016

Saytda yayım tarixi 26 ordibeheşt 1395\15 may 2016

Sonuncu seminar indiyə kimi deyilmişlərin üstündən xətt çəkmək, Azərbaycan Respublikasına qarşı düşmən münasibət yaratmaq, dolayısı ilə Ermənistanın işğalçılıq siyasətinə haqq qazandırmaq məqsədi güdür.

# NƏTİCƏ

İranda müxtəlif dairələrin Dördgünlük müharibə və ondan sonrakı günlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətinin müxtəsər şəkildə nəzərdən keçirilməsi göstərir ki, qonşu ölkədə münaqişəyə münasibətdə daha çox onun mahiyyətini, faktları təhrif etmək, anti-Türkiyə və anti-İsrail əhvali-ruhiyyəsi yaradıb qızışdırmaq, İranın oynaya biləcəyi rola diqqət yetirilir. Nəzərdən keçirilən bir sıra yazılarda İranın sözdə bitərəf və eyni zamanda dövlətlərin ərazi bütövlüyünü dəstəkləmək mövqeyi təkrar olunsa da, əslində onun Azərbaycanın öz ərazi bütövlüyünü bərpa  etmək istiqamətində səylərinə qarşı olduğu və status-kvonun davam etməsinə nəinki tərəfdar olması, eyni zamanda onun Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək istiqamətində dəyişməyə çalışmasına müqavimət göstərməyə hazır olduğu açıq-aşkar vurğulanır. Bununla belə, İranda  Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə obyektiv yanaşan və Azərbaycanın ədalətli və haqlı tələblərini vurğulayan  müəlliflərə də rast gəlmək olar. Başqa sözlə, İranın kütləvi informasiya vasitələrində Dördgünlük müharibənin gedişinin işıqlandırılması və münaqişənin mahiyyəti, tarixi, həlli yolları və s. haqqında yazılar İran cəmiyyətinin daxilən ziddiyyətli sosial-siyasi, mədəni-ideoloji struktura malik olduğunu nümayiş etdirir. Yazılar əsasında İran siyasi sistemini təşkil edən əsas siyasi, sosial və ideoloji qrupların - panfarsist, dünyəvi, dini, islam və respublika və s. baxışları aydın müşahidə etmək mümkündür. Həmin qrupları təmsil edən ideoloqlar hadisələrə İran və həmin qrupun maraqları baxımından yanaşırlar.

Bunu biz cənubi azərbaycanlıların qeyd edilən hadisə və bütövlükdə münaqişəyə münasibətində də görə bilərik. Cənubi azərbaycanlılar da İranın və yuxarıdakı qruplardan fərqli olaraq, həm

də Cənubi Azərbaycanın, Azərbaycan xalqının və mənsub olduqları siyasi və sosial, eləcə də mədəni-ideoloji qrupların maraqlarını əks etdirməyə çalışırlar.

Cənubi azərbaycanlıların qeyd edilən hadisə və münaqişəyə münasibətinin özünəməxsus özəlliyini aşağıdakı kimi dəyərləndirmək olar.

Dördgünlük Qarabağ müharibəsi başlanan kimi azərbaycanlı milli ruhlu gənclər Azərbaycan Respublikası ilə həmrəylik nümayiş etdirmiş, bəzi deputatlar müstəqil şəkildə parlament kürsüsündən, digərləri müxbirlərin təşəbbüsü ilə, [gedib mövqeyini öyrənmək] tələbə və milli təşkilatlar İran dövlətini Azərbaycanı dəstəkləməməkdə qınamağa, hətta pisləməyə cəhd göstərmişlər. Bütün bu əhvali-ruhiyyəni, əlbəttə, azərbaycanlılar arasında, zəiflətmək üçün Azərbaycan saytlarında İranın Azərbaycana yardımları barədə müxtəlif adda, lakin eyni məzmunlu yazılar yayılmağa başlamışdır.

Cənubi Azərbaycanın milli kimlik şüurlu bütün təbəqələrinin nümayəndələri hadisələrə, əgər ən ümumi şəkildə desək, ümumi Vətən – Azərbaycan və vahid xalq, millət – Azərbaycan milləti\xalqı\etnik birliyi mövqeyindən yanaşdılar. Onlar istər məhdud miqyasda olsa da, toplantı və nümayişlərdə, istərsə də müxtəlif təşkilatların bəyanatlarında Ermənistanın Azərbaycan Respublikasına qarşı son irimiqyaslı təxribatını **öz torpağına və öz xalqına qarşı yönəlmiş hərbi təxribat kimi dəyərləndirərək öz xalqını və torpağını müdafiə etməyə hazır olduqlarını bəyan edirdilər**.

Azərbaycan Respublikasının haqq tələbi, öz suverenliyi və ərazi bütövlüyü uğrunda ədalətli və beynəlxalq hüququn yaratdığı qanuni əsasda mübarizəsi ilə cənubi azərbaycanlıların həmrəyliyi miqyas və səviyyəsinə görə görünməmiş bir hadisə idi və İran hakimiyyəti bunu nəzərə almaya bilməzdi. Daha doğrusu, həmin günlər nəzərə almamağa çalışsa da, gələcəkdə onunla mütləq hesablaşmalı olacaqdır. İranın hakim dairələri həmin hadisələrin azərbaycanlıların milli kimlik şüurunun güclənməsinə dərin təsir

göstərməsini, milli ruhlu azərbaycanlıların İran dövlətinin elan etdiyi əsas prinsipləri – zülmə məruz qalan xalqların hüquqlarını müdafiə etmək, dünya müsəlmanlarını, xüsusən hüquqları pozulan müsəlmanları müdafiə etmək və s. unutmaqda, Ermənistanı dəstəkləməkdə qınadıqlarını müşahidə edərək, həmin meyilin zəiflədilməsinə yönəlmiş geniş təbliğat aparmağa ciddi əhəmiyyət verməyə başladılar. Onlar ilk növbədə birinci Qarabağ müharibəsi illərində Azərbaycan Respublikasına göstərdikləri yardımlar haqqında geniş danışmağa başladılar.

Nəticəyə əlavə olaraq aşağıdakıları nəzərə çatdırmaq vacib hesab olunur.

İran İslam Respublikasında Cənubi Azərbaycan termini, Cənubi Azərbaycan xalqı, xüsusən türk xalqı, anlayışlarından istifadə edilməsinə həmişə ciddi etirazlar olur və rəsmilər Cənubi Azərbaycan adlı məsələnin mövcud olmadığını vurğulayırlar. Şimali Azərbaycanda da İran İslam Respublikasının suverenliyinə ehtiram göstərildiyi, onun ərazi bütövlüyünün tanındığı bütün rəsmi sənədlərdə öz əksini tapır. Başqa sözlə, Azərbaycan Respublikasının İran İslam Respublikasına heç bir ərazi iddiası yoxdur, həmin ölkədəki separatçı qüvvələrə heç vaxt yardım göstərməyib və göstərmək fikri də yoxdur. Azərbaycan Respublikasının İran İslam Respublikası ilə beynəlxaq hüquq normalarına əsaslanan və tarixi, mədəni, coğrafi amillərlə şərtlənən qardaşlıq, dostluq münasibətləri qurması və daim onu möhkəmləndirməsi siyasəti İranda Azərbaycan adlı böyük bir regionun, həmin regionda çoxmilyonlu bir xalqın yaşadığını və ən ibtidai milli hüquqlardan məhrum olduğunu inkar etməyə əsas vermir. Hətta bu və ya digər səbəbdən Azərbaycan Respublikası rəsmiləri İranda Azərbaycan regionunun və çoxmilyonlu Azərbaycan\türk xalqının mövcud olduğunu inkar etsə belə, bu hələ həmin region və həmin xalqın obyektiv olaraq mövcud olmadığı demək deyil. Xalqın mövcudluğu yalnız ərazisinin sahəsi, üzvlərinin sayı ilə müəyyən olunmur, həm də ən əsası, öz milli hüquqları, öz milli ləyaqəti, milli kimliyi, milli bərabərlik uğrunda mübarizəsi ilə, mərkəzi hakimiyyətə təsir gücü ilə müəyyən olunur.

Haqqında danışılan hadisələr olduqca aydın şəkildə İranda Azərbaycan\türk xalqının mövcudluğunu, onun bir çox məsələlərə fəal münasibət göstərdiyini nümayiş etdirdi. Doğrudan da, son hadisələr göstərdi ki, İranda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə müxtəlif yanaşmalar mövcuddur ki, bunların içərisində rəsmi yanaşma ilə yanaşı cənubi azərbaycanlıların yanaşmasını xüsusi qeyd etmək lazımdır. Həmin yanaşmalar, indiyə qədər haqqında danışılan yazıların da göstərdiyi kimi, nəinki bir-birindən kəskin şəkildə fərqlənir, hətta demək olar ki, müəyyən dərəcədə bir-birinə ziddir.

Bakı. 2016

## II. TOVUZ DÖYÜŞLƏRİ

Məlum oduğu kimi, Ermənistan bir sıra daxili səbəblərdən (ölkədə getdikcə pisləşən sosial vəziyyətdən diqqəti yayındırmaq) və strateji məqsədləri (guya Azərbaycanı yeni müharibə, yeni ərazilər işğal etmək iddiasını həyata keçirməyə cəhdlə sülhə məcbur etmək, həmin məqsədlə Azərbaycanın geoiqtisadi infrastrukturuna təhlükə yaratmaq, münaqişəni Qarabağdan kənara çıxarmaq və nəhayət Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını Azərbaycana qarşı hərbi əməliyyatlara cəlb etmək) həyata keçirmək məqsədi ilə 2020-ci ilin iyul ayının 12-də Qarabağdan uzaqda yerləşən və Azərbaycan üçün mühüm strateji əhəmiyyəti olan Tovuz rayonu sərhəd xəttində geniş hərbi təxribata əl ataraq, iki ölkə arasında geniş miqyaslı hərbi münaqişənin başlanmasına şərait yaratdı. İyul ayının 17-nə qədər davam edən irimiqyaslı hərbi münaqişə zamanı Ermənistan qarşısına qoyduğu heç bir məqsədə çatmayıb, əksinə ağır məğlubiyyətə uğrayaraq daha böyük siyasi, sosial və beynəlxalq problemlərlə üzləşdi. Tovuz döyüşləri 2016-cı il 4 günlük müharibənin nəticələrini təsdiq edərək, Azərbaycan xalqında münaqişənin hərbi yolla həllinin mümkünlüyünə inamını bir daha artırdı və dünyaya Azərbaycanın öz ərazilərini işğaldan azad etməyə qadir olduğunu, eyni zamanda onun

dünya miqyasında nüfuzunu və ona dəstəyi əyani şəkildə nümayiş etdirdi.

Tovuz döyüşləri, onun nəticələri və təsirləri İran kütləvi informasiya vasitələrində öz əksini tapmışdır. Aşağıda qeyd edilən mövzunun İran mediasında (bir neçə mərkəzi xəbər və analitik informasiya agentliklərinin saytlarına istinadən) getmiş xəbər, analitik yazılar və s. xronoloji ardıcıllıqla nəzərdən keçirilir.

**5 İYUL 2020**

“anaj”

“Monasebate Tehran-Baku dər cənge Qarabağ., əz miyancigəri dər Tehran ta amuzeşe nezamiyane Azərbaycan” (Qarabağ müharibəsində Tehran-Bakı münasibətləri; Tehranın vasitəçilyindən Azərbaycan hərbçilərinə təlim verilməsinə qədər)

[Yazının mahiyyəti adında qeyd edilmiş və onun hər iki aspekti İranın guya Azərbaycana xidməti və yardımı kimi dəyərləndirilir.]

**12 İYUL 2020**

“tabnak”

“Dərgiri miyane niruhaye mərziye Ermənistan və Azərbaycan”(Ermənistan və Azərbaycan ***sərhəd qüvvələri*** arasında silahlı münaqişə)

“tabnak”ın “ilna”dan, “ilna”ın “röyter”-dən aldığı rəsmi məlumat.

“donyaye eqtesad”

“Çənd koşteye dərgiriye mərzi miyane Azərbaycan və Ermənistan”(Azərbaycan və Ermənistan arasında sərhəd toqquşmasında bir neçə nəfərin həlak olması)

“farsnews”

Azərbaycanın itkiləri 2 şəhid, 5 yaralı, Ermənistanın itkiləri haqqında hələ məlumat yoxdur.

Münaqişə 1988-ci ildə ***Qarabağ*** ayrıldığını elan edəndən başlayıb.

1992-1994-cü illərdə silahlı qarşıdurmada Azərbaycan ....nəzarəti əldən verdi, lakin əraziləri Ermənistan tərəfindən işğal olunduğu qeyd edilimir

“mehrnews”

2 şəhid, 5 yaralı haqqında məlumat dərc edilib.

“mashreghnews”

Azərbaycanın 2 şəhidi və 5 yaralısı olduğu xəbərini verir

Ermənistanın itkiləri məlum deyil

Münaqişə 1988-ci ildə ***Qarabağın*** ayrılmasından sonra başlayıb.

“tabrizebidar”

“Təhlil. Çe kəsi manee azadsaziye əraziye eşğaliye Comhuriye Azərbaycan mişəvəd?” Təhlil, Azərbaycan Respublikasının işğal edilmiş ərazisinin azad edilməsinə kim mane olur?”

Sayt yazır: Hamı bilir ki, Azərbaycan öz ərazisini işğaldan azad etməyə qadirdir. Bəs niyə bu istiqamətdə hərəkət etmir. Bu təbii və haqlı sual bütün “Azərbaycan türklərini”nin fikrini məşğul edən sualdır.

Sədrəddin İsmayılov: ABŞ, Fransa, Rusiyada erməni biznesmenləri, koronavirusa qarşı Ermənistana ABŞ, Rusiya, Fransa, Çin, İngiltərə və başqaları yardım etmiş. ABŞ 25 milyon dollar yardım göstərmişdir.

**13 İYUL 2020**

“anaj”

“Təcavoze mocəddede əraməne dər **Qarabağ** (? - V.m.), pasoxe qatee Comhuriye Azərbaycan” (Ermənilərin **Qarabağda(? - V.M.)** yeni TƏCAVÜZÜ, Azərbaycan Respublikasının qətiyyətli cavabı)

“irna”. Bakı ofisi

Lavrov və Məmmədyarov Azərbaycan və Ermənistan arasında sərhəd toqquşmasını müzakirə etdilər

Azərbaycan XİN sərhəd toqquşmasından danışdı.

“tasnim”

“Dərgiriye mərzi miyane Azərbaycan və Ermənistan” (Azərbaycan və Ermənistan arasında sərhəd toqquşması (Azərbaycan bayrağının fotosu)

Hərbi toqquşmada 2 Azərbaycan əsgərinin şəhid olması. Rəsmi məlumata görə Ermənistan tərəfinin itkiləri olmayıb.

“tabnakardabil”

“Vakoneşe İlham Əliyev”(İlham Əliyevin reaksiyası)

**“Həmleye** Ermənistan be Azərbaycan, 2 nezamiye azəri koşte şodənd” (Ermənistanın Azərbaycana **hücumu,** 2 azərbaycanlı hərbçisi öldürüldü)

“farsnews” a istinadən: Azərbaycanın itkiləri - 2 şəhid, 5 yaralı; Ermənistanın itkiləri məlum deyil

“isna”

Putin: Bizim beynəlxalq aləmdə siyasətimiz “Məxmər əlcəkdə dəmir yumruqdur”.

Çavuşoğlu: Azərbaycanın yanındayıq

**14 İYUL 2020**

Vaezi instaqramda: “Rahborde məntəqeiye İran hefze təmamiyyəte ərziye keşvərha əst” (İranın regional strategiyası ölkələrin ərazi bütövlüyünün qorunmasına yönəlib) [Mahmud Vayzi-Prezident Aparatının rəisi). Keçən axşam Azərbaycan Respublikası baş nazirinin müavini ilə söhbəti barədə yazdı: “bu gün” yuxarıdakı cümlə, o cümlədən Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin İranın mövqeyini yüksək qiymətləndirməsi qeyd edilir.

**15 İYUL 2020**

“anaj”

“Qoftoquye anaj ba  mostaşare sabeğe İrani dər cənge Qarabağ.,

Negəraniye bi mourede Əliyev əz gerayeş be zərfiyyəte Eslami, **douləte Baku** (?v.m.) əz təcrobeye Həşd əl-Şəəbi bəhregiri konəd” (“Anaj”ın Qarabağ müharibəsində iranlı keçmiş müşavir-

lə müsahibəsi. Əliyevin islamın imkanlarından istifadəyə meyildən yersiz narahatlığı, Bakı hökuməti (? - V.M.) Həşd əl-Şəəbi təcrübəsindən yararlansın)

Keçmiş Müşavir Mənsur Həqiqətpur: "işğalçı ermənilər"

"Azərbaycan İslam aləmindən kömək istəməlidir. İranın dəstəyi ilə İraqda Həşd əl-Şəəbi, Suriyada Xalq bəsici qüvvələri, Yəməndə Mütəşəkkil xalq... qüvvələri yarandı. Azərbaycan niyə bundan istifadə etmir. İran, Azərbaycan ***xalq qüvvələri*** yaratsa, dəstəkləməyə hazırdır. Azərbaycan hamının yanında durub gözünü ABŞ və İsrailə zilləyib. Əliyev hökuməti bilməlidir ki, Qarabağ yalnız Azərbaycan Respublikası xalqının gücü və İran kimi ona ürəyi yanan qonşusunun köməyi ilə azad edilə bilər. Türkiyə özünü elə göstərir ki, guya Azərbaycanın tərəfindədir. Əgər Ərdoğan sözlərində səmimidirsə, Suriya və İraqda gördüyü işləri Qarabağda, Azərbaycanda görsün. Hərbi addım atsın. Məgər Türkiyə Prezidenti İraq və Suriyanı havadan bombardman etmədi? "Qarabağ məsələsində niyə yalnız mövqe bildirməklə kifayətlənir. Qarabağın azad edilməsinin yeganə yolu hökumətinin iradəsi və İrana əməli yardım göstərməsinə icazə verməsidir".

"Separatçıların rolunu zəlisifət adlandıraraq dedi: separatçı qruplar parazit rolunda çıxış edirlər. Parazit kəsafətlə qidalananlardır. Həmin qrupları sionist rejim dəstəkləyir, belə qrupların xəlqi sifəti yoxdur. Qarabağın həqiqi müdafiəçiləri həmin məntəqədə döyüşmüş və ermənilərə daha da irəli getməyə icazə verməyənlərdir".

(Əsli Ərdəbildən olan və Tehranda dünyaya göz açmış Mənsur Həqiqətpur Sepahın ikinci dərəcəli komandirlərindən biri kimi Birinci Qarabağ müharibəsi zamanı Azərbaycanda hərbi müşavir olub. Sonra Ərdəbildən bir çağırış məclis deputatı, ondan sonra spikerin beynəlxalq münasibətlər üzrə müşaviri olmuşdur. Bu şəxs, yuxarıda dediklərindən məlum oduğu kimi, İranın bu və ya digər şəkildə Azərbaycana nüfuz etməsinin vacibliyini vurğulamaqla yanaşı Cənubi Azərbaycanın milli kimliyinin qatı düşməni rolunda çıxış edir. Ona görə milli-mədəni fəal qüvvələri separatçı adlandıraraq onları təhqir etməkdən belə çəkinmir.)

“irna”

“Dərgiriha ..” (...silahlı toqquşma)

“Şekəste omidhaye həlle mosalemətamize ***monağeşeye Qarabağ***” (**Qarabağ münaqişəsinin** sülh yolu ilə həllinə ümidlərin qırılması)

**3 günlük müharibə** yenidən hamının ümidini qırdı

Ermənistan nə Dağlıq Qarabağı, nə də ətraf rayonları qaytarmağa razıdır.

Azərbaycan Ermənistan silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edərək, ərazi bütövlüyü çərçivəsində həll yolunu keçmiş Dağlıq Qarabağ Muxtar vilayətinə - ən yüksək muxtariyyat statusu verilməsini təklif edir.

Ermənistan Dağlıq Qarabağın ancaq müstəqilliyini tələb edir.

Münaqişənin ilkin mərhələsinin sonunda Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ona bitişik 7 rayon **Ermənistan** silahlı qüvvələrinin **işğalına** məruz qaldı. Azərbaycanın ictimai fikrində danışıqların faydasız olması vurğulanır və geri almaq üçün addım atılması tələbi güclənmişdir.

**16 İYUL 2020**

“anaj”

“Fəraxane bozdelaneye ğoumgərayan, təcziyetələbha suraxe doara qom kərdeənd” (Etnosentristlərin qorxaqcasına çağrışları, separatistlər səhv yola düşmüşlər).

“Bu dəfə də ermənilər qəfil yaxalamaq prinsipinə güvənərək Azərbaycanın hərbi bazalarına və cəbhə xəttinə hücum etdilər”

Ermənilərin təcavüzünün birinci gecəsi

Polis gənclərə mane oldu. Bakının əraziləri geri almaq iradəsi yoxdur.

Etnosentristlər İranı ittiham edirlər. Azərbaycanın riyakar siyasəti gənclərin döyüşə getməsinə icazə vermədi.

“Etnosentristlər və separatistlər səmimi olsa idilər, Qarabağ cəbhəsində iştirak etmək üçün çağırış edib həmin cəbhədə öz keçmiş mübarizələri haqqında sənədlərini dərc edərdilər”.

[“anaj” saytı fürsətdən istifadə edib Cənubi Azərbaycanın milli fəallarını təhrik edərək onların polis və kəşfiyyat idarəsi tərəfindən yaxalanmasına şərait yaratmağa çalışırdı. Eyni zamanda Azərbaycan hökumətini azərbaycanlı gənclərin yüksək vətənpərvərliyinin nümayişi olan spontan toplantısının İranın da yəqin ki, əli olduğu xaosa çevrilməsinin qarşısını almasından narahatlıq ifadə edir.]

“anaj”

“Poşte pərdeye dərgiriha beyne Azərbaycan və Erməistan, şeytənete səhyonistha və efğale douləte Əliyev, təhəddodate Esrail be İrəvan” (Azərbaycan və Ermənistan arasında silahlı toqquşmaların pərdə arxası, sionistlərin intriqaları və Əliyev hökumətinin qəfləti, İsrailin İrəvan qarşısında öhdəlikləri)

İsrail Ermənistanı əmin edib ki, Azərbaycan İsrail silahından Ermənistana qarşı istifadə etməyəcək.

“İran Xarici İşlər nazirliyinin ermənilərin təcavüzkarlığını elan etməməsi”

Buna görə separatçılar İranın regional əlaqələrini pozmaq sahəsində fəallaşıblar.

“farsnews”

Azərbaycan Hərbi Hava Qüvvələrinin Komandanı Türkiyənin Müdafiə naziri ilə görüşdü

Türkiyənin Ermənistanın hücumlarına reaksiyası

“farsnews”

Azərbaycan XİN vəzifəsindən uzaqlaşdırıldı

“farsnews”

Moskva: Bütün səylərimizi Ermənistan-Azərbaycan sərhədində qan tökülməsinə son qoyulmasına yönəltmişik

“irna”

“Dərgiriye mərzi beyn Comhuriye Azərbaycan və Ermənestan əz sər gerefte şod” (Azərbaycan Respublikası ilə Ermənistan arasında sərhəd toqquşması yenidən başladı).

Azərbaycan Respublikası və Ermənistan rəsmiləri cümə axşamı səhər saatlarında iki ölkə arasında sərhəddə toqquşmaların bərpa olunduğunu elan ediblər.

İki ölkə arasında ***ərazi mübahisələri (? - V.M.)*** ndə qısa fasilədən sonra qarşıdurmaların yeni mərhələsi başlayıb.

Fransa xəbər agentliyinə istinadən bildirilir ki, bazar günü başlanan hərbi münaqişədə hər iki tərəfdən ən azı 16 nəfər həlak olub.

İki ölkə son bir neçə onillikdə ***mübahisəli bölgə*** olan Qarabağ ərazisi ilə bağlı münaqişədədir.

Ermənistan Azərbaycanın bu gün erməni kəndinə həmlə etdiyini iddia etdi, atışma davam edir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi də açıqlamasında "Ermənilərin bu ölkənin kəndlərinə hücumu"ndan sonra ölkənin şimal bölgəsində toqquşmaların davam etdiyini açıqlayıb.

İki ölkə arasında əldə olunan atəşkəsdən sonra çərşənbə günü toqquşmaların yeni mərhələsi başlayıb.

İki ölkə arasında beynəlxalq səviyyədə nəzarət edilən sülh danışıqları indiyədək iki ölkənin ərazi mübahisələrinin həllinə kömək edə bilməyib.

2016-cı ilin aprelində ***mübahisəli*** Dağlıq Qarabağ bölgəsində Azərbaycan Respublikası və Ermənistan hərbi qüvvələri arasında baş vermiş kütləvi toqquşmalar münaqişənin hər iki tərəfində onlarla insanın ölümünə səbəb olub.

Bakı və İrəvan ayrı-ayrılıqda bir-birini münaqişəyə başlamaqda ittiham edirlər.

Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş verən son toqquşmalardan sonra bizim xarici işlər nazirimiz "Məhəmməd Cavad Zərif" çərşənbə axşamı axşam saatlarında Azərbaycan Respublikası və Ermənistanın Xarici İşlər nazirləri ilə ayrı-ayrılıqda telefon danışığı zamanı tərəflərə təmkinli olmağı və danışıqlara başlamağı tövsiyə edib. Mübahisələr İran İslam Respublikasının gərginliyə son qoymağa kömək etməyə hazır olduğunu göstərirdi.

# NƏTİCƏ

İran kütləvi informasiya vasitələrinin nəzərdən keçirilməsi göstərir ki, Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı çox məhdud şəkildə işıqlandırılmış, saytların çoxu Azərbaycanın itkilərini qeyd etmiş, hərbi münaqişə ilə bağlı Rusiya, Türkiyə və İranın mövqeləri haqqında qısa məlumatlar dərc etmişlər.

İran kütləvi informasiya vasitələrində münaqişənin tarixi ilə bağlı verilən qısa məlumatlarda onun Qarabağ ermənilərinin Azərbaycandan ayrılmasını elan etməsindən sonra başlandığı və nəticədə Azərbaycanın ərazilərə nəzarətini itirdiyi qeyd edilmişdir. İran saytları Dağlıq Qarabağ əvəzinə Qarabağ deməklə oxucu və izləyicilərində münaqişənin mahiyyəti haqqında səhv təsəvvür yaratmağa çalışırdılar. Guya ermənilər Qarabağ əhalisinin əksəriyyətini təşkil edirdilər, həmin coğrafi ərazi onların etnik ərazisi olub və ona görə bu ərazilərə iddiaları var. Mərkəzi saytlarda həmçinin məsələnin mahiyyəti, Ermənistanın təcavüzkar siyasəti, onun əsasında duran sərsəm ideyalar və ən vacibi, işğalçılığı barədə susmağa üstünlük verilmişdir.

Maraqlıdır ki, Təbrizdən yayımlanan "anaj" saytı hadisəni Ermənistanın təcavüzü adlandırmış, hərçənd həmin sayt hökumətin mövqeyini əks etdirmirdi. Saytın izləyiciləri daha çox cənubi azərbaycanlılar olduğundan onların əhval- ruhiyyəsini nəzərə alaraq, guya İranın təcavüzə qarşı olduğunu qeyd edərək, onları sakitləşdirmək məqsədilə belə bir ifadə işlətmişdir. Bununla belə, demək olar ki, yerli səviyyədə olsa da, Ermənistanı təcavüzkar adlandıranlar mövcud idi.

İran mediasının nəzərdən keçirilməsi göstərirki, hadisə ilə bağlı və münaqişə haqqında 6 təhlil yazısı işıq üzü görmüşdir. Onlardan 4-ü Cənubi Azərbaycan (1-i "tabrizebidar", 3-ü "anaj") və 2-i mərkəzi sayta ("irna") aiddir.

“Tabrizebidar” saytı Azərbaycan Respublikasının vətəndaşının münaqişə ilə bağlı Azərbaycanın öz ərazisini azad etməyə qadir olduğu halda azad etməməsinin səbəbi (xaricdə yaşayan erməni biznesmənləri və xarici dövlətlərin Ermənistana yardımı) ilə bağlı fikirlərini əks etdirmişdir.

“Anaj” saytı Birinci Qarabağ müharibəsi zamanı qısa müddətə Azərbaycanda hərbi müşavir olmuş M.Həqiqətpurla müsahibəni dərc etmişdi. M.Həqiqətpur münaqişə ilə bağlı danışarkən Azərbaycanın öz ərazilərini azad etməsi üçün bir sıra təkliflər irəli sürmüş və əsasən Azərbaycanda İslamın və İranın təsirinin gücləndirilməsinin vacibliyindən, Azərbaycanın Türkiyə ilə münasibətləri zəiflətməsinin əhəmiyyətindən danışmış, eyni zamanda Cənubi Azərbaycanın milli-mədəni fəallarına hücum etməyi də unutmamışdır.

“İrna” saytı silahlı münaqişənin yeni mərhələsini onun sülh yolu ilə həllinə olan ümidlərin qırılması kimi dəyərləndirmişdir. Sayt tərəflərin mövqeləri haqqında məlumat verərək Ermənistanın Azərbaycan ərazisini işğal etməsini və Azərbaycan ictimai fikrinin qəti addım atmağı tələb etməsini  əks etdirmişdir.

“Anaj” növbəti şərhində cənubi azərbaycanlıların Azərbaycana dəstək mövqeyinə həmlə edir və Azərbaycan hökumətinə iftira ataraq guya onun  öz ərazilərini azad etmək niyyəti olmadığını yazırdı.

“Anaj” saytı növbəti şərhində münaqişənin arxasında duran amillərdən danışarkən guya İsrailin hadisədən İrana təsir etmək üçün istifadə etdiyini vurğulayır və Cənubi Azərbaycan milli kimlik uğrunda mübarizə aparan qüvvələrini də unutmayaraq onları İranın regional əlaqələrini zəiflətməkdə günahlandırırdı.

Cənubi azərbaycanlılar İrandan Ermənistanı işğalçı adlandırmağı tələb edirdilər.

“Irna” saytı Ermənistanın hərbi təxribatından danışarkən münaqişənin sərhəddə və “ərazi mübahisəsi” əsasında, “mübahisəli Qarabağ bölgəsi” uğrunda  baş verdiyini qeyd edirdi. Şərhdə həmçinin İranın ənənəvi mövqeyi; təmkinli olmaq,  münaqişənin danışıqlar yolu ilə həllinə çağırış öz əksini tapmışdı.

Beləliklə, Təbrizdən yayımlanan sayt hadisədən Cənubi Azərbaycanın milli-mədəni fəallarına qarşı istifadə etməyə səy göstərmiş, İranın hökumət yönümlü saytı isə hadisənin mahiyyəti və yeri haqqında təhrifə yol verərək İranın təcavüzkara adekvat münasibət göstərmədiyini əks etdirmişdi.

# II FƏSİL

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ

Ermənistanın ardı-arası kəsilməyən siyasi, informasiya-təbliğat və ən əsası hərbi təxribatları Azərbaycan ictimaiyyətində işğalçılara qarşı ciddi və ilk növbədə hərbi tədbirlər görülməsi əhval-ruhiyyəsini və çağırışlarını son dərəcə gücləndirməkdə idi. Bunu bütün dünya ermənilərin 2020-ci ilin 12-17 iyul tarixlərində Qarabağdan kənarda, Tovuz rayonu ərazisində, sərhəddə hərbi təcavüzünün qarşısı alınarkən aydın şəkildə müşahidə etmişdir. Həmin hadisədən bir aydan bir qədər çox keçməmiş ermənilər növbəti hərbi təcavüzə başladılar və bu dəfə Azərbaycan rəhbərliyi, Azərbaycan ordusu və onların arxasında birləşmiş xalq hərbi təxribatlara və siyasi-ideoloji təcavüzə son qoymaq üçün işğal olunmuş ərazilərin hərbi yolla azad edilməsinə qərar verdi. Müzəffər Azərbaycan ordusu həm sərkərdə, həm siyasi lider, həm də informasiya cəbhəsinin başçısı kimi çıxış edən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş komandan İlham Əliyevin arxasında Dəmir yumruq kimi birləşmiş xalqın hərtərəfli dəstəyi ilə 44 günlük qalibiyyətli Vətən müharibəsində (27.09.2020-10.11.2020) erməni işğalçılarına ağır, ölümcül zərbə vuraraq öz tarixi torpaqlarını işğaldan azad etməyə nail oldu.

## 1. 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ

Biz müharibənin davam etdiyi 44 gün və müharibədən sonra QƏLƏBƏ ilinin axırına qədərki dövrün (01.09.2020-31.12.2020) hadisələrinin İran İslam Respublikası kütləvi informasiya vasitələrində - poluofisioz “irna” (hökumətin rəsmi agentliyi olan İran

İslam Respublikası xəbər agentliyinin saytı), “isna” (tələbə agentliyi kimi təqdim olunan agentliyinin saytı),”tasnim” (“ərəb baharı” başlayandan sonra meydana gələn, islam birliyi ideyası təbliğ edən Təsnim analitik informasiya agentlyinin saytı), “farsnews” (sepaha – İslam İnqilabı Keşkçiləri Korpusuna yaxın Fars analitik informasiya agentliyinin saytı), həmçinin “anaj” (Təbrizdən yayımlanan, mühafizəkar dairələrin mövqeyini əks etdirən Anaj analitik informasiya agentliyinin saytı) saytlarında yer almış materialları ardıcıl şəkildə nəzərdən keçirmişik.

İranın kütləvi informasiya vasitələrində Vətən müharibəsinin inikası xronoloji ardıcıllıqla nəzərdən keçirilir. Bu paraqrafda əsas diqqət verilən (verilməyən) xəbərlərin xarakterinə, onların təqdim olunması üsulları və İranın müxtəlif siyasi qruplarının hadisəyə münasibətini əks etdirən yazılara verilmişdir.

Ona görə əvvəlcə Vətən müharibəsinin gedişi xronoloji ardıcıllıqla təqdim və şərh edilir.

## 1.1. Vətən müharibəsinin gedişinin işıqlandırılması

27 sentyabr 2020-ci il Ermənistanın hərbi təxribatına qarşı əks-hücum əməliyyatı ilə VƏTƏN MÜHARİBƏSİNİN başlanması

**27 SENTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 1-Cİ GÜNÜ**

Adı qeyd edilən saytlar hərbi əməliyyatların başlanması ilə bağlı geniş məlumat və xəbərlər verməyə başlamışlar. Belə ki, bütün saytlar hərbi əməliyyatların başlanmasını xəbər verərək hərbi münaqişəyə Rusiya və İranın münasibətləri (atəşkəsə çağırış və danışıqlar aparılması), İranın xarici işlər nazirinin Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə telefon danışığı, Azərbaycan ordusunun altı kəndi TUTMASI, azad etməsi, Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Ermənistanın SU təyyarələrindən istifadə haqqında təhdidi, həmçinin ilk mərmilərin İran ərazisinə düşməsi barədə operativ məlumatlar vermişlər.

Saytlardan biri münaqişəni SƏRHƏDDƏ gərginlik kimi (tasnim) təqdim edirdi.

Saytlar Vətən müharibəsinin birinci günü haqqında xəbərlərlə yanaşı hadisəyə münasibət bildirən şərhlər də veriblər ki, onlar daha geniş şəkildə növbəti bölmədə nəzərdən keçiriləcəkdir.

**28 SENTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 2-Cİ GÜNÜ**

Müharibənin ikinci günü onun davam etməsi və hərbi münaqişə barədə olduqca geniş məlumat verilmişdir. Belə ki, BMT TŞ-nın fövqəladə iclası, Rusiyanın, Çinin münasibəti, Makronun narahatlığı, Ərdoğanın böhranın həllinin vaxtının çatdığı haqqında bəyanatı, Trampın vasitəçilik təşəbbüsü irəli sürməsi, Türk dilli ölkələrin Əməkdaşlıq Şurasının Ermənistandan işğala son qoymasını tələb etməsi; Təbriz İmam cüməsinin QARABAĞ əhalisini dəstəkləməsi, danışıqlara çağırışı, Ermənistandan hərbi əməliyyatlardan əl çəkməyi tələb etməsi və İsraili təhrikedicilikdə ittiham etməsi [anaj]; İran ərazisinə raket və mərmilərin düşməsi ilə bağlı tərəflərə xəbərdarlıq edilməsi, İran Xarici İşlər Nazirliyinin sözçüsünün sərhəd bölgəsində hərbi əməliyyatların yol verilməzliyi ilə bağlı xəbərdarlığı, sərhəd zonasında yaşayan əhalinin döyüşləri izləməsi, separatçıların (“irna”) itkiləri, Azərbaycanın öz ərazisində Türkiyə hərbi qüvvələrinin (“farsnews”) və Suriya muzdlularının mövcudluğu haqqında iddiaları rədd etməsi (“isna”); Ermənistanla (Azərbaycan tərəfindən) TƏMAS (? - V.M.) xəttində yeni hücum əməliyyatına başlaması və Ermənistanın Azərbaycana qarşı “İsgəndər” raketləri və SU-30 təyyarələrindən istifadə etməsi təhdidi (“farsnews”) haqqında məlumat verilmişdir.

**29 SENTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 3-CÜ GÜNÜ**

İranın öz ərazisindən Ermənistana silah tranziti barədə xəbərlərin Xarici İşlər Nazirliyinin sözçüsü və İranın Azərbaycandakı səfiri tərəfindən təkzib edilməsi, İranın münaqişəni danışıqlar yolu ilə həll etmək mövqeyi, Qərbin sözdə xoş niyyəti, əslində

siyasət oyunu, münaqişənin həllində Rusiya, Türkiyə və İranın yeri, Putinin dərhal atəşkəs istəməsi, İ.Əliyevin Suriya muzdluları barədə xəbəri təkzib etməsi, Azərbaycan xarici işlər nazirinin Azərbaycanın adekvat cavab verəcəyi, Bakının S-300 raketlərini məhv etməyə hazır olması, NATO-nun Rusiyanın Abxaziya və Cənubi Osetiyadan çıxması tələbi, Ermənistanın Türkiyənin hərbi əməliyyatlarda iştirakı iddiası, Ermənistanın Türkiyənin onun təyyarəsini vurması iddiası, Ermənistanın bir təyyarəsinin düşməsi, Türkiyənin Ermənistanın təyyarə barədə iddiasını rədd etməsi, Türkiyənin xarici işlər naziri M.Çavuşoğlunun hər yerdə Azərbaycanın yanında olmaları haqqında dedikləri İran mediasında öz əksini tapmışdır.

**30 SENTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 4-CÜ GÜNÜ**

BMT TŞ-nın hərbi əməliyyatların dərhal dayandırılması tələbi, Rusiya və İranın hərbi münaqişənin genişlənməsinə qarşı çıxması, İranın münaqişənin sülh yolu ilə həllinə tərəfdar olması, İran Prezidentinin Ermənistanın baş naziri ilə telefon danışığı, İran ərazisindən silah tranziti xəbərinin təkzib edilməsi, silah tranziti barədə şaiyələrin İran-Azərbaycan münasibətlərinə təsir etməyəcəyi, İ.Əliyevin Ermənistanla danışıqların faydasız olması, Bakının S-300 raketini vurması iddiası, Azərbaycanın Ermənistana Dağlıq Qarabağın müstəqilliyini tanıması barədə xəbərdarlığı, Azərbaycanda mülki şəxslərin həlak olması və yaralanması haqqında məlumatı, Azərbaycan və Ermənistanın danışıqları rədd etmələri, Ermənistanın Azərbaycanın iki PUA-sını vurması iddiası, Türkiyənin Ermənistanın həmin ölkənin hərbi münaqişədə iştirakı barədə iddiasını rədd etməsi, tasnim redaksiyasının Ermənistan və Azərbaycan səfirləri ilə müsahibəsi, “anaj” saytının Təbrizdən olan deputatlardan 6 nəfərin Azərbaycana dəstək haqqında dedikləri və Şimal-qərb regionu (Cənubi Azərbaycan - M.V.) deputatlarının birgə bəyanat anonsu haqqında məlumatlar adı çəkilən saytlarda yer almışdır.

**1 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 5-Cİ GÜNÜ**

Həmin gün İran kütləvi informasya vasitlərindən olan və Təbrizdən yayımlanan, mühafizəkar dairələrin mövqeyini əks etdirən “anaj.ir” saytında iki mühüm bəyanat yer almışdır. 9 mehr 1399\30 sentyabr 2020-ci il tarixində qəbul edilmiş birinci bəyanat Rəhbərin Şimal-qərb bölgəsinin-Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil və Zəncan ostanlarında nümayəndələrinin qəbul etdikləri Birgə bəyanatdır. Bəyanat müxtəlif saytlarda müxtəlif başlıqlarla dərc edilmişdir. “Anaj” saytında 1 oktyabr tarixində yayımlanan bəyanat “Bəyaniyyeye mohemme nəmayəndeqane vəliye fəqih dər şemale qərbe keşvər dər bareye bohrane Qarabağ., hiç tərdidi dər təlloğe Qarabağ be Azərbaycan nist” (Ölkənin şimal-qərbində fəqih vəlisinin nümayəndələrinin mühüm bəyanatı, Qarabağın Azərbaycana məxsus olmasında heç bir şübhə yoxdur) başlığı altında verilmişdir. Bəyanatda Qarabağın işğal olunduğu, Qarabağın Azərbaycana məxsus olduğuna heç bir şübhə olmadığı, Azərbaycanın öz ərazilərini geri qaytarmaqda qanuni və şəri hərəkət etdiyi və bu addımı ilə BMT TŞ  dörd Qətnaməsinin icrasını təmin etmək istədiyi xüsusi  deyilir. Bəyanat aşağıdakı sözlərlə bitir: “Biz son qələbələri bayram\təclil edərək  böyük Allahdan  BÖYÜK Azərbaycan MİLLƏTİNİN şəhidlərinə ali dərəcə xahiş edirik Ümid edirik ki, haqlının haqqının reallaşması ilə bu faciə ən qısa zamanda başa çatacaq və daha çox qan tökülməsinin qarşısı alınacaq..”

İkinci Bəyanat həmin gün həmin bölgədən – Şimal-qərb bölgəsindən olan deputatlar tərəfindən qəbul edilib. Bəyanat “anaj” saytında “Bəyaniyyeye məcməe nəmayəndeqane Şemale Qərb *dər bareye dərgirihaye* Qarabağ” (Şimal-qərb deputatları assosiasiyasının Qarabağ münaqişəsi haqqında Bəyanatı) adı ilə 1 oktyabr 2020-ci il tarixində yayımlanmışdır.

Bəyanatda deyilir: “Bütün elmi, tarixi sənədlər Qarabağın *İSLAM ÖLKƏSİ* olduğunu təsdiqləyir. BMT TŞ  822,853,874,884 saylı Qətnamələri də Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyini tanıyıb, Ermənistanın Qarabağ ərazisindən çıxmasını

tələb edib. Bu arada ziyanverici hərəkətlərin qarşısını almaq üçün tərəflərin fundamental hüquqlara riayət etməsi, düşmənçiliyə son qoyması və qarşılıqlı milli suverenliyi qəbul və hörmət etməsi gözlənilir".

Həmçinin xarici hərbi və yarım hərbi qüvvələrin müdaxiləsinin yol verilməz olduğu vurğulanır.

Bəyanatda ümumi şəkildə, fərq qoymadan xarici hərbi və yarımhərbi \hərbiləşdirilmiş qüvvələrin hadisələrə müdaxilə etməsi ehtimalından narahatlıq ifadə olunur.

"Biz həmçinin trans-regional hərbi və hərbiləşdirilmiş qüvvələrin müdaxiləsini region xalqlarının və onların müvafiq hökumətlərinin maraqlarına uyğun hesab etmirik və hesab edirik ki, bu qüvvələrin daxil olması regionun sabitliyinə zərər verə bilər və bölgədə müharibəni alovlandırar".

Biz dörd ostanın deputatları İİR Əsas Qanununun 3 və 152-ci maddələrini əsas götürərək Azərbaycan Respublikasının müsəlman xalqını və Qarabağın məzlum şiələrini **dəstəklədiyimizi** elan edir və İİR hökumətindən, xüsusən XİN-dən Əsas qanuna və İslam inqilabının yüksək idellarına, beynəlxalq müqavilələr və qaydalara, mehriban qonşuluq prinsiplərinə dayanaraq bölgədə *sabitlik* yaradılmasına səylər göstərmələrini və öz fəaliyyətləri barədə millətə və məclisə hesabat vermələrini istəyirik".

Həmin gün saytlarda Rusiya, Fransa və ABŞ-ın Qarabağda gərginlik haqqında Birgə bəyanatı, Lavrov və Borrelin tam atəşkəs çağırışı, Moskvanın Ermənistan və Azərbaycana hərbi yardımının yol verilməz olduğu, Ərdoğanın Ermənistanın Qarabağdan çəkilməsi ilə davamlı sülhün əldə edilməsi fikri barədə məlumatlar, həmçinin Türkiyənin Azərbaycana yardım etməsi və Gilan ostanından Ermənistana hərbi sursat göndərilməsi barədə fikirlərə aydınlıq gətirilməsinə cəhd öz əksini tapmışdır.

## 2 OKTYABR 2020-VƏTƏN MÜHARİBƏSİNİN 6-CI GÜNÜ

Vətən müharibəsinin altıncı günü qeyd edilən saytlarda aşağıdakı xəbərlər:

Avropa Şurasının təcili atəşkəs çağırışı və Türkiyədən birtərəfli hərəkətlərdən əl çəkməsini tələb etməsi, əks təqdirdə sanksiya ilə təhdid etməsi, Ermənistanın atəşkəsə hazır olması, Türkiynin BMT TŞ ölkələri başçılarının (Minsk qrupu) bəyanatını tənqid etməsi, Pentaqonun hadisələri yaxından izləməsi, Xəftər ordusunu Türkiyənin Liviyadan Azərbaycana terrorçular gətirməsi barədə iddiası ("isna") Moskvanın üçüncü tərəflərin münaqişədə iştirakından narahatlığı, Ermənistanın Azərbaycanın ***Qarabağ Respublikasının*** (?) mərkəzinə hücum etməsi barədə xəbər verməsi ("farsnews") (Video), İran və Rusiyanın təcili atəşkəs çağırışı, – [sayt mətndə döyüşlərin ***sərhəddə*** başladığını vurğulayır,] Putinin düşmənçiliyə son qoyulması çağırışı, Aİ təcili atəşkəs tələb etməsi, İranın bitərəf mövqe tutması, Azərbaycan Prezidentinin hadisənin səbəbləri ilə bağlı fikirləri, İran ərazisinə düşən mərmilərin 6 yaşayış vahidinə ziyan vurması və bir uşağın yaralanması haqqında ("anaj") yer almışdır.

## 3 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 7-Cİ GÜNÜ

Vətən müharibəsinin yeddinci günü İran mediasında aşağıdakı xəbərlər öz əksini tapmışdı:

"Şərq" qəzetini Şimal-qərb imam cümələrinə hücumu ("anaj"), İranın qarşı tərəflərə öz ərazisinə mərmi və s. düşməsi barədə ciddi xəbərdarlığı, müxtəlif səviyyəli rəsmilərin əhalinin sərhəd bölgəsinə toplaşmağının təhlükəli olması barədə xəbərdarlıq və çağırışları, Suriyanın Azərbaycana Türkiyənin toruna düşməməsi barədə çağırışı. ("farsnews")

## 4 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 8-Cİ GÜNÜ, CƏBRAYIL ŞƏHƏRİNİN AZAD EDİLMƏSİ

Vətən müharibəsinin 8-ci gününün İran kütləvi informasiya vasitələrində əks olunan ən mühüm xəbərləri:

Gəncə və Qarabağ şəhərlərinin (?) bombalanması ("tasnim"), İranın böhranda orta xətt tutması və sülh çağırışını davam etdirməsi, İran səfirliyinin dinc əhaliyə hücumu pisləməsi, İran rəsmilərinin sərhəd bölgəsinə səfərləri, İsrailin böhrandan İran-

Türkiyə münasibətlərini pisləşdirmək xəyalı, Azərbaycanın irəliləməsi haqqında iddiaları (“isna”) Dağlıq (?) Qarabağda hərbi əməliyyatların 8 günü haqqında icmal. (“farsnews”)

Azərbaycanın Dağlıq Qarabağın mərkəzinə hücumu tələfata səbəb oldu. (“farsnews”) İran səfirliyinin Azərbaycanın xarici hərbçilərə ehtiyacı olmaması barədə dedikləri, Qarabağ dövlətinin (?) Gəncə hərbi aerodromunu vurması və şəhəri boşaltmaq tələbi. (“farsnews”)

## 5 OKTYABR 2020-VƏTƏN MÜHARİBƏSİNİN 9-CU GÜNÜ

Vətən müharibəsinin 9-cu günü, İran KİV-də əsas diqqət yetirilən xəbərlər:

İran ərazisinə düşən mərmilər və İranın münaqişə tərəflərinə növbəti xəbərdarlığı, Bakının ərazini boşaltmaq cədvəlini tələb etməsi, İranın TƏCİLİ atəşkəs çağırışı, Lavrovun Türkiyə və İranla təmasda olması, İranın Azərbaycan şiələrini (?) prinsipial şəkildə dəstəkləməsi (“tabrizebidar”), Təbrizdə Azərbaycana dəstək toplantısı (“tabrizebidar”) Azərbaycan kinematoqrafçılarının dəstək bəyanatı (“araznews), Təbriz Tibb Universitetinin tələbələrinin cəbhəyə getmək haqqında bəyanatı (“anaj”), sərhəddə vəziyyətin normal olması, parlamentdə Qarabağ bölgəsində hadisələrin müzakirəsi.

İkinci Qarabağ müharibəsi və Bakıda antiiranizm (“azariha”) Bakıda təkfirçilərin çadrasız qadına həmlə etməsi (“azariha”) Qarabağ müharibəsində Türkiyənin rolu, Türkiyənin təkfirçiləri Azərbaycana gətirməsi. (“azariha”)

## 6 OKTYABR 2020,VƏTƏN MÜHARİBƏSİNİN 10-CU GÜNÜ

Vətən müharibəsinin 10-cü günü İran mediasında yer alan xəbərlər

[Keçmiş xarici işlər naziri, Rəhbərin beynəlxalq münasibətlər üzrə müşaviri Ə.Ə] Vilayətinin Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsinin zəruriliyi və münaqişənin həllinin

yolunun hərbi olmaması haqqında bəyanatı, İranın müdafiə nazirinin əraziyə mərmi düşməsi ilə bağlı tərəflərə ciddi xəbərdarlıq etməsi, hökumət sözçüsünün Azərbaycanın ərazi bütövlüyünün qorunmasını vurğulaması, Azərbaycan şair və yazıçılarının Qarabağ münaqişəsi barədə bəyanatı. (“azariha”)

**7 OKTYABR 2020-VƏTƏN MÜHARİBƏSİNİN 11-Cİ GÜNÜ**

Vətən müharibəsinin 11-ci gününün əsas xəbərləri

İranın vasitəçiliyi haqqında mülahizələr, son bəyanatların Azərbaycanın haqlı olduğunu təsdiq etməsi, İranda Cənubi Azərbaycan imam cümələrinə qarşı radikal təbliğat və ona Azərbaycanda mənfi münasibət (hamısı “anaj”) Xarici İşlər Nazirliyinin Azərbaycan və Ermənistana etiraz notası, terrorist iftirasının genişlənməsi, prezidentin terroristlərin İran sərhədinə yaxılaşmasına imkan verməyəcəkləri barədə dedikəri, İranın danışıqlara tərəfdar olması mövqeyinin davam etməsi, Kremlin atəşi dayandırmaq və müzakirə masası arxasında oturmaq tələbi, İranın böhranı həll etmək imkanı, Ruhaninin İ.Əliyevlə telefon danışığı, İmam cümələrin müdafiəsi. (“anaj”)

**8 OKTYABR 2020-VƏTƏN MÜHARİBƏSİNİN 12-Cİ GÜNÜ**

Bu gün İranın qeyd edilən KİV orqanlarında yalnız bir-iki şərh və təhlil verilmişdir.

**9 OKTYABR 2020-VƏTƏN MÜHARİBƏSİNİN 13-CÜ GÜNÜ**

HADRUT QƏSƏBƏSİ VƏ 8 KƏNDİN AZAD EDİLMƏSİ

Vətən müharibəsinin 13-cü gününün əsas xəbərləri

Ermənistanın sülh danışıqlarını bərpa etməyə hazır olması, Fransanın tezliklə atəşkəs elan olunacağı xəbəri, Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin danışıqları, Azərbaycanın azad edilmiş ərazilərdən geri çəkilməyəcəyini bəyan etməsi, Moskvada üçtərəfli danışıqların başlanması.

**10 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 14 CÜ GÜNÜ (humanitar atəşkəs)**

Vətən müharibəsinin 14-cü günündə İran mediasının diqqətini çəkən əsas hadisələr:

12 saatlıq atəşkəs, Ruhaninin Putinlə, o cümlədən Qarabağ məsələsini müzakirə etməsi, Qarabağda atəşkəsin bərqərar olması, Azərbaycanın Ermənistanı atəşkəsi pozmaqda ittiham etməsi, Ankaranın atəşkəsi vacib hesab etməsi, lakin onun həlli əvəz edə bilməməsini vurğulaması, Azərbaycan və Ermənistanın bir-birni atəşkəsi pozmaqda ittiham etməsi, ("farsnews") bəzi xarici medianın İranın Ermənistanı dəstəkləməsi haqqında danışması, Azərbaycanın heç kimə ərazi iddiası olmaması, A.Paşazədənin İrana dəstəyinə görə minnətdarlığı ("tabrizebidar") Şimal-qərb imam cümələrinin müdafiəsi (''tabrizeman"), Ruhaninin müharibənin həll yolu olmaması haqqında fikri, "Şərq" qəzetinin Suriya terroristlərinin Qarabağda olması iddiasına cavab ("anaj"), Azərbaycan ruhanilərindən birinin Rəhbərin uzaqgörənliyini alqışlaması. (''anaj")

**11 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 15-Cİ GÜNÜ. Gəncə bombalandı**

10.10.2020 - saat 24.00 humanitar atəşkəs elan edildi. Gecə saat 02.-də Gəncə bombalandı

Vətən müharibəsinin 15-ci günü İran mediasında yer alan əsas xəbərlər:

Qorbaçovun danışıqları davam etdirmək çağırışı, Minsk qrupunun böhranı həll etmək yolu göstərə bilməməsi, Bakının Mingəçevirə hücumun qarşısının alınmasını xəbər verməsi, Rusiyanın münaqişənin həllini israr etməsi, Türkiyə mətbuatının İranda Azərbaycanı dəstəkləyənlərə qarşı repressiyalar xəbərinə qarşı yazı, Azərbaycanın Ermənistanın Gəncəni bombalaması haqqında xəbəri, İranın böhranın həlli istiqamətində fəaliyyəti, Ermənistanın yenidən Gəncəni bombalaması, Ermənistanın Qarabağa öz müqəddəratını təyin etmək hüququ tələb etməsi, ("farsnews")

Ə.Kərimlinin müharibə haqqında təhlili (“anaj”), Şimal-qərb imam cümələrinin müdafiəsi, İran və Rusiyanın böhranı həll etmək üçün xüsusi məsuliyyət daşımaları, İran sərhədində vəziyyətin stabil olması, böhranla bağlı dəyirmi masa keçirilməsi, İ.Əliyevin Ermənistanın hücumunu erməni faşizminin təzahürü adlandırması, ermənilərin geri çəkilməyə məcbur edilməsi, İ.Əliyevin Ermənistana lazımi cavab veriləcəyini vurğulaması, Artsax Respublikasında (?) kilsənin dağıdılma təhlükəsi. (“tasnim”)

## 12 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 16-CI GÜNÜ

Vətən müharibəsinin 16-cı gününün əsas xəbərləri:

İranın din xadimlərindən daha birinin Azərbaycana dəstəyi (“anaj”), Avropa İttifaqının atəşkəsə riayət edilməsinə çağırışı, sərhəd bölgəsindən reportaj, Qarabağla bağlı dəyirmi stolun ikinci hissəsi, Lavrovun atəşkəsin davamlı olmasına ümid etməsi, Lavrovun Türkiyənin atəşkəsi dəstəklədiyini bəyan etməsi, H.Akarın S.Şoyquya Ermənistanın işğal edilmiş ərazini tərk etməsinin vacibliyini xatırlatması, M.Vaezinin Rusiyanın səylərini dəstəkləməsi, İ.Əliyevin münaqişənin həlli mexanizminin mövcud olduğunu vurğulaması.

## 13 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 17-Cİ GÜNÜ

Vətən müharibəsinin 17-ci günü baş verən hadisələrin mediada əksi:

İran ərazisinə PUA düşməsi, Rusiyanın Suriyadan terroristlərin Qarabağa gətirilməsindən narahatlığı (“irna”), Vaşinqtonun Azərbaycan və Ermənistanı atəşkəsə əməl etməyə çağırması, Ermənistanın Azərbaycana qarşı terroristlərdən istifadə etdiyinə görə cinayət işi açması (“farsnews”), Ermənistanın münaqişəni həll etmək üçün qarşılıqlı güzəştlərdən danışması.

**14 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 18-Cİ GÜNÜ**

Vətən müharibəsinin 17-ci günü İran KİV-i nədən danışırdı?

Moskvanın Türkiyənin hərbi yolu dəstəkləməsi ilə razı olmaması, hərbi əməliyyatların davam etməsi, Lavrovun Qarabağda ***sülhməramlıların*** yerləşdirilməsinin vacibliyini vurğulaması, Paşinyanın müharibənin dayandırılmasını Türkiyənin mövqeyini dəyişməsi ilə şərtləndirməsi, Azərbaycanın daha bir neçə məntəqəyə nəzarəti ***ələ keçirdiyini*** iddia etməsi, ("farsnews") Baydenin İran və Türkiyənin münaqişəyə müdaxilə etməməsini tələb etməsi, İranın münaqişənin həllində daha fəal rol oynamağa hazır olması, Azərbaycanın İranın fəal rol oynamaq istəməsini müsbət qiymətləndirməsi, Azərbaycan Prezidentinin Qarabağda bir neçə kəndin ***ələ keçirilməsi*** haqqında xəbər verməsi. ("irna")

**15 OKTYABR 2020-VƏTƏN MÜHARİBƏSİNİN 19-CU GÜNÜ**

Vətən müharibəsinin 19-cu gününün xəbərləri

İranın şimal-qərb sərhədlərinə heç bir təhlükənin olmaması ("tasnim"), şimal-qərbin hava və quru sərhədlərinə ən kiçik təhlükənin olmaması, Qarabağ münaqişəsi və İran sərhədlərini tam nəzarətdə saxlanması, sərhəd məntəqəsinə bir neçə raket düşməsi, İran xarici işlər nazirinin Azərbaycan xarici işlər naziri ilə telefon danışığı, İ.Əliyevin daha 6 kəndin azad edilməsini xəbər verməsi, Xudafərin rayonu kəndlərinə raket düşməsi. ("tasnim")

**16 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 20-Cİ GÜNÜ**

Vətən müharibəsinin 20-ci günü bir neçə xəbərdə əks olunub.

İ.Əliyevin Paşinyanı Soros yetirməsi adlandırması, Qarabağda pərakəndə döyüşlərin davam etməsi, Pompeonun bəyanatı ("isna") Bakının Tehran, Ankara və Londonla məsləhətləşməsi.

**17 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 21-Cİ GÜNÜ. FÜZULİ ŞƏHƏRİ AZAD EDİLDİ, GƏNCƏYƏ BALLİSTİK RAKETLƏR ATILDI**

Vətən müharibəsinin 21-ci gününün əsas xəbərləri:

İ.Əliyevin Türkiyə kanallarından birinin aparıcısının İranın rolu haqqında dediklərinə cavabı, Bakı səfirliyinin Gəncəyə raket hücumunu pisləməsi, hərbi əməliyyatların davam etməsi və Füzuli şəhərinin azad edilməsi, (“irna”) Azərbaycanın 2 şəhərinə raket zərbəsi və 13 nəfərin həlak olması, (“isna”) BMT TŞ Qarabağla bağlı qapalı toplantısı, İ.Əliyevin Gəncəyə raket zərbəsini hərbi cinayət adlandırması, İ.Əliyevin Gəncənin intiqamını aldıqlarını vurğulaması, Ermənistan Prezidentinin İsraili sərt tənqid etməsi, (“farsnews”) Türkiyənin Həmzə batalyonunu Bakıya gətirməsinin tənqidi. (“azariha”)

**18 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 22-Cİ GÜNÜ. HUMANİTAR ATƏŞKƏS. XUDAFƏRİN AZAD OLUNDU**

Vətən müharibəsinin 22-ci günü oxuculara təqdim edilmiş xəbərlər:

Ermənistan HHQ məxsus SU-25 təyyarəsinin vurulması, Azərbaycanın Ermənistanı atəşkəsi pozmaqda ittiham etməsi, Azərbaycan və Ermənistanın atəşkəsə razı olması, yeni atəşkəsin uzun çəkməməsi, Ermənistan XİN-in Vaşinqtona səfərinin proqramı, (“isna”) Ayətulla-ozma Məkarem Şirazinin bəyanatı: “Bütün müsəlmanlara Qarabağın azadlığını dəstəkləmək vacibdir, amma İsrailsiz. (“farsnews”) Bir gündə Ermənistanın 2 SU-25 təyyarəsinin vurulması, Qarabağ (?) itkilərinin sayının 673 olduğunu açıqlaması, (“farsnews”) Ermənistan səfirinin İran parlamentinin Ermənistanla dostluq qrupunun sədri ilə görüşü.

**19 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 23-CÜ GÜNÜ**

Vətən müharibəsinin 23-cü günü gündəm təşkil edən xəbərlər:

Avropa mediasında İranın Qarabağ böhranına yanaşmasının inikası, S.Lavrovun Atəşkəsə nəzarət mexanizmi axtarması, İ.Əliyevin hərbi əməliyyatların dəyişməsinin Ermənistanın hərəkət tərzini dəyişməsindən asılı olması haqqında dedikləri, Paşinyanın Rusiyanın Qarabağda olan muzdlulara cavab hüququ olması barədə bəyanatı, Ermənistanın qadın batalyonu təşkil etməsi, İ.Əliyevin 13 kəndin azad edilməsi haqqında elanı, Moskva-Ankara arasında muzdlular məsələsinin müzakirə edilməsi, İranın Xorvatiyada səfiri İsmailinin "terroristlərin İranın sərhədləri yaxınlığında olmasına dözə bilməməsini bəyan etməsi", ("farsnews) İranın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü vurğulaması, Gəncəyə raket hücumunu pisləməsi. ("farsnews")

**20 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 24-CÜ GÜNÜ. ZƏNGİLAN ŞƏHƏRİ VƏ 24 KƏND İŞĞALDAN AZAD EDİLDİ**

Vətən müharibəsinin 24-cü günü xəbər baxımından çox kasaddır, amma əsas xəbər Zəngilanın və bir neçə kəndin azad edilməsi (Azərbaycanın ƏLİNƏ DÜŞMƏSİ) və Ermənistanın zahirən Rusiyanın Qarabağda hərbi müdaxiləsini istəməməsi oxuculara çatdırılıb.

**21 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 25-Cİ GÜNÜ. 21 kənd, 1 qəsəbə (Mincivan) azad edildi**

Vətən müharibəsinin 25-ci günü mediada diqqət yetirilmiş əsas xəbərlər:

İrəvan və Bakının Qarabağda hərbi əməliyyatlara son qoyulmasında İranın köməyinə ümid etməsi haqqında xarici mediada getmiş fikirlərin icmalı, saytda İranın ***Artsax respublikası*** (?) ilə MÜŞTƏRƏK sərhədi olması kimi sərsəm fikrinin yer alması, Bakının erməni silahlı qüvvələrinin Cəbrayıl-Qubadlı istiqamətində geri çəkildiyini xəbər verməsi, Ermənistan Prezidentinin Qarabağ məsələsini Brüsselə aparıması, NATO və Aİ-dan yardım istəməsi, İran SQ Quru qoşunlarının komandanı general Kəyumərs Heydəri İranın Ermənistan və Azərbaycanla sərhədinə baş çəkməsi,

İran səfiri və Azərbaycan iqtisadiyyat nazirinin ikitərəfli münasibətləri müzakirə etməsi, daha 22 kəndin azad edilməsi, ("irna") Türkiyənin lazım olan vaxt qoşun göndərəcəyini elan etməsi, ("isna") Paşinyan böhranın diplomatik həlli olmaması haqqında bəyanatı, Xudafərin şəhristanına 71 döyüş mərmisinin düşməsi, Ermənistan Prezidentinin Türkiyədən atəşkəsə kömək etməyi xahiş etməsi, 20 yaşayış məntəqəsinin azad edilməsi, Türkiyənin Azərbaycana qoşun göndərməsi. ("farsnews")

**22 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 26-CI GÜNÜ. 20 kənd, bir qəsəbə və İranla sərhəd tam nəzarətə götürülüb**

Vətən müharibəsinin 26 cı günü İran mediasında:

Azərbaycanın Ermənistanı mülki obyektlərə raket zərbələri vurmaqda ittiham etməsi, NATO-nun Münaqişə tərəfi olmadığını bəyan etməsi, ABŞ-da konqresə Qarabağın müstəqiliyini tanımaq haqqında Qətnamə göndərilməsi, ("isna") Təbrizdə dini mədrəsədə təhsil alan Azərbaycan vətəndaşının müharibədə şəhid olması, ("tabrizeman") İ.Əliyevin 21 yaşayış məntəqəsinin azad edilməsini elan etməsi, ("irna") Hikmət Hacıyevin Vasitəçilərin uğurlu danışıqlarına ümid edilməməsi haqqında fikirləri, ("irna") İran Prezidentinin böhranın danışıqlar yolu ilə həllini vurğulaması, İ.Əliyevin Paşinyanla görüşünü o qədər də real hesab etməməsi, Azərbaycanın sərhədin o tayına tam nəzarət etdiyini bəyan etməsi.

**23 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 27-Cİ GÜNÜ. 13 kənd (4-ü Qubadlıda) azad edildi**

Vətən müharibəsinin 27-ci gününün yadda qalan xəbərləri:

İranın Silahlı Qüvvələrinin baş sözçüsünün Azərbaycan və Ermənistana xəbərdarlığı, ("tasnim") *Ərdoğanın Türkiyənin Qarabağ məsələsində Rusiya* qədər haqqı olması haqqında dedikləri, səfirlərin Azərbaycan Prezidentinin tvitinə (13 kəndlə bağlı) müsbət reaksiyası, İranda Azərbaycan bayrağının Xudafərin körpüsü üzərində qaldırılmasına etirazla bağlı yazı. ("isna")

**24 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 28-Cİ GÜNÜ**

Vətən müharibəsinin 28-ci günü mediada:

İ.Əliyevin hərbi əməliyyatları dayandırmağa hazır olması barədə dedikləri, hərbi əməliyyatların davam etməsi, Azərbaycanın Qarabağda strateji yüksəklikləri ələ keçirdiyini xəbər verməsi, ("isna") Nensi Polusinin Qarabağda tezliklə atəşkəs tələb etməsi, İ.Əliyevin ATƏŞKƏS ŞƏRTLƏRİ, Azərbaycanla sərhəddə vəziyyətin normal olması. ("farsnews")

**25 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 29-CU GÜNÜ. QUBADLI ŞƏHƏRİ VƏ 17 KƏND AZAD EDİLDİ**

Vətən müharibəsinin 29-cu gününün əsas xəbərləri:

İİKK-nın komandirlərinin Azərbaycan və Ermənistana sərhəd zonası ilə bağlı xəbərdarlıqlarının davam etməsi, ("tasnim") İ.Əliyevin Azərbaycanın atəşkəsi müzakirə etməyə hazır olmasını vurğlaması.

**26 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 30-CU GÜNÜ**

08.00-dan atəkəs qüvvəyə mindi və beş dəqiqədən sonra ermənilər atəşkəsi pozdular.

Vətən müharibəsinin 30-cu günü yadda qalan xəbərlər:

S.Lavrovun Qarabağ münaqişəsinin hərb yolu ilə həllini heç vaxt dəstəkləməyəcəkləri barədə sözləri, ("tasnim") İ.Əliyevin Minsk vasitəçilər qrupunun fəaliyyətini kəskin tənqid etməsi, Azərbaycanın bir daha Ermənistanı atəşkəsi pozmaqda ittiham etməsi, Trampın İrəvan və Bakı rəhbərlərini Qarabağda atəşkəs münasibəti ilə təbrik etməsi, ("isna") üçüncü atəşkəsin pozulması, İ.Əliyevin Minsk qrupunun Ermənistana sanksiya tətbiq etmək istəməməsini bəyan etməsi, İ.Əliyevin İrəvana təhdidamiz sözləri, ("farsnews") İ.Əliyevin "torpaqları geri alana qədər gedəcəyik" deməsi. ("farsnews")

**27 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 31-Cİ GÜNÜ**

Vətən müharibəsinin 31-ci gününün mediada əksi:

Döyüşlərin davam etməsi, İran rəsmilərinin sərhəd bölgəsinə səfərləri,

İran və Azərbaycan mediası arasında əməkdaşlığın müzakirə olunması, ("irna") Sepah generallarının sərhəd bölgəsindən beynəlxalq sərhədlərin dəyişdirilməsinə yol verməyəcəkləri haqqında bəyanatları, ("farsnews") A.Əraqçının Bakı və İrəvana səfərə hazırlaşması, tanınmayan "Naqornı Qarabağ" Müdafiə nazirinin yaralanması və vəzifəsindən kənarlaşdırılması haqqında. ("farsnews")

**28 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 32-Cİ GÜNÜ. Bərdə şəhərinə kasset bombası atıldı.**

Vətən müharibəsinin 32-ci günü təqdim olunan xəbərlər:

İran xarici işlər nazirinin siyasi müavini A.Əraqçinin Azərbaycan, Rusiya, Ermənistan və Türkiyəyə səfəri, Sepah generalının sərhəd bölgəsinə gələrək qırmızı xətt bəyanatını təkrar etməsi ("tasnim"), A.Əraqçinin Bakıda görüşləri.

**29 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 33-CÜ GÜNÜ**

Vətən müharibəsinin 33-cü gününün xəbərləri:

Əraqçinin Azərbaycanın İranın sülh layihəsi təşbbüsünə müsbət yanaşdığını vurğulaması, Əraqçinin sülh təşəbbüsü ilə bağlı Moskvada məsləhətləşmələr aparması, Paşinyanın sərhəddə rusların yerləşməsini təsdiq etməsi, Əraqçinin sülh planını Moskvada ikinci dəfə müzakirə etməsi, Ermənistanın 2 hərbi təyyarəsinin vurulması, İran hərbçisinin sərhədlərə heç bir təhdid olmadığını vurğulaması, Ermənistanın hücumunun qarşısının alınması, Ermənistan xarici işlər nazirinin İranın beynəlxalq məsələlərdə konstruktiv mövqe tutmasını yüksək dəyərləndirməsi.

**30 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 34-CÜ GÜNÜ. 9 kənd azad edilib**

Vətən müharibəsinin 34-cü günündə İran üçün ən mühüm xəbərlər:

İranın ali rütbəli hərbçilərinin sərhəd zonasında yaşayanların təhlükəsizliyi iə bağlı yersiz bəyanatları (“tasnim”), Bakının azad olunmuş ərazilərdə hərbi komendantlıq yaratması, Əraqçinin sülh layihəsində birinci yerdə İŞĞALA SON qoyulması tələbinin dayanması (“farsnews”), Əraqçinin Paşinyanla görüşü.

**31 OKTYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 35-Cİ GÜNÜ**

Vətən müharibəsinin 35-ci gününün İran üçün vacib olan hadisələri:

Ə.Ə.Vilayətinin Təbrizdə çıxışında işğal olunmuş bölgələrin boşaldılmasının əsas həll yolu olmasını vurğulaması, Ermənistan MN-nin Qarabağda Suriya döyüşçülərini ələ keçirdiyini iddia etməsi (“tasnim”), Azərbaycan Prezidentinin Azərbaycanın böhranın sülh yolu ilə həllinə hazır olduğunu bəyan etməsi, hərbi əməliyyatların davam etməsi, Minsk qrupunun bəyanatı, Azərbaycanda Əraqçinin səfərinin müsbət dəyərləndirilməsi, İ.Əliyevin Azərbaycanın üçüncü tərəfin müdaxiləsinə qarşı olmasını bəyan etməsi, Ermənistanın Putindən kömək istəməsi, Moskvanın müharibənin Ermənistanda getmədiyini xatırladaraq istəyini rədd etməsi. (“isna”)

**1 NOYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 36-CI GÜNÜ**

Vətən müharibəsinin 36-cı gününün xəbərləri:

İranın xarici işlər nazirinin sərhəd zonasında terrorçuların olmaması, lakin içərilərdə olması barədə məsuliyyətsiz bəyanatı (“tasnim”), Çavuşoğlunun Bakıya səfəri zamanı İ.Əliyevin Paşinyanın Ermənistanın məğlubiyyətini etiraf etməsinin vacibliyini vurğulaması, Rusiyalı ekspertin İran planını müsbət dəyərləndirməsi, İ.Əliyevin Azərbaycanın Qarabağ məsələsinin sülh yolu ilə həllinə tərəfdar olmasını bəyan etməsi, Qarabağda hərbi

əməliyyatların davam etməsi, İ.Əliyevin Ermənistanın tam təslim olmağa razı olmamasını qeyd etməsi, Paşinyanın Suriya terroristləri haqqında sənədlərə malik olması haqqında iddiası ("isna"), İ.Əliyevin Azərbaycanın öz torpaqlarını geri aldığını, Ermənistana qarşı Səddam kimi sanksiya tətbiq edilməli olduğunu bəyan etməsi.

**2 NOYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 37-Cİ GÜNÜ. 8 kənd azad edildi**

Vətən müharibəsinin 37-ci gününün xəbərləri:

("anaj" saytı fəaliyyətini bərpa etdi)

Qarabağ müharibəsi İran ilə Rusiyanın yaxınlaşmasına səbəb olacağı fikri, Türkiyə və Qafqaz üzrə ekspert Məsud Sədr Məhəmmədinin "Yunayted vorld" saytında dərc edilmiş qeydlərinin tərcüməsi ("anaj"), Azərbaycanda ABŞ restoranlarına qarşı kampaniya ("irna"), İran generallarının Qarabağ müharibəsinə qeyri-adekvat və ya qərəzli yanaşmaları. ("farsnews")

İranın hər bir TƏHDİDƏ cavab verməyə hazır olması, regional düşmənlərin ağıllarını başlarına yığmalarının məsləhət görülməsi. ("farsnews")

İran SQ Cənub-Qərb dairəsinin (regionunun) komandiri general Həmzə Bidadinin "Qarabağ münaqişəsinin pərdə arxasında duran ölkələrin hamıya aydın olduğunu" elan etməsi, münaqişənin məqsədinin İran İslam Respublikası siyasi sistemi (quruluşu) ƏTRAFINDA qeyri-stabillik yaratması olduğunu bəyan etməsi, Türkiyə, Rusiya və İranın ittifaq təşkil edərək iş başında olmaları və hər iki tərəfi TƏMKİNLİ olmağa çağırmaları. Hələlik bu baxımdan İran üçün heç bir problem yaradılmaması. ("farsnews")

**3 NOYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 38-Cİ GÜNÜ**

Vətən müharibəsinin 38-ci gününün əsas xəbəri: İİR-nin Rəhbərinin Qarabağ müharibəsi ilə bağlı bəyanatı idi.

Rəhbərin çıxışı haqda məlumat, amma BAŞLIQ fərqli: "....terroristlər İran sərhədinə yaxınlaşsalar, tədbir görüləcək." ("tasnim")

...Digər başlıq: “10 incə mətləb”, eyni icmal....Qarabağ müharibəsi macərasınadək, Musəvinin Azərbaycan rəsmilərinin Rəhbərin bəyanatını yüksək qiymətləndirməsini vurğulaması.

Rəhbərin çıxışı...Başlıq Amerika ilə bağlı..(“irna”) Azərbaycanın Rəhbərin çıxışına görə minnətdarlığı (“irna”), Rəhbərin çıxışının Azərbaycanda inikası (“irna”), Rəhbərin çıxışı başqa başlıqla verilib (“isna”), Rəhbərin çıxışı başqa başlıqla (“farsnews”), Azərbaycanda rəhbərin çıxışının yüksək qiymətləndirilməsi. (“farsnews”)

**4 NOYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 39-CU GÜNÜ**

Vətən müharibəsinin 39-cu gününün əsas xəbərləri:

Qarabağ münaqişəsinə həsr olunmuş “Dağe Qarabağ” Qaynar Qarabağ” sənədli film haqqında geniş məlumat (“tasnim”), Qırmızı Qəsəbənin vəzifəsi haqqında (“tasnim”), Rusiyalı ekspertin İran rəhbərinin Qarabağ münaqişəsinin həllinin ən yaxşı yolunu bəyan etdiyini vurğulaması (“irna”), Azərbaycan ekspertinin İranın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulaması (“irna”), İ.Əliyevin Qarabağda ermənilərin təhlükəsizliyini təmin edilməsinə təminat verilməsini bəyan etməsi (“irna”), Təbriz universitetinin professorunun Qarabağ müharibəsinin regional güclərin fəal diplomatiyası ilə həll edilə bilməsini iddia etməsi (“irna”), Putinin Qarabağda vəziyyəti silaha əl atmadan həll etməyin mümkün olduğunu xatırlatması (“isna”), Azərbaycan Prezidentinin müharibəni başa çatdırmağa hazır olduğunu bəyan etməsi (“isna”), Bakının Ermənistan qüvvələrinin Tərtər və Şıxarxa ağır zərbə endirməsini iddia etməsi (“farsnews”), Paşinyanın Tel-Əvivin Bakıya silah ixracını kəskin tənqid etməsi. (“farsnews”)

**5 NOYABR 2020 – VƏTƏN MÜHARİƏSİNİN 40-CI GÜNÜ**

Vətən müharibəsinin 40-cı günü İran mediasında gedən əsas xəbərər:

Qarabağ münaqişəsinin sona çatmasının həll yolu haqqında mülahizələr (“anaj”), İslam İnqilabı Keşikçiləri Korpusunun Baş

komandanının Muğanın Aslandüz şəhristanında sərhəd zolağına baş çəkməsi (“tasnim”), General Hüseyn Səlaminin “Səfərin məqsədinin sərhəddə yaşayanların təhlükəsizliyindən tam əminlik əldə edilməsi haqqında” bəyanatı. Onun İranın Silahlı qüvvələrinin hər cür HÜCUMA qətiyyətlə cavab verməyə hazır olduğunu vurğulaması (“tasnim”), Münaqişə TƏRƏFLƏRİNƏ TERRORİSTLƏRin İranın sərhədinə yaxınlaşması barədə xəbərdarlıq edilməsi (“tasnim”), Tehranın Qarabağ bölgəsində terroristlərin hərəkətlərinə qarşı tədbir görməkdə CİDDİLİYİnin elan edilməsi. Bu məntəqələrdə terroristlərin mövcudluğu haqqında ŞAİLƏR, terroristləri Türkiyənin Suriyadan gətirməsi, Türkiyənin həmin xəbəri inkar etməsi. (“irna”)

**6 NOYABR 2020 – VƏTƏN MÜHARİƏSİNİN 41-Cİ GÜNÜ**

Vətən müharibəsinin 41-ci gününün əsas hadisəsi:

Bakının erməni silahlı qüvvələrinin Qarabağda bir neçə istiqamətdə geri çəkildiyi haqda xəbər verməsi (‘irna”), döyüşlərin davam etməsi (“irna”), İranın Azərbaycanla sərhəddə vəziyyətin sakit olması (“isna”), Rusiyanın Türkiyəni təhlükəsizlik xidmətinin Qarabağda fəaliyyət göstərməkdə ittiham etməsi. (“isna”)

**7 NOYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 42-Cİ GÜNÜ**

16 kənd, o cümlədən Xocavənd rayonunda 2, Xocalı rayonunda 2 kənd azad edildi.

Günün əsas xəbərləri:

Azərbaycan Məclisinin İnzibati Komissiyasının Behruz Məhərrəmovu cəzalandırması, ona töhmət verilməsi (“anaj”), “Yeni Musavat”ın Behruz Məhərrəmovun antiiran fikirlərinə görə sərt tənqid etməsi (“anaj”), Bakının Azərbaycan məclisinin deputatının İran əleyhinə əsassız fikirlərinin rəsmi mövqe bildirmədiyni vurğulaması (“anaj”), İ.Əliyevin köməkçisinin deputatın sözlərinə görə hökumətin məsuliyyət daşımamasını bildirməsi (“tasnim”), deputatın töhmət edilməsi (“irna”), 16 kəndin azad edilməsi (“irna”), “Yeni Musavat”ın deputatı tənqid etməsi (“irna”),

H.Hacıyevin İrana minnətdarlıq etməsi (“irna”), 16 kəndin azad edilməsi, Behruz Məhərrəmovun töhmətləndirilməsi (“farsnews”), İranın Azərbaycanda keçmiş səfiri Əfşar Süleymaninin Minsk qrupunu Təhlükəsizlik Şurasının Qarabağa dair Qətnamələrinə diqqət yetirməyə çağırması. (“tabrizeman”)

## 8 NOYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN 43-CÜ GÜNÜ

## ŞUŞA AZAD EDİLDİ!!!

İran saytları nədən danışırdılar:

Azəri [azərbaycanlı] analitikin İranın Azərbaycanın əbədi dostları siyahısında olduğunu bəyan etməsi, [analitik, yəni Qurban Cəbrail -“Qələm” yazıçılar birliyinin sədr müavini] (“anaj”), Mütəfəkkir Azadın “anaj”la söhbətində Azərbaycan hökumətinin deputata qarşı münasibətini təhsinedici hesab etməsi (“anaj”), Azərbaycan Parlamentinin Sədr müavininin deputatı pisləməsi (“anaj”), Ermənistanın Rusiyanın bitərəfliyini başa düşüdüyünü bəyan etməsi. (“tasnim”)

İ.Əliyevin 28 ildən sonra Şuşa şəhərində azan səsi ucaldığını xəbər verməsi. [İ.Əliyevin xalqa müraciətinin tam icmalı] (“irna”), Azərbaycanın Şuşanın azad edilməsini elan etməsi (“irna”), azərbaycanlı ekspert Qurban Cəbrailin İranın daim Azərbaycanın yanında olduğunu vurğulaması (“irna”), “Azərtac”ın İranın mövqeyinin ədalətli oduğunu bəyan etməsi (“irna”), Əliyevin Şuşanın azad edilməsi xəbərini verməsi (“farsnews”), Qarabağ Hava Hücumundan Müdafiə sisteminin Azərbaycan PUAsını hədəfə aldığı barədə iddiası, Azərbaycanın reaksiya verməməsi, Ermənistanın Şuşada döyüşlər getdiyini iddia etməsi. (“farsnews”)

Təbriz saytları-3 sayt, burada bəzilərinin adı çəkilir və “anaj” müntəzəm baxılıb, islamist “tasnim” və guya islahatçı və tələbə saytı “isna” ŞUŞANIN azad edilməsi xəbərini vermədilər. “Farsnews” xəbəri versə də, ona şübhə gətirən xəbərləri də verir. Yal-

nız “irna” saytı tarixi hadisəyə ona layiq reaksiya göstərib, Azərbaycan Respublikasının Prezidentinin müraciətinin geniş icmalını vermişdir.

## 9 N O Y A B R 2 0 2 0 – VƏTƏN MÜHARİBƏSİNİN 44-CÜ GÜNÜ

## 72 YAŞAYIŞ MƏNTƏQƏSİ, O CÜMLƏDƏN XOCALI RAYONUNDA 4, XOCAVƏND RAYONUNDA 5 KƏND VƏ DAHA 1 QƏSƏBƏ DÜŞMƏNDƏN AZAD EDİLDİ

Günün mühüm xəbərləri:

Etnosentristlərin yeni işğala sevinməsi, mənhus dəhliz yaradılmasına qarşı çıxılması, “Middle East”-in yazısının icmalı (“anaj”), Hava hücumundan müdafiə çevik qüvvələr hissəsinin şimal-qərb sərhəd bölgəsinə ezam olunması, təcavüzkarlara qarşı şiddətli hərəkət\bərxord edəcəyik (“tasnim”), Sepahın “Xatəm ol-ənbiya” HHM Qərargahının rəis müavininin (caneşininin) Qarabağ regionunda döyüşən tərəflərə ciddi xəbərdarlığı; İranın səmasının sınaq və səhv məkanı olmadığının vurğulanması (“tasnim”), “Xatəm ol-ənbiya” HHM Qərargah rəisinin müavininin (canişininin) davamlı təhlükəsizliyi təmin etməkdə kimsəyə iltifat etməyəcəklərini bəyan etməsi, HHM hissələrinə kəskin cavab vermək əmri verilməsi (“tasnim”), Şimal dairəsinin HHM qüvvələrinin komandanı general Əli Əkbər Abbası Təcəddüdün düşmənlərə İran ərazisinə təcavüz etməyə icazə verməməyə hazır olduqlarını bəyan etməsi (“tasnim”), İranın Bakıdakı səfirinin işğalçılıq və təcavüzkarlığın İranın qırmızı xətti olduğunu elan etməsi (“irna”), 48 kəndin azad edilməsi (“irna”), 23 kəndin azad edilməsi (“irna”), Ermənistanda helikopterin vurulması və Bakının üzrxahlıq etməsi (“isna”), Azərbaycanın Ermənistanın vurduğu ziyana görə şikayət edəcəyini elan etməsi (“isna”), Qarabağ müharibəsində qarşıdurmanın genişlənməsinə Rusiya və Türkiyənin həssaslığı (“isna”), Azərbaycanın vertolyota görə üzr istəməsi (“farsnews”), Moskvanın Qarabağ döyüşlərinə müdaxilə etmək fikri olmadığını bəyan etməsi. (“farsnews”)

Vətən müharibəsinin 43-cü gününün əsas xəbərləri hökumətin ("irna") Azərbaycanın qələbəsinə adekvat, mühafizəkar dairələrin isə təhdid kimi baxmasını əks etdirən yazıların meydana gəlməsindən ibarət idi. Şərh bölməsində bu barədə danışılacaqdır.

## 10 NOYABR 2020 – VƏTƏN MÜHARİBƏSİNİN QƏLƏBƏ İLƏ BAŞA ÇATMASI

Vətən müharibəsinin qələbə ilə başa çatdığı gün İranda necə qarşılanıb?

"Qarabağ sülhü haqqında qeydlər; Qarabağ Putinə çatdı, Türkiyə və tərəfdarlarının narazılığı" ("anaj"), Ermənistanın Azərbaycan və Rusiya ilə Qarabağ müharibəsini sona çatdırmaq üçün razılaşması ("anaj"), "İran Azərbaycan və Ermənistan arasında Qarabağa dair razılaşmanı alqışlayır. ("tasnim")

İranın Xarici İşlər Nazirliyinin bəyanatı: "İran suverenliyə və ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin dəyişdirilməməsi, işğal olunmuş məntəqələrin azad edilməsi, təhlükəsizlik və AZLIQLARIN HÜQUQLARIna hörmət, həmçinin BÜTÜN TƏKFİRİ QÜVVƏLƏRİN VƏ XARİCİ DÖYÜŞÇÜLƏRİN REGİONDAN çıxarılmasını vurğulayır".

"Bakı və İrəvan razılaşmasının qeyri-müəyyənlikləri. İranın regionun geosiyasi vəziyyətinin dəyişdirilməsi haqqında mövqeyinə ehtiramın vacibliyi" ("tasnim")

... "Paşinyan sazişin imzalanmasının səbəbi haqqında"("tasnim")

...Çavuşoğlu: "Ermənistan məğlubiyyəti qəbul etdi" ("tasnim")

... "İran sazişi bəyəndi" ("irna")

...Putin : "Ümid edilir ki, sülh bərqərar olsun" ("irna")

.... "Yeni atəşkəs razılaşması ilə bağlı son hadisələr" ("irna")

...Moskva: "Qarabağda yalnız Rusiya sülhməramlılar yerləşəcək" ("irna")

... Bakı ofisinin məlumatı bütün səhifəni əhatə edir ("irna")

Yeni atəşkəs razılaşması ("isna")

... İ.Əliyev: "Hər iki tərəfin xeyrinədir, Rusiya və Türkiyə sülhməramlıları yerləşəcək" ("isna")

... "Moskva Əliyevin iddiasını rədd etdi" ("isna")

...Ermənistanda etirazlar ("isna")

"İran razılaşmaya razıdır" ("farsnews")

...Fransa Türkiyəyə: "Qarabağ müharibəsinə müdaxilə etmə" ("farsnews")

İranın Azərbaycan və Ermənistan arasında Qarabağa dair razılaşmanı alqışlaması və qondarma təhlükə haqqında narahatlıq ifadəsi ("tasnim"), 10 noyabr Bəyannaməsinin qərəzli təhlili ("tasnim")

Göründüyü kimi, İran kütləvi informasiya vasitələri Vətən müharibəsinin gedişinə təmsil etdikləri qurum və siyasi, dini qüvvələrin mövqeyindən yanaşmışlar. Bu barədə aşağıda daha ətraflı danışılacaqdır.

## 1.2 Vətən müharibəsi haqqında xəbərlərin əsas xüsusiyyətləri

### 1.2.1. İran İslam Respulikasının Xəbər agentliyi ("irna ir." saytı)

Sayt İran hökumətın baxışlarını əks etdirən xəbər agentliyinə məxsusdur. Qeyd edilən dövrdə "Tədbir və etedal" (orta yol, mötədillik) kursu elan etmiş Prezident H.Ruhaninin başçılıq etdiyi hökumət İran dövləti və xalqının əsas maraqlarını ifadə və təmin etməyə səy göstərərək Azərbaycanla yaxın siyasi, iqtisadi münasibətlər qurmaq və genişləndirmək siyasəti yeritdiyindən, haqqında danışılan sayt müharibə günlərində baş verən hadisələri mövcud ideoloji çərçivə daxilində nisbətən geniş və obyektiv işıqlandırmağa əhəmiyyət verirdi. Agentliyin Bakıda nümayəndəliyinin olması hadisələri birbaşa işıqlandırmasına və Azərbycan rəsmilərinin mövqeyini ilk mənbədən işıqlandırmasına şərait yaradırdı. Bütün bunlar İran izləyicisinə Azərbaycan və Cənubi Qafqazda

gedən hadisə və proseslərin operativ və nisbətən obyektiv şəkildə çatdırılmasına imkan verirdi. Operativlik nümayəndəliyin mövcudluğu, obyektivlik isə hökumətin Azərbaycanla münasibətlərinin xarakterindən irəli gəlirdi. Bununla belə, agentliyn yaydığı xəbərlər əsasında 44 günlük müharibə haqqında tam dolğun təsəvvür əldə etmək qeyri-mümkündür. Bunu ilk növbədə Azərbaycanın sürətlə öz ərazilərini erməni işğalından azad etməsinə müəyyən dərəcədə qısqanclıqla yanaşılmasında, şəhər və qəsəbələrin azad edilməsi haqqında xəbərlərin, xüsusən ilk vaxtlar, yayılmamasında görmək olar.

Agentlik Şimal-qərb (Cənubi Azərbaycan) imam cümələrinin və həmin regiondan deputatların Qarabağ böhranı haqqında bəyanatlarını dərc etməyib. Agentlik hökumətin mövqeyini əks etdirdiyindən, qeyd edilən qurumların hökumətin mövqeyini əks etdirməməsinə əsaslanaraq həmin sənədlər haqqında məlumat verməmişdir.

Agentlik Cəbrayılın azad edilməsi haqqında məlumat verməsə də, sonra azad edilən şəhər və kəndlər haqqında, xüsusən Şuşanın azad edilməsi haqqında geniş məlumat vermişdir. Agentlik İran izləyicilərində İranın yaranmış böhranın həll edilməsində həlledici rol oynamaq imkanına malik olduğu fikri aşılamağa çalışmış, İran xarici işlər nazirinin müavini A.Əraqçinin İranın adından təqdim etdiyi sülh razılaşması və onun həmin planı izah etmək üçün 4 ölkəyə-Azərbaycan, Ermənistan, Rusiya və Türkiyəyə səfərini geniş şərh etmişdir. Hərçənd İran tərəfi böhranın həllində heç bir rol oynamamışdır. Agentlik Rusiyanın mövqeyi və addımlarını geniş işıqlandırmış və dəstəkləmişdir. Türkiyənin mövqeyindən ən az yazmağa çalışmış və daha çox onun haqqında mənfi imic yaratmağa səy göstərmişdir. Bundan əlavə, agentlik Azərbaycanın müharibə günlərində sabit mövqeyini xronoloji ardıcıllıqla işıqlandırmağa çalışmışdır. Agentlik İran-Azərbaycan sərhəddində vəziyyəti də geniş işıqlandıraraq, şəraitin normal olduğunu qeyd etmişdir. Maraqlıdır ki, Azərbaycan İranla sərhəd bölgəsini və Şuşa şəhərini işğaldan azad etdikdən sonra İranın ölkələrin ərazi bütövlüyü və separatizmin qırmızı xətt olduğunu

səfirliyin adından bəyan etmişdir. Agentlik Ermənistanın Gəncəni birinci dəfə bombalaması haqqında məlumat verməsə də, növbəti dəfə şəhərin bombalanması haqqında məlumat verərək səfirlik adından onu pisləmişdir.

Agentlik Ermənistan və Rusiya rəsmilərinə istinadən Qarabağda guya Suriyadan gətirilən terroristlər haqqında ölkəsinin narahatlığı haqqında məlumatlara yer vermişdir.

Agentlik həmçinin Aİ və ABŞ-ın münaqişə ilə bağlı hərdən bir səsləndirdikləri mövqelərini əks etdirməyə çalışmışdır.

Bütövlükdə agentliyin saytında yerləşdirilmiş məlumatlar əsasında Azərbaycanın 44 günlük azadlıq müharibəsinin müxtəlif aspektləri haqqında geniş təsəvvür əldə etmək olar.

### 1.2.2. Özünü özəl analitik informasiya agentliyi kimi təqdim edən və İranın İslam İnqilabı Keşikçiləri Korpusuna bağlı Tasnim agentliyi ("tasnimnews.com")

Agentliyin Vətən müharibəsi ilə yayımladığı xəbərlər son dərəcə məhdud olub, əsasən İranın Azərbaycanla sərhəd bölgəsində vəziyyətin işıqlandırılmasına və həmin bölgəyə Silahlı Qüvvələrin və xüsusən Sepahın yüksək rütbəli rəsmilərinin səfərləri və onların müharibə tərəflərinə xəbərdarlıqları yer alıbdır. Bir dəfə (4 oktyabr) Gəncə və Qarabağın (?) bombalanması haqda məlumat verilib. Agentlik az-az hallarda Rusiya və Avropa Şurasının Vətən müharibəsinə münasibətini əks etdirib. Həmçinin İranın diplomatik addımları haqqında məlumat verilib. Agentlik Azərbaycanın öz ərazilərini azad etməsi haqqında heç bir məlumat yayımlamamışdır. Hətta Şuşa şəhərinin azad edilməsini sükutla qarşılamışdır.

Qeyd edildiyi kimi, agentlik Vətən müharibəsinin informativ işıqlandırılmasına az əhəmiyyət vermişdir. Təkcə onu qeyd etmək olar ki, agentlik 21 gün ərzində Vətən müharibəsi və onunla bağlı hadisələr haqqında heç bir xəbər, məlumat verməmişdir.

### 1.2.3 Özünü 2003-cü ildə təsis edilmiş ilk özəl analitik informasiya agentliyi kimi təqdim edən və İranın İslam İnqilabı Keşikçiləri Korpusuna bağlı Fars agentliyi ("farsnews.ir")

Agentlik müharibənin ikinci günü İranın Xarici İşlər Nazirliyinin sərhəd bölgəsində hərbi əməliyyatlar aparılmasına dözməyəcəkləri haqqında bəyanatı və müharibə tərəflərinə İran ərazisinə mərmilərin düşməsi ilə bağlı xəbərdarlığı haqqında məlumatı yaymışdır. Sərhəd bölgəsində vəziyyət agentliyin gündəliyində duran əsas məsələlərindən biri idi. Belə ki, İranın Xorvatiyadakı səfiri terroristlərin guya sərhədin yaxınlığında olmasına İranın dözə bilməyəcəyini elan etməsi (19.10.2020), bir neçə gün sonra yenidən Azərbaycan və Ermənistana növbəti xəbərdarlıq edilməsi ilə yanaşı orada vəziyyətin yaxşı olduğu qeyd edilir (24.10.2020). Halbuki, artıq ayın 22-də Azərbaycanın İranla sərhəd bölgəsinə tam nəzarəti bərpa etdiyi xəbəri verilirdi. Belə olan halda xəbərdarlığın mənası aydın olmur. Bir neçə gün sonra (27.10.2020) sərhəd bölgəsində Hava Hücumundan Müdafiə qüvvələrinin gücləndirildiyi və zəruri olarsa, daha da gücləndiriləcəyi xəbəri verilir və əlavə edilir ki, İran beynəlxalq sərhədlərin dəyişdirilməsinə qarşıdır və həmin mövqeyini saxlayacaq. Göründüyü kimi, Azərbaycan sərhəd zonasını azad etdikdən sonra İran sərhədi müdafiə etmək və beynəlxalq sərhədlərin dəyişdirilməsinə qarşı olduğunu bəyan edir. İran növbəti dəfə guya sərhəd zonasında təhdid olmasını nəzərə alaraq ölkənin hər cür təhdidə hazır olduğunu elan edir (2.11.2020).

Agentlik müharibənin ilk günləri Ermənistan və erməni separatçıları ilə bağlı xəbərlərə geniş yer vermişdir. Misal olaraq, Ermənistanın Azərbaycanı "İsgəndər" raketləri və SU-30 təyyarələrindən istifadə etməklə təhdid etməsi, Ermənistanın Azərbaycanın yeni istiqamətdə hücuma keçməsi ilə yaydığı xəbərləri göstərmək olar (28.09). Ermənistanın guya Türkiyənin onun hərbi təyyarəsini vurması barədə xəbəri (29.09), Ermənistanın Azərbaycanın DAĞLIQ QARABAĞ RESPUBLİKASInın (?) mərkəzinə hücum etməsi barədə xəbəri (2.10), Azərbaycanın Dağlıq

Qarabağın mərkəzinə\paytaxtına hücumunun tələfata səbəb olması, QARABAĞ DÖVLƏTİ (?) adından deyilən Gəncə hərbi aerodromunu vurmaları və şəhərin təxliyə edilməsini tələb etmək xəbəri (4.10), Ermənistanın yenidən Qarabağ üçün öz müqəddəratını təyin etmək hüququ tələb etməsi, Ermənistanın yenidən Gəncə şəhərini bombalaması xəbəri (11.10), Ermənistanın Azərbaycana qarşı guya terroristlərdən istifadə etdiyinə görə cinayət işi açması (13.10), Ermənistan Prezidentinin İsraili Azərbaycana silah satmasına görə sərt tənqid etməsi (17.10), Qarabağın öz itkilərinin sayını (673) açıqlaması və bir gün ərzində Ermənistanın 2 SU-25 təyyarəsinin vurulması (18.10), Azərbaycan Prezidentinin Ermənistanı hədələməsi (26.10), tanınmayan Dağlıq Qarabağın müdafiə nazirinin yaralanması və vəzifəsindən kənar edilməsi (27.10), Ermənistanın 2 təyyarəsinin vurulması (29.10) və s göstərmək olar.

Agentliyin Azərbaycanla bağlı xəbərləri gözlənildiyindən çox azdır. Bunu qeyd edilən xəbərlər də göstərir. Azərbaycan öz ərazisində Türkiyə qüvvələrinin yerləşdirildiyi xəbərini rədd etməsi (28.09), Bakının Ermənistana Dağlıq Qarabağı tanıması haqqında xəbərdarlığı (30.09), Azərbaycan Prezidentinin böhranın köklərindən danışması (2.10), Bakının xarici qüvvələrə ehtiyacı olmadığını bəyan etməsi (4.10), İ.Əliyevin Ermənistana lazımi cavabın veriləcəyini bəyan etməsi (11.10), Azərbaycanın daha bir neçə yaşayış məntəqəsini ƏLƏ KEÇİRDİYİNİ(?) iddia etməsi (14.10), Bakının Tehran, Ankara və Londonla məsləhətləşmələr aparması (16.10), İ.Əliyevin Gəncənin intiqamının alınması haqqında sözləri (17.10), 20 yaşayış məntəqəsinin azad edilməsi (21.10), Azərbaycanın İranla bütün sərhəd bölgəsini nəzarətə götürməsi ilə bağlı verdiyi xəbər (22.10), İ.Əliyevin torpaqları tam geri alana qədər hərbi əməliyyatları davam etdirəcəkləri barədə sözləri (26.10), İ.Əliyevin öz torpaqlarını geri aldıqları barədə sözləri və indiyə qədər Ermənistana sanksiya tətbiq edilməli olduğunu vurğulaması və Azərbaycanın Ermənistan ərazisində hərbi əməliyyatlar aparmaq məqsədi olmadığını elan etməsi (1.11), Şuşanın alınması (?) xəbəri. (8.11)

Agentlik İranın Azərbaycanın apardığı Vətən müharibəsinə münasibəti ilə bağlı xəbərlərə, sərhəd bölgəsinə diqqət nəzərə alınmazsa, çox az yer ayırmışdır. Agentlik "irna"-dan fərqli olaraq İranın Şimal-qərb imam cümələrinin Qarabağ böhranı ilə bağlı birgə bəyanatının mətnini dərc etmişdir (30.09), bundan əlavə İranın münaqişədə bitərəf mövqe tutduğu (2.10), İranın tərəflərə atəşkəs çağırışı və region ölkələri ilə məsləhətləşmələri (11.10), ayətullah ozma Məkarem Şirazinin Qarabağ böhranı haqqında Azərbaycana dəstək bəyanatının mətni (18.10), İranın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməsi və Gəncənin bombalanmasını pisləməsi (19.10), nəhayət, İran xarici işlər nazirinin müavini S.A.Əraqçinin "RİA Novosti" agentliyinə müsahibəsinin mətni verilmişdir.

Agentlik Vətən müharibəsinə Rusiyanın, Türkiyənin və bəzi beynəlxalq təşkilatların mövqeləri haqqında bir neçə xəbər paylaşmışdır.

Türkiyə ilə bağlı bir neçə xəbərin adını qeyd etmək olar: Türkiyənin Azərbaycana kömək etməyə hazır olduğunu bəyan etməsi (29.09), Ermənistan təyyarəsini vurması haqqında iddianı rədd etməsi (29.09), H.Akarın S.Şoyqu ilə danışarkən Ermənistanın işğal etdiyi əraziləri boşaltmasının zəruri olduğunu vurğulaması (12.10), guya Türkiyənin Azərbaycana yardıma qoşun göndərməsi (21.10).

Göründüyü kimi, agentliyin saytında ("farsnews") getmiş xəbərlər əsasında Azərbaycanın Ermənistanın yeni hərbi təxribatına qarşı apardığı Vətən müharibəsi haqqında tam olmasa da müəyyən təsəvvür əldə etmək mümkündür.

### 1.2.4 İran Tələbələri Xəbər Agentliyi ("isna.ir")

Agentlik özünü İnqilabdan sonra, 1378\1999 təsis edilmiş tələbə kimlikli və ilk özəl agentlik kimi təqdim edir. Maraqlıdır ki, agentliyin hədəfləri sırasında sistemin islam, inqilab, vilayəte fəqih və bu kimi dini komponentləri yer almayıb və Əsas qanun

çərçivəsində hərəkət etmək əsas kimi vurğulanır. Dövlətin maliyyə yardımı və Universitet cihadı təşkilatının dəstəyi ilə fəaliyyət göstərir. Dövlətin maliyyə yardımı ilə fəaliyyət göstərdiyi üçün onun fəaliyyətinin istiqaməti və məzmunu mövcud hökumətin siyasətindən və həmin agentlikdən gözləntilərindən asılı olur. Başqa sözlə, agentliyin elan etdiyi hədəflər heç də həmişə prioritet daşımır və hökumətin ümumi siyasəti və tələblərindən asılı olur. Ona görə agentliyin islahatçı və ya mühafizəkar adlandırılmasının heç bir əsası yoxdur. Agentliyin özünü müstəqil elan etməsi də reallığı əks etdirmir. Agentlik dövlət və hökumətdən asılı olan bütün digər kütləvi informasiya vasitələrinin malik olduğu xüsusiyyətlərə malikdir.

Azərbaycanla bağlı xəbərlər:

Azərbaycanın Qarabağda Suriya muzdlularının olduğu barədə xəbərləri təkzib etməsi (28.09), Azərbaycanın xarici işlər nazirinin adekvat cavab verəcəklərini vurğulaması (29.09), İ.Əliyevin Suriya muzdluları barədə xəbərlərin yalan oduğunu bəyan etməsi, Bakının S-300 raketlərini məhv edəcəyini bəyan etməsi (29.09), Bakının S-300 raketini məhv etdiyini iddia etməsi (30.09), Azərbaycan və Ermənistanın danışıqları rədd etməsi (30.09), Azərbaycanın irəliləmək haqqında iddiaları (4.10), Azərbaycanın azad edilmiş ərazilərdən geri çəkilməyəcəyini bəyan etməsi (9.10), Azərbaycanın Ermənistanın Gəncəni atəşə tutması barədə xəbər verməsi (11.10), İ.Əliyevin Paşinyanı C.Sorosun yetirməsi adlandırması (16.10), Bakının Qarabağda strateji yüksəklikləri nəzarətə götürməsi barədə xəbər verməsi, İ.Əliyevin atəşkəs şərtləri (24.10), İ.Əliyevin Azərbaycanın atəşkəsi müzakirə etməyə hazır olmasını bəyan etməsi (25.10), İ.Əliyevin Minsk qrupunun Ermənistana sanksiya tətbiq etmək istəməməsini bəyan etməsi (26.10), İ.Əliyevin münaqişəyə üçüncü tərəfin qarışmasına qarşı olduğunu bildirməsi (31.10).

Göründüyü kimi, agentlik Azərbaycanın apardığı Vətən müharibəsinin gedişi, azad edilmiş ərazilər, siyasi və diplomatik sahədə apardığı gərgin mübarizə haqqında, bəzi istisnalarla, demək olar ki, heç bir məlumat verməmişdir.

Ermənistanla bağlı xəbərlər:

Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik elan edilməsi (mətndə Ermənistanda və Qarabağda hərbi vəziyyət elan edilməsi) (27.09), Ermənistanın Türkiyənin hərbi əməliyyatlarda iştirak etdiyini iddia etməsi (29.09), Ermənistanın Türkiyəyə qarşı ittihamlarının davam etməsi və Türkiyənin cavabı (30.09), Ermənistanın sülh prosesini bərpa etməyə hazır oduğunu bəyan etməsi (9.10), Paşinyanın yalnız Türkiyənin mövqeyinin dəyişməsi müharibəni dayandıra bilməsini bəyan etməsi (14.10), Ermənistan xarici işlər nazirinin Vaşinqton səfərinin proqramı (18.10), Ermənistanın Rusiyanın hərbi müdaxiləsinə ehtiyac olmadığını bəyan etməsi (20.10), Ermənistan Prezidentinin Qarabağ məsələsini Brüsselə aparması, NATO və Aİ-dən yardım istəməsi, Paşinyanın münaqişənin diplomatik həll yolu olmadığını bəyan etməsi, Ermənistan Prezidentinin Türkiyəni atəşkəsə yardım etməyə çağırması (21.10), Ermənistanın Putindən kömək istəməsi, Moskvanın müharibənin Ermənistanda getmədiyini və buna görə köməkdən imtina etməsi (31.10 ).

Göründüyü kimi, müharibə günlərində Ermənistanın fəaliyyəti və mövqeyi barədə geniş məlumat verilmiş və müəyyən dərəcədə Ermənistanın guya münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində hərəkət etməsi haqqında müəyyən təsəvvür yaradılırdı.

Rusiyanın siyasəti ilə bağı xəbərlər:

S.Lavrov və J.Borelin tam atəşkəs bərqərar edilməsi çağırışları (1.10), Putinin dəvəti ilə Moskvada xarici işlər nazirlərinin üçtərəfli danışıqlarının aparılması (9.10), S.Lavrovun Türkiyənin Qarabağ razılaşmasını dəstəkləməsi və danışıqlar formatının dəyişməyəcəyi haqqında bəyanatı (12.10), S.Lavrovun Qarabağda sülhməramlıların yerləşdirilməsinin vacibliyini və Türkiyənin mövqeyi ilə razı olmadıqlarını bəyan etməsi (14.10), Ermənistanın hərbi yardım çağırışını rədd etməsi (31.10).

Türkiyə ilə bağlı xəbərlər:

R.T.Ərdoğanın "Naqornı (?) Qarabağ" böhranının həllinin vaxtının çatdığını bəyan etməsi (28.09), Çavuşoğlunun hər yerdə

Azərbaycanın yanında olduğunu bəyan etməsi (29.09), Ankaranın atəşkəsi dəstəkləməsi, lakin onun həll yolunu əvəz edə bilməməsini vurğulanması (10.10), Türkiyənin müharibəyə dəstək xarici siyasətinin tezliklə dalana dirəcəyinin elan edilməsi (12.10), Türkiyənin lazım olan vaxt qoşun göndərəcəyini bəyan etməsi (21.10).

İranın mövqeyi ilə bağlı xəbərlər:

Ruhaninin Ermənistanın baş naziri ilə telefon danışığı və böhranın beynəlxalq hüquq və ərazi bütövlüyü çərçivəsində həll yolunun tapılmasını vurğulaması (30.09), Ruhaninin müharibənin münaqişənin həll yolu olmadığını vurğulaması (10.10), Bir gün ərzində Xudafərin rayonuna 71 döyüş mərmisinin düşməsi (21.10), Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının dalğalanmasına etirazlara münasibət bildirilməsi, bayrağın körpünün Azərbaycan hissəsi üzərində olması (23.10).

Bir sıra ölkələr və təşkilatların mövqeyi barədə xəbərlər:

Çinin mövqeyi (28.09), Makronun Naqornı (?) Qarabağda baş verənlərə görə narahatlıq bildirməsi (28.09), Trampın vasitəçilik etmək istəyi (28.09), Pompeonun erməniləri bir qədər dözməyə çağırışı (15.10), ABŞ da konqresə Qarabağın müstəqilliyinin tanınması haqqında qətnamənin daxil oması (22.10), Nensi Polisinin atəşkəs çağırışı (24.10), Trampın tərəfləri atəşkəs münasibəti ilə təbrik etməsi (26.10).

Türkdilli ölkələrin Əməkdaşıq Şurasının Ermənistandan işğala son qoymasını tələb etməsi (28.09), BMT TŞ təcili atəşkəs tələbi (30.09), NATO – nun münaqişə tərəfi olmadığını bəyan etməsi (22.10).

Agentliyin verdiyi xəbərlərin ötəri şəkildə nəzərdən keçirilməsi göstərir ki, agentlik daha çox münaqişənin dayandırılması ilə bağlı və Ermənistanı "əzilən" tərəf kimi göstərən xəbərləri verməyə üstünlük verirdi.

### 1.2.5 Analitik informasiya saytı ANAJ ("anaj.ir")

"Anaj" saytı Təbrizdən yayımlanır və mühafizəkar radikal, hətta ekstremist dairələri təmsil etdiyi qeyd edilir. Əsasən Şərqi Azərbaycan xəbərlərini əhatə edir və onların arasında idman və xüsusən futbol xəbərləri əsas yer tutur. Ümummilli məsələlər barədə yazılar ümumiran saytlarından götürülür. Saytın ayrıca Türkiyə və Qafqaz səhifəsi vardır. Həmin səhifədə əsasən Türkiyədə və Azərbaycanda baş verən neqativ hadisələrə aid olan xəbərlər və onlara həsr edilən analitik yazılar əsas yer tutur. Qafqaz səhifəsində Azərbaycanda din, dindarlıq, dini təşkilatlar guya hökumətin dinə və dindarlara qarşı siyasəti haqqında yazılar, eyni zamanda Azərbaycandan olan iranyönümlü din xadimlərinin, eləcə də radikal müxalifət nümayəndələrinin Azərbaycan saytlarında gedən müsahibələri, yazıları və s. yer alır. Sayt öz oxucularında Türkiyə və Azərbaycan hakimiyyəti haqqında mənfi təsəvvür və mənfi imic yaratmaqla məşğuldur.

Saytda getmiş xəbərlər:

Sərhəd məntəqələrinə 5 raket düşməsi, tərəflərə xatırlatma edilməsi, sərhəd bölgəsinə düşən 5 raketdən 4-nün partlaması, 1-nin yox, xəsarət verməməsi, boş yerə, çəmənliyə düşməsi, xalqın sərhədə yığılıb döyüşlərə tamaşa etməsi (28.09.2020), kamazlarda hərbi texnikanın olmaması və anlaşılmazlığa yol verilməməsi üçün dayanacağa toplanması (29.09), Təbrizdən olan deputatların bir nəfər kimi Qarabağın geri alınmasını dəstəkləməsi (30.09), Rəhbərin Şimal-Qərb ostanlarında nümayəndələri olan cümə imamlarının Qarabağ böhranı ilə bağlı birgə bəyanatlarının mətni (1.10), Şimal-Qərbdən olan deputatlar cəmiyyətinin Qarabağ böhranı ilə bağlı bəyanatının mətni (1.10), Xudafərin məntəqəsinə düşən mərmilərin 6 yaşayış məskənini dağıtması və bir uşağı yaralaması, bundan əvvəl 10 mina mərmisi düşməsi və tələfat və xəsarətin olmaması (2.10), Təbriz Tibb Universitetinin Qarabağda müharibədə tibb işçisi kimi iştirak etməyə hazır olduqları haq-

qında Bəyanatının mətni (5.10), Suriya müxalifləri Qarabağın harasındadır? "Şərq" qəzetinin terroristlərlə bağlı iftirası (10.10), Azərbaycan ruhanisi Hacı İlqar İbrahimoğlunun İran Rəhbərinin uzaqgörənliyi barədə sözləri (10.10), Ə.Kərimlinin İ.Əliyevin siyasətinə münasibəti, Təbriz Şəhər Şurasının İmam cümələrə qarşı təhqirlərə son qoyulması xəbərdarlığı, İ.Əliyevin Ermənistanın hücumlarını erməni faşizminin təzahürü adlandırması (11.10), Ayətulla-üzma Nuri Həmədaninin Qarabağın İslam dünyasının bir hissəsi olması və həmin məntəqənin şiələrinin yanında olması haqqında bəyanatı (12.10), Rəhbərin Qarabağ böhranı haqqında dedikləri (3.11).

Göründüyü kimi, saytda oktyabrın 12-nə qədər Vətən müharibəsi ilə bağlı müəyyən xəbərlərə rast gəlmək olardı. Həmin xəbərlərin əksəriyyəti Şərqi Azərbaycan ostanı və əsasən Təbrizdə Vətən müharibəsinə münasibət və əsasən dəstək haqqında xəbərləri əhatə edirdi. Həmin gündən sonra  noyabr ayının 3-ə kimi saytın fəaliyyətində məlum olmayan səbəbdən fasilə yarandı. Güman etmək olar ki, saytın fəaliyyəti Təbrizdə Azərbaycan Respublikasına dəstəklə bağlı xəbərlərin yayılması və imam cümələrin müdafisi ilə bağlı materialların verilməsi yuxarı dairələrdə millətçilik kimi dəyərləndirilərək saytın fəaliyyətinin dayandırılması məsləhət bilinib. Bu yalnız bir fərziyyədir və əsl səbəb məlum deyil.

### 1.2.6 Cənubi Azərbaycanın digər saytları

Cənubi Azərbaycanda, xüsusən Şərqi Azərbaycan və ilk növbədə Təbrizdə Vətən müharibəsinə münasibətin tam olması üçün Təbrizdən yayımlanan daha bir-iki saytda Vətən müharibəsi ilə bağlı tək-tük xəbərləri qeyd etmək zəruri hesab edilir.

"Tabrizebidar": Siyasi ekspert Cavanpur Əziz "Azərbaycan Respublikasının dindar əhalisinin Qarabağı azad etmək üçün

ekstremistlərə ehtiyacı yoxdur" adlı yazı ilə çıxış etmişdir. Mətndə, o cümlədən, deyilir ki, müəllif Azərbaycana qəti dəstək göstərir və qələbə üçün dua edir. Müəllif: "Bütün müsəlmanların vəzifəsi Azərbaycana kömək etməkdir" deyə vurğulayır... Saytda həmçinin Azərbaycanın bütün aspektlərdən Qarabağı azad etmək haqqı olduğunu əsaslandıran "Kim haqlıdır" Beynəlxalq hüquq baxımından tarixi araşdırma" adlı yazı yerləşdirilmişdir (29.09.2020).

"Tabrizeman" saytında "Qarabağ məsələsində İranın Azərbaycan vətəndaşlarına yardım göstərməsinin vacibliyi" adlı yazı yerləşdirilmişdir (29.09). Yazının adı Cənubi azərbaycanlıların Qarabağ məsələsində mövqeyini aydın şəkildə əks etdirdiyindən əlavə şərhə ehtiyac yoxdur.

"Tabrizebidar": İranın Azərbaycan şiələrinə prinsipial dəstəyi davam edir, təbrizlilərin Qarabağa dəstək toplanışları (5.10).

"Tabrizeman": "Ermənistanın jurnalistlərə qarşı müharibə qaydalarından kənar davranışı" adlı yazı (5.10).

"Araznews": "Azərbaycan kinematoqrafçılarından bir qrupunun Azərbaycana dəstək bəyanatı qəbul etməsi" (5.10).

"Azariha": Cənubi azərbaycanlıların milli kimliyinə və Azərbaycan Respublikasına qatı düşmənçilik fəaliyyəti ilə məşğul olan sayt da Vətən müharibəsi ilə bağlı xəbərlər və yazılar yerləşdirərək təmsil etdiyi dairələrin mövqeyini əks etdirir. Saytda "Təbrizdə son hadisələrə bir baxış" adlı analitik yazı, həmçinin "İkinci Qarabağ müharibəsi və Bakıda antiiranizm", "Qarabağ müharibəsində Türkiyənin rolu, Türkiyə təkfirçiləri Azərbaycana gətirir" adlı iftira və böhtan məzmunlu digər yazılar yerləşdirilmişdir (5.10).

"Azariha" saytında "Azərbaycan şairləri və yazıçılarının Qarabağ münaqişəsi ilə bağlı bəyanatı, müharibə alovunun İran sərhədlərinə sirayət etməsinin qarşısını alın" adı altında dərc edilib (6.10).

Bəyanat haqqında şərhlər bölməsində danışılacağından burada bəyanatın dəstək deyil, antiazərbaycan xarakter daşıdığını qeyd etmək kafidir.

“Tabrizebidar”: “A.Paşazadənin İrana himayəsinə görə minnətdarlığı” (10.10).

“Tabrizeman”: Ostan İslam Şurası sədrinin İmam cümələrin mövqeyini müdafiə etməsi, Sədr, o cümlədən demişdir: “Onların mövqeyi haqqın özü, ədalətin özü, insanlığın özü, məzlumu müdafiənin özü və Hüseyn inamının özüdür. Xürrəmşəhr müzakirə, yoxsa Beytül Qüds əməliyyarı ilə fəth olundu”.

“Tabrizeman”: “Əslində Təbriz cümə imamının mövqeyi azərbaycanlıların öz şərif seydlərindən keçmişdə, indi və gələcəkdə gözlədiyi mövqe idi”.

”Tabrizeman”: “Qulam Hüseyn Məsud Reyhanın: “Ərazini azad etmək müharibədən keçir, danışıqlardan yox” (10.10) adlı yazısı.

“Azariha”: Türkiyə “Həmzə” batalyonunu Bakıya gətirmişdir, təkfirçilər İran sərhəd dirəklərinə gəlib çıxmışlar” (17.10).

“Asanews”: Ordu komandirinin Azərbaycan və Ermənistana xəbərdarlığı, General Qasım Fəravan-SQ HHMQ komandanının ali müşaviri: “Rəsmilər mütləq daxil olan və İran ərazisində vurulan PUA-lar haqqında izahat verəcəklər. 40-50 km daxilə çatsa...” (18.10).

“Tabrizebidar”: Təbriz Cameəye əl Mustafa elmiyə hövzəsi... Şəhid Səfərovun qanı Təbriz tüllabları arasında əcəb həyacan yaratdı. O, inqilab rəhbərinə çox bağlı idi” (22.10).

Göründüyü kimi, iki Təbriz saytı ilk vaxtlar Azərbaycan Respublikasına dəstək xəbər və yazıları yayırdılar, sonra Vətən müharibəsi haqqında yazmamağa başladılar. Bədnam “azariha” saytı antimilli kimlik və Azərbaycan Respublikasına qarşı böhtan və təxribat siyasətini davam etdirmişdir. İranın ardıcıl izlənən saytlarının Azərbaycanın haqlı davasına, ədalətli müharibəsinə və

qələbəsinə münasibəti və onların Şuşa şəhərinin azad edilməsinə münasibəti çox aydın və bariz şəkildə nümayiş etdirirdi.

Belə ki, Təbriz saytları (3 sayt burada bəzilərinin adı çəkilir və "anaj" müntəzəm baxılıb) həmin tarixi xəbəri izləyicilərinə çatdırmamışdır.

Göründüyü kimi, agentliklərin saytlarında yer almış xəbərlər agentliyin təmsil etdiyi siyasi qüvvələr və qurumların mövqeyini əks etdirir və onun informasiya siyasətinin əsas istiqamətlərinə uyğundur. Agentliklərin informasiya siyasətinin əsas vasitələri kimi informasiyanın seçilməsi (verib-verməmək), verilən informasiyaların agentliyin məqsədlərinə müəyyən dərəcədə uyğun olması, verilən informasiya üçün başlığın seçilməsi, informasiyanı əlavə izahatla müşaiyət edilməsi və s. istifadə olunur.

Biz bunu təqdim edilən informasiyaların miqyası, əhatə dairəsi, tezliyi və s. aydın şəkildə görə bilərik. Bununla belə, agentliyin informasiyanı idarə etmək və izləyicilərinə təsir imkanları informasiya mənbələrinin daxili və xarici çoxluğu və müxtəlifliyi səbəbindən məhduddur. Saytın təqdim etdiyi xəbərlər və onların üzərində yuxarıda qeyd edilən vasitələrlə manipulyasiyaları, agentliyin hadisələrə münasibətini müəyyən etmək üçün yardım göstərsə də, əsl mövqeyini müəyyən etmək üçün kafi deyildir. Agentlik və onun təmsil etdiyi siyasi ictimai, mədəni və s. dairələrin həqiqi mövqeyini müəyyən etmək üçün həmin günlərdə saytda yerləşdirilən şərhlər, müsahibələr, analitik yazılar əsas hesab edilməlidir. Agentlik onun mövqeyini əks etdirən analitik, elmi-araşdırma, şərhçi qurumlarına malik olduğundan həmin tip yazılar onun təmsil etdiyi qüvvələr və dairələrin münasibət və mövqeyini müəyyən etmək üçün əsas mənbə hesab edilməlidir.

## 2. 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ HAQQINDA ŞƏRHLƏR, MÜSAHİBƏLƏR VƏ ANALİTİK YAZILAR

27 sentyabr

**"tasnimnews.ir"**

Comhuriye Azərbaycan və Ermənistan ruye xətte atəş (Azərbaycan və Ermənistan atəş xətti üstündə, müharibədə)

Mətn: Qarabağın (? - V.M.) 16 hərbçisi öldürülüb, 7 rayonun işğal olunduğu və həmin ərazilərin Qarabağ erməniləri tərəfindən (? - V.M.) işğal olunması. Azərbaycan Ermənistanın sərhədlərini tanıyır və ona qarşı ərazi iddiası yoxdur. Amma Ermənistan BMT TŞ 3 (?) Qətnaməsinə baxmayaraq, ən azı 20% ərazini öz işğalında saxlayıb. Ermənistan danışıqlarda III tərəf kimi Qarabağın (?) da iştirak etməsini tələb edir. Torpaq Azərbaycanın, amma orada yaşayan ermənilər Azərbaycanın hakimiyyətini qəbul etməyə hazır deyillər.

Tehranın mövqeyi: "Atəşkəsin bərqərar olmasına və sülh danışıqlarına başlanmasına tərəfdardır. Minsk qrupu heç nə etmədi, Türkiyə qeyd-şərtsiz Azərbaycanı müdafiə edir. Səbəbləri:

1. Türkiyə və Azərbaycanın soykök və etnik bitişikliyi, "Bir millət iki dövlət" ideyası; 2.Türkiyənin Azərbaycandan qaz və neft idxal etməsi; 3. Türkiyənin Mərkəzi Asiya və Qafqazda mövqeyinin güclənməsi, "Türk Şurasından" istifadə etməsi.

"anaj.ir"

"Qarabağe məzlum və ağaze mocəddede dərgiri, douləte İran kocaye monaqeşe əst?" (Məhkum vəziyyətdə olan Qarabağ və döyüşlərin yenidən başlanması, İran bu münaqişənin harasında yer alıb?)

Belə ki, İran və iki qonşu ölkənin sərhəd boyu əhalisi top, minaatan və [reaktiv artilleriya qurğusu] "katyuşa"nın səsinə evlərindən bayıra axışdılar.

Azərbaycanın və Ermənistanın məlum mövqeləri qeyd olunur.

Döyüş bölgəsindən ziddiyyətli xəbərlər gəldiyi qeyd edilir. Yəni Azərbaycanda Suriya hərbçiləri və təkfirçilərin olduğunu deyirlər.

Türkiyə Ermənistanda PKK dəstələrinin olduğunu vurğulayır.

“Qafqaz və Anadolu regionu üzrə analitiklərin bəziləri belə fikirləşirlər ki, əgər İslam Respublikası Qafqazda sabitlik və təhlükəsizlikdə, həmçinin Qarabağın azad edilməsində öz təsirli rolunu oynamasa, digər beynəlxalq fiqurlar fürsətdən istifadə edərək həmin məntəqənin iqtisadi və mədəni imkanlarını öz xeyirlərinə hərəkət etdirəcəklər. Həmçinin ola bilsin ki, “Qarabağ İslam torpağıdır” şüarı qaranlıq söyləmələrə yem olsun”.

28 sentyabr, “anaj.ir”

Mənsur Həqiqətpur; “Qomare bozorge Əliyef ki, mitəvanəd dəste azəri ra gət konəd. Torkiye nəbayəd mohnədese əməle zeşt başəd” (Mənsur Həqiqətpur: “Əliyevin böyük riskli oyunu azərilərin əlini kəsə bilər. Türkiyə çirkli əməlin mühəndisi olmamalıdır”).

Mətnin icmalı: Qarabağı Azərbaycan gəncləri azad etməlidir, [Suriyadan gətirilən] terrorist muzdurlar yox. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, kənar qüvvələr işğalda əsas rol oynayıblar. Əsas xain Xalq Cəbhəsidir. Qarabağı verib hakimiyyətə gəldilər. *Hələ də geri almaq iradəsi görünmür*, islamçılar (təkfir) var. İran Türkiyəyə icazə verməməlidir ki, Türkiyə bir çirkli əməlin mühəndisi olsun və təkfirçilər məntəqədə cövlan etsinlər. İradə olsa idi, təkfirçilər gətirilməzdi.

Təbriz İmam cüməsi: “Mouze-e ma himayət əz mərdom Qarabağ əst,tərəfeyn becaye cəng,qoftoqu konənd,rejime səhyonisti amele təhrik və cəng” (Bizim mövqeyimiz Qarabağ xalqını (?) dəstəkləməkdir, tərəflər müharibə əvəzinə danışıqlar aparsın, sionist rejimi təhrikedici və müharibə amilidir).

“Mən xalqın mövqeyini deyirəm: birincisi, şəhidlərə təəssüf edirik, ikincisi, Qarabağ xalqını (?) dəstəkləyirik”.

30 sentyabr, “tasnim”

30 sentyabr “Təsnim”in Ermənistan səfiri ilə eksklüziv müsahibəsi:

“Təsnim” hər iki səfirə müraciət etmiş, Azərbaycan səfiri canlı cavab vermiş, Ermənistan səfiri isə yazılı cavab verib. Burada Ermənistan səfirinin cavabları öz əksini tapıb.

Müsahibə “Pişbiniye ayəndeye monağeşe ba Azərbaycan doşvar əst” (Azərbaycanla münaqişənin gələcəyini proqnozlaşdırmaq çətindir) adı altında verilmişdir.

Sayt: İran tərəfsizlik siyasəti seçməyə çalışmışdır. Atəşkəs, sülh və əmin-amanlığa yardım etməyə hazırdır.

Səfir müharibənin səbəbi haqqında: “Azərbaycanın kəskin və radikal mövqeyi və sülh danışıqlarından boyun qaçırması, münaqişəni hərb yolu ilə həllini düşünməsi. Azərbaycan danışıqlardan çıxdı, Ermənistanın danışıqlar mövqeyini dünya qəbul edir”. Münaqişənin hərbi həll yolu yoxdur.

Sual: “Türkiyə Naxçıvanda hərbi təlim keçirir, orada hərbi baza yaratmaq istəyir, hərbçilərini oradan çıxarmayıb?”

Cavab: “Bundan İran da narahat olmalıdır. Cəlb olunan terroristlər İranı narahat etməməlimi?”

Səfir: “İrandan vasitəçi ola bilməz, Minsk qrupu var”. “Azərbaycan Ermənistan ərazisinə də əl atıb. Biz Qarabağ sakinlərinin təhlükəsizliyini qoruyacağıq. “Artsax”ın təhlükəsizliyi Ermənistanın təhlükəsizliyidir”.

“Tasnim”in Azərbaycan səfiri ilə eksklüziv müsahibəsi:

Müsahibə “Bəraye hər do rahe həlle siyasi və nezami amadeim” (Hər iki, siyasi və hərbi həll yoluna hazırıq) başlığı altında verilib

Səfir Bünyad Hüseynov: “Onlar cənub-qərb dəhlizini bağlamaq istəyirdilər (Tovuz hadisələri). Paşinyan jurnalistdir, vəzifəsindən şou düzəltmək və təbliğat üçün istifadə edir. Azərbaycana 25 ildə 420 mld. dollar sərmayə qoyulub, bunlardan 280 mld. dolları xarici investisiyadır, bizim heç bir daxili problemimiz yoxdur.

“Mən İrəvanda anadan olmuşam. Bir qədər əvvəl Tehranda bir mərasimdə bir neçə ölkədən ermənilər vardı, mən onlardan soruşdum “kim əsl irəvanlıdır?”, heç birinin İrəvanla bağlılığı yox idi”.

Sual: “İranın mövqeyindən razısınızmı?”

**Cavab: "İran əvvəlcə rəsmən işğalçını və işğalçılığı pisləməlidir".**

Sayt: "İran sakitlik və sülh istəyir"

**Cavab: "Bu vasitəçilik nədə olmalıdır? Münaqişə 28 ildir davam edir. İran vasitəçi olsa, birinci şərt kimi Ermənistanın işğalçı olmasını və torpaqları tərk etməli olduğunu deməlidir.**

Sayt: "Yaxşı, bizim münasibətlərimiz haqqında nə deyə bilərsiniz?"

Cavab:" Əladır, inkişaf edir. Prezidentlər son 7 ildə 13 dəfə görüşüblər, bunların 8-i paytaxtlarımızda olub".

[Səhv deyilsə, Azərbaycan rəsmi şəkildə ilk dəfə İranın ermənipərəst mövqeyini ifşa etdi. Təbii ki, məsələnin bu cür qoyulması İranı narahat etməyə bilməzdi.]

"Comhuriye Eslamiye İran dər kocaye monağeşeye Qarabağ istade əst"? (İran İslam Respublikası Qarabağ münaqişəsinin harasında yer tutur?)

Qafqaz həmişə "İran-İslam mədəniyyəti arealının birlik yaradan çətiri altında dinlərin, məzhəblərin, dillərin və müxtəlif dini və mədəni kimliklərin birgə yaşayış yeri olmuşdur".

Qarabağ tarixən ***azəri*** yaşayan bölgə olsa da, Sovet dövrü "Qarabağ *Ermənistanın (?-v.m.) hakimiyyəti altında* idi". SSRİ ***dağılandan*** sonra "azərilər" ***tarixə*** əsasən "Qarabağ gərək Azərbaycanın hakimiyyəti altında olsun" dedilər. Ermənilər etnik tərkibdə dəyişikliyi nəzərə alıb onun Ermənistan hakimiyyəti altında olmasını tələb edir və ya muxtar hesab edirlər.

Türkiyə və İsrailin rolu aydın görünür. Onlar İran və Rusiyanın Qərbi Asiyada rolunu zəiflədə və Qafqazda məşğul edə bilərlər. Hərbi təlimdən sonra Türkiyə qoşunlarını Azərbaycandan çıxarmadı. Yalnız Türkiyə münaqişənin *uzanmasını* istəyir. İran sülhün bərqərar olmasına yardım etməyə hazırdır.

"İran İslam Respublikasının Azərbaycanın ərazi bütövlüyünün tanınması və ona əməl olunmasının vacibliyi xüsusunda mövqeyi çox aydındır". İran dəfələrlə bunu, beynəlxalq hüquq və BMT Qətnamələrini vurğulayıb, 3 ölkə BMT Qətnamələrinin icra

edilməsi sahəsində o iki qonşuya kömək edə bilər ki, münaqişəni dinc şəkildə həll etsinlər.

“anaj.ir”

“Nəmayəndeqane Təbriz yeksəda hamiye bazpəsgiriye Qarabağ, təbəate namətlube dexaləte xareci”. (Təbrizdən olan deputatlar bir nəfər kimi Qarabağın geri alınmasını dəstəkləyir, xarici müdaxilənin arzuolunmaz nəticələri).

Mətn: Deputatlar bəyanatlar və müsahibələrində bir nəfər kimi Qarabağın məzlum xalqını dəstəklədilər.

Məhəmməd Rza Mir Tacəddin: “Qarabağ *İslamın* qoynuna qayıtmalıdır. İşğala yol verilməməlidir. Xarici İşlər Nazirliyi və siyasilər susmamalıdırlar”.

Məsud: İslam torpağıdır, nöqtə. İşğal yolverilməzdir.

Ruhulla Mütəfəkkir Azad: BMT TŞ Qətnamələrinə görə Ermənistan işğal olunmuş əraziləri tərk etməlidir.

Əhməd Əlirza Bigi: Qarabağ ***şiə(?)*** cavanlarının əli ilə azad olunmalıdır. Azərbaycan İsraildən üz çevirməlidir. Ermənistanın hər cürə hərbi gücləndirilməsi pislənir. Biz Qarabağın azadlığını dəstəkləyirik, amma Qarabağ ***sionistlər*** (?) üçün bir sığınacaq olmamalıdır.

Əlirza Monadi: Sionist rejimin oyunları barədə xəbərdarlıq. Həlak olanlar ŞƏHİDDİRLƏR. Bu ərazinin AZƏRBAYCANA və müsəlmanlara aid olduğunu deyirik.

Məhəmməd Hüseyn Fərhəngi: Qarabağ ***şiə*** (?) Azərbaycanın bir hissəsidir.

Şimal-qərb deputatları Qarabağ xalqını(?) dəstəkləyən aydın, şəffaf bəyanat verəcəklər, hökumətdən region xalqını dəstəkləməsi istəniləcək. Hökumət və XİN-dən istəyimiz odur ki, bu məsələnin həllinə çalışsın.

[Azərbaycandan olan deputatlar artıq müharibənin 4-cü günü zahirən müxtəlif şərtlərlə bir nəfər kimi Azərbaycanı müdafiə etmiş, hökumətdən qəti mövqe göstərməyi tələb etmişdirlər. Deputatlar, təbii ki, hökumətin razılığı və göstərişi ilə belə bir mövqe nümayiş etdirmişlər. Artıq dəfələrlə qeyd edildiyi kimi, hökumə-

tin xarici siyasətinin mövqeyi xarici işlər nazirliyi tərəfindən bəyan edildiyinə görə deputatların mövqe sərgiləməsi, lazım olduğu halda, həmin mövqenin hökumətin mövqeyini əks etdirmədiyi vurğulana bilərdi. Digər tərəfdən deputatların mövqe bildirməsi Cənubi Azərbaycan ictimai rəyini idarə etmək və onun İran hakimiyyətinə qarşı təzyiq mövqeyini zəiflətmək məqsədi güddüyünü demək olar. Deputatların qısa bəyanatları və müsahibələri mərkəzi hakimiyyətin Cənubi Azərbaycan siyasətini korrektə etmək üçün də əsas kimi baxılırdı. Belə ki Azərbaycan deputatlarının belə mövqeyi panfarsist hökuməti zahirən qane etmədiyindən, hökumət Cənubi Azərbaycanda nəzarəti gücləndirmək istiqamətində tədbirlər görmək üçün qeyd edilən mövqeni əsas götürərək müvafiq addımlar atmağa başlamışdır.]

1 oktyabr, “anaj”

“Bazxaniye məvazeeye rəhbər enqelab dər bareye Qarabağ, tosiyeye dini be Əliyev” (Rəhbərin Qarabağ haqqında mövqeyinin yenidən oxunması, Əliyevə dini tövsiyə).

Rəhbər ilk gündən Qarabağı Azərbaycan və İslam torpağının bir hissəsi hesab edir.

Daxildə bir qrup İranın mövqeyini neytral və təsirsiz sayır.

Birinci Qarabağ müharibəsinin sonlarına doğru Azərbaycanda olmuş İran hərbi müşavirlərindən danışaraq belə iddia irəli sürülür ki, Əliyev onların olmasını istəmirdi.

Nəhayət, Xameneinin Ermənistanı təcavüzkar adlandırması (1994) (-?-v.m.) və tezliklə müharibənin haqq cəbhəsinin qələbəsi ilə başa çatacağı fikri verilib.

Rəhbərin 1371\1992 Həcc Konqresinə məktubunda müsəlmanların kütləvi qırğınına dövlətlərin biganə qalması, İranın vasitəçiliyinə mane olduqları nəzərə çatdırılır.

Rəhbər 1372\1993-cü ildə Təbrizdə Qarabağ ermənilərinin Ermənistanın köməyi ilə müsəlmanlara ZÜLM etdiyini pisləyib.

Rəhbər 1397\2018-ci ildə Paşinyanla görüşündə deyib ki, DANIŞIN, biz də danışıqlara kömək edərik.

...“Bəyaniyyeye mohemme nəmayəndeqane vəliye fəqih dər şemale qərbe keşvər dər bareye bohrane Qarabağ, hiç tərdidi dər

təəlloğe Qarabağ be **Azərbaycan** nist" ( Ölkənin şimal-qərbində fəqih vəlinin nümayəndələrinin Qarabağ böhranı ilə bağlı mühüm bəyanatı, Qarabağın **Azərbaycan**a məxsus olmasına heç bir şübhə yoxdur).

[Bəyanatın mətni "farsnews", "khabarfarsi. com", "hawzahnews.com", saytlarında da yerləşdirilmişdi].

Şərqi, Qərbi Azərbaycan, Ərdəbil, Zəncan İmam cümələri özlərinin rüblük iclasının sonunda Bəyanat yaydılar. Bəyanatda, o cümlədən, deyilir ki, Qarabağın işğal olunmasında və Azərbaycana məxsus olmasında heç bir şübhə yoxdur, bu ərazinin əhli beyt ölkəsi olan Azərbaycana qaytarılmasında heç bir şübhə yoxdur və Azərbaycan hökuməti bu ərazini geri almaqda tamamilə qanuni və şəri hərəkət edib, bu addımı ilə BMT TŞ 4 Qətnaməsinin icrasını təmin etməyə çalışır. İran daim Azərbaycana dəstək və yardım edib, bütün beynəlxalq toplantılarda Azərbaycanın ərazi bütövlüyünü müdafiə edib. Xarici İşlər Nazirliyi də bu günlər yenidən ərazi bötövlüyünü vurğuladı.

İranın inayəti olmasa idi, [ermənilər] Bakıya qədər [olan əraziləri] işğal edərdilər. İndi də İran Naxçıvana yeganə quru yolu səxavətlə Azərbaycanın ixtiyarına verib. Son vaxtlar iki ölkə münasibətlərinin düşmənləri uydurma bəhanələrlə hay-küy qaldırıb İran İslam Respublikasını XƏYANƏTdə ittiham etmişlər.

"Biz son qələbələri bayram edərək, böyük Allahdan BÖYÜK AZƏRBAYCAN MİLLƏTİNİN şəhidlərinə ali dərəcə xahiş edirik".

"[Münaqişə] Haqlının haqqının təmin olunması ilə başa çatsın".

[Azərbaycanın ən yüksək dərəcəli ruhaniləri Azərbaycanın mövqeyini son dərəcə açıq və qəti şəkildə müdafiə etmiş, işğal faktını vurğulamış və qələbəni nəinki arzu etmiş, eyni zamanda qələbəyə inam bildirmişlər].

... "Bəyaniyyeye məcməe nəmayəndeqane Şemale Qərb *dər bareye dərgirihaye* Qarabağ" (Şimal-qərb deputatları assosiasiyasının Qarabağ silahlı münaqişəsi ilə bağlı Bəyanatı [həmçinin "isna" və "cnn.ir" saytlarında yerləşdirilib).

Mətni: "Bütün elmi, tarixi sənədlər Qarabağın *İSLAM ÖLKƏSİ* olduğunu təsdiqləyir. BMT TŞ 822, 853, 874, 884 saylı Qətnamələri də Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyini tanıyıb, Ermənistanın Qarabağ ərazisindən çıxmasını tələb edib.

Tərəflərin əsas hüquqlara əməl etməsi, düşmənçiliyə son qoyması, qarşılıqlı olaraq milli suverenliyi qəbul etməsi və ehtiram göstərməsi, ziyanverici hərəkətlərin qarşısını almaq üçün addımlar atması gözlənir.

"Biz həmçinin trans-regional hərbi və hərbiləşdirilmiş qüvvələrin müdaxiləsini region xalqlarının və onların müvafiq hökumətlərinin maraqlarına uyğun hesab etmirik və hesab edirik ki, bu qüvvələrin daxil olması regionun sabitliyinə zərər verə bilər və bölgədə müharibəni alovlandırar".

Biz dörd ostanın deputatları İİR Əsas Qanununun 3 və 152-ci Maddələrini əsas götürərək Azərbaycan Respublikasının müsəlman xalqını və Qarabağın məzlum şiələrini **dəstəklədiyimizi** elan edir və İİR hökumətindən, xüsusən Xarici İşlər Nazirliyindən Əsas qanuna və İslam inqilabının yüksək ideallarına, beynəlxalq müqavilələrə, qaydalara və mehriban qonşuluq prinsiplərinə dayanaraq bölgədə *sabitlik* yaradılmasına səylər göstərmələrini və öz fəaliyyətləri barədə millətə və məclisə hesabat vermələrini gözləyirik".

Bu bəyanat diplomatikdir və İran dövlətinin mövqeyinə yaxındır.

1.BMT TŞ Qətnamələri yada salınır, sonra ümumi cümlələr

2.Yenilik, Xarici hərbi və yarım hərbi qüvvələrin müdaxiləsinin yol verilməzliyi

3.Azərbaycanın müsəlman xalqına və Qarabağ şiələrinə dəstək ifadə olunur

4. İran hökumətinə bölgədə sabitlik yaradılmasına yardım etməyə çağırış edilir.

[Lakin Ermənistana qarşı heç nə deyilmir, nə işğalçı, nə erməni qüvvələrinin çıxarılmasına çağırış yoxdur. Ruhanilərin bəyanatı ilə müqayisədə çox sönük görünür].

“Torkiye be xatere erge qoumi varede karzar Qarabağ şod? Qəraen və şəvahed çe miquyənd?” (Türkiyə etnik yaxınlıq xatirinə Qarabağ kampaniyasına daxili olub? Dəlillər nə deyir?)

“Rəcəb Paşa etnik kökən adına Azərbaycanı himayə etdiyini deyir, amma terroristlərin Kərkükə və türkmənlərə hücumunda terroristlərin yanında idi”... “Həm Ərdoğanın bu düşmənçiliyə ehtiyacı var, həm Əliyevin və hər ikisi də daxili məsələlər səbəbindən ...və öz maraqları üçün”.

[VƏTƏN MÜHARİBƏSİNİN DÖRDÜNCÜ GÜNÜ Cənubi Azərbaycan Şimali Azərbaycanın haqq işini dəstəkləmiş və işğala son qoyulmasını tələb etmişdir. Lakin mərkəzi hakimiyyət hələ ki tərəfləri danışıqlara dəvət etməkdə davam edirdi. İran ənənəsini nəzərə alsaq, deyə bilərik ki, Cənubi Azərbaycan dini və siyasi rəsmilərinin bəyanatları ilk növbədə Cənubi azərbaycanlıların ictimai fikrini sakitləşdirməyə yönəlmişdi. Cənubi Azərbaycanın Şimali Azərbaycanı dəstəklədiyini nümayiş etdirməklə əhalinin həmin rəsmilərin gələcəkdə edə biləcək çağırışlarına əməl edəcəyini güman edirdi. İranın hadisələrin necə sona çatacağı haqqında təsəvvürü səhv olduğundan və onun siyasətinə uyğun olacağını güman edərək ermənilərin və onun hamisi olan Rusiyanın xətrinə dəymək istəmədiyini nümayiş etdirird. Bu o demək idi ki, İran Azərbaycanın qələbə çalmasında maraqlı deyildi, yoxsa ilk gündən sərt mövqe sərgiləyə bilərdi. Bütün bunlara baxmayaraq, Cənubi azərbaycanlı rəsmilərin hələ ki, milli kimlik şüuruna malik olduğu özünü göstərmiş olurdu. İran etnik-milli siyasətində bunları nəzərə alacaqdı].

3 oktyabr

“tasnim”

“Həme çiz dər bareye cənge Qarabağ.., Comhuriye Azərbaycan və Ermənestan çe mixahənd?” (Qarabağ müharibəsi haqqında hər şey.., Azərbaycan və Ermənistan nə istəyirlər?)

Azərbaycan 5 məlum rayonu azad etmək istəyir, erməni tərəfi bu döyüşlərin Qarabağdan daha geniş ərazidə getdiyini göstərmək istəyir.

Qafqaz və Mərkəzi Asiya məsələləri üzrə ekspert doktor Məsud Sədir Məhəmmədi ilə instaqramda getmiş müsahibənin mətninin xülasəsi aşağıda verilir.

1990-1992-ci illərdə Azərbaycanın 20% ərazisinin ***itirilməsi*** 1 mln. nəfər insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə səbəb oldu.

Azərbaycanda yaşayan ermənilər də Azərbaycanı tərk etməyə məcbur olurdular, lakin erməni separatistləri hərbi cinayətləri davam etdirirlər, BMT TŞ 4 Qətnaməsi erməni qoşunlarının işğal olunmuş ərazilərdən çıxmasını tələb edirdi, lakin yerinə yetirilmədi.

Minsk qrupu dövlətləri öz maraqları ardınca idilər, ermənilər də ən sadə prinsipləri qəbul etməyə razı olmadılar və müzakirəyə başlamaq üçün addım atmadılar.

Madrid prinsipi: "Ermənistan 12 rayonu işğal edib, amma iddia edirdi ki, 5 rayonu işğal edib. 2007-ci ildə Madrid prinsipləri müzakirə obyekti oldu. Prinsiplərdə 5 rayonun boşaldılmasından sonra Dağlıq Qarabağın statusunun müəyyən edilməsi nəzərdə tutulurdu. Lakin Ermənistan onları yerinə yetirməyə razı deyildi.

Bu müharibə sülhə nail olmaq üçün başlanıb, çünki qarşı tərəf 30 ildə göstərdi ki, heç bir müzakirə və konstruktiv addıma hazır deyil.

İndi kimin başlamasından asılı olmayaraq Bakı bu təzyiqi ilə qarşı tərəfi BMT TŞ qətnamələrini qəbul etdirməyə çalışır.

Ermənistana heç bir təşəbbüs təsir etmirdi.

Minsk qrupunun fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi Bakını məcbur etdi ki, özü addım atsın.

Minsk qrupu (3 dövlət) iştirakçıları təşkilatdan hərə öz məqsədi üçün istifadə edirdi. Bu ölkələrdə, xüsusən ABŞ-da erməni lobbisi fəaliyyət göstərir, ona görə Azəri tərəfi həmin ölkələr vasitəsi ilə öz məqsədinə çatmağa ümid etmirdi.

Paşinyan gərginliyi artırdı.

Ermənistanda 20 il monopol hakimiyyət vardı və hakimiyyət Qarabağ klanında idi.

Paşinyanı Avropa himayə edirdi. Qarabağ üzrə sülh danışıqlarını davam etdirməyi vurğuladı, oğlunu Qarabağa göndərdi ki, baxın sülh tərəfdarıdır (təhlükə olsa, göndərmərəm). Daxili çəkişmələr onu göstərdi ki, sülh danışıqları onun mövqeyini zəiflədir, odur ki, münaqişədə kəskin mövqe tutdu. Arvadını ora göndərdi, hərbi geyimdə şəkilləri yayıldı, həmin addım simvolik məna daşıyırdı. Deməli, Paşinyan gərginliyi artırmaq istəyirdi. Lakin böhranı idarə edə bilmədi və Bakını cavab tədbirləri görməyə təhrik etdi.

Azərbaycanda ictimai rəy və müxalifət Qarabağın azad edilməsi, geri qaytarılması istiqamətində hakimiyyətə böyük təzyiq göstərirdilər. Son 2 ildə nümayişlərin əsas şüarı Qarabağa azadlıq idi, bu da Bakını hərbi seçim tərəfə sövq etdi.

Paşinyan Avropaya müsbət siqnal göndərdiyindən Bakı Moskvanın diqqətini cəlb etməyə çalışırdı.

Paşinyanın gözləmədiyi o idi ki, Əliyev Moskvadan yaşıl işıq ala bilər və daxildə ümumi birlik yarada bilər.

Əslində sülh deyildi ki, müharibə olaydı, elə müharibə vəziyyəti idi.

Putin: "Başqalarının işinə qarışımırıq" deyəndən sonra hücum davam etdi.

Ermənistanın son bir ildə fəaliyyəti sülhə yer qoymadı.

Ermənistan yaşayış yerlərini bombalayır ki, Bakını ona cavaba təhrik etsin, müharibənin miqyası genişlənsin. İstəyirdi ki, müharibə ilə vəziyyətdən çıxsın, amma yəqin ki, ÖZÜ KƏNARLAŞDIRILACAQ.

Azərbaycan 5 rayonu tutsa, danışıqların başlaması ehtimalı yüksələcəkdir. Müzakirə edənlər və iştirakçı ölkələr dəyişə bilərlər.

Bu müharibə Amerika, Rusiya, Türkiyə, İran və Avropanın təkliflərinin dalana dirənməsinin nəticəsidir. Bakının hüquqi sahədə üstünlüyü var, ona görə heç kim Bakının əleyhinə mövqe tutmadı, yalnız tövsiyə edirlər. Bakı İslam ölkələrini öz tərəfinə çəksə, müzakirədə dəyişikliyin şahidi ola bilərik.

Ən çox təsir göstərə bilən yeganə aktor Rusiyadır. O da hələ ki, heç kimə o qədər təsir edə bilmir.

[Bu da iranlı müəllifdir, obyektiv bir yazı. Hər yerdə olduğu kimi, İranda da hər şeyi olduğu kimi bilirlər, lakin maraqlar düzü əyri görməyə məcbur edir].

3 OKTYABR

“anaj”

Qafqaz məsələləri üzrə ekspert, sosioloq şərh edir:

“Hər ançe dəstqahe diplomasiye İran bayəd əz mərdome şiəye Qafqaz dərk konəd”(İranın diplomatiya idarəsinin Qafqaz şiə əhalisi haqqında  dərk etməli olduğu bütün məsələlər)

Ekspert, sosioloq Seyid Cavad Miri:

“Hökumət Qafqazın şiə əhalisini Ankaraya tərəf itələməməlidir. İranın məcazi məkanını bu 6 gündə Azərbaycan türkücəsində dini məzmunlu (xüsusən şiə) kliplər doldurub, analitiklər təhlil etməlidirlər.

Müharibəni Bakı və İrəvanda yox, Tel-Əviv və Parisdə planlaşdırıblar(?)

Azərbaycanda şəhidlərin dəfni ( nozayeşe şiəi-şiəliyin yeni doğuşu) şiəliyin təbliği və möhkəmlənməsi üçün istifadə edilir, perspektivdə bu İranın xeyrinədir. Post Türkmənçay atmosferi yaranır. İranda azərbaycanlı fəallar ona mültəfit olmalıdırlar ki, öz enerjilərini İ.Əliyevin məqsədi (?) yolunda xidmətə sərf etməməlidirlər, çünki “inqilabi şiəliyin yenidən doğulması ilə heç bir əlaqəsi yoxdur”.

“Bakı hökumət adamlarının diskursu qövmüdür, İslam ideologiyasının diskursu İslam internasionalizminə, güclü şiə uklonu ilə əsaslanır və Qafqaz bu baxımdan əhli beyt şiəliyin davamıdır ki, dili türkidir (bu haman cəhətdir ki, İranda hökumət strukturu onu dərk etməlidir ki, Qafqazın şiə əhalisini Ankaraya tərəf itələməsin)”.

İran hökuməti dünya erməni lobbisinin İranı mat etməkdə rolunu dərindən görməlidir.

“Həmleye  “Şərq” be əmmeye comeeye Şemale qərb” (“Şərq” qəzetinin Şimal-qərb cümə imamlarına hücumu)

Qəzet "İmam cümələri əsas strategiyaya zidd, xarici siyasətə zidd və daxili etnik millətçiliyi qızışdıran və təhrif edən fərdlər hesab edir". Onları avtoritarizm və etnosentrizmdə günahlandırır. Onları keçən həftə (1 oktyabr), 4-cü gün keçirilən az saylı toplantının? Qarabağı himayə amili adlandırır.

Sayt özü: "Bu bəyanatla Cümə imamları Azərbaycan xalqının İslam və şiə kimliyini separatist və etnosentrist hərəkatdan ayırdılar".

4 oktyabr

"irna"

İran və bohrane Qarabağ, estemrar dər miyanerəvi və solh tələbi ( İran və Qarabağ böhranı, mötədillik və sülhsevərliyin davam etdirilməsi) İran həmişə regionda sülh və sakitliyin qorunması tərəfdarı olub və tərəfdarıdır. Azərbaycan 7 rayonu yox, Dağlıq Qarabağı qaytarmaq əzmindədir. İranın mövqeyi ***İrəvanı çox razı salırdı.*** Bəziləri İranın qeyd-şərtsiz Azərbaycanı Türkiyə kimi müdafiə etməsini istəyirlər. Amma xarici siyasətin prinsipləri var:

- digər dövlətlərin daxili işlərinə hər cür müdaxilədən tamamilə çəkinmək,
- müharibə aparmayan (qeyre mohareb) dövlətlər ilə qarşılıqlı sülh, dinc münasibətlər,
- bölgədə sülh və təhlükəsizliyin bərqərar olmasına çalışmaq...

"anaj"

"Negərane Eyn əl-Verde şodəne Qarabağ" (Qarabağın Eyn əl-Verdeyə çevrilə biləcəyindən narahatlıq).

"Nə Ərmənestan, nə Azərbaycan, tərcomane nə Qəzze, nə Lobnan"(Nə Ermənistan, nə Azərbaycan, nə Qəzze, nə Livanın tərcümanıdır).

İrana düşən mərmilər deyir ki, passivlik müharibəni İranın daxilinə keçirəcək. Qırıntıları artıq gəlib bizim evimizə çatdı.

İmam Cümələr yaxşı və vaxtında bəyanat verdilər. Ona insafdan uzaq və layiq olmadığı reaksiya göstərildi, guya bəyanatda normaları sındıran bəzi məqamlar var.

Məgər bəyanatdan sonra bir qrup küçələrə çıxdı?, [Təbrizdə toplantılar ] ondan əvvəl və xəbərsiz olurdu. "Bəlkə media həmləsi, rəqibin diskurs yaratması səbəb oldu ki, separatist şüarlar ölkəyə gətirilsin". Bu şüarlar bəyanatdan irəli gəlmir, harada irq və türkü müdafiə var, orada həmin şüarlar səsləndirilir. Bu bəyanat yalnız müdafiə olunanı dəstəkləmək deyilmi?

Bəyanatda son fitnənin mərkəzini göstərdilər, İranda və ondan kənarda (sərhədin o tərəfində) narahat olanlar birsəs oldular.

Düşmən Qarabağı bəhanə edərək bizimlə Təbriz, Ərdəbil, Tehran küçələrində vuruşmaq istəyir.

İndi passivlik vaxtı deyil. İndi İsraillə media müharibəsində vuruşmaq lazımdır, hücumlarına cavabı Bakı, İstanbul, cənazə mərasimləri verməlidir. Regionda "DAİŞ" var? Olsun, onlar məclisə qədər gəldilər, "Şərq" əhlindən kim əl üstünə əl qoydu?

İllərdir ki, biz Azərbaycan Respublikası hakimiyyətindən giley edirik ki, islamistlər zindandadırlar. Artıq Qafqaz olmayacaq". Amma Azərbaycan Respublikası, Azərbaycan, əhli-beyt evidir, istər Prezident cənab Əliyev olsun, istər M.Səmədov..... zindanda olsun. Mən əvvəl də demişəm, Bakı Tel-Əviv olmayacaq". Düşmənin hiylələrini nə qədər gec deyil, başa düşsə idik.

"Xomeyni diskursu ilə inqilab etmək olmaz və Kəsrəvi diskursu ilə ölkəni idarə etmək olmaz".

"Biz heç bir ölkə və millətin düşməni deyilik, amma ölkəsi işğal olunanları MÜDAFİƏ edəni himayə edirik".

"Nəinki 4 İmam cümə, BİZ HAMIMIZ Qarabağın azad olunmasının müdafiəçiləriyik". Müəllif, Mehdi Nəlbəndi.

[Azərbaycan Cənubi azərbaycanlıların yuxarı dairələrini azərbaycanlı olduqlarını dilə gətirməyə məcbur etdi. Cənubi azərbaycanlılar şiə kimi hüquqdan danışanda islahatçılar, liberallar və s. ayağa qalxırlar, türk, hətta azərbaycanlı kimi hüquqdan danışanda həm panfarsistlər, həm də fars və türk panşiəistlər ayağa qalxır. Onların hamısı hələlik antiazərbaycan platformasında birləşiblər. Bunu azərbaycanlılar yaxşı bilir, lakin legitim müqavimət üsulu tapa bilmirlər.]

5 oktyabr

"anaj"

"Ba sodure bəyaniyye, Elame amadegiye cihadgərdane pezeşki dər cənge Qarabağ" (Bəyanat verərək, Qarabağ müharibəsində cihadçıcasına həkimlik etməyə hazır olmağın elan edilməsi).

Təbriz Tibb Universitetinin TƏLƏBƏLƏRİ müharibə ilə bağlı bəyanat verdilər. Bəyanatda o cümlədən deyilir: "Azərbaycanımızın müsəlman qardaşlarımız", "Qarabağ Bölgəsinin İŞĞALÇILARI".

Azərbaycan hökuməti sionist rejiminə qucaq açıb Qafqaza yolunu açdı, öz xalqını İber, Amerika oyununa qatdı ki, müsəlmanların məsihi əli ilə öldürülməsinin bəhrəsini yəhudi görsün. Dünya məzlumlarını müdafiə etmək bizim böyük idealımızdır və həmişə Azərbaycanın məzlum əhalisinin hamisi olub, Qarabağı İslam torpağı hesab etmişik.

Təkfir və muzdur qruplarını gətirməsi, (Türkiyə - V.M.) imperatorluq xəyalı qurur, uduzan özü olacaq. Terapevt cihadçı həkimlər qrupunun göndərilməsi istənilir və dəstək elan edilir. "Azərbaycanın pənahsız müsəlman əhalisinə" dəstək elan edilir.

[Bu dəfəki dəstək bəyanatlarının şəri xeyrindən çox idi, çünki Azərbaycan-İsrail münasibətlərinə qarşı olmaqla, Türkiyənin mövqeyinə kölgə salmaqla və Azərbaycanda terrorist və təkfirçilərin olmasını iddia etməklə onun mövqeyinə mənfi təsir göstərirdi. Bəyanatlarda müsəlmanlıq və şiəliyə də xüsusi vurğu edilirdi. Rəsmi qurumlar Təbrizdə bir sıra təşkilatların bəyanat verməsini təşkil edərək bir tərəfdən yerli əhalinin Azərbaycanı dəstəkləməsini alqışladığını, digər tərəfdən onların milli hisslərinin antitəkfir, antisionist və antitürkiyə ibarələri ilə zəiflətmək məqsədi güdürdü. Hələ ki Cənubi Azərbaycanın digər şəhərlərində həmrəylik aksiyası və bəyanatlar haqqında məlumat yoxdur].

..."Nə qoumgərayi, nə İranşəhri., Əsəbaniyyəte panha əz mouzee əsərbaxşe qoftemane enqelab" (Nə etnosentrizm, nə

İranşəhri, Panların inqilab diskursunun təsirli mövqeyindən əsəbləşməsi).

"4 ostanda fəqih vəlinin nümayəndələrinə qarşı "Separatist etnosentristlərin media hücumları [bir tərəfdən] və iranşəhri cərəyanınn fitnəkarlığı [digər tərəfdən] və hər iki tərəfin radikallarının qəzəb, vurnuxma və çaşqınlığı inqilabi mövqelərin rasionallığı, hərtərəfliliyi və təsirliliyini təsdiqləyir".

Həm separatistlər rüsvay oldular, həm də antidin, antiinqilab təcrübəsi və keçmişi olan iranşəhrilər narazı qaldılar. Dəstək Azərbaycan hökumətinin səhvləri və düzgün hərəkətlərinə etinasızlıq deyil. Məhz Cümə imamları və inqilabi gənclər xəyanət və pərdəarxası oyunları ifşa etdilər. Yəni İsrailin müdaxiləsini, Türkiyənin müdaxiləsi və təkfir qrupları yaratmaq ideyasını ifşa etdilər.

6 oktyabr

"tasnim"

Velayəti: "**Mənateğe eşğali** Azərbaycan bayəd təxliyyə şəvəd, rahe həlle monağeşeye Qarabağ nezami nist (Vilayəti: Azərbaycanın işğal olunmuş rayonları boşaldılmalıdır, Qarabağ münaqişəsinin həll yolu hərbi yol deyildir).

[Əvvəlcə, yəni müharibənin **dördüncü günü,** sentyabr ayının 30-da Cənubi Azərbaycanda Rəhbərin nümayəndələrinə və Cənubi Azərbaycandan olan deputatlara Azərbaycanın ədalətli mövqeyinə uyğun bəyanat verməyi tapşırdılar. Sonra gözlədilər ki, hadisələr hansı istiqamətdə inkişaf edir. Şərait tələb etsə idi, elan edəcəkdilər ki, Rəhbərin nümayəndələri və deputatlar HÖKUMƏTİN mövqeyini ifadə etmirlər. Azərbaycanın uğurları İranı İŞĞAL termini işlətməyə, Azərbaycana dəstək bəyanatları verən rəsmilərin dairəsini genişləndirməyə sövq etdi. Rəhbərin müşaviri Ə.Vilayəti yuxarıdakı fikri səsləndirdi. Hərçənd İranda hətta Rəhbərin beynəlxalq məsələlər üzrə müşaviri Ə.Ə.Vilayətinin

fikirləri də hökumətin mövqeyi hesab edilmir. Bununla belə həmin bəyanatı İranın mövqeyinə ədalət istiqamətində yeni addım hesab etmək lardı].

"isna"

"isna": Hökumət sözçüsü dedi...Azərbaycanın ərazi bütövlüyünün qorunmasını vurğulayırıq, sülh tərəfdarıyıq, tənqidlərə cavab...

İran Azərbaycanın **işğal olunmuş bölgələrinin boşaldılmasını VURĞULAYIR**. İranın xarici siyasətdə mövqeyi yalnız hökumət və Xarici İşlər Nazirliyi tərəfindən bəyan edilir.

[Deməli, İran hökuməti Vətən müharibəsinin ONUNCU günü İşğal olunmuş ərazilərin boşaldılmasını vurğulayır, deyəsən, hələ tələb etmir, yəni tərəfdarıdr, yarımçıq da olsa, İŞĞAL olunmuş ərazilər və BOŞALDILMA ifadələri işlənir, eyni zamanda qeyd edilən XATIRLATMA göstərdi ki, Rəhbərin Cənubi Azərbaycanda nümayəndələrinin, eləcə də Cənubi Azərbaycandan olan deputatların bəyanatının heç bir siyasi dəyəri yox idi, onlar HÖKUMƏTİ təmsil etmirlər, onun adından danışa bilməzlər və s. Hər halda, 6 OKTYABR İran-Azərbaycan münasibətlərində qeyd edilə bilən bir gündür. İran rəsmən İŞĞAL termini və Boşaltma ifadəsi işlətdi].

"anaj"

"Cənge Qarabağ buye siyasətbazi midəhəd" (Qarabağ müharibəsi siyəsətbazlıq qoxusu verir).

Xülasə: Qarabağ münaqişəsi bitəcək, amma bölgə hər an partlaya bilən barıt anbarına çevriləcək.

Həmid Şirazi: Qəti şəkildə demək olurki, Azərbaycan hökumətinin nə Qarabağı azad etmək motivi var, nə də region müsəlmanlarına kömək etməyə ürəyi yanır. Ərdoğan müharibənin əsas təşviq edənidir. İran ekspertləri İranın İLK mövqeyini PASSİV hesab edirlər. BİR HƏFTƏDƏN sonra Azərbaycanın haqlı olmasından danışırlar.

Putin və Ərdoğanın öz maraqları var. Türkiyə Osmanlı imperiyasını bərpa etməyə, İslam aləmində mövqeyini gücləndirməyə çalışır.

Təkfirilərin İran sərhədinə gəlib çıxması İran üçün böyük təhlükədir.

İsrailin artıq dəfələrlə qərəzli formada təkrarlanan məqsədindən danışılır.

Paşinyan Qərbə gedirdi,ona görə kömək görmədi.

İ.Əliyev hökuməti İrana xəyanət etdi. [Xəyanətin nədən ibarət olduğu məlum olmadı].

[Şirazinin təhlilindən belə çıxır ki, bu müharibədə hamının məqsədi var, amma müharibə edən Azərbaycanın və onun Prezidenti İ.Əliyevin məqsədi yoxdur. Bu əsl həyasız yazarlardandır].

"azariha"

"Bəyaniyyeye şaeran və nəvisəndeqane Azərbaycan dər bareye monağeşeye Qarabağ, əz serayəte atəşe cəng be mərzhaye İran pişgiri konid" (Azərbaycan şair və yazıçıların Qarabağ münaqişəsi ilə bağlı Bəyanatı..., müharibə alovunun İran sərhədinə sirayət etməsinin qarşısını alın).

"Qarabağ İranın (? - V.M.) Qafqaz əyalətlərindən biridir". Türkmənçay sülh müqaviləsi ilə İrandan ayrıldı. Şairləri fars və azəri dilində yazıblar. Bu da "həmin reallığın dəlili, oranın tarixi və İran kimliyinin əlamətidir".

Mediada qeyd olunur ki, "təkfirilər İranın qonşuluğunda, İsrail istəyir ki, atəş şölələri və iğtişaşlar" etnosentrist antivətənpərvər dairələr tərəfindən Təbrizə... də gəlib çatsın. Halbuki, Qarabağ münaqişəsinin əsas səbəblərindən bir də etnosentrizmdir".

"Beynəlxalq qanunlar, prinsiplər və ədalət əsasında sülhün bərqərar olması və iki qonşu ölkə arasında məsələnin həlli üçün müzakirələin dəstəklənməsi - Rəhbərin mövqeyidir. "Hər cür təcavüz, işğalçılığı və hücumu pisləyirik".

Tam olmayan siyahıda 98 imza var.

[Bəyanatın mətnində Azərbaycana dəstək əvəzinə ona qarşı ərazi iddiası sürülür və münaqişədən Cənubi Azərbaycan milli-mədəni fəallarına qarşı təbliğat məqsədi ilə istifadə olunur. Ona görə orada bir dəfə də Azərbaycan adı çəkilməyib. Cənubi Azərbaycanda bu qədər MİLLİ KİMLİKSİZ doktor, jurnalist, şair və mədəni fəal varsa, VAY Cənubi Azərbaycan xalqının halına.

Telefilmdə deyildiyi kimi, panfarsistlər bir milli-mədəni fəalın qarşısına 5  antimilli fəal çıxarırlar].

7 oktyabr

“anaj”

“Zeddiyyəti əgər vocud darəd ba eşğalgəri əst” (Bir ziddiyyət varsa, o da işğalçılıqla bağlıdır).

Vəhid Rzazadənin qısa təhlili: Azərbaycanı dəstəkləyən müəllif həmin günlərdə özünü göstərən fars-türk qarşıdurmasından danışaraq, onun Qarabağ məsələsində ruhanilərin dəstəyinə münasibət əsasında yarandığını vurğulayır. Bir qrup imam cümələrin bəyanatını dəstəklədiyi halda digər qrup onun əleyhinə çıxırdı.

“Monağeşeye Qarabağ və rahe həlle moslemətamiz, nə cəng bəraye cəng, nə mozakere bəraye mozakere” (Qarabağ münaqişəsinin sülh həll yolu, nə müharibə üçün müharibə, nə də müzakirə üçün müzakirədir).

İranın silahlı vasitəçiliyi bu düyünü aça bilər, bir şərtlə ki, münaqişə tərəfləri dost libasında düşmənə bel bağlamayalar. Bəyanatlar “Azərbaycan Respublikasının haqlı olduğunu və Qarabağ işğalının aradan qaldırılmasının vacibliyini təsdiq edir”.

İranda etnik uçurumun yaranması üçün yumşaq təhdidlər...

“Ehanət be əemmeye comeye şemale qərb, qəlbe mərdome Azərbaycan ra cərihedar kərd” (Şimal-qərb cümə imamlarının təhqir edilməsi Azərbaycan xalqının ürəyini yaralayıb). Bu fikri Şərqi Azərbaycan ostandarı Purməhəmmədi səsləndirib.

Şimal-qərb İmam cümələrinin mövqeyi ölkənin xarici siyasətinə uyğun idi. XİN və hökumət sözçüləri də həmin mövqeyi təkrar etdilər.

[İranın panfarsist dairələrini İmam cümələrin Azərbaycana dəstək bəyanatına mənfi və düşmən münasibəti panfarsistlərin, bəlkə də farsların bütövlükdə Azərbaycan türklərinə münasibətini və həmin dairələrin Azərbaycan sisyasətinə təsirini əks etdirir. Onların Azərbaycana düşmənçiliyi prinsipial xarakter daşıyır. Çox təəssüf ki, Cənubi Azərbaycan elitası məsələnin həmin cəhətinə ardıcıl diqqət yetirmir və panfarsistlərin azərbaycanlılara qarşı düşmənçilik münasibətini aradan qaldırmaq yolunda heç nə edilmir].

**“tabrizebidar”**

Pezeşkiyan: Şimal-qərb imam cümələrini təhqir etmək insanın aşağılıq kompleksindən irəli gəlir.

Əsas xəbər Azərbaycanın ərazi bütövlüyünün tanınması və münaqişənin dinc yolla həll edilməsinə çağırışıdır. İkinci mühüm məsələ, Şərqi Azərbaycan rəsmilərinin imam cüməlari panfarsistlərin əsassız həmlələri qarşısında müdafiə etməsidir.

10 oktyabr

“anaj”

Saytın sözlərinə görə Azərbaycanın guya tanınmış ruhanisi olan Hacı İlqar İbrahimoğlu deyib: “Estratejiye rəhbəre İran dər rabete ba Qrabağ dər əməl mohəğğəğ şod” (İran Rəhbərinin Qarabağla bağlı strategiyası həyata keçdi). [Strategiyanın nədən ibarət olduğu məlum olmadı].

“Məsuliyyəte rəsanei dər bohrane Qarabağ” (Qarabağ böhranında medianın məsuliyyəti).

Bəzi xarici media iddia edir ki, İran Ermənistanı dəstəkləyir.

Rəhbərin müşaviri və hökumətin sözçüsü işğal olunmuş torpaqların azad olunmasından danışıblar, bu istiqamətdə BMT TŞ 4 Qətnaməsi də var. “Media işğal olunmuş bölgələrin ***azad olunmasından***, sabitlik və danışıqlara ehtiram prinsipindən danışmalıdır”.

[13 oktyabr - 2 noyabr anaj saytı fəaliyyət göstərməmişdir].

“tabrizeman”

1. Ostan İslam Şurası rəisinin imam cümələrin mövqeyini müdafiə etməsi: “Onların mövqeyi haqqın özü, ədalətin özü, insanlığın özü, məzlumun müdafiəsinin özü və Hüseyn inamının özüdür. Xürrəmşəhr müzakirə, yoxsa Beytül Qüds əməliyyatı ilə fəth olundu”.

2. “Dər həqiqət mozee emam comeeye Təbriz həman bud ki, azərbaycaniha əz seyide şərif xod entezar daştənd və darənd və xahənd daşt” (Həqiqətdə Təbriz cümə imamının mövqeyi azərbaycanlıların öz şərif seyidlərindən gözlədikləri və gözləyəcəkləri həmin mövqe idi).

“Ərazini azad etmək müharibədən keçir, danışıqlardan yox”. Müəllif-Qulam Hüseyn Məsudi Reyhan.

11 oktyabr

“irna”

“Xətahaye rahbordi ke əz adabe həmsayegi fasele darəd” (Qonşuluq qaydalarından uzaq olan strateji səhvlər).

Yazı Türkiyə mətbuatına qarşı yazılıb. Türkiyədə aşağıdakı başlıqlı yazı yazılıb: “İranda Azərbaycanı dəstəkləyənlərə qarşı repressiya”.

Sayt İranın mövqeyindən danışarkən qeyd edir ki, İran Qarabağı işğal olunmuş hesab etsə də, böhranın aradan qaldırılmasının yolunu müharibədə yox, yalnız danışıqlar yolu ilə və beynəlxalq qanunlar əsasında mümkün hesab edir.

Dəyirmi masa: “Rişehaye tarixi, bohrane Qarabağ ra piçide kərde əst” (Tarixi köklər Qarabağ böhranını daha da mürəkkəbləşdirimişdir).

Dəyirmi masada iştirak edən Türkiyə üzrə ekspert Seyid Əli Qaim Məqami: “Böhranın 100 illik tarixi var”.

Azərbaycan üzrə ekspert Şəib Bəhmən: “*Stalin zamanı* süni sərhədlərin çəkilməsi ilə yaranıb. Tarixi kökləri onu daha da mürəkkəbləşdirir. İran üçün ona görə əhəmiyyətlidir ki, qonşudur”. Bəziləri: “Bu, proksi müharibədir”.

Qaim Məqami: “Birinci dünya müharibəsi zamanı Rusiyanın təşkil etdiyi erməni Legionu Türkiyədə qətl-qarətlə məşğul idi, nəticədə köçürmə baş verdi”. Böhranın həlli istiqamətdə atılan addımlardan danışarkən Madrid prinsipləri yada salınır.

Bəhmən Sovetlərin süni sərhədlərindən danışarkən Səmərqənd və Buxara yadına düşür. Xarici qüvvələr - “Türkiyə və İsrailin müdaxiləsi (? - V.M.) müharibəni uzadır”. “Azərbaycan Respublikası bu münaqişədə ərazi bütövlüyünün qorunması prinsipinə arxalanaraq Ermənistanın işğalına son qoyulmasını tələb edib və digər tərəfdən erməni tərəfi öz müqəddəratını təyin etmə prinsipinə istinad edərək ermənilərin hüquqlarının tanınmasını tələb etmişdir.

12 oktyabr

"irna"

"Zendegi zire sayeye cəng" (Müharibə kölgəsində həyat, sərhəd bölgəsindən reportaj).

60 yaşlı köçəri Abbas Məhəmmədxani Xocalı tayfasından ancaq ölkəsinə inamı və sevgisindən danışdı.

45 yaşlı kababçı (kafe sahibi) Vəli Şeyx Müqəddəm: "Müharibə başlayandan gəlirimiz artıb, hər yandan tamaşaya gəlirlər, amma BİZ müharibənin uzanmasını istəmirik. Arazın hər iki tərəfinin xalqının arzusu Qarabağın azad edilməsidir". O dedi ki, 27 il əvvəl həmin ərazilər ermənilərin əlinə düşdü, minlərlə qaçqın İrana gəldi, biz onlara yardım etdik. Tarixi dəlillər göstərir ki, həmin ərazi bundan əvvəl kimə məxsus idi.

Əyri bucaq kənd sakini Vəli Firuz: "Ürəkdən istəyirəm ki, Arazın o tayındakı xalqın haqqı və ədalət bərpa olunsun. Biz bu müharibədə müsəlman qardaşlarımızın yanındayıq, istəyirik ki, onlar da daim müharibə təhlükəsindən xilas olub öz VƏTƏNLƏRİNDƏ sülh və asayiş içində yaşasınlar".

Rəhimə Məhəmmədli: "İstəmirəm ki, sərhədin o tayındakı müharibəyə görə özüm, ailəm, həmvilayətlilərimə xəsarət dəysin".

Dəyirmi masanın ikinci hissəsi: "Douləthaye xareci dər cənge Qarabağ nəğşe çəşmgiri darənd" (Xarici dövlətlər Qarabağ müharibəsində əhəmiyyətli rol oynayırlar)

Şəib Bəhmən; "Kim başladı? Demək çətindir. Amma *İsrail təhrik* etdi ki, silah satsın, şayiə: "İsrail kodları Ermənistana verib, düz ya yalan olmasından asılı olmayaraq, Azərbaycanı tələsdirdi". Türkiyə silahlı qüvvələri Azərbaycanla həmin ölkədə birgə manevr keçirdi və türk qoşunu burada qaldı. Türkiyə özü TERRORİSTLƏRİ göndərir. Azərbaycan başladı müharibəni.

Sayt: "Qərar Ankarada verilir?"

Bəhmən: "Tamamilə doğrudur. Hər halda artıq "fikir otağı" var. Guya daxili vəziyyət, Liviya Türkiyəni buna vadar etdi".

Sayt: "Sizin təhlil?"

Bəhmən: “HƏRBİ HƏLLİ YOXDUR. Həmin böhrandan istifadə edərək İranda milli məsələ yaratmaq (? - V.M.) istədiklərini gördük. Müharibəni diplomatik yolla dayandıraq, sonra həll prosesinə daxil olaq”.

Qaimməqami: “İran Azərbaycanın ərazi bütövlüyünü qanuni bilib danışıqları 3-3 formatında təşkil etsin, referendum məsələsi qaldıra bilər. Azərbaycan neftinin səhmlərinin yalnız 10 faizi onun ixtiyarındadır.

14 oktyabr

“irna”

“İran və Rusiye kocaye bərqərariye atəşbəs Qarabağ istadeənd? (İran və Rusiya atəşkəsin bərqərar olmasında hansı rol oynayırlar?)

Doktor Məhəmməd Əli Bəsərinin fikirləri: “Türkiyə kimi güclərin həmin böhrana daxil olması” Qafqaz və tampon bölgələrin bir hissəsinin Rusiya ilə İran arasında yerləşməsi və xarici təhdidlər nəzərə alınmalıdır. Onu da nəzərə almaq lazımdır ki, İran prezidenti Azərbaycanı “qardaş ölkə”, Ermənistanı “yaxşı qonşu” adlandırıb. İran və Rusiya “Sülh prosesinin əsas nəzarətçiləri və rəhbərləri” rolunu oynamalıdırlar.

“Bu müharibənin hərbi həlli yoxdur”. “Qarabağ torpağı Azərbaycanındır, amma bu torpaqda sakinlərin ***əksəriyyəti*** (? - V.M.) ermənidir”.

Azərbaycan məsələni ***danışıqlar*** (?) masasına gətirməyə müvəffəq oldu, Ermənistanı danışıqlara məcbur etdi.

“Təbiidir ki, bütün bölgənin Azərbaycanın ixtiyarına keçməsi regionun erməni əsilli sakinlərinin öz müqəddəratını təyin etmə hüququ baxımından ***mümkün deyil***(?)”.

15 oktyabr

“irna”

Azərbaycan xarici işlər naziri ilə telefon danışığında Zərif : “Tehran Qarabağ münaqişəsinin davamlı həllinə yardım etməyə

hazırdır, İranın yardımı...İran Prezidenti Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri ilə telefonla danışıb və problemin DİPLOMATİK həllini vurğulayıb. İran xarici işlər naziri də Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə danışılb: "təmkinli olmağa, atəşkəsə, düşmənçiliyə son qoymağa və müzakirələrə başlamağa çağırıb".

İran ekspertləri hadisələri necə təqdim edirlər:

1. Müharibənin Azərbaycanla Ermənistan arasında sərhəd bölgədə baş verməsi;

2. Müharibə Qarabağ uğrunda gedir;

3. 7 rayon işğal olunub.

18 oktyabr

"tabrizeman"

"Əgər be məzlumiyyəte Azərbaycan bavər nədarid, laəğəl mənfəəttələb başid" (Əgər Azərbaycana qarşı ədalətsizliyə inanmırsınızsa, heç olmasa öz mənfəətiniz barədə düşünün)

"Belə baxışlarınıza (İsrailə) görə İranı İslam aləmində tək və yalqız etmisiniz".

19 oktyabr

"irna"

Avropa mediası və İranın Qarabağ böhranına yanaşması:

DW (ingilis dilində): "İranın mövqeyinə azəri (İran) mühüm təsir göstərir. İran müharibənin İrana sirayət etməsinə yol verməməyə çalışır. İranda azərilər və ermənilər yaşayır. Sayı cəmi 100 min olan ermənilər Tehran, İsfahan və digər şəhərlərdə yaşayırlar.

Azərilərin sayı 15 mln-dan çoxdur. Siyasi və iqtisadi strukturlarda yüksək mövqe tuturlar. Yazıda 4 imam cümənin bəyanatı qeyd edilir. Ruhani Paşinyanı Qarabağda münaqişənin sona çatmasına çalışmasına çağırır.

Azad Avropa radiosu: "İran bitərəflik mövqeyi elan etsə də, daxildə Azərbaycanı himayə etmək üçün güclü təzyiq var". Yazıda Ruhaninin Azərbaycanı "qardaş xalq", Ermənistanı "yaxşı qonşu" adlandırdığı yada salınır. Eyni zamanda İran Prezidenti

Suriyadan Qarabağa terroristlərin gəlişindən narahatlıq ifadə etdiyi qeyd edilir.

Ekspertlər d-r Nuzər Şəfii və Əliəsgər Nuzər ilə söhbət: “Dərshayi əz bohrane Qarabağ bəraye məntəqe”( Region üçün Qarabağ böhranının dərsləri).

SSRİ DAĞILANDAN sonra Azərbaycan və Ermənistan respublikalarının TƏŞKİLİ

Şəfii:Ermənistanın hərbi müqavimət gücü yoxdur.

Nuzər: İran-Ermənistan-Yunanıstan ittifaqı iqtisadi cəhətdən gücləndirilməlidir ki, Türkiyəni öz sərhədlərində saxlasın. Balans yaratmalıdır.

Şəfii: Hələ ki tərəflərin tələbləri aydın deyil (?v.m.).

Nuzər: Qarabağı İKİSİNDƏN birinə birləşdirmək meyili problemlə üzləşib.

Həll yolları :

1. Qarabağa(?v.m.) muxtariyyat verilməsi.

2.Azərilər yaşayan ərazilərin Azərbaycana, ermənilər yaşayan yerlərin Ermənistana verilməsi, aralarında da bufer zona yaradılması.

Nuzər: İranın rolu və mövqeyi artır.

Şəfir: Neoosmanizm; İranla sərhəddə təkfirilər var, DEYİRLƏR növbə İranındır. Türkiyəni müharibəni qızışdırmaqdan çəkindirməli. Suriya özünü terroristlərdən təmizləsin, bir hissəsi Azərbaycanda. Ermənistanın DAXİLİNDƏ (? - V.M.) Naxçıvan Muxtar Respublikası var. Xüsusi səlahiyyətlərə malikdir. Azərbaycanın da tərkibində Qarabağ Muxtar respublikası olsun.

Qarabağ Azərbaycan-Ermənistan-İran ARASINDA strateji məntəqədir. İran HƏR ÜÇÜ ilə həmsərhəddir [Belə ekspertlər olanda İrandan başqa bir şey gözləmək olmaz. İrana sərf edirdi ki, Qarabağ məsələsi həll edilməsin və İranın sərhədində əvvəlki vəziyyət qalsın].

“farsnews”

İranın Xorvatiyada səfiri İsmaili: “*Terroristlərin* sərhədlərimizin yaxınlığında olmasına dözə bilmərik”.

....İran Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü vurğulayır, Gəncəyə raket hücumunu pisləyir.

“İran İslam Respublikasının xarici məsələlərdə siyasəti yalnız Xarici İşlər Nazirliyi tərəfindən bəyan edilir. İranın prinsipial mövqeyi beynəlxalq səviyyədə tanınan sərhədlərə, beynəlxalq qanunlar və qaydalara hörmət etməkdir”. Sülh “Ərazi bütövlüyü və beynəlxalq qaydalara hörmət əsasında yaranır”. “Ümid edirik ki, təkfiri terroristlərdən istifadə haqqında deyilənlər ŞAYİƏ olsun”.

Sual: “Azərbaycan əhalisinin əksəriyyəti şiə, İranın əksəriyyəti şiə, amma İran daha çox Ermənistanı dəstəkləyir?”

Cavab: “Çünki Azərbaycanın İsraillə çox güclü əlaqələri vardır. SƏRHƏD yaxınlığında geniş hərbi və kəşfiyyat varlığı var”.

21 oktyabr

“irna”

Avropa bürosu: “İrəvan və Bakı Qarabağda hərbi əməliyyətlara son qoyulmasında İranın köməyinə ümid edirlər”. Sayt “Newsweek” jurnalında qeyd edilən əsas fikirlərə diqqət çəkir: “İrəvan İranın dəstəyini qazanmaq istəyir”, “Bakı İranın diplomatik səylərini yüksək qiymətləndirir”. Zərif: “Üçtərəfli İran, Rusiya, Türkiyə müzakirəsi, Ermənistanın ABŞ-da səfiri: “Biz İranın səylərini qiymətləndiririk”. İranın “Artsax” respublikası ilə MÜŞTƏRƏK (?) sərhədi var.

Azərbaycanın ABŞ-da səfiri Süleymanov Elinin sözlərinə daha çox yer verilib.

23 oktyabr

“irna”

İran biştərin səlahiyyət ra bəraye koneşgəri dər monağeşeye Qarabağ darəd (İran Qarabağ münaqişəsində fəallıq göstərmək üçün daha çox səlahiyyətə malikdir)... Sülh içində olmaq..

Geosiyasi ekspert Hüseyn Seyfəddininin yazısı:

[Bunun hələ bu barədə kitabı da var].

Təkfirilər və Türkiyənin rolundan danışarkən İranda mövcud olan məlum əsassız iddiaları təkrar edir.

Dağlıq Qarabağ öz *müqəddəratını* təyin etmək hüququndan istifadə edərək *SSRİ-dən* çıxdı. Müstəqillik elan etdi. DQ Azərbaycanın tərkibində olmaqdan razı deyildi. Onlar müstəqillik elan edəndə Azərbaycan *ÖZ QOŞUNLARINI* göndərdi. Müharibə oldu və Azərbaycan daha artıq ərazi itirdi. Müharibənin ilk 18 günü ərzində İsrail və Türkiyənin guya təhrikedici rolu və iştirakı haqqında böhtanları təkrar edir.

"tasnim"

Silahlı Qüvvələrin baş sözçüsünün Azərbaycan və Ermənistana xəbərdarlığı

Sözçü, sepah generalı Əbülfəz Şekarçi: "Əvvəla özgələrin atəşi alovlandırmasına və fitnələrinə diqqətli olun. İkincisi, öz aranızdakı problemləri DİNC VASİTƏLƏR VƏ DANIŞIQLAR yolu ilə həll edin, üçüncüsü, öz hərbi əməliyyatlarınızda diqqətsizliklə İran sərhədlərini, həmvətənlərimizin təhlükəsizliyi və sakitliyini təhlükəyə atmayın... Sözçü xəbərdarlıq edir ki, hər cür həmlə və təhdidə qarşı sərt cavab veriləcək".

[Bu da işğalçının çıxıb getməsi tələbi. Demir ki, Ermənistanın təcavüzü nəticəsində bunlar baş verir. Ermənistan təcavüzü dayandırıb işğal etdiyi ərazilərin qalan hissəsini boşaltsın, onda hər şey yoluna düşər. Ən əsası da odur ki, Azərbaycan İranla sərhəd ərazisini azad etdiyi və azad etdikdən sonrakı günlər İranın ard-arda xəbərdarlıqları gəlir. Xəbərdarlıqlarda Ermənistanın adı çəkilsə də, Azərbaycana qarşı yönəlib]. Sözçü iki ölkənin hərbçilərinin Qarabağ, Naxçıvan və Ermənistan regionunda son hərbi əməliyyatlarından danışır və xəbərdarlıq edir ki, hərbi əməliyyatlar "sonra qəti peşmanlıq gətirəcək".

[Ermənistan və Naxçıvan haradan çıxdı]...

25 oktyabr

"tasnim"

Sərdar Pakpur Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatlar gedən yerin yaxınlığında: "heç kimlə etika gözləmərik".

Sepahın quru qoşunlarının komandanı Pakpur: “Hamının ərazi bütövlüyünə hörmət edirik və **sərhədlərdə heç bir geosiyasi dəyişikliyi qəbul etmirik**” Bu, İranın “qırmızı xətti”dir.

[Azərbaycan öz ərazilərini azad etdikcə İranın narazılığı artır və sərhədlərin dəyişilməsinə yol verməyəcəklərindən danışmağa başlayırlar].

27 oktyabr

“irna”

“İran və Azərbaycan kivləri (media) arasında əməkdaşlıq müzakirə olundu. “...Dünən İran səfiri Mətbuat Şurasının sədri Amaşovla görüşüb. Səfir tvittdə yazıb: “KİV-lər arasında mübadilə və əməkdaşlıq, saxta xəbərlərə qarşı, xüsusən məcazi məkanda və sosial şəbəkələrdə, iki ölkə münasibətlərinə qarşı xüsusi dairələrin və ölkələrin fəaliyyəti ... müzakirə edildi”.

29 oktyabr

“irna”

“Əraqçi sülh planını Moskvada ikinci dəfə müzakirə etdi. Birinci dəfə Rusiya Federasiyasının prezidentinin xüsusi köməkçisi Andrey Rudenko, ikinci dəfə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabakovla müzakirə etmişdi”. Əraqçi Moskva aeroportunda dedi: “Minsk qrupu 30 ildə heç nə etmədi. Qrupun bəzi üzvləri bu bölgədən deyillər və böhranla əlaqələri yoxdur. Minsk qrupunun fəaliyyətinin səmərəsizliyi işdə sübut olundu. Fransa və ABŞ regiondan uzaqda yerləşir, onunla heç bir bağlılıqları yoxdur və sülhə meyilləri də yoxdur”. S.Abbas Əraqçinin sülh layihəsinin əsas prinsipləri bunlardır:

- atəşkəs,
- mülki yerlər və şəxslərə atəşin dayandırılması,
- qaçqınların öz yerlərinə qayıtması.
- **İşğala son qoyulması**,
- ərazi bütövlüyünə və suverenliyə hörmət,
- sərhədlərin dəyişməzliyi prinsipi,
- humanitar hüquqa və AZLIQLARIN hüquqlarına hörmət,

-qeyri–hərbi mərkəzlər və mülki şəxslərə hücum etməmək.

Əraqçi bunları təklif edib CAVAB gözləyəcəklərini bildirib. O qeyd edib ki, layihə ölkənin ali orqanları tərəfindən təsdiq olunub.

Sülh istəməyən xarici dövlətlərin böhrana müdaxiləsi vardır. "Biz bölgədə sülh üçün məsuliyyət daşıdığımızı bilirik və böhranın həllinə kömək edəcəyik".

[İran hadisələrə guya bitərəf qaldığını vurğulayaraq hadisələrdən kənarda qalmadığını öz auditoriyasına göstərmək üçün daldan daş atmağa başlayıb].

30 oktyabr

"tasnim"

"Təhəmmol nemikonim əmniyyəte mərzneşinan be moxatere beyoftəd" (Sərhəd bölgəsində yaşayanların təhlükəsizliyinin təhdid edilməsinə dözə bilmərik). "Azərbaycan və Ermənistan moşkelat ra POŞTE MİZ mozakere konənd" (Azərbaycan və Ermənistan problemləri masa arxasında müzakirə etsinlər).

..Silahlı Qüvvələrin Quru qoşunlarının komandanı general Kəyumərs Heydəri sərhəd bölgələri olan Culfa və Xudafərinə baş çəkib, deyir: "SQ.. öz əsas vəzifəsinə əməl etmək üçün ölkənin şimal-qərbində sərhədin müəyyən məntəqələrində yerləşdilər, əsas məqsəd... qırmızı xətt elan olunan yerləri qorumaqdır". "...Biz heç bir halda İİR qırmızı xəttini keçməyə icazə verməyəcəyik"... "Biz sərhəddə yaşayanların təhlükəyə düşməsinə dözə bilmərik"... İndi quru qoşunları lazım olan hər yerdə" hücum hərəkətliliyi və çevik reaksiya ilə yerləşib lazımi rol oynamağa hazırdır".. "Əlhəmdullah, ölkənin şimal-qərb sərhədlərini heç bir təhlükə təhdid etmir.... çünki silahlı qüvvələrimizin bacarığı və gücü artıb, hazırlığımız yüksək səviyyədədir. Region ölkələrinin ərazi bütövlüyünə hörmət.. iki qonşu ölkə ilə ortaq cəhətlərimiz çoxdur, indiyə kimi mehriban qonşuluq münasibətlərini qoruyub saxlamışıq, bizim tövsiyəmiz "beynəlxalq qanunlara hörmət etmək, beynəlxalq sərhədləri qorumaq və problemləri danışıq masasının arxasında həll etməkdir".

[Görəsən, həmin mövqe Birinci Qarabağ müharibəsi zamanı hansı arxa planda yatırdı. İndi qırmızı xəttdən danışırlar. İnanmaq olmur ki, öz yalanlarına özləri inanmış olsunlar].

31 oktyabr

“tasnim”

Təbrizdə Vilayəti: “Fransa Prezidenti siyonistlərin arxasınca gedir. Beynəlxalq fitnə törədənlər Cənubi Qafqaz bölgəsində iğtişaş yaratdılar”. Demokrat kimi oyuncaq, yaramaz firqələrin mövcudluğu...

**Əsas həll yolu odur ki, işğal olunmuş məntəqələr boşaldılsın** və Azərbaycan əhalisi sərhədlərinə hakim olsun. Ermənistan da bu xüsusda SƏY GÖSTƏRMƏLİDİR. Birgə kimlik, şiə mərkəzçilik bizi bir-birimizə bağlayır və bu bağlılıq əbədidir.

1 noyabr

“tasnim”

Qafqaz üzrə ekspertlə Qarabağ münaqişəsinin təhlili, ənənəvi xarici siyasət dövrü başa çatıbdır

Xülasə: Qafqaz ölkələrinin mürəkkəb davranışı və “bu bizə dərsdir ki, əvvəldən təyin edilmiş sabit rels üzərində hərəkət artıq cavab vermir və öz regional və qlobal maraqlarımızı yenidən müəyyən etməliyik”. Hələlik 2 min kv. km Azərbaycanın əlinə keçib. Başlayanın kim olduğu bilinməyən bir böhrandır.

Əli Səadəti – Türkiyə və Qafqaz üzrə ekspertlə müsahibə:

Redaksiya: “Azərbaycan 1990-1994-cü illərdə BAŞLADIĞI müharibədə əraziləri geri qaytara bilmədi, amma indi artıq 190 KƏNDİ ... qaytarıb.

Səadəti: Şuşa mühasirədə, ənənəvi türk müharibə modeli olan AYPARA şəklində hücum edilir. Ona görə gözləyiblər ki, mülki əhali çıxsın. Bu həftə Laçın bağlanacaq. Bakı hər dəfə atəşkəsə müsbət cavab verir”. Lakin üstünlüyə və inkişaf etmiş silaha malik olan və keçən bir ayda **görünməmiş** irəliləyiş edən ölkə atəşkəsi pozacaq. Ermənistan mülki obyektləri bombalayaraq Azərbaycanı atəşkəsə MƏCBUR etmək istəyir. “Digər tərəfdən türklərin ANA TORPAĞI olan Türkiyə (?-v.m.) mənavi dəstək göstərir”.

PKK Qarabağda iştirak edir.

"Türk bölgələri üləmalarının reaksiyası çox vacib idi və vaxtında məsələyə münasibət bildirdilər və onun ardınca Tehran fəal müsbət təşəbbüslə səhnəyə daxil oldu, yaxşı dərk etdi".

Tənqid edirlər ki, Tehran bir az gec səhnəyə çıxdı. Amma ona görədir ki, Rusiya və Türkiyəni nəzərə almaya bilməzdilər?"

Ərazilər işğaldan azad olandan sonra Azərbaycan daha NATO-ya girmək istəməyəcək, silah alışı azalacaq, əsas qayğısı quruculuq işləri olacaq.. "...reaksiya əsasında qurulan situativ xarici siyasət kənara atılmalı və daha fəal hərəkət etməli".

"isna"

Yaddaşt, Hədəfe vağeiye Comhuriye Azəraycan və Torkiye dər Qarabağ çist? (Qeyd, Azərbaycan və Türkiyənin Qarabağda əsl məqsədləri nədir?)

Ərdoğan və Əliyevin istədikləri Qarabağın azad olmasından daha az bir şeydir (? - V.M.)

"Həmnejad ya soydaşha"(eyni irqdən və soydan olanlar), yəni Türkiyə türkləri də müharibəni böyük həyəcanla izləyirlər.

Suallar:

1. Doğrudanmı azad etmək istəyirlər, yoxsa başqa bir röya və planları var?

2. Digərləri sakit oturacaqlar ki, Türkiyə və Azərbaycan təpə-təpə öz məqsədlərinin ardınca getsinlər və illərlə arzusunda olduqları dayanacağa çatsınlar?

Hərbi əməliyyatların gedişində Rusiyanın ehtimali reaksiyası və erməni diasporunun hərəkəti nəzərə alınır. Deməli, məqsəd – bir neçə strateji məntəqəni azad etməkdir.

MƏQSƏD:

1. Danışıqlarda Azərbaycanın üstün olması

2. Rusiya müdaxilə etsə, Minsk qrupu vəziyyətin dondurulması barədə qərar qəbul etsə, heç kim Azərbaycanı azad etdiyi ərazilərdən çıxara bilməz.

Bu da xarici qüvvələrin müdaxiləsini və Azərbaycanı ram etməsini mümkünsüz edəcək.

Müəllif Türkiyə üzrə ekspert Məhəmmədəli Dəstmali.

2 noyabr

"farsnews"

"Hər bir TƏHDİDƏ cavab verməyə hazırıq, regional düşmənlər ağıllarını başlarına yığsınlar".

SQ cənub-qərb dairəsinin komandiri general Həmzə Bidadi: "Qarabağ münaqişəsinin pərdə arxasında duran ölkələr hamıya aydın oldular, bu münaqişənin məqsədi İran İslam Respublikası quruluşu ƏTRAFINDA qeyri-stabillik yaratmaqdır". "Türkiyə, Rusiya və İran ittifaq təşkil etdilər, iş başındadırlar və hər iki tərəfi TƏMKİNLİ olmağa çağırırlar. Hələlik bu baxımdan bizim üçün heç bir problem yaradılmayıb".

3 noyabr

"anaj"

"Azərbaycanın bütün torpaqları azad edilməlidir, axırıncı müharibə region üçün təhlükədir" [Rəhbərin çıxışı müxtəlif başlıqlarla bütün agentliklər tərəfindən yayımlanmışdır].

Rəhbər bu gün səhər Məhəmməd peyğəmbərin və imam Səccadın doğum günü münasibəti ilə televiziya ilə birbaşa çıxışında demişdir ki, gərək bu müharibə mümkün qədər tez başa çatsın.

İran İslam Respublikasının liderinin çıxışından bir neçə sitat:

"Azərbaycanın Ermənistan tərəfindən zəbt edilmiş bütün torpaqları azad edilməli və Azərbaycana qaytarılmalıdır".

"Bu torpaqlarda ermənilərin qorunması və hər iki tərəfdən beynəlxalq sərhədlərə riayət olunması lazımdır".

"Etibarlı mənbələrin məlumatına görə regiona gələn *terroristlər* heç bir halda İran sərhədinə yaxınlaşmamalı və əgər onlar sərhədə yaxınlaşsalar, mütləq qəti tədbir görüləcək".

[Azərbaycanın qələbəsi ərəfəsində Rəhbər dilə gələrək erməniləri işğala son qoymağa çağırdı...amma bununla yanaşı bəyanatının əhəmiyyətini azaldaraq TERRORİST məsələsini qabardaraq sərhədə yaxınlaşmamaları haqqında təminat almağa çalışdı. Belə

kəşfiyyatı olan ölkənin belə də rəhbəri olar. İran tərəfi Azərbaycanın qalib gəldiyini hiss etməyə başladıqdan sonra terroristlər məsələsini meydana ataraq Azərbaycan siyasətini həmin əsasda qurmağa başladı...]

4 noyabr

“tasnim”

“Dağe Qarabağ”, İranı zəif fəaliyyət göstərməkdə ittiham edənlərə cavab, “Qarabağ” macərası Kəşmirdən daha mürəkkəbdir”.

“Dağe Qarabağ” sənədli filmdir, rejissor Sina Hüseynpur, prodüser, Əmir Mehr Yəzdan

“Qarabağ istisi” sənədli filmi İkinci Qarabağ müharibəsi başlayanda göstərilməyə başladı, prokata çıxdı. Pərdə arxasından başqa cür danışılır. Çingizin [Mustafayev] dilindən yanaşmaya daha çox üstünlük verilir. Ev kanalında yayılır.

Filmin yaradıcıları ilə söhbət, I hissə

Film 3 ilə hazırlanıb.

Hüseynpur: “Birinci problemimiz ondan ibarət idi ki, əziz ***azəri*** dillilləri qane edə bilmirdik ki, Azərbaycan çox mühümdür. Bizim birinci işimiz Azərbaycan Respublikasının ŞİƏLƏRİ və oranın XÜSUSİ DİNİ atmosferi haqqında idi.

Əlbəttə, öz azərilərimizin yaratdıqları maneələrlə üzləşirdik.

Sual rejissora : “siz də əslən azərisiniz?”

Cavab: “Bəli. Qarabağ münaqişəsi haqqında ***vahid təsəvvür yoxdur***, eyni zamanda çox həssas yanaşılır. Bu sənədli filmin layihəsini bir çox mərkəzə apardıq, dəfələlə eşitdik ki “Bu iş bizim üçün prioritet deyil”. Həmçinin dəfələrlə deyiblər: “Bizim iki qonşu ölkə döyüşür, “bizə nə dəxli var”. Çox israr və iltimasdan sonra “Səhər film”lə razılaşdıq, onlar da bizə etimad etdilər. Biz filmi ekrana çıxarmaq istəyəndə müharibə hələ başlamamışdı. Başlayandan bir neçə gün sonra nümayiş olundu.

Əmir Mehr Yəzdan, rejissorun məqsədi haqqında: O bilirdi ki, azərilər (İran) İranın Qarabağ məsələsində az iş gördüyünü

vurğulayırlar. Ona görə sübut etmək istəyirdi ki, İran əlindən gələn hər şeyi etdi.

Hüseynpur: "Azərbaycanda [Azərbaycan Respublikasında] İranın rolu məsələsinə qadağan qoyulur". Elm aləmindən kömək az oldu. İngilis dilində daha çox idi. Azərbaycanda adamlar tapdıq, bizə İranın rolu haqqında məlumat verirdilər.

Mehr Yəzdan: "Dəyərli məlumata sahib olanlar əməkdaşlıq etmədilər. Məsələn, Ə.Vilayəti, M.Vaezi, M.Rezayi. Məclis kömək etmədi (arxiv materilları nəzərdə tutulur)

Sual: "Münaqişənin mahiyyəti nədir?"

Hüseynpur: "Öyrəndik ki, pərdəarxası oyunçunun İranla ziddiyyəti vardı, istəmirdi sülh bağlansın" ......əvvəllər böhrana görə İranı, Türkiyəni, Rusiyanı ittiham edirdilər. Bunlar səhvdir. Əvvəlcə bir misal qeyd edək: "1997-ci ildə Ermənistan parlamentini gülləbaran etdilər. Azərbaycanda əsas müharibə dayaqları olan çoxları 3 ay sonra çevrilişə əl atdılar, halbuki yüksək vəzifə sahibləri vardı, qəflətən komandirləri bir snayper gülləsi ilə qətlə yetirildi və çevriliş baş tutmadı".

İran azərbaycanlıları tələb edirlər ki, İran şəffaf mövqe tutsun.

Mehr Yəzdan: BMT TŞ deyirdi: "Qarabağ Azərbaycanındır. Amma Azərbaycan çox təhlükəli siyasət yeridirdi. Məsələn, İsraillə açıq əlaqələr. İran səmasında uçan casus dronlar oradan qalxırdı, şiə başçıları həbs edilib. Bu cəhət bizim xalqa və hətta azərilərə məlum olmayan cəhətlərdir".

70 dəqiqəlik sənədli filmdir

5 noyabr

"anaj"

"Qarabağ münaqişəsinin sona çatmasının həll yolu"

İranın Azərbaycanda keçmiş səfiri Möhsün Pakainin İranın mövqeyi haqqında qeydləri

Rəhbərin dediklərini təkrar qeyd edib, şərh etdikdən sonra vurğulayır: "biz də torpaq uğrunda müharibə etdik, indi Azərbaycanın haqlı olduğunu deyirik.

Ermənistan "öz müqəddəratını təyin etmə" prinsipini yenidən təkrar edir, "amma beynəlxalq hüquqda bu [prinsip] ərazi bütövlüyündən sonra gəlir. Azərbaycan ərazi və suverenliyi çərçivəsində "Azərbaycan millətinin bir hissəsi olan Qarabağ ermənilərinin hüquqlarını təmin etsin".

6 noyabr

"isna"

Əmir Heydəri: "Ölkə sərhədlərini heç bir təhlükə təhdid etmir [SQ Quru qoşunlarının komandanı general Kəyumərs Heydəri].

"Heç bir xarici dövlətə beynəlxalq qanun və qaydalardan kənar hərəkət etməyə icazə verməyəcəyik".

Azərbaycan – Ermənistan müharibəsi ilə bağlı narahatlığa dair: "Biz sakitlik və iki ölkə arasında problem və mövzunun danışıqlar və müzakirə yolu ilə həll edilməsini vurğulayırıq".

[Ərazilərin çox hissəsi azad edilib, Ermənistan ordusunun beli sındırılıb, bu, hələ də danışıqlardan bəhs edir].

Regionda geopolitik dəyişikliklər haqqında:

İran bölgədə daha çox ordu yerləşdirir və onu daim gücləndirir. "Əlhəmdülillah ölkənin şimal-qərb sərhədləri üçün heç bir təhlükə yoxdur... Region ölkələrinin ərazi bütövlüyünə ehtiram göstərilməsini vurğulayaraq... Biz hər iki qonşu ölkə ilə bir çox ortaq cəhətlərə malikik, hər iki ölkəyə tövsiyəmiz beynəlxalq qanunlara hörmət etmək, beynəlxalq sərhədləri qorumaq, problemləri danışıqlar və müzakirə yolu ilə həll etməkdir".

9 noyabr

"irna"

İranın Bakıda səfiri: "Eşğalgəri və təcziyetələbi xətte qermeze İran əst" (İşğalçılıq və separatizm İranın qırmızı xəttidir).

Bakıda Şəhidlər Xiyabanında mərasimdə iştirak və ölkədə milli bayraqlara ehtiram göstərməklə... və şəhidlərin məzarları üstünə gül qoymaqla onların xatirəsini əziz tutdu. İİR ən yüksək

səviyyələrdə həm bəyanatla, həm də əməllə Azərbaycan hökuməti və millətinin yanında dayandı və özünün belə dəstəklərini davam etdirəcək.. “Ümid edirəm ki, bütün işğal edilmiş ərazilərin azad edilməsi ilə vahid və birləşmiş böyük Azərbaycanın şahidi olacağıq və hər iki ölkə, İran və Azərbaycan sülh və dostluqla əməkdaşlığın zirvəsində bir-birinin yanında olacaq”. “Rəhbərin dediyi kimi, bütün işğal olunmuş ərazilər Azərbaycana qaytarılmalıdır. Yaxşı olardı ki, sülh yolu ilə qaytarıla idi. 200 məntəqə azad edilib”.

“tasnim”

Şimal dairəsinin HHM qüvvələrinin komandanı sərtibe do Əli Əkbər Abbası Təcəddüd:.. “Düşmənlərə icazə vermərik”, [kimdir düşmən]... “Düşmənlər bilsin” İran İslam Respublikasının müqəddəs S İ S T E M İ N Ə qarşı ən KİÇİK hərəkət belə qəbul edilməzdir.. Bu zəmində **təcavüzkarlara** yerlərini tanıdacayıq. İcazə vermərik ki, düşmənlər ölkəmizə təcavüz etməyi özlərinə icazə versinlər”.

[Təhdid... icazə vermərik, düşmən, təcavüzkar və s. İndiyə kimi İran ərazisinə onlarla raket düşüb, amma belə qorxu içində deyildilər. İndi guya kiminsə onların İSLAM SİSTEMİNƏ qarşı və ölkələrinə təcavüz etmək planları var. Bunlar çox qəribə və ilk baxışda gülməli iddialardır. Haradan qaynaqlanır və əslində kimə qarşı yönəlmişdir. Əlbəttə CƏNUBİ AZƏRBAYCAN milli hərəkatına].

“anaj”

“Xorsəndiye qoumgərayan əz eşğale CƏDİD, bazigəre mohemme məntəqe.. moxalefe koridor sazihaye şum” (Etnosentristlərin yeni işğala sevinmələri, regionun vacib aktorları uğursuz dəhliz yaratmağa qarşıdır) “Middle East”-ın yazısının icmalı.

Naxçıvan-Azərbaycan dəhlizi açılanda Ermənstan-İran sərhədi aradan gedir, İran guya bu cür dəyişikliyə etiraz edir.

Etnosentristlərə lazımdır ki, Türkiyə Xəzərə çıxsın və İran təcrid olunsun.

10 noyabr

“tasnim”

...Bakı və İrəvan razılaşmasının qeyri-müəyyənlikləri. İranın regionun geosiyasi vəziyyətinin dəyişdirilməsi haqqında mövqeyinə ehtiramın vacibliyi

Yazıda qeyd edilir ki, İran özünün şimal sərhədlərinin təhlükəsizliyinə xüsusi əhəmiyyət verir və digər aktorlar bunu nəzərə almalıdırlar.

Rusiya Federasiyasının prezidenti V.Putinin ABŞ və Avropanın, əsasən Fransanın, Vətən müharibəsi hadisələrində iştirak etməsinə icazə vermədiyi vurğulanır.

Sual; “İran-Ermənistan sərhədi neçə kilometr olacaq, Bakı bu sərhəddə ciddi geosiyasi dəyişikliklər etmək istəyirmi? İranın Ermənistanla cəmi 35 km. sərhədi var. İndi sərhəd məntəqəsində nəzarət necə olacaq? Azərbaycan İranla danışıqlarında onun razılığına nail olacaq, yoxsa bunu nəzərə almadan yeni dəyişikliklər olacaq?”

İranı “narahat edən səbəb sərhəddə yeni dəyişikliklərin baş verməsi və xarici radikal ünsürlərin ayağının regiona açılmasıdır. Azərbaycan bu ərazilərin sahibi kimi İranın narahatlığını qısa müddətə aradan qaldıracaq və ya qəflət və çatışmazlıqlar üzündən bəzi yeni macəra axtaranlar üçün yol açılacaq?”

Naxçıvan-Azərbaycan yolunu Ermənistanda ruslar qoruyacaq. Marşrut necə olacaq? Naxçıvanı Azərbaycana birləşdirən dəhliz İranın quru ticarəti və gömrük əməkdaşlığı ilə ziddiyyət yaratmayacaq?

İ.Əliyev: “Azad olunan regionun təhlükəsizliyini Azərbaycan və Türkiyə təmin edəcək”.

Sayt: “Deməli, regiona Türkiyə qüvvələri gələcək, Rusiyanın bundan xəbəri varmı”.

“Suriyadan müharibə regionuna aparılan radikal SƏLƏFİLƏR orda qalacaqlarmı?”

Yazının sonunda vurğulanır ki, güclü İranı nəzərə almamaq olmaz. “O, yeni geosiyasi dəyişikliyi qəbul etmir, ekstremist və xarici qüvvələrin sərhəd bölgəsində olmasına qarşıdır”.

Nəzərdən keçirilən məsələ haqqında ümumi şəkildə aşağıdakıları demək olar.

Ardıcıl olaraq 4 mərkəzi sayt və 1 yerli (Təbriz) sayt, eyni zamanda bir neçə yerli sayt epizodik olaraq nəzərdən keçirilmişdir.

Dörd mərkəzi saytda cəmi 28 (“irna”-11,”tasnim”-12,”farsnews”-2,”isna”-3) bir yerli saytda (=anaj=) 13 material yerləşdirilmişdir.

Yuxarıda həmin saytlarda getmiş bəyanat, şərh, analiz\təhlil, müsahibə və s. məzmunlu material və yazıların xronoloji ardıcıllıqla mətni, mətndən vacib hesab edilən çıxarışlar və qısa icmallar verilmişdir.

Aşağıda həmin saytlarda getmiş materialların ümumi xüsusiyyətlərinin müəyyən edilməsinə səy göstərilmişdir.

## 2.1 İran saytlarında getmiş şərh, müsahibə və analitik yazıların qısa xülasəsi

### 2.1.1 İİR Xəbər agentliyinin saytı (“irna” ), cəmi 11 yazı

Həmin saytda dərc olunmuş şərh, müsahibə, analitik və b. yazıların nəzərdən keçirilməsi göstərir ki, İranda bəzi istisnalar nəzərə alınmazsa, müxtəlif səviyyəli ekspertlər haqqında danışılan münaqişənin mahiyyətini-Ermənistanın Azərbaycanın ərazisinin 20%-ni işğal etməsini qəsdən təhrif edərək onu Azərbaycanla Qarabağ (bəzən də Dağlıq Qarabağ qeyd edilir) arasında münaqişə kimi təqdim edir, bilərəkdən və ya savadsızlıq səbəbindən sadə tarixi və faktiki səhvlərə yol verirlər. Ən qərəzli cəhət bəzi analitiklərin Qarabağı ayrıca coğrafi ərazi, ölkə, hətta siyasi vahid

(qondarma Artsax respublikası timsalında) kimi təqdim edərək onun üç ölkə-İran, Azərbaycan, Ermənistan arasında yerləşdiyi və hətta İranla həmsərhəd olduğunu vurğulayırlar. Ona görə münaqişənin həllindən danışarkən Azərbaycanın ərazi bütövlüyü prinsipini unudaraq, münaqişənin davam etməsini nəzərdə tutan son dərəcə qərəzli təkliflər irəli sürürlər. İstər analitiklərin yanaşmalarında, istərsə də rəsmi mövqedə, ermənilərin öz müqəddəratını təyin etmək hüququ, azlıqların hüquqlarından danışırlar.

Polietnik tərkibə malik olan və öz etnik azlıqlarının, demək olar ki, heç bir hüququnu rəsmən tanımayan İranın milli azlıqların siyasi və digər hüquqlarından danışması son dərəcə təəccüblü görünür və ikili standartlardan çıxış etdiyi təsəvvürü yaradır.

### 2.1.2.Tasnim saytı – cəmi 12 yazı

Tasnim saytında 44 günlük Vətən müharibəsinin gedişi zamanı 12 adda şərh, analitik yazı və müsahibə yayımlanmışdır. Lakin "irna" saytından fərqli olaraq "tasnim" saytının müraciət etdiyi ekspertlər məsələyə bəzi ifadələr istisna olmaqla, bütövlükdə obyektiv yanaşmağa və izləyicilərdə nisbətən doğru və geniş təsəvvür yaratmağa nail olublar. Məhz "tasnim"də getmiş yazılardan birində Azərbaycanın müharibə taktikasından ("AYPARA"), hərbi-texniki üstünlüyündən və müharibədən sonra Azərbaycanın daha çox bərpa və quruculuq işləri ilə məşğul olacağından danışılmışdır. Saytda yerləşdirilmiş bu səpkili yazılarda İranın keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətinin əsl mahiyyəti (İran üçün prioritet olmaması və İrana dəxli olmaması), həmçinin müharibənin sonuna doğru yeni yaranmaqda olan geosiyasi vəziyyəti düzgün dəyərləndirə bilməməsi, hansısa xarici qüvvələrin və uydurma planların İranın milli maraqlarını guya təhdid etməsindən yaranan qorxusu və həmin səbəbdən regionda geosiyasi dəyişikliyi qəbul etməməsi fikirləri öz əksini tapmışdır.

İranın 44 Günlük Vətən müharibəsinin ikinci yarısından özünün şimal-qərb sərhədlərinin möhkəmləndirilməsi ilə məşğul olması və bunu guya İranın nəinki ərazi bütövlüyü, hətta siyasi sistemin varlığına təhlükə meydana gəlməsi haqqında apardığı geniş təbliğatın arxasında duran həqiqi məqsədin ayrıca araşdırma mövzusu ola bilər.

### 2.1.3 farsnews saytı-cəmi 2 yazı

Vətən müharibəsinin gedişində "farsnews" saytında mövzu ilə bağlı analitik yazıya rast gəlinməmişdir.

Əsas yazı İranın Xorvatiyada səfiri ilə müsahibədən ibarətdir. İran səfiri öz müsahibəsində iki mühüm cəhəti qeyd etmişdir. Birincisi, İranın mövqeyi haqqında müxtəlif rəsmi, dini şəxsiyyətlərin dediklərinin hökumətin mövqeyini əks etdirməməsi, ikincisi, İranda bütün səviyyələrdə təkrar-təkrar vurğulanan bölgədə terroristlərin mövcudluğu haqqında dəqiq məlumatın olmaması.

### 2.1.4. "isna" saytı– cəmi 3 yazı

Saytda cəmi bir analitik yazı yer almışdır. Yazının müəllifi Azərbaycan və Türkiyənin Vətən müharibəsində məqsədlərini müəyyən etməyə çalışır. Lakin hadisələrin gedişinin ehtimali variantlarından biri haqqında mülahizələr yürüdür. Vətən müharibəsinin qələbə ilə başa çatması proqnozun doğru olmadığını nümayş etdirdi.

### 2.1.5."anaj" saytı- cəmi 13 yazı

44 günlük Vətən müharibəsinin gedişi ilə bağlı ən çox şərh, müsahibə, analitik yazı qısa müddət (cəmi 24 gün) fəaliyyət göstərmiş "anaj" saytında yer almışdır. Nəzərə alınmalıdır ki, sayt bir çox yazıları digər, mərkəzi saytlardan götürür. Yazıda məsələnin

həmin cəhəti dəqiqləşdirməsə də, onu deməyə imkan verir ki, həmin saytda da bütövlükdə İranda hakim olan baxış və yanaşmalar öz əksini tapmışdır. Yazıda nəzərdən keçirilən bir sra materiallar haqqında həmin vaxt münasibət bildirildiyindən onu əlavə etmək olar ki, saytda müxtəlif səviyyəli yazılar yer almış və saytın mövqeyi yalnız sayt redaksiyası nəzdində olan analitk qruplar tərəfindən hazırlanmış yazılarda öz əksini tapmışdır. Bütövlükdə demək olar ki, saytda Azərbaycan Respublikasına hakim mühafizəkar dairələrin mövqeyinə uyğun olan mövqe öz əksini tapmışdır. Həmin yanaşma Azərbaycan-İsrail, Azərbaycan-Türkiyə münasibətləri və Azərbaycan hakimiyyətinə qarşı təbliğat, Azərbaycanın müsəlman, bəzi hallarda şiə əhalisinə dəstək və Azərbaycanın qələbələrindən yaranan narahatlıq geniş əks olunmuşdur. Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, Azərbaycanın (konkret olaraq Şərqi Azərbaycan) əyalət səviyyəsində rəsmilərinin Cənubi Azərbaycanın maraqlarını, etimad etdikləri rəsmi şəxsləri müdafiə etməyə cəhd etdiyini görmək olar.

### 2.1.6 Əlavə

**a. “tabrizebidar” saytı-1 yazı**

Saytda yerləşdirilmiş materialda əsasən birgə bəyanatla çıxış etmiş Cənubi Azərbaycan cümə imamlarına qarşı panfarsist dairələrin hücumları pislənir və cümə imamları müdafiə olunur.

**b. “tabrizeman” saytı-2 yazı**

Saytda yerləşdirilimiş materiallar əsasən Cənubi Azərbaycan cümə imamlarının müdafiəsinə və İranın xarici siyasətinin dövlətin dünyada təcrid olunmasına xidmət etməsi kimi yarıtmaz cəhətlərinə həsr olunmuşdur.

Bu bölməyə yekun vuraraq demək olar ki, müxtəlif siyasi qüvvələri təmsil edən agentliklər və onların saytlarında Qarabağ münaqişəsinə, Vətən müharibəsinin gedişinə münasibət öz rəngarəngliyi ilə fərqlənirdi. Burada az sayda obyektiv yazılarla yanaşı ya savadsızlıq, ya da qərəzlilik səbəbindən obyektivlikdən çox

uzaq yazılar daha çox yer tutur. Bütün hallarda yazıların bir ortaq cəhəti Azərbaycanda dini təbliğatı genişləndirməyə, Azərbaycan-İsrail, Azərbaycan-Türkiyə münasibətlərinə xələl gətirmək, İranın ədalətsiz mövqeyini müdafiə etmək və əsaslandırmağa çalışmaq kimi qeyd edilə bilər. İran hakimiyyətinin Azərbaycanın Vətən müharibəsində uğur və qələbələrini özləri üçün təhdid və təhlükə hesab etməsi analitik yazılarda və ondan da daha geniş şəkildə İslam İnqilabı Keşikçiləri Korpusunun və Silahlı Qüvvələrin müxtəlif səviyyəli komandirlərinin bəyanatlarında və sərhəd bölgəsinə qoşun toplamasında öz əksini tapırdı.

## 3. KEÇMİŞ ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİINİN MAHİYYƏTİ İLƏ BAĞLI FİKİRLƏR

28 sentyabr

“anaj”

Mənsur Həqiqətpur”Qomare bozorge Əliyef ki, mitəvanəd dəste azəri ra gət konəd”(Torkiye nəbayəd mohndese əməle zeşt başəd).

Azərbaycanlı sepah generalı, antitürk (cənubi azərbaycanlı), Birinci Qarabağ müharibəsində müşavir sifəti ilə iştirak etmiş, parlamentin keçmiş deputatı M.Həqiqətpur məsələnin mahiyyəti barədə qısa fikir söyləmişdir. O deyirdi: “Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, kənar qüvvələr işğalda əsas rol oynayıblar. Əsas xain Azərbaycan Xalq Cəbhəsidir. Qarabağı verib hakimiyyətə gəldilər”.

30 sentyabr

“tasnim”

İranın Qarabağ münaqişəsində tutduğu rolla bağlı yazıda (Comhuriye Eslamiye İran dər kocaye monağeşeye Qarabağ istade əst?) hadisənin mahiyyətindən danışarkən yenə də zahirən elementar səhv edilir. Yazıda deyilir:

Qarabağ tarixən azəri yaşayan bölgə olsa da, "Sovet dövrü "QARABAĞ (?)" *Ermənistanın hakimiyyəti altında* idi". SSRİ dağılandan sonra azərilər: "tarixə əsasən Qarabağ gərək Azərbaycanın hakimiyyəti altında olsun" deyirdilər.

Ermənilər etnik tərkibdə dəyişikliyi nəzərə alıb onu Ermənistan hakimiyyəti altında və ya muxtar hesab edirlər".

"anaj"

Təbrizdən olan deputaların bir qismi kütləvi informasiya vasitələrinə müsahibələr və bəyanatlar verərək Qarabağın Azərbaycan, İslam ərazisi və işğal olunduğunu vurğulayıblar.

1 oktyabr

"anaj"

Bazxaniye məvazeeye rəhbər enqelab dər bareye Qarabağ... (İnqilab Rəhbərinin Qarabağ haqqında mövqeyinin bir daha gözdən keçirilməsi).

Rəhbərin Qarabağ məsələsinə baxışına bir daha nəzər salınaraq məsələnin mahiyyəti ilə bağlı bir neçə vacib fikir qeyd olunur. Belə ki Rəhbər həmişə Qarabağı İslam və Azərbaycan ərazisi hesab edib, hətta 1994-cü ildə Ermənistanı təcavüzkar adlandırıb.

Rəhbərin Cənubi Azərbaycan ostanlarında (Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil, Zəncan) nümayəndələri ostan mərkəzlərinin cümə imamlarının Qarabağ münaqişəsi ilə bağlı qəbul etdikləri birgə bəyanatda "Qarabağın işğal olunması və Azərbaycana məxsus olmasına heç bir şübhə yoxdur".. deyilir.

[Maraqlıdır ki, imam cümələr Qarabağı İslam torpağı deyil, Azərbaycan torpağı oduğunu vurğulamışlar. Başqa sözlə, Qarabağ böhranı həmin ərazinin işğal olunması nəticəsində yaranıb].

Cənubi Azərbaycandan olan deputatlar cəmiyyəti Qarabağ döyüşləri ilə bağlı Birgə Bəyanat (Bəyaniyyeye məcməe nəmayəndeqane Şemale Qərb *dər bareye dərgirihaye* Qarabağ) qəbul etmişlər. Bəyanat belə başlanır: "Bütün elmi, tarixi sənədlər Qarabağın ***İSLAM ÖLKƏSİ*** olduğunu təsdiqləyir".

6 oktyabr

"Azariha"

Azərbaycanlı şair və yazıçılar yaydıqları Bəyanatda saytın hədəfinə uyğun fikir səsləndiriblər: “Qarabağ İranın Qafqaz əyalətlərindən biridir”. Türkmənçay sülh müqaviləsi ilə İrandan ayrıldı. Şairləri fars və azəri dilində yazıblar”.

Qarabağı nə İslam, nə Azərbaycan, birbaşa İran torpağı adlandırırlar.

11 oktyabr

“irna”

Həmin tarixdə Türkiyə ilə bağlı yazıda İranın “Qarabağı işğal olunmuş hesab etməsi” qeyd edilir. Həmin gün keçirilmiş dəyirmi masada çıxış edən Türkiyə və Azərbaycan üzrə ekspertlər böhranın 100 illik tarixi olduğu (Türkiyə üzrə) böhranın *Stalin zamanı* süni sərhədlərin çəkilməsi ilə yarandığını (Azərbaycan üzrə) iddia ediblər.

Azərbaycan üzrə ekspert ermənilərin təcavüzünə haqq qazandırmaq üçün hər iki tərəfi haqlı sayaraq yazır: “Azərbaycan Respublikası bu münaqişədə ərazi bütövlüyünün qorunması prinsipinə arxalanaraq Ermənistanın işğalına son qoyulmasını tələb edib, digər tərəfdən erməni tərəfi “öz müqəddəratını təyin etmə” prinsipinə istinad edərək ermənilərin hüquqlarının tanınmasını tələb etmişdir.

Müzakirə zamanı Madrid prinsiplərindən və müharibənin gedişinə toxunaraq nədənsə Türkiyə və İsrailin müdaxiləsindən danışılır.

14 oktyabr

“irna”

--İran və Rusiyanın atəşkəs bərqərar olması prosesində mövqeləri nədir? adlı məqalədə [İranın nüfuzlu alimlərindən sayılan] müəllif doktor Məhəmməd Əli Bəsiri yazır: “Qarabağ ərazisi Azərbaycanındır, amma bu bölgədə yaşayan sakinlərin əksəriyyəti (? - V.M.) ermənidir”.

“irna”

... Ekspert doktor Nuzər Şəfii və Əliəsgər Nuzər ilə söhbət, “Dərshayi əz bohrane Qarabağ bəraye məntəqe” (Qarabağ böhranının region üçün dərsləri)

Alim ekspertlər tarixi təhrif etməkdən çəkinməyərəq “SSRİ DAĞILANDAN sonra Azərbaycan və Ermənistan respublikalarının TƏŞKİLİ”ndən danışırlar.

Ekspertlərdən biri, Şəfii hadisəni tamamilə təhrif edərək deyir: “Hələ ki tərəflərin tələbləri  aydın deyil. [özünü kor yerinə qoyub, Azərbaycan ərazi bütövlüyünü bərpa edir. Bu da deyir ki, istək aydın deyil].

Digər ekspert münaqişənin həllinin çətinlyindən danışaraq öz təklifini irəli sürür.

Zərgər: “Qarabağı İKİSİNDƏN birinə birləşdirmək  problemlə üzləşib”.

Həll yolları göstərirlər:

1.Muxtariyyat

2.Azərilər yaşayan ərazilər Azərbaycana, ermənilər yaşayan yerlər Ermənistana, aralarında da bufer zona yaradılsın. [ İranı qane edən variant bu  imiş]

Digər ekspert ya savadsızlığını nümayiş etdirir ya da Ermənistanı təhrik etmək istəyərək həll yolu göstərir: “Ermənistanın DAXİLİNDƏ Naxçıvan Muxtar Respublikası var. Xüsusi səlahiyyətlərə malikdir. Azərbaycanın da tərkibində Qarabağ Muxtar Respublikası olsun”.

O, bir qədər də irəli gedərək Qarabağı “müstəqil” siyasi-ərazi vahidi kimi qələmə verir: “Qarabağ Azərbaycan, Ermənistan və İran ARASINDA strateji məntəqədir. İran HƏR ÜÇÜ ilə həmsərhəddir [Belə ekspertlər olanda, İrandan başqa bir şey gözləmək olmaz. İrana sərf edirdi ki, Qarabağ məsələsi həll edilməsin və İranın sərhədində əvvəlki vəziyyət qalsın].

23 oktyabr

‘anaj”

“İran biştərin səlahiyyət ra bəraye koneşgəri dər monağeşeye Qarabağ darəd” (İran Qarabağ münaqişəsində fəallıq göstərmək üçün ən böyük səlahiyyətə malikdir...)

Geosiyasi ekspert Hüseyn Seyfəddini [İranda və Cənubi Azərbaycanda Azərbaycan Respublikası hakimiyyətinin və cənubi azərbaycanlıların milli kimliyi və etno-milli maraqlarının qatı düşməni kimi tanınan müəllif] məsələnin mahiyyətindən danışaraq hər şeyi baş-ayaq və düşmənçilk mövqeyindən dəyərləndirərək yazır:

Dağlıq Qarabağ (DQ) öz *müqəddəratını* təyin etmək hüququndan istifadə edərək *SSRİ-dən* çıxdı. Müstəqillik elan etdi. DQ Azərbaycanın tərkibində olmaqdan razı deyildi. Onlar müstəqillik elan edəndə Azərbaycan *ÖZ QOŞUNLARINI* göndərdi. Müharibə oldu və Azərbaycan daha artıq ərazi itirdi [Ermənistanın adı çəkilmir].

1 noyabr

“tasnim”

Qafqaz üzrə ekspertlə Qarabağ münaqişəsinin təhlili-ənənəvi xarici siyasət dövrü başa çatıbdır.

Redaksiya öz əlavəsində yenə hadisələri təhrif edir.

Redaksiya: “Azərbaycan 1990-1994-cü illərdə BAŞLADIĞI müharibədə əraziləri geri qaytara bilmədi”.

3 noyabr

“anaj”

Rəhbərin çıxışının icmalı: “Azərbaycanın bütün torpaqları azad edilməlidir, axırıncı müharibə region üçün təhlükədir” adı altında verilmişdir

Rəhbər Məhəmməd peyğəmbərin və imam Səccadın doğum günü münasibəti ilə çıxışında Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunduğunu bir daha təkrar edərək demişdir: “Azərbaycanın Ermənistan tərəfindən zəbt edilmiş bütün torpaqları azad edilməli  və Azərbaycana qaytarılmalıdır”.

4 noyabr

“tasnim”

“Dağe Qarabağ” İranı zəif fəaliyyət göstərməkdə ittiham edənlərə cavab

Qarabağ  “macərası Kəşmirdən daha mürəkkəbdir”

Sənədli filmin rejissoru yəqin ki, İranı nəzərdə tutaraq suala cavab verərkən deyir:

Cavab: “Bəli. Qarabağ münaqişəsi haqqında vahid təsəvvür yoxdur, eyni zamanda ona çox həssas yanaşılır. Bu sənədli filmin layihəsini bir çox mərkəzə apardıq, dəfələrlə eşitdik ki “Bu iş bizim üçün prioritet deyil”. Həmçinin dəfələrlə deyiblər: “Bizim iki qonşu ölkə döyüşürlər, bizə nə dəxli var”.

[Əlbəttə, İran üçün münaqişə və onun davam etməsi çox vacib idi, rəsmilər öz əsl mövqelərini gizlətmək üçün yuxarıdakı cavablarla kifayətlənirdilər].

Sual: “Münaqişənin mahiyyəti nədir”?

Hüseynpur: “Öyrəndik ki, pərdəarxası oyunçunun İranla ziddiyyəti vardı, istəmirdi sülh bağlansın”.

Mehr Yəzdan – BMT: Qarabağ Azərbaycanındır. Amma Azərbaycan çox təhlükəli siyasət yeridirdi. Məsələn, “İsraillə açıq əlaqələr..”

[Film haqqında geniş yazının nəzərdən keçirilməsi göstərir ki, film İranın ümumi və o cümlədən xarici siyasəti çərçivəsində hazırlanıb və cənubi azərbaycanlı tamaşaçılar arasında Azərbaycan Respublikası hakimiyyətinə mənfi münasibət yaradılması məqsədinə xidmət edir. Filmin yaradıcılarının sərgilədikləri mövqe İran ictimai fikrində Qarabağ münaqişəsi ilə bağlı oturuşmuş təsəvvür-İranın ziddiyyətli yanaşması, guya münaqişəni onun həll etməsinə kiminsə mane olması, Azərbaycan-İsrail münasibətlərinə mənfi baxış və əslində münaqişənin hazırki, yəni müharibədən əvvəlki vəziyyətinin İranı qane etməsi və s. haqqında ətraflı məlumat əldə etmək olur].

Göründüyü kimi, keçmiş Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətindən danışan “alim” ekspertlər ya məlumatsızlıqlarını nümayiş etdirir, ya da qəsdən tarixi reallığı təhrif edirlər.

Eyni zamanda münaqişənin mahiyyəti haqqında dini və siyasi rəsmilər xüsusən Cənubi Azərbaycandan olanlar, alim ekspertlərin əksəriyyətinə nisbətən Ermənistanın işğal faktını vurğulamaqla daha obyektiv mövqe nümayiş etdirirlər.

## 4. VƏTƏN MÜHARİBƏSİNİN GEDİŞİ İLƏ BAĞLI FİKİRLƏR

1 oktyabr

“anaj”

İmam cümələrin bəyanatında: “Azərbaycan hökuməti bu ərazini geri almaqda tamamilə qanuni və şəri hərəkət edib və bu addımı ilə BMT TŞ 4 Qətnaməsinin icrasını təmin etmək istəyir”. “Biz son qələbələri bayram edərək böyük Allahdan böyük Azərbaycan millətinin şəhidlərinə ali dərəcə xahiş edirik”.

3 oktyabr

“tasnim”

“Həme çiz dər bareye cənge Qarabağ, Comhuriye Azərbaycan və Ermənestan çe mixahənd?” (Qarabağ münaqişəsi ilə bağlı hər şey, Azərbaycan və Ermənistan nə istəyirlər?)

Qafqaz və Mərkəzi Asiya məsələləri üzrə ekspert doktor Məsud Sədir Məhəmmədi ilə instaqram şəklində müsahibə:

Bu müharibə sülhə nail olmaq üçün başlanıb, çünki qarşı tərəf 30 ildə göstərdi ki,heç bir müzakirə və konstruktiv addıma hazır deyil.

İndi kimin başlamasından asılı olmayaraq, Bakı bu təzyiqi ilə qarşı tərəfə BMT TŞ Qətnamələrini qəbul etdirməyə çalışır.

Ermənistan yaşayış yerlərini bombalayır ki, Bakını ona cavaba təhrik etsin ki, miqyas genişlənsin, istəyirdi ki, müharibə ilə vəziyyətdən çıxsın, amma yəqin ki, ÖZÜ KƏNARLAŞDIRILACAQ

Azərbaycan 5 rayonu tutsa, danışıqların başlaması ehtimalı yüksəkdir. Bu müharibə Amerika, Rusiya, Türkiyə, İran, Avropanın təkliflərinin dalana dirənməsinin nəticəsidir

[Qeyd etmək lazımdır ki, iranlı müəlliflər arasında hadisələri ən obyektiv dəyərləndirən yuxarıda adı gedən, Qafqaz və Mərkəzi Asiya məsələləri üzrə ekspert doktor Məsud Sədir Məhəmmədidir. Onunla müsahibənin “tasnim” saytında verilməsi müəyyən

sualar doğura bilər.Çünki müsahibə verənin baxışları saytın mövqeyinə uyğun gəlmir.Güman etmək olar ki, saytin redaksiya heyətində müxtəlif siyasi qüvvələri təmsil edən qruplar var.

4 oktyabr

“irna”

“İran və bohrane Qarabağ, estemrar dər miyanerəvi və solh tələbi” (İran Qarabağ böhranında mötədillik və sülhpərvərlik siyasətini davam etdirir)

“Azərbaycan Dağlıq Qarabağı qaytarmaq əzmindədir, 7 rayonu yox”

6 oktyabr

“anaj”

**“Cənge Qarabağ buye siyasətbazi midəhəd” (Qarabağ müharibəsi siyasətbazlıq qoxusu verir”).**

Xülasə: Qarabağ münaqişəsi bitəcək,amma bölgə hər an partlaya bilən barıt anbarına çevriləcək

Həmid Şirazi: “Qəti şəkildə demək olur ki, Azərbaycan hökumətinin nə Qarabağı azad etmək motivi var...”

[“anaj” saytı bir tərəfdən Azərbaycan imam cümələri və deputatlarının mövqeyini əks etdirərkən Azərbaycanın ədalətli müharibə apardığı və Azərbaycana dəstək mövqeyini əks etdirməli olur, digər tərəfdən isə öz ekspertlərinin adından Azərbaycanın apardığı ədalətli və qalibiyyətli müharibədən danışmaqla deyil, Azərbaycana və onun hakimiyyətinə qarşı mənfi rəy yaratmaqla məşğul olur]

10 oktyabr

“tabrizeman”

**Xürrəmşəhr müzakirə, yoxsa Beytül Qüds əməliyyarı ilə fəth olundu”.**

Ərazini azad etmək müharibədən keçir, danışıqlardan yox

11 oktyabr

“irna”

“Xətahaye rahbordi ke əz adabe həmsayegi fasele darəd” (Qonşuluq qaydalarından uzaq olan strateji səhvlər)

Azərbaycan üzrə ekspert: Bəziləri: “Bu, proksi müharibədir”. [Yəni Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün deyil, başqalarının məqsədinə xidmət edən müharibə edir.]

14 oktyabr

“irna”

Rusiya və İran Qarabağda atəşkəs bərqərar olması prosesinin harasında yer alıb

Doktor Məhəmməd Əli Bəsəri:

“Azərbaycan məsələni danışıqlar masasına gətirməyə müvəffəq oldu, Ermənistanı danışıqlara məcbur etdi”.

[Müharibənin gedişində Azərbaycanın məqsədini düzgün dəyərləndirmək ya çətin idi ya da İranın mövqeyinə uyğun dəyərləndirmə edilirdi.]

1 noyabr

“tasnim”

Qafqaz üzrə ekspertlə Qarabağ münaqişəsinin təhlili

Xülasə: “Hələlik 2 min kv.km Azərbaycanın əlinə keçib. Başlayanı kim olduğu BİLİNMƏYƏN bu böhran”

Redaksiya: “Azərbaycan 1990-1994-cü illərdə BAŞLADIĞI müharibədə əraziləri geri qaytara bilmədi, amma indi artıq 190 KƏNDİ ...

Əli Səadət, Türkiyə və Qafqaz üzrə ekspert: “Şuşa mühasirədə, ənənəvi türk müharibə modeli olan AYPARA hücumu edilir. Ona görə gözləyiblər ki, mülki əhali çıxsın. Bu həftə Laçın bağlanacaq. Bakı hər dəfə atəşkəsə müsbət cavab verir. Lakin üstünlüyə və inkişaf etmiş silaha malik olan və keçən bir ayda görünməmiş irəliləyiş edən ölkə atəşkəsi pozacaq. Ermənistan mülki obyektləri bombalayaraq Azərbaycanı atəşkəsə məcbur etmək istəyir. Digər tərəfdən türklərin ANA TORPAĞI olan Türkiyə mənəvi dəstək göstərir.

PKK Qarabağda iştirak edir.

[Göründüyü kimi, ekspert hərbi əməliyyatların strategiya və taktikasını, tarixini bildiyindən Azərbaycanın müharibəni sırf

ənənəvi türk taktikası əsasında apardığını və hərbi uğurlarını yüksək qiymətləndirir və heyrətini gizlətmir. Həmin yazı hərbi əməliyyatların gedişini əks etdirən, demək olar ki, yeganə yazı hesab edilə bilər.]

"isna"

Qeyd, "Hədəfe vağeiye Comhuriye Azəraycan və Torkiye dər Qarabağ çist"? (Azərbaycan və Türkiyənin Qarabağda həqiqi məqsədi nədir?)

Əsas fikir: Azərbaycan hərbi əməliyyatların gedişində Rusiyanın ehtimalı reaksiyası və erməni diasporunun hərəkətini nəzərə alır. Deməli, məqsəd bir neçə strateji məntəqəni azad etməkdir.

[Göründüyü kimi, müəllif Azərbaycan prezidentinin uzaqgörən siyasətini düzgün dəyərləndirmədiyindən, guya həmin siyasətə hansısa diasporun təsir göstərməsindən danışır və artıq böyük bir ərazinin işğaldan azad edildiyini unudur. Ona görə bir neçə strateji məntəqədən danışır. Əgər Azərbaycan ordusunun mütləq üstünlüyünü görsə idi və ya daha obyektiv yanaşma sərgiləyən iranlı müəlliflərin yazıları ilə tanış olsa idi, naqis fikirlər irəli sürməzdi.]

Bütövlükdə onu demək olar ki, İran saytları Azərbaycanın rəşadətli ordusunun müzəffər Ali Baş Komandanın rəhbərliyi və bütün xalqın birliyi və möhtəşəm dəstəyi ilə apardığı qalibiyyətli müharibənin gedişi, uğurlu hərbi əməliyyatları, hərbçilərin yüksək hazırlığı, mənəvi-psixoloji eləcə də hərbi-texniki üstünlüyü və erməni tərəfinin bütün sahələrdə məğlubiyyətindən danışmamışlar. Bunula belə yuxarıda ayrı-ayrı yazılara münasibət bildirdikdə saytlarda obyektiv istisnalara da rast gəlinirdi. Hərçənd ümumi xətt Azərbaycanın hərbi uğurları haqqında susmaqdan ibarət idi. Bu da İran İslam Respublikasının Azərbaycana qarşı yeritdiyi düşmənçilik siyasətindən və müəyyən mənada Cənubi azərbaycanlıların milli kimlik, özünə inam hisslərinin gücləndirilməsindən yaranan ehtiyatdan irəli gəlirdi.

## 5 AZƏRBAYCANA QARŞI TƏXRİBAT; İSRAİL VƏ XÜSUSƏN TERRORİST MÖVZUSUNUN İSRARLA TƏKRAR EDİLMƏSİ

27 sentyabr

"anaj"

"Qarabağe məzlum və ağaze mocəddede dərgiri"... (Məzlum Qarabağ və silahlı münaqişənin yenidən başlanması)....

Azərbaycanda  Suriya hərbçiləri və təkfirilərin olduğunu deyirlər

Türkiyə: PKK dəstələri Ermənistanda

28 sentyabr

"anaj"

Mənsur Həqiqətpur: "Qarabağı Azərbaycan gəncləri azad etməlidirlər, terrorist muzdurlar yox. Suriyadan islamçılar (təkfir) var"

"İran Türkiyəyə icazə verməməlidir ki, çirkin bir əməlin mühəndisi olsun və təkfirilər məntəqədə coulan etsinlər. İradə olsa idi, təkfirilər gətirilməzdi".

Təbriz İmam cüməsi: "Bizim mövqeyimiz Qarabağ əhalisini dəstələməkdir, tərəflər müharibə əvəzinə dialoqla məşğul olsunlar, sionist rejim müharibə və təhrikedici faktordur".

[Müharibə "sionistlərin təhriki" nin nəticəsidir.]

30 sentyabr

"tasnim"

Ermənistan səfiri yazılı müsahibədə:

"Cəlb olunan terroristlər İranı narahat etməməlimi"?

"anaj'

Təbrizdən deputatlar yekdilliklə  Qarabağın geri alınmasını dəstəkləyir, xarici müdaxilənin mənfi nəticələrindən danışırlar.

Əhməd Əlirza Bigi: "Azərbaycan İsraildən uzaqlaşmalıdır. Biz Qarabağın azadlığını dəstəkləyirik, amma Qarabağ sionistlər üçün bir sığınacaq olmamalıdır".

Əlirza Monadi: "Sionist rejimin oyunları barədə xəbərdarlıq"

1 oktyabr
“anaj”
Rəhbərin Cənubi Azərbaycanda nümayəndələrinin Qarabağ böhranı ilə bağlı bəyanatı, Qarabağın Azərbaycana məxsus olduğuna heç bir şübhə yoxdur,
[Ruhanilər nə İsrail, sionistlərdən, nə də təkfirilərdən danışmadılar. Belə mövqe İran rəsmiləri, ekspertlər və mediası üçün qeyri-adi hal idi. ]
Cənubi Azərbaycan deputatlarının Qarabağ müharibəsi ilə bağlı bəyanatı
“Biz həmçinin trans-regional hərbi və hərbiləşdirilmiş qüvvələrin müdaxiləsini region xalqlarının və onların müvafiq hökumətlərinin maraqlarına uyğun hesab etmirik və hesab edirik ki, bu qüvvələrin daxil olması regionun sabitliyinə zərər verə bilər və bölgədə müharibəni alovlandırar”.
3 oktyabr
“anaj”
Qafqaz məsələləri üzrə ekspert, sosioloq şərh edir.
Seyid Cavad Miri
“Müharibəni Bakı və İrəvanda yox, Tel Əviv və Parisdə planlaşdırıblar”.
4 oktyabr
“anaj”
Mehdi Nəlbəndi
“İndi passivlik vaxtı deyil, indi İsraillə media müharibəsində vuruşmaq lazımdır, hücumlarına Bakı, İstanbul, cənazə mərasimi cavab verməlidir. Regionda “DAİŞ” var? Olsun, onlar məclisə qədər gəldilər.
“Mən əvvəl də demişəm, Bakı Tel-Əviv olmayacaq”.
5 oktyabr
“anaj”
Təbriz Tibb Universitetinin TƏLƏBƏLƏRİ-nin müharibə ilə bağlı bəyanatından:

“Azərbaycan hökuməti sionist rejiminə qucaq açaraq, Qafqaza yolunu açdı, öz xalqını İber, Amerika oynuna qatdı ki, müsəlmanların məsihi əli ilə öldürülməsinin bəhrəsini yəhudi görsün”.

“Təkfir və muzdur qruplarının gətiriməsi... [Türkiyə] imperatorluq xəyalı qurur, uduzan özü olacaq”.

Nə etnosentrizm, nə İranşəhri, Panların inqilab diskursundan əsəbi olmaları

“Məhz Cümə imamları və inqilabi gənclər xəyanət və pərdəarxası oyunları ifşa etdilər. İsrailin müdaxiləsi, Türkiyə, təkfir qrupları yaratmaq” [ planı]

6 oktyabr

“anaj”

Qarabağ müharibəsi siyasətbazlıq qoxusu verir

“Ərdoğan müharibənin əsas təşviq edənidir”.

“Təkfirilərin İran sərhədinə gəlib çıxması İran üçün böyük təhlükədir”..

İsrailin məqsədi İran sərhədinə yaxınlaşmaqdır.

“azariha”

Azərbaycan şair və yazıçılarının Qarabağ münaqişəsi ilə bağlı bəyanatından

“Qarabağ İranın Qafqaz əyalətlərindən biridir. Türkmənçay sülh müqaviləsi ilə İrandan ayrıldı. Şairləri fars və azəri dilində yazıblar. Bu da həmin reallığın dəlili və oranın tarixi və İran kimliyinin əlamətidir”.

Mediada: “təkfirilər İranın qonşuluğunda, İsrail istəyir ki, atəş şöləleri və iğtişaşlar” etnosentrist antivətənpərvər dairələr tərəfindən Təbrizə... də gəlib çatsın. Halbu ki Qarabağ münaqişəsinin əsas səbəblərindən biri də etnosentrizmdir”..

Bəyanat İran ərazisinə raket və mərmilərin düşməsi ilə bağlı verilib.

Tam olmayan siyahıda 98 imza

[Mətndə bir dəfə də Azərbaycan adı çəkilməyib. Azərbaycanda bu qədər MİLLİ KİMLİKSİZ doktor, jurnalist, şair və mə-

dəni fəal varsa, Cənubi VAY Azərbaycan xalqının halına. Telefilmdə deyildiyi kimi, panfarsistlər bir milli-mədəni fəalın qarşısına 5 antimilli fəal çıxarırlar.]

19 oktyabr

“irna”

Avropa mediası və İranın Qarabağ böhranına yanaşması

“Prezident Suriyadan Qarabağa terroristlərin gəlişindən” narahatlıq ifadə edir.

İranı əsasən terroristlər narahat edir:

...Ekspertlər d-r Zərgər Şəfii və Əliəsgər Nuzər ilə söhbət: “Dərshayi əz bohrane Qarabağ bəraye məntəqe”(Qarabağ böhranının region üçün dərsləri)

Zərgər: “Neoosmanizm, İranla sərhəddə təkfirilər var, DEYİRLƏR, növbə İranındır”.

“Suriya özünü terroristlərdən təmizləsin, bir hissəsi Azərbaycanda”

“farsnews”

“İranın Xorvatiyada səfiri İsmaili: “Terroristlərin sərhədlərimizin yaxınlığında olmasına dözə bilmərik”..

“Ümid edirik ki, təkfiri terroristlərdən istifadə haqqında deyilənlər ŞAİYƏ olsun”.

Sual: “Azərbaycanın əhalisinin əksəriyyəti şiə, İranın əksəriyyəti şiə, amma İran daha çox Ermənistanı dəstəkləyir”.

Cavab: “Çünki Azərbaycanın İsraillə çox güclü əlaqələri vardır. SƏRHƏD yaxınlığında geniş hərbi və kəşfiyyat varlığı var”.

23 oktyabr

“irna”

Geosiyasi ekspert Hüseyn Seyfəddini :

“Təkfirilər və Türkiyənn rolu”ndan danışaraq Azərbaycana böhtan atmaqdan çəkinmir.

27 oktyabr

“farsnews”

“Xatəm əl-ənbiya” Qərargahı HHM qüvvələrinin komandanı general Seyid Əbdürrəhim Musəvi: “Ölkənin Şimal-qərbində HHM hissələri gücləndirilib, lazım gələrsə, daha da artırılacaq

“Təkfiri terroristlər, işid və sionistlər”, bütün dünyada rədd edilən ünsürlərdir, onlar harada olurlarsa, orada nifrət və səbatsızlığa səbəb olurlar. Bizim silahlı qüvvələr dəfələrlə isbat etdikləri kimi, onların bizim sərhədlərimiz yaxınlığında olmasına qarşı heç nəyə baxmadan kəskin cavab verəcəyik”.

3 noyabr

“anaj”

Rəhbər məlum çıxışında:

“Etibarlı mənbələrin məlumatına görə regiona gələn *terroristlər* heç bir halda İran sərhədinə yaxınlaşmamalıdırlar və əgər onlar sərhədə yaxınlaşsalar mütləq qəti tədbir görüləcək”.

[Ali Rəhbər də terroristlərdən danışdı. Deməli, İranın Azərbaycanla münasibətlərinin tənzimlənməsinin əsas ünsürlərindən və ya təzyiq vasitələrindən biri guya Azərbaycanda terroristlərin mövcudluğu olmuşdur.]

10 noyabr

“tasnim”

1. “İran Azərbaycan və Ermənistan arasında Qarabağa dair razılaşmanı alqışlayır”.

XİN-in bəyanatı: “İran suverenliyə və ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin dəyişdirilməməsi, işğal olunmuş məntəqələrin azad edilməsi, təhlükəsizlik və azlıqların hüquqlarına hörmət, həmçinin BÜTÜN TƏKFİRİ QÜVVƏLƏRİN VƏ XARİCİ DÖYÜŞÇÜLƏRİN REGİONDAN çıxarılmasını vurğulayır”.

2.... “Bakı və İrəvan razılaşmasının qeyri-müəyyənlikləri.. İranın regionun geosiyasi vəziyyətinin dəyişdirilməsi haqqında mövqeyinə ehtiramın vacibliyi”

Narahat edən səbəb sərhəddə yeni dəyişikliyin yaranması və [müharibənin] “xarici radikal ünsürlərin ayağını regiona açmasıdır”.

“Suriyadan müharibə regionuna aparılan radikal SƏLƏFİLƏR orada qalacaqlarmı”?

Güclü İranı nəzərə almamaq olmaz. O, yeni geosiyasi dəyişikliyi qəbul etmir, ekstremist və xarici qüvvələrin sərhəd regionunda olmasına qarşıdır"?

Göründüyü kimi, kafir islamistlər, müsəlman terroristlər, Suriyadan gətirlmiş terroristlər mövzusu müharibə günlərində İran informasiya məkanının daimi mövzularından biri idi. Həmin mövzu istər rəsmi, istərsə də ekspertlər səviyyəsində qaldırılırdı. Bu baxımdan Təbrizdən yayımlanan "anaj" saytını xüsusi qeyd etmək lazımdır. Müharibə dövründə fəaliyyət göstərdiyi ardıcıl 16 gün ərzində yayımladığı şərh, təhlil və s. demək olar ki, hər gün həmin məsələdən bəhs edilirdi. Cənubi Azərbaycan saytının terrorist məsələsini gündəmdə saxlaması bir çox suallar doğurur və həmin sualların qısa cavabını yəqin ki, yuxarıdan göstərişlə Azərbaycana dəstək bəyanatlarının azərbaycanlılarda təsirini azaltmağa hesablanmasında axtarmaq olar. Məsələ İranın Azərbaycana təzyiq vasitəsi kimi nəzərdə tutulduğundan, qondarma təhlükədən, hətta Rəhbər də danışmalı olmuşdu. Bütün bunlar Azərbaycanın Vətən müharibəsində uğurlarını İranın həzm edə bilməməsini göstərirdi və qələbədən sonra ona təzyiq göstərmək vasitəsi kimi nəzərdə tutulurdu.

Azərbaycandan gələn guya terrorist təhlükəsi iranlıların, xüsusən Cənubi Azərbaycanlıların dindar kəsimində Azərbaycan hakimiyyətinə qarşı düşmənçilik hissi oyatmaq və gücləndirmək məqsədi güdürdü. Bununla da İran gələcəkdə Azərbaycana qarşı hər hansı təxribat törədərdisə, həmin əməlinə qabaqcadan ictimai dəstək hazırlamağa çalışırdı. Məhz buna görə Azərbaycanın İsraillə əməkdaşlığı əleyhinə geniş təbliğat aparırdı. Bununla göstərmək istəyirdi ki, Azərbaycan hakimiyyəti İranın düşməni olmasa da, dostu da deyildir. İsrail və terrorist mövzusu iki mühüm təzyiq vasitəsi hesab olunurdu. Terrorist məsələsi aktuallığını itirdiyi halda, əsas ağırlıq İsraillə əməkdaşlığa yönəldilməli idi. Müharibədən sonrakı hadisələr deyilənləri əyani şəkidə nümayiş etdirdi.

İran və Cənubi Azərbaycan paniranistləri, dövlət məmurları, ruhanilər, deputatlar kimi müdafiə edirdilər. Buna tibb ixtisası üz-

rə təhsil alan Bəsic tələbələri qısa və aydın cavab verirlər: “Azərbaycanın pənahsız müsəlman əhalisini” Bununla Cənubi azərbaycanlılarda Azərbaycan hakimiyyətinə düşmənçilik hissi aşılanırdı. Azərbaycana dəstək verənlər ona ikili münasibət formalaşdırmağa çalışır və onu düşmən hakimiyyət və köməyə ehtiyacı olan xalq kimi təqdim edirdilər. Əgər İran yardım etsə idi, eyni zamanda hakimiyyəti devirmək istiqamətində də hərəkət edərdi.

## 6. İRAN İSLAM RESPUBLİKASININ VƏTƏN MÜHARİBƏSİNDƏ TUTDUĞU MÖVQE HAQQINDA

27 sentyabr

“anaj”

“Qarabağe məzlum və ağaze mocəddede dərgiri,douləte İran kocaye.....

“Qafqaz və Anadolu regionu üzrə analitiklərin bəziləri belə fikirləşirlər ki, əgər İslam Respublikası Qafqazda sabitlik və təhlükəsizlikdə, həmçinin Qarabağın azad edilməsində öz təsirli rolunu oynamasa, digər beynəlxalq fiqurlar fürsətdən istifadə edərək həmin məntəqənin iqtisadi və mədəni imkanlarından özlərinin xeyrinə istifadə etmək üçün hərəkət edəcəklər. Həmçinin ola bilsin ki “Qarabağ İslam torpağıdır” şüarı qaranlıq söyləmələrə yem olsun”..

[Sonrakı hadisələr göstərdi ki, analitiklər İranın ənənəvi mövqeyinin davam etməsi halında hadisələrin inkişafını doğru müəyyən ediblər].

“tasnim”

“Comhuriye Azərbaycan və Ermənistan ruye xətte atəş” Tehranın mövqeyi: “atəşkəs, sülh danışıqları”nı təşviq etməkdən ibarətdir.

28 sentyabr

“anaj”

Mənsur Həqiqətpur

İran Türkiyəyə icazə verməməlidir ki, Türkiyə çirkin bir əməlin mühəndisi olsun və təkfirilər məntəqədə cövlan etsinlər.

[İranı Türkiyənin mövqeyinin möhkəmlənməsi narahat edir.]

Təbriz İmam cüməsi: "Mən xalqın mövqeyini deyirəm: birincisi, şəhidlərə təəssüf edirik, ikincisi, Qarabağ xalqını (?) dəstəkləyirik".

"Ermənistandan tələb edirik ki, hərbi hərəkətlərdən əl çəksin". Sionistlərin təhrikidir.

[Təbriz imam cüməsi İran xalqının adından danışsa da, biz bunu Cənubi azərbaycanlıların mövqeyi kimi qəbul edir və nəzərə alırıq ki, yuxarı dini hakimiyyət, rəhbərlik, belə mövqe bildirməyə razılıq verib. Bunun öz izahı vardır və yuxarıdakı paraqrafda qismən toxunulub.]

29 sentyabr

"anaj"

1. "Kamazha fağede təchizate nezamiyənd və bəraye colugiri əz su e təfahom depo şodənd" (Kamazlarda hərbi təchizat yoxdur və anlaşılmazlığa yol verməmək üçün depo ediliblər.)

Mətndə: "Şərqai Azərbaycan valisinin siyasi və təhlükəsizlik üzrə müavini Rastqu:" [Kamazlar] Boşdur (?), Ermənistan Rusiyadan alıb və İran vasitəsi ilə gedir".

[İran öz ərazisindən Ermənistana silah göndərilməsi haqqında fikirləri təkzib etməyə çalışır.]

2. İran İslam Respublikasının Liderinin münaqişə ilə bağlı mövqeyi haqqında

Rəhbərin ilk gündən Qarabağı Azərbaycan və İslam torpağınının bir hissəsi hesab etdiyi diqqətə çatdırılır. Bununla beləı İranda bir qrupun İranın mövqeyini təsirsiz saydığı vurğulanır.

Birinci Qarabağ müharibəsi zamanı bəzi İran hərbi müşavirlərinin iştirakı yada salınır və guya mərhum prezident H. Əliyevin onların orada olmasını istəmədiyi iddia olunur.

Nəhayət Xameneinin Ermənistanı təcavüzkar (?) adlandırması (1994) və tezliklə müharibənin haqq cəbhəsinin qələbəsi ilə başa çatacağı fikri qeyd edilir.

Rəhbərin 1371\1992 Həcc Konqresinə məktubunda-müsəlmanların kütləvi qırğınına dövlətlərin biganə qaldığı, İranın vasitəçiliyinə mane olduqları fikri qeyd edilir.

Rəhbər 1372\1993-də Təbrizdə Qarabağ ermənilərinin Ermənistanın köməyi (?) ilə müsəlmanlara zülm etdiyini pisləyir.

Rəhbər 1397\2018 Paşinyanla görüşündə deyib ki, DANIŞIN biz də danışıqlara kömək edərik.

[Rəhbər ilk illər Qarabağı İslam torpaqlarının bir hissəsi hesab edib və hətta guya Ermənistanı təcavüzkar adlandırsa da, daxildə belə İranın siyasətini təsirsiz və neytral hesab ediblər. Rəhbər nədənsə, Ermənistanın baş naziri ilə görüşündə (2018) əvvəlki fikirlərinin heç birini təkrar etməyib.

Rəhbər müxtəlif münasibətlərlə müsəlmanlara xoşgələn fikirlər ifadə edib, real xarici siyasət isə siyasi sistemin, ruhanilərin və sonda İranın milli maraqları əsasında həyata keçirilirdi və keçirilir.

Ona görə Rəhbərin dediklərinin nəinki münaqişənin həllinə, hətta İran hökumətinin rəsmi siyasətinə heç bir təsiri olmadığını nəzərə alaraq ciddi əhəmiyyət vermək olmaz]

3. Türkiyənin mövqeyinə münasibət:

Rəcəb Paşa etnik kökən adına Azərbaycanı himayə etdiyini deyir, amma terroristlərin Kərkükə və türkmənlərə hücumunda terroristlərin yanında idi. Həm Ərdoğanın, həm də Əliyevin bu düşmənçiliyə ehtiyacı var və hər ikisi də daxili məsələlər səbəbindən ... və öz maraqları üçün.. [hərəkət edirlər.]

[Saytın antitürk təbliğatının mühüm bir hissəsini Türkiyə əleyhinə yazılar təşkil edir. Ona görə guya Türkiyənin sözü ilə əməlinin üst-üstə düşməməsi iddia edilir.]

30 sentyabr

“tasnim”

“Comhuriye Eslamiye İran dər kocaye monağeşeye Qarabağ istade əst”?

Türkiyə və İsrailin rolu aydın görünür.

[Türkiyə birgə] Manevrdən sonra qoşunlarını [Azərbaycandan] çıxarmadı. Yalnız Türkiyə münaqişənin *uzanmasını* istəyir.

[Müharibə] İran və Rusiyanın Qərbi Asiyada rolunu zəiflədə bilər və Qafqazda məşğul edər.

İran sülh bərqərar olmasına yardım etməyə hazırdır.

"İran İslam Respublikasının Azərbaycanın ərazi bütövlüyünün tanınması və ona əməl olunmasının vacibliyi xüsusunda mövqeyi çox aydındır". İran dəfələrlə bunu və beynəlxalq hüquq və BMT Qətnamələrini vurğulayıb.

[Deyəsən, İran birinci dəfədir BMT TŞ Qətnamələrini yada salır.]

3 ölkə BMT Qətnamələrinin icra edilməsi sahəsində o iki qonşuya kömək edə bilər ki, münaqişəni dinc şəkildə həll etsinlər.

[İran Türkiyəyə qısqanclıq və İsrailə düşmənçiliklə yanaşır, öz ənənəvi mövqeyini təkrar edir. Həmin mövqenin 30 il ərzində münaqişənin həllinə heç bir təsiri olmadığı məlumdur.]

3 oktyabr

"anaj"

"Qafqaz məsələləri üzrə ekspert, sosioloq şərh edir".

"Hər ançe dəstqahe diplomasiye İran bayəd əz mərdome şiəye Qafqaz dərk konəd"

Seyid Cavad Miri

Hökumət Qafqazın şiə əhalisini Ankaraya tərəf itələməməlidir.

Azərbaycanda şəhidlərin dəfni (nozayeşe şiəi-şiəliyin yeni doğuşu) şiəliyin təbliği və möhkəmlənməsi üçün istifadə edilir, perspektivdə bu İranın xeyrinədir. Post Türkmənçay atmosferi yaranır.

[Əslən azərbaycanlı olan müəllif Vətən müharibəsinin İranın Azərbaycanda dini təsirini artıracağını güman edərək, bu baxımdan Azərbaycanı dəstəkləməyə çağırır.]

"Şərq" qəzeti məlum bəyanatla çıxış edən cümə imamlarını "keçən həftə (1oktyabr), 4-cü gün, keçirilən az saylı Qarabağı himayə toplantısının səbəbkarı adlandırır."

[İranın zahirən islahatçı, əslində isə qatı panfarsist dairələri bu ölkədən Azərbaycana hər cür dəstəyə qarşı çıxırdılar.]

4 oktyabr

“anaj”

“İrana düşən mərmilər deyir ki, passivlik müharibəni İranın daxilinə keçirəcək”.

“İndi passivlik vaxtı deyil. İndi İsraillə media müharibəsində vuruşmaq lazımdır...”

[Siyasi şərhçi Mehdi Nalbəndi dini həmrəylik mövqeyindən çıxış edərək Azərbaycana dəstəyin vacibliyi, eyni zamanda hadisədən istifadə edərək dinin təsirini artırmaq və İsrailə qarşı elə Azərbaycanda ideoloji mübarizə aparmağın vacibliyini vurğulayır.

“irna”

“İran və bohrane Qarabağ, estemrar dər miyanerəvi və solh tələbi” (İran və Qarabağ böhranı, mötədillik\sentrizm\ və sülhpərvərlikdə davam etmək.)

“İran həmişə regionda sülh və ***sakitliyin*** qorunması tərəfdarı olub və tərəfdarıdır”.

İranın mövqeyi ***İrəvanı çox razı salırdı.*** Bəziləri İranın qeydi-şətsiz Azərbaycanı Türkiyə kimi müdafiə etməsini istəyirlər. Amma xarici siyasətin prinsipləri var:

- Digər dövlətlərin daxili işlərinə hər cür müdaxilədən tamamilə çəkinmək
- Müharibə aparmayan (qeyre mohareb) dövlətlər ilə qarşılıqlı sülh, dinc münasibətlər
- Bölgədə sülh və təhlükəsizliyin bərqərar olmasına çalışmaq...

[İranın Azərbaycanın haqq işini dəstəkləməməsinə ümumi prinsiplərə istinadən bəraət qazandırlmağa çalışılır. Halbuki Əsas qanunda İranın öz üzərinə dünya müsəlmanları və onların hüquqlarını müdafiə etmək missiyası götürdüyü elan olunur. Yəni deyilən fikirlərin asanlıqla əsasız olduğunu göstərmək olar. Bundan əlavə, Birinci Qarabağ müharibəsi zamanı Ermənistanı dəstəkləməsini heç bir xarici siyasət prinsiplərlə əsaslandırmaq olmaz.]

5 oktyabr

“anaj”

“Məhz Cümə imamları və inqilabçı gənclər xəyanət və pərdəarxası oyunları ifşa etdilər. Yəni guya “İsrailin müdaxiləsi, Türkiyənin təkfir qrupları yaratmaq hədəfi”ni ifşa ediblər.

[İmam cümələrin məlum bəyanatından İranın həm panfarsistləri-iranşəhri ideologları, həm də etnosentristlərinin narazı qaldığı iddia edilir. Yazıda imam cümələrin birgə bəyanatının hansı məqsədə (guya abcaq Türkiyə və İsrailin hadisələrə müdaxiləsini ifşa etməyə) hesablandığı qeyd edilir].

6 oktyabr

“anaj”

Həmid Şirazi: Qəti şəkildə demək olurki, Azərbaycan hökumətinin nə Qarabağı azad etmək motivi var, nə də region müsəlmanlarına kömək etməyə ürəyi yanır. Ərdoğan müharibənin əsas təşviq edənidir. İran ekspertləri İranın ilk mövqeyini passiv hesab edirlər. bir həftədən sonra Azərbaycanın haqlı olmasından danışırlar.

Təkfirilərin İran sərhədinə gəlib çıxması İran üçün böyük təhlükədir.

[Azərbaycan hakimiyyətinə qərəzli deyil, qatı düşmənçilk mövqeyindən yanaşmağın ən bariz nümunəsi olan yazının müəllifi İranın islam\şiə ölkəsi kimi vəzifəsindən deyil, ona qarşı yönəlmiş qondarma təhdidlərdən danışır.]

“tasnim”

Velayəti: “**Mənateğe eşğali** Azərbaycan bayəd təxliyyə şəvəd, rahe həlle monağeşeye Qarabağ nezami nist (Azərbaycanın işğalolunmuş regionu boşaldılmalıdır, Qarabağ münaqişəsini həlli hərb deyil.)

“Keyhan” qəzetinə müsahibəsində: Ermənistan işğal etdiyi əraziləri Azərbaycana qaytarmalıdır. Həll yolu heç də hərbi deyil, siyasi yolla həll edilməlidir.

Mətn:

Qəzet: “Ermənistan və Azərbaycan Respublikası arasında müharibə hekayəsinin görünüşü ondan ibarətdir ki, iki ölkə köhnə bir məsələ, Dağlıq Qarabağ üstündə mülkiyyət (? - V.M.) ilə bağlı

mübahisə (? - V.M.) üstündə bir-birinin canına düşüblər. Türkiyə və İsrailin məqsədi nədir"?

Vilayəti: Bir sıra prinsiplərə əməl edirik, onlardan biri bütün dövlətlərin ərazi bütövlüyünə hörmətdir.

Bu halda bir ölkənin ərazisi digər ölkə tərəfindən işğal edilir. Azərbaycan Respublikasının cənubundakı hissələr, təqribən 7 şəhər (?-v.m.), Ermənistan tərəfindən işğal edilib. Belə olan halda BMT-də 4 qətnamə qəbul edilib ki, onların da hamısında Azərbaycan ərazisinin bu hissələrini işğal etmiş ermənilərin oranı tərk edib beynəlxalq sərhədlərə qayıtması tələb olunur. Birləşmiş Millətlər Təşkilatının üzvləri olan hamımız bu prinsiplərə əməl etməliyik. Ona görə də biz istəyirik ki, Ermənistan işğal etdiyi bu əraziləri Azərbaycan Respublikasına qaytarsın. Bu ərazilərin işğalından sonra 1 milyondan çox azərbaycanlı öz yurd-yuvasından didərgin düşüb və tezliklə öz vətənlərinə qayıtmalıdırlar. Amma biz Türkiyədəki dostlarımıza alovun üstünə neft tökməkdənsə, bizə, sizə və regionun digər dövlətlərinə kömək etməyi, məzlumlara dəstək olmağı, Azərbaycan Respublikasının işğal olunmuş torpaqlarının azad edilməsinə köməklik göstərməyi və mümkün qədər, imkan daxilində (müharibənin genişlənməsinə) imkan verməməyi tövsiyə edirik. İşğal olunmuş ərazilər insanların qanını tökmək bahasına azad edilməməlidir.

[Müsahibə xülasə edilərsə, İran işğal faktını etiraf edərək Ermənistandan işğal etdiyi əraziləri boşaltmağı tələb etsə də, bunu sülh və danışıqlar yolu ilə həll etməyi təklif edir. Lakin danışıqlar və sülh yoluna necə nail olunmasını göstərmir. Redaksiyanın israrla Türkiyə və xüsusən guya təkfirilərin mövcudluğu haqqında suallarına cavab verərkən, Türkiyəni müharibəni qızışdırmaqda ittiham edərək, onu sülhə kömək etməyə çağırır. Təkfirilərin olması haqqında məlumatı omadığını bildirərək, mövcud oduqları halda İranın ciddi tədbirlər görəcəyini bəyan edir.

İran Rəhbərinin xarici siyasət sahəsində müşaviri Ə.Ə.Vilayətinin adından Azərbaycanın işğal olunmuş ərazilərinin danışıqlar yolu ilə qaytarılması tərəfdarı olduğunu bəyan edir.

[Əvvəlcə, yəni müharibənin **dördüncü günü,** sentyabr ayının 30-da Cənubi Azərbaycanda Rəhbərin nümayəndələrinə və Cənubi Azərbaycandan olan deputatlara Azərbaycan Respublikasının ədalətli mövqeyini dəstəkləyən bəyanat verməyi tapşırdılar, sonra gözlədilər ki, hadisələr hansı istiqamətdə inkişaf edəcəkdir. Şərait tələb etsə idi, elan edəcəkdilər ki, Rəhbərin nümayəndələri və deputatlar hökumətin mövqeyini ifadə etmirlər. Azərbaycanın uğurları İranı işğal termini işlətməyə, Azərbaycana dəstək bəyanatları verən rəsmilərin dairəsini genişləndirməyə sövq etdi. Ə.Ə.Vilayəti Azərbaycanda təkfirilərin mövcudluğu haqqında məlumatı olmadığını da vurğuladı. Ə.Ə.Vilayətinin həmin fikri və mövqeyi İranın Vətən müharibəsi zamanı Azərbaycana qarşı təkfiri ittihamı irəli sürməsinə heç bir təsir göstərməmiş və onun şəxsi fikri olaraq qalmışdır.

Bütün bunlara baxmayaraq İranda məqsədlərindən asılı olmayaraq Azərbaycan Respublikasının ədalətli mübarizəsini dəstəkləməyin vacibliyini, konyuktur mülahizələrlə də olsa, anladıqlarını demək olar.]

“isna”

Hökumət sözçüsü...

İran Azərbaycanın işğal olunmuş bölgələrinin boşaldılmasını vurğulayır.

İranın Xarici siyasətdə mövqeyi yalnız hökumət və Xarici işlər nazirliyi tərəfindən bəyan edilir.

[Artıq işğal olunmuş ərazilərin boşaldılması tələbi irəli sürülür. Deməli, İran hökuməti Vətən müharibəsinin onuncu günü işğal olunmuş ərazilərin boşaldılmasını vurğulayır - deyəsən hələ tələb etmir, yəni tərəfdarıdır, yarımçıq da olsa, işğal olunmuş ərazilər və boşaldılma ifadələri işlənir. Eyni zamanda qeyd edilən xatırlatma göstərdi ki, Rəhbərin Azərbaycanda nümayəndələrinin, eləcə də Azərbaycandan olan deputatların bəyanatının heç bir siyasi dəyəri yox idi, onlar hökuməti təmsil etmirlər, onun adından danışa bilməzlər və s. Hər halda 6 oktyabr İran-Azərbaycan münasibətlərində qeyd edilə bilən bir gündür. İran rəsmən işğal termini və boşaltma ifadəsi işlətdi.]

“azariha”

Azərbaycan şair, yazıçı, mədəniyyət və incəsənət işçilərinin bəyanatı:

“Beynəlxalq qanunlar, prinsiplər və ədalət əsasında sülhün bərqərar olması və (iki qonşu ölkə) arasında məsələnin həlli üçün müzakirələrin dəstəklənməsi - Rəhbərin mövqeydir”.

“Hər cür təcavüz, işğalçılığı və hücumu pisləyirik”.

Bəyanat Cənubi Azərbaycanın sərhədə yaxın ərazisinə raket düşmələri ilə bağlı verilib.

[Yuxarıda geniş icmalı verilmiş mətni imzalayanların tam olmayan siyahısında 98 imza yer alıb. Azərbaycana dəstək ifadə olunmadığından mətndə bir dəfə də Azərbaycan adı çəkilməyib. Cənubi Azərbaycanda bu qədər milli kimliksiz doktor, jurnalist, şair və mədəni fəal varsa, vay Cənubi Azərbaycan xalqının halına. Telefilmdə deyildiyi kimi, panfarsistlər bir milli-mədəni fəalın qarşısına 5 antimilli fəal çıxarırlar.]

7 oktyabr

“anaj”

“İranın silahlı vasitəçiliyi bu düyünü aça bilər, bir şərtlə ki, münaqişə tərəfləri dost libasında olan düşmənə bel bağlamayalar. Bəyanatlar “Azərbaycan Respublikasının haqlı olduğunu və Qarabağın işğalının aradan qaldırılmasının vacibliyinin təsdiq edir”.

[İranın silahlı vasitəçiliyinin necə başa düşüldüyü şərh edilmir. Yazıda İranın qonşuluğunda cərəyan edən silahlı münaqişəni özünün daxili etnik\milli siyasəti üçün yumşaq təhdid hesab etdiyi öz əksini tapmışdır..]

Şərqi Azərbaycan valisi Purməhəmmədi :

“Şimal-qərb İmam cümələrinin mövqeyi ölkənin xarici siyasətinə uyğun idi. XİN və hökumət sözçüləri də həmin mövqeyi təkrar etdilər”.

[Sayt İranın rolu haqqında sonralar təkrar edilməyən və mahiyyəti məlum olmayan qəribə fikir “silahlı vasitəçilk” təklifi səsləndirir. Həmçinin Şimal-qərb cümə imamlarının İranın rəsmi mövqeyini səsləndirdiyi vurğulanıb. İran hökuməti birbaşa səs-

ləndirə bilmədiyi mövqeyini hadisələrin sonrakı gedişini gözləmək və ümumi daxili reaksiyanı yoxlamaq üçün cümə imamları tərəfindən səsləndirmişdi.

Həmin bəyanata panfarsistlərin neqativ münasibəti, onu azərbaycanlıların milli kimliyinin gücləndirilməsinə yönəlmiş addım hesab etmələri İranın millətçilik, şovinizm xəstəliyinə tutulmuş dairələri arasında Azərbaycanın haqq işini müdafiə etmək meylinin olmadığını, əksinə qalib gəlməsinə daxili bir etiraz formalaşdığını demək olar.]

10 oktyabr

“anaj”

Xarici medianın İranın mövqeyinə münasibəti haqqında

Bəzi xarici media iddia edirki, İran Ermənistanı dəstəkləyir.

Rəhbərin müşavir və hökumətin sözçüsü işğal olunmuş torpaqların azad olunmasından danışıblar, bu istiqamətdə BMT TŞ 4 Qətnaməsi də var.

“Media işğal olunmuş bölgələrin azad olunmasından, sabitlik və danışıqlara ehtiram prinsipindən danışmalıdır”.

[Artıq İranın mövqeyinin-işğal olunmuş ərazilərin azad edilməsi tələbi və həmin tələbin BMT TŞ Qətnamələrinə uyğun olması - ifadə olunmasında ənənə yaranıb. Həmin mövqe, deyildiyi kimi, əvvəlcə Cənubi Azərbaycan imam cümələri və deputatları, sonra Rəhbərin müşaviri və daha sonra hökumətin sözçüsü tərəfindən səsləndirilib. Burada mühüm məqam medianın qarşısında duran mühüm vəzifə – işğal olunmuş bölgələrin azad olunmasından yazmaq lazım olduğu vurğulanır.

Əsas irad Xarici mediaya qarşı yönəlsə də, İran mediasına da şamil edilməlidir, çünki həmin vəzifəni ölkə mediası da gözlənilən səviyyədə icra etməmişdir.]

11 oktyabr

“irna”

“Dəyirmi stol: Rişehaye tarixi bohrane Qarabağ ra piçide kərde əst (Tarixi kökləri Qarabağ böhranını mürəkkəbləşdirmişdir) ( birinci hissə)

Azərbaycan üzrə ekspert Şəib Bəhmən

Problem: “İran üçün ona görə əhəmiyyətlidir ki, (tərəflərlə) qonşudur”

“Xarici qüvvələr - Türkiyə və İsrailin müdaxiləsi müharibəni uzadır”.

[Ekspert Türkiyə və İsrailin müdaxiləsindən danışır və heç bir dəlil göstərmir]

12 oktyabr

“irna”

“Dəyirmi stolun ikinci hissəsi: Douləthaye xareci dər cənge Qarabağ nəğşe çəşmgiri darənd”(Xarici dövlətlər Qarabağ müharibəsində əhəmiyyətli rol oynayırlar)

Şəib Bəhmən: “*Kim başladı*? Deмək çətindir, amma *İsrail təhrik* etdi ki, silah satsın”. Şaiyə: “İsrail kodları Ermənistana verib, düz ya yalan olmasından asılı olmayaraq, Azərbaycanı tələsdirdi. Türk hərbi hissələri Azərbaycan hərbi hissələri ilə birgə hərbi təlimdə iştirak edib, burada qaldılar, Türkiyə özü TERRORİSTLƏRİ Suriyadan Azərbaycana göndərir, Azərbaycan başladı müharibəni”.

“irna”: “Qərar Ankarada verilir”?

Ş.Bəhmən: “Tamamilə doğrudur. Hər halda artıq “fikir otağı” var. Daxili vəziyyət, Liviya Türkiyəni buna vadar etdi.

Ş.Bəhmən: “HƏRBİ HƏLLİ YOXDUR. [Azərbaycan Qarabağın yarısını azad edib, bu deyir hərbi həlli yoxdur] “Həmin böhrandan istifadə edərək İranda  milli məsələ yaratmaq (? - V.M.) istədiklərini gördük” “Müharibəni diplomatik yolla dayandıraq, sonra həll prosesinə daxil olaq”.

Seyid Əli Qaimməqami: “İran Azərbaycanın ərazi bütövlüyünü qanuni bilib, danışıqları 3+3 formatında təşkil etsin, Referendum məsələsini qaldıra bilər”..

[Azərbaycan üzrə ekspertlər izləyicilərdə antiisrail, antitürkiyə və onun vasitəsi ilə antiazərbaycan əhval-ruhiyyəsini gücləndirmək xəttini davam etdirərək ehtimallar əsasında fikirlər yürüdürlər. Hətta Azərbaycanın guya öz torpaqlarını azad etmək işində müstəqil qərar qəbul etmədiyini iddia edirlər. İranın rəsmi

mövqeyini ifadə edərək, məsələnin hərbi həllinin olmadığını iddia edirlər. Ekspertlər müharibəyə həmçinin guya İranda “milli məsələ yaratmaq” cəhdi kimi baxılması mövqeyini əks etdirirlər.

Onlar müharibənin dayandırılması, sonra yenidən həlli üzərində fikirləşmək tərəfdarı olduqlarını vurğulayırlar. Ekspertlər İranın 3+3 formatında danışıqlar aparılması, hətta referendum keçirilməsinə tərəfdar olmasından danışırlar.

Qısa şəkildə deyilərsə, ekspertlər İranın son hadisələrə münasibətini aydın şəkidə ifadə etmişlər:

1. Hadisələrdə İsrail və xüsusən Türkiyənin aparıcı rol oynaması

2. Hadisələrə İranda milli məsələyə təsir etmək baxımından yanaşılması

3. Azərbaycanın ərazi bütövlüyünün tanınması

4. Nəsələnin hərbi həlli olmadığını vurğulamaq

5. Hərbi əməliyyatları dayandırmaq

6. Danışıqlar aparmaq, bu dəfə İranın da iştirak edəcəyi 3+3 formatında danışıqlar aparmaq.

7. Referendum keçirilə bilməsi (Bundan əvvəlki Ermənistan-Azərbaycan danışıqlarında keçmiş Dağlıq Qarabağ ermənilərinin statusu ilə bağlı referendum məsələsi də müzakirə edilirdi).

Burada qeyd edilən fikirlər ekspertlərin şəxsi mövqeləri deyil, İran hökumətinin mövqeyini əks etdirir. İranın mövqeyi məsələnin yenidən dondurulması və ondan Azərbaycana təzyiq vasitəsi kimi istifadə etmək imkanının davam etdirilməsidir. Bütün digər məsələlər beyinlərdə diplomatik dolaşıqlıqlar yaratmağa xidmət edir.]

14 oktyabr

“irna”

İran-rusiya

- “İran və Rusiye kocaye bərqərariye atəşbəs Qarabağ istadeənd”? (İran və Rusiya Qarabağda atəşkəsin bərqərar olması prosesinin harasında yer alıb)

Doktor Məhəmməd Əli Bəsərinin fikirləri:

- Türkiyə kimi güclərin həmin böhrana daxil olması

- Prezident Azərbaycanı “qardaş ölkə” Ermənistanı “yaxşı qonşu” adlandırıb.

- İran və Rusiya sülhün əsas nəzarətçiləri və rəhbərləridirlər

“Bu müharibənin hərbi həlli yoxdur”.

“**Qarabağ** torpağı Azərbaycanındır, amma bu torpaqda sakinlərin ***əksəriyyəti*** ermənilərdir”.

“Təbiidir ki, bütün bölgənin Azərbaycanın ixtiyarına keçməsi regionun erməni əsilli sakinlərinin öz müqəddəratını təyin etmə hüququ baxımndan ***mümkün deyil***”.

(İran da Rusiya kimi guya sülhün əsas nəzarətçisi və rəhbəri elan edilir. İran nədənsə **Qarabağda** əsasən ermənilərin yaşamasını və onların hansısa ayrıca hüquqlara malik olduğunu vurğulamağı unutmur. Müəllif bir məsələni doğru qeyd etmişdir, o da İran və Rusiyanın hadisələrə müdaxiləsi üçün əsas verən Azərbaycanın əraziyə tam nəzarətinə imkan verməməkdir.

Həmin məsələ İranın Qarabağ münaqişəsinə münasibətində ən əsas istiqamət təşkil edirdi. İranın münaqişəyə münasibətinin mahiyyətini münaqişənin davam etməsinə yardım etmək təşkil edirdi. Həmin məqsəd tərəflərdən heç birinin qəti qələbə qazanmasına imkan verməməkdən ibarət idi. Bu dəfə həmin siyasəti Rusiya, zahirən müvəqqəti elan etsə də, yeni formada davam etdirdi).

18 OKTYABR

“farsnews”

Ayətulla ozma Məkareme Şirazinin bəyanatı: Hemayət əz azadiye Qarabağ bər həme mosəlmanan lazem əst

Həzrət Ayətullah Məkarim Şirazi: Qarabağ bölgəsinin azad edilməsi üçün müsəlmanların dəstəyi lazımdır. İstənilən vasitəçilik bu bölgənin İslam dünyasına qayıtmasına səbəb olmalıdır.

Bəyanatın mətni

Son günlər Qarabağ bölgəsi ilə bağlı narahatlıq doğuran xəbərlər yenidən bizim fikir və ürəyimizi İslamın bir parçası olan bu diyara yönəldib.

İllər əvvəl bu bölgənin zalım işğalından sonra burada yenidən müharibə atəşi alovlandı və o diyarın məzlum müsəlmanlarının qanı töküldü, bəziləri öz yurd-yuvalarından didərgin düşdülər ki, bunun da məsuliyyəti  ilkin günahkarların, yəni *işğalçıların* üzərinə düşür. ...

Bütün müsəlmanlar Dağlıq Qarabağ bölgəsinin, eləcə də Fələstinin və digər İslam ölkələrinin işğaldan azad edilməsinə dəstək verməlidirlər və biz də bu dəstəyi vurğulayırıq və zəruri hesab edirik ki, istənilən vasitəçilik, danışıqlar və qərarların qəbulu bu regionun tam azad edilməsinə və İslam dünyasına qaytarılmasına gətirib çıxarsın.

Eyni zamanda, Azərbaycan Respublikasının möhtərəm hökuməti Qurani-Kərimin "Zalımları tərk etməyəcəyik" əmrinə uyğun hərəkət edərək işğalçı və qəsbkarlar və ya müsəlmanların qanını halal hesab edənlər, İslam ölkələrində fitnəkarlıqla məşğul olub öz milli maraqlarının ardınca gedənlərdən yardım istəməkdənsə, özünün həqiqi dostlarının  dəstəyi ilə Azərbaycan xalqının haqlarını tələb etsin.

Kitabların və bütün ilahi peyğəmbərlərin, xüsusən də İsanın (ə) təlimi zülmdən uzaq durmaq, məzlumlara kömək etmək idi. Odur ki, bütün xristianlar Ermənistan hökumətini öz vəzifələrini yerinə yetirməyi, bu ilahi dinin ardıcıllarının ətəyini zülm və işğaldan təmizləmək, dünya möminləri ilə allaha ibadət edənlərin qəlblərini bir-birinə yaxınlaşdırmağı tövsiyə etmələrinə dəyər və zülmün nəticələrindən çəkindirməli, Allah "Zülm edənlər yıxılacaqlarını biləcəklər" deyə buyurmuşdur. Qum. 27 mehr. 1399 Naser Məkarem Şirazi

[Həmin bəyanat Cənubi Azərbaycandan kənarda Böyük ayətullahlardan biri tərəfindən verilmişdir. Ayətullah Məkarem Şirazinin bəyanatı göstərir ki, ruhanilər Azərbaycanın mövqeyini bəzi şərtlərlə dəstəkləməkdə davam etdiridilər. Ayətulla daha qlobal düşünərək bütün müsəlmanlara və xristianlara müraciət edir. Ayətulla burada heç kimdən ad çəkməsə də, İslama və müsəlmanlara düşmənçilikdə ittihamının kimə ünvanlandığı aydın hiss olunur. Amma Azərbaycanın həqiqi dostları deyəndə kimi nəzərdə

tutduğunu bəyan etməsə də, İranı nəzərdə tutulduğunu aydın görmək olar. Ermənistanı birbaşa işğalçı adlandırmasa da, dolayısı ilə erməni xristianları zalım və işğalçı adlandırır.

Qeyd edildiyi kimi, Vətən müharibəsinin gedişində Azərbaycanın haqq işini Cənubi Azərbaycandan kənarda bir nəfər ən yüksək məqamlı ruhani dəstəkləmişdir. Cənubi Azərbaycanın 4 imam cüməsi və bir Böyük ayətullahının da Azərbaycanın ədalətli mövqeyini dəstəklədiklərini nəzərə alsaq, deyə bilərik ki, İranda Azərbaycanın mövqeyini ən geniş şəkildə və daha açıq və qətiyyətli şəkildə ruhanilər dəstəkləmişdilər. İranda Cənubi Azərbaycandan kənarda Azərbaycanın haqq işinə, rəsmilər nəzərə alınmasa, siyasi, mədəni, mənəvi sferaların nümayəndələri münasibət göstərməyə qadir olmadığını nümayiş etdirdilər. Ruhanilər Azərbaycanın ədalətli müharibəsini obyektiv olaraq dəstəkləsələr də ondan Azərbaycan dindarları arasında öz nüfuzlarını gücləndirmək, həmçinin dünya müsəlmanlarına təsir etmək üçün istifadə etməyə çalışırdılar]

19 oktyabr

“irna”

“Avropa mediası və İranın Qarabağ böhranına yanaşması”

[Necə deyərlər, xaricilərin gözü ilə öz xarici siyasətinin konkret sahəsinə baxan İran saytı İranın bitərəf mövqe tutduğunu, lakin daxildə azərbaycanlıların təzyqini hiss etdiyini bildirir].

[İran bütün vasitələrlə azərbaycanlıların təsirini neytralaşdırmağa və eyni zamanda davam edən hərbi münaqişədən onlara qarşı hərtərəfli təzyiq, etnosid və linqvosid siyasətini davam etdirmək və gücləndirmək üçün istifadə edir.]

Ekspertlər d-r Nuzər Şəfii və Əliəsgər Zərgər ilə söhbət: “Dərshayi əz bohrane Qarabağ bəraye məntəqe”

Ə.Zərqər: “İran-Ermənistan-Yunanstan ittifaqı iqtisadi cəhətdən gücləndirilməlidir ki, Türkiyəni öz sərhədlərində saxlasın. Balans yaradılmalıdır.

N. Şəfii: “İranın rolu və mövqeyi güclənir”.

Ə.Zərgər: “Neoosmanizm, İranla sərhəddə təkfirilər var, deyirlər növbə İranındır.

- Türkiyəni müharibəni qızışdırmaqdan çəkindirməli
- Suriya özünü terroristlərdən təmizləsin, bir hissəsi Azərbaycanda

“Qarabağ Azərbaycan, Ermənistan, İran arasında strateji məntəqədir, İran hər üçü ilə həmsərhəddir”.

[EkspertlərAzərbaycanın Qarabağ bölgəsinə öz çirkin məqsədlərinə uyğun olaraq ayrıca bir region kimi baxaraq Türkiyənin rolunun güclənməsindən narahatlıq ifadə edərək ona qarşı İran-Ermənistan-Yunanıstan oxunu gücləndirməyi və münaqişənin tam həllinə mane olmağı təklif edirlər.]

“farsnews”

İranın Xorvatiyada səfiri İsmaili: “Terroristlərin sərhədlərimizin yaxınlığında olmasına dözə bilmərik”..

“İranın prinsipial mövqeyi beynəlxalq səviyyədə tanınan sərhədlərə, beynəlxalq qanunlar və qaydalara hörmət etməkdir”. Sülh “Ərazi bütövlüyü və beynəlxalq qaydalara hörmət əsasında yaranır”. Ümid edirik ki, təkfiri terroristlərdən istifadə haqqında deyilənlər şaiyə olsun”.

Sual: “Azərbaycanın əhalisinin əksəriyyəti şiə, İranın əksəriyyəti şiə, amma İran daha çox Ermənistanı dəstəkləyir”.

Cavab: “Çünki Azərbaycanın İraillə çox güclü əlaqələri vardır. Sərhəd yaxınlığında geniş hərbi və kəşfiyyat varlığı var”.

[İran səfiri ölkəsinin artıq dəfələrlə qeyd edilən və beynəlxalq hüquqa əsaslanan mövqeyini təkrar edərək, Ermənistana dəstəyini Azərbaycanın İsraillə münasibətləri ilə izah etmək istəyir.]

21 oktyabr

“irna”

Avropa bürosu: “İrəvan və Bakı Qarabağda hərbi əməliyyətlara son qoyulmasında İranın köməyinə ümid edirlər”.

Newsveek: “İrəvan İranın dəstəyini qazanmaq istəyir, Bakı İranın diplomatik səylərini yüksək qiymətləndirir”

[İranın xarici işlər naziri] Zərif: “Üç tərəfli İran-Rusiya-Türkiyə müzakirələri” aparılır.

Ermənistanın ABŞ-da səfiri: “Biz İranın səylərini qiymətləndiririk. [Davamında] İranın Artsax respublikası ilə müştərək sərhədi var”.

[Sayt xarici media resursuna istinadən İranın mövqeyinin Bakı və İrəvan tərəfindən yüksək qiymətləndirildiyini qeyd edir. Eyni zamanda gizli məqsədlərinin üstünü açır. Yəqin ki, İran “Artsax” la sərhədlərini itirmək istəmir. Lakin məlum olduğu kimi, onun həmin arzusu reallaşa bilmir. Əgər hərbi əməliyyatlar dayandırılsa idi, onda bəlkə də həmin istəyi təmin olunardı. Lakin bir gündən sonra yəni oktyabr ayının 22 də artıq İranla sərhəd bölgəsi işğalçılardan tamamilə təmizləndi. “Artsax”-ın tarixə gömülməsi prosesi sona çatmaq mərhələsinə qədəm qoydu.]

29 oktyabr

“irna”

İranın xarici işlər nazirinin siyasi işlər üzrə müavini S.A.Əraqçi sülh planını Moskvada ikinci dəfə müzakirə etdi, birinci dəfə Rusiya prezidentinin xüsusi köməçisi Andrey Rudenko, ikinci dəfə XİN müavini Sergey Ryabakovla

S.A.Əraqçinin təqdim etdiyi İranın Qarabağ münaqişəsinin həllini nəzərdə tutan layihəsinin əsas prinsipləri:

- atəşkəs
- mülki yerlər və şəxslərə atəşin dayandırılması
- qaçqınların öz yerlərinə qayıtması

Sülh istəməyən xarici dövlətlərin böhrana müdaxiləsi var. “Biz bölgədə sülh üçün məsuliyyət daşıdığımızı bilirik və böhranın həllinə kömək edəcəyik”

- **İşğala son qoylması**, ərazi bütövlüyünə hörmət, suverenliklərə hörmət, sərhədlərin dəyişməzliyi prinsipi, humanitar hüquqa və azlıqların hüquqlarına hörmət, qeyri-hərbi mərkəzlər və mülki şəxslərə hücum etməmək

[İran bölgədə sülh üçün məsuliyyət daşıdığını bildirir. İşğala son qoyulması artıq İranın mövqeyinin ayrılmaz tərkib hissəsini təşkil edir. İran sərhədlərin dəyişilməzliyindən danışaraq guya Azərbaycanın Ermənistan ərazisinə daxil olmasının yol verilməz-

liyini, başqa sözlə, Ermənistanın ərazi bütövlüyünü dəstəklədiklərini bəyan etmiş olur. İranın həll planında əsas yenilik Qarabağ ermənilərinin hüquqlarının təmin olunmasını nəzərdə tutan azlıqların hüquqlarına hörmət bəndidir. İran öz ərazisində yalnız dini azlıqları tanıdığı halda, Azərbaycanda etnik azlıq olan ermənilərin hüquqlarını müdafiə edir. Bu yenilik İran siyasətinin tam prinsipsizliyə söykəndiyini göstərir. Öz ölkəsində etnik azlıqların varlığını inkar edən, onların hüquqlarını tanımayan bir dövlət hansı məntiqlə başqa ölkədə, yəni bu halda Azərbaycanda, ermənilərin hüquqlarının müdafiəçisi qismində çıxış edir. Amma güman etmək olar ki, S.A.Əraqçi Azərbaycanda da ermənilərə İranda göstərilən sevgini görmək istəyir. Yəni İran həm İrəvanın, həm də Qarabağ ermənilərinin müdafiəçisi qismində çıxış edir. Belə davranışı yalnız İran diplomatiyası sərgiləyə bilərdi. Bunula belə çox maraqlı olardı ki, azlıqların hüquqları anlayışının sənəddə necə başa düşüldüyü haqqında əlavə məlumat veriləydi. Hələlik bu qaranlıq qalır. Çünki sənədin əsli ilə tanışlıq imkanı yoxdur.]

30 oktyabr

"tasnim"

"Təhəmmol nemikonim əmniyəte mərzneşinan be moxatere beyoftəd. Azərbaycan və Ermənistan moşkelat ra POŞTE MİZ mozakere konənd"(Sərhəd bölgəsində yaşayanların təhlükəsizliyinə təhdid yaranmasına dözə bilmərik. Azərbaycan və Ermənistan provlemlərini danışıq stolu arxasında həl etsinlər)

İRİ Silahlı Qüvvələrinin Quru qoşunlarının komandanı general Kəyumərs Heydəri sərhəd bölgələri olan Culfa və Xudafərinə baş çəkib, deyir: "Silahlı Qüvvələr öz əsas vəzifəsinə əməl etmək üçün ölkənin Şimal-qərbində sərhədin müəyyən məntəqələrində yerləşdilər, əsas məqsəd qırmızı xətt elan olunan yerləri qorumaqdır". "...Biz heç bir halda İİR qırmızı xəttini keçməyə icazə verməyəcəyik".

"Bizim tövsiyəmiz" beynəlxalq qanunlara hörmət etmək, beynəlxalq sərhədləri qorumaq və problemləri danışıq stolunun arxasında həll etməkdir".

[Azərbaycan ərazilərinin xeyli hissəsini azad etdiyi bir şəraitdə İran hökuməti Ermənistandan əraziləri boşaltmaq tələbini təkrar etdiyi halda, hərbi komandanlar tərəfləri danışıqlara çağırır. Azərbaycan İranla sərhəd bölgəsini azad etdikdən sonra İranda Azərbaycanla sərhədi möhkəmləndirmək, orada yeni hərbi bölmələr yerləşdirməklə məşğul olamğa, qırmızı xətdən dəm vurmağa başlayıblar.]

"farsnews"

İranın xarici işlər nazirinin siyasi işlər üzrə müavini S.A.Əraqçi "Rianovosti" ilə söhbətdə: "İran layihəsində atəşkəs ikinci mərhələdə nəzərdə tutlur. Əvvəlcə işğala son qoyulmalı, eyni zamanda  yuxarıda qeyd edilən prinsiplər qəbul olunandan sonra atəşkəs elan edilə bilər".

[İranın irəli sürdüyü həll planı S.A.Əraqçinin izahatına inansaq, Azərbaycanın mövqeyinə çox yaxın və ədalətli hesab edilə bilərdi. Amma həmin planın irəli sürüldüyü zaman Ermənistan tərəfindən qəbul edilməyəcəyi aydın idi. Layihədə onun yerinə yetirilməsi mexanizmi də göstərilsə idi, yerinə düşərdi. Hər halda layihənin münaqişənin həllinə yönəlmiş ən ədalətli və real  sənəd saymaq olardı.]

31 oktyabr

"tasnim"

Vilayəti: "Məsaele Qafqaz bayəd əz təriğe siyasi həll şəvəd\Makron dombalerəviye səhyonistha əst" (Qafqaz məsələləri siyasi yolla həll edilməlidir. Makron sionistlərin yolunu davam etdirir)

Tələbə Xəbər Agentliyinin ("isna") siyasi qrupunun məlumatına görə, Ali Rəhbərin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti Təbrizdə Ayətullah Qazi Təbatəbainin şəhadətinin ildönümü ilə bağlı keçirilən anım mərasimində onlayn  iştirak edib.

Ə.Ə.Vilayəti mərasimdə çıxış edərkən Vətən müharibəsi ilə bağlı fikirlərini də bəyan edib. O cümlədən aşağıdakı fikirləri səsləndirib:

“Ümid edirik ki, beynəlxalq fitnəkarların Cənubi Qafqaz regionunda törətdikləri [bu hadisə] ən qısa zamanda aradan qalxar.

Onlar bu çox mühüm və həssas beynəlxalq mərkəzi İranın şimalında problem yaradan mərkəzə çevirmək istəyirlər.

İran İslam Respublikasının siyasətinin prinsipləri bəllidir və yol müharibə və münaqişə deyil, bu problem diplomatiya və siyasət yolu ilə həll edilməli və region ölkələri Azərbaycan və Ermənistana sülh və sabitliyin bərqərar olması üçün kömək etməlidirlər.

Beynəlxalq fitnəkarlar törədiblər bu hadisəni”.

[Ə.Ə.Vilayəti Vətən müharibəsini beynəlxalq fitnəkarların törətdiyini, onların məqsədinin İrandan şimalda problem mərkəzi yaratmaq olduğunu bəyan edərək, İranın mövqeyinin dəyişməz olduğunu-böhranın sülh və danışlqlar yolu ilə həll edilməli olduğunu vurğulayaraq, digər ölkələri də Azərbaycan və Ermənistana sabitlik və sülhün bərqərar edilməsində yardım göstərməyə çağırır. Göründüyü kimi Vilayəti 6 oktyabr tarixində verdiyi müsahibədə vurğuladığı ədalətli fikirləri tamamilə unudaraq, artıq nə BMT TŞ Qətnamələrindən, nə Ermənistanın işğalçı olmasından, nə Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasından, nə də Azərbaycanın ərazi bütövlüyü və s. dəstəkləməkdən danışır. Ən diqqəti çəkən məqam ondan ibarətdir ki, Cənubi Azərbaycan, Təbriz auditoriyasına müraciət edən Vilayəti Azərbaycan Respublikasının ünvanına heç bir dəstək ifadə etmir və Azərbaycanla İranın ortaq cəhətlərindən danışmır.]

1 noyabr

“tasnim”

“Qafqaz üzrə ekspertlə Qarabağ münaqişəsinin təhlili, ənənəvi xarici siyasət dövrü başa çatıbdır”.

Xülasə: “Qafqaz ölkələrinin mürəkkəb davranışı və “bu bizə dərsdir ki, əvvəldən təyin edilmiş sabit rels üzərində hərəkət artıq cavab vermir, öz regional və qlobal maraqlarımızı yenidən müəyyən etməliyik”. Hələlik 2 min kv.km Azərbaycanın əlinə keçib. Başlayanı kim olduğu BİLİNMƏYƏN bu böhran”

Əli Səadət-Türkiyə və Qafqaz üzrə ekspert. Türk bölgələri [-Cənubi Azərbaycan nəzərdə tutulur] üləmalarının reaksiyası çox vacib idi, vaxtında məsələyə münasibət bildirdilər və onun ardınca Tehran fəal müsbət təşəbbüslə səhnəyə daxil oldu, məsələnin mahiyyətini yaxşı dərk etdi".

"Tənqid edirlər ki, Tehran bir az gec səhnəyə çıxdı. Amma bu ona görədir ki, Rusiya və Türkiyəni nəzərə almaya bilməzdi....." situativ reaksiya əsasında qurulan xarici siyasət kənara atılmalı və daha fəal davranış göstərməli".

[İranın ənənəvi xarici siyasət davranışı müəllifi qane etmir, lakin hansı dəyişikliyə uğramalı olduğu göstərilmir. Güman etmək olar ki, Azərbaycanın haqlı, ədalətli mübarizəsini dəstəkləməsini yeni siyasətin mühüm göstəricisi hesab edir. Eyni zamanda İranın məsələyə gec diplomatik müdaxiləsinə bəraət qazandırır. Bunun Rusiya və Türkiyənin mövqeyini nəzərə alması ilə bağlı olduğunu qeyd edir. Bütövlükdə Qarabağ böhranı ilə bağlı İranın davranışını təqdir edir.]

2 noyabr

"anaj"

İİR Liderinin mövqeyi:

"Azərbaycanın Ermənistan tərəfindən zəbt edilmiş bütün torpaqları azad edilməli və Azərbaycana qaytarılmalıdır".

"Bu torpaqlarda ermənilərin qorunması və hər iki tərəfdən beynəlxalq sərhədlərə əməl olunması lazımdır".

"Etibarlı mənbələrin məlumatına görə regiona gələn *terroristlər* heç bir halda İran sərhədinə yaxınlaşmamalıdır və əgər onlar sərhədə yaxınlaşsalar, mütləq qəti tədbir görüləcəkdir".

[Liderin bəyanatında Qarabağ müharibəsi ilə bağlı fikirləri müxtəlif saytlarda əsasən "Qarabağ böhranı haqqında" başlığı altında verilib. Başqa sözlə, Azərbaycanın torpaqlarının azad edilməsi fikri başlığa çıxarılmayıb. Rəhbər bir tərəfdən işğal olunmuş ərazilərin azad edilməsi və Azərbaycana qaytarılmasını, digər tərəfdən Qarabağ ermənilərin müdafiəsinin vacibliyini vurğulayır. Rəhbər eyni zamanda İranda, xüsusən hərbi dairələ-

rində geniş yayılmış fikri, yəni Azərbaycanda guya muzdlu döyüşçülərin-terroristlərin varlığı məsələsini qaldırır və onların İran sərhədinə yaxınlaşmaması və əks təqdirdə tədbir görüləcəyi barədə xəbərdarlıq edir. Başqa sözlə, İran rəhbəri bir tərəfdən Azərbaycanın haqlı tələbini dəstəkləyir, digər tərəfdən Azərbaycana qarşı əsassız ittiham irəli sürərək gələcəkdə münasibətlərin pisləşməsini proqnazlaşdırır.

Azərbaycanın qələbəsi ərəfəsində Rəhbər dilə gələrək erməniləri işğala son qoymağa çağırdı... amma bununla yanaşı bəyanatının əhəmiyyətini azaldaraq terrorist məsələsini qabardaraq sərhədə yaxınlaşmamaları haqqında təminat almağa çalışdı. Belə kəşfiyyatı olan ölkənin belə də rəhbəri olar. İran tərəfi Azərbaycanın qalib gəldiyini hiss etməyə başladıqdan sonra terroristlər məsələsini meydana ataraq Azərbaycana qarşı düşmənçilik siyasətində həmin uydurma təhdiddən də istifadə etməyə cəhd göstərdi]....

“farsnews”

Hər bir təhdidə cavab verməyə hazırıq, regional düşmənlər ağıllarını başlarına yığsınlar.

SQ Cənub-qərb dairəsinin komandiri general Həmzə Bidadi: “Qarabağ münaqişəsinin pərdə arxasında duran ölkələr hamıya aydın oldular, bu münaqişənin məqsədi İran İslam Respublikası sistemi ətrafında qeyri-stabillik yaratmaqdır”.

[Hərbi dairələrin komandirləri Vətən müharibəsini, xüsusən Azərbaycanın uğur və qələbələrini İran əleyhinə yönəlmiş hərəkət kimi dəyərləndirirlər və qeyd edirlər ki, həmin hadisə İranın regional düşmənlərini tanımağa kömək etdi. Belə çıxır ki, Rusiya, Türkiyə, İsrail İranın regional düşmənləridirlər].

5 noyabr

“anaj”

İranın Azərbaycanda keçmiş səfiri Möhsün Pakainin İranın mövqeyi haqqında qeydləri

Rəhbərin dediklərini şərh edərək yazır:”....Biz də torpaq uğrunda müharibə etdik, indi Azərbaycanın haqlı olduğunu deyirik.

Ermənistan “öz müqəddəratını təyin etmə”dən danışır, amma beynəlxalq hüquqda bu (prinsip) ərazi bütövlüyündən sonra gəlir. Azərbaycan öz ərazi və suverenliyi çərçivəsində “Azərbaycan millətinin bir hissəsi olan Qarabağ ermənilərinin hüquqlarını təmin etsin”.

[Yuxarıdakı fikirləri İranın rəsmi dairələrinin deyil, məhdud və hadisələrə obyektiv və beynəlxalq norma və prinsiplərdən yanaşmağın vacibliyinə tərəfdar olan dairələrin və ilk növbədə Möhsün Pakayinin mövqei kimi dəyərləndirilməlidir.]

6 noyabr

“isna”

SQ Quru qoşunlarının komandanı general Kəyumərs Heydəri: “Ölkə sərhədlərini heç bir təhlükə təhdid etmir.

“Heç bir xarici dövlətə beynəlxalq qanun və qaydalardan kənar hərəkət etməyə icazə verməyəcəyik”.

Azərbaycan-Ermənistan müharibəsi ilə bağlı narahatçılığa dair: “Biz sakitlik və iki ölkə arasında məsələnin danışıqlar və müzakirə yolu ilə həll edilməsini vurğulayırıq”.

İran bölgədə daha çox ordu yerləşdirir və onu daim gücləndirir. “Əlhəmdülillah, ölkənin şimal-qərb sərhədləri üçün heç bir təhlükə yoxdur. ...Region ölkələrinin ərazi bütövlüyünə ehtiram göstərilməsini vurğulayaraq, ...biz hər iki qonşu ölkə ilə bir çox ortaq cəhətlərə malikik. Hər iki ölkəyə tövsiyəmiz beynəlxalq qanunlara hörmət etmək, beynəlxalq sərhədləri qorumaq, problemləri danışıqlar və müzakirə yolu ilə həll etməkdir”.

[Bir çox saytlarda verilən həmin məlumat və xəbərdarlıqda kimin beynəlxalq qaydalardan kənar hərəkət etməyə hazırlaşdığına işarə edilməsə də, İran özünü regional supergüc kimi gördüyünü daxili auditoriyaya nümayiş etdirir. İranın Azərbaycanla həmsərd ərazilərə qoşun yeritməklə məşğul olması ilə kimə mesaj verir, məlum deyil. Növbəti dəfə hərbi komandirlər danışıqlara dəvət edərək, hətta Rəhbərin mövqeyini-işğal edilmiş ərazilərin boşaldılması və Azərbaycana qaytarılması- təsdiqləmir, ona istinad etmirlər.]

9 noyabr

“anaj”

“Middle East”-ın yazısının icmalı

Saytın əlavəsi

Etnosentristlərə lazımdır ki, Türkiyə Xəzər dənizinə çıxsın və İran təcrid olunsun.

[İranda hakimiyyət dairələri Azərbaycanın Qərb rayonları ilə Naxçıvanın dəhliz vasitəsi ilə birləşdirilməsi ideyasında təhlükə gördüyünü dilə gətirmək üçün adı çəkilən təhrik edici məqalənin icmalını vermişdir. Məqalədən istifadə edərək İranda azərbaycanlıların milli hərəkatına təzyiq göstərməyə cəhd edilir.]

“tasnim”

Şimal hərbi dairəsinin HHM qüvvələrinin komandanı sərtibe do Əli Əkbər Abbası Təcəddüd: “..Düşmənlərə (?) icazə vermərik “Düşmənlər bilsin:” İran İslam Respublikasının müqəddəs sisteminə qarşı kiçik hərəkət belə qəbul edilməzdir”... Bu zəmində təcavüzkarlara (?) qarşı duraraq, onlara yerlərini tanıdacağıq”. “İcazə vermərik ki, düşmənlər (?) ölkəmizə təcavüz etməyə özlərinə icazə və imkan versinlər”.

[Artıq deyildiyi kimi, İran hərbi komandanlarının adından Azərbaycanın Vətən müharibəsində qələbəsini təhdid hesab edərək, ona qarşı hazır olmaq üçün tədbirlər gördüyünü nümayiş etdirir. Tez-tez təkrar edilən düşmən ifadəsinin kimə ünvanlandığı zahirən aydın olmasa da, iranlılara ölkənin şimal-qərbindən şimalda düşmənlərin meydana gəldiyi fikri aşılanır. ]

“irna”

İranın Bakıda səfiri: “Eşğalgəri və təcziyetələbi xətte qermeze İran əst”

Səfir Bakıda Şəhidlər xiyabanındakı mərasimdə iştirak və ölkədə milli bayraqlara ehtiram göstərməklə... və şəhidlərin məzarları üstünə gül qoymaqla onların xatirəsini əziz tutdu. Səfir: “İİR ən yüksək səviyylərdə həm bəyanatla, həm də əməllə Azərbaycan hökuməti və millətinin yanında dayandı və özünün belə dəstəklərini davam etdirəcək. Ümid edirəm ki, bütün işğal edilmiş ərazilərin azad edilməsi ilə vahid, birləşmiş və böyük Azərbaycanın şahidi olacağıq və hər iki ölkə, İran və Azərbaycan sülh və

dostluqla əməkdaşlığın zirvəsində bir-birinin yanında olacaqlar. Rəhbərin dediyi kimi, bütün işğal olunmuş ərazilər Azərbaycana qaytarılmalıdır, yaxşı olardı ki, sülh yolu ilə qaytarıla idi. 200 məntəqə azad edilib.

[İranda Azərbaycanın Vətən müharibəsində qələbəsini yalnız onun Bakıdakı səfirinin müsbət qarşıladığı öz əksini tapmışdır. Səfirliyin məlumatı əsası məlum olmayan qırmızı xətt və separatizm xəbərdarlığı başlığı altında verilib. Halbuki mətndə həmin anlayışlar haqqında heç nə deyilmir.]

10 noyabr

“tasnim”

“İran Azərbaycan və Ermənistan arasında Qarabağa dair razılaşmanı alqışlayır”

İİR XİN-in bəyanatı: “İran suverenliyə və ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin dəyişdirilməməsi, işğal olunmuş məntəqələrin azad edilməsi, təhlükəsizlik və azlıqların hüquqlarına hörmət, həmçinin bütün təkfiri qüvvələrin və xarici döyüşçülərin regiondan çıxarılmasını vurğulayır”.

[İranın rəsmi mövqeyi Bakıda səfirliyin mövqeyindən tamamilə fərqlənir. Burada Rəhbərin fikirləri-işğal olunmuş məntəqələrin azad edilməsi, azlıqların hüquqları, təkfirilərin regiondan çıxarılması – yer almışdır. Hökümətn mövqeyi göstərir ki, İran Azərbaycanın qəlbəsini özü üçün təhdid mənbəyi hesab edir.]

... “Bakı və İrəvan razılaşmasının qeyri-müəyyənlikləri.. İranın regionun geosiyasi vəziyyətinin dəyişdirilməsi haqqında mövqeyinə ehtiramın vacibliyi”

İran şimal sərhədlərinin təhlükəsizliyinə xüsusi əhəmiyyət verir, digər aktorlar bunu nəzərə almalıdırlar

Sual: “İran-Ermənistan sərhədi neçə kilometr olacaq, Bakı bu sərhəddə ciddi geosyasi dəyişikliklər etmək istəyirmi? İranın Ermənistanla cəmi 35 km. sərhədi var. İndi sərhəd məntəqəsində nəzarət necə olacaq? Azərbaycan İranla danışıqlarında onun razılığına nail olacaq, yoxsa bunu nəzərə almadan yeni dəyişikliklər olacaq”?

Narahat edən səbəb sərhəddə yeni dəyişikliyin baş verməsi və onun “xarici radikal ünsürlərin ayağını regiona açmasıdır”. Azərbaycan bu ərazilərin sahibi kimi İranın narahatlığını qısa müddətə aradan qaldıracaq və ya qəflət və çatışmazlıqlar üzündən bəzi yeni macəra axtaranlar üçün yol açılacaq”?

Naxçıvan-Azərbaycan yolunu Ermənistanda ruslar qoruyacaq? Marşrut necə olacaq?

Naxçıvanı Azərbaycanın qərb regionu ilə birləşdirən dəhliz İranın quru ticarəti və gömrük əməkdaşlığı ilə ziddiyyət yaratmayacaq?

İ.Əliyev: “Azad olunan məntəqənin təhlükəsizliyini Azərbaycan və Türkiyə təmin edəcək”.

Sayt; “Demək Türkiyə qüvvələri gələcək. Rusiyanın bundan xəbəri varmı”?

“Suriyadan müharibə regionuna aparılan radikal sələfilər orada qalacaqlarmı”?

Güclü İranı nəzərə almamaq olmaz. O, yeni geosiyasi dəyişikliyi ***qəbul etmir***, ekstremist və xarici qüvvələrin sərhəd regionunda olmasına qarşıdır”.

[Yazıda İranın Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra yaranan əssasız və güman və ehtimallara, daha doğrusu, qərəzə söykənən narahatlığı geniş şəkildə öz əksini tapmışdır. Yenə də təkfirilərin mövcudluğu məsələsi qaldırılır və Azərbaycanın guya Ermənistan ərazisinin bir hissəsini ələ keçirmək məqsədi barədə tamamilə cəfəng fikirlər yürüdülür. İran sanki Ermənistan-Rusiya münasibətlərinin xarakterindən-strateji əməkdaşlıq, hər iki dövlətin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olması və həmçinin iki tərəfli hərbi əməkdaşlıq və müdafiə müqavilələrindən xəbərsiz olduğunu nümayiş etdirir. İranın haqqında danışılan vəziyyəti yaxşı bildiyini nəzərə alaraq, bir mənalı şəkildə deyə bilərik ki, İranın əsassız iddiaları Azərbaycanın regionda son dərəcə güclənmiş mövqeyinin zəiflədilməsinə yönəlmişdir.]

Yuxarıda şərhlər, analitik yazılar, müsahibə və s. də İranın Azərbaycanın Vətən müharibəsi günlərində regionda baş verən

hadisələrə münasibəti və İranın oynadığı real rol və oynamaq istədiyi rol haqqında bəyan edilmiş fikir, mülahizə, yanaşma və s. ümumilləşdirərək deyə bilərik ki, İran hadisələrə zahirən necə münasibət bəsləyəcəyini dəqiq müəyyən edə bilməmiş, eyni zamanda münaqişədən sonrakı dövrdə regionda yerini müəyyən etmək üçün müxtəlif cür siyasət sərgiləmişdir. İranın sabit və ənənəvi mövqeyi münaqişənin dinc yolla həll edilməsinə tərəfdar olmasında əksini tapırdı. Bununla belə İran hadisələrin hansı istiqamətində inkişaf etdiyini görərək, diplomatik səylərini gücləndirmiş və ənənəvi mövqeyini korrektə edərək ona yeni tələblər - Ermənistanı işğalçı adlandırması və işğal olunmuş ərazilərdən çıxmasını, əlavə etmişdir. Həmin tələblərin də əslində danışıqlar yolu ilə yerinə yetirilməsini nəzərdə tuturdu. İran Azərbaycanın pozulmuş hüquqlarının təmin olunmasını tələb edərkən Ermənistanı özündən uzaqlaşdırmamaq üçün münaqişəyə münasibətdə daha bir element – erməni azlığının hüquqlarının qorunmasını əlavə etmişdi. İran Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsini tələb etsə də, Azərbaycanın həmin əraziləri azad etməsinə böyük narahatlıq və qısqanclıqla yanaşaraq, bunu öz maraqları üçün təhdid hesab edirdi. Buna görə Azərbaycan İranla sərhəd ərazilərini tamamilə azad etdikdən sonra İran sərhəddə ona qarşı uydurma təhdid məsələsini ortaya ataraq sərhəd bölgəsinə hərbi qüvvələr yerləşdirərək, onun sayını daim artırır və həmin hərəkətini uydurma İsrail və tamamilə əsasız xarici müsəlman terrorist qüvvələrin varlığı ilə əsaslandırmağa çalışırdı. İranda tək-tək analitiklər hadisələrə İranın ümumi mövqeindən fərqli, daha obyektiv münasibət sərgiləyirdilər. Lakin ümumi siyasətin hazırlanmasında onların deyil, davakar hərbi dairələrin daim təhrik etdikləri sərhəd təhlükəsi, qırmızı xətt və s. haqqında xəbərdarlığı əsas götürülürdü.

Ən ümumi şəkildə deyilərsə, haqqında danışılan yazılar göstərir ki, İran Azərbaycanın hərbi qələbəsini gözləmirdi və onu arzu belə etmirdi. Ona görə qələbələr davam etdikcə İranın Azərbaycana qarşı əsasız ittihamları artırdı. Qabağa gedərək deyə bilərik ki, Azərbaycan rəhbərliyi öz siyasəti ilə İranın Azərbaycana

münasibətdə ziddiyyətli və müəyyən dərəcədə düşmənçilik mövqeyindən sərgilədiyi siyasətin Azərbaycanın regionda davranışına heç bir təsir göstərmək gücünə malik olmadığını əyani şəkildə nümayiş etdirdi. Bununla da İranın xarici siyasət sahəsində güclü dövlət olmadığını üzə çıxarmış oldu.

## 7. İRANIN AZƏRBAYCANLA SƏRHƏDDƏ FƏALİYYƏTİ HAQQINDA

**27 SENTYABR**

"irna"

Qarabağda müharibə edən tərəflərin raketləri Xudafərinə düşdü.

**28 SENTYABR**

"anaj"

Sərhəd məntəqəsinə 5 raket düşdü. Müharibə tərəflərinə rəsmi xatırlatma

"farsnews"

Azərbaycan və Ermənistana xəbərdarlıq: güllələr İran ərazisi istiqmətində atılmamalıdır

Xarici işlər nazirliyinin sözçüsü Xətibzadə:... "Sərhədlərimizdə atışmalara dözə bilmərik".

"anaj"

Sərhəd bölgəsinə 5 raket dəydi; 4 partladı, 1 yox, xəsarət verməyib, boş yerə, çəmənliyə düşüb.

2 OKTYABR

"anaj"

Xudafərində 6 yaşayış vahidi dağıdılıb və bir uşaq yaralanıb.

3 minatan mərmisi Pərvizxanlı kəndinə, xəstəxana yaxınlığına düşüb. Bundan əvvəl də 10 mərmi düşüb, tələfat və xəsarət olmayıb.

3 OKTYABR

"tasnim"

İranın Qarabağda müharibə tərəflərinə ciddi **xəbərdarlığı.**

Aslanduz fərmandarının əhaliyə xəbərdarlığı... sərhəd zolağına yaxın yerlərdə toplaşmasınlar

"irna"

Xudafərinə mərmi düşməkdə davam edir, 2 kəndə boş sahəyə 10 mərmi düşüb, amma təhlükəlisi, müharibəni seyr etmək üçün əhalinin toplanmasıdır.

Ərdəbil: "Təmaşaye cəng (Müharibəyə tamaşa edirlər)

Bir neçə yüz metrdən tamaşa edirlər. Axşam tamaşaçıların sayı artır. Bəziləri damlardan seyr edirlər. Atəş səsləri də lap aydın eşidilir və yuxuya imkan vermir. Şüşələr silkələnir. Məktəbin yanına, əkin yerlərinə düşüb, Araz kənarı meşələri yandırıb. Bir çoxları kəndi tərk ediblər.

4 OKTYABR

"irna"

Məclisin Milli təhlükəsizlik və Xarici siyasət komissiyasının sədri.. sərhəd zolağına baş çəkdi.

5 OKTYABR

"tasnim"

Daxili işlər nazirinin Qarabağ müharibəsi tərəflərinə xəbərdarlığı.

Daxili işlər naziri Rəhmani Fəzli: Sərhəd bölgəsində təhlükəli vəziyyətə dözə bilmərik

"irna"

Xudafərin şəhristanına düşən mərmilərin sayı çoxaldı.

"tasnim"

Xarici işlər nazirliyinin sözçüsü: Tehran Qarabağ müharibəsini ***dayandırmaq*** üçün layihə hazırlayıb. İran öz sərhədlərinə hücuma dözə bilməz.

Layihədə **Azərbaycanın ərazi bütövlüyü, işğal olunmuş ərazilərin boşaldılması** nəzərdə tutulurdu

[İran Vətən müharibəsinin 9-cu günü döyüşlərin dayandırılması və sonrakı addımlar haqqında plan hazırladığını elan etdi. Həmin addım İranın keçmiş Qarabağ münaqişəsi siyasətində ta-

mamilə yeni hadisə hesab edilməlidir. İran rəsmi şəkidə işğal termini işlədir və işğal olunmuş ərazilərin boşaldılmasını tələb etdiyini nəzərə çatdırırdı.]

Parlamentin Təhlükəsiz Komissiyasının sözçüsü:

Biləsuvar sərhədində vəziyyət normaldır. Məclisdə Qarabağ bölgəsində son hadisələr müzakirə olundu.

Müzakirə haqqında məlumatda deputatların vəziyyətlə tanış olması, sakitliyin hökm sürməsi vurğulanır. Eyni zamanda sabitlik olmasına, problem çıxmamasına çağırış edilir.

6 OKTYABR

“tasnim”

Müdafiə nazirinin Qarabağ münaqişəsinə reaksiyası

İran sərhədlərinə səhvən mərmi düşməsi yol verilməzdir. Müharibə tərəflərinə **ciddi xəbərdarlıq** etdik.

7 OKTYABR

“tasnim”

İİR prezidenti H.Ruhani: Terroristləri İran sərhədlərinin yaxınlığına gətirilməsinə icazə vermərik. Atəş, müharibə və qan (axıdılması) heç bir problemi həll edə bilməz

[İlk dəfə ən yüksək səviyyədə qondarma terroristlər məsələsi gündəmə çıxarıldı. Buna qədər hərbi məmurlar belə ifadə işlətmirdilər. ]

11 OKTYABR

“irna”

Ermənistan-Azərbaycan müharibəsinə baxmayaraq, İranın sərhədləri təhlükəsizdir.

12 OKTYABR

“irna”

Qeyd: Aslanduz şəhristanına 15 mərmi düşüb

13 OKTYABR

“tasnim”

Parsabadın Üzəntəpə kəndinə pilotsuz uçuş aparatı (PUA) düşüb, mülkiyyəti araşdırılır

15 OKTYABR

“tasnim”

Ölkənin Şimal-qərbində quru və hava sərhədləri üçün ən kiçik təhlükə yoxdur. Qarabağ münaqişəsi və İran sərhədləri tam müşahidə altındadır.

Şimal-qərb HHM qüvvələrinin komandiri sərtibe do Abbas Əzimi: “Əgər ölkənin sərhədlərinə qarşı ən kiçik təhlükə hiss edilərsə, ordu, sepah və sərhəd qüvvələri qəti şəkildə **lazımi cavab** verəcəkdir”.

“tasnim”

İranın sərhəd məntəqələrinə bir neçə raket düşməsi xəbərinə münasibət bildirilib. Bir neçə raket düşüb. Amma cavab tədbiri görüldüyü xəbəri şaiyədir.

“irna”

...Xudafərin kəndlərinə 10 raket düşüb, 2 kəndə, 1 evə, 1 nəfər xəsarət alıb. İndiyə kimi 50-dən çox  müxtəlif mərmi düşüb.

18 OKTYABR

“asanews”

Ordu komandirinin Azərbaycan və Ermənistana xəbərdarlığı.

General Qasım Fəravan-SQ HHMQ komandanının ali müşaviri: Rəsmilər mütləq daxil olan və İran ərazisində vurulan pualar haqqında izahat verəcəklər.

21 OKTYABR

Mincivan qəsəbəsi, yəni İranla sərhəd ərazilər düşməndən tamamilə  təmizləndi

“tasnim”

SQ Quru qoşunlarının komandanı general Kəyumərs Heydəri  İranın ***Ermənistan*** (?) və Azərbaycanla sərhədinə baş çəkdi.

“isna”

...Xudafərin şəhristanına bu gün 71 döyüş mərmisi düşüb

22 OKTYABR

“farsnews”

Azərbaycan sərhədin o tayına tam nəzarət etdiyini bəyan etdi

23 OKTYAVR

“tasnim”

Silahlı Qüvvələrin baş sözçüsünün Azərbaycan və Ermənistana xəbərdarlığı

Sözçü sepah generalı Əbülfəz Şekarçi: Əvvəla özgələrin atəşi alovlandırması və fitnələrinə diqqətli olun, ikincisi, öz aranızdakı problemləri dinc vasitələr və danışıqlar yolu ilə həll edin, üçüncüsü, öz hərbi əməliyyatlarınızda diqqətsizliklə İran sərhədlərini, həmvətənlərimizin təhlükəsizliyi və sakitliyini təhlükəyə atmayın. Xəbərdarlıq edirik ki, hər cür ***həmlə*** və təhdidə qarşı **sərt** cavab verəcəyik.

[Bu da işğalçının çıxıb getməsi tələbi, demir ki, İran üçün arzu olunmaz hallar Ermənistanın təcavüzü nəticəsində baş verir. Ermənistan təcavüzü dayandırıb, işğal etdiyi ərazilərin qalan hissəsi boşaltsa, hər şey yoluna düşər. Ən əsası da odur ki, Azərbaycan İranla sərhəd ərazisini azad etdiyi və azad etdikdən sonrakı günlər İranın ard-ardına xəbərdarlıqları gəlir. Xəbərdarlıq Ermənistanın adı çəkilsə də, Azərbaycana qarşı yönəlib].

İki ölkənin hərbçilərinin Qarabağ, Naxçıvan və Ermənistan regionunda son hərbi əməliyyatları... yoxsa sonra qəti peşimançılq gətirəcək

[Ermənistan və Naxçıvan haradan çıxdı.]

[Azərbaycan İranla sərhəd bölgəsini azad etdikdən sonra İran ərazisinə heç bir raket və mərmi düşməsi barədə artıq xəbərlər verilmədiyi halda, İran tərəfi – Silahlı qüvvələr – Azərbaycana qarşı Ermənistanı da gözdən pərdə asaraq qeyd etməyi unutmayaraq xəbərdarlıqlarını sərtləşdirməyə başladı]

“isna”

Azərbaycan bayrağı niyə Xudafərin körpüsü üzərində qaldırıldı?

Saytın izahatı: İranda körpü üzərində Azərbaycan bayrağı dalğalanmasına qarşı həssaslıq yaranıb. Agentlik körpünün hər iki ölkəyə məxsus olduğunu və Azərbaycanın özünə məxsus olan hissəsi üzərində bayraq qaldırdığını vurğulayıb. Vəssalam.

24 OKTYABR

“farsnews”

Sərhəddə son vəziyyət

Azərbaycan və ***Ermənistan sərhədçilərinə (?)*** xəbərdarlıq, ölkənin şimal-qərbində təhlükəsizlik qatlarının gücləndirilməsi... NACA (niruye entezami comhuriye eslami - İslam Respublikasının polis qüvvələri) qüvvələri, sərhəd qoşunları komandanı sərdar Əhmədəli Qudərzi:.. vəziyyət yaxşıdır

25 OKTYABR

“tasnim”

Sərdar Pakpur Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatlar gedən yerin yaxınlığında: “Heç kimlə etika gözləmərik”

Sepahın quru qoşunlarının komandanı Pakpur: Hamının ərazi bütövlüyünə hörmət edirik və sərhədlərdə heç bir geosiyasi dəyişikliyi qəbul etmirik: Bu, İranın qırmızı xəttidir.

[Azərbaycan ərazilərini azad etdikcə İranın narazılığı artır və sərhədlərin dəyişməsini, sərhədlərdə geosiyasi dəyişikliyi qəbul etməmək, yol verməmək, Qırmızı xətdən danışmağa başlayırlar. Göründüyü kimi, Sepah yeni tələblə çıxış etməyə başladı. Əvvəlcə sərhədlərin təhlükəsizliyindən danışırdılar, indi sərhəddə geosiyasi dəyişikliyə yol verməyəcəklərindən danışırlar. İran kimin sərhədlərinin dəyişdirilməsindən danışırdı, özünün, yoxsa Ermənistanın. Hər iki halda tamamilə uğursuz və əsassız bəhanə ilə çıxış edirdi.]

27 OKTYABR

“irna”

İran XİN siyasi müavini Seyid Abbas Əraqçi Ərdəbil ostanının sərhəd məntəqələrinə gələrək Aslanduzda olub. Xudafərində də olacaq

[Xarici işlər nazirinin siyasi müavininin sərhədə baş çəkməsinin səbəbi real vəziyyətlə yerində tanış olmaq idi.]

“farsnews”

“Xatəm əl-ənbiya” Qəragahı HHM qüvvələrinin komandanı general-mayor (sərləşgər) Seyid Əbdürrəhim Musəvi: “Ölkənin Şimal-qərbində HHM hissələri gücləndirilib, lazım gələrsə, daha da artırılacaq. Ölkələrin ərazi bütövlüyünə hörmət və beynəlxalq

rəsmi sərhədlərin qorunması bizim qəbul edilmiş prinsiplərimizdəndir və onlarda dəyişikliyi qəbul etməyəcəyik və ona qarşı olmuşuq və olacağıq”.

Təkfiri terroristlər, işid və sionistlər bütün dünyadə rədd edilən ünsürlərdir, onlar harada olurlarsa, orada nifrət və səbatsızlığa səbəb olurlar. Bizim silahlı qüvvələr dəfələrlə isbat etdikləri kimi, onların bizim sərhədlərimizin yaxınlığında olmasına qarşı heç nəyə baxmadan kəskin cavab verəcəyik.

[İran artıq Azərbaycanla sərhədin mühafizəsini hərbi-texniki cəhətdən gücləndirməklə məşğul olmağa başlayıb. Görəsən, hansı təhlükə onu həmin tədbirləri görməyə vadar edirdi. Maraqlıdır ki, İran mövcud olmayan təkfirilərə qarşı necə mübarizə aparacaqdı. Nədənsə, Ermənistanda PKK və digər terroristlərin olduğunu qeyd etmirlər. Çox maraqlıdır ki, Azərbaycanın guya İrana həmlə edə biləcəyi ehtimalını və Ermənistan ərazisini işğal edəcəyi fikrini iranlılar niyə bu qədər tutuquşu kimi təkrar edərək ona qarşı olduqlarını deyirlər. Doğurdan da onlar bilmirdilər ki, Azərbaycanın özünün işğal olunmuş ərazilərini azad etməkdən başqa bir məqsədi ola bilməzdi. Ermənistanın sərhədlərini Rusiyanın qoruduğunu bilən İranın xəbərdarlıqlarının heç bir əsası yox idi.]

28 OKTYABR

“tasnim”

Pakpur Aslandüzdə sərhədə baxış keçirib: Sərhəddə geosiyasi dəyişiklik yol verilməzdir və bizim **qırmızı xətt**imizdir.

29 OKTYABR

“irna”

...Şərqi Azərbaycanda: Ordunun Quru qoşunların (NəZA Ca-Niruye zəminiye ərteş Comhuriye Eslami - İslam Respublikası ordusunun quru qoşunlarl) komandiri: Ölkə sərhədlərinə heç bir **təhdid yoxdur**.

30 OKTYABR

“tasnim”

“Təhəmmol nemikonim əmniyyəte mərzneşinan be moxatere beyoftəd”; Azərbaycan və Ermənistan moşkelat ra POŞTE

MİZ mozakere konənd” (Sərhəd zonasında yaşayanların təhlükəsizliyinə təhdidə dözə bilmərik. Azərbaycan və Ermənistan öz problemlərin masa arxasında müzakirə etsinlər).

..S.Q Quru qoşunlarının komandanı general Kəyumərs Heydəri sərhəd bölgələri olan Culfa və Xudafərinə baş çəkib və deyir: “SQ.. öz əsas vəzifəsinə əməl etmək üçün ölkənin Şimal-qərbində sərhədin müəyyən məntəqələrində yerləşdilər, əsas məqsəd... **qirmızı xətt elan olunan yerləri qorumaqdır**. ...Biz heç bir halda İİR qırmızı xəttini keçməyə icazə verməyəcəyik. Biz sərhəddə yaşayanların təhlükəyə düşməsinə dözə bilmərik... İndi quru qoşunları lazım olan hər yerdə ***hücum hərəkətlərinə*** çevik reaksiya göstərməyə hazırdır...

Əlhəmdullah, ölkənin şimal-qərb sərhədlərini heç bir təhlükə təhdid etmir. Çünki silahlı qüvvələrimizin bacarığı və gücü artıb və hazırlığımız yüksək səviyyədədir. Region ölkələrinin ərazi bütövlüyünə hörmət... iki qonşu ölkə ilə ortaq cəhətlərimiz çoxdur, indiyə kimi mehriban qonşuluq münasibətlərini qoruyub saxlamışıq, bizim tövsiyyəmiz, beynəlxalq qanunlara hörmət etmək, beynəlxalq sərhədləri qorumaq və problemlərini ***danışıq*** stolunun arxasında həll etməkdir”.

[Görəsən, həmin mövqe Birinci Qarabağ müharibəsi zamanı hansı arxa planda yatırdı. İndi qırmızı xəttdən danışırlar. İnanmaq olmur ki, öz yalanlarına özləri inanmış olsunlar.

İran əsl səbəbini göstərmədən Azərbaycanla sərhəd bölgəsinə qoşun yığmaqla məşğuldur və Ermənistanın xahişi və ehtiyacı olmadan onun maraqlarını qorumağa hazır olduğunu bəyan edir..]

1 NOYABR

“tasnim”

İranın Qarabağ münaqişəsinin həlli layihəsinin xarici işlər naziri C. Zərif tərəfindən şərhi: İndi **sərhəddə terroristlər yoxdur,** amma bir az içərilərdə olmaq ehtimalı var. indi cavab gözləyirik.

[Hökumətin mövqeyi ilə ordu və xüsusən də Sepah komandanlığının mövqeləri arasında fərqin olduğu aydın şəkildə özünü göstərir.]

2 NOYABR

“farsnews”

Hər bir təhdidə cavab verməyə hazırıq, ***regional düşmənlər*** ağıllarını başlarına yığsınlar.

Silahlı Qüvvələrin Cənub-qərb dairəsinin komandiri general Həmzə Bidadi: “Qarabağ münaqişəsinin pərdə arxasında duran ölkələr hamıya aydın oldular, bu münaqişənin məqsədi İran İslam Respublikası quruluşu ətrafında qeyri-stabillik yaratmaqdır. Türkiyə, Rusiya və İran ittifaq təşkil etdilər, iş başındadırlar və hər iki tərəfi təmkinli olmağa çağırırlar. Hələlik bu baxımdan bizim üçün heç bir **problem yaradılmayıb**”.

[General nəsə demək istəyir, amma aydın şəkidə deyə bilmir...]

3 NOYABR

Rəhbərin çıxışı

“anaj”

Azərbaycanın bütün torpaqları azad edilməlidir, axırıncı müharibə region üçün təhlükədir.

Etibarlı mənbələrin məlumatına görə regiona gələn *terroristlər* heç bir halda İran sərhədinə yaxınlaşmamalı və əgər onlar sərhədə yaxınlaşsalar, mütləq qəti tədbir görüləcək.

[Azərbaycanın qələbəsi ərəfəsində Rəhbər dilə gələrək erməniləri işğala son qoymağa çağırdı... amma bununla yanaşı bəyanatının əhəmiyyətini azaldaraq, terrorist məsələsini qabardıb onların sərhədə yaxınlaşmamaları haqqında təminat almağa çalışdı. Belə kəşfiyyatı olan ölkənin belə də rəhbəri olar. İran tərəfi Azərbaycanın qalib gəldiyini hiss etməyə başladıqdan sonra terroristlər məsələsini meydana ataraq, Azərbaycana qarşı  siyasətini həmin əsasda qurmağa başladı.....]

6 NOYABR

“isna”

Silahlı Qüvvələrin  Quru qoşunlarının  komandanı general Kəyumərs Heydəri: “Ölkə sərhədlərini heç bir təhlükə təhdid etmir”.

Heç bir xarici dövlətə beynəlxalq qanun və qaydalardan kənar hərəkət etməyə icazə verməyəcəyik.

Azərbaycan-Ermənistan müharibəsi ilə bağlı narahatçılığa dair: Biz sakitlik və iki ölkə arasında məsələnin danışıqlar və müzakirə yolu ilə həll edilməsini vurğulayırıq.

[Ərazilərin çox hissəsi azad edilib, Ermənistan ordusunun beli sındırılıb, İranda hələ də danışıqlardan bəhs edilir].

9 NOYABR

"tasnim"

Şimal dairəsinin Hava Hücumundan Müdafiə qüvvələrinin komandanı sərtibe do Əli Əkbər Abbası Təcəddüd:.. "Düşmənlərə icazə vermərik", [kimdir düşmən]... "Düşmənlər bilsin":? İran İslam Respublikasının müqəddəs sisteminə qarşı kiçik hərəkət belə qəbul edilməzdir.. Bu zəmində **təcavüzkarlara** yerlərini tanıdacayıq. İcazə verməri ki, düşmənlər ölkəmizə təcavüz etməyə özlərinə icazə versinlər".

[Təhdid... icazə verməri, düşmən, təcavüzkar və s. İndiyə kimi İran ərazisinə onlarla raket düşüb, amma belə qorxu içində deyildilər. İndi guya kiminsə onların islam sisteminə qarşı və ölkələrinə təcavüz etmək planları var. Bunlar çox qəribə və ilk baxışda gülməli iddialardır. Haradan qaynaqlanır və əslində kimə qarşı yönəlmişdir? Əlbəttə cənubi azərbaycan milli hərəkatına]

10 NOYABR

... "farsnews"

Bakı və İrəvan razılaşmasının qeyri-müəyyənlikləri.. İranın regionun geosiyasi vəziyyətinin dəyişdirilməsi haqqında mövqeyinə ehtiramın vacibliyi, İran şimal sərhədlərinin təhlükəsizliyinə xüsusi əhəmiyyət verir, digər faktorlar bunu nəzərə almalıdırlar.

Sual: İran-Ermənistan sərhədi neçə kilometr olacaq, Bakı bu sərhəddə ciddi geosyasi dəyişikliklər etmək istəyirmi? İranın Ermənistanla cəmi 35 km. sərhədi var. İndi sərhəd məntəqəsində nəzarət necə olacaq? Azərbaycan İranla danışıqlarında onun razılığına nail olacaq, yoxsa bunu nəzərə almadan yeni dəyişikliklər olacaq?

Narahat edən sərhəddə yeni dəyişiklik və xarici radikal ünsürlərin ayağının regiona açılmasıdır..Azərbaycan bu ərazilərin sahibi kimi İranın narahatlığını qısa müddətə aradan qaldıracaq və ya qəflət və çatışmazlıqlar üzündən bəzi yeni macəra axtaranlar üçün yol açılacaq?

Naxçıvanı Azərbaycana birləşdirən dalan İranın quru ticarəti və gömrük əməkdaşlığı ilə ziddiyyət yaratmayacaq?

Suriyadan müharibə regionuna aparılan radikal SƏLƏFİLƏR orada qalacaqlarmı?

Güclü İranı nəzərə almamaq olmaz. O, yeni geosiyasi dəyişikliyi qəbul etmir, ekstremist və xarici qüvvələrin sərhəd regionunda olmasına qarşıdır.

Yuxarıdakı yazıda İranın Azərbaycanın qələbəsindən sonra yeni geosiyasi vəziyyətlə bağlı uydurma narahatlıqları geniş şəkildə öz əksini tapmışdır. İranın səsləndirdiyi narahatlıqlar, təhdid və xəbərdarlıqlar arxasında başqa məqsədlərin gizləndiyini vurğulamaq olar.

Doğrudan da İran Azərbaycanın sərhəd bölgəsi azad edilənə qədər öz ərazisinə düşən hərbi sursatlardan narahatlıq ifadə edir, hər iki tərəfə xəbərdarlıq edir və bundan Ermənistanın ərazidən çıxmasını tezləşdirmək üçün istifadə etmək haqqında düşünmürdü. Azərbaycan sərhəd bölgəsini işğaldan azad etdikdən sonra İran SQ və SEPAH sərhədin mühafizəsini gücləndirməyə və ən əsası tərəflərə daha ciddi xəbərdarlıq etməyə başlamışlar. Xəbərdarlıq Azərbaycana qarşı ünvanlanmışdı. İran xəbərdarlıqlar üçün yeni bəhanə uydurmaqla məşğul idi. İran zahirən Ermənistanın ərazi bütövlüyünün onun sərhədlərinin dəyişməməsinin qarantı rolunda çıxış etdiyini nümayiş etdirərək əsl məqsədlərini gizlətməyə çalışırdı.

## 8. AZƏRBAYCAN ƏRAZİLƏRİNİN İŞĞALDAN AZAD EDİLMƏSİ HAQQINDA

27 SENTYABR

“irna”

Azərbaycanın Müdafiə Nazirliyi Dağlıq Qarabağın 6 kəndinin (təsərrof) *ələ keçirildiyini* açıqlayıb.

“isna”

***Sərhəd***(?) məntəqələrində silahlı münaqişə

“tasnim”

Zərifin Azərbaycan və Ermənistan həmkarları ilə ***SƏRHƏD*** (?) gərginliyi ətrafında məsləhətləşməsi

4 0KTYABR 2020- CƏBRAYIL ŞƏHƏRİNİN AZAD EDİLMƏSİ

“tasnim”

Qarabağ müharibəsi cəbhəsindən son xəbər: Gəncə və ***QARABAĞ*** (?) şəhərlərinin bombalanması

“isna”

Azərbaycan Qarabağda irəlilədiyini iddia edir.

“farsnews”

***DAĞLIQ*** Qarabağda müharibənin 8 günü haqqında

“farsnews”

Azərbaycanın ***Dağlıq Qarabağın mərkəzinə*** hücumu tələfata səbəb oldu

“farsnews”

**Qarabağ HÖKUMƏTİ**: Gəncə hərbi aerodromunu vurduq,

[Cəbrayıl şəhərinin azad edilməsi haqqında məlumat verilmədi. Xəbər başlıqlarının birində Azərbaycanın irəlilədyini iddia etməsi qeyd edilib.]

9 OKTYABR. HADRUT QƏSƏBƏSİ VƏ 8 KƏNDİN AZAD EDİLMƏSİ

“isna”

Azərbaycan: Azad edilmiş ərazilərdən geri çəkilmirik.

[Ən maraqlısı, daha doğrusu ən xəbis və yaramaz cəhət bu saytların Azərbaycanın uğurundan, azad edilən ərazilərdən bir kəlmə belə deməməsidir.]

11 OKTYABR . Gəncə bombalandı

"irna"

Bakı: Mingəçevirə hücumun qarşısı alındı.

"farsnews"

Ermənistan yenidən Gəncəni bombaladı.

"irna"

Ermənistan və Azərbaycan ***sərhədində (?)*** gülləboran davam edir və pualar uçmağa başlayıb. Erməniləri geri çəkilməyə məcbur etdilər.

"tasnim"

Məlumat: Xətəre təxribe asar tarixi dər cənge Qarabağ (Qarabağ müharibəsində tarixi abidələrin dağıdılması təhlükəsi), yəni Artsax Respublikasında kilsənin xarab ediləsi təhlükəsi

[Sepah nəhayət əsl üzünü göstərdi. Bizim baxdığımız saytlarda birinci dəfədir Artsax Respublikası ifadəsi işlədilir. Kilsənin daxilinin şəkli də verilib.]

Daha sonra: Ostane Şahmiyane Comhuriye Artsax (Artsax Respublikasının Şaumyan vilayəti)

[Sepah keçmiş Şaumyan rayonunu da ermənilərə "bağışlamağı" az görüb onun statusunu rayondan-şəhristandan vilayət-ostan stasusuna yüksəltdi. Özünü dünya müsəlmanlarının, hüquqları pozulmuş xalqların, müsəlman ölkələrinin hamisi elan etmiş İranın əsas terror təşkilatı olan Sepah Artsaxın və onun kilsəsinin taleyini düşünür, Azərbaycanın və onun məscidlərinin yox .]

14 OKTYABR

"farsnews"

Azərbaycan daha bir neçə məntəqəyə **nəzarəti** ələ keçirdiyini ***deyir***

"irna"

-- Bakı bürosu

“Rəise Comhuriye Azərbaycan əz təsərrofee çənd rusta dər Qarabağ xəbər dad” (Azərbaycan Respubliasının prezidenti Qarabağda bir neçə kəndin ***ələ keçirilməsi*** haqqında xəbər verdi.)

[İran hər addımda iç üzünü göstərir, öz ərazilərini azad edir demək əvəzinə ələ keçirdi deyir. Diplomatların yalançı, növbətçi sözlərini İranın öz jurnalistləri, ekspertləri Azərbaycana mənfi münasibətləri ilə dərhal ifşa edirlər.]

15 OKTYABR

“irna”

İ.Əliyev: Daha 6 kənd azad edildi (İlk dəfə azad edildi ifadəsi işlədilir).

17 OKTYABR. FÜZULİ ŞƏHƏRİ AZAD EDİLDİ. GƏNCƏYƏ BALLİSTİK RAKETLƏR ATILDI

“irna”

Bakı ofisi

İran səfirliyi Gəncəyə raket hücumunu pislədi.

.. Bakı ofisi

Qarabağda hərbi əməliyyatlar davam edir. Füzuli **azad** edildi.

“isna”

Azərbaycanın 2 şəhərinə raket zərbəsi və 13 nəfərin öldürülməsi

İ.Əliyev: Gəncənin bombalanması hərbi cinayətdir, döyüş meydanlarında cavab veririk.

“farsnews”

İ.Əliyev: Gəncənin intiqamını alırıq

18 OKTYABR. Xudafərin azad olundu

“farsnews”

Bir gündə Ermənistanın 2 SU-25 təyyarəsi vuruldu.

... QARABAĞ (?) itkilərinin sayının 673 nəfər olduğunu açıqladı.

20 OKTYABR 2020. ZƏNGİLAN ŞƏHƏRİ VƏ 24 KƏND İŞĞALDAN AZAD EDİLDİ.

“irna”

Qarabağda Zəngilan şəhəri və daha bir neçə kənd Azərbaycan silahlı qüvvələrinin **ƏLİNƏ DÜŞDÜ.**

21 OKTYABR . 21 kənd, 1 qəsəbə (Mincivan) azad edildi.
“irna”
.... Bakı erməni silahlı qüvvələrinin Cəbrayıl-Qubadlı istiqamətində geri çəkildiyini xəbər verdi.
“irna”
Daha 22 kənd **azad** edildi.
“farsnews”
20 yaşayış məntəqəsi **azad** edildi.
22 OKTYABR. İranla sərhəd tam nəzarətə götürülüb.
“irna”
İ.Əliyev: 21 yaşayış məntəqəsi azad edilib.
“farsnews”
Azərbaycan sərhədin o tayına tam nəzarət etdiyini bəyan etdi.
23 OKTYABR. 13 kənd (4-ü Qubadlıda) azad edildi.
“isna”
Azərbaycan bayrağı niyə Xudafərin körpüsü üzərində qaldırıldı?
İranda körpü üzərində Azərbaycan bayrağı dalğalanmasına qarşı həssaslıq yaranıb. Agentlik körpünün hər iki ölkəyə məxsus olduğunu və Azərbaycanın özünə məxsus olduğu hissə üzərində bayraq qaldırdığını vurğulayıb. Vəssalam.
24 OKTYABR
“isna”
Bakı Qarabağda strateji yüksəklikləri ələ keçirdiyini xəbər verir.
25 OKTYABR. QUBADLI ŞƏHƏRİ VƏ 17 KƏND AZAD EDİLDİ.
[Saytlar susurdular.]
26 OKTYABR
“farsnews”
İ.Əliyev: Torpaqlarımız geri alana qədər gedəcəyik
28 OKTYABR
“irna”
A.Əraqçi Bakda:

... Əraqçinin Azərbaycan prezidenti ilə görüşü: İ.Əliyev: İran-Azərbaycan sərhədi" dostluq, qardaşlıq sərhədidir"..

[Yenə də döyüşlərin guya sərhədlərdə, yəni Azərbaycan və Ermənistan sərhədində getdiyi ifadəsi işlədilir.]

29 OKTYABR

"irna"

... Ermənistanın 2 təyyarəsi vuruldu

"irna"

... Bakı bürosu

Ermənistanın hücumunun qarşısı alınıb.

"farsnews"

Ermənistanın 2 təyyarəsi vuruldu

30 OKTYABR . 9 kənd azad edilib

"irna"

Bakı azad olunmuş ərazilərdə hərbi komendantlıq yaradır

1 NOYABR

"tasnim"

Qafqaz üzrə ekspertlə Qarabağ münaqişəsinin təhlili: ənənəvi xarici siyasət dövrü başa çatıbdır.

Xülasə.... Hələlik 2 min kv.km Azərbaycanın əlinə keçib. Başlayanı kim olduğu bilinməyən bu böhran

Əli Səadət-Türkiyə və Qafqaz üzrə ekspert

Səadəti: Şuşa mühasirədə, ənənəvi türk müharibə modeli olan aypara şəklində hücum edilir. Ona görə şəhərə girməyib, gözləyiblər ki, mülki əhali çıxsın. Bu həftə Laçın bağlanacaq. Bakı hər dəfə atəşkəsə müsbət cavab verir. Lakin üstünlüyə və inkişaf etmiş silaha malik olan və keçən bir ayda görünməmiş irliləyiş edən ölkə atəşkəsi pozacaq. Ermənistan mülki obyektləri bombalayaraq Azərbaycanı atəşkəsə məcbur etmək istəyir.

[İran saytlarında Azərbaycanın Vətən müharibəsi haqqında, hərbi taktika və texniki təchizatı, bir sözlə qələbələri haqqında azçox düzgün təsəvvür yaradan yeganə yazıdır. ]

"farsnews"

Əliyev: Torpaqlarımızı geri alırıq, Ermənistana qarşı Səddam kimi sanksiya tətbiq edilməli idi.

... İ.Əliyev: Ermənistanda hərbi əməliyyat keçirmək məqsədimiz yoxdur.

“isna”

Türkiyə üzrə ekspert-Məhəmmədəli Dəstmali

... Qeyd:

Azərbaycan və Türkiyənin Qarabağda gerçək məqsədi nədir?

Ərdoğan və Əliyevin istədikləri Qarabağın azad olmasından daha az bir şeydir.

Deməli məqsəd - bir neçə strateji məntəqəni azad etməkdir.

Rusiya müdaxilə etsə, Minsk qrupu münaqişənin dondurulması barədə qərar qəbul etsə, heç kim Azərbaycanı azad etdiyi ərazilərdən çıxara bilməz.

Bu da xarici qüvvələrin müdaxiləsini və Azərbaycanı ram etməsini mümkünsüz edəcək.

[Müəllif nədənsə Azərbaycan rəhbərliyinin Qarabağı azad etmək məqsədi olmadığını bəyan edir. Eyni zamanda müxtəlif təzyiq mərkəzlərinin olduğunu xatırladaraq Azərbaycanın ehtiyatla hərəkət edərək artıq azad etdiyi əraziləri geri qaytarmamaq üçün real əsas yaratmağa çalışdığını nəzərə çatdırmağa çalışır. Başqa sözlə, müəllifə görə Azərbaycan ən az  ərazi azad etdiyi halda onu əldən verməmək üçün zəmin yaratmağa çalışdığını göstərmək istəyir. Amma hadisələr göstərdi ki, Azərbaycan qarşısına minimum deyil, maksimum hədəf qoymuşdu ].

5 NOYABR

“anaj”

Qarabağ münaqişəsinin sona çatmasının həll yolu

İranın Azərbaycanda keçmiş səfiri Möhsün Pakayinin İranın mövqeyi haqqında qeydləri:

Rəhbərin dedikləri......, şərh.... biz də torpaq uğrunda müharibə etdik, indi Azərbaycanın haqlı olduğunu deyirik.

Erməmistan “öz müqəddəratını təyin etmə” prinsipinə əsaslanmağa çalışır, amma beynəlxalq hüquqda bu prinsip  ərazi bü-

tövlüyündən sonra gəlir. Azərbaycan ərazi və suverenliyi çərçivəsində Azərbaycan millətinin bir hissəsi olan Qarabağ ermənilərinin hüquqlarını təmin etsin..

[Obyektivliyi ilə seçilən keçmiş səfir Ermənistanın istinad etmək istədiyi prinsipinin elə bir uğur vəd etmədiyinə diqqət çəkir. ]

7 NOYABR 2020. 16 kənd o cümlədən (2 - Xocavənd və 2 - Xocalı rayonlarında)  zad edildi.

8 N O Y A B R

Ş U Ş A   A Z A D   E D İ L D İ !!!

Təbriz saytları - 3 sayt, (burada bəzilərinin adı çəkilir və "anaj" müntəzəm baxılıb) islamist "tasnim" və guya islahatçı və tələbə saytı "isna" ŞUŞANIN  azad edilməsi xəbərini vermədilər. "Farsnews" xəbəri versə də, ona şübhə gətirən xəbərləri də verir. Yalnız "irna" saytı tarixi hadisəyə ona layiq reaksiya göstərib, Azərbaycan Respublikasının Prezidentinin müraciətinin geniş icmalını vermişdir.

9 N O Y A B R

**72 YAŞAYIŞ MƏNTƏQƏSİ, O CÜMLƏDƏN XOCALIDA 4, XOCAVƏNDDƏ 5 KƏND VƏ DAHA 1 QƏSƏBƏ DÜŞMƏNDƏN AZAD EDİLDİ**

"anaj"

"Middle East"-ın yazısının icmalı: Naxçıvan-Azərbaycan koridoru açılanda Ermənistan-İran sərhədi aradan gedir, İran bu cür dəyişikliyə etiraz edir.

Etnosentristlərə lazımdır ki, Türkiyə Xəzərə çıxsın və İran təcrid olunsun

[Sayt onun və demək olar ki, İranın Vətən müharibəsi və Azərbaycanın qələbəsinə münasibətini əks etdirən yazının tərcüməsini öz səhfəsində yerləşdirib. Yazıda Azərbaycanın qələbəsinin guya İran üçün ciddi problemlər yaradacağı vurğulanır. Deyilənlərin İranın ümumi baxışlarına uyğun oduğunu nəzərə alsaq, onda həmin ölkənin Azərbaycanla sərhəd bölgəsinə çoxlu qoşun yığmasının səbəbini anlamaq olar].

“tasnim”

Şimal hərbi dairəsinin HHM qüvvələrinin komandanı sərtibe do Əli Əkbər Abbası Təcəddüd: ..Düşmənlərə icazə vermərik [kimdir düşmən], Düşmənlər bilsin: İran İslam Respublikasının müqəddəs sisteminə qarşı kiçik hərəkət belə qəbul edilməzdir. Bu zəmində təcavüzkarlara yerlərini tanıdacayıq. İcazə vermərik ki, ***düşmənlər*** ölkəmizə təcavüz etməyə cəsarət etsinlər

[Azərbaycanın öz ərazilərini işğaldan azad etməsini İran özü, siyasi sistemi üçün təhlükə və təhdid hesab etdiyini dilə gətirməkdən çəkinmir. Azərbaycanın qonşuları arasında Ermənistandan sonra yalnız İran həmin hadisəni özü üçün təhdid hesab etməyə başladı].

10 NOYABR 2020. VƏTƏN MÜHARİBƏSİ Q Ə L Ə B Ə İLƏ BAŞA ÇATDI

“tasnim”

İran Azərbaycan və Ermənistan arasında Qarabağa dair **razılaşmanı alqışlayır**

XİN-in bəyanatı: İran suverenliyə və ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin dəyişdirilməməsi, işğal olunmuş məntəqələrin azad edilməsi, təhlükəsizlik və azlıqların hüquqlarına hörmət, həmçinin BÜTÜN TƏKFİRİ QÜVVƏLƏRİN VƏ XARİCİ DÖYÜŞÇÜLƏRİN REGİONDAN çıxarılmasını vurğulayır.

[İranın antiazərbaycan siyasətinin qondarma əsasları aydın şəkildə vurğulanır]

Beləliklə, nəzərdən keçirilən İran saytları Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi haqqında xəbərləri qeyri müntəzəm və fərqli ifadələrlə öz izləyicilərinə çatdırmışdır. Əvvəlcə onu deyək ki, əsas yaşayış məntəqələri olan şəhər və qəsəbələrdən Füzuli və Zəngilan şəhərlərinin azad edilməsi barədə “irna” saytı, Şuşanın azad edilməsi haqda xəbəri isə “irna” və şübhələr yaratmaq hədəfi ilə “farsnews” saytı vermişdir. Amma kəndlərin azad edilməsi haqqında xəbərləri daha həvəslə vermişlər. Belə ki, ilk gün 6 kəndin ələ keçdiyi (“irna”) bir neçə məntəqəyə nəzarəti ələ keçirdiyi (14 x “farsnews”,”irna”) daha bir neçə kənd (“irna”

15x), daha 22 kənd (“irna”21 x) 20 kənd (“farsnews” 21 x ) 21 kəndin (“irna” 21 x) azad edildiyi xəbəri verilir. İran saytları azad edilən məntəqələr haqqında xəbər verərkən əvvəllər “ələ keçirdi”, “nəzarəti ələ keçirdi” sonra azad etdi və “ələ keçirdi” ifadələrindən istifadə edirdilər. Bundan əlavə Azərbaycanın İranla sərhəd bölgəsinə nəzarət etdiyi (“farsnews” 22 x) Bakını strateji yüksəklikləri ələ keçirdiyi xəbəri (“isna” 24 x) qeyd edilmişdir.

İran saytları ilk vaxtlar və hərdən bir müharibənin sərhəd məntəqələrində, bəzən də Qarabağda getdiyini qeyd edirdilər. İlk vaxtlar Qondarma Dağlıq Qarabağ qurumunu gündəmdə saxlamağa səy göstərən saytlar vardı. Belə ki, Gəncə və Qarabağ (?) şəhərlərinin bombalanması (“tasnim”) Dağlıq Qarabağda (?) müharibə (“farsnews”,) Dağlıq Qarabağın mərkəzinə hücum tələfata səbəb oldu (“farsnews”), Qarabağ HÖKUMƏTİ(?): Gəncə hərbi aerodromunu vurduq, şəhəri boşaldın (“farsnews”) Artsax Respublikasında tarixi abidələrin (kilsə) dağıdılması təhlükəsi (“tasnim” 11) haqqında məlumatlar verilirdi. Oktyabrın 12-dən sonra belə xəbərlər gündəmdən çıxdı.

Bundan əlavə, bəzi ekspert adlanan şəxslər müharibənin gedişini şərh edərkən tarixi faktları təhrif edir və Azərbaycan rəhbərliyinin fəaliyyəti və məqsədi haqqında böhtan danışmaqdan çəkinmirdilər.

Ədalət naminə demək lazımdır ki, nadir halarda ekspertlərdən bəziləri vəziyyəti düzgün dərk etdiklərini nümayiş etdirirdilər və müharibənin gedişini obyektiv şəkildə şərh edirdilər. Yuxarıda belə ekspertlərdən birinin noyabr ayının 1-də verdyi şərhdən iqtibaslar verilmişdir.

Bütövlükdə demək olar ki, İran saytları zahirən müxtəliflik nümayiş etdirsələr də, hadisələrə münasibətdə onların hansı siyasi qüvvələri təmsil etdikləri özünü göstərməklə yanaşı, hamısının Azərbaycanın öz ərazilərini sürətlə azad etməsinə rəğbət göstərmədiklərini vurğulamaq olar.

# 9. VƏTƏN MÜHARİBƏSİNƏ CƏNUBİ AZƏRBAYCANIN VƏ CƏNUBİ AZƏRBAYCANLILARIN MÜNASİBƏTİ

## 9.1 Vətən müharibəsinə Cənubi Azərbaycanın münasibəti

Cənubi Azərbaycan deyəndə ilk növbədə Şərqi Azərbaycan vilayətində mövcud olan yerli rəsmi orqanların rəhbərləri və məsul işçiləri, həmçinin mərkəzi orqanların vilayətdən olan təmsilçiləri tərəfindən səsləndirilən mövqe nəzərdə tutulur. Cənubi Azərbaycan əsasən 4 vilayətə parçalandığından və hər vilayətin öz mərkəzi saytı olduğundan və onların hamısını nəzərdən keçirmək imkanı olmadığından, Şərqi Azərbaycandan yayımlanan əsas sayt olan "anaj" saytı ardıcıl şəkildə və bir-iki az əhəmiyyətli məhdud funksiya yerinə yetirən digər saytlar epizodik olaraq nəzərdən keçirilmişdir.

Şərqi Azərbaycanda 44 günlük Vətən müharibəsinə münasibət bildirən rəsmilər əsasən dövlətin mövqeyini ifadə edib onun göstərişi ilə ümumi siyasətə uyğun mövqe bəyan etsələr də, bir sıra hallarda Cənubi Azərbaycanın da az-çox fərqli mövqeyini hiss etmək olur.

28 sentyabr

"anaj"

Təbriz cümə İmamı: "Mouze e ma himayət əz mərdom Qarabağ əst, tərəfeyn becaye cəng, qoftoqu konənd, rejim səhyonisti amele təhrik və cəng" (Bizim mövqeyimiz Qarabağ xalqını dəstəkləməkdir, tərəflər müharibə əvəzinə danışıq aparsınlar, ***sionist rejimi*** təhrk edici və müharibə amilidir)

"Mən xalqın mövqeyini deyirəm: birincisi, şəhidlərə təəssüf edirik, ikincisi, Qarabağ xalqını (?) dəstəkləyirik".

"Ermənistandan tələb edirik ki, hərbi hərəkətlərdən əl çəksin".

Silahlı münaqişə sionistlərin təhriki (?v.m.) nəticəsində baş verib..

[Təbriz cümə imamı Seyid Məhəmməd Əli Al Haşım İranın Ali Rəhbərinin 2017-ci ildən Şərqi Azərbaycanda nümayəndəliyinin rəhbəri, 2009-2016-cı illərdə Silahlı qüvvələrin siyasi-ideoloji təşkilatının rəisi olub]

"anaj"

Mənsur Həqiqətpur:

Qarabağı Azərbaycan gəncləri azad etməli, [Suriyadan gətirilən] terrorist muzdurlar yox. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Kənar qüvvələr işğalda əsas rol oynayıblar. Əsas xain Xalq Cəbhəsidir: "Qarabağı verib hakimiyyətə gəldilər". Hələ də geri almaq iradəsi görünmür, islamçılar var. İran Türkiyəyə icazə verməməlidir ki, həmin ölkə çirkin bir əməlin mühəndisi olsun və ***təkfirilər*** məntəqədə cövlan etsinlər. İradə olsa idi, təkfirilər gətirilməzdi.

[Mənsur Həqiqətpur. Atası Ərdəbildən, özü isə Tehranda anadan olub. Keçmiş "sepah" generalı, strateji idarəetmə üzrə doktor (Phd), Birinci Qarabağ müharibəsi zamanı 2 ilə yaxın (1993-1994) hərbi müşavir, 2008-ci ildən 18 ay ərzində Ərdəbil ostanının ostandarı, 2012-2016-cı illərdə Ərdəbildən parlamentin deputatı, 2016-2020-ci illərdə Spikerin müşaviri, türk (azərbaycanlı) kimliyi, Azərbaycan Respublikası, onun hakimiyyətinə qarşı düşmənçilik mövqeyi sərgiləyir.]

29 sentyabr

"anaj"

"Kamazha fağede təchizate nezamiyənd və bəraye colugiri əz sue təfahom depo şodənd" (Kamazlarda hərbi texnika yoxdur, anlaşılmazlıqların qarşısını almaq üçün depoda saxlanır)

Şərqi Azərbaycan valisinin (ostandarının) siyasi və təhlükəsizlik üzrə müavini Rastqu: Kamazlar boşdurlar, Ermənistan Rusiyadan alıb və İran vasitəsi ilə gedir.

[Əlyar Rastqu, Ali Milli Təhlükəsizlik Şirasının Katibliyinin keçmiş rəisi, Kürdistanda ostandarlığın Siyasi və İntizam işləri üzrə Baş direktoru və əsasən Şərqi Azərbaycanda şəhristanlarda fərmandar işləmiş, 2019-cu ildən qeyd edilən vəzifədə işləməyə başlamış, 2021- ci ildə vəfat edib.]

30 sentyabr

“anaj”

“Nəmayəndeqane Təbriz yeksəda hamiye bazpəsgiriye Qarabağ, təbəate namətlube dexaləte xareci” (Təbriz deputatları yekdilliklə Qarabağın geri alınmasını dəstəkləyirlər, Xarici müdaxilənin arzuolunmaz nəticələri)

“Deputatlar bəyanatlar və müsahibələrində bir nəfər kimi Qarabağın məzlum xalqını dəstəklədilər”.

Məhəmməd Rza Mir Tacəddin: “Qarabağ *İslamın (? - V.M.)* qoynuna qayıtmalıdır. İşğala yol verilməməlidir. XİN və siyasilər susmamalıdırlar”.

Məsud Pezeşkiyan: “İslam (? - V.M.) torpağıdır, nöqtə. İşğal yol verilməzdir”.

Ruhulla Mütəfəkkire Azad: “Erməistan BMT TŞ Qətnamələrinin tələbinə görə işğal olunmuş əraziləri tərk etməlidir”.

Əhməd Əlirza Bigi: “Qarabağ şiə (?v.m.) cavanlarının əli ilə azad olunmalıdır. Azərbaycan İsraildən üz çevirməli (/ - V.M.)”. Ermənistanın hər cürə hərbi gücləndirilməsi pislənir. “Biz Qarabağın azadlığını dəstəkləyirik, amma Qarabağ ***sionistlər*** üçün bir sığınacaq olmamalıdır”.

Əlirza Monadi: Sionist rejimin oyunları (? - V.M.) barədə xəbərdarlıq. Həlak olanlar ŞƏHİDDİRLƏR. Bu ərazinin AZƏRBAYCANA və müsəlmanlara aid olduğunu deyirik”.

Məhəmməd Hüseyn Fərhəngi: “Qarabağ şiə (? - V.M.) **Azərbaycanın** bir hissəsidir. Şimal-qərb deputatları *Qarabağ xalqını* dəstəkləyən aydın, şəffaf bəyanat verəcəklər, hökumətdən region xalqını (?- V.M.) dəstəkləməsi istəniləcək. Hökumət və XİN-dən istəyimiz odur ki, bu məsələnin həllinə çalışsın”.

[Təbrizdən İran parlamentində cəmi 6 deputat var və onlar artıq müharibənin 4-cü günü zahirən müxtəlif şərtlərlə bir nəfər kimi Azərbaycanın haqq işini müdafiə etmiş, hökumətdən qəti mövqe göstərməyi tələb etmişlər. Təbriz deputatlarının belə mövqeyi panfarsist hökuməti qane etmədiyindən, Cənubi Azər-

baycana qarşı  müəyyən şübhələrə düşərək, Cənubi Azərbaycanda nəzarəti gücləndirmək istiqamətində tədbirlər görməyə başlamışdır.]

1 oktyabr

“anaj”

Rəhbər ilk gündən Qarabağı Azərbaycan və İslam torpağının bir hissəsi hesab edir.

Daxildə bir qrup İranın mövqeyini təsirsiz sayır. Halbuki Birinci Qarabağ müharibəsi zamanı iranlı hərbi müşavirlər Azərbaycan ordusuna müşavir yardımı göstəriblər. Guya mərhum prezident Heydər Əliyev “onların orada olmasını istəmirdi”.

Rəhbər 1371\1992 Həcc Konqresinə məktubunda müsəlmanların kütləvi qırğınına dövlətlərin biganə qalmasını, İranın vasitəçiliyinə mane olduqlarını vurğulamışdır.

Rəhbər 1372\1993-də Təbrizdə Qarabağ ermənilərinin Ermənistanın köməyi ilə müsəlmanlara ZÜLM etdiyini pisləyir.

Nəhayət Xameneinin Ermənistanı təcavüzkar adlandırması (1994) (?) və tezliklə  müharibənin haqq cəbhəsinin qələbəsi ilə başa çatacağı fikri verilib.

Rəhbər 1397\2018 Paşinyanla görüşündə deyib ki, danışn biz də danışıqlara kömək edərik.

[Sayt Rəhbərin münaqişə yarandığı ilk gündən Azərbaycanı dəstəklədiyini, İranın Azərbaycana müşavir yardımı göstərdiyini və ermənilərin müsəlmanlara qarşı davranışını pislədiyini, hətta Ermənistanı təcavüzkar adlandırdığını, daxildə İranın münaqişədə bitərəf mövqe tutması və həllinə təsir etmədiyi fikrində olanların diqqətinə çatdırır.

Rəhbərin Cənubi Azərbaycan, İran və dünya müsəlmanları auditoriyasına hesablanmış ideoloji-təbliğati çıxışlarının İranın Birinci Qarabağ müharibəsi zamanı yeritdiyi ermənipərəst siyasətinə heç bir təsiri olmamış və söz olaraq qalmışdır.

Bununla belə, sayt Rəhbərin mövqeyini bir daha nəzərdən keçirməklə Azərbaycanı dəstəkləməyin dövlətin ali siyasətinə zidd olmadığını göstərməyə cəhd etmiş olurdu.]

“anaj”

İİR Liderinin Cənubi Azərbaycan vilayətlərində nümayəndəliklərinin rəhbərlərinin birgə bəyanatı [Bəyanat yalnız “farsnews” və “khabarfarsi. com”, “hawzahnews.com” saytlarında yerləşdirilmiş, hökumət saytı olan “irna”-da dərc edilməmişdir.]

Şərqi, Qərbi Azərbaycan, Ərdəbil, Zəncan imam cümələri özlərinin rüblük iclasının sonunda bəyanat yaydılar. Bəyanatda o cümlədən deyilir ki, Qarabağın **işğal** olunmasında və **Azərbaycana** məxsus olmasında heç bir şübhə yoxdur, bu ərazinin əhli beyt ölkəsi olan Azərbaycana qaytarılmasında heç bir şübhə yoxdur və Azərbaycan hökuməti bu ərazini geri almaqda tamamilə **qanuni və şəri hərəkət** edib və bu addımı ilə BMT TŞ 4 Qətnaməsinin icrasını təmin etmək istəyir. İran daim Azərbaycana dəstək və yardım edib, bütün beynəlxalq toplantılarda Azərbaycanın ərazi bütövlüyünü müdafiə edib. Xarici işlər nazirliyi də bu günlər yenidən **ərazi bötövlüyünü** vurğuladı.

İranın inayəti olmasa idi, Bakıya qədər işğal edərdilər (? - V.M.). İndi də Naxçıvana yeganə quru yolunu İran səxavətlə Azərbaycanın ixtiyarına verib. Son vaxtlar iki ölkə münasibətlərinin düşmənləri uydurma bəhanələrlə hay-küy qaldırıb İİR-i XƏYANƏTdə ittiham etmişlər.

“**Biz son qələbələri bayram edərək**, böyük Allahdan BÖYÜK AZƏRBAYCAN MİLLƏTİNİN şəhidlərinə ali dərəcə xahiş edirik”.

Silahlı münaqişə “Haqlının haqqının təmin olunması ilə başa çatsın”.

[Azərbaycanın ən yüksək vəzifəli və dərəcəli ruhaniləri Azərbaycanın mövqeyini son dərəcə açıq və qəti şəkildə müdafiə etmiş, İranda rəsmi səviyyədə ilk dəfə Ermənistanı işğalçı adlandırmış, Qarabağın Azərbaycan ərazisi olduğunu vurğulamış, Qarabağın azad edilməsinin BMT TŞ Qətnamələrinə, qanun və şəriətə uyğun olduğunu vurğulamış və ilkin hərbi uğurları bayram edərək son qələbəyə inam bildirmişlər. Bəyanatda İranda bundan əvvəl və sonra heç zaman eşidilməmiş “Böyük Azərbaycan milləti” ifadəsi işlənmişdir

Bəyanat mərkəzi hakimiyyətin göstərişi ilə verilsə də, sənədi hazırlayanların azərbaycanlı kimliyi özünü ən bariz şəkildə göstərmişdir. Bəyanatın "irna" saytında yayımlanmaması isə onun hökumətin mövqeyini əks etdirməməsinin göstəricisi idi.]

"anaj"

Şimal-qərb deputatlar qrupunun bəyanatı

Bəyanat həmçinin "isna" və "snn.ir" saytlarında yerləşdirilib

Mətni: "Bütün elmi, tarixi sənədlər Qarabağın *İSLAM ÖLKƏSİ (? - V.M.)* olduğunu təsdiqləyir. BMT TŞ 822, 853, 874, 884 saylı Qətnamələri də Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyini tanıyıb, Ermənistanın Qarabağ ərazisindən çıxmasını tələb edib.

Bu arada ziyanverici hərəkətlərin qarşısını almaq üçün tərəflərin fundamental hüquqlara riayət etməsi, düşmənçiliyə son qoyması və qarşılıqlı milli suverenliyi qəbul və hörmət etməsi gözlənilir.

Biz həmçinin trans-regional hərbi və hərbiləşdirilmiş qüvvələrin müdaxiləsini (? - V.M.) region xalqlarının və onların müvafiq hökumətlərinin maraqlarına uyğun görmürük və hesab edirik ki, bu qüvvələrin daxil olması regionun sabitliyinə zərər verə bilər və bölgədə müharibəni alovlandırar.

Biz dörd vilayətin deputatları İİR Əsas Qanununun 3 və 152-ci Maddələrini əsas götürərək Azərbaycan Respublikasının müsəlman xalqını (? - V.M.) və Qarabağın məzlum şiələrini (? - V.M.) **dəstəklədiyimizi** elan edir və İİR hökumətindən, xüsusən XİN-dən Əsas qanuna və İslam inqilabının yüksək ideallarına, beynəlxalq müqavilələr və qaydalara, mehriban qonşuluq prinsiplərinə dayanaraq bölgədə *sabitlik* yaradılmasına səylər göstərmələrini və öz fəaliyyətləri barədə millətə və məclisə hesabat verməl追 xahiş edirik".

[Şimal-qərb və ya Cənubi Azərbaycanın 4 vilayəti – Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Ərdəbil və Zəncandan olan deputatların adından verilmiş bəyanatdır. Cənubi Azərbaycan İran parlamentində cəmi 43 nəfər (Şərqi Azərbaycan - 19, Qərbi Azərbaycan - 12, Ərdəbil - 7, Zəncan - 5) deputatla təmsil olunmuşdur.

Bu bəyanat daha diplomatik və İran dövlətinin mövqeyinə yaxındır.

1. BMT TŞ Qətnamələri və orada Ermənistana qarşı qoyulmuş tələb  yada salınır, lakin öz tərəflərindən heç bir tələb irəli sürülmür.

2. Yenilik: “Xarici hərbi və yarım hərbi qüvvələrin müdaxiləsi yol verilməzdir” deməklə onların mövcudluğuna işarə edilir. Lakin daha ehtiyatlı tərpənərək təkfiri ifadəsindən istifadə edilmir. Həmin tələbin Ermənistana da aid olduğunu iddia etməyə əsas verirlər.

3. Deputatlar Azərbaycanın müsəlman, Qarabağın şiə xalqını dəstəklədikərini ifadə etməklə sıravi ruhanilər kimi davranır. Halbuki Cənubi Azərbaycan cümə imamları Azərbaycan hökuməti və xalqını dəstəklədiklərini bəyan etmişdilər.

4. Deputatlar İran hökumətindən regionda sabitlik (? - V.M.) yaradılmasına səy göstərməsi istəyirlər.

Ruhanilərin bəyanatı daha ədalətli, xalqın mövqeyinə yaxın və  kəskin idi....]

“anaj”

Saytın redaksiyası tərəfindən hazırlanmış Türkiyə etnik bağlılığa görəmi Qarabağ kampaniyasına daxil olub? ...adlı materialda Türkiyənin rolundan danışarkən hazırki silahlı münaqişənin guya Türkiyə və Azərbaycanın daxili problemlərindən diqqəti yayındırmağa hesablandığı kimi heç bir əsası olmayan ***iftira*** irəli sürülür.

VƏTƏN MÜHARİBƏSİNİN DÖRDÜNCÜ GÜNÜ Cənubi Azərbaycan Şimali Azərbaycanın haqq işini dəstəkləmiş və işğala son qoyulmasını tələb etmişdir. Lakin mərkəzi hakimiyyət hələ ki, tərəfləri danışıqlara dəvət etməkdə davam edirdi. İran ənənəsini nəzərə alsaq, deyə bilərik ki, Cənubi Azərbaycan dini və siyasi rəsmilərinin bəyanatları ilk növbədə Cənubi azərbaycanlıların ictimai fikrini sakitləşdirməyə yönəlmişdi. Mərkəzi hakimiyyət Cənubi Azərbaycanın Şimali Azərbaycanı dəstəklədiyini nümayiş etdirməklə əhalinin həmin rəsmilərin gələcəkdə edə biləcək çağırışlarına əməl edəcəyini güman edirdi. İranın hadisələrin

necə sona çatacağı haqqında təsəvvürünün səhv olduğundan, onun siyasətinə uyğun olacağını güman edərək ermənilərin və onun hamisi olan Rusiyanın xətrinə dəymək istəmədiyini nümayiş etdirirdi. Bu, o demək idi ki, İran Azərbaycanın qələbə çalmasında maraqlı deyildi, yoxsa ilk gündən sərt mövqe sərgiləyə bilərdi. Bütün bunlara baxmayaraq, İran hakimiyyəti Cənubi azərbaycanlı rəsmilərinin dili ilə münaqişədə mövqeyinin variantlarından birini ifadə edərək, həm də qarşı tərəfin reaksiyasını müəyyən etmək istəyirdi. Hadisələr başqa cür inkişaf etdiyi təqdirdə hökumət asanlıqla bəyan edəcəkdi ki, Azərbaycan rəsmiləri hökumətin mövqeyini əks etdirmirdilər.]

5 OKTYABR

"anaj"

Təbriz Tibb Universitetinin tələbələrinin bəyanatı

Təbriz Tibb Universitetinin tələbələri müharibə ilə bağlı bəyanat verdilər. Orada işlədilən bəzi ifadələr "Azərbaycanımızın müsəlman (? - V.M.) qardaşlarımız", "Qarabağ bölgəsinin işğalçıları" bəyanatın məzmunu və hədəfini pərdələməyə yardım etmir.

Bəyanatda deyilir ki, Azərbaycan hökuməti ***sionist*** rejiminə qucaq açaraq, onların Qafqaza yolunu açdı, öz xalqını İber, Amerika oyununa qatdı ki, müsəlmanların məsihi əli ilə öldürülməsinin bəhrəsini yəhudi görsün. "Dünya məzlumlarını müdafiə bizim böyük idealımızdır və biz həmişə Azərbaycanın məzlum əhalisinin *hami*si olub, Qarabağı *İslam* torpağı hesab etmişik".

Türkiyə təkfir və muzdur qruplarının gətirməklə imperatorluq xəyalı qurur, uduzan özü olacaq.

Bəyanatda "terapevt cihadçı həkimlər qrupunun Qarabağa getməyə hazır oduğu və "Azərbaycanın pənahsız müsəlman əhalisinə" ***dəstək*** elan edilir.

[Bu dəfəki bəzi dəstək bəyanatlarının şəri xeyrindən çox idi, çünki Azərbaycan –İsrail münasibətlərinə qarşı olmaq, Türkiyənin mövqeyinə kölgə salmaq və Azərbaycanda terrorist və təkfirçilərin olmasını iddia etməklə onun mövqeyinə mənfi təsir göstə-

rirdi. Bəyanatlarda müsəlmançılıq və şiəliyə də xüsusi vurğu edilirdi. Burada həmçinin Azərbaycan xalqını Azərbaycan hakimiyyətinə qarş qoymaq cəhdi də özünü göstərirdi.

Rəsmi qurumlar Təbrizdə bir sıra təşkilatların bəyanat verməsini təşkil edərək bir tərəfdən yerli əhalinin Azərbaycanı dəstəkləməsini guya alqışladığını, digər tərəfdən onların milli hislərinin antitəkfir, antisionist və antitürkiyə ibarələri ilə zəiflətmək məqsədi güdürdü. Hələ ki Cənubi Azərbaycanın digər şəhərlərində həmrəylik aksiyası və bəyanatlar haqqında məlumat yoxdur.]

"anaj"

Saytın redaksiya yazısında Rəhbərin Cənubi Azərbaycan vilayətlərində nümayəndələri olan cümə imamlarının birgə bəyanatına müxtəlif siyasi-ideoloji cərəyanların münasibəti nəzərdən keçirilir.

Yazıda qeyd edilir ki, 4 vilayətdə fəqih vəlinin nümayəndələrinə qarşı "bir tərəfdən separatist etnosentristlərin media hücumları və digər tərəfdən "iranşəhri" cərəyanının fitnəkarlğı, inqilabi mövqelərin rasionallığı, hərtərəfliliyi və təsirliliyini və hər iki tərəfin radikallarının qəzəb, vurnuxma və çaşqınlığını təsdiqləyir.

Həm separatçılar rüsvay oldular, həm də antidin və antiinqilab stajı və keçmişi olan "iranşəhri"lər narazı qalıblar. Dəstək Azərbaycan hökumətinin səhvləri və düzgün hərəkətlərinə etinasızlıq deyil. Məhz Cümə imamları və inqilabi gənclər xəyanət və pərdəarxası oyunları ifşa etdilər. [Pərdəarxası oyunlar deyəndə] "İsrail müdaxiləsi, Türkiyənin təkfir qrupları yaratmaq" [planı nəzərdə tutulur].

[Cənubi Azərbaycan imam cümələri və deputatlarının hökumətin icazəsi və göstərişi ilə etdikləri bəyanatlar İranda separatçı adlandırılan milli-mədəni fəallar və "İranşəhri' maskası ilə çıxış edən panfarsistlər tərəfindən mənfi qarşılanmışdır. Milli-mədəni fəalların etirazının mahiyyəti və təfərrüatı məlum olmasa da, panfarsistlərin mövqeyi aydındır. Onlar imam cümələr və deputatların guya müstəqil şəkildə bəyanat verdiklərini iddia edərək, həmin addımların guya İranda separatizmi gücləndirəcəyini vurğu-

lamaqla bir tərəfdən hökumətin siyasətinə qarşı çıxır, digər tərəfdən antitürk əhval ruhiyyəsini qızışdırmağa çalışaraq, mahiyyət etibari ilə ölkədə milli münasibətləri gərginləşdirməyə səy göstərirdilər.

Hökumətyönlü saytlar panfarsistləri elementar milli-mədəni hüquqlar uğrunda mübarizə aparan qüvvələri separatçı adlandıraraq zahirən eyniləşdirir. Halbuki hökumət, məsələn H.Ruhaninin prezidentliyi dövründə, "iranşəhri" ideoloqlarına geniş dəstək göstərirdi, onların baş ideolqu hökumət mükafatına layiq görülmüşdü.

"İranşəhri" ideologiyasının mahiyyətini Sasani İranının (224-651) İslamdan əvvəlki siyasi sistemini-dini hakimiyyətin dünyəvi\siyasi hakimiyyətə tabe olması modelini yeni şəraitə uyğun olaraq tətbiq etməyin zəruriliyinin əsaslandırılması, yəni dinin dövlətdən ayrılmasının zəruriliyinin əsaslandırılması təşkil edir.]

"tabrizebidar"

"Hemayəte osuliye İran əz şiəyane (- V.M.) Azərbaycan edame darəd" (İranın Azərbaycan şiələrinə prinsipial dəstəyi davam edir)

Hüccətülislam: Məsayele Fələstin, Yəmən və Qarabağ şəbih be həm əst (Fələstin,Yəmən (? - V.M.) Qarabağ məsələləri bir-birinə bənzəyir)

[Hakimiyyət nümayəndəsi bir tərəfdən din yox məzhəb məsələsini – şiələri ön plana çıxarır, digər tərəfdən bir-birinə bənzəməyən münaqişələrdə oxşarlıq axtarır.]

7 OKTYABR

"anaj"

"Monağeşeye Qarabağ və rahe həlle moslemətamiz, nə cəng bəraye cəng, nə mozakere bəraye mozakere" (Qarabağ münaqişəsi və dinc həll yolu, müharibə xatirinə müharibə, müzakirə xatirinə müzakirə yox)

İranın silahlı vasitəçiliyi bu düyünü aça bilər, bir şərtlə ki, münaqişə tərəfləri dost libasında olan düşmənə bel bağlamayalar.

Bəyanatlar “Azərbaycan Respublikasının haqlı olduğunu və Qarabağın işğalının aradan qaldırılmasını vacibliyinin təsdiq edir”.

Silahlı münaqişədə nədənsə “..İranda etnik uçurumun yaranması üçün yumşaq təhdidlər”.. in olduğu iddia edilir.

Cənubi Azərbaycanın bəyanat vermiş cümə imalarının müdafiəsi

“Ehanət be əəmmeye comeye şemale qərb, qəlbe mərdome Azərbaycan ra cərihedar kərd” (Şimal-qərbcümə imamalarının təhqir edilməsi Azərbaycan xalqının qəlbini yaraladı).

Şərqi Azərbaycan valisi Purməhəmmədi: “Şimal-qərb cümə imamlarının təhqir edilməsi Azərbaycan xalqının ürəyini yaraladı. Şimal-qərb cümə imamlarının mövqeyi ölkənin xarici siyasətinə uyğun idi. XİN və hökumət sözçüləri də həmin mövqeyi təkrar etdilər.”

“tabrizebidar”

[Təbrizdən deputat] Pezeşkiyan: “Şimal-qərb İmam cümələrini təhqir etmək şüurun AŞAĞILIĞINDANDIR”.

[Təbrizdən yayımlanan “anaj” və bəzi digər saytlarda oktyabr ayının 1-dən gedən əsas xəbərlər Şərqi Azərbaycan rəsmilərinin Şimal-qərb və ya Cənubi Azərbaycan imam cümələrinə panfarsistlərin əsassız həmlələri və təhqirləri qarşısında müdafiə etməsi ilə bağlı idi.

İranın milətçi-şovinist dairələrinin cümə imamlarının Azərbaycana dəstək bəyanatına mənfi və düşmən münasibəti panfarsistlərin, bəlkə də bütövlükdə farsların Azərbaycan türklərinə münasibətini və həmin dairələrin İran dövlətinin Azərbaycan siyasətinə təsirini əks etdirir. Onların Azərbaycana düşmənçiliyi prinsipial xarakter daşıyır. ÇOX təəssüf ki, Cənubi Azərbaycan elitası məsələnin həmin cəhətinə ardıcıl diqqət yetirmir və panfarsistlərin azərbaycanlılara qarşı düşmənçilik münasibətini aradan qaldırmaq yolunda, demək olar ki, heç nə etmir.]

10 OKTYABR

“tabrizeman”

Cənubi Azərbaycan cümə imamlarına dəstək

Qulam Hüseyn Məsudi Reyhan

“Onların mövqeyi haqqın özü, ədalətin özü, insanlığın özü, məzlumu müdafiənin özü və Hüseyn inamının özüdür. Xürrəmşəhr müzakirə, yoxsa “Beytül Qüds” əməliyyarı ilə fəth olundu”.

Təbriz imam cüməsi əslində azərbaycanlıların ondan hər zaman gözlədikləri mövqe sərgilədi.

Ərazini azad etmək müharibədən keçir, danışıqlardan yox..

[Qulam Hüseyn Məsudi Reyhan Şərqi Azərbaycanın Əhər şəhərindən, 2008-2012-ci illərdə deputat, 2017-2021-ci illərdə Təbriz şəhər şurasının üzvü olub]

[Cümə imamlarından sonra ilk dəfədir ki, Azərbaycanın ədalətli müharibəsinə **haqq qazandırılır**. Bu fikri Cənubi azərbaycanlı səsləndirib. ]

11 OKTYABR

“anaj”

Cümə imamlarına dəstək davam edir

Təbriz Şəhər Şurasında: “Hoşdar be ihanət konəndeqane əəmmeye comeye Şemale qərb” (Şimal-qərb Cümə imamlarını təhqir edənlərə xəbərdarlıq) .

Şura üzvü Məhərrəm Məhəmmədzadə: “Birinci və axırıncı dəfə olsun”!

“tasnim”, “hawzahnews.com” və bir sıra digər saytlarda, “anaj”-da 12 OKTYABR tarixində getmiş bəyanat:

Ayətulla ozma Nuri Həmədani: “Qarabağ coze cəhane Eslam əst, dər kənare şiəyane an məntəqe həstim. (Qarabağ İslam dünyasının (? - V.M.) bir hissəsidir. O məntəqənin (? - V.M.) şiələrinin (? - V.M.) yanındayıq)

Şiə təqlid məqamı Böyük Ayətullah Nuri Həmədani Azərbaycanın Qarabağ məsələsi ilə bağlı esteftaya ( hər hansı bir məsələyə şəriət baxımdan yanaşılması) cavab olaraq deyib: “Dağlıq Qarabağ İslam dünyasının bir hissəsidir və İslam ölkəsinə qayıtmalıdır”.

Estefta-nın mətni:

Azərbaycan ölkəsi ilə tanışam və bir səfər zamanı o diyarın əhalisinin bir qismi ilə görüşmüşəm və həmin səfər zamanı dedim

ki, Qarabağ İslam dünyasının bir hissəsidir və İslam ölkəsinə qayıtmalıdır.

O diyarın şiələrinin inqilabı ruhu [tələb edir ki] onların torpaqları azad edilməlidir və düşmənlər bilməlidirlər ki, onlar İran və Azərbaycan xalqı arasında nifaq salmağı düşünməməlidirlər. Biz o bölgənin şiələrinin yanındayıq və inanırıq ki, onların tələbləri həyata keçirilməlidir.

[Cənubi Azərbaycanın tərkib hissəsi olan Həmədan vilayətindən olan. hakimiyyətin aparıcı dini qolunu təmsil edən Böyük ayətulla Nuri Həmədani Azərbaycana dəstək ifadə edərək xalq, İslam, şiə anlayışlarını vurğulayır. Hər halda ruhanilər zahirən Azərbaycanı dəstəkləməkdə daha qətiyyətli mövqe sərgiləyirdilər.]

İranın Cənubi Azərbaycan tərəfindən ifadə edilən mövqeyini əks etdirən "anaj" saytı oktyabrın 13-dən məlum olmayan səbəbdən fəaliyyətini müvəqqəti (noyabr ayının əvvəllərinə kimi) dayandırmışdır. Ona görə Azərbaycanın mövqeyi haqqında oktyabr ayının sonrakı günlərində məlumat əldə etmək mümkün olmadı. Mərkəzi saytlarda həmin məsələ ilə bağlı hər hansı bir informasiya müşahidə edilmədi.

17 OKTYABR

"azariha"

Sayt iftira yağdırmaqda davam edir.

Türkiyə Həmzə batalyonunu Bakıya göndərir. Təkfirilər İran sərhədinə çatdılar.

Beləliklə, Cənubi Azərbaycan rəsmiləri müharibənin ilk günləri Azərbaycanın haqq işinə bu və ya digər şəkildə tam dəstək göstərsələr də, ərazilərin işğaldan azad edilməsi coğrafiyası genişləndikcə, xüsusən İranla sərhəd rayonlar azad edildikdən sonra həmin dəstək özünü göstərmədi.

Cənubi Azərbaycan rəsmiləri Azərbaycanın müharibədə qələbəsinə, müharibənin başa çatmasına, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinə heç bir münasibət bildirmədilər. Bunu mərkəzi hakimiyyətin qərarı ilə izah etmək olar. Yəni onların

dövlət səviyyəsində hər hansı bir məsələyə öz münasibətini bildirmək haqqı yox idi. Deməli, müharibənin başlanğıcında Azərbaycana göstərilən dəstək mərkəzin göstərişi ilə olmuşdur.

## 9.2. Vətən müharibəsinə Cənubi azərbaycanlıların münasibəti

Cənubi azərbaycanlılar deyəndə mərkəzi və yerli hakimiyyət qurumlarında bu və ya digər şəkildə təmsil olunmamış azərbaycanlılar nəzərdə tutulur.

**28 sentyabr**

**"anaj"**

"Esabəte 5 raket be noğate mərzi, təzəkkore rəsmi be tərəfhaye dərgir" (Sərhəd məntəqəsinə 5 raket düşməsi, münaqişə tərəflərinə rəsmi xatırlatma)

Sərhəd bölgəsinə 5 raket dəydi, 4 partladı, 1 yox, xəsarət verməyib, boş yerə, çəmənliyə düşüb.

Xalq sərhədə yığılıb döyüş əməliyyatlarına ***tamaşa*** edir.

**29 sentyabr**

"tabrizebidar"

Siyasi ekspert Cavanpur Əziz, "Mərdome dinmədare Comhuriye Azərbaycan bəraye azadsaziye Qarabağ niyazi be efratiyun nədarənd" (Azərbaycanın dindar xalqının Qarabağı azad etmək üçün radikallara eytiyacı yoxdur)

Yazıda o cümlədən deyilir: "Qəti şəkildə dəstəkləyir və dua edirəm. Bütün müsəlmanların vəzifəsi Azərbaycana kömək etməkdir. İşğal edilmiş torpaqları gənclər  azad etməlidirlər. İsrail qovulsun (? - V.M.), sonra müzakirə aparmaq olar".

"Kim haqlıdır?" adlı digər yazıda beynəlxalq hüquq baxımından tarixi araşdırmada Azərbaycanın haqlı olduğu əsaslandırılır.

"tabrizeman"

Qeyd: “Zərurəte həmrahiye İran ba şəhrvəndane Azərbaycan dər məsəleye Qarabağ” (İranın Qarabağ məsələsində Azərbaycan VƏTƏNDAŞLARI ilə birlikdə olmasının vacibliyi)

[Demək olar ki, yeganə yazıdır ki, Azərbaycanı dəstəkləməkdən danışarkən “İslam”, “müsəlman”, “şiə” terminlərindən deyil, vətəndaş anlayışından istifadə edilir.]

3 OKTYABR

“anaj”

Qafqaz məsələləri üzrə ekspert, sosioloq şərh edir,

Seyid Cavad Miri

Hökumət Qafqazın şiə əhalisini Ankaraya tərəf itələməməlidir. İranın məcazi məkanını bu 6 gündə Azərbaycan türkücəsində dini məzmunlu (xüsusən şiə) kliplər doldurub, analitiklər təhlil etməlidirlər.

Müharibəni Bakı və İrəvanda yox, ***Tel-Əviv və Parisdə*** planlaşdırıblar.

Azərbaycanda şəhidlərin dəfni, şiəliyin yeni doğuşu, şiəliyin təbliği və möhkəmlənməsi üçün istifadə edilir, perspektivdə bu İranın xeyrinədir. Posttürkmənçay atmosferi yaranır. İranda azərbaycanlı fəallar ona mültəfit olmalıdırlar ki, öz enerjilərini İ.Əliyevin məqsədi yolunda xidmətə sərf etməməlidirlər, çünki” inqilabi şiəliyin yenidən doğulması ilə heç bir əlaqəsi yoxdur”.

“Bakı dövlət adamlarının diskursu etnik kimliyə (qövmü), İslam ideologiyasının diskursu İslam internasionalizminə, güclü şiə uklonu ilə əsaslanır. Qafqaz bu baxımdan əhli beyt şiəliyin davamıdır ki, dili türkidir. Bu haman zamandır ki, İranda hökumət strukturu onu dərk etməli ki, Qafqazın şiə əhalisini Ankaraya tərəf itəlməsin”.

Dünya erməni lobbisinin İranı mat etməkdə rolunu dərindən görməlidir.

[İranın ali təhsil və araşdırma qurumlarından birində çalışan bir azərbaycanlı olsa da, daha çox öz şəxsi, subyektiv mövqeyini ifadə etdiyini demək olar. Müəllif Qafqaz adlandırdığı Azərbaycan Respublikasında baş verən bütün mühüm tarixi hadisələrə di-

nin, xüsusən şiə məzhəbinin, rolunun güclənməsi və həmin prosesə baş verən hadisələrin uyğun gəlib-gəlməməsi baxımından yanaşır.]

"anaj"

"Şərq" qəzetinin Şimal-qərb cümə imamlarına hücumu

Qəzet İmam cümələri əsas strategiyaya zidd, xarici siyasətə zidd və daxili etnik millətçiliyi qızışdıran və təhrif edən fərdlər hesab edir. Onları avtoritarizm və etnosentrizmdə günahlandırır. Onları keçən həftə (1 oktyabr), 4-cü gün Qarabağa dəstək məqsədi ilə keçirilən az saylı toplantının səbəbkarı adlandırır.

Sayt yazıda irəli sürülən ittihamları rədd etmək üçün yazır: "Bu bəyanat Azərbaycan xalqının İslam və şiə kimliyini separatist və etnosentrist hərəkatdan ayırdı".

["Anaj" mühafizəkar dairələri təmsil etdiyindən, islahat dairələrinin mətbu orqanı kimi təqdim edilən, lakin panfarsist ideologiyanın daşıyıcısı olan "Şərq" qəzetinin Cənubi Azərbaycanın yüksək məqamlı ruhanilərinin hakimiyyətin mövqeyini ifadə etdiyindən çıxış edib, onlara qarşı böhtan və təhqirlərə qarşı çıxmağı özünə borc bilirdi. Sayt öz əsas ideya-siyasi istiqamətinə sadiq qalaraq Cümə imamlarının Azərbaycan Respublikasının müsəlman və şiə xalqını müdafiə etdiyini, bəyanatın etnosentrist və separatist adlandırılan milli-mədəni fəallara qarşı yönəldiyini xüsusi vurğulayır]

"irna"

Xudafərinə mərmi düşməkdə davam edir, 2 kəndə, boş sahəyə 10 mərmi düşüb, amma təhlükəlisi, müharibəni seyr etmək üçün adamların toplanmasıdır.

Ərdəbil: "Təmaşaye cəng" (Müharibəyə tamaşa etmək)

İnsanlar müharibəyə bir neçə yüz metrdən tamaşa edirlər. Axşam tamaşaçıların sayı artır. Bəziləri damlardan seyr edirlər. Atəş səsləri də lap aydın eşidilir və yuxuya imkan vermir. Şüşələr silkələnir. Raket və mərmilər məktəbin yanına, əkin yerlərinə düşüb, Araz kənarı meşələri yandırıb. Bir çoxları kəndi tərk ediblər.

[Agentliyin Ərdəbil vilayəti üzrə (çox güman ki, azərbaycanlı) müxbirinin qeydlərində döyüşlərin Cənubi Azərbaycana yetirdiyi bəzi xəsarət və sərhədə yaxın məntəqələrin sakinlərinin müharibəyə tamaşa obyekti kimi baxmaları əks olunub.]

4 OKTYABR

"anaj"

Yerli siyasi fəal və ekspert Mehdi Nalbəndi saytda Qarabağın Eynəl-Verdeyə çevrilməsindən narahatlıq ifadə edən yazı yerləşdirmişdir.

[Eyn əl-Verde İraqda Dəclə və Fərat çayları arasındakı regionda bir məntəqədir. Məntəqə Təvabin qiyamı baş verməsi ilə məşhurdur. Süleyman ben Sərd Xəzainin başçılıq etdiyi qoşunlar Hüseyn ben Əlinin intiqamını almaq üçün h.q. 65\684-cü ildə üsyan etmiş, Abdulla İbn Ziyadın başçılıq etiyi Əməvi qoşunları ilə vuruşmuş, 4 gün davam edən döyüşlərdə üsyan başçısı və çox sayda tərəfdarı həlak olmuşdur. ]

Yazıda qeyd edilir ki, İrana düşən mərmilər deyir ki, passivlik müharibəni İranın daxilinə keçirəcək. "Qırıntıları artıq gəlib bizim evimizə çatdı".

İmam Cümələr yaxşı və vaxtında bəyanat verdilər. Ona insafdan uzaq və layiq olmadığı reaksiya göstərildi, guya bəyanatda normaları sındıran bəzi məqamlar var.

"Məgər bəyanatdan sonra bir qrup küçələrə çıxdı, etiraz və dəstək nümayişləri ondan əvvəl və xəbərsiz olurdu". "Əksinə media həmləsi, rəqibin diskurs yaratması separatist şüarların ölkəyə gətirilməsinə səbəb oldu". Bu şüarlar bəyanatdan irəli gəlmir, onun harasında irq və türkü müdafiə var. Bu bəyanat yalnız müdafiə olunanı dəstəkləmək deyilmi.

Bəyanatda son fitnənin mərkəzini göstərdilər, İranda və ondan kənarda (sərhədin o tərəfində) narahat olanlar bir səs oldular."

"Düşmən Qarabağı bəhanə edərək bizimlə Təbriz, Ərdəbil, Tehran küçələrində vuruşmaq istəyir".

"İndi passivlik vaxtı deyil, indi İsraillə media müharibəsində vuruşmaq lazımdır, hücumlara cavabı Bakı, İstanbul, cənazə mərasimləri verməlidir. Regionda "DAİŞ" var? Olsun, onlar məclisə

qədər gəldilər", "Şərq" [qəzeti] əhlindən kim əl üstünə əl qoy-du"?.

"İllərdir ki, biz Azərbaycan Respublikası hakimiyyətindən giley edirik ki, islamistlər zindandadırlar. Artıq Qafqaz olmaya-caq, amma Azərbaycan Respublikası, Azərbaycan, əhli-beyt evi-dir, istər prezident cənab Əliyev olsun, istər M.Səmədov..... zin-danda olsun. Mən əvvəl də demişəm, Bakı Tel-Əviv olmayacaq. Düşmənin hiylələrini nə qədər gec deyil, başa düşsə idik".

"Xomeyni diskursu ilə inqilab etmək olmaz və Kəsrəvi dis-kursu ilə ölkəni idarə etmək olmaz".

"Biz heç bir ölkə və millətin düşməni deyilik, amma ölkəsi işğal olunan MÜDAFİƏÇİNİ himayə edirik".

"Nəinki 4 İmam cümə, BİZ HAMIMIZ Qarabağın azad olunmasının müdafiəçiləriyik".

[Mehdi Nalbəndi mədəni və media fəalı kimi təqdim edilir. Əslində isə Azərbaycan Respublikası hakimiyyətinə qarşı çıxış edən, inqilab ixracıına xidmət edən, dini xurafatı, İranın maraqla-rına xidmət edən Şimali azərbaycanlı din adamlarını müdafiə edən, ideoloji yüklü kitab və çox saylı yazıları ilə tanınan müəlliflərdən biridir. Amma həmin yazısında qeyd edilən mövqedən Azərbayca-nın haqq işini qətiyyətlə müdafiə etdiyini, eyni zamanda Azərbay-cana dəstək ifadə etmiş cümə imamlarına qarşı ədalətsiz ittihamları rədd etməyə qeyrət göstərdiyini qeyd etməmək olmaz.

Azərbaycan Respublikası işğal olunmuş ərazilərini azad et-mək uğrunda müharibəyə başlayandan və ilk günlərdən qələbələr qazanaraq Cənubi azərbaycanlıların yuxarı dairələrini azərbay-canlı olduqlarını dilə gətirməyə məcbur etdi. Cənubi azərbaycan-lılar şiə kimi hüquqdan danışanda islahatçılar, liberallar və s. aya-ğa qalxır, türk, hətta azərbaycanlı kimi hüquqdan danışanda həm panfarsistlər, həm də fars və türk panşiəçilər ayağa qalxırlar. On-ların hamısı hələlik antiazərbaycan plarformasında birləşiblər. Bunu Cənubi azərbaycanlılar yaxşı bilir, lakin legitim müqavimət üsulu tapa bilmirlər.]

5 OKTYABR 2020

"tabrizebidar"

“Təcəmmoe təbriziha dər hemayət əz Qarabağ” (Təbrizlilər Qarabağa dəstək toplantısı keçirdilər)

[Nəzərdən keçirilən saytlarda, xüsusən Təbrizdən yayımlanan “anaj” saytında Təbrizdə Qarabağa dəstək məqsədilə keçirilən toplantı haqqında heç bir məlumat yoxdur. Ona görə “tabrizebidar” saytının istisna təşkil etdiyini demək olar.]

“araznnews”

“Cəmi əz SİNEMAGƏRANE Azərbaycan ba sodure bəyaniyye əz..”(Azərbaycan kinematoqrafçılarından bir qrup bəyanat verərək ...[Azərbaycana dəstək ifadə etmişlər])

[Bu hadisə nəzərdən keçirilən saytlarda öz əksini tapmayıb. Görünür, bəyanatda artıq tanış olan sabit klişelərdən istifadə edilmədiyinə görə tirajlanmayıb. ]

“azariha”

Hamed Kazımzade

“Neqahi be təhəvvolate əxir dər Təbriz, qaeleye ferqe, pantorkism və Qarabağ” Təbrizdə son hadisələrə bir baxış.., firqə qiyamı\qailəsi, pantürkizm və Qarabağ)

Namaz meydanında məhdud sayda təbrizli toplanıb. Qarabağın müsəlman xalqını himayə etdi. “Qarabağa dəstək şüarları deyib, İranın digər qövmlərini təhqir etdilər”.

Müəllif toplantının təşkil olunduğunu iddia etmək üçün Şərqi Azərbaycan valisinin siyasi müavininin dediyi sözləri sitat gətirir.

Valiliyin siyasi müavini: “bu toplantı sosial şəbəkə çağırışı ilə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmək üçün idi”..

Bir neçə yazı başlığı:

..İkinci Qarabağ müharibəsi və Bakıda antiiranizm

...Bakıda  təkfirilər çadrasız qadına həmlə etdilər

...Qarabağ müharibəsində Türkiyənin rolu. Türkiyə təkfiriləri Azərbaycana gətirir

[“Azariha” saytı bütün hadisələrdən Azərbaycana, azərbaycanlı\türk kimliyinə qarşı iftira və böhtan atmaq üçün istifadə edir.]

6 OKTYABR

“azariha”

Cənubi Azərbaycan şair və yazıçıların bəyanatı

“Qarabağ İranın Qafqaz əyalətlərindən biridir (? - V.M.). Türkmənçay sülh müqaviləsi ilə İrandan ayrıldı. Şairləri fars və azəri dilində yazıblar. Bu da “həmin reallığın dəlili və oranın tarixi və İran kimliyinin əlamətidir”.

Mediada qeyd olunur ki “təkfirilər İranın qonşuluğundadırlar, İsrail istəyir ki, atəş şölələri və iğtişaşlar etnosentrist, antivətənpərvər dairələr tərəfindən Təbrizə... də gəlib çatsın. Halbuki Qarabağ münaqişəsinin əsas səbəblərindən bir də etnosentrizmdir”.

“Beynəlxalq qanunlar, prinsiplər və ədalət əsasında sülhün bərqərar olması və [iki qonşu ölkə arasında] məsələnin həlli üçün müzakirələin dəstəklənməsi - Rəhbərin mövqeyidir”.

“Hər cür təcavüz, işğalçılığı və hücumu pisləyirik”.

Bəyanat İran ərazisinə - Cənubi Azərbaycana raket və mərmilərin düşməsi ilə bağlı verilib.

Tam olmayan siyahıda 98 imza vardır.

[Bəyanatda bir dəfə də Azərbaycan adı çəkilməyib. Azərbaycanda bu qədər MİLLİ KİMLİKSİZ doktor, jurnalist, şair və “mədəni fəal” varsa, VAY Cənubi Azərbaycan xalqının halına. Telefilmdə deyildiyi kimi panfarsistlər bir milli-mədəni fəalın qarşısına beş antimilli fəal çıxarır.]

7 OKTYABR

“anaj”

Vəhid Rzazadə:

Müəllif Azərbaycanı dəstəkləyir. O, Qarabağ məsələsində ruhanilərin Azərbaycana dəstəyinə görə İranda fars-türk qarşıdurması yarandığını qeyd edir.

10 OKTYABR

“anaj”

Medianın məsuliyyəti haqqında

Bəzi xarici media iddia edir ki, İran Ermənistanı dəstəkləyir.

Rəhbərin müşaviri və hökumətin sözçüsü işğal olunmuş torpaqların azad olunmasından danışıblar, bu istiqamətdə BMT TŞ 4 Qətnaməsi də var. “Media işğal olunmuş bölgələrin azad olunmasından, sabitlik və danışıqlara ehtiram prinsipindən danışmalıdır”.

[Yazıdan belə məlum olur ki, İranda onun Ermənistanı dəstəkləməsinə etiraz məzmunlu yazılar meydana gəlirdi və ya xarici mediadan iqtibaslar edilirdi. Ona görə İranın tutduğu mövqe bir daha diqqətə çatdırılır və medianın fəaliyyətinin əsas istiqaməti vurğulanır ]

12 OKTYABR

"irna"

"Zendegi zire sayeye cəng" (Müharibə kölgəsində həyat)

Sərhəd bölgəsindən reportaj

60 yaşlı köçəri Abbas Məhəmmədxani, Xocalı tayfasından, ancaq ölkəsi İrana inamı və sevgisindən danışdı.

45 yaşlı kababçı (kafe sahibi) Vəli Şeyx Müqəddəm: "Müharibə başlayandan gəlirimiz artıb, hər yandan tamaşaya gəlirlər, amma BİZ müharibənin uzanmasını istəmirik. Arazın hər iki tərəfinin xalqının arzusu Qarabağın azad edilməsidir". (V.M. bu da kababçı)

O dedi: "27 il əvvəl həmin ərazilər ermənilərin əlinə düşdü, minlərlə qaçqın İrana gəldi, biz onlara yardım etdik. Tarixi dəlillər göstərir ki, həmin ərazi bundan əvvəl kimə məxsus idi".

Əyribucaq kənd sakini Vəli Firuz: "Ürəkdən istəyirəm ki, Arazın o tayındakı xalqın haqqı və ədalət bərpa olunsun. Biz bu müharibədə müsəlman qardaşlarımızın yanındayıq, istəyirik ki, onlar da daim müharibə təhlükəsindən xilas olub öz VƏTƏNLƏRİNDƏ sülh və asayiş içində yaşasınlar".

Rəhimə Məhəmmədli: "İstəmirəm ki, sərhədin o tayındakı müharibəyə görə özüm, ailəm, həmvilayətlilərimə xəsarət dəysin".

[Burada müxtəlif peşə sahibləri və statuslu sadə azərbaycanlıların Azərbaycanın Vətən müharibəsinə səmimi şəkildə ifadə olunan münasibətləri öz əksini tapmışdır. Fikirləri soruşulanlardan iki nəfəri hadisəyə laqeydlik, digər iki nəfər isə tarixi biliklərindən qaynaqlanan yüksək milli kimlik və ədalətli mövqe nümayiş etdirərək Azərbaycanın haqq işinə dəstək göstərmişlər. Həmin

yazını Cənubi azərbaycanlıların Qarabağ münaqişəsi və Vətən müharibəsinə münasibətinin gerçək inikası hesab etmək olar.]

18 OKTYABR

“tabrizeman”

Qeyd

Əgər Azərbaycana qarşı ədalətsizliyə inanmırsınızsa, heç olmasa öz mənfəətinizə xidmət edin

“Belə baxışlarınıza (İsrailə) görə İranı İslam aləmində tək və yalqız etmisiniz”.

[Müharibədən Azərbaycan, İsrail və Azərbaycan-İsrail münasibətlərinə qarşı ideooji mübarizə üçün istifadə edənlərə ünvanlanmış yazıdır.]

19 OKTYABR

“irna”

Avropa mediyası və İranın Qarabağ böhranına yanaşması

DW (ingilis dilində):

İranın mövqeyinə İran azəriləri mühüm təsir göstərirlər, İran müharibənin onun ərazisinə sirayət etməməsinə xüsusi əhəmiyyət verir. İranda azərilər və ermənilər yaşayırlar. İranda sayları 100 min olan ermənilər əsasən Tehran, İsfahan şəhərlərində yaşayırlar.

Azərilərin sayı ən azı 15 mln. təşkil edir. Onlar siyasi və iqtisadi strukturlarda yüksək mövqelərə malikdirlər.

Yazıda 4 imam cümənin məşhur bəyanatı həmin baxımdan şərh edilir.

İran prezidenti Ruhaninin Paşinyana Qarabağda münaqişənin sona çatmasına çalışmasını məsləhət gördüyü qeyd edilir.

Azad Avropa radiosu: “İran bitərəflik mövqe sərgiləməyə çalışır, amma daxildə Azərbaycanı himayə etmək üçün güclü təzyiq var”.

Buna görə prezident Ruhani “Azərbaycanı qardaş millət”, ”Ermənistanı yaxşı qonşu” adlandıraraq, onların arasında fərq qoyduğunu diqqətə, xüsusən azərbaycanlıların diqqətinə çatdırır.

Eyni zamanda İran prezidenti Suriyadan Qarabağa terroristlərin gəlişindən narahatlıq ifadə edir.

[Cənubi Azərbaycanlıların Vətən müharibəsinə münasibəti və İranın siyasətinə təsiri barədə xarici mənbələrdən götürülmüş yazılardır. Yazıda Cənubi Azərbaycan elitasının İranın haqqında danışılan münaqişəyə münasibətdə siyasətinə bu və ya digər dərəcədə təsir göstərdiyi vurğulanır. Amma İran siyasətinə elitanın deyil, milli kimlik uğrunda mübarizə aparan qüvvələrin təsir göstərdiyindən danışılmır. Məlum olduğu kimi, İranın keçmiş Qarabağ münaqişəsi ilə bağlı yeritdiyi siyasətə Cənubi Azərbaycan elitası deyil, məhz milli-mədəni qüvvələr güclü təsir göstərirdi. Onlar İranın qeyd edilən siyasətinə münasibət, xüsusən mənfi münasibət göstərməkdə daha sərbəst hərəkət edirdilər. İranın mərkəzi hakimiyyəti ölkədə azərbaycanlıların milli hərəkatının genişlənməsinin qarşısını almaq üçün bir tərəfdən Azərbaycana dəstək göstərdiyini nümayiş etdirmək, digər tərəfdən həmin qüvvələrin fəaliyyət sahəsini məhdudlaşdırmaq və onların üzərində nəzarəti gücləndirmək siyasəti yeridirdi. Hər necə olsa da, azərbaycanlılar bu və ya digər şəkidə İranın keçmiş Qarabağ münaqişəsi ilə əlaqədar siasətinə təsir göstərirdilər və hökumət zahirən formal və başqa formada müvəqqəti də olsa, Azərbaycana dəstək göstərdiyini nümayiş etdirməli olurdu.

İran, o cümlədən Cənubi azərbaycanlıların Azərbaycana dəstəyi haqqında İran saytlarında heç bir yazıya rast gəlinmədi, Cənubi Azərbaycan saytları az-az hallarda bu barədə qısa məlumat verirdilər]

22 OKTYABR

“tabrizebidar”

Təbriz Cameəye əl-Mustafa elmiyə hövzəsi... Şəhid Səfərovun qanı Təbriz tüllabları arasında əcəb həyacan yaratdı. O, inqilab rəhbərinə çox bağlı idi. Maarif Səfərov 1397\2018-dən Təbrizdə tullab idi, bir qədər əvvəl vətəninə qayıtmışdı. Dünən Qarabağda şəhid olub.[ruhu şad olsun]

[Mətndə şəhid Maarif Səfərovun ancaq dindarlığı, rəhbərə etiqadı və s. danışılır, vətənpərvərliyindən heç söz açılmır.]

Beləliklə, nəzərdən keçirilən İran saytları Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi haqqında xəbərləri qeyri müntəzəm və fərqli ifadələrlə öz izləyicilərinə çatdırmışdır.

Bundan əlavə, bəzi ekspert adlanan şəxslər müharibənin gedişini şərh edərkən tarixi faktları təhrif edir və Azərbaycan rəhbərliyinin fəaliyyəti və məqsədi haqqında böhtan danışmaqdan çəkinmirdilər.

Ədalət naminə demək lazımdır ki, nadir halarda ekspertlərdən bəziləri vəziyyəti düzgün dərk etdiklərini nümayiş etdirirdilər və müharibənin gedişini obyektiv şəkildə şərh edirdilər. Yuxarıda belə ekspertlərdən birinin noyabr ayının 1-də verdiyi şərhdən iqtibaslar verilmişdir.

Bütövlükdə demək olar ki, İran saytları zahirən müxtəliflik nümayiş etdirsələr də, hadisələrə münasibətdə onların hansı siyasi qüvvələri təmsil etdikləri özünü göstərməklə yanaşı, hamısının Azərbaycanın öz ərazilərini sürətlə azad etməsinə rəğbət göstərmədiklərini vurğulamaq olar.

Cənubi azərbaycanlıların Vətən müharibəsinin getdiyi günlərdə hadisələrə münasibəti haqqında isə aşağıdakıları demək olar.

Cənubi Azərbaycanda müstəqil fəaliyyət göstərən sayt olmadığından Cənubi azərbaycanlıların Vətən müharibəsinə həqiqi münasibətini əks etdirən hər hansı bir geniş yazıya rast gəlinmədi. Bununla belə nəzərdən keçirilən az saylı yazılar əsasında Cənubi azərbaycanlıların müxtəlif sosial qruplarının Vətən müharibəsinə fərqli münasibət sərgilədiyini qeyd etmək olar. Cənubi azərbaycanlıların bu və ya digər şəkildə hakimiyyətdə təmsil olunan və ya ona yaxın siyasi, mədəni dairələrin İran hökumətinin mövqeyinə uyğun mövqe tutduğu aşkar şəkildə özünü göstərir. Milli-mədəni və milli hüquqlar uğrunda mübarizə aparan qüvvələrin Vətən müharibəsinə münasibətini ümumi şəkidə dəstək göstərmək kimi ifadə etmək doğru görünsə də, xüsusi araşdırmaya ehtiac olduğunu vurğulamaq lazım gəlir.

## III FƏSİL

## 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏDƏN İLİN SONUNA QƏDƏRKİ DÖVR

## AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNİN QALAN HİSSƏSİNİN-3 RAYONUN İŞĞALÇILARDAN DÖYÜŞSÜZ TƏMİZLƏNMƏSİ VƏ İLİN SONUNA QƏDƏRKİ VƏZİYYƏT HAQQINDA

### 11 NOYABR 2020. QƏLƏBƏDƏN SONRA İLK GÜN

"tasnim"

"Hesabat. Naxçevan və royaye cəhane tork" (Naxçıvan və türk dünyası yuxusu)

Çavuşoğlu: "Türkün gücünü dünyaya göstərdiniz". "Sizin qələbəniz... Azərbaycan ordusunun.... gücünü və türkün gücünü dosta və düşmənə göstərdi".

"Yeni çağ": Yarımçıq [rusa görə] qələbə

Başqası: "Naxçıvanı Azərbaycanın qərbi ilə birləşdirəcək yol tarixi, strateji qələbədir".

[Bir HƏSƏD ifadə olunub. Vəssalam]

"irna"

Bakı Fransanın qərəzli mövqeyini pislədi

"irna"

...Qarabağ regionunda mövcud vəziyyət və hərbi düzənin dəyişməsi

"irna"

...Ermənistanın Baş Qərargah rəisi: Sülh razılaşması mənim təklifimlə qəbul olundu.

"farsnews"

Ermənistanın baş naziri: Bakı ilə razılaşmasaydıq STEPANAKERT tutulurdu

12 noyabr 2020

“anaj”

Nəlbəndi şərh etdi.. Qarabağ və postmüharibə

[Yazıda yarı inamsızlıq və yarı şiəlik mövqeyi ifadə olunub.]

“tasnim”:

Lavrov: Türkiyə Qarabağda olmayacaq

“tasnim”

... Rusiya sülhməramlıları postlarını qurur

“tasnim”

“Lozume təvəccohe dəstqahe siyasəte xareci be atəşbəs dər Qarabağ, təğyirate jeopolitik dər rah əst?” (Xarici siyasət qurumunun Qarabağda atəşkəsə diqqət yetirməsinin vacibliyi... geosiyasi dəyişikliklər baş verməkdədir?)

Atəşkəs sazişinin mətni verilir

Preazident aparatının rəisi: bəyənirik

XİN: alqışlayırıq

Sazişin 3-cü bəndi: Azərbaycanın qərbi – Naxçıvan yolu

İran sərhədinə yaxın çəkilsə, İran-Ermənistan quru marşrutu kəsilə bilər. Yol “İrəvanı TÜRK mühitində çoxtərəfli mühasirə vəziyyətinə salır”.

Digəri: Sərhəddən şimalda rus, türk hərbçilərinin olması.

Naxçıvan: Türkiyə İran TRANZİTİndən istifadə etməyəcək, bu da PULDUR

Narahatlıqlar:

1. Orta Asiyaya TRANZİT yolunun dəyişməsi (Naxçıvan)

2. Rus və türk hərbçiləri

3. Ermənistanla əlaqələr məhdudlaşır (Naxçıvan yolu)

[İranda Azərbaycanın qərbi ilə Naxçıvanı birləşdirəcək yol bir tərəfdən guya İranla Ermənistanın əlaqələrinə, eyni zamanda İranın guya tranzit imkanlarına təhdid kimi dəyərləndirilir, digər tərəfdən antitürk təbliğatı üçün fürsət hesab olunur. ]

“irna”

Qarabağda davamlı sülhə ümid

“irna”

... Çavuşoğlu: Bəyanatı dəstəkləyirik

“irna”

... Fransanın bəyanata reaksiyası

“irna”

... Bakı Fransanın mövqeyini qərəzli adlandırdı

“isna”

... Lavrov: Türkiyə qüvvələri olmayacaq

“isna”

... Türkiyə Ermənistanı təhdid etdi

13 noyabr 2020

“irna”

Əraqçi: İranın Ermənistan və Azərbaycana tranzit marşrutu **DƏYİŞMİR**

Naxçıvan –Zəngəzur yolu ilə bağlı şaiyələr **ƏSASSIZDIR**

[Amma İranda hansısa gizli məqsəd səbəbindən XİN siyasi müavininin Zəngəzur dəhlizi ilə bağlı real gerçəkliyi əks etdirən və həqiqətə uyğun bu sözləri heç kimə zərrə qədər təsir etmədi]

“farsnews”

... Azərbaycan və Ermənistan sazişinin İran üçün iqtisadi nəticələri. İranın Ermənistanla sərhəd zolağının əldən getməsi

Xəritə göstərir ki, Ermənistanla sərhəd zolağı aradan gedir. İran yalnız Azərbaycanla həmsərhəd olacaq.

Axı, İran Azərbaycana aid olan torpaqların ona qaytarılmasını dəstəklədi, Ermənistanın da təhlükəsizlik və hüquqlarının qorunmasını vurğuladı. Amma əslində nə baş verdi: İranın maraqları təmin olunmadı və Azərbaycan Respublikası, Türkiyə, İsrail və TƏKFİRİ terroristlərlə əl-ələ verərək İranın təhlükəsizliyi, siyasi və iqtisadi mənafeyi üçün ***təhdid yaradırlar***. Rusiya da mürəkkəb oyunla və səbrlə bu münaqişədə iqtisadi və siyasi balıq tutmaqla məşğuldur.

Azərbaycanın praqmatik hakimləri Türkiyədən yardım alaraq sionist rejimin və Suriyada yerləşən təkfiri TERRORİSTLƏRİN ayağını İranın ŞİMALINA açdı, kifayət qədər narahat edici

olduğu üçün İranın hərbi reaksiyasına və həmin məntəqəyə silahlı qüvvələr və hərbi texnika göndərilməsinə səbəb oldu.

Ermənistanın nəzarətində olan sərhəd məntəqəsində Azərbaycanın nəzarətinin bərpa olunması ilə İran faktiki olaraq bütün şimal-qərb sərhədi boyu sionist rejimin mövcudluğu və casusluğu, təkfiri terroristlərin və ƏRDOĞANIN himayəsi altında olan PANTÜRKLƏRİN şəri ilə üz-üzə qalmış olur. Bu fitnə və müdaxilələr İranın bəzi AZƏRİ ŞƏHƏRLƏRİNDƏ bəzi İĞTİŞAŞLARA səbəb oldu.

İqtisadi təhlükəsi: Təqribən İranın bütün Şimal-qərbinə Azərbaycanın nəzarət etməsi və Türkiyə ilə qonşu olması, ...**artıq Türkiyə üçün İran tranzit əhəmiyyətini itirir.**

Naxçıvan-Qarabağ-Azərbaycanın nəqliyyat kommunikasiyası ilə birləşdirilməsi İranın Ermənistanla quru sərhədinin aradan getməsinə və İranın Qafqaz regionunda ticarətinin Türkiyə və Rusiyanın əlinə keçməsinə səbəb olacaq.

Ermənistan İrana Avropaya tranzitdə Türkiyədən ASILILIĞINI qaldırmaq üçün lazım idi.

Rusiyanın mənfəət axtarması:

2013-cü ildə Rusiya İranın Ermənistana qaz ixracına MANE oldu. Rusiya Ermənistana Qərbə meyl etdiyinə görə qulaqburması verərək Qarabağda işləri sahmana salıb öz iqtisadi və təhlükəsizlik maraqlarını təmin etmək istəyir. Rusiya Ermənistana yardım etməyib, İsrailin, TƏKFİRİLƏRİN, müasir silahların regiona gətirilməsinə imkan verdi. Ermənistanın vəziyyəti pisləşəndə Rusiya özünün nəzərdə tutduğu sülhü HƏR İKİ tərəfə QƏBUL ETDİRİB, özünün hər iki tərəfə və Qarabağa DOMİNANTLIĞINI təmin etdi.

İndi gözləyək görək Rusiyanın hərəkətləri onun üçün hansı təhlükəsizlik nəticələri gətirəcək. Rusiya MƏRKƏZDƏ oturub bütün yollara: Qarabağ – Ermənistan, Cümhuriye Baku (Bakı Respublikası) - Naxçıvan yollarına nəzarət edəcək. Burada Rusiya və Türkiyənin ortaq iqtisadi maraqları olduğunu nəzərə alsaq, İran bu sahədə elə bir rol oynaya bilməyəcək.

İSRAİL haqqında: Müharibədən sonra İsrailin ayağı regiona daha geniş açılır. İsrail, Türkiyə, Azərbaycan bayraqları - *şənliklərdə İran bayrağı görünmür*. Biz deyirdik Qarabağ torpaqları azad olunsun. İsrail texnikası mühüm rol oynadı. Azərbaycanın İranda səfiri də (səfire in rejim\bu rejimin səfiri) Bakı ilə sionist əməkdaşlığından danışırdı. İsrail burada NATO və Amerikanın güclü əli ola bilər. İsrailin hədəfi İranın daxili işlərinə qarışmaq, İranı ram etməyə çalışmaq, ETNİK HƏRƏKATLAR YARATMAQdır. Ona görə Azərbaycanı himayə edir. Burada hərbi baza da istəyirlər.

İran bu təhlükələr CİDDİLƏŞMƏMİŞ tədbirlər görməli, yoxsa GEC olacaq, baha başa gələcək.

"SÜLH FACİƏSİ": Rusiya və Türkiyə imkan verəcək ki, xüsusən Suriya, İraq və başqa yerlərin tələblərini İrana qəbul etdirsinlər, bununla İrana dominovari təzyiqlər başlayacaq, onun ilk addımı İranı Suriyadan çıxarmaq olacaq.

Diplomatik nöqsanlar üzündən İran bu dəfə fəal ola bilmədi, təsirli olmadı. Hələ də buna münasibətdə daxildə ölüm sükutu ilə üzləşirik. Vəziyyəti aradan qaldırmaq üçün əsaslı fikirləşmək lazımdır.

İran ...indi də aspektləri nəzərə alaraq əziz İran üçün qorxulu YUXULAR görən ölkələrə AĞIR DƏRS VERMƏYƏ qadirdir. (Müəllif: Ehsan Movəhəddiyan -Univerisitet müəllimi və beynəlxalq məsələlər üzrə tədqiqatçı)

[Yazıda Azərbaycanın qələbəsinə İranda müəyyən dairələrinin əsl münasibəti, onların sifarişini yüksək səviyyədə yerinə yetirən ideoloq tərəfindən geniş şəkildə işıqlandırılmışdır. Yazıda diqqəti çəkən əsas cəhətlərdən biri oxucu və izləyiciləri adı qeyd edilən ölkələrin İrana qarşı gizli və açıq intriqalar qurmaqla məşğul olduğuna inandırmağa səy göstərilməsidir. Belə çıxır ki, İran ancaq düşmən ölkələrlə əhatə olunmuşdur. Müəllif Azərbaycana panfarsist və şovinist münasibətini gizlədə bilməyərək öz səviyyəsinə uyğun ifadələr işlətməkdən çəkinmir. Yazıda türkofobiya mühüm yer tutur və diqqətlə baxılsa, İranın qorxusunun mahiyyətini görmək olar.

İranın antiazərbaycan siyasətinin mahiyyətini İranda "azəri"lərə qarşı hərtərəfli təzyiqi legitimləşdirmək durur. Əsas qorxu Şimali Azərbaycanın İran azərbaycanlılarına təsirinin güclənəcəyi ilə bağlıdır. Bütün bəhanələr - İsrail, təkfir, pantürkizm, sərhədin əldən getməsi, terroristlər və s. gülünc olsa da, İran əhalisinə ünvanlanıb və onlarda antiazərbaycan və ANTİTÜRK\ANTİAZƏRİ əhval ruhiyyəsini gücləndirməyə yönəlib.]

14 NOYABR 2022

"anaj"

"Vakoneşe Şerdust be enfəale siyasəte xareciye İran; mərdane in səhneha əz dur təmaşa mikonənd" (Şeirdustun İranın xarici siyasətinin passivliyinə reaksiyası; bu sahənin adamları ona kənardan baxırlar).

Şərqi Azərbaycan valisinin dəftərxanasının rəisi: "Ölkədaxili dialoqdan qorxu Azərbaycanla dialoqun və yaxın əlaqələrin olmamasına səbəb olub". XİN Azərbaycanla əlaqələri yaddan çıxarıb.

[Yumşaq şəkildə bəyan edilir ki, mərkəzi hakimiyyətin antitürk siyasəti və Cənubi Azərbaycanın varlığını nəzərə almaması hökumətin Azərbaycan Respublikasına qarşı aqressivliyinin əsas səbəbidir.]

"anaj"

... Əraqçi: Geopolitik dəyişiklərdən söz getmir; İran-Ermənistan sərhədi yerindədir.

[Kimdir düz sözə qulaq asan, çünki ağıllarında başqa məkrli fikirlər var]

"isna"

İran R\Tv -nin "azəri" kanalı Qarabağ münaqişəsinə necə baxır?

15 aban 1371\15 NOYABR 1992-ci ildə Azərbaycan dilində "Səhər" televiziya kanalı təsis edilib. Hazırda R\TV cəmi 4 dildə-azəri, kürd, balkan (?) və urdu dillərində 24 saat verlişlər yayımlayır.

Kanalın müdiri Zəfər Marağaidir

Müxbirləri Azərbaycan, Rusiya, Türkiyə, Gürcüstanda, daxildə isə Təbriz, Urmiya Ərdəbil, Parsabad, Culfa, Şirazda (Qaşqay türkdilliləri) fəaliyyət göstərirlər.

3 dublyaj qrupu işləyir. Ərdəbildə “Aran”, Təbrizdə və Tehranda “azəri” radioları (1 saat) xaricə yayım edir. Proqramların seçilməsi və hazırlanmasında ***dindarlar*** daha çox nəzərdə tutulur. Bu il müharibə vaxtı Əsas yanaşmalar: ərazi bütövlüyünün qorunması və tanınması, BMT TŞ Qətnamələrinə riayət etmək və münaqişə tərəflərinin beynəlxalq prinsiplər və hüquqla müəyyən olunmuş sərhədlərə qayıtması tələbi əks olunan Yuxarı sənədlər, Milli təhlükəsizlik şurasının prioritetləri, diplomatiya qurumunun siyasəti və media siyasəti əsasında “hərəkət etmək idi”.

[Azərbaycan dilində Azərbaycan Respublikası üçün nəzərdə tutlan “Səhər” televiziya kanalı dövlət siyasətini müəyyən edən əsas sənədlər əsasında fəaliyyət göstərərək, onun xarici siyasətinin həyata keçirilməsinin mühüm bir vasitəsi rolunda çıxış edir.]

15 noyabr 2020

“tasnim”

... “Sülh dəhlizi”, Bölgə əməkdaşlığının genişləndirilməsi üçün irəli sürülən təşəbbüs”

[Azərbaycanın qərbini Naxçıvanla birləşdirən] Yol Ermənistan-İran sərhədini BAĞLAMIR. Digərləri də olsa, yaxşıdır. Bunlar “sülh dəhlizləri”dir. Çünki əməkdaşlığı asanlaşdırır. İran əməkdaşlığın inkişafına dair kompleks plan üzərində işləməlidir.

[Göründüyü kimi İranda Azərbaycanın qələbəsi və yaratdığı yeni geosiyasi reallığa iki yanaşma mövcud idi: birinci, davakarların mövqeyi: dəhliz sərhədi bağlayır, ikinci, praqmatiklər; dəhliz əməkdaşlığı asanlaşdırır, sərhədin bağlanması fikri doğru fikir deyil. Həmin qrupu təmsil edən ekspertlər hadisələrin gedişi və nəticələrinə daha düzgün yanaşma sərgiləyirlər].

“irna”

“Kaleci: Mekanizme 3+2 bayəd bəraye təvafoğe paydar dər Qafqaz icad şəvəd”(Qafqazda davamlı razılaşmaya nail olmaq üçün 3+2 mexanizmi yaradılmalıdır)

İran prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin eksperti Vəli Kaleci: 3, yəni qonşular, 2, yəni Azərbaycan və Ermənistan, daha doğrusu indiki Rusiya, Ermənistan, Azərbaycan +Tehran və Ankara

ABŞ-da seçkilərdir. Rusiya Ermənistanın qərbpərəst cinahını tənbeh etdi. Rusiya-Türkiyə rəqabəti

"Azərbaycan ordusunun strategiyası mürəkkəb və strateji idi. İşğal olunmuş ərazilərin 70%-ni azad etdi. Azərbaycan geniş cəbhə yaradaraq ermənilərin qruplaşmasına aman vermədi. Atəşkəs Türkiyənin nüfuzuna qarşı idi, qazanan ruslar oldu. Ruslar Qarabağ münaqişəsini həll etməyib, açıq qoydular ki, 5 il ərzində hər iki tərəfə təsir etmək imkanı olsun".

Ekspert daha sonra yazır ki, ruslar nəinki İranı, həmçinin Türkiyə və Minsk qrupunu da aldatmadılar. Göstərdilər ki, heç kimi aldatmaq istəmirlər. Amma davamlı sülh üçün atəşkəsə nəzarət mərkəzinə İRAN (?) və Türkiyə əlavə olunmalıdır.

Türkiyə Suriyada 6 il İrana qarşı durdu, amma Astana onları birləşdirdi.

Zəngəzur-Naxçıvan yolu ticarət və gediş-gəlişə MANE olmamalıdır

Qarabağın azad edilmiş Cənub hissəsində kim məskunlaşacaq? Əvvəlki yerli əhali, yoxsa yeni mühacir cəmiyyət.

"İran öz təhlükəsizlik, siyasi və iqtisadi narahatlıqlarını çox aydın və dəqiq şəkildə qaldırmalı və deməlidir ki, hər iki ölkəyə qonşudur, sərhədləri gərginlik və təhdidlərə məruz qalmamalı, Nəzarət mərkəzində iştirak etməlidir".

[Azərbaycanın qələbəsi, müharibədən sonra yaranmış yeni reallıq və Rusiyanın siyasəti haqqında nisbətən obyektiv təsəvvür yaradılır. İranın narahatlıqları sahəsinə işarə edilir. Yeni reallığın İranın maraqlarına qarşı yönəldiyini iddia etmir.]

16 NOYABR 2020

"tasnim"

Xətibzadə: İranın və bölgənin coğrafi sərhədlərində heç bir dəyişiklik baş verməyib.

İran sülh prosesini alqışlayır. Sadə bir tranzit marşrutu, İran məsələni diqqətlə izləyir

Sual: İran da regionda sülhməramlılara malik olmalı?

Cavab: İran strateji rol oynayır “Bu böhranın daimi həllinin yeganə yolu ölkələrin insaf və suverenlik haqqıdır”. “Bizim məntəqədə heç bir dağıdıcı subyektin yeri olmadığı kimi, bu mesajı almalı olan kəs alır, biz bu yoldayıq”.

Təkfirilərlə bağlı: Təkfiri qüvvələr elə indi regionu tərk etməlidirlər və bizə deyilənlərə görə, artıq regionda təkfirilər ***yoxdur*”.**

“Biz regionda Qüdsü işğal etmiş rejimin varlığına dözə bilmərik”.

Sonra təkfirilər, onların Səudiyyə Ərəbistanı ilə bağlılığından danışır və deyir: “Yəqin artıq bölgəni tərk ediblər.”

[Yenə də qondarma İsrail varlığı və mövcud olmayan təkfirilər təhlükəsi təkrar edilir. Bunlar təbii ki, əsas məqsədi pərdələmək üçün irəli sürülən iddialardır.]

“tasnim”

... Qeyd. Qafqaz oyunu və Rusiyanın diqqət etməli olduğu dəyişmiş balans

Atəşkəsdən sonra Rusiya küçələrində Türkiyə bayraqlarının dalğalandığını görürük. Yaxud Rusiyanın Tatarıstan regionunda türk meyilli nəşriyyədə həmin zəmində yazı yazılır, bunlar Moskvanın diqqət yetirməli olduğu hadisələrdir.

Bu dəfə Ermənistan təkbaşına Azərbaycan və onun *koalisiyası* qarşısında qaldı və bu döyüşün nəticəsində böyük xəsarətə məruz qaldı, DÜŞMƏN qarşısında ağ bayraq qaldırdı.

Putin Köçəryanın azad edilməsini xahiş edib. Paşinyan: “təəssüf edirəm ki, sizin Köçəryan kimi dostunuz var” deyərək xahişi rədd edib.

“Amma Azərbaycanın Qarabağı tam azad etməsi nəinki Rusiya dövlətinin maraqlarına cavab vermirdi, hətta Rusiyanın Qafqazda maraqlarına zərbə idi...” Qafqaz yəni yaxın xaric.

Ruslar: Ermənistan uduzur, Paşinyan kənar edilir, amma Qarabağ tam azad edilmir. Ona görə müharibə Xankəndinə qədər gəlib çatdı, amma ora tutulmadı, çünki Rusiya müdaxilə etdi. (həmin vaxt)

Nə Ermənistanın tam məğlubiyyəti, nə də Azərbaycanın tam qələbəsini təsdiq etməyən atəşkəs olmalı idi, amma Paşinyan hökuməti süqut astanasında dayanır. Ruslar qalib kimi heç bir xərc çəkmədən Qarabağa daxil olur, həm Bakı, həm də İrəvanı fəth edir.

Amma elə görünür ki, hələlik müharibənin qalibi Rusiyadır. Ərdoğan Türkiyənin payını tələb edir" yəni Naxçıvan-Mincivan yolunu". Bura kimi Türkiyə də məqsədinə çatıb. Atəşkəs sazişi də əvvəlcə Putin ilə Ərdoğan arasında razılaşdırılıb.

"Rusiya da həmişə İranın əlini Qafqazdan uzaqlaşdırmağa çalışdığı kimi bu dəfə də İrana həmin zəmində hər hansı bir rol verməyə hazır olmadı".

İlk nəzərdə Rusiya Ermənistanda dəhliz yaratmaqla bir qazanc əldə etdi və İRAN Türkiyə - Orta Asiya tranzit yolunu itirdi. Amma bilirik ki, hazırki onillikdə Rusiya gücünə meydan oxuyan potensial təhdiddən real təhlükəyə çevrilən Ərdoğan hökumətidir.

Ərdoğan bu İKİ müharibədə rusların hegemoniyasına meydan oxudu.

Bundan əvvəl Suriyada rus təyyarəsi vuruldu, Ankarada rus səfiri öldürüldü. Sonuncu hadisə: Ermənistanda rus helikopteri Türkiyə və müttəfiqlərinin hücumuna məruz qaldı.

Putin nəticə üçün strateji səbr göstərmir, Ukraynaya görə sanksiyalar altında olduğundan zəif mövqedədir. Türkiyə ilə ticarət əlaqələrini saxlamaq, boşluğu doldurmaq istəyir. "Amma bu Rusiyanın prestijinə kölgə salır".

Putin Türkiyənin daha artıq cəsarəti və xəsarətinə dözməyə hazırdır.

Helikopter, Türkiyə-Azərbaycan koalisiyası, bunlar Rusiyanın hərəkət tərzinə çevriləcək və gələcəkdə ruslar üçün daha böyük problemlər yaradacaq.

Əgər ruslar türklərin Bakı-Naxçıvan istəyini reallaşdırsalar, türklərin Orta Asiya və Xəzər dənizinə çıxışının təhlükəsi HƏMİŞƏKİNDƏN çox olacaq.

Bu yolla türklər Rusiyada mövqelərini gücləndirirlər.

Bu, türklərin Rusiyaya nüfuzunun bir hissəsidir.

Hazırda Türkiyə və Ərdoğannın siyasəti ilə konfrontasiya təhlükəsi Rusiya sərhədlərinin arxasına gəlib çıxıb, elə də uzaq olmayan vaxtda bu təhlükə nəinki həyati region olan Qafqazda və sərhədin o tərəfinə, hətta türklərlə dil və din qohumluğu olmayan Rusiya respublikaları üzərində baş qaldıracaq və Orta  Asiyaya uzanacaq, türklər illərdir ki, onun yuxusunu görürlər və bu sahədə geniş fəaliyyət göstərmişlər, bu, passiv şəkildə intizarını çəkdiyi yuxu deyil, əksinə  bu yolda illərlə zəhmət çəkmişlər ki, imkan yarananda  ondan fayda görsünlər.

Türkiyənin səylərindən biri türk dilli ölkələrin ümumi silahlı qüvvələrini yaratmaq planıdır. Digər tərəfdən fərziyyələr var ki, Azərbaycanda Türkiyənin hərbi bazası yaradılır, yəni türklər Rusiyanın Dağıstan bölgəsinin qapısında hərbi baza yerləşdirəcəkdir.

Rusiya DƏRK etməlidir ki, İslam Respublikası və onun şiə ideologiyasının təsiri Azərbaycan xalqının ürəyində [özünə yer salıb] və hər ikisi elə təhlükə deyil ki, Moskva ondan ehtiyyat edə, əsl təhlükə Türkiyənin TƏSİRİDİR ki, artıq Rusiyanın sərhədlərinə qədər irəliləyib və gələcəkdə Rusiya cəmiyyətinin daxilindən baş qaldıracaq və hətta Rusiyanın DAĞILMASI və onun bəzi respublikalarının müstəqillik əldə etməsi ilə nəticələnə bilər”.

Moskvanın regionda balans yaratmaq və ehtimali təhlükələri dəf etmək üçün Tehranla  inteqrasiyadan və İslam Respublikasını Qafqaz tənliyinə daxil etməkdən başqa çarəsi yoxdur.

Süleymani Suriyada ruslara farslarlarla əməkdaşlığın vacibliyini anlatdı. İndi daha bir Süleymani lazımdır ki, ruslara bunun zəruri olduğunu xatırlatsın. “Ruslar İran üçün yox, əksinə öz təhlükəsizliyi və mövcudluğunu qorumaq üçün Qafqaz tənliyini İranla birlikdə həll etməlidirlər”.

Müəllif - Məhəmməd Yusifi - Qafqaz məsələləri üzrə ekspert

[Bu yazını oxuyarkən edilmiş qeydləri ümumiləşdirmədən burada verməyi lazım bildik.

1. İran bunlara azlıq edir, Rusiyada da antitürkizmlə məşğul olurlar.

2. İran Ermənistan üçün timsah yaşları axıdır və nə haqqın, nə ədalətin bərpası kimi anlayışlar yadına düşmür.

3. Rusiya İranı saymadı, İran da Rusiya ilə Türkiyənin arasını pozmağa çalışır

4. Gözün aydın Rusiya sənin dərdini çəkən bir İRAN varmış.

5. Türkiyə nə qədər ki, Orta Asiya ilə İRAN vasitəsi ilə əlaqə saxlayırdı, Rusiya üçün heç bir təhlükə yaratmırdı, indi marşurutun dəyişməsi ilə demə, Rusiya üçün təhlükə yaradırmış və ya yaradılacaqdır.

6. Təhlükənin mənbəyi: tatar və başqırd gəncləri dini təhsilə Türkiyəyə gedirlər. Dünyanın yarısının nümayədələri İranda dini təhsil alır, amma həmin ölkələr üçün təhlükə sayılmır, əcəb məntiqdir.

7. Türkiyə İranın yuxusunu ərşə çəkib. İndi istəyir ki, Rusiyanın köməyi ilə qorxusudan ürəyi getməsin.

8. Rusiyanın MARAQLARINI ruslardan daha yaxşı qoruyan panfarsistlər

9. İran Moskvanı QORXUDARAQ onu Qafqaza buraxmağa çağırır.]

17 NOYABR 2020

“tasnim”

“Hesabat. Hədəfe Torkiye əz ezame niru be Comhuriye Azərbaycan çist?” (Türkiyənin Azərbaycana hərbi qüvvə göndərməkdə məqsədi nədir?)

Böyük hərbi baza yaradıb Azərbaycana və Qarabağa nəzarət etmək istəyir

“İndi İlham Əliyev kameraların qarşısında durub özünü meydanın qalibi kimi göstərir... və deyir ki, regionda yeni dövr başlayıb”.

Ermənistan daim PKK ya yardım edib. Son müharibədə 10-larla PKK-lı Ermənistanda(? - V.M.) Azərbaycana qarşı vuruşub.

İranla sərhəd “dostluq sərhədi” adlandırılır. Guya İlham Əliyev 2021-ci ildə Kipri tanıyacaq.. Qars-İqdır-Naxçıvan yolu tikiləcək.

[Azərbaycanın qələbəsinə kölgə salmaq və gələcək planlara şübhə yaratmaqla Türkiyə əleyhinə təbliğat davam etdirilir. ]

18 NOYABR 2020

“anaj”

Qarabağ müharibəsinin enerji nəqli baxımından nəticələri. Britaniyanın İranın geosiyasi imkanlarını azaltmaq ssenarisi D-r Əhməd Kazeruni, Beynəlxalq hüquq üzrə mütəxəssis və Avrasiya üzrə araşdırıcı

İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə-İsrail-İngiltərənin ortaq layihəsi əsasında başladı. Rusiya düzgün hesablamalar apara BİLMƏYİB bu ölkələrə qoşuldu və QARABAĞ RESPUBLİKASININ və Ermənistanın ağır məğlubiyyətinə zəmin yaratdı. “Müharibənin əsas məqsədi İranın Qafqazda və xüsusən Azərbaycanda, geosiyasi, mədəni, dini və tarixi potensialını tükətməkdir”.

Azərbaycan, Türkiyə və İsrail İran-Ermənistan sərhədi (42 km) zolağını İŞĞAL etmək istəyirdi, amma İranın hərbi hərəkətliliyi buna mane oldu və dəhlizlə kifayətləndilər.

Bunların antiiran mövqeyi, koridorla enerji nəqli – İranın potensialını heçə endirəcək.

Gələcəkdə İranın Naxçıvana qaz svopu (qaz mübadiləsi) aradan qalxacaq. Saziş 2004-də 20 ilə bağlanıb, 2005-dən icra olunur, ildə 250-350 mln. kub m. qaz təchizatı həyata keçirilir.

Naxçıvanın İranın qaz, işıq, yol asılılığından qurtarması Bakı və Ankaranın strateji prioritetidir.

Bakı: İran FÜRSƏTDƏN istifadə edərək qaz tranziti üçün orta qiymətdən çox alır. İran qazın 15%-ni tranzit üçün özünə götürür. **Digər ölkələrdə bu 5%-dir.**

Bakı dəfələrlə rəqəmin (faizin) azaldılmasını xahiş etsə də, Tehran razı olmamışdı. Türkiyə Iğdırdan Naxçıvana qaz kəməri çəkir – 80 km. – 2022-də işə düşəcək.

Dəhlizdən Türkiyəyə qaz nəql olunacaq və Türkiyənin tranzit əhəmiyyəti daha da artacaq.

Azərbaycan svopu uzatmayacaq və İranın geosiyasi əhəmiyyətindən biri itəcək.

Türkiyə (1996-cı ildə 25 illik kontrakt bağlanıb) də İran qazından imtina edəcək.

İran – 1000 kub m. qazı Türkiyəyə – 490 dollara, Rusiya 425 dol., Azərbaycan isə 335 dol. satır.

Bu xətt də, bazar da əldən gedəcək.

İranın Avropaya Türkiyə vasitəsi ilə qaz ixracı da çətinləşəcək, İran-Türkmənistan qaz svopu, İran ildə Türkiyəyə 8 mld. kub m. qaz svop edirdi. Sonra Türkmənistan İrandan qaz ixracı üçün 1.8 mld. dol. tələb etdi – 1386 və 1387\2007 və 2008-ci illərdə, nəticədə 2017-də svop dayandı.

İran: İran Türkmənistan qazını svop etməkdə maraqlı deyil, çünki İranın rəqibidir. Ermənistana 1383\2004-cü ildə 20 ilə imzalanmış sazişə görə qaz müqabilində elektrik enerjisi barter edilirdi, saziş 20.III.2007-ci il tarixindən icra edilməyə başlamışdır.

İ.Əliyev bundan əvvəl deyirdi: Ermənistan sülh bağlasa, nəqliyyat və enerji infrastrukturundan faydalanacaq.

Ermənistanın Azərbaycandan qaz asılılığı-Bakının Qarabağda üstünlüyünü təmin edəcək, Ermənistan öz ərazisindən (koridor) qaz kəməri keçməsini alqışlayacaq, Azərbaycan Ermənistana daha ucuz qaz satar. Onda Türkmənistanın Ermənistana qaz svopu (İran vasitəsi ilə) da sıradan çıxacaq.

Nəhayət, Transxəzər layihəsi (1999, İstanbul, Azərbaycan-Gürcüstan-Türkiyə-Türkmənistan+ABŞ prezidenti) imzalanıb. 2001-də iflasa uğradı, çünki Aşqabad rədd etdi.

Pantürkist coğrafi marşrutun birləşməsi, Naxçıvan DƏHLİZİ

İki maneə var, I. Xəzərin dibi., Xəzərin hüquqi konvensiyası aradan qaldırdı.

II – Uzunluğu – Mehri aradan qaldırır.

Türkiyə Rusiyadan 10 mld. kub m. qaz alır, Çin isə 35 mld. kub m. alır.

Transxəzər də İranı kənara atır.

İranın Avropaya qaz kəməri də sual altındadır.

Əsas: Rusiyanın bu layihələrə qarşı olmamasıdır. Onun 2 kəməri var. Cənub və Şimal, daha İrana yoldaş deyil.

İranın NABUKO-da iştirak imkanı zəifdir.

PANTÜRKİST COĞRAFİ QOVUŞMA (BAĞLANTI)

PANTÜRKİST XƏTTİNİN BİRLƏŞMƏSİ (PANTÜRKİST XƏTTİ

Rusiya, Çin və İranı ram etmək üçün BÖYÜK TURAN ideyası və ya coğrafi əlaqələr, Pantürkizm təsiri, Pantürkizm xətti vacib olacaq.

PANTÜRKİST COĞRAFİYASININ BİRLƏŞMƏSİ; PANTÜRKİZM COĞRAFİYASININ KORİDORU

[Müəllif İranın Azərbaycanın ərazilərinin bir hissəsinin işğalından öz xeyrinə necə istifadə etdiyini, hətta Naxçıvana qaz svopunu ümumi qəbul olunmuş qiymətdən 3 dəfə baha həyata keçirdiyini gizlətmir. Amma bu qəsbkarlıq imkanının əldən çıxmasından narahatlıq ifadə edir. Müəllif İranın maraqları üçün ehtimali təhdidlərdən narahatlıqla danışaraq Azərbaycanın öz ərazilərini işğaldan azad etməsinə haqq qazandıra bilmir. Nəhayət, müəllif sırf iqtisadi məsələləri panfarsizm mövqeyindən dəyərləndirərək pantürkizmdə dayanır. Bütün səbəb pantürkizmdədir. İran bu panfarsistin dili ilə pantürkizm kabusundan dəhşətli şəkildə qorxduğunu dilə gətirir. Təbrizdən yayımlanan bu sayt əslində azərbaycanlıları PANTÜRKİZM təhlükəsi ilə qorxutmaq məqsədi güdür. Eyni zamanda Cənubi Azərbaycanda pantürkizmə maraq göstərənləri müəyyən etməyə xidmət edir. Lakin bir məsələ aydındır ki, bu yazı Cənubi azərbaycanlılar arasında İranı\fars millətçilərini vəlvələyə salan türk birliyinə marağı daha da artırır və özlərinin milli azadlıqlarına ümidləri gücləndirir. Böyük Turan Cənubi azərbaycanlıların dadına mütləq çatacaq.]

“irna”

Qarabağ atəşkəsi və Zəngilan-Naxçıvan koridoru haqqında gerçəklər

Atəşkəsin İrana ən mühüm təsiri nədir?

İran regionda sayılan güc və bölgədə sabitlik və sülhün hamisidir.

ŞAYİƏ: İran Ermənistan ilə sərhədini əldən verib.

Bu xəttin açılması uzun vaxt aparacaq.

Sülh perspektivi mürəkkəbdir.

Xankəndinin gələcəyi qaranlıqdır

İran ilə Azərbaycan arasında yeni keçid yaranacaq. Azərbaycan əməkdaşlıqda qərarlıdır.

Kiçik bir koridor İranın əhəmiyyətini azaltmaz.

Azərbaycan-İran əməkdaşlığı daha çox mənfəət əldə edəcək.

[İranda Azərbaycanın yaratdığı yeni geosiyasi reallığa iki-obyektiv və qərəzli münasibət nümunələrinin meydana gəlməsi davam edir. Yuxarıdakı yazı məsələyə obyektiv və gerçək münasibətin nümunəsidir.]

19 NOYABR 2020

“anaj”

Qarabağ sülhünün ruhu rus ruhudur; Həsən Qoli, Qafqaz məsələləri üzrə ekspert Təbriz Mədəniyyət cəbhəsi araşdırmalar bürosu təfəkkür\düşüncə proqramı

[Məzmunu burada icmal şəklində verilməsə də, yazı müsbət qiymətləndirilir. Maraqlananlar yazı ilə həmin ünvanda tanış ola bilərlər.]

20 NOYABR 2020. AĞDAM AZAD EDİLDİ. Ermənilər Ağdam rayonunu tərk etdilər.

“tasnim”

İlham Əliyev: İran bizim xahişimizlə Ermənistana silah göndərilməsi yolunu bağladı

“irna”

Bakı bürosu. Əliyev: İran bizə dost və qardaş ölkədir

“isna”

Əliyev: İrəvanla normal münasibətləri yenidən qurmağa bir şərtlə razıyıq ki, orada “sağlam qüvvələr” olsun.

“isna”

... Fransa Qarabağda “beynəlxalq nəzarət” ə çağırır

“isna”

... Azərbaycan hərbi hissələri Ağdama daxil olur

“farsnews”

İ.Əliyev: Ermənistanla münasibətləri normallaşdırmağa hazırıq

“farsnews”

...Zərifin Ermənistana səfəri planlaşdırılır.

21 NOYABR 2020

“tasnim”

Hesabat. “Torkiye və durnəmaye təhəvvol dər tranzite enerji dər sayeye təvafoğe Qarabağ” (Türkiyə və Qarabağ razılaşması çərçivəsində enerji tranzitində dəyişikliklər)

“Bakı və Ankaranın birgə qələbəsi”

Sonra İranla danışmalı olacaqlar. Naxçıvan yolu regional əlaqələrdə fundamental dəyişikliklərə səbəb olmayacaq.

Türkiyə BAZA yaratmaq istəyir.

Naxçıvan: Yeni vəziyyət İrana enerji ixracı və tranzitində problemlər yaradır.

Türkmənistanın svop qazı, Naxçıvan və Türkiyə qaz ixracında yeni vəziyyətlə üz-üzə olacaq. İran nə əldə edə bilər, onu fikirləşməlidir.

[İranda Cənubi Qafqazda meydana gəlmiş yeni geosiyasi reallığı qiymətləndirmək cəhdləri davam edir.]

“irna”

Zərifin Azərbaycan və Rusiyaya səfəri təxirə salındı. Səbəb, bu həftə hökumətin fövqəladə proqramı var, səhər və axşam büdcə toplantısı olacaq və bütün nazirlərin iştirakı zəruridir.

“irna”

... İrəvanda Qarabağ sazişi əleyhinə etirazlar davam edir

“farsnews”

Paşinyan: İrəvan-Moskva əlaqələri daha strateji olacaq.

22 NOYABR 2020

“tasnim”

XİN sözçüsü: Türkiyə rəsmi jurnalistinin tendensiyalı sualına cavab; şayiə yaymaqdan əl çəkin

Bu günlər XİN sözçüsü media qarşısında həftəlik hesabatla çıxış edərkən “Anadolu” agentliyinin müxbiri:

Sual: Azərbaycan prezidenti sərhəd zonasında olarkən bir sepah əsgəri video və foto çəkib?

Cavab: Birinci dəfə “Anadolu”dan eşidirəm, deyin, hansı mənbədəndir. Şaiyə yaymaqdan əl çəkin.

“irna”

Fransa və Ermənistan Xinləri Qarabağ münaqişəsini müzakirə etdilər. Erməni nazir: Qarabağda ermənilərin normal həyat şəraitinin təmin edilməsi

Hər iki tərəf: Qarabağda ermənilərin maraqları və hüquqlarının təmin edilməsinin vacibliyini vurğuladılar.

“irna”

... Ermənistan – strateji müttəfiq

[Bu günə qədər müttəfiq olduqları məlum idi, bundan sonra strateji müttəfiq olurlar. ]

“irna”

... Rusların Ermənistan və Azərbaycana səfərləri

“farsnews”

Türkiyənin Qarabağda atəşkəsə nəzarət mərkəzində iştirakı barədə bəyanatı

‘farsnews”

... 27 ildən sonra Ağdam MƏSCİDİ yenidən işə başladı.

‘farsnews”

... Qarabağ: 25 min qaçqın [erməni ] evlərinə qayıtdı

23 NOYABR 2020

“anaj”

İlqar İbrahimoğlu: Rəhbərin vurğulamasına baxmayaraq, Xankəndi və Xocalı sarıdan narahatıq

İlqar - Cümə dini cəmiyyətin rəhbəri, “Xural” tv-də danışıb.

Sual: Niyə bəzi tv kanallarında Türkiyə, İsrail bayraqları vardı, İran yox?

Və məsələn Zəngilan cəbhəsində İran Azərbaycan qüvvələrinə qarantiya verməsə idi, başqa bir çətin vəziyyət yarana bilərdi.

Xankəndi və Xocalı barədə narahat olmayaq. Rəhbər deyib bütün ərazilər qaytarılmalıdır.

[Sayt özünün azərbaycanlı dindar tərəfdarlarının adından Vətən müharibəsində İran və onun Rəhbərinin guya əhəmiyyətli

rol oynadığının Azərbaycanda etiraf edildiyini diqqətə çatdırmaq istəyir].

“irna”

Sülhün qorunması. Rusiyanın Qarabağda çətin missiyası

Narişkin deyib: Qərb ermənilərə deyir ki, bəyanat Ermənistanın məğlubiyyətidir, azərbaycanlılara deyir ki, ruslar qələbəni oğurladı.

O deyir: NATO-nun Rusiyanı Qafqazdan *çıxarmaq* səyi heç oldu.

Rusiya nümayəndə heyətinin İrəvana və Bakıya səfəri, Putinin münasibəti...

“isna”

Qarabağ başçısının Rusiyaya təşəkkürü (ifadələr: “Muxtar Qarabağ bölgəsi”, “Erməni muxtar hökuməti”)

[Zahirən tələbə və islahatçı, lakin mühafizəkar panfarsist sayt görmək istədiyini yazır.]

24 NOYABR 2020

“anaj”

Elmiyə hövzələrinin müdiri: Ermənistan ***səhvlərini*** davam etdirməməlidir, Azərbaycan İsraillə əlaqələrini KƏSSİN

Müdir – Ayətulla Əlirza Eerafi Azərbaycandan olan bir qrup ruhani və tüllabla görüşündə deyib. Qələbəni təbrik edib. “Azərbaycan **hökumətini** də təbrik edirik”. İsraillə əlaqələr Azərbaycana gələcəkdə problemlər yaradacaq.

[İran ruhaniləri azərbaycanlı dindarların xətrinə dəymək istəmir, eyni zamanda onları öz dövlətlərinin siyasətinə qarşı çıxmağa çağırırlar.]

“anaj”

...İranın Bakıda səfiri: Qarabağ atəşkəs sazişi elə İranın təqdim etdiyi layihədir

O bunu Təbriz radiosunun xarici, azəri( azərbaycan dilində Azərbaycan Respublikasına verilişlər hazırlayan) redaksiyasının “açıq söz” proqramına deyib.

[Ermənilərin xətrinə dəymək olmaz, ona görə deyib və ya saytda belə yazılıb]:”Azərbaycanın ərazisi qonşulardan BİRİ tərəfindən işğal olundu”.

“Hər cür işğalçılıq və hər cürə separatizmə qarşıyıq”.

“tasnim”

İranın Ermənistanda sabiq ticarət müşavirinin “təsnim” ilə söhbəti

Qarabağ razılaşmasının İran-Ermənistan ticarətinin inkişafında 2 üstünlüyü: İranın Azərbaycana tranzit ödəmələrinin aradan qalxması ehtimalı, Ermənistan Azərbaycana ərazi vermir. İran Culfa ilə Ermənistana çıxacaq, 3 saatlıq yol buna qədər 10 saat idi. Bir də Ermənistan Türkiyəyə mal embarqosu qoysa, onu İran əvəz edə bilər

“irna”

“Qızıl aypara” qaçqınlara yardıma hazırdır.

“irna”

... “Qırmızı xaç” Qarabağda daha səmərəli işləyir.

“irna”

... İ. Əliyev: Qərbdə dini abidələr haqqında danışmasınlar.

“isna”

Putin, İ.Əliyev və Paşinyanla Qarabağda vəziyyəti müzakirə etdi

“isna”

... Lavrov: Sənəd icra olunur

“isna”

... İ.Əliyev: Məscidlərimizi tövləyə çevirənlər xristian məbədlərindən narahatdırlar

“isna”

... Moskva-Ankara arasında Qarabağda sülh məsələsində fikir ayrılığı. Rusiya ”[türk] post lazım deyil”

25 NOYABR 2020. KƏLBƏCƏR rayonu ermənilərdən təmizləndi

“tasnim”

Paşinyan: Ermənistanın prioriteti Qarabağ əhalisinin sabitliyi və təhlükəsizliyini təmin etməkdir; Razılaşmadan başqa çarə yox idi. Qarabağ münaqişəsi həll edilməsə, sülhməramlılar ondan sonra da qalmalıdır.

"irna"

Kəlbəcər rayonu haqqında

...Azərbaycan silahlı qüvvələri Kəlbəcərə daxil oldular

"irna"

... Zərifin C.Bayramovla telefon danışığı: ikitərəfli əlaqələri inkişaf etdirək

"farsnews"

Zərifin Azərbaycanlı kolleqası ilə video-görüşü: sərhədlərin vacibliyinin vurğulanması; Hər ikisi: dostluq, sülh və əməkdaşlıq sərhədidir. Zərif C.Bayramovu Tehrana dəvət etdi

26 NOYABR 2020

"anaj"

Qafqaz üzrə mütəxəssis Mehdi Nalbəndi

"Nardaran ZENDE əst"(Nardaran yaşayır)

26 noyabr 2015-ci il hadisəsinin ildönümüdür. Polis Taleh Bağırovu həbs edərkən radikal dindarlar polisə müqavimət göstərmiş və nəticədə 2 nəfər polis öldürülmüş, bir-neçə polis yaralanmışdı.

Bu gün İslam inqilabının Azərbaycanda təsiri ***daha güclüdür***. Əlikram Əliyev "xomeyniçələr" təşkilatı yaratmışdı

Hazırda Azərbaycanda İslam inqilabı cəbhəsi çox güclüdür.

Dəfn mərasimləri, azad olunmuş ərazilərdə məscidlərə ciddi diqqət yetirilməsi göstərir ki, dinə böyük ehtiyac var. Bu tələbat çox ciddidir.

"Əgər kimsə vahabilərə və təkfirilərə meydan verməklə şiəliyin böyüməsinin qarşısını almaq istəyirsə, ola bilsin elə gün gəlsin ki, Azərbaycan Respublikası adlı bir şey qalmasın".

"tasnim"

Kəlbəcər Azərbaycana qaytarıldı

"irna"

Milli Təhlükəsizlik Komissiyasının sədr müavini

Bölgədə **TƏKFİRİLƏR**in iştirakı ilə Qarabağ sülhü davamlı ola bilməz

Müavin Abbas Moqtədai: "Təkfirilər və əcnəbilərin mövcudluğu"

Ölkənin Şimal-qərb sərhədlərində istənilən xüsusi hərəkətliliyin görünməsi halında,... İraq və Suriyadakı kimi CAVAB verəcəyik.

[16 noyabr tarixində XİN sözçüsü regionda təkfirilərin olmadığını bildirdiyi halda, 26 noyabr tarixində Məclisin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasını Sədr müavini yenidən regionda təkfirilərin mövcudluğundan danışır. Görünürdü ki, İran təzyiq göstərmək üçün bəhanə axtarırdı.]

"irna"

.. Bakının Fransa senatının Qətnaməsinə etirazı

"irna"

... İran və Türkiyə səfirləri Qarabağda vəziyyəti müzakirə etdilər

"isna"

Fransa Senatı hökuməti Qarabağı tanımağa çağırdı, Bakı və İrəvanın reaksiyası

"isna"

... Türkiyə: Fransa Senatının qərarı komikdir

"farsnews"

Bakı Fransa səfirini XİNə çağırdı

"farsnews"

... Türkiyə MN: Fransa Qarabağ probleminin bir parçasıdır, həllinin yox

27 NOYABR 2020

"irna" Moskva bürosu

Ermənistan: Qarabağ bölgəsində sülhün qorunması vacibdir

"irna"

...27 ildən sonra Ağdam məscidindən azan səsi eşidildi.

"irna"

.. Bakıda Senatın qərarına etiraz

“isna”

Putin-Paşinyan telefon danışığı

28 NOYABR 2020

“irna”

Azərbaycanlı analitik: Tehranın mövqeyi Bakı ilə münasibətlərinin möhkəmlənsin və genişlənməsinin amilidir

29 NOYABR 2020

“farsnews”

“Anadolu” agentliyi: Qarabağ müharibəsində PKK ünsürlərinin Ermənistan ordusunda iştirakı

30 NOYABR 2020

“anaj”

Pantürklər və saxta “iranşəhri”lər birləşdilər. İranın yumşaq intiqamından ortaq narahatlıq

“İranşəhri”lərin **irqçi və faşist** siyasəti bəhanəsi ilə pantürkistlər İran düşmənlərinin ətəyindən yapışır, qondarma iranşəhri cərəyanı iransevərlik bəhanəsi ilə İranın İslamiyyətinin kökünü baltalayırlar.

İndi hər ikisi terrordan sonra İranın Bərcam-dan (2015-ci İran ilə 5 BMT TŞ üzvü və Almaniya arasında İranın Nüvə proqramı ilə bağlı imzalanmış Hərtərəfli Birgə Fəaliyyət Planı sazişi) çıxmasından ehtiyat edərək birləşiblər. Hər ikisi Bərcam dan çıxmağın əleyhinədir

[Deməli, İranda Azərbaycan milli mədəni fəallar BƏRCAM-ın demokratik qaydaları gücləndirdiyini başa düşürlər, çünki ancaq az-çox demokratiya şəraitində siyasi-mədəni mübarizə aparmaq mümkündür]

“irna”

Naxçıvan Respublikası başsağlığı verdi [İranda atom fizikası üzrə alimin terror nəticəsində həlak olması ilə bağlı ]

“irna”

... Azərbaycan XİN başsağlığı verdi

“isna”

Paşinyan Putindən əsirlərin qaytarılmasında yardım istəyir

“farsnews”

Laçın 28 il Ermənistanın əlində qaldıqdan sonra yenidən Azərbaycana qaytarılır.

Vətən müharibəsi 10 noyabr 2020-ci ildə Azərbaycanın parlaq qələbəsi ilə başa  çatsa da, işğal olunmuş ərazilərin boşaldılması 1 dekabr 2020-ci il tarixində yekunlaşdığından müharibədən sonrakı dövrün həmin tarixdən hesablanmasını qəbul etmək olar.

1 DEKABR 2020

LAÇIN RAYONU İŞĞALÇILARDAN TƏMİZLƏNDİ

“irna”

İ.Əliyev: Biz regionda davamlı sülh istəyirik

Moskva və Ankara birgə Monitorinq mərkəzi haqqında saziş imzaladılar.

İranın Azərbaycanda səfiri: Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmək İranın prinsipial mövqeyidir.

Azərbaycan ordusu Laçın rayonuna daxil odu.

AMEA Naxçıvan filialının başçısı İranın nüvə alimi Fəxrizadənin həlak olması münasibəti ilə başsağlığı verdi

“isna”

Azərbaycan ordusu Laçına daxil oldu, adamlar (? - V.M.\ erməni vandalları) [müvəqqəti qaldıqları azərbaycanlıların]  evlərini yandırdılar.

İ.Əliyev Fransaya Marsel şəhərini ermənilərə verməyi təklif etdi

İ.Əliyevin Qarabağ razılaşmasını zəiflətmək haqqında xəbərdarlığı. Fransa istəyirsə, Marseli ermənilərə versin

Türkiyə və İsrail arasında münasibətlərin yaxşılaşdırılması barədə gizli danışıqları

“farsnews”

İ.Əliyev: Sazişi zəiflətmək istəyirlər

Moskva-Ankara arasında Qarabağda birgə monitorinq mərkəzi haqqında saziş imzalandı.

2 DEKABR 2020

“irna’

Ermənistan İranın nüvə aliminin həlak olması ilə bağlı başsağlığı verdi.

“isna”

Putin: “Ermənistan naqozir be təsmimate dərdnak dər baraye Qərabağ şod” (Ermənistan Qarabağla bağlı ağrılı qərar qəbul etməyə məcbur oldu).

Ermənistanın sənədi imzalamaqdan başqa heç bir seçimi yox idi. Bu addım Nikoldan cəsarət tələb edirdi. Belə qərar qəbul etmək zəruri idi.

Bizim vəzifəmiz hazırda onu və komandasını dəstəkləməkdir ki, öhdəliklər yerinə yetirilsin, ağır şəraitdən əziyyət çəkən xalqa kömək edilsin.

Regionda tarixi, dini, mədəni abidələri qorumaq

“isna”

İ.Əliyev: 10 noyabr Azərbaycanın Zəfər günüdür

“farsnews”

Azərbaycan: 10 NOYABR QƏLƏBƏ GÜNÜ elan edildi.

“farsnews”

Azərbaycan Müdafiə nazirliyi İranın nüvə aliminin həlak olması münasibəti ilə başsağlığı verdi

Putin və Paşinyan KTMT ilə bağlı bir-birini tərifədilər

3 DEKABR 2020

“tasnim”

Ərdoğan Bakıya gəlir

“irna”

Azərbaycan: ***Münaqişə regionu olan Qarabağ (?)*** da “öldürülənlər”in [Yüksək məqamlı ruhanilər Vətən müharibəsində həlak olanları şəhid adlandırırdılar] sayını açıqladı.

“farsnews”

Avropa İttifaqının rəsmisi: Qarabağ barədə müzakirə olmalıdır.

Zərif: Qərb regionda şər əməllərinə son qoyana qədər susmalıdırlar (dillərini boğazlarına qoymalıdırlar)

Cozef Borrel: “Dağlıq Qarabağın vəziyyətinin təyin edilməsinin hələ də müzakirəyə ehtiyacı var”.

Dağlıq Qarabağ uğrunda müharibə

“anaj”

Ermənistanın Meğri-Naxçıvan koridorunu sabotaj etmək ehtimalı

4 DEKABR 2020

“anaj”

Azərbaycan islahatçı gənclər ictimai birliyinin rəisi [Fərid Şahbazlı]: İranın Qarabağla bağlı ədalətli mövqeyini əhali və hökumətin müsbət qarşılaması

“irna”

Azərbaycanlı ekspert: İran regional əməkdaşlıqdan fayda götürəcək

“farsnews”

Fransa səfiri Azərbaycan XİN-ə çağırıldı

5 DEKABR 2020

“tasnim”

Azərbaycan və Ermənistan hərbi əsirlərin dəyişdirilməsi barədə razılığa gəliblər

“irna”

Paşinyan: İran-Ermənistan dəmir yolu İranın iqtisadi inkişafı üçün əsas hadisədir. Ermənistan-Azərbaycan sərhədi cəbhənin ön xətti yox, adi sərhəd olmalı

Quterеş: Ermənistan-Azərbaycan danışıqları yenidən başlasın

İranın Azərbaycanda səfiri Naxçıvana gəldi

“farsnews”

“Deyli sabah”: Azərbaycan dronları Ermənistan hərbi texnikasının qatili idi

6 DEKABR 2020

“irna”

“Mərkəze nızarəte bər atəşbəse dər Qarabağ və çaleşi cədid” (Qarabağda atəşkəsi Monitorinq mərkəzi və yeni problem)

Mətndə ***Münaqişə regionu Qarabağ*** deyilir.

Moskva: türklər sahədə ola bilməzlər

"Qarabağda işğal olunmuş ərazilərin azad edilməsi"

Mərkəz üçün yer axtarılır: Əvvəlcə Gəncə, Bərdə (Bərdə Xankəndinin 15 km-də) deyilirdi, hələlik qəbul olunmayıb. Mərkəzin yeri açıqlanmır

Moskva : Mərkəz 1 il işləyəcək

Ankara və Bakı: Vaxt məhdudiyyəti yoxdur

Rusiya: Türklər birgə patrulda iştirak etməsin, türklər ancaq qərargahda olacaq

Azərbaycan: Türklər ancaq mərkəzdə olacaq, rus və türk zabitləri erməni qruplaşmalarının **tərki-silah edilməsinə** nəzarət edəcəklər

Lavrov: Rus və türk nümayəndə heyətləri ortaq məxrəcə gəldilər

"farsnews"

"Vəzire səhyonist: Baku şərike mohem və rahbordi bəraye Təl-Əviv əst" (İsrail naziri: Bakı Təl-Əvivin vacib və strateji tərəfdaşıdır)

İsrailin Təhlükəsizlik naziri Eli Kohen bu gün Knessetdə(Parlamentdə) Azərbaycan nümayəndə heyəti ilə görüşdə deyib: "İsrail Azərbaycanın evidir"

Köhen sonra bəyan etdi ki, İsrail Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və ona ehtiram göstərir. Görüş əlaqələrin 30 illiyi münasibəti ilə baş verib

Sayt xəbərə əlavə edir: Münaqişə obyekti olan ***Qarabağ dövlətinin (?)*** prezidenti – Araik Arutyunyan: "İsrail ermənilərə qarşı genosiddə Azərbaycanla əlbirdir".

[Sayt öz münasibətini göstərmək üçün A.Arutyunyanla həmrəylik göstərir.]

7 DEKABR 2020

"tasnim"

“Cənge xamuş. Təvafoğe Qarabağ ba 5 tərhe qaziye İran çe mikonəd? Dəvaye zərgəri bəraye həzfe İran əz tecarəte qaze məntəqe. Ehtemale təbdile İran əz bazigər be təmaşagər!” (Sakit müharibə.Qarabağ razılaşması İranın 5 qaz layihəsinə nə edəcək? İranın regionun qaz ticarətindən çıxardılması üçün dəqiq dava. İranın aktordan tamaşaçıya çevrilməsi ehtimalı)

Yazıda göstərilir ki, İranın müharibə günlərində **yarıtmaz diplomatiyası** 10 noyabrdan sonra onu regionun qaz bazarından çıxara bilər. Region oyunçuları İranı kənar etmək üçün sakit müharibəyə başlayıblar.

[İran müharibədə ermənipərəst mövqe tutduğundan yeni dəyişikliyi qəbul edə bilmədiyini vurğulayaraq ona qarşı artıq vaxtı keçmiş mövqeyini əsaslandırmaq üçün müxtəlif fərziyyələr irəli sürür. İranda hakim dairələrin ideoloqları regionda yeni geosiyasi reallığın onun maraqları əleyhinə olduğu fikrini təkrar etməkdə davam edirlər.]

“Qozareş. Qarabağ və yadavəriye təcrobeye Qazağıstan. Cəhane tork nəhveye enteğale arame qodrət ra xahəd did?” ( Hesabat:Qarabağ və Qazağıstan təcrübəsini xatırlatma.Türk dünyası hakimiyyətin dinc şəkildə ötürülməsini görəcək?)

Türkiyənin “Cümhuriyyət” qəzetindən götürülmüş yazıda Qazaxıstanın əsasən müstəqillik dövrü tarixi, N.S.Nazarbayevin prezidentliyi və türk dünyasını birləşdirmək sahəsində fəaliyyətindən danışılır. Yazıya giriş kimi əlavə olunan hissədə əlaqəsiz şəkildə Qarabağı da ora qoşublar.

[Yazıda Qarabağ və hakimiyyətin ötürülməsi tərzi arasında hər hansı bir əlaqədən danışılmır.]

“rna”

Azərbaycan XİN İrana gedəcək(9 XII 2020\19 IX 1399)

“farsnews”

Lavrov: Cənubi Qafqazda əlimizdən gələni edirik

8 DEKABR 2020

“irna”

Əbdülqəni Bakuvi haqqında

Qafqaz Qacarlara qədər ***İranın(?v.m.)*** ayrılmaz hissəsi idi.

Bakuvi Qafqazın Rusiya tərəfindən işğalından sonra anadan olub. Nəcəfdə oxuyub.

1310\1931- ci ildə 4 ay həbsdə qaldıqdan sonra vəfat edib.

9 DEKABR 2020

"tasnim"

Azərbaycan XİN Ruhani ilə görüşüb

[Əlavə məlumat yoxdur]

"tasnim"

"Şəmxani dər didar ba vəzire xareceye Azərbaycan: əz icade kanunhaye naəmənsaz dər Qafqaz celugiri şəvəd" ( Şəmxani Azərbaycan xarici işlər naziri ilə görüşdə: Qafqazda(?) səbatsızlıq yaradan mərkəzlərin yaradılmasının qarşısı alınsın)

Ali Milli Təhlükəsizlik Şurasının katibi və Rəhbərin həmin qurumda nümayəndəsi Şəmxani işğal olunmuş ərazilərin qaytarılmasına sevindiyini izhar və Azərbaycana inkişaf arzu edib. Münasibətlər mümkün ən yüksək səviyyəyə qaldırılmalı. İran bərpa işlərində iştirak etmək istəyir. Şər üçbucağı: Amerika – sionst rejim-işid və terroristlər, xüsusən Qərbi Asiyada onların mövcudluğu təhlükədir və böhran yaradırlar". Onların regiondan çıxarılmasının sabitlik və asayişə səbəb olacağını qeyd etdi. Region ölkələri mehriban qonşuluq və qarşılıqlı səylərlə səbatsızlıq və narahatlıq yaradan yeni mərkəzlərin yaranmasının qarşısını almalıdırlar".

Şəmxani hər iki ölkənin bəzi vətəndaşlarının, bir-birinə neqativ münasibət yaratmaq istəyən şübhəli medianın fəaliyyətinə toxunaraq dedi: "Belə qeyri-konstruktiv və ixtilaf yaradan hərəkətlərə daha artıq ciddiyyət və həssaslıqla diqqət yetirilməli və onlar dayandırılmalıdır".

C.Bayramov İranın Qarabağla bağlı prinsipial və Rəhbərin həkimanə-işğalın sona çatdırılması-mövqeyinə görə minnətdarlıq etdi. Azərbaycanın münasibətlərin yüksəlməsinə hazır olduğunu bəyan edərək Fəxrizadənin terror edilməsini pislədi.

[Amerika və İsraili düşmən hesab edən Şəmxani onların mövcud olduğu regionda böhran yaratdıqlarını vurğulayaraq, onların regiondan çıxarılmasının vacibliyini qeyd edərək yeni gərginlik mərkəzlərinin yaradılmasına yol verilməməsinə çağırdı. Bunlar Azərbaycanın Xarici işlər nazirinə deməsi onu göstərirdi ki, İran Azərbaycanın İsraillə əməkdaşlığının davam etməsindən narazıdır və həmin əməkdaşlığa mane olmaq istiqamətində addımlar atacaqdır].

C.Bayramov Zəriflə görüşüb.

Zərif: Atəşkəs sazişi və işğalın başa çatmasını alqışladı, mehriban qonşuluq, böhranın danışıqlar yolu ilə davamlı həllinə tərəfdar olduqlarını vurğuladı.

C.Bayramov: İranın mövqeyinə görə təşəkkür edib

Hər iki tərəf münasibətləri və əməkdaşlığı davam etdirmək və genişləndirməyin vacibliyini vurğuladılar.

Qeyd. Bayramovun Tehrana səfəri əməkdaşlığın ***yeni dövrə*** daxil olmasında **ilk addım**dır.

Sayt İranın müharibə günlərində mövqeyi haqqında yazır ki, İran Ermənistana silah ötürülməsinə yol verməyib. Dörd imam cümə [Cənubi Azərbaycan], 2 Mərcəe təqlid-Məkarem Şirazi və Nuri Həmədani, oktyabrın əvvəli Ruhani işğalı pislədi, sərdar Noui Əğdəm deyib: “Azərbaycan hökuməti dəvət etsə, Qarabağın azadlığı uğrunda döyüşməyə hazırıq”. 3 noyabr Rəhbər bəyan edib: “İşğal edilmiş ərazilər azad olmalı, Azərbaycanındır. Azərbaycanın haqqı var azad etsin”.

“irna”

Bakı bürosu

1. Məclisin spikeri: Sərhəddə əməkdaşlıq və dəmir yolu əlaqələri prioritet olmalıdır

2. Xarici işlər nazirlərinin görüşü: Böhran danışıqlar yolu ilə daimi həll olunsun

3. Şəmxani :eyni başlıq

4. Xətibzadə: Daimi həll zəruridir

5. Ruhani: İran Azərbaycan Respublikası ilə əlaqələri genişləndirməkdə qərarlıdır

Mətndə: “dost və qardaş ölkə”, “qardaşlıq əlaqələri”

Prezident müharibənin bitməsi, Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması, atəşkəsin bərqərar olmasına sevindiyini bildirib.

“İran əhəmiyyətli rol oynamağa hazırdır”

“Trampdan sonra əməkdaşlıq üçün daha yaxşı şərait olacaq”.

“Bərpa işlərində iştirak etməyə hazırıq”

“Əvvəlki əməkdaşlığı davam etdirib yeni sahələrdə əməkdaşlığa hazırıq”

“isna”

Şəmxaninin C.Bayramovla görüşü eyni başlıq altında verilib.

“farsnews”

Zərif Azərbaycan xarici işlər naziri ilə görüşdən sonra: “Azərbaycanlı həmkarım ilə müharibə getmiş ərazilərin bərpası və yenidən qurulması haqqında səmərəli danışığımız oldu”.

“farsnews”

Azərbaycan Xarici işlər naziri İranın Qarabağ böhranında mövqeyini yüksək qiymətləndirdi

[Hökumət zahirən də olsa, müharibənin başa çatması, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən məmnunluq ifadə edərək iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsinə hazır olduğunu bəyan edir. Nə terroristlər, nə təkfirilər, nə də İsrailin bölgədə varlığından süni narahatlıq bəyan etmir. Bu fikri digər hakimiyyət orqanları (məsələn Ali Milli Təhlükəsizlik Şurasının katibi Şəmxani) üçün demək olmur. Onlar hər addımda terrorist, təkfiri, İsrail mövzusunu qaldıraraq Azərbaycan əleyhinə təbliğat aparmaqdan çəkinmirlər ]

10 DEKABR 2020\20 azər 1399 BAKIDA ZƏFƏR PARADI

“tasnim”

Zəfər paradı, şəkil verilib, fotoda qənimətlər də yer alıb.

“irna”

İranın Bakıda keçmiş səfiri

Sülh İranın Qarabağın azad edilmiş rayonlarının yenidən qurulmasında iştirak etməsi üçün bir fürsətdir.

Tekstdə böhranın hələ tam həll olunmadığı qeyd olunur.

“irna”

Əliyev və Ərdoğan regionda əməkdaşlıq üçün yeni şərait yarandığını vurğuladılar

“irna”

Əliyev və Ərdoğanın iştirakı ilə hərbi parad keçirilib

“irna”

Azərbaycan xarici işlər nazirinin İrana səfərinin Azərbaycan mətbuatında işıqlandırılması

“isna”

Ərdoğan: Azərbaycan-Ermənistan müharibəsi bitməyib; Əliyev: “Qarabağ Azərbaycandır”.

11 DEKABR 2020\21 AZƏR 1399

“anaj”

“Ercae tarixiye Mötəzed be Ərdoğan; Ərke Təbriz; Yadavəre eftezahe Soltan Süleyman”( Mötəzidin Ərdoğana tarixi xatırlatması; Təbriz Ərki; Sultan Süleymanın rüsvayçılığını xatırlatma)

Xülasə: Qoy Türkiyə Rza şahın verdiyi Böyük Araratı geri qaytarsın

[Müəllif Xosrov Motəzed-tanınmış iranlı tarixçi, əslən mazandaranlıdır, polkovnik oğludur. Bunun famili atası kimi Motəzed, atasının digər qohumlarının soy adı Laricanidir. 1942-ci il təvəlüdlü bu tarixçi əsasən kiv\media sahəsində çalışıb, çoxlu kitablar yazıb. Təkcə onu demək olar ki, çox “jivuçi”dir (hər şəraitə uyğunlaşandır) və hər iki sistemə eyni dərəcədə xidmət edə bilib. İnqilabdan əvvəl vurğulayırdı ki, şahlıq artıq İran xalqının təbiətinin tərkib hissəsinə çevrilib, inqilabdan sonra islamçı olub, şahlığı pisləməklə məşğuldur.]

O yazır: “İran əhalisinin Osmanlı əyalətlərinin əhalisi ilə qardaşlığı vardı, lakin Osmanlı dövlətinə nifrət edirdi”.

Qafqaz və Azərbaycan əhalisi FARS dilində və bir neçə yerli dildə danışırdı. Səlcuqlardan sonra dilləri dəyişdi. "Türk dilli olmaq türk olmaqdan fərqlənir. Qafqaz və Azərbaycan əhalisi türk dilli olsalar da, türk irqindən deyillər"

Osmanlı sultanları farsca şer yazırdılar.

"İran dövlətinin Qafqaz və Türkiyəyə qarşı heç bir strateji proqramı müşahidə edilmir".

Ərdoğanın at oynatmasının səbəbi İran hökuməti və mədəni sisteminin passivliyidir.

Türkiyənin İrana tele təsirini azaltmalı.

"Həmin baxımdan Azərbaycan əhalisinin mədəni ortaq cəhətləri və incəsənət gözləntiləri İranın mərkəzi Radio və televiziya şəbəkəsi ilə əks olunmalıdır".

[Türkiyə Respublikasının Prezidenti R.T.Ərdoğanın Zəfər paradı zamanı "Arazı ayırdılar" misrası ilə başlayan şeiri oxumasına qarşı yazılan çoxsaylı yazılardan biridir. İranda qəbul olunmuş antitürk mövqeyindən yazılmış bir yazıdır.]

"tabrizebidar"

Qarabağda 44 günlük müharibədən sonra Qafqazın geosiyasi durumu mövzusunda toplantıda danışıldı;

Qafqazda Hac Qasımın yeri görünür, Azərbaycan şiələrin əlinə düşdü, yoxsa sionizmin?

Xəritə: Dağlıq Qarabağ köhnə sərhədlərdə bir rəngdə, ətraf rayonlar əsas ərazidən fərqli rəngdə verilib

Bir neçə professor və milli ekspertlə onlayn (internet) müsahibə:

Məclisin Rəyasət heyətinin üzvü, Təbrizdən deputat Ruhulla Mütəfəkkir Azad: Əsas tələb İsraili regiondan çıxarmaqdır

Biz təvəqqe edirik ki, ölkələr arasında sərhədlər qalsın və gömrük əlaqələri qorunub saxlansın.

Uzun müddətli sülh, işğala son, təhlükəsizliyin bərqərar olması, iki qonşu ölkə arasında əlaqələrin olması

Qafqaz üzrə ekspert, azərbaycanlı Mehdi Nəlbəndi: "Azərbaycanda dinin mövqeyini gücləndirməli. Biz öz qonşumuza qonşuluq ədəbi öyrətdik".

Müharibənin bitməsi bizim Azərbaycan və Ermənistanla əlaqələrimizin sonu deyil. 30 ildir Naxçıvana yol vermişik, heç nə istəməmişik.

İranın Azərbaycanda keçmiş səfiri azərbaycanlı Əlirza Biqdili:

Müharibədən Azərbaycan və Ermənistandan sonra ən çox zərər çəkən İran olub.

"Biz regionda iqtisadi rəqabətdən geri qalmışıq".

"Biz Qarabağın azad olmasından daha çox fayda götürəcəyik. Onlar rəqabət və qarışıq atmosfer yaratmağın əsiri olmasınlar, o halda bu, düşmənlərimizin xeyrinə olar. Dəmiryolunun açılmasının faydası çox olacaq".

Keçmiş sepah komandiri, keçmiş deputat, azərbaycanlı Mənsur Həqiqətpur: "İran Qafqazda öz maraqlarını qorumalı idi, amma "indi tamamilə huşsuzluq \yaddaşını itirmiş vəziyyətindədir. Naxçıvan-Azərbaycan dəhlizini niyə Türkiyənin ixtiyarına verirsiniz". Əsas qaliblər: Rusiya, Türkiyə, İsrail və vahabilik təfəkkürü və Azərbaycandır. İran qalib deyil. Onlar bizim nəcibliyimizdən sui-istifadə etdilər.

"Dron Azərbaycandan gəlmişdi (alim Şəhriyarinin terroru), qatillər haradan qaçdı [ Azərbaycan sərhədindən]. Orada azan oxunur deyə özümüzü aldatmayaq".

Bürhan Hişməti: Bəziləri "təkfirilər orada yerləşib, ailələrini də gətirəcəklər., bunun əsası yoxdur. Əsas sual budur ki, qələbədən sonra Azərbaycan şiə əsgərlərin əlinə keçdi, yoxsa ***sionist olan sistemin***"?

[İranlı ekspertlərin bir çoxu antitürk, antiAzərbaycan mövqeyindən çıxış edib Azərbaycanın İsraillə əməkdaşlığını bəhanə gətirərək, gerçəkliyi qəsdən təhrif edərək, əsasız iddia və şübhələr irəli sürürlər. Azərbaycanın müstəqil bir dövlət olduğunu qəsdən unudurlar.]

“tasnim”

Türkiyə səfiri Xarici işlər nazirliyinə çağırıldı. R.T.Ərdoğanın “yol verilməz və müdaxilə xarakterli fikirləri” qeyd edildi və ona “kəskin etiraz”: bildirildi. Səfirə vurğulandı ki, İİR Türkiyə hökumətinin bu barədə təcili izahatını istəyir. Səfirə deyildi: “Artıq çoxdan ərazi iddiaları, ekspansionist və müharibə qızışdırıcı imperiyaların vaxtı keçmişdir”... “İİR heç kimə onun ərazi bütövlüyünə müdaxilə etməyə icazə vermir... “Təhlükəsizlik məsələsində zərrə qədər də güzəştə getməyəcək”.

[İranın stəkanda qaldırdığı bu fırtına Türkiyə prezidentinin Zəfər paradı zamanı çıxış edərkən “ayrılıq” bayatısını (“Arazı ayırdılar”) oxumasına qarşı yönəlmişdi.]

“tasnim”

Zərif: “Ərdoğan bilmir ki, Azərbaycan Respublikasının müstəqilliyi əleyhinə danışıb?”

Ərdoğanın şer oxumasına reaksiya; Səhvən (?) Bakıda oxuduğu şer, Araz mahnısından bir bənd oxudu.

“tasnim”

“Ezharat nəsəncideye Ərdoğan dər Baku və vakoneşe sərihe İran.,Tehran və Ankara dər məsir təneş həstənd?” (Ərdoğanın Bakıda düşünülməmiş fikirləri və İranın təcili reaksiyası, Tehran və Ankara gərginlik yolundadırmı?)

“Azərbaycanın Ermənistan üzərində qələbə bayramı”

“Mehtər marşı” Osmanlı ordusunun marşlarından idi, dəxli olmayan bir addım idi və Bakıya uyğun bir hərəkət deyildi.

Aparıcı: Təbriz ərki, Savalan dağına işarə oldu ki, Azərbaycan Respublikası ilə heç bir əlaqəsi yox idi. Və onların adlarının çəkilməsi təhrikedici hesab edilir. Ərdoğan Ermənistanın daxili işlərinə qarışaraq dedi ki, ermənilər özlərini rəhbərlərinin bəlasından qurtarsınlar. Suriya haqqında da dəfələrlə belə sözlər deyib

“Arazı ayırdılar” şeiri separist çağırış hesab edilir.

Ən yaxşı halda demək olar ki, zövqü kasad idi və gərək oxumaya idi, çünki İranda şerə və separatizmə çox həssasdırlar.

Ərdoğanın müdaxilə xarakterli çıxışları çox olub. Türkiyədə müxalifət, hətta AKP-də Ərdoğanın müdaxiləçi siyasətinə qarşı olanlar var. Əliyev və Ərdoğan dəfələrlə Ermənistanı təhqir etdilər.

[Necə danışmalı olduğunu R.T.Ərdoğanın yadına salır. Amma öz sözlərinin siyasi və hüquqi yükünə elə bir əhəmiyyət vermirdilər.]

İnformasiya və kommunikasiya naziri-Cəhromi.

Keçmiş Maarif naziri Bethayi, Səhiyyə nazirliyinin sözçüsü Cahanpur və daha çoxlu sayda dövlət məmuru və rəsmisi Ərdoğanı pislədilər.

Sepahın keçmiş Baş komandanı və Məsləhət Şurasının katibi Möhsün Rezayi: "Məqsədi "Böyük İran"dırsa, doğrudur."

"Hər iki tərəf münasibətlərin gərginləşməsində maraqlı deyil və həmişə belə vəziyyətləri nəzarətdə saxlamışlar".

"irna"

Şərqi Azərbaycan vilayətinin siyasi və təhlükəsizlik üzrə müavini Əlyar Rastqu: Ərdoğan müdaxilə xarakterli sözlər demək əvəzinə, Türkiyənin daxili problemlərini həll etsin. Şərqi Azərbaycan əhalisi həmişə ön cərgədə olub. [Cənubi] Azərbaycan həmişə İranın əzizi və dürdanəsi olub, azərbaycanlılar İrana bağlıdırlar. Birinci biz cavab verdik , xüsusən, məcazi məkanda.

"irna"

İranın Bakıda keçmiş səfiri Möhsün Pakayin: "Azərbaycan və İran münasibətlərini pozmağa icazə vermərik"

Şer əslində belə məna verir ki, sülh müqavilələri ilə [1813 :1828 ] İranın azəri hissələri ayrılıb və məcburən o tərəfə getdilər.

İ.Əliyevin hüzurunda bu şeiri oxumaq Azərbaycanın indiki müstəqilliyini sual altına alır. (?v.m.) Ərdoğan Səhəndə də işarə edir, deməli, bu məntəqələr türk dillilərindir. Ərdoğan İran-Azərbaycan münasibətlərini pisləşdirmək istəyir, halbuki münasibətlər çox yaxşıdır. Ərdoğan iki ölkəni ixtilaf mənbəyi olan məsələlərə baş vurmağa təhrik edir ki, onlar bir-birinə qarşı dursunlar.

Həm Ərdoğana etiraz  etməli, həm də Azərbaycan-İran münasibətlərini qaydasına salmalı  və münasibətlərin pozulmasına icazə verməməli.

[Keçmiş səfir iki ölkə arasında münasibətlərin səviyyəsini yaxşı qiymətləndirərək onların pozulmasına yol verilməməsinin vacibliyini vurğulayır. Lakin səfir də şeir parçasında İranın ərazi bütövlüyünə təhlükə görür və  bir fars millətçisi kimi  Cənubi Azərbaycanın(Səhənd)  azərbaycanlıların\türklərin\türk  dillilərin vətəni olduğunu inkar edir.]

"irna"

Xətibzadə: "Xarici siyasəti xəyallar üzərində qurmaq  ağıllı iş deyil".

"irna"

Möhsün Rezayi: "Cənubi Azərbaycan  İranın qəlbində və digər əqvamın yanında yer alıb".

"isna"

Xəbərdarlıq

Beynəlxalq məsələlər üzrə  ekspert

"Təvəhhomate Ərdoğan  be caye  xətərnaki rəside əst;əlave be Torkiye be Azərbaycan həm təzəkkori ceddi dəhim" (Ərdoğanın illüziyaları təhlükəli həddə çatmışdır; Türkiyədən başqa Azərbaycana da ciddi  xəbərdarlıq etməliyik)

Türkiyədə  vətənpərvərlər  Ərdoğanın belə sözlər deməsinin qarşısını almalıdırlar.

Demək,  şeir nə deyirmiş, ya Ərdoğan nə demək istəyirmiş: "İranın bir hissəsi ondan qoparılır, Azərbaycana birləşdirilir və sonra Azərbaycan "Böyük Osmanlı" imperiyasına birləşdirilir".

"Ərdoğanın ağılsız ideyaları təhlükəli həddə çatıb".

1918-ci ilə qədər Azərbaycan adı olmayıb, **Gülüstan  sülhündən** sonra  bu məntəqə Azərbaycan adlandırıldı.

Ekspert Seyid Rza Sədir əl-Hüseyni

Şerdə deyilir: Cənubi Azərbaycan əhalisinə xitabən

Biz sizdən ayrılmırıq, bizi sizdən zorla ayırdılar, Araz tezliklə güclənəcək

“Türkiyənin xəyalpərvər və təcavüzkar prezidenti”

Təhmasib şah zamanı Təbriz əhalisi Ərdoğanın sələfləri haqqında şer deyib.

Rumlu [osmanlı ] Təbriz darvazasına gəlib çatdı

Cənubi Azərbaycan xəbərdarlıq etmədi.

[Bir parça şer əsasında hansı nəzəriyyələr yaratmaq olarmış. İranlılar nəzəriyyə yaratmaqda məharətlərini göstərdilər, ]

“farsnews”

Naderi: Ərdoğan tarix oxusun, bizim azərbaycanlılar puç sözlərə əhəmiyyət vermirlər

Dünya parlamentlərarası ittifaqın İcraiyyə Şurasının sədri, Tehrandan deputat, İnqilabın İkinci addımı fraksiyasının sözçüsü, əslən azərbaycanlı Əhməd Naderi. O, İranın Qarabağ məsələsində son bir neçə gündəki mövqeyini daimi mövqeyi kimi qələmə verir. Ərdoğanı bütün günahlarda ittiham edir.

“farsnews”

Məclisin vitse-spikeri Əli Nikzad(-bu da Ərdəbilli azərbaycanlı)

Nikzad: “Cənab Ərdoğan. ya tarix oxumayıb ya da onu təhrif etmək məqsədi var”.

Tviti: “İran və Azərbaycan qardaşlarını bir-birindən uzaqlaşdırmaqdan əl çəkin. Bu dini və qan qardaşlığı əsrlərdir ki, mövcuddur və hər gün möhkəmlənir. Diplomatiya qurumları bu məsələni ciddi araşdırıb və xalqa hesabat versin”.

“farsnews”

Ərdoğanın sözlərinə siyasi simaların reaksiyası; müxtəlif qövmlər İranın karkasını təşkil ediblər

Camal Ərəf-DİN-in Siyasi müavini

Fəda Hüseyn Maleki-Parlamentin Milli Təhlükəsizlik komissiyasının üzvü:

Ərdoğan “təcavüzkarların regiona daxil olmasına mane olsun”.

Milli təhlükəsizlik Komitəsinin sədr müavini – Şəhriyar Heydəri

Məclisin Sosial Komitəsinin üzvü Hüseyn Hatəmi:

"Bir mahnı və ya bir parça musiqili şeirdə bir çox mənalar axtarmağa hövsələm yoxdur. Heç kim bizim aramıza nifaq sala bilməz".

Vərəzqandan deputat Allahverdi Dehqani: "İcazə vermərik ki, sərhədimizdə ekstremistlər və sələfilər yer alsınlar".

Spikerin Beynəlxalq məsələlər üzrə köməkçisi Əmir Abdullahiyan: tvit:" anlaşılmaz fikir söyləyib, İran tarixini oxusun".

Məclisin Kənd təsərrüfatı komitəsinin sədri Sadatinejad: "İran ***separatizmə*** imkan verməz".

"farsnews"

XİN Türkiyə səfirini çağırsın. Ərdoğan Osmanlı imperiyasını dirçəltmək istəyir.

"farsnews"

Türkiyə XİN İranın səfirini çağırıb prezidentin sözləri ətrafında qaldırılan hay-küydən narazılıq bildirilib.

[Türkiyə prezidenti R.T.Ərdoğanın Zəfər paradında çıxış edərkən, "Arazı ayırdılar" misrası ilə başlayan şeiri bədahətən oxuması İranın Azərbaycana və Türkiyəyə həqiqi münasibətinin təzahür etməsinə bir vəsilə oldu. İranda həmin şeirə Rəhbər və yeni seçilmiş prezident istisna olmaqla, demək olar ki, bütün rəsmilər neqativ münasibət bildirərək ,onda İranın ərazi bütövlüyü üçün təhlükə, Türkiyənin ekspansionist planlarını görməyə "böyük ağıl" və enerji sərf etdilər. Həmin məsələdə bəzi azərbaycanlı rəsmilər daha çox canfəşanlıq nümayiş etdirdilər. Bununla belə, rəsmilər arasında nadir halda şeir parçasına nisbətən təmkinlə yanaşmağın vacibliyini vurğulayanlar da olmuşdur.]

12 DEKABR 2020\22azər 1399

"anaj"

Təbrizdə Ərdoğana etiraz əlaməti olaraq 2 min nəfərlik toplantı; Təbrizdən Ərdoğana cavab göndərildi: türk, fars,azəri, İmam Hüseyn ləşgəri

"anaj"

Şərqi Azərbaycan valisi: "Heç kimə ölkənin ərazi bütövlüyünü pozmağa icazə verməerik".

"anaj"

Şərqi Azərbaycan vilayətinin media fəallarının Ərdoğanın sözlərinə reaksiyası. Ərdoğanın cəfəng sözlərindən bezmək, Türkiyənin Azərbaycan Respublikasına arxa çevirməsini xatırlatma

"anaj"

Şimal-qərb deputatlarının Ərdoğanın sözlərinə reaksiyası; Azərbaycane canbaz, İrandan ayrılmaz

"anaj"

Milli və siyasi simaların Ərdoğanın illüziyalarına reaksiyası

"anaj"

Bəyanat

Şimal-qərb Cümə imamlarının Ərdoğanın sözlərinə reaksiyası; Daha yanğılı olan "Anatoli"nin 25 milyon ələvisinin Şah İsmayılın ayrılığına həsr olunmuş həsrət şeirləridir.

İslam ölkələri arasında münaqişə yaratmaq bağışlanmaz günahdır. İxtilaf \təfriqə yaradan söz və əməldən uzaq olmalı. Sözlər ölçülmüş olmalıdır.

Türkiyə prezidenti R.T.Ərdoğanın oxuduğu şeir ərazi bütövlüyünə qarşı yönəlib.

Şeir iranlılar tərəfindən deyilib. 200 ildir Qafqazın 17 vilayətində yaşayan ***iranlılar***(?v.m.). Şourəvi dövləti tərəfindən [bu hiyləgər iranlılar rus, Rusiya deməkdən çəkinərək utanmadan Sovet deyir (200 il əvvəl Şourəvi))] ana vətəndən –baba torpağından və tarixi vətəndən ayrılıblar. Günah Ərdoğanın nitqini hazırlayanlardadır.

2 növ həsrət şeiri

1. ***İranlıların*** [yəni Şimali azərbaycanlıların](?v.m.) İranla bağlı şeirləri

2) 25 mln. Türkiyə ələvilərinin Şah İsmayıl ilə bağlı şeirləri

Cənab Heydər Əliyevi xeyirlə yad edirik. Ondan ilhaq haqqında soruşanda deyib. "Belə məsələni qaldıranlar ağılsızlardır. Çünki əl bədənə birləşməli, əksinə yox".

19 yanvarda sərhədə axın: “dünya azərilərinin çox möhkəm, köklü, əsil və qeyrətli simasını nümayiş etdirdi”.

[Cənubi Azərbaycanın 4 vilayətinin cümə imamlarının 30 sentyabr və hazırkı bəyanatlarını müqayisə etdikdə onların mövqelərinin kim tərəfindən amiranə şəkildə müəyyən edildiyini aydın görmək olar. Birinci bəyanatda BÖYÜK AZƏRBAYCAN MİLLƏTİ deyən cümə imamları indi Şimali azərbaycanlıları iranlı adlandırırlar. Sərhədə yürüş tarixini və onun məqsədini qəsdən təhrif edərək hadisəni azərbaycanlıların guya İrana birləşmək istədikləri kimi qələmə verirlər.]

“anaj”

Ekspert Əziz Cavanpur:

İsrailin səhv hesablamaları Ərdoğanı xəyallara salıb. Bizim xarici işlər nazirliyi Rza xan yuxusundan ayılmalıdır.

“anaj”

Təbriz əhalisinin Ərdoğanın sözlərinə qarşı “spontan” toplantısı

“anaj”

Təbriz Cümə imamı

Siz deməmişdinizmi azərilərin davasının bizə dəxli yoxdur?

[Ərdoğanın bir bənd şer oxumasına İran hakimiyyəti ən müxtəlif səviyyələrdə və ən geniş miqyasda reaksiya təşkil edərək, təbliğat maşınının ondan antiazərbaycan məqsədi ilə istifadə etməsi üçün əlindən gələni etdi. Cənubi Azərbaycanın bütün səviyyəli rəsmilərini ayağa qaldırmaqla azərbaycanlıların türklüyünə qarşı güclü həmlə həyata keçirildi. Daha vacibi, Azərbaycana dəstək ifadə etmiş deputatlar və cümə imamlarına göstəriş verildi ki, sərt bəyanatları ilə xalqın yadında əvvəlki davranışlarının təsirini neytrallaşdırsınlar. Məhz buna görə Azərbaycanda Türkiyə prezidenti R.T.Ərdoğanın birbəndlik şer oxumasına belə geniş bir etiraz hərəkatı qısqırdıldı. Cənubi Azərbaycan rəsmiləri bir daha nümayiş etdirdilər ki, İranda cənubi azərbaycanlılara münasibətdə panfarsist mövqeyindən səsləndirilən separatizm adlandırılan milli-mədəni hüquqlar uğrunda mübarizə aparan fəallara qarşı ən

kəskin mövqeyə malikdirlər. İranın panfarsist dairələrində separatizm anlayışına hər cür milli, milli-mədəni hüquqların tanınması uğrunda mübarizə ,daha doğrusu hüquqsuzluq vəziyyətinə etiraz və s. aid edildiyindən vilayətlər səviyyəli rəsmilər belə başa düşülən separatizmə qarşı olduqlarını göstərməklə bir daha anti etno-mədəni hüquqlara qarşı olduqlarına mərkəzi inandırmağa böyük səy göstərdilər,]

"tasnim"

"Ərdoğan, pəhləvane pənbei ba eddeahaye soltani; Türkiyə dər doureye cədid be kodam səmt mirəvəd" (Ərdoğan, sultanlıq iddiaları olan pambıq pəhləvanı; Türkiyə yeni dövrdə hansı istiqamətdə hərəkət edir)

"tasnim"

Həqiqətpurun müsahibəsi: Ərdoğan sionizmin regionda yolunu təmizləyənə çevrildi, tarixi bilmir

"irna"

Ərdoğanın müdaxilə xarakterli sözlərinə reaksiyada tam həmrəylik

Təbriz: 4 vilayətdə Ərdoğana qarşı komment seli gəldi

Ruhanilər: Şeir Qafqazın ayrılması həsrəti ilə yazılıb

M.Nəlbəndi: bir parad iki komandan

"irna"

İran internet istifadəçilərinin ölkənin ərazi bütövlüyünü tam varlığı ilə müdafiə etməsi

"irna"

İran Qarabağda davamlı sülhün tərəfdarıdır

"isna"

Təbrizlilərin Türkiyə konsulluğu qarşısında toplanması

"isna"

Bəyanat 3

Ərdoğanın gətirdiyi ***təkfirilər indi də Azərbaycandadır.***

"farsnews"

Rəhbərin Şərqi Azərbaycanda nümayəndəsinin Ərdoğanın sözlərinə reaksiyası

“farsnews”
Ərdoğanı kim cəsarətləndirdi
“farsnews”
Ərdəbildən deputat:
Ərdoğan da mövqeyini dəyişməlidir.
“farsnews”
Təbrizdə Ərdoğan əleyhinə adamların toplanması
“farsnews”
Ermənistan: ***Bakı hücumlarını*** yenidən başladı
“farsnews”
Lavrov-Bayramov danışıqları.

[İran saytları böyük həvəslə hakimiyyətin Cənubi Azərbaycanda R.T.Ərdoğanın şeir oxumasına qarşı təşkil etdiyi müxtəlif formalı etiraz aksiyalarını geniş şəkildə işıqlandırmışlar. Həmin aksiyalar Türkiyə prezidentinə qarşı deyil, Cənubi azərbaycanlıların milli kimliyinə qarşı yönəlmişdi.]

13 DEKABR 2020
“anaj”
Təbrizlilərin toplanışının beynəlxalq və milli mediada əks olunması
“anaj”
Türkiyə Qüds tv-nin müdiri Nurəddin Şirin: Türkiyə və İran arasında düşmənçilik salmaqdan yeganə qazanan İsraildir
“anaj”
Azərbaycanın vəziyyəti Hafiz Şirazinin deyimi ilə
Təbriz deputatının Ərdoğanın şeir oxuması qarşısında şeir oxuması
Deputat Məhəmməd Hüseyn Fərhəngi plenar iclasdan əvvəl oxuyub.
“anaj”
Türkiyə Vətən partiyasının sədri Doğu Pərecek
Amerika və İsraildən asılı olanlar İran ilə Türkiyə arasında düşmənçilik yaradırlar

[Saytda gedən 9 yazıdan 7-i Ərdoğanın şeir oxumasına qarşı yazıdır]

"tabriszeman"

Şazəd dən [fars]deputat məclisin plenar iclasında nə dedi?

"Azəri olmaqda iddialı olan bu qədər deputatın qeyrət damarı hanı? Ermənistanı dəstəkləməli idik!"

Məclisin Milli Təhlükəsizlik və Xarici siyasət komissiyasının üzvü Mahmud Əhmədi Biqəş:

"Məclisin azəridilli deputatlarının narahat edici sükutu..."

"Möhtərəm deputatlar, məclisdə İran azəriləri haradadır?"

Xiyabani, Səttarxan, Bağırxan və Bakerilərin qeyrəti?

Azərbaycan Respublikası və Cənubi Qafqaz İranın olub, sabah bir iş olsa, onda həmin ərazi gərək İrana qaytarılsın.

[Cənubi azərbaycanlılar Ərdoğana qarşı nə qədər danışsalar da, panfarsistlər üçün azdır. Gərək onların hər biri İrana, daha doğrusu panfarsistlərə, loyallığını hər addımda nümayiş etdirsinlər. Qaytarma məsələsini Zərif də qaldırmışdı. O deyirdi ki, Ərdoğan Azərbaycanın müstəqilliyi əleyhinə danışıb. Yəni Azərbaycan hər hansı bir təşəbbüs göstərsə, İran onu işğal edə bilər. Panfarsistlərin Azərbaycan deputatlarını qeyrətsizlikdə ittiham etməsində müəyyən həqiqət var. Lakin panfarsistlərin düşündüyü kimi, İrana yox, fars millətçilərinə sonsuz tabeçilik mənasında. Onların qeyrətsizliyi öz xalqının etnik-milli maraqlarını demək olar ki, müdafiə etməməsində, Azərbaycan xalqını İranın farslara bərabərhüquqlu xalqına çevrilməsinə heç bir cəhd göstərməməsindədir. İranın maraqları farsların maraqları ilə üst üstə düşmür. Cənubi Azərbaycan rəsmilərinin qeyrətsizliyi farsların əlindən onlara qarşı yönəlmiş İran dəyənəyini almamaqda özünü göstərir.]

"tasnim"

Məlumat; "Vəğti yekparçegi dər siyasəte xareci cəvab midəhəd., motalee mouredi = "Dərse tarix və coğrafiya be Ərdoğan"(Xarici siyasət vahid olanda təsirli olur; Ərdoğana tarix və coğrafiya dərsi nümunəsində araşdırma)

İranın Ərdoğana vahid, birgə, hamılıqla cavabı göstərdi ki, hər hansı bir məsələdə birlik olsa, xarici tərəfi geri çəkilməyə məcbur etmək olar. Bəyanat

Zərif., XİN., Rəhbərin 4 nümayəndəsi, 4 vilayət deputatlarının bəyanatı,

Milli İttifaq partiyasının Baş katibi Əli Şokurirad-Türkiyə türkcəsində tvittdə

"Sazandəgi qəzetinin Baş redaktoru Məhəmməd Kuçani "İran azərbaycanlıları və türkləri":

Arazın o tayı İran mədəniyyətindən ayrı olmayıb və ayrı deyil, ruslar sayəsində müstəqil dövlətdir.

Mösün Rezayi: "M.Çavuşoğlu Zərifə zəng edib öz mövqeyindən geri çəkildiklərini bildirdi. Ərdoğan İranı sevir, ərazi bütövlüyünə hörmət edir və bu şeirə belə həssaslıq göstərilməsindən xəbəri yox idi".

[Cənubi azərbaycanlıların milli hərəkatından bərk qorxuya düşən hakim dairələr birləşib, zahirən R.T.Ərdoğana, əməldə isə cənublulara qarşı birlik nümayiş etdirib, qələbə qazandıqlarını göstərməkdən bərk razı qalmışlar. Hakim dairələr bir daha İranda azərbaycanlıları bərabər hüquqlu bir millət kimi tanımadıqlarını göstərdilər. Cənubi Azərbaycanlıların hakimiyyətin ikinci eşelonunda ( birinci eşelonunda təmsil olunmayıblar) təmsil olunanlar da, panfarsistlərə sədaqətini nümayiş etdirməyə tələsdilər. Panfarsistlər Azərbaycan Respublikasına ərazi iddiaları irəli sürməyi təkrar etməyi də unutmadılar.]

"irna"

"Vakaviye siyasiye "şerxani dər Baku"(Bakıda şeir oxunmasının siyasi təhlili)

Türkiyə həmişə Azərbaycanı dəstəkləyib, Ermənistanla münasibəti olmayıb. Türkiyə mərkəzli pantürkizmin o ölkədə tərəfdarları olub.

1915-ci il "genosidi"(?v.m.)

Tezliklə pantürkizm (1991-ci ildən) Cənubi Azərbaycanı da hədəfə aldı.

Azərilər yaşayan region şimalın ayrılmasından narazı idi, keçən on illiklərdə İran azəriləri separatizmə qarşı idilər, ən mühüm göstərici Azərbaycan demokrat iğtişaşı olub.

2012-ci ildən Türkiyədə hay-küyə baxmayaraq Ərdoğanın heç kimlə yeni münaqişəyə girmək məqsədi yoxdur.., qarşılıqlı maraqları olduğu ölkələrlə gərginliyə baxmayaraq, münasibətləri pozmağa hazır deyil.

İran da bu məsələdən istifadə etməklə ifrata varmasın, sanksiya altındadır, düşməni də çoxdur. Diplomatik cavab versin, amma məsələni qəlizləşdirməsin.

[Hökumətin mövqeyini əks etdirən “irna” saytında yazıları dərc olunan bir sıra ekspertlər hadisələrə daha obyektiv yanaşmağa meyl göstərirlər. Hərçənd hökumət də, xüsusən xarici işlər naziri C.Zərif də, şeiri İranın parçalanmasına yönəlmiş addım kimi dəyərləndirmişdi və şeirin daha çox Azərbaycan Respublikasının müstəqilliyinə zərbə vuracağını bəyan etmişdi.]

“irna”

“Ehteram be əqvam şuxibərdar nist”( Etnoslara ehtiram zarafat obyekti deyil)

Yenə də televiziyada kimisə təhqir edib, sonra dəfələrlə üzr istəyiblər, kütləvi informasiya vasitələri və məcazi məkanda etnoslarla zarafat etmək olmaz.[Yazıda söhbətin hansı etnosdan getdiyi qeyd edilmir.]

“irna”

Azərbaycanın 4 əsgəri öldürülüb

“irna”

Qarabağda atəşkəsin pozulması və gələcəklə bağlı narahatlıq

“irna”

Bakı Ermənistanı atəşkəsi pozmaqda ittiham etdi

“irna”

Əliyev: Minsk qrupu münaqişənin həllində rol oynamayıb

“irna”

Avrasiya üzrə ekspert Əhməd Kazımi

Etnosentrist siyasətin tüstüsü ilk növbədə Türkiyənin gözünə gedəcək

Türkiyənin kürd regionu ilə qərb regionu arasında boşluq var ona görə çox həssasdır 2011-ci ildən Ərdoğan Sultan Səlimin siyasətini yeridir.

- pantürkizm kitabları
- Cənubi Qafqazda təhlükəsizlik
- Pantürkizm və panazərizm
- İnsan haqları haqqında beynəlxalq sənədlərdə azlıq anlayışı

İsrail, Türkiyə, Azərbaycan Qərbə söz veriblər ki, Qarabağ azad olandan sonra Azərbaycan Respublikasını separatizm mərkəzinə çevirəcəklər.

Bu sözlər 21 azərdən\11 dekabr dan bir gün əvvəl (20 azər\10 dekabr) deyilib.

Əsas məsələlərdən biri odur ki, Ərdoğanın 21 azər Azərbaycan “bəlası”nın ildönümü ilə bağlı separatistlərə “fəaliyyətləri genişləndirin” mesajı verib.

Ekstremist yanaşma hamıdan çox Türkiyə və Azərbaycanın ziyanınadır və Azərbaycan regionda yeganə dövlətlərdir ki, “rəsmi şəkildə və öz rəhbər sənədlərində monoetnik yanaşmasına riayət edir”.

Əsas qanunlarda azlıqlar inkar edilib, “türk kimliyi baxımından müəyyən ediliblər”

Böyük Orta Şərq xəritəsində Türkiyənin parçalanması nəzərdə tutulur. Azərbaycan “həmişə *İran* mədəniyyəti və sivilizasiyasında yerləşib”.

Ləzgistan və Talışıstan

Rusiya Qarabağ məsələsində səhvə yol verib.

Panazərizm azəri kimliyinə istinad edir və pantürkizmlə heç bir əlaqəsi yoxdur.

Şah İsmayıl azəri, Sultan Səlim pantürk idi.

Türkiyənin azəri regionuna soxulması üçün şərait yoxdur. Azərbaycanda Türkiyəyə qarşı cəmiyyət var, öz dili və mədəniyyətini qoruyur.

[İran millətçilərinin Azərbaycan və Türkiyə əleyhinə mübarizədə uğur qazanmaq üçün heç bir imkanı olmadığından, süni iddialarla çıxış edərək azərbaycanlıların əvəzinə danışırlar. İranın qarşısında cəmi bir sadə problem var, onu həll etsələr, regionun ən güclü dövlətinə çevrilə bilərlər. Cənubi azərbaycanlıları farslara bərabər hüquqlu millət kimi tanıyaraq, onların hüquqlarını təmin etmək. Yoxsa azərbaycanlıları müxtəlif adlarla Türkiyəyə qarşı qoymaq cəhdi kimi əsassız, gülünc və perspektivsiz bir işlə məşğul olmalı olacaqlar.]

"farsnews"

"Bəyaniyyeye cameeye modərresune hozeye elmiyyeye Qum dər məhkumiyyəte ezharate modaxelecuyaneye Ərdoğan"(Qum elmiyə hövzəsi Müdərrislər cəmiyyətinin Ərdoğanın müdaxiləçi sözlərini pisləyən bəyanatı)

Bəyanatın əsas tezisləri.

Sözləri məsuliyyətsiz və müdaxilə məqsədli

Düşünülməmiş, siyasi fəaliyyət və məsləhətdən uzaq sözlər

"Puç hakimiyyət təfəkküründən doğan" sözlər

Yeni osmanizm [regionda hakimiyyətə nail olmaq]

Türk-İsrail fitnəsi

Müsəlman millətlərdən uzaqlaşma

2016-cı ildə İran Ərdoğanı dövlət çevrilişindən qurtardı.

ərazi bütövlüyünə təcavüz

etnosların müxtəlifliyi, bütün qövmlərlə birlikdə

"Bizim İran kimliyi, mədəniyyəti və sivilizasiyasının bir hissəsi olan əziz ***Azərbaycan əbədi olaraq iranlı*** qalacaqdır".

[Ruhanilər qəti mübarizə apardıqları Qərb anlayışları və terminləri ilə danışırlar. Nə azəri, nə türk anlayışları yox, ancaq qövmlər termini işlədiblər.

İranın hər növ fars və farslara xidmət edən digər ziyalıları özlərini 100 ildən çoxdur ki, İran mədəniyyətinin gücü ilə aldadaraq, rahat nəfəs alırlar. Bir soruşan yoxdur ki, bu fövqəlgücə malik olan İran mədəniyyəti niyə çox qısa zamanda ərəb mədəniyyətinə məğlub oldu. İndi İran mədəniyyəti deyəndə nə başa

düşülür, məlum deyil .Çünki həm panfarsist ziyalılar, həm də panfarsist mollalar İran mədəniyyətindən dəm vurur, onun gücünə arxalanırlar.

Zahirən Türkiyə prezidentinin şer oxumasına, əslində Cənubi azərbaycanlıların milli hərəkatına qarşı ideoloji təbliğat davam edirdi.]

14 DEKABR 2020

“farsnews”

Təbrizdə Türkiyə qarşısında səsləndirildi

Azərbaycan oyaqdı, inqilaba dayaqdı

Azərbaycane canbaz, Xameneidən ayrılmaz

Yaşasın Azərbaycan,

Yaşasın İran.

Xamenei Xomeyniye digər əst( Xamenei başqa bir Xomeynidir)

Türk,fars,azəri, İmam Hüseyn ləşgəri.

Qeyrətli Təbriz, Qeyrətli Azərbaycan

Ərdoğan, İsrail peyvəndetan mobarək (Ərdoğan İsrail əlaqələriniz mübarək

Ərdoğan, 2016 kudetasın( çevrilişi) yaddan çıxartma

Rəhbərdən sitat

Mənim Azərbaycana və Təbrizə bağlılıq və sevgim anadangəlmədir.

Did you remember 2016 july 15? (15 iyul 2016 xatırladınızmı[ hərbi çevriliş cəhdi nəzərdə tutulur])

Nə Vyetnam, nə Suriya, nə Əfqanıstandır bura

Ərdoğana deginən ki,

Nə Şimali, nə Cənubi?

At bu çirkin sözləri

Mülki İrandır

Tamamən dünyaya elan elə

Azərbaycan Vətənim(yaşıl rəngdə)

İran yurdum(qara rəngdə)

[Azərbaycan dilini məktəbə, dövlət idarələrinə buraxılmasına qarşı elliklə mübarizə aparan fars millətçiləri Təbrizdə Azərbaycan dilində səsləndirilən və yazılan şüarları orijinalda verməkdən çəkinməyiblər. Həmin şüarlar fars millətçilərinə göstərdi ki, rahat yata bilərlər, çünki təbrizlilər Türkiyəyə vətənpərvərlik dərsi keçdilər.]

15 DEKABR 2020

"irna"

Qarabağda müharibədə hərbçilərin ruhiyyəsində dini inancların görkəmli rolu

Şəkil: Şuşada məscidin önü; ya Hüseyn yazılmış plakat:

- Hüseyn aşiqləri
- Əbülfəzl Abbas
- Kərbəla şəhidlərinə ehtiram

Nouhe oxuyub sinə vurmaq videoları

Ermənilər hər yeri dağıdıblar. Məscidlərdə inək və donuz saxlayırdılar [indi yadlarına düşür]

Bayraq ucaldıldıqdan sonra azan oxunub

İ.Əliyev Ağdam məscidini ziyarət etdi. Ağdam tamamilə dağıdılıb, ermənilər məsciddə inək saxlayırdılar

Dini ekspert Natiq Rəhimov:

Qarabağ müharibəsinin nəticələrindən biri dinin əhəmiyyətinin artması oldu.

Şəhidlik anlayışı dərk edildi. Xüsusi qəhrəmanlıq göstərənlərin, hərbçilərin xeyli hissəsi dindar təbəqənin nümayəndələri idilər.

Hərbçilər çətin şəraitdə belə ibadət etməyi unutmayıblar, bir çoxu da namaz qılarkən şəhadətə yetiriliblər: çox yerdə Hüseynin qara bayrağını qaldırıblar.

[İranda Vətən müharibəsinin dinin və deməli, İranın təsirini gücləndirdiyi fikri öz əksini tapırdı. Azərbaycanda həmin fikri təsdiqləyənlərə öz saytlarında yer ayrılırdı.]

"farsnews"

Zərif ağını çıxararaq dedi ki ,Türkiyə prezidenti "Araz" şeirini oxumaqla Azərbaycanın müstəqilliyini sual altına aldı... yaxşı... Əgər Azərbaycan Respublikasının müstəqilliyi əleyhinə danışıbsa... Sizə nə dəxli var. Azərbaycan və Türkiyə gələcəkdə konfederasiya yaratmaq fikrindədirlər. Sizdən icazəmi almalıdırlar... Gedin İran xalqının bədbəxtliyinin dərdini çəkin.

[İranda şeir oxuma hadisəsinə real və daxili sosial vəziyyət baxımdan yanaşmağı tələb edən ekspertlər də vardı.]

16 DEKABR

"anaj"

Ərdoğan geri çəkilsə də, Bağçalı əl çəkən deyil

"tasnim"

İranın Türkiyədə səfiri mətbuata müsahibəsində: "Astana əməkdaşlıq modeli Qafqazda təkrar edilə bilər".

"irna"

Jurnalist Mirzə Ağa Məhəmmədli Milli tv-saytına deyib:

"İran ən çətin şəraitdə Azərbaycanın yeganə hamisi(?v.m.) olub"

[Şeir hadisəsi aktuallığını itirir və yenidən əməkdaşlıq məsələsi qabağa çıxır. ]

18 DEKABR 2020

"irna"

Putin: Qarabağ münaqişəsi regionda terrorizmin yayılması təhlükəsini gücləndirdi

Cümə günü MDB dövlət başçılarının vebinarında deyilib.

Saytın qeydi:

Rus mediasının və Lavrovun dediyinə görə Suriyadan 2000-dən çox terrorist Qarabağ müharibəsində iştirak üçün həmin məntəqəyə gətirildi.

[Putin də İran lideri kimi ara qarışdırmaqla məşğuldur. Birbaşa və ya dolayısı ilə terroristlər məsələsi yenidən gündəmə çıxarılır.]

19 DEKABR 2020

"anaj"

Araşdırıcı Mehdi Əzrəğinin qeydləri:

Regionun iqtisadiyyatı Ərdoğanın şeir deməsindən daha mühümdür

Azərbaycan Türkiyə ilə birlikdə İran mallarının Astaradan keçməsini əngəlləyir.

Azərbaycanın qərarı və Türkiyənin dəstəyi ilə kirayə 2 qat olub.

Türkiyə bundan istifadə edib 4000 km yol ilə bundan az xərclə mal göndərir. XİN tədbir görməli, yoxsa bu marşrut məhdudlaşdırıldıqdan sonra bağlanacaq.

[Ekspertin reallığı təhrif etmək nəticəsində təhrik edici nəticə alması. ]

"anaj"

İlham Əliyev dost ölkələri Qarabağı yenidən qurmağa dəvət edir

[Cəmi 2 cümlə sitat]

[Azərbaycan xəbərlərinin seyrəldiyi müşahidə olunur.]

20 DEKABR 2020

"anaj"

Ekspert Həsən Qoli:

Şərqi Azərbaycanın azad edilmiş bölgələrdə bərpa işlərində iştirakının zəruriliyi

"anaj"

Şərqi Azərbaycan valisi Qarabağın yenidən bərpasına hazır olduqlarını elan etdi

"Qonşu ölkələrlə münasibətləri inkişaf etdirməyin məsuliyyəti Şərqi Azərbaycana tapşırılıb". İranın Azərbaycan bazarında payı 2%-dir.

[İranda və xüsusən Cənubi Azərbaycanda Azərbaycanın azad edilmiş ərazilərinin bərpa edilməsində iştirak etmək məsələsi əsas mövzulardan birinə çevrilir.]

21 DEKABR 2020

"irna"

Diplomatiya qurumu İranın Qarabağın yenidən qurulmasında iştirakına zəmin hazırlasın

“irna”

Təbriz texniki və mühəndis şirkətləri Qarabağın yenidən bərpa edilməsində iştirak etməyə hazırdır

“irna”

***Rusiya terroristlərin Qarabağ bölgəsindən çıxarılmasına çağırdı***

Rusiya XİN müavini Oleq Siromolotov – və xarici muzdluların ...

“Avrasia deyli” qəzetinə istinadən: O deyib ki, radikal xarici muzdlular Qarabağ bölgəsində olmamalıdırlar.

“Dağlıq Qarabağ bölgəsində döyüş əməliyyatlarında Yaxın Şərqdən olan döyüşçülərin və terrorçuların iştirakı qeydə alınmış gerçəklikdir və bu fakt təkcə bizim tərəfimizdən deyil, digər dövlətlər tərəfindən də təsdiqlənib”.

Sayları 2000 nəfərə çatırdı

Putin demişdi ki, hərbi əməliyyatlar terrorizm təhlükəsini gücləndirdi

Lavrov demişdi ki, döyüşçü və terroristlərin sayı 2000-dən çox idi.

Narışkin də demişdi ki, gətirilir minlərlə

[Dekabrın 18-dən Putin Qarabağda terroristlər məsələsini gündəmə çıxardı. İran terroristlər haqqında deyilən hər bir sözü dərhal qeydə alıb tirajlamağa böyük həvəs göstərir. İran Azərbaycan tərəfinin verdiyi məlumata inanmadığını hansı məqsədlə isə nümayiş etdirir. İranın kəşfiyyat orqanları ya son dərəcə yarıtmaz fəaliyyət göstərir, ya da qəsdən həmin məlumatları qulaq ardına vurur.]

“irna”

İran şirkətləri Qarabağın azad edilmiş bölgələrinin bərpa edilməsinə hazırdır

[Azad edilmiş Qarabağın bərpasında iştirak məsələsinə terrorist mövzusu kölgə salır.]

22 DEKABR 2020

"anaj"

"Ceymstaun" Beyin mərkəzi

Tehran Qafqaz regionunda daha fəal siyasət seçməlidir

İran sərhədi "1994-cü ildən sonra ***təhlükəsiz*** sərhəd idi". Azərbaycan öz ərazilərini "geri alandan sonra İran yeni ***təhdidlərlə*** üz-üzədir. İran Sionist rejimin öz sərhədlərində varlığından narahatdır, bu ərazi Ermənistanın nəzarəti altında olanda İranın narahatlığı yox idi".

İran fəal siyasət yeritməli.[necə]

[ABŞ beyin mərkəzlərindən olan Ceymstaun mərkəzi İranın keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətini doğru olaraq göstərmişdir. İran Azərbaycan ərazisinin bir hissəsinin işğal altında olduğu zaman və işğaldan azad edildikdən sonrakı vəziyyətə münasibətində öz mövqeyini xarici mənbədən səsləndirdi. İranın Azərbaycanla münasibətlərində həmin mövqeyinin nəzərə alınması vacibdir. Eyni zamanda Amerika beyin mərkəzinin İranın mövqeyindən çıxış etməsi və iki ölkə arasında münasibətləri gərginləşdirmək istiqamətində fəaliyyət göstərməsi böyük narahatlıq yaratmaqla bərabər amerikalı alimlərin ideoloji deyil obyektivlik tərəfdarı olduqlarına böyük şübhə yaradaraq onların fikirlərinə son dərəcə ehtiyatlı yanaşmağı tələb edir. ]

"tasnim"

İran-Azərbaycan ticarət danışıqlarının III mərhələsi keçirilib

"tasnim"

Rusiya və Azərbaycanla İran dəmiryolunun Avropa dəmiryolu ilə birləşdirilməsi haqqında böyük razılaşma

Naxçıvan dəmiryolu hissəsi yenidən açılacaq.

"irna"

İran və Azərbaycan arasında əməkdaşlıq üçün Araz çayı sərhəd bölgəsində yeni imkanlar

"irna"

Azərbaycan və İran güzəştli ticarət sazişi bağlamağa doğru...

[İran iki ölkə arasında əməkdaşlıq məsələlərini ön plana çıxarır]

23 DEKABR 2020

“irna”

Azərbaycan Respublikasının azad edilmiş bölgələrinin bərpa edilməsində İranın iştirakı müzakirə edildi

“irna”

Qarabağ məsələsi və sülhə təhlükələr

Məsələ, yəni Azərbaycan öz ərazi bütövlüyünü vurğulayır

Ermənistan öz müqəddəratını təyin etmək hüququnu vurğulayır

Sərhəd zonasında

Niyə parad keçirdilər?

İran ən təsirli oyunçudur

“farsnews”

Hac Qasım Ermənistan əhalisinin qəhrəmanıdır

Ermənistan kiv-lərindən biri İran səfirliyinin mədəniyyət attaşesinin əməkdaşlığı ilə əhali arasında video sorğu keçirib.

Sual: “Qəhrəmanınız kimdir?”

Onlara Rusiya, Amerika və İran generallarından birini seçmək təklif olunub.

Qasım Süleymanini seçənlər: zülmə qarşı olduğu və məzlumları himayə etdiyinə görə seçdiklərini bildiriblər.

[İran Qarabağ məsələsinin həll olunmadığı görüntüsü yaratmağa çalışır].

24 DEKABR 2020

“tasnim”

“Təsnim”in videosu. Necə oldu ki, Qarabağ müharibəsi İranın zərərinə qurtardı?

İran regionun qaz bazarından kənarlaşdırıla bilər.

“Razılaşmanın bəndlərində regionun qədim siyasi-iqtisadi əlaqələrinin dəyişdirilməsi hədəfə alınıbdır”. Ən əsası Naxçıvan-Zəngilan koridorudur ki, buradan enerji marşrutları da KEÇƏ

BİLƏR. Türkiyə və Rusiya İranı kənar etmək, ABŞ –da məharətlə İran iqtisadiyyatına zərbə vurmaqda davam etməkdədir. Münaqişə obyekti olan region - 7 rayon

[Yenidən Şərqi Zəngəzurun İran üçün doğura biləcəyi qondarma təhlükələr gündəmə gətirilir. İrana görə Türkiyə, Rusiya və ABŞ İrana qarşı bu və ya digər şəkildə əlbir hərəkət edirlər. Amma həmin təhlükədən danışan iranlı ekspertlər münaqişənin həllində İranın oyundan kənarda qalmasının səbəbindən, ermənipərəst siyasətindən danışmaq istəmirlər.]

"irna"

İran səfiri: Azərbaycanla əməkdaşlığımız inkişaf edir.

"farsnews"

İran-Azərbaycan sərhədində sənaye şəhərciyinin və birgə bazarçanın yaradılması, İran Azərbaycanın azad edilmiş ərazilərinin yenidən qurulmasına yardımını təklif edir.

Şərqi Azərbaycanda 5 min sənaye vahidi fəaliyyət göstərir. Avtomobil sənayesində 13 vahid fəaliyyət göstərir, avtomobil hissələrinin 35% Şərqi Azərbaycan vilayətində istehsal olunur.

Təbriz İranın şirniyyat və şokolad paytaxtıdır, məhsulu 80 ölkəyə ixrac olunur. Yeraltı ehtiyatları 8 mld. tondur. Şərqi Azərbaycanda 50 sənaye şəhərciyi və məhəlləsi\nahiyəsi və 1 xarici investisiya şəhərciyi var. İnvestisiya şəhərciyinin vahidlərinin 40% xarici şirkətlərdir. Bu şəhərdə yerləşən 10 istehsal vahidinin investorları Azərbaycan Respublikasındandırlar. Onlar 47 mln. dol. sərmayə qoymuşlar.

25 DEKABR 2020

"irna"

Alsuyesin Bakının İsrail ilə Türkiyə arasında vasitəçiliyi haqqında hekayəti

"irna"

İ.Əliyev: Beynəlxalq qanunlara həmişə hörmət edirik

"irna"

Vaezi: Bu gün region ölkələri arasında əməkdaşlığı dərinləşdirmək vaxtıdır.

“isna”

Bakının Türkiyə ilə İsrail arasında vasitəçilik təklifi

“isna”

Çavuşoğlu Lavrovla Qarabağı müzakirə etdi.

26 DEKABR 2020

“anaj”

İran səfiri

Azərbaycanda İran Təbrizlə tanınır.

“anaj”

Sepahın Quru qoşunlarının komandanı sərhəddəki hissələrə baş çəkdi.

[Yenidən sərhəd məsələsi gündəmə gəldi]

Eyni xəbər “tasnim”də

“anaj”

Əliyev Ermənistanın pozuculuq fəaliyyətinə görə UNESCO-nu tənqid etdi.

“farsnews”

Lavrovun erməni kolleqası ilə Qarabağda atəşkəsi müzakirə etməsi

27 DEKABR 2020

“farsnews”

Kreml: Putinin İrəvan və Bakı ilə yaxşı münasibətləri Qarabağ böhranının həllinə kömək etdi

28 DEKABR 2020

“irna”

Zərif: İran Ermənistanla əməkdaşlığı inkişaf etdirməyə hazırdır

“irna”

Azərbaycanın Gilan dəmiryoluna investisiya qoymasının eniş-yoxuşları

“irna”

Azərbaycan Qarabağda bir dəstə erməni hərbçisini məhv etdiyini xəbər verdi

“irna”

Paşinyan: Bakı hücum etsə, Rusiya İrəvanı dəstəkləyəcək

[ eyni xəbər "farsnews"-da]

"farsnews"

Zərif Ermənistan XİN-lə telefon danışığında ***sərhədlərin dəyişməz*** olduğunu vurğulayıb.

29 DEKABR 2020

"anaj"

Qarabağda atəşkəsin pozulması və gərginliyin regiona qayıtması

Ermənilər rus sülhməramlılarının himayəsi altında yenidən qondarma respublika yaratmağa çalışırlar. Qarabağa 44500 erməni qayıdıb və ruslarla sıx əlaqə qurublar

Ermənilərin hücumu nəticəsində bir qrup azərbaycanlı öldürülüb və yaralanıb. Hələlik 2 şəhid, 3 yaralı haqqında xəbər verilib. Azərbaycan 6 ermənin qətlə yetirildiyi, 6 nəfərin əsir götürüldüyünü xəbər verib. Ermənilər təxribatı Xocavənd rayonu ərazisində tunel qazaraq törədiblər.

Ruslar regionda gərginliyi alovlandıraraq varlıqlarını uzatmaq istəyirlər

Bunun qarşılığında Türkiyənin regionda varlığı daha rəsmi, daha açıq olmuşdur, bunlar göstərir ki, Qafqazda gərginlik davam edir və sülh yalnız qorxu balansı kölgəsində bərqərar olacaq.

"irna"

Azərbaycan 2020; korona acısı və işğal olunmuş ərazilərin azad edilməsi şirnisi

Giriş

1. Vaxtından əvvəl parlament seçkiləri

2. İşğal olunmuş ərazilərin azad edilməsi

3. Korona

4. Struktur islahatları və bir neçə yüksək vəzifəli şəxsin istefa verməsi

İşğal edilmiş ərazilər, ermənilərin danışıqları pozması, Minsk qrupunun işə yaramaması, iyul toqquşması, 44 günlük müharibədə işğal olunmuş ərazilərin azad edilməsi, ermənilərin

işğal olunmuş əraziləri viran qoymaları, ortaq nəzarət mərkəzinin yaradılması, Azərbaycanın azad edilmiş əraziləri yenidən qurması planı, İran şirkətlərinin bərpa işlərinə dəvət edilməsi.

[Azərbaycanda 2020-ci ildə baş verən hadisələr yuxarıda qeyd edilən ardıcıllıq və mövzularla geniş və obyektiv bir şəkildə şərh edilir].

30 DEKABR 2020

“anaj”

Nazilə Atakişiyeva, jurnalist, Azərbaycan Jurnalistləri İttifaqının üzvü: “Q.Süleymaninin Qarabağın azad edilməsi haqqında xüsusi planı vardı”

[Azərbaycanda müxtəlif sosial və peşə qrupları arasında İranın imicini olduğundan daha yaxşı göstərməklə məşğul olan insanlar mövcuddur. Onların hər bir yazısı, sözü İran saytlarında dərhal əks olunur. ]

31 DEKABR 2020\11dey 1399

“irna”

İranın Azərbaycan Respublikasında səfiri: Qarabağın yenidən qurulması Tehran-Bakı iqtisadi əlaqələrinin səviyyəsinin yüksəldilməsi üçün imkandır

Səfir Ərdəbil valisi Behnamcu ilə video-konfransda deyib: “İqtisadi əlaqələr siyasi münasibətlər kimi ali və lazımi səviyyədə deyil, gərək bu sahədə münasibətləri 2 -3 dəfə artırmağa səy göstərilsin

İranın son Qarabağ müharibəsində mövqeyindən sonra iki ölkə arasında münasibətlər yeni isti və səmimi mərhələyə qədəm qoydu, bu da İrana Qarabağın bərpasında layiqli iştirakına əsas yaradır.

İranın son 44 günlük Qarabağ müharibəsində mövqeyi Azərbaycan tərəfindən alqışlandı və iki ölkə münasibətlərində dönüş nöqtəsi hesab edilir.

İndi sərhəd vilayətləri, xüsusən də Ərdəbil, üçün qiymətli imkan yaranıb

Ərdəbil vilayətinin əhalisi ilə Azərbaycan Respublikasının xalqının ortaq cəhətləri var.

Azərbaycan Respublikasının hökuməti və əhalisinin Ərdəbilə çox müsbət münasibəti var, deməli, Ərdəbil üçün geniş imkanlar yaranıb.

Qarabağın bərpasında İran rəqabət aparmalı olacaq, çünki artıq Türkiyə, Rusiya, Almaniya və İtaliya bərpada iştirak etməyə hazır olduqlarını elan edib, lakin heç kimin İran və xüsusən Ərdəbil kimi üstünlüyü yoxdur.

Azərbaycan hökuməti gələn 5 ildə bərpa işlərinə 10 mld. dol. investisiya qoyacaq.

24 min ha.-dan çox meşə, 900 qəsəbə\şəhrək, 150 min yaşayış vahidi, 7 min ümumi təyinatlı\ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 səhiyyə obyekti, 927 kitabxana, 808 mədəniyyət evi, 75 incəsənət məktəbi, 22 muzey, 60-dan çox məscid və dini məkan, 473 tarixi bina və muzey, 4 böyük incəsənət qalereyası, 4 teatr salonu, 2 konsert zalı, 6 min sənaye və k\t obyekti, 160 körpü, digər infrastruktur obyektləri və irriqasiya şəbəkəsi DAĞIDILIBdır. 30 illik işğalın nəticələridir.

Azərbaycan hökuməti 2021-ci ildə bərpa işlərinə 2 mld. dol. ayırıb və tezliklə proqram elan ediləcək. Azərbaycan regionun texniki imkanları və xarici maliyyə dəstəyini, xarici investisiya və s. cəlb etməyi də planlaşdırır. Ərdəbil üçün geniş imkanlar açılır.

Bir neçə 500 meqavatlıq elektrik stansiyası və 4000 meqavat günəş enerjisi istehsal edən təsisatlar yaratmaq planlaşdırılır.

İran, Ərdəbil fürsətdən istifadə etməlidirlər. Səfirlik siyasi maneələri aradan qaldırmaq sahəsində münasib şərait yaradılmasına çalışır.

Əkin sahələri yəqin ki, 2 ilə minalardan təmizlənər.

44 günlük müharibə zamanı 30 il işğalda qalmış Qarabağ və ətrafı azad edildi.{Burada hamısı sıralanır}.

Əlavə olaraq müharibə, atəşkəs haqqında qısa, lakin 3 rayonun boşaldılma tarixi dəqiq qeyd edilib. Tam azad olandan sonra Azərbaycan elan etdi ki, 5 ilə bərpa edəcək.

[İranda Ermənistanın hərbi təcavüzü və 30 ilə yaxın işğal dövründə Azərbaycanda törətdiyi dağıntılar, vəhşilik, vandallıq haqqında ilk dəfə rəqəmlərin dili ilə dəqiq məlumat verilmişdir.]

2020-ci ilin dekabr ayında keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davam etdiyini iddia edən qüvvələr, eləcə də Azərbaycan-Ermənistan münasibətlərində yeni mərhələ və onun normal vəziyyətə gətirilməsi yolunda səylər və anti səylər, Qlobal və regional güclərin yeni vəziyyəti aydın dərk etməyə səy göstərməsi və ən əsası ondan bu və ya digər şəkildə öz maraqları üçün yararlanmağa çalışmaları haqqında məlumatlar, həmçinin İranın hadisələrə, yeni yaranmış geosiyasi reallığa, orada özünün və başqalarının yeri və roluna münasibəti İran İslam Respublikasının kütləvi informasiya vasitələrində, məcazi məkanda geniş əks olunmuşdur.

# NƏTİCƏ

İran İslam Respublikasında vahid siyasi və ideoloji sistem çərçivəsində fəaliyyət göstərən çoxsaylı, müxtəlif səviyyəli, istiqamətli kütləvi informasiya vasitələri keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun müxtəlif fazaları, o cümlədən iki iri miqyaslı qısa müddətli silahlı münaqişəni geniş şəkildə işıqlandırmağa səy göstərmişdir. Həmin siyasəti davam etdirən İRİ kütləvi informasiya vasitələri Ermənistanın növbəti silahlı təxribatına cavab olaraq 27 sentyabr 2020-ci il tarixində başlanmış və 10 noyabr 2020-ci il tarixində Ermənistanın tam məğlubiyyəti, Kapitulyasiya Aktını imzalaması ilə başa çatan Vətən müharibəsini və ondan sonra regionda yaranan yeni geosiyasi reallığı daha geniş və operativ şəkildə işıqlandırmağa çalışmışdır.

Nəzərdən keçirilən kütləvi informasiya vasitələri vahid, lakin mahiyyət etibarı ilə daxilən ziddiyyətli siyasi və ideoloji sistem çərçivəsində müxtəlif alt siyasi, sosial, ideoloji qüvvələri təmsil etdiklərindən istər xəbərlərin ötürülməsində, istərsə də həmin xəbərlərə münasibətdə müəyyən fərqlər sərgiləmişlər. Burada əsas vasitə xəbərin verilib-verilməməsi, manşetin seçilməsi, istinad edilən mənbə və s. ibarətdir. Qeyd edilmiş elementlər əsasında xəbər ötürən kütləvi informasiya vasitəsinin həmin xəbərin əhəmiyyətinə münasibətini və ona simpatiya və antipatiyasını müəyyən etmək olar.

Kütləvi informasiya vasitələri yalnız faktlar haqqında xəbər vermək, informasiya ötürücüsü rolunu oynamaqla kifayətlənməyərək, daha çox öz oxucuları və izləyicilərində ötürülən informasiyanın əks etdirdiyi hadisə və fakt haqqında öz siyasi-ideoloji sisteminin maraqları baxımından müəyyən təsəvvür yaratmaq, başqa sözlə vətəndaşların ictimai rəyini formalaşdırmaqla məşğul olur.

Bu baxımdan İİR kütləvi informasiya vasitələrinin informasiya-xəbər ötürmə funksiyası deyil, ictimai rəyi formalaşdırma funksiyasının özəlliklərini nəzərdən keçirməyə daha çox diqqət ayrılmışdır.

İctimai rəyin lazımi istiqamətdə formalaşması üçün hadisələr, onların tarixi, mövcud durumu və perspektivi bütövlükdə ölkənin, siyasi sistemin maraqları baxımından şərh və dəyərləndirilsə də, həmin məsələdə müxtəlif, sosial, siyasi-ideoloji qüvvələrin maraqlarının təsiri də özünü göstərir. Məsələnin həmin cəhəti şərh və təhlillərdə saxtalaşdırmalar, səhvlər, iftira, böhtan və təhriflərlə yanaşı azsaylı obyektiv yanaşmalar və dəyərləndirmələrin olmasına təbii baxmağı nəzərdə tutur.

Keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi İranın şimal-qərb sərhədlərinin yaxınlığında cərəyan etdiyindən, İran həmin münaqişəyə özünün milli, dövlət, dini-siyasi maraqları baxımından yanaşma sərgiləyərək ondan ilk növbədə regionda öz maraqlarını təmin etmək və təsir dairəsini genişləndirmək istiqamətində istifadə etməyə səy göstərirdi. Həmin siyasət 44 günlük Vətən müharibəsinin gedişi və ondan sonrakı dövrün hadisələrinin geniş şərh və təhlillərində özünü daha aşkar şəkildə göstərirdi.

Şərh və təhlillərin nəzərdən keçirilməsi İran İslam Respublikasının Azərbaycanın Vətən müharibəsində parlaq qələbəsi və ondan sonra yaranan yeni geosiyasi reallığa öz münasibətini müəyyən etməkdə problemlər yaşadığını göstərirdi.

Oxucuların diqqətinə təqdim edilən yazı İran İslam Respublikasının kütləvi informasiya vasitələrinin keçmiş Ermənistan-Azərbaycan, Dağıq Qarabağ münaqişəsi, onun aktiv hərbi fazaları və xüsusən qalibiyyətli Vətən müharibəsi və ondan sonrakı dövrün müəyyən müddəti ərzində informasiya-xəbər və ictimai rəy – şərh, təhlil və s. sahələrində fəaliyyəti haqqında ətraflı təsəvvür yaradılmasına yardım göstərə bilər.

Təqdim edilən yazı həmçinin mövzu ilə bağlı müstəqil tədqiqatlar üçün ilkin mənbə kimi istifadə oluna bilər.

# Ə L A V Ə L Ə R

## I. MƏTNDƏ ADLARI GETMİŞ BƏZİ ŞƏXSLƏR HAQQINDA QISA MƏLUMATLAR

1. Mənsur Həqiqətpur. Atası Ərdəbildən ,özü isə Tehranda anadan olub. Keçmiş "sepah" generalı, strateji idarəetmə üzrə doktor (Phd), Birinci Qarabağ müharibəsi zamanı 2 ilə yaxın (1993-1994) hərbi müşavir, 2008-ci ildən 18 ay ərzində Ərdəbil ostanının ostandarı, 2012-2016-cı illərdə Ərdəbildən parlamentin deputatı, 2016-2020-ci illərdə Spikerin müşaviri, türk(azərbaycanlı) kimliyi, Azərbaycan Respublikası, onun hakimiyyətinə qarşı düşmənçilik mövqeyi sərgiləyir.

2. Qafqaz üzrə mütəxəssis Mehdi Nəlbəndi

1350\1971-də anadan olub, noyabr 2001, oktyabr, noyabr 2010-da Azərbaycana səfər edib. Mətbuat və araşdırma sahəsində fəaldır.

1390\2011-də "Həmsayeye xanezad (xidmətçinin ağa evində dünyaya gələn övladı)adlı kitab nəşr edib.

"Azərbaycan mənim üçün XANEZAD qonşudur, bir gün bu diyarın övladı idi, indi bizim qonşumuzdur".

Ərdəbil universitetində bu mövzuda çıxış edərkən: "Azərbaycan adlandırılan ölkə" ifadəsinə qarşı çıxır və müstəqil Azərbaycanı olduğu kimi qəbul etməyi zəruri hesab edir.

Guya müstəqil kimi təqdim edilir, 20 kitabın müəllifidir – sərhədötəsi jurnalist hesab edilir.

O cümlədən Baku 2001, Yaddaşthaya səfər be Comhuriye Azərbaycan(Bakı 2001, Azərbaycan Respublikasına səfər qeydləri), Mehdi Nəlbəndi nəşriyyatı 1382\2003.

Elmi məqaləsi "Cayqahe İran dər sazmane rəsane, fərhəng və honəre rəsmiye Comhuriye Azərbaycan" Motaleate melli 1388 N39 s. 57-80

Mehdi Nalbəndi belə hesab edirdi ki, Azərbaycan Respublikası İslam inqilabı üçün ciddi bazadır. Ona görə var gücü ilə Azərbaycan dindarlarına ideoloji. mənəvi və informasiya dəstəyi göstərməklə məşğul idi.

3. Seyid Məhəmməd Əli Al Haşım İranın Ali Rəhbərinin 2017-ci ildən Şərqi Azərbaycanda nümayəndəliyinin rəhbəri, Təbriz cümə imamı, 2009-2016-cı illərdə Silahlı qüvvələrin siyasi-ideoloji təşkilatının rəisi olub.

4. Əlyar Rastqu, Ali Milli Təhlükəsizlik Şurasının Katibliyinin keçmiş rəisi, Kürdistanda ostandarlığın Siyasi və İntizam işləri üzrə Baş Direktoru və əsasən Şərqi Azərbaycanda şəhristanlarda fərmandar işləmiş, 2019-cu ildən qeyd edilən vəzifədə işləməyə başlamış, 2021-ci ildə vəfat edib.

5. Qulam Hüseyn Məsudi Reyhan Şərqi Azərbaycanın Əhər şəhərindən, 2008-2012-ci illərdə deputat, 2017-2021-ci illərdə Təbriz şəhər şurasının üzvü olub.

6. Seyid Məhəmməd Sadiq Xərrazi 1989-1995-ci illərdə İranın BMT-də daimi nümayəndəsinin müavini və səfir, 2002-2006-cı illərdə Fransada səfir və 1997-2005-ci illərdə prezident olmuş Seyid Məhəmməd Xatəminin böyük müşaviri olmuşdur. 2014-cü ildən "Nedaye iraniyan" partiyasının sədridir. Onu da qeyd edək ki, əmisi Seyid Əlinəği (Kamal) Xərrazi 1989-1997-ci illərdə İranın BMT-də daimi nümayəndəsi və səfiri, 1997-2005-ci illərdə Xarici işlər naziri olmuş və bacısı da İranın Ali rəhbəri Xameneinin gəlinidir.

7. Geosiyasi ekspert Hüseyn Seyfəddini İranda və Cənubi Azərbaycanda Azərbaycan Respublikası hakimiyyətinin və Cənubi azərbaycanlıların milli kimliyi və etno-milli maraqlarının qatı düşməni kimi tanınan müəllif.

## II. MÖVZU İLƏ BAĞLI TƏRƏFİMİZDƏN YAZILMIŞ OPERATİV QEYD, ŞƏRH VƏ DİGƏR MƏZMUNLU YAZILAR (vidadimustafayev.wordpress.com saytında )

### 1. 28 sentyabr 2020

**Новая военная провокация Армении против Азербайджана**

Как известно, 27 сентября 2020 года утром подразделения вооруженных сил Армении дислоцированные на оккупированной территории Азербайджана -в Карабахе, начали обстрел как позиций вооруженных сил Азербайджана на линии соприкосновения, так и азербайджанские населенные пункты, расположенные недалеко от данной линии. В ходе которого были убиты и ранены много военнослужащих и мирных граждан Азербайджана.

Министерство обороны Азербайджана с целью предотвращения широкомасштабного наступления вооруженных сил Армении на населенные районы и позиции азербайджанских войск приняло решение о контрнаступлении на позиции вооруженных сил Армении, как было сказано выше , дислоцированных на оккупированной азербайджанской территории.

Многие хорошо знают, что Армения восстановивший, как и Азербайджан, независимость в 1991 году в результате распада СССР, начала военную агрессию против Азербайджана с целью отторжения части ее территории, населенную немногочисленной группой этнических армян-Нагорно- Карабахскую Автономную Область Азербайджана.

Борьба мировых и региональных держав за влияние в вновь появившемся регионе, а также внутриполитическая борьба неопытных, недальновидных политиков разных мастей за власть в Азербайджане, привело к тому, что Армения

с помощью некоторых соперничающих региональных держав не только захватила территорию автономной области ,но еще 7 прилегающих к ней районов. Азербайджан не желая пойти на уступки этим защитникам Армении, государствам согласился на перемирие (1994), как возможность отложения решения данной проблемы на будущее время.

Дальнейшее решение Армяно-Азербайджанского, Нагорно Карабахского конфликта было возложено на ОБСЕ (Организация по безопасности и сотрудничеству в Европе), которая еще ранее с этой целью создала так называемую Минскую группу, сопредседатели которой взяли на себя миссию посредничества на переговорах между Азербайджаном и Арменией по Нагорно-Карабахскому вопросу. С тех пор шли переговоры, были выдвинуты различные варианты решения данного конфликта, однако каждый раз Армения выразив свое согласие с выработанным соглашением, через некоторое время отказывалась подписать окончательное соглашение. Каждый раз выдвигала новые требования, на изучение их и выработку нового соглашения уходили годы. Тем временем Армения планомерно занималась освоением оккупированной азербайджанской территории не только в Нагорном Карабахе, но в прилегающих к нему районах. Тем самым Армения не скрывала, что не намерена пойти на подписание какого-либо документа о решении названного конфликта. Несмотря на это сопредседатели Минской группы все время настаивали на продолжении переговоров, не делая никаких замечаний относительно наглого поведения Армении.

Наглость Армении при попустительстве сопредседателей минской группы, представляющие великие державы – членов СБ ООН - России, США и Франции, при участии и согласии которых в 1993г. были приняты 4 резолюции по данному конфликту, где требовалось скорейшее разрешения

его на их основе, то есть вывода всех армянских вооруженных сил с территории Азербайджана, и обеспечения его суверенитета и территориальной целостности.

После заключения соглашения о перемирии Азербайджан надеялся с помощью членов СБ ООН, представители трех из которых стали сопредседателями Минской группы, удастся мирными путями решить данный конфликт, вернее реализовать требования, предусмотренные в этих резолюциях. Однако представители стран членов СБ ООН став сопредседателями Минской группы окончательно забыли о существовании Резолюций высшего международного органа, отвечающего за стабильность и сохранение мира во всем мире. Более того, все международные, региональные организации, в том числе и Европейский Союз признали территориальную целостность Азербайджана в международных признанных границах. И все государства, в том числе все члены СБ ООН. за исключением Армении признают территориальную целостность Азербайджана в международных признанных границах. Они в отдельных резолюциях также подчеркивают, что признают Нагорный Карабах неотъемлемой частью Азербайджана. В то же время, зная, что одна пятая часть территории оккупирована Арменией, ровным счетом не только ничего не делают для восстановления территориальной целости Азербайджана, но и не осмеливаются называть вещи своим именем, именно назвать Армению оккупантом и требовать от нее вывести свои войска из Азербайджана. Такая двусмысленная позиция мировых, региональных держав, а также совершенно беспринципная позиция некоторых второстепенных государств по данному вопросу, позволяли Армении не считаться с резолюциями как СБ ООН, так и всех других международных и региональных организаций, и продолжать оккупацию азербайджанских земель. Более того, Армения учитывая двойственную позицию названных организаций и многих государств, начала планировать стратегию захвата новых

территорий у Азербайджана и проверять эффективность теории захвата на деле частыми военными провокациями против Азербайджана. После начала каждой армянской вооруженной провокации не только на оккупированной территории, но и на других участках государственных границ. мировое сообщество немедленно начало призывать стороны конфликта к прекращению огня и продолжения переговоров по мирному урегулированию конфликта. При этом ни разу, за некоторыми редкими исключениями, ни одно государство, международная организация не осудила Армению за совершенную вооруженную провокацию, не потребовала вывода ее войск из оккупированных территорий Азербайджана. Абсолютная бесхарактерность, беспринципность названных организаций, также многих государств рассматривалось Арменией как сигнал поощрения ее действий и поэтому перестала продолжить спектакли с переговорами и решила открыта показать свое истинное лицо и предъявить Азербайджану новые территориальные претензии, что привело к выше указанным событиям.

Вторые сутки продолжаются ожесточенные боевые действия между Азербайджаном и Арменией. Армения ничем не брезгает в своих действиях, рассчитывая на поощрительное замалчивание ее преступлений со стороны большинства стран. По этому спокойно обстреливает населенные пункты, мирных граждан, разрушает их дома, убивает детей, стариков, женщин.

И в самом деле, ни одна организация, ни одно государство за исключением некоторых, не осудили вооруженную провокацию Армении, ее варварское, фашистское отношение к мирным жителям Азербайджана. Наоборот, все они, как бы одним голосом выразили беспокойство в связи с эскалацией ситуации, призывали к прекращению огня и продолжению переговоров. Вновь они “забыли”,что причиной всех трагических событий в отношениях двух государств

является оккупация Арменией части Азербайджанской территории, по этому не отметили необходимость вывода армянских вооруженных сил с оккупированных территорий, как главное условия установления абсолютной стабильности в данном регионе.

В такой международной обстановке очень трудно проводить молодым и небольшим государствам независимую внутреннюю и внешнюю политику. Потому что большинство больших и крупных, сильных и прочих государств рассматривает любое событие в международной жизни не с объективных позиций, с позиции региональной и международной безопасности , а только как удобный случай для укрепления своей позиции, ослабления конкурентов. В таком случае поддерживают не того кто прав, а того за счет, которого можно получить какую-либо выгоду.

Смело можно заявлять, что многие беды проводящих независимую внешнюю политику стран есть результат хищничества отдельных государств, их преступления против человечества. Поощряя одних на преступления и оказывая давление на потерпевшую сторону, великие, сильные глобальные, региональные государства являются не только соучастниками преступлений, но и истинными преступниками по отношению как к отдельным государствам, народам, так и ко всему человечеству.

## 2.23 oktyabr 2020

**İran generalı müharibənin harada getdiyini niyə bilmir?**

İran İslam Respublikası çox çətinliklə də olsa, ruhanilərin hakimiyyəti dairəsində Ermənistanı öz adı ilə, yəni işğalçı adlandırıb Azərbaycan torpaqlarını tərk etməsini tələb etdi. Lakin bu tələb bir daha rəsmi səviyyədə təkrarlanmadı. Əvəzində İranın hərbi dairələri iki gündən bir Azərbaycan və Ermənistana xəbər-

darlıq edirlər ki, İran ərazisinə güllə və s. atılmasına yol verməsinlər. Bəziləri nisbətən sakit, digərləri sərt şəkildə xəbərdarlıqlar edirlər. Sonuncu dəfə bugünkü (23.10.2020\02.08.1399) İran saytlarında İran Silahlı Qüvvələrinin böyük sözçüsü general Əbülfəz Şikarçı hər iki dövlətə növbəti sərt xəbərdarlıq edib. Bu barədə məlumatda həmçinin deyilir ki, guya döyüşlər «Qarabağda, Naxçıvanda(?) və Ermənistanda (?)gedir « O, daha sonra İrana mərmi atılmasına yol verənlərin peşman olacaqlarını vəd edir.

Burada diqqəti çəkən mühüm cəhət ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyan, Ermənistanı işğalçı adlandıran, Azərbaycan ərazisinin işğaldan azad edilməsini bu və ya digər səviyyədə tələb edən İran dövlətinin hərbi qurumlarının sanki dövlətin rəsmi mövqeyindən xəbəri yoxdur. İran bilir ki, baş verənlərə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür. Tərəfləri danışığa çağırmaq əvəzinə hərbiçilər də siyasilər kimi Ermənistan qüvvələrinin Azərbaycandan çıxarılmasını bircə dəfə tələb etsələr, Ermənistana mühüm təsiri olardı. Amma yox, yenə də guya bitərəflik nümayiş etdirirlər. Sepah generalının bəzi üzdən iraq fars şovinist alimlər kimi müharibənin harada getdiyi haqqında verdiyi məlumat daha heç bir məntiqə sığmır. Onun aləmində döyüşlər Qarabağda, Naxçıvanda və Ermənistanda gedir. Yəni döyüşlərin getdiyi yeri nə bir şovinist alim, nə də general rütbəsində olan bir hərbçi kimi yox, hadisələri az-çox izləyən adi bir - adam kimi Azərbaycan desə idi, kiminsə gözündən, yəqin ki panfarsistlərin və ermənilərin gözündən düşərdi.

İran bir tərəfdən Azərbaycanla sərhədin ermənilərin nəzarətdən çıxmasını alqışlayır, artıq işğaldan azad edilmiş ərazilərin iqtisadi, infrastruktur və s. baxımından bərpasında iştirak etmək istəyir, digər tərəfdən isə yenə də nəinki Ermənistan və Azərbaycanı eyni müstəviyə qoyur, həm də döyüşlərin harada getdiyini deyərkən yeni AMERİKA kəşf edir. Allah adından danışan belə allahsız, haqqı, ədaləti tapdalayan insanların qənimi olsun. AMİN!

### 3.23 oktyabr 2020

**Meydan saxtakarlarındır**

İran İslam Respublikası hökumətinin mövqeyini əks etdirən "irna" agentliyinin saytında bu gün(23 oktyabr 2020\2 aban 1399) geosiyasət sahəsində ekspert adlandırılan Hüseyn Seyfəddini ilə aparılmış müsahibənin mətni «İranın Qarabağ münaqişəsində fəal olmağa hamıdan çox səlahiyyəti vardır» adı altında dərc edilib. Bu ekspertin, deme, hətta «Azərbaycan Respublikası və Dağlıq Qarabağın geosiyasi perspektivi»adlı kitabı da var. Azərbaycanlı olan bu şəxs İranda Cənubi azərbaycanlıların etno-milli maraqlarına, milli\türk kimliyinə və Azərbaycan Respublikasına qarşı hərtərəfli iftira və böhtan dolu, qərəzli ideoloji mübarizə aparan bədnam «azəriha» saytının fəal yazarlarından biridir. Adam kiməsə quyruq bulayaraq müəyyən status əldə etmək istiqamətində hərəkət etdikdə, daim ağalarına xoş gələn sözlər deməklə, son nəticədə onların da həqiqəti görməməsinə səbəb olur. Belə olmasa idi, İranda Azərbaycan Respublikası üzrə mütəxəssis olan, həqiqi, sanballı, obyektiv mövqedən çıxış edən, yəni alim adına layiq olan mütəxəssislər olduğu halda, öz millətinə xəyanət edən bir şəxsə «irna» kimi hökumət mövqeyini əks etdirən bir agentliyin saytında geniş yer verməzdilər. Bu, Azərbaycan Respublikası üzrə dırnaqarası mütəxəssis münaqişənin guya tarixindən danışarkən deyir. Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində Muxtar Respublika(?) idi. SSRİ qanunlarından(?) biri «Xalqların öz müqəddəratını təyin etmək hüququ» idi. Həmin qanun respublikalara icazə verirdi ki, istədikləri vaxt SSRİ-nin tərkibindən çıxsınlar.

Şərh etməyə ehtiyac yoxdur ki, Qarabağ adda inzibati-ərazi qurumu yox idi, Dağlıq Qarabağ respublika yox, vilayət\ostan idi. SSRİ-də müqəddəratını təyin etmə adlı qanun adda bir şey yox idi. Müqəddəratını təyin etmə milli məsələnin həlli prinsiplərindən biri idi və s. Qarabağ(? ) Muxtar Respublikasının (?) tarixən Azərbaycan SSR-nin tərkibində olmaqdan o qədər də «xoşu» gəlmirdi. Bu respublika (? ) SSRİ-nin dağılması ərəfəsində həmin

qanuna(?) istinad edərək SSRİ (? ) tərkibindən çıxdı və müstəqilliyini(? ) elan etdi.

Bəli, nə az-nə çox, birbaşa SSRİ-nin tərkibindən çıxdı. Əlifbanı bilmək, heç də pis olmazdı. Bu əllamə bir şeyə diqqət edir ki, guya Qarabağ(? )Bakıdan və İrəvandan daha tez müstəqilliyini(? ) elan edib. Bu ekspertlikdən xəbəri olmayan, xalqının adına ləkə olan, satqın daha sonra yazır: «Azərbaycan Respublikası öz «ərazi bütövlüyünü qorumaq» adlandırdığı şeyi qorumaq üçün ora silahlı qüvvələrini göndərdi. Nəticədə tam miqyaslı müharibə baş verdi və Azərbaycan daha çox ərazilər itirdi".

Bu əllamənin şərəfsizliyinin həddi-hüdudu yoxdur, ona görə də bir dəfə də olsun həmin tarixi hadisələrdən danışarkən Ermənistanın adını çəkmir. Bu şəxsin satqınlıqla çörək pulu qazandığı, ona görə elementar faktları təhrif etdiyi və saxtalaşdırdığı qətiyyən təəccüb doğurmur.

Bu, öz xalqına xəyanət edənlərin getməli olduğu yoldur. Burası məlumdur. Lakin "irna" kimi agentliyin belə dırnaq arası ekspertlərə meydan verməsinin səbəbi aydın deyil. İranda tarixi həqiqətləri bilən savadlı adamlar az deyil. Agentlik belə materialı dərc etməklə kimi aldatmaq istəyir, hansı məqsədə xidmət edir? Qeyd edildiyi kimi, «irna» hökumətin agentliyidir, həmişə hökumət dəyişəndə onun daxili və xarici hadisələrə yanaşması da dəyişir, hökumətin mövqeyini təbliğ və müdafiə etməklə məşğul olur. Prezident H.Ruhaninin başçılıq etdiyi və İranda mühafizəkarların hərtərəfli təzyiqi altında olan və cəmi 5-6 ay ömrü qalan hökumətin belə qərəzli insanlara meydan verməsinin səbəbi aydın deyil.

## 4. 30 oktyabr 2020

**İran sərhəd bölgəsinə qoşun toplamaqda davam edir. Nə olub, görəsən?**

Azərbaycan öz sərhəd rayonlarını işğaldan azad etdikdən sonra İran sərhədin öz tərəfindəki rayonlara qoşun toplamaqla məşğuldur. Hər dəfə ərazi bütövlüyünə, beynəlxalq sərhədləri

qorumaq, beynəlxalq qanunlara, hüquqa hörmət etməyi vurğulayan İran bir yandan həmin əraziyə qoşun yığmaqdadır. Əvvəlcə İran İslam Mühafizələri Korpusunun Quru qoşunları və Hava Hücumundan Müdafiə hissələri yerləşdirildi, indi də Silahlı qüvvələrin Quru qoşunlarının hissələri gətirilibdir.

Əvvəlcə deyək ki, Azərbaycanın İranla sərhəd rayonları vəhşi, təcavüzkar, insan adını daşımağa layiq olmayan ermənilərin işğalında olanda İranın Azərbaycanla üzbəüz rayonlarında nə sepah, nə silahlı qüvvələrin hissələri yox idi. Əksinə, orada olan hərbçilər ermənilərlə alver etməklə məşğul idilər. Azərbaycan öz torpaqlarının sərhəd bölgəsini işğaldan azad edəndən sonra İran, qeyd edildiyi kimi, həmin məntəqəni silah-sursat, müxtəlif təyinatlı qoşun hissələri ilə doldurmağa başlayıbdır. Çox sadə bir sual yaranır. İndi nə olub ki, hər iki ordunun(İranda iki ordu var - Sepah və Silahlı qüvvələr) hərbi hissələri həmin ərazilərdə yerləşdirilməkdədir.

Deyirlər İran ehtiyatlı siyasət yeridir, İran həmişə ikibaşlı siyasət yeridir, üzdə bir söz deyir, arxada başqa işlər çevirir. Doğrudan da İran müəmmalı işlər görür.

Şərqi Azərbaycana gələn komandanlar sərhəd rayonlarında yaşayanların təhlükəsizliyinin təmin edilməsini özlərinin ən ümdə vəzifəsi və borcu hesab etdiklərini daim vurğulayırlar. Bir daha təkrar edirik ki, hər dəfə həmin yüksək rütbəli komandanların, generalların vurğuladığı kimi, sərhəd əraziləri və orada yaşayanların həyatı üçün heç bir təhlükə olmadığı halda burada bu qədər hərbi qüvvələr cəmləşdirmək nə deməkdir. Bu addım həmin ikibaşlı siyasətin görünən üzlərindən biridirmi? Yoxsa ….. —

## 5. 7 noyabr 2020

### "İran komandanları Rəhbərin mövqeyini qulaq ardına vururlar"

Məlum olduğu kimi, Ermənistanın Azərbaycana qarşı bu ilin sentyabr ayının 27-də növbəti hərbi təxribatına qarşı Azərbay-

can əks-hücum əməliyyatına başlayıb, qısa müddət ərzində özünün düşmən işğalı altında olan İranla həmsərhəd ərazisini işğaldan azad edəndən sonra, İran sərhədin öz tərəfində olan ərazisinə Sepahın( konkret səlahiyyətləri olmayan, lakin bütün sahələrə müdaxilə edən ayrıca ordu)quru qoşunları, Hava Hücumundan Müdafiə qoşun hissələri, Ordunun(Ərteş) Quru qoşunlarının hərbi hissələrini gətirib yerləşdirmiş və onları daim gücləndirməklə məşğuldur.

Həmin hərbi hərəkətlər, dislokasiyalar qeyd edilən qoşun hissələrinin komandirlərinin İranın Ərdəbil və Şərqi Azərbaycan ostanlarına (Azərbaycan Respublikası ilə həmsərhəd ostanlar) səfərləri ilə müşayiət olunur .Həmin komandanlar istər məntəqəyə baxış keçirərkən, istərsə də öz mərkəzi qərargahlarında Ermənistan-Azərbaycan müharibəsi barədə hərbi və siyasi fikirlər söyləməkdə sanki bir-biri ilə yarışırlar.

Bu gün Ordunun Quru qoşunlarının komandanı general Keykavus Heydərinin həmin məsələ ilə bağlı fikirləri internetdə yayılıbdır. Komandan sərhədin mühafizəsinin daim gücləndirildiyindən, ora əlavə qüvvələr göndərildiyindən danışıbdır ki, bu, hərbçi üçün adi və vəzifələri çərçivəsində olan bir mövzudur. Lakin həmin komandir də digər komandirlər kimi Ermənistan-Azərbaycan müharibəsi ilə bağlı fikirlərini deməklə kifayətlənməyərək, müharibənin başa çatmasının yollarını göstərmək kimi bir missiyanı da öz üzərinə götürməyə cəhd edir. O, münaqişənin həlli ilə bağlı fikirlərini deyərkən ya İranın Ali Rəhbərliyinin və hökumətin mövqeyini bilmədiyini ya da onların mövqeyinə etinasızlıq göstərdiyini nümayiş etdirir.

Burada bir cəhətə diqqət yetirmək vacibdir. Sepahın(İslam İnqilabı Mühafizələri Korpusu),xüsusən onun daxilində ayrıca ,hətta müstəqil hərbi-siyasi vahid olan "Qüds"-ün İslam inqilabı ixracı və s. hədəflər çərçivəsində müstəqil xarici siyasət yeritdiyi məlumdur. Lakin Ordunun həmin sahədə fəaliyyəti haqqında demək olar ki, məlumat yoxdur. Ona görə də son hadisələrlə bağlı ordunun və onun komandirlərinin fəallaşması ,yalnız hərbi deyil, həm də siyasi məsələlərlə bağlı fikir söyləmələri xüsusi maraq

doğurur. Belə ki, general Keykavus Heydəri qeyd edir ki, İranın hər iki qonşu dövlətlə bir çox ortaq cəhətləri var, hər iki dövlətə tövsiyəsi odur ki, beynəlxalq qanunlara ehtiram göstərsinlər, beynəlxalq sərhədləri qorusunlar və «problemləri danışıqlar və müzakirə" yolu ilə həll etsinlər.

General Rəhbərin Ermənistanın işğalçı olduğunu deməsini və münaqişənin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin işğaldan azad edilərək Azərbaycana qaytarılması əsasında həllinin mümkünlüyü haqqında bəyanatını, eləcə də İranın münaqişənin işğala son qoymaq prinsipinə söykənən həlli ilə bağlı hazırladığı layihəni ya görməyib, ya da görməzlikdən gəlir. Əgər bir qədər də diqqətlə baxsaq, İranda bir neçə qərar qəbul edən mərkəzin olduğunu qəbul etsək, onda Silahlı qüvvələrin ayrıca güc mərkəzi kimi öz mövqeyini göstərməyə cəhd etdiyini və həmin mövqeyin Rəhbərliyin və hökumətin mövqeyindən fərqli olduğunu deyə bilərik.

General İranın münaqişə ilə bağlı Ermənistan-Azərbaycan müharibəsindən əvvəl, demək olar ki, 27 il ərzində sərgilədiyi mövqeyi təkrar etmişdir. Generalın bu hərəkəti, ya qeyd edildiyi kimi, silahlı adamların öz mövqeyi olduğunu, ya da sadəcə olaraq zamanla ayaqlaşmadıqlarını, Rəhbərliyin nə dediyi, mövqeyi ilə maraqlanmadığını göstərir.

## 6. 13 noyabr 2020

**İranda müəyyən qüvvələr yas içindədirlər**

Başsız başçıları tərəfindən idarə olunan və qonşuları ilə adam kimi yola getmək tərbiyəsindən uzaq olan ermənilərin Ermənistan dövləti növbəti faşist əməllərinə görə layiqli cavabını alaraq, hərb meydanında rəşadətli və qəhrəman Azərbaycan ordusu tərəfindən darmadağın edildikdən(27 sentyabr-9 noyabr 2020) sonra noyabr ayının 10-dan ümumi xaos mərhələsini yaşamaqdadır. Bu dörd gün ərzində bir sıra mərkəzi və nüfuzlu İran xəbər

agentlikləri və onların saytları bu barədə bir kəlmə də xəbər yaymır. Bunun əvəzinə Ermənistanın Fransa ilə danışıqlarına, Fransanın yardım vədlərinə xeyli yer ayrılır. İranın Ermənistanda baş verən hadisələri öz oxucularından gizlətməsinin səbəbi aydın deyil. Bunu İranın farslara xas şəkildə ermənilərin dərdlərinə şərik olması kimi də dəyərləndirmək olar.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün bu qədər uzanması(27 ildən çox) və onun sülh tənzimlənməsi prosesindən yayınması və ipə-sapa yatmaması, azğınlaşmasında İranın da öz payı var idi. İndi İran Ermənistanın özünün öz başına açdığı fəlakətə sakitcə yas tutur, ona görə də bu barədə susur.

## 7. 13 noyabr 2020

### İran İslam Respublikası üçün "yeni və gözlənilməz" geosiyasi reallıq

İranın müstəqil siyasi-dini-ideoloji-hərbi birləşməsi, xarici siyasət sahəsində qərar qəbul və icra edən mərkəzlərindən biri olan İslam İnqilabı Keşikçiləri Korpusu-Sepahın saytlarından biri olan “farsnews.ir”-in (23 aban 1399\13 noyabr 2020) səhifələrində universitet müəllimi və beynəlxalq münasibətlər üzrə araşdırıcı Ehsan Movəhhədiyanın “Azərbaycan-Ermənistan sazişinin İran üçün iqtisadi nəticələri; İranın Ermənistanla sərhəd zolağının itirilməsi” adlı qeydləri yerləşdirilib.

Ermənistan-Azərbaycan müharibəsinin bitməsi və atəşkəs haqqında (10 11.2020) üçtərəfli bəyanatı “Sülh faciəsi” adlandıran və bəzən Azərbaycan Respublikasını Bakı Respublikası, rejim adlandıran müəllif Azərbaycanın Qarabağ regionunda müharibənin qurtarmasının ən çox İranın maraqlarına qarşı yönəldiyini vurğulamağa çalışır. Müəllif belə hesab edir ki, bu sülhdən ən çox qazanan Rusiya, daha sonra Türkiyədir, ən çox itirən İrandır və İran olacaqdır. İran guya bütün sahələrdə - iqtisadi, təhlükəsizlik, geosiyasi və s. uduzan tərəf olacaq. Ona görə də bunun qarşısını

almaq üçün təcili tədbirlər görülməlidir. Onun fikrincə, güclü silahlı qüvvələrə malik olan İran "İran üçün qorxulu yuxular görən ölkələrə ağır dərs verməyə qadirdir".

Biz burada müəllifin və onun təmsil etdiyi qüvvələrin İran – Azərbaycan sərhədi ilə bağlı fikirlərini qısa şəkildə şərh etməklə kifayətlənirik.

Sən demə, Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş ərazilərini təcavüzkar düşməni hərb meydanında darmadağın edərək işğaldan azad etdikdən sonra İran özünün Şimal-qərbində demək olar ki, (Ermənistanla 35 km-lik sərhəd nəzərə alınmasa), ancaq Azərbaycan Respublikası ilə həmsərhəd olduğunu görüb xeyli təəccüblənib.

Buna qədər Azərbaycanın ərazi bütövlüyünü tanıdığını hər yerdə elan edən İranın bəzi dairələri Azərbaycanın bir zamanlar işğal altında olan ərazilərini Azərbaycan ərazisi saymadığından, həmin sərhədi də Azərbaycanla sərhəd hesab etmirmişlər. Ona görə Azərbaycanın İranla sərhədini öz nəzarəti altına götürməsi həmin ölkədə bir çox dairələri məyus edir.

Bu yanaşmanı, məyusluğu başqa səbəblərlə əsaslandırmaq üçün Azərbaycan hökumətinin bir növ İranın daim onun ərazi bütövlüyünü vurğulaması müqabilində "qədirbilməz" olduğunu vurğulayaraq İranın şimal-qərb sərhədinə yaxın ərazilərə guya sionistlərin, yəni İsrail dövlətindən olan şəxslərin və təkfirçi terroristlərin ayaq açmasına şərait yaratdığını iddia edirlər.

Qeyd etmək lazımdır ki, İran Ermənistan-Azərbaycan müharibəsi başlayan gündən hadisələrə əsl münasibətini guya bölgədə təkfiri terroristlərin olması ilə pərdələyirdi. Bir dəfə də olsa, döyüş rayonunda xaricdən gələn erməni terroristləri, PKK və onun kiçik şöbələrindən olan terrorçular barədə bir kəlmə də danışmırdı.

Hərbi əməliyyatların bitməsi və atəşkəs barədə son üçtərəfli bəyanatda( 10 noyabr 2020) Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında yol çəkilməsi haqqında bənd isə bəzi dairələrin yuxusuna haram qatıb. İran hökumətinin rəsmisi İranda bu, hələ çəkilməmiş yol ətrafında yayılan şayiələri əsassız adlandırsa da, bəziləri onun İranın Ermənistanla hər cür əlaqəsini kəsəcəyini

iddia etməkdə davam edirlər. İranın millətçi dairələri Türkiyənin regionda artan təsirini və nüfuzunu, onun hər yerdə açıq şəkildə Azərbaycanın haqq işini müdafiə etdiyini elan etməsini, Azərbaycan ilə Türkiyə arasında ən yaxın və səmimi münasibətləri həzm edə bilmədiklərindən Azərbaycanın İranla sərhədinin guya Türkiyə prezidenti tərəfindən himayə olunan pantürklərin yuvasına çevrilməsi kimi izah etməyə çalışırlar.

Bir sözlə, İranda bəzi dairələr Azərbaycanın özünün işğal altında olmuş ərazilərini azad edərək onun və öz sərhədləri üzərində nəzarətini bərpa etməsinə necə yanaşmaq lazım olduğunu düzgün dərk etməkdə çətinlik çəkirlər. Çünki onlar hər bir işdə bir xəyali təhlükə görməyə öyrənmişlər.

## 8. 16 noyabr 2020

**Fars müəllif: Rusiyanı ancaq İran xilas edə bilər.**

İranın antiazərbaycan və antitürk dairələri Ermənistan-Azərbaycan müharibəsinin ədalətli nəticələrini həzm edə bilmədikləri üçün onu bəhanə edərək Azərbaycana və xüsusən də Türkiyəyə qarşı çirkin niyyətlərini gizlədə bilmirlər.

Həmin dairələrin təmsilçilərindən birinin, Sepahın xəbər agentliklərindən biri olan “təsnim” xəbər agentliyinin saytında(26 aban 1399\16 noyabr 2020) “Qafqaz oyunu və Rusiyanın diqqət etməli olduğu dəyişikliklər” adlı yazısı yerləşdirilib.

Yazını oxuduqca sanki Rusiyanın mərkəzi tele-kanallarındakı tok-şoulardan birinə tamaşa etdiyini hiss etməyə başlayırsan. Fikirləşirsən ki, bəlkə həmin tok-şouların savadsız, amma son dərəcə qərəzli, Rusiya kimi dövlətin milli maraqlarını ona-buna qəpik-quruşa satan iştirakçılarından birinin yazısıdır. Dərhal yazının sonunda müəllifin adını oxuyanda görürsən ki, müəllif yerlidir, amma həmin tok-şounun “professor”, hətta bəzi deputat iştirakçılarının ideya qardaşlarından biridir.

İri həcmli yazının, necə deyərlər "məmmədqulusu" Rusiyadan Cənubi Qafqaz məsələlərinin həllində iştirak etmək üçün İrana icazə verməsini xahiş etməkdən ibarətdir. Həmin xahişi əsaslandırmaq üçün müəllif Rusiyanı Türkiyə təhlükəsi ilə qorxutmağa çalışır. O, təhlükənin nə qədər böyük olduğunu göstərmək üçün Rusiya üzərində guya Türkiyə, türk və ən əsası, Ərdoğan kabusu dolaşdığını vurğulayır. Bu kabus, müəllifin fikrincə, Rusiyanın varlığını təhlükə altına alıbdır. Rusiyanı həmin təhlükədən millətçi, şovinist fars azlığının mövqeyindən çıxış edən, həm İranda mövcud olan türk toplumuna (Cənubi azərbaycanlılara ) həm də Türkiyə və digər türk dövlətlərinə qarşı düşmənçiliyi ilə seçilən müəllifin fikrincə, yalnız İran xilas edə bilər.

Qeyd edildiyi kimi, Türkiyəyə münasibətdə eyni və oxşar fikirləri tok-şouların daimi iştirakçılarının bir çoxu daim təkrarlamaqla, aldıqları muzd müqabilində Rusiyanın milli maraqlarına ziyan gətirən ideyaları geniş auditoriyaya təlqin etməkdən usanmırlar. Bunların ən ümumi cəhəti öz ölkələrində yaşayan türk və ya türk dilli(eləcə də digər etnik və konfessional toplumlar) toplumlarının maraqlarını, milli kimliyini, milli heysiyyət və milli qürurunu nəzərə almamaqla obyektiv olaraq ölkə və dünya miqyasında milli münasibətlərə nəticəsi sonralar özünü göstərəcək zərbə vurmalarıdır.

Yazının geniş icmalını verməyə ehtiyac yoxdur. Onun türklərə qarşı qərəzli münasibətini və eyni zamanda məntiqsizliyini göstərmək üçün bir neçə nümunə ilə kifayətlənməyi vacib hesab edirik.

Əvvəla qeyd edək ki, müəllif Azərbaycanın otuz ilə yaxın bir müddətdə İranın da həmişəki kimi ikili siyasəti və ikili münasibəti( Azərbaycana ərazi bütövlüyünü tanıyır deyir, Ermənistana isə status-kvonun dəyişməsinə razı deyil deyirdi) sayəsində Ermənistanın işğalı altında saxladığı ərazilərin Azərbaycanın 44 gün ərzində işğaldan azad etməsindən bir şiə qardaşı kimi qətiyyən məmnun deyil. O yazır: "Bu dəfə Ermənistan Azərbaycan və

onun KOALİSİYA (?)qüvvələri qarşısında təklikdə qaldı və döyüşlərdə verdiyi ağır itkilər nəticəsində DÜŞMƏN müqabilində ağ bayraq qaldırdı".

İkibaşlı siyasət yeritməyə alışan İran Rusiyadan çox inciyib. Niyə? " Həmişə olduğu kimi İranı Qafqaza buraxmamağa çalışan Rusiya bu dəfə də burada İslam Respublikasına hər hansı bir rol verməyə razı olmadı".

Fikir verin, özünü regionun super gücü hesab edən, Amerikanı vot-vot regiondan çıxarmaq üzrə olan İran dövləti Cənubi Qafqaz "tamaşası"nda Rusiyadan rol dilənir.

İranda hazırkı hökumətin mövqeyindən fərqli olaraq bütün digər qüvvələr Azərbaycanın qərb rayonlarından Naxçıvana çəkilməsi nəzərdə tutulan nəqliyyat dəhlizinə qarşı vahid cəbhə yaradıb, ona qarşı geniş təbliğat aparırlar.

Həmin qüvvələrin nümayəndəsi qismində çıxış edən müəllif, qeyd edilən nəqliyyat xəttinə qarşı Rusiyanı da ayağa qaldırmaq istəyir. Həmin yolu Rusiyanın varlığı üçün böyük təhlükə adlandırır. Guya Türkiyə həmin yol vasitəsi ilə Orta Asiya ilə əlaqə qurub təsirini daha gücləndirəcək.

Çox maraqlıdır ki, görəsən indiyə kimi Mərkəzi Asiya ilə hərtərəfli əlaqələrə malik olan Türkiyə Rusiya üçün niyə təhlükə yaratmırdı, amma Naxçıvan-Mincivan marşrutundan istifadə edəndən sonra böyük təhlükəyə çevriləcək. İndiyə kimi Türkiyə Mərkəzi Asiya ilə əlaqələrində tranzit ərazi kimi İran ərazisindən istifadə edirdi.Deməli, türk insanları və malları İran ərazisindən keçərkən deideologizasiyaya məruz qaldığından Rusiya üçün təhlükə ola bilməzdi. Amma Azərbaycandan keçəndə insanların və malların ideoloji yükü daha da artacaq. Dəmir məntiqi görürsünüzmü?

Bu farslar qəribə məxluqdurlar, bir fikri ifadə etmək üçün onu çox uzaq marşrutlardan keçirirlər. Əslində isə məsələ çox sadədir və maliyyə məsələsidir. İran qorxur ki, yeni marşrut açılanda Türkiyənin ödədiyi tranzit haqqından məhrum ola. Bu sadə fikri bəyan etmək əvəzinə Rusiya üçün türk təhlükəsindən danışır.

Nə isə, yazı, əlbəttə, bəzi maraqlı və obyektiv fikirlərdən xali olmasa da, əsasən Rusiya ilə Türkiyə münasibətlərinə xəsarət yetirmək məqsədi daşıyır.

Müəllif rusları İranın onlar üçün ziyansız bir ölkə olduğuna inandırmağa çalışır. O yazır: "Rusiya bilməlidir ki, İslam Respublikasının və onun şiə ideologiyasının Azərbaycan xalqının qəlbinə təsiri Moskvanın ehtiyat edə biləcəyi təhlükə deyil, əsl təhlükə Türkiyədir..."

Və Rusiyanın nicatı İranın əlindədir. "Moskvanın regionda balans yaratmaq və ehtimali təhlükəni dəf etmək üçün Tehranla yaxınlaşmaqdan və İslam Respublikasını Qafqaza buraxmaqdan(!! ) başqa çarəsi yoxdur".

Və ya müəllif deyir ki, ruslar İran üçün yox, öz təhlükəsizliyi və MÖVCUDLUĞUNU qorumaq üçün İranı Qafqaza buraxmalıdır.

Hə, buna deyirlər MÜSTƏQİL xarici siyasət.

## 9. 24 noyabr 2020

### Öz millətinin düşməni olan "Ziyalılar"

Azərbaycanın mənfur işğalçılara qarşı apardığı Vətən müharibəsində məğlub olan millətin nümayəndələrinin öz acı məğlubiyyətlərinə münasibətləri haqqında internetdə yayılan materiallar bu bədbəxtlərin necə böyük uydurma, yalan və nifrətlə tərbiyə olunduqlarını əyani şəkildə nümayiş etdirir. Onların düşdükləri vəziyyətin və həmin vəziyyətə hələ də obyektiv münasibət bəsləyə bilməməsinin əsas səbəbkarlarının başabəla ziyalıları olduğu hər bir kəsə aydın olur. Çünki həmin ziyalılar yüz illərdir öz xalqını istər keçmişləri və istərsə də gələcəkləri barədə uydurduqları yalanlarla tərbiyə etmişlər. Nəticədə sadə adamlar da bəzi qonşulara münasibətdə sağlam ağıl və düşüncədən məhrum olaraq gerçəkliyə yalan, böhtanlar və nifrət prizmasından yanaşmağa alışırlar və başqa münasibət göstərmək imkanından məhrum olurlar.

Belə ziyalı xəstəliyi təkcə mənfur düşmənlərə deyil, həm də bizim şiə, eyni zamanda qatı millətçi, fars, ziyalı adlandırılan “qardaşlar”ın bir çoxuna da aiddir. Ən son nümunə.

Məlum olduğu kimi, ikibaşlı və çox ehtiyatlı, lakin taktiki maraqlarına xidmət edən siyasət yeridən İranın bir çox dairələri Ermənistan-Azərbaycan müharibəsinin onlar üçün gözlənilməz olan nəticələrinə obyektiv münasibət formalaşdıra bilməmişlər. Ona görə Azərbaycanın öz ərazilərini işğaldan azad etmək üçün apardığı qalibiyyətli müharibəyə qara yaxmaq və böhtan demək, eyni zamanda həmin hadisələrdə tamamilə ağlasığmaz cəhətlər axtarmaqla məşğuldurlar.

Belə ki bəlkə də öz sahəsində müəyyən biliyi olan ziyalılardan biri, adını çəkməyə layiq olmayan, fars şovinist ziyalı hesab edilən bir elmlər doktoru, Ermənistan-Azərbaycan müharibəsindən və onun nəticələrindən danışarkən məyusluğunu, millətçi xislətini gizlədə bilmir. O, saytlardan birində yerləşdirilən yazısında ağlasığmayan iddialar irəli sürür. Ən başlıcası, bizim haqlı, ədalətli müharibəmizə nəinki kölgə salmaqdan, hətta iftira və böhtan atmaqdan belə çəkinmir. O yazır ki, İkinci Qarabağ müharibəsi Azərbaycan, Türkiyə, İsrail və İngiltərənin müştərək layihəsini reallaşdırmaq məqsədi ilə başlanmışdır. Layihənin məqsədi İran kartının oynanılması idi, yəni İranın Qafqazda, xüsusən Azərbaycan Respublikasında geosiyasi, mədəni, məzhəbi və tarixi potensialını tükətməkdən ibarətdir. Müəllif Azərbaycan ordusunun döyüş meydanında misilsiz qələbələrinə kölgə salmağı da unutmur və qeyd edir ki, Rusiyanın vəziyyəti düzgün qiymətləndirə bilməməsi və səhv hesablamaları Ermənistanın və Qarabağ Respublikasının(?) ağır məğlubiyyətinə zəmin yaratdı.

Burada müəllifin düşmənçilik, fars millətçiliyi mövqeyini əks etdirən fikirlərini şərh etməyə ehtiyac yoxdur. Müəllif ölkəsi və dövlətinin müharibənin sonlarına doğru ağıla gələrək məsələyə rəsmi obyektiv və ədalətli münasibətini, yəni Ermənistanın

işğalçı dövlət olduğu və Azərbaycanın işğal etdiyi ərazilərini qaytarmasını tələb etməsini belə unudaraq, müharibənin mahiyyətini tamamilə təhrif edir. Xoflu olan xain millətçi ziyalı hər yerdə İrana qarşı bir intriqa görür, ona görə Azərbaycanın qələbə ilə başa çatmış Vətən müharibəsinin işğal olunmuş ərazilərin azad edilməsi uğrunda aparılan müharibə deyil, İrana qarşı çevrilmiş bir hadisə kimi dəyərləndirir. Nəhayət, Azərbaycan ordusunun rəşadətinə, qəhrəmanlığına kölgə salmaq üçün Azərbaycanın qələbəsindən deyil, Ermənistanın məğlubiyyətindən danışır və onu Azərbaycanın qələbəsi kimi qəbul edə bilmədiyindən Rusiyanın səhv siyasəti ilə bağlayır. Əgər bu doktor gözünü azca açıb hadisələri görməyə səy göstərsə idi, Rusiyanın Ermənistanın məğlubiyyətinə səbəb olduğunu deyil, onu tamamilə məhv olmaqdan xilas etdiyini görərdi. Doktor adlandırılan bu ifrat millətçi əvvəlcədən antiazərbaycan ruhunda kökləndiyindən Azərbaycana aid müsbət heç nəyi görə bilmir.

Əsas diqqətini Üçtərəfli Bəyanatda Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirəcək yol bəndinə yönəldən müəllif həmin kommunikasiya xəttini az qala İranın varlığı üçün təhlükə hesab edir. Müəllif İran hökumətinin adı çəkilən yolun açılacağı təqdirdə nə İranın Ermənistanla sərhədini bağlayacağını, nə də regionun geosiyasətini dəyişəcəyini dəfələrlə vurğulasa da, millətçi dairələrin digər nümayəndələri kimi "kor tutduğunu buraxmaz" deyiminə uyğun olaraq həmin məsələ ətrafında ajiotaj yaratmaqda davam edir.

Müəllif Azərbaycana, Türkiyəyə və bütövlükdə türklərə qarşı mənfur mövqeyini gizlədə bilməyib, həmin infrastruktur hadisəsinə PANTÜRKİST damğası vurmaqdan belə çəkinmir. Biz eşitmişdik ki, insan və ya hər hansı bir təşkilat daşıdığı ideyasına, ideoloji baxışlarına görə qərəzli şəkildə pantürkist adlandırıla bilər, lakin infrastrukturun pantürkist adlanması panfarsistdən başqa heç kimin ağlına gəlməzdi. O elə belə də yazır: "Pantürkist coğrafi əlaqə", "pantürkist marşrut xətti".

Müəllifin qərəzliliyinin, alim də adlandırılsa, hadisələrə düzgün qiymət verməsinə mane olduğunu göstərmək üçün bir nümunə qeyd etmək lazımdır. O yazır ki, Azərbaycan və Türkiyə İran-Ermənistan sərhəd zolağını işğal etməyi planlaşdırırdılar, yalnız İranın xəbərdarlığından sonra həmin niyyətlərindən əl çəkdilər.

İndi, baxın, belə də təhlil olarmı? Azərbaycan ilk gündən elan etdi ki, öz ərazisində öz torpaqlarını azad etmək üçün müharibə aparmağa məcbur edilmişdir. Ermənistan müharibə günləri əsas diqqətini və bütün təxribatlarını ona yönəltmişdi ki, Azərbaycanı onun ərazisinə qarşı hərbi əməliyyat keçirməyə təhrik etsin, çünki bu halda Ermənistanın ikitərəfli sazişlə müttəfiqi olan Rusiya və çoxtərəfli sazişlə müttəfiqləri olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT/ODKB) üzvləri ona hərbi yardım göstərməli idilər. Bunu bilə-bilə Azərbaycan Ermənistan ərazisinin bir hissəsini necə işğal etmək fikrinə düşə bilərdi.

Bu doktorun cızma-qarasını oxuyan İran vətəndaşları nə düşünə bilərlər? Təbii ki, millətçi əhval ruhiyyəli fars oxucularının antitürk əhval ruhiyyəsi və türklərə qarşı düşmənçilik hissləri daha da güclənəcək, lakin türk etnik kimliyinə malik olan İran vətəndaşları fars şovinist alim adlandırılan, lakin yüksək ziyalı adına layiq olmayan kimsənin növbəti dəfə antitürk əhval ruhiyyəsini əsassız şəkildə qızışdırdığının şahidi olaraq fars alim vətəndaşın türk vətəndaşa hörmətsizlik etdiyinin şahidi olacaq və həmin hadisə onun xatirindən çıxmayacaq və sonralar müxtəlif formalarda özünü göstərəcək.

Ona görə İranın görkəmli siyasi xadimi, İranda modernləşmənin ən fəal tərəfdarı və təbliğatçılarından biri olmuş Seyd Həsən Tağızadə siyasi karyerasının sonlarına doğru, keçən əsrin 60-cı illərində silsilə çıxışlarında fars millətçilərini antitürk, antiərəb təbliğatından çəkindirmək, İranın türk dünyası(o zaman çox hissəsi hələ SSRİ-nin tərkibində olsa da) və ərəb dünyası ilə əhatə olunduğunu nəzərə almalarını məsləhət görürdü. O qeyd edirdi ki, eyni ölkədə yaşayaraq böyük/metaetnik dünyanın bir parçası olan

İran türklərinə və ərəblərə qarşı millətçi mövqedən, hər cür təbliğatdan əl çəkilməlidir. Bir zamanlar bunun acısını çəkməmək üçün.

### 10. 26 noyabr 2020

**Ehtiyatlı olmalı. Şiə "qardaşlar" da senatı dəstəkləmək istəyirlər.**

İran ondan-bundan şikayət edir ki, onu Dağlıq Qarabağ münaqişəsinin həllinə dəvət etməyiblər. Türkiyənin regionda nüfuzunun güclənməsindən böyük məyusluqla danışır. İran papağını qabağına qoyub fikirləşmir ki, 30 ilə yaxın bir müddətdə, müharibə günləri istisna olmaqla, münaqişə ilə bağlı bir dəfə də olsa, niyə Azərbaycan ərazilərinin bir hissəsinin işğal olunduğu ilə bağlı öz qəti mövqeyini ortaya qoymadı. O da tutuquşu kimi daim, hətta Azərbaycanın Vətən müharibəsində qələbəsinin formal olaraq təsdiqi ərəfəsində məsələnin hərbi həlli olmadığı fikrini təkrar edirdi.

İndi, iki gündür dünya gündəminin mühüm mövzularından biri Fransa senatının "siyasi fahişəliklə" məşğul olmasıdır. Türkiyə həmişə olduğu kimi, indi də həmin məsələ ilə bağlı Azərbaycanın haqq işini müdafiə etməkdən ibarət olan öz mövqeyini açıq və birmənalı şəkildə elan edir, amma İran həmişəki kimi susur. Yəqin ki, yenə də iki başlı mövqeyi vardır; biri bizim üçün, biri də ermənilər üçün. Bu azmış kimi Azərbaycan Fransa senatorlarının şərəfsiz, alçaq, əxlaq və mənəviyyatdan uzaq olan qərarına qarşı mübarizə apardığı bir zamanda İran İslam Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin sədr müavini durub bəyan edir ki, regionda TƏKFİRİLƏR (islamist terroristlər) olduqca, Qarabağda sülh davamlı ola bilməz. Sədr müavini təkfirilərin harada olduğunu dəqiq göstərməsə də, nəyi və kimi nəzərdə tutduğu aydındır. Sədr müavini yəqin ki, öz iddiasında vaxtilə Fransa prezidentinin dediyi əsassız, yalan-palan sözlərə

əsaslanır. Müharibənin aktiv fazasının bitməsindən 16 gün keçməsinə baxmayaraq, iranlı “qardaşlar”dan birinin bu gün vələddüznə fransızların iddiasını təkrar etməsi əslində Fransa senatının qətnaməsini müdafiə etmək deməkdir. İran müharibənin ilk günündən Fransa prezidentinin guya bölgədə - Azərbaycanda terroristlərin olması haqqında cəfəng sözlərini eşitdikdən sonra həmin fikri, necə deyərlər, göydə tutaraq daim təkrar etmişdir. İndi, Fransa senatı Azərbaycan əleyhinə alçaqcasına qətnamə qəbul edir, İslam Respublikasının nümayəndəsi onu pisləmək əvəzinə, ona dolayısı ilə dəstək göstərir. Deməli, fransızların bir qohumu da varmış və o bizə İslam inqilabı ixrac etməklə məşğuldur. İslam inqilabı dedim, daha yaxın bir “qardaş”ın, təbrizli balasının ŞİƏ İSLAMI ilə bağlı xəbərdarlığı yada düşdü. O da nədənsə xəbərdarlığı bu gün edib. Haqqında danışdığım “qardaş” insafən Azərbaycanın Dağlıq Qarabağ münaqişəsində haqlı mövqeyini həmişə dəstəkləyib, lakin bir məsələdə daim irad tutub, yəni o da eyni məsələni təkrarlamaqda davam edib. Deyəsən, bu iranlılar özləri üçün vacib hesab etdikləri məsələni təkrarlamaqda pərgardırlar. Belə ki həmin “qardaş” Azərbaycanı İslam inqilabı üçün ən münbit ölkə hesab edir. Bəlkə düz başa düşmədim, amma deyir ki, İran öz ərazisində İslam inqilabı etməmişdən əvvəl Azərbaycanda İslamı dirçəltməklə məşğul olmalı idi. Onun üçün fərqi yoxdur ki, İranda inqilabdan əvvəl, yəni 1970-ci illərdə Azərbaycan sosialist, dünyəvi dövlət idi və ya kommunist dövləti olan SSRİ-nin tərkibində idi. “Qardaş” belə düşünür ki, İran Azərbaycanda artıq xeyli iş görüb, ŞİƏ İslamını təşkilatlandırıb və həmin istiqamətdə işləri uğurla davam etdirir. İranın qarşısında, onun fikrincə, bir əngəl qalır, o da Azərbaycanda guya DÜZ olmayan islamistlərin(təkfirilərin) fəaliyyətidir. Ona görə bu ekspert özünə rəva bilir ki, Azərbaycana xəbərdarlıq etsin. O yazır: "Vəhabilər və təkfirilərin köməyi ilə [İran]şiəliyinin güclənməsinin qarşısını almaq istəyənlər bilməlidirlər ki, bu siyasət bir gün Azərbaycan Respublikası adlı dövlətin yox olmasına səbəb ola bilər".

BAX BELƏ! ŞİƏ İSLAMINA MƏNSUB OLAN "QARDAŞLAR" AZƏRBAYCANDA ŞİƏLİYİN SƏVİYYƏSİNİ HANSISA MEYARLA ÖLÇƏRƏK VƏ ONA ƏSASLANARAQ, BİRİ QARABAĞDA SÜLHÜN DAVAMLILIĞINA, O BİRİ İSƏ AZƏRBAYCANIN VARLIĞINA ŞÜBHƏ YARATMAQ İSTƏYİR. BU DA BİZİM BİLMƏDİYİMİZ, YENİ NÖV "QARDAŞLIQ"DIR, YƏQİN.

## 11. 1 dekabr 2020

**Rusların bir hissəsi nə məzhəbə qulluq edir.**

Türkiyə və onun prezidenti R.T.Ərdoğanla özlərini və dünyanı qorxudan bəzi rus jurnalistləri və qondarma analitikləri indi də elan edirlər ki, Suriyadan türkmanlar Azərbaycana köçürülürlər. Türkiyənin məqsədi türkmanların köməyi ilə ermənilərі Dağlıq Qarabağdan sıxışdırmaqdır. Bu heyvanlar sanki dünyadan bixəbərdirlər və görmürlər ki, Qarabağda yaşamaq üçün nəinki salamat bir kənd, hətta ev belə yoxdur. Gələnlər, belə çıxır ki, Bakıda hotellərdə yaşayacaqlar, bunlar da onların şəkillərini çəkib, müsahibə alacaqlar. Yalan olar daha bu qədər də yox. Bunlar yalan uydurmaqda yavaş-yavaş erməniləşirlər.

## 12. 3 dekabr 2020

**Təklif "Rusiya sülhməramlıları Azərbaycanda" saytı yaradılsın**

Rusiya sülhməramlılarının Azərbaycana çox tez bir zamanda, parlamentin müvafiq qərarını gözləmədən gəlişi, keçmiş Dağlıq Qarabağ ermənilərini öz himayəsi altına alması, onların müvəqqəti hökuməti rolunu oynamağa çalışması, indiyə kimi kiçik ölkələrdə bədnam fəaliyyət təcrübəsi, sülh yaratmaq əvəzinə həmin ölkələrin suverenliyini kobud şəkildə pozaraq, onlardan ərazi qoparması, bir sözlə imperialist məqsədlərinə xidmət etməsi

Azərbaycan ictimaiyyətində onların gələcək məqsədləri ilə bağlı haqlı şübhələrin və etirazın formalaşmasına zəmin yaradır. Biz öz dövlətimizin və onun başçısı, müdrik siyasətçi, prezident İlham Əliyevin yeritdiyi və yeridəcəyi siyasətə tam etimad edir və dəstəkləyirik. Bununla yanaşı onun siyasətinə ictimai dəstək və Rusiya sülhməramlılarının fəaliyyətinə ictimai nəzarəti təşkil etmək üçün müasir informasiya texnologiyasının imkanlarından istifadə edərək "Rusiya sülhməramlıları Azərbaycanda" adlı rus və ingilis dillərində saytın yaradılması TƏKLİF olunur. Rusiya sülhməramlılarının hələ ən azı 5 il burada qalacaqlarını nəzərə alaraq, həmin sayt vasitəsi ilə onların fəaliyyətini geniş işıqlandırmaq yolu ilə səmərəli şəkildə nəzarətdə saxlamaq olar. Bununla dövlətimizin Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyini möhkəmləndirmək sahəsində bundan sonrakı siyasi, diplomatik fəaliyyətinə çox zəruri olan ictimai informasiya dəstəyi göstərmək olar.

## 13. 4 dekabr 2020

**Türkiyə və İran**

Bu gün, 2020-ci ilin dekabr ayının 4-də 44 günlük Vətən müharibəsində(27 sentyabr - 10 noyabr 2020) düşməni darmadağın edib, diz çökdürərək Vətənin ərazi bütövlüyünü təmin edən, Azərbaycan xalqının böyüklüyünü, qüdrətini, birliyini dünyaya nümayiş etdirən ŞƏHİDLƏRİMİZİN xatirəsinə Türkiyənin bütün məscidlərində də dualar oxunub. Əhalisinin əksəriyyəti sünni məzhəbinə aid olan Türkiyədən fərqli olaraq, əhalisinin əksəriyyəti nəinki şiə məzhəbinə aid olan həm də yarıya qədəri etnik azərbaycanlı olan İranda ŞƏHİDLƏRİMİZİN anım mərasimi haqqında heç yerdə heç bir məlumata rast gəlinmədi. ŞƏHİDLƏR bizimdir və onların əziz xatirəsi onlara daim borclu olan qədirbilən AZƏRBAYCAN xalqı tərəfindən daim yad ediləcək və uca tutulacaqdır.

Millətin başını uca edən ŞƏHİDLƏRƏ Allah rəhmət eləsin.

**14. 6 dekabr 2020**

**İranda dostları olan erməni quldur və terroristindən sitat gətirirlər.**

Azərbaycan-İsrail strateji əməkdaşlığından hiddətlənən İranın mühafizəkar saytlarından birində gedən yazıda əvvəlcə belə bir cümlə verilir ki, İsrailin Milli Təhlükəsizlik Naziri "Kohen sonra iddia etdi ki, İsrail Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və ona hörmət edir". Saytın İsrailin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini "iddia" adlandırmasının səbəbi məlum deyil.

Sayt Azərbaycan ilə İsrail arasında hərbi əməkdaşlığa qarşı çıxmaq üçün ağıllı bir irad tapmayıb, keçmiş Dağlıq Qarabağın quldur başı Arutyunyanın ağlasığmaz və həmişə olduğu kimi öz cinayətkar əməllərini başqasına aid etdiyini əks etdirən fikrini sitat gətirir. Sayt sitata münasibət bildirmir, ona görə onunla razılaşır, deyə bilərik. Quldurbaşı guya Azərbaycanın İsrail PUA-larından dinc erməni əhalisinə qarşı istifadə etdiyini iddia edərək deyib ki, İsrail ermənilərə qarşı ***genosiddə*** (?v.m.) Azərbaycanla əlbirdir.

Ermənilər hər cinayətə əl atmaqdan və qonşularına hər cür şər, böhtan atmaqdan çəkinmirlər. Bəziləri də onların iftira və böhtanlarından öz məqsədləri üçün istifadə edirlər.

Əbəs yerə deməyiblər ki, dostunu mənə göstər, sənin kim olduğunu deyim.

**15. 13 dekabr 2020**

**"Bir bayatının gücü və ya milli azlıqlara qarşı yeni planlar"**

Azərbaycan ordusunun Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və xalqın bir yumruq kimi onun arxasında durması nəticəsində Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatına qəti cavab olaraq 27 sentyabr

2020-ci ildə başladığı Vətən müharibəsi 44 gündən sonra düşmənin tamamilə darmadağın edilərək qeydi-şərtsiz təslim aktını imzalaması ilə başa çatmışdır.

Azərbaycan xalqı həmin qələbəni bu ilin dekabr ayının 10-da keçirilən Zəfər Paradı ilə qeyd etdi. Həmin paradda Azərbaycanın strateji müttəfiqi, bir millətin digər dövləti, Azərbaycanın müstəqillik tarixi ərzində daim onun yanında olmuş, ona arxa-dayaq olan, Vətən müharibəsi başlayan gündən Azərbaycana hər cür siyasi və mənəvi dəstək göstərən Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının sevimlisi Rəcəb Tayyib Ərdoğan fəxri qonaq qismində tribunada yer almış və Azərbaycan Prezidentindən sonra o da Azərbaycanın tarixi Zəfərini təbrik etmək və eləcə də öz ürək sözlərini xalqa və dünyaya çatdırmaq üçün dərin məzmunlu emosional bir çıxış etmişdir.

Dekabr ayının 11-də İranın bütün saytlarında Türkiyə prezidentinin qeyd edilən çıxışından bir parçaya, demək olar ki, başda İran İslam Respublikasının xarici işlər naziri olmaqla ikinci səviyyəli bütün rəsmiləri, çoxsaylı ekspertlər müxtəlif forma və demək olar ki, oxşar məzmunda mənfi münasibət bildirmişlər. Həmin münasibəti əks etdirən yazılarda çox qəribə yanaşma və yozumlara rast gəlmək olar. Eyni zamanda həmin yazılarda İran siyasətinin və siyasətçilərinin əsl simasını və gizlin xəyallarını görmək olar.

Əvvəlcə bir neçə saytda getmiş yazıların və münasibət bildirən rəsmilərin və ekspertlərin qısa siyahısını dəyərli oxucuların diqqətinə təqdim etməyi lazım bildik.

1. İranın Mazandaran vilayətindən olan ekspert Xosrov Motəzed: "Tarixi xatırlatmalar" ("anaj" saytı);

2. "Türkiyə səfiri XİN-ə çağırıldı";

3. İran İslam Respublikasının xarici işlər naziri Cavad Zərif: "Ərdoğan bilmədimi ki, Azərbaycanın müstəqilliyi əleyhinə danışılıb" ("tasnim" saytı);

4. “Ərdoğanın Bakıda ölçülməmiş fikirləri və Tehranın dərhal reaksiyası” (tasnim” saytı);

Həmçinin Rabitə naziri Cəhromi, keçmiş Maarif naziri Bethai, Səhiyyə nazirliyinin sözçüsü, digər rəsmilər öz mənfi münasibətlərini bildirmişlər (tasnim” saytı);

5. Şərqi Azərbaycan valisinin siyasi və təhlükəsizlik işləri üzrə müavini Əlyar Rastqu: “Ərdoğan bizim daxili işlərə qarışmağa yönəlmiş sözlər demək əvəzinə öz daxili problemlərini həll etsin (“tabrizebidar.ir” saytı);

6. İranın Azərbaycanda keçmiş səfiri Möhsün Pakain: “İran-Azərbaycan münasibətlərinin pozulmasına icazə verməirik” (“irna” saytı);

7. Məsləhət Şurasının katibi Möhsün Rezai: “Azərbaycan İran millətinin qəlbində və digər qövmlərin yanında yer tutur” (“irna” saytı);

8. XİN sözçüsü Xətibzadənin Türkiyə səfiri ilə söhbətinin bəzi detalları haqqında müxtəlif saytlarda müəyyən hissələr ön plana çəkilir;

9. Beynəlxalq münasibətlər sahəsində ekspert (adı göstərilmir): “Ərdoğanın illüziyaları təhlükəli nöqtəyə çatıbdır” (“isna” saytı);

10. Dünya Parlamentlərarası Birliyin İcra Şurasının sədri, Tehrandan deputat, İran Şura Məclisində “İnqilabın ikinci addımı” fraksiyasının sözçüsü Əhməd Naderi: “Ərdoğan tarixi oxusun” (“farsnews” saytı);

11. Parlamentin vitse-spikeri Nikzad: “Cənab Ərdoğan ya tarix oxumayıbdır ya da ....” (“farsnews” saytı);

12. “Farsnews” saytındakı “Siyasilərin Ərdoğanın sözlərinə reaksiyası” başlıqlı yazıda aşağıdakı şəxslərin fikirləri öz əksini tapmışdır:

- DİN-in Siyasi müavini Camal Ərəf,

13. Parlamentin Milli təhlükəsizlik komitəsinin üzvü Fəda Hüseyn Maleki,

14. Parlamentin Milli təhlükəsizlik komitəsinin sədr müavini Şəhriyar Heydəri,

15. Parlamentin Sosial məsələlər komitəsinin üzvü Hüseyn Hatəmi,

16. Parlamentin Vərəzqandan olan deputatı Allahverdi Dehqani,

17. Parlament sədrinin beynəlxalq məsələlər üzrə köməkçisi Əmir Abdullahiyan,

18. Parlamentin kənd təsərrüfatı komitəsinin sədri Sadatinejad.

19. Beynəlxalq hüquq üzrə professor, ekspert Əhməd Kazımi: "Ərdoğanın sözləri BMT Nizamnaməsinə ziddir" ("farsnews" saytı);

20. Ekspert Həsən Hanizadə: "Xarici işlər nazirliyi Türkiyənin səfirini nazirliyə çağırmalıdır" ("farsnews" saytı).

Yəqin ki, etirazlar davam edəcək.

Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğan Zəfər paradının başlamasından əvvəl möhtəşəm çıxışında həmişə olduğu kimi nitqini bədii ifadə vasitələri və nümunələrlə zənginləşdirmişdir. O, öz çıxışlarında dini kəlamlar və bədii parçalardan tez-tez istifadə edərək onları daha təsirli və yadda qalan edir. Bu, onun çıxışlarının fərqləndirici xüsusiyyətidir. Türkiyə Prezidenti öz üslubuna bu dəfə də sadiq qalaraq, bu tarixi qələbədən ruhlanan azərbaycanlıların öz muğamlarını, şərqi və türkilərini, yəni klassik muğamları və xalq mahnılarını, o cümlədən "Qarabağ şikəstəsini", "Ay Laçın" və "Arazı ayırdılar" nəğmələrini daha ürəklə və ucadan oxuyacaqlarını bəyan etmişdir. Türkiyə Prezidenti Arazla bağlı nəğməyə dönmüş bayatının mətnini tam şəkildə söyləmişdir. Onun çıxışı ilə tanış olan İran İslam Respublikasının rəsmiləri və ekspertləri burada İrana qarşı yönəlmiş bir məna axtarmağa başlamış, nəzərdə tutduqları sətiraltı mənanı "görmüş" və dərhal da reaksiya göstərərək geniş etirazlara başlamışlar.

Onların hamısı bir ağızdan R.T.Ərdoğanın həmin bayatının mətnini söyləməsini İranın daxili işlərinə qarışmaq kimi qiymətləndirərək, çıxışın həmin hissəsinə, onun ümumiyyətlə çıxışına və yeritdiyi siyasətə və şəxsən özünə qarşı geniş etirazlara başlamış, öz mövqelərini əsasən qısa və bəzən geniş, lakin tamamilə oxşar şəkildə əsaslandırmağa çalışmışlar. Təbii ki, rəsmilərin bir çoxu öz twitter səhifələrində yazaraq qısa şəkildə etirazlarını bildirmiş, kütləvi informasiya vasitələrinə müsahibə verənlər bir qədər geniş, qərəzli ekspertlər isə uzun-uzadı danışaraq öz mövqelərini, demək olar ki, oxşar iradlarını əsassız arqumentlərlə əsaslandırmağa çalışmışlar.

Ən maraqlı cəhət iranlı rəsmilər və ekspertlərin bayatıya yanaşmaları və dəyərləndirmələridir. Onlar bayatını "seperatçı"(?) şeir adlandırırlar və bundan çıxış edərək onun hansı məna daşıdığını müəyyən etməyə çalışırlar. Türkiyə səfirinin İran XİN-ə çağırılması ilə bağlı məlumatdan görünür ki, İran tərəfi bayatıya ərazi iddiasının ifadəsi kimi baxır və İranın heç kimə onun ərazi bütövlüyünə müdaxilə etməsinə icazə verməyəcəyi vurğulanır. İranın xarici işlər naziri C.Zərif əlavə izahat vermədən twitterdə bəyan edib ki, R.T.Ərdoğanın sözləri Azərbaycanın müstəqilliyi əleyhinə yönəlibdir.

Azərbaycandakı keçmiş səfirlərdən, hazırda isə ekspert kimi fəaliyyət göstərən şəxslərdən biri bayatının mənasını açıqlayaraq bildirir ki, bayatıda məlum sülh müqavilələrindən sonra İranın "azəri" hissələrinin ayrılaraq o tərəfə getdikləri öz əksini tapır. O, daha sonra Ərdoğanın Savalan və Səhəndin də adını çəkməsini yada salaraq belə nəticəyə gəlir ki, bayatıda həmin adlara işarə etməklə demək istəyirlər ki, bu ərazilər "türkdillilərin" əraziləridir.

Ekspertlərdən digəri bayatının daşıdığı mənanı daha ətraflı şəkildə açmağa çalışır. O deyir ki, bu bayatı R.T.Ərdoğanın ekspansionist niyyətini açıb göstərir. Türkiyə prezidenti İranın bir

hissəsini ondan qoparır, həmin hissəni Azərbaycan Respublikasına birləşdirir və sonra da Azərbaycan Respublikasını "Böyük Osmanlı imperatorluğu"na ilhaq edir.

Bir sözlə, Türkiyə prezidentinin Zəfər paradında çıxışı zamanı əzbərdən dediyi Arazla bağlı bayatı separatçı, irqçi və pantürkist adlandırılaraq İranın ərazi bütövlüyünə müdaxiləyə çağırış, onun ərazi bütövlüyü üçün təhlükə elan olunur və ardınca İran dövləti həmin təhlükəyə qarşı mübarizəyə çağırılır.

Burada etirazların əsas hədəfi bayatı və onun mətnini oxuyan hörmətli Prezidenti R.T.Ərdoğan olduğundan onlar haqqında ayrılıqda bir neçə kəlmə demək yerinə düşərdi.

Bayatı haqqında:

*"Arazı ayırdılar*
*Qum ilə doyurdular*
*Mən səndən ayrılmazdım*
*Zülm ilə ayırdılar"*

Belə hesab edilir ki, bu bayatı Rus imperiyasının Şimali Azərbaycanı işğal etməsindən sonra meydana gəlmişdir. Bayatıdakı fikir və mövqenin heç bir tarixi sübutu və dəlili olmadığından, bəzi dəlillərə əsaslanaraq onun həmin hadisədən əvvəl meydana gəldiyini iddia etmək olar, lakin əsas olan bu deyil. Əsas olan odur ki, həmin bayatının ən azı 200 il yaşı vardır və onu nəinki Şimali, eləcə də Cənubi azərbaycanlıların çoxu əzbər bilirlər, eyni zamanda həmin bayatı İranda nəşr olunmuş Azərbaycan folkloruna aid toplularda da dərc edilib. Həmin bayatı şahlıq zamanı da oxunurdu və İslam hakimiyyəti meydana gələndən sonra da oxunur. İndiyə kimi həmin bayatı İranın və İran İslam Respublikasının ərazi bütövlüyü, milli təhlükəsizliyi və suverenliyi üçün heç bir təhlükə yaratmırdı, indi onu Türkiyə prezidenti oxuyandan sonra İranın bir nömrəli təhlükə mənbəyinə çevrilmiş oldu. Bu, yəqin, ancaq fars millətçilərinin xəstə düşüncələrinə xas olan məntiqə uyğun ola bilər. Hamının oxuduğu bayatı adi bir bayatı

idi, prezidentin dilindən səslənən bayatı "Milli təhlükə" statusuna yüksəldi.

Belə bir sual ortaya çıxır. Hüquqi baxımdan kimisə müəllifi xalq olan bir şeir parçasını oxuduğuna görə ittiham etmək olarmı? Burada bayatının müəllifi ilə onu dilə gətirən arasında əlaqə necə müəyyən olunmalı və ittiham, əgər varsa, kimə qarşı yönəldilməli?

Digər məsələ, indiyə qədər İran təhlükəsizlik orqanlarının həmin bayatının təhlükə dərəcəsinə niyə diqqət yetirməmələri ilə bağlıdır. Bu baxımdan, onlar Türkiyə prezidentinə minnətdar olmalıdırlar ki, işlərindəki nöqsanları onlara göstərmişdir.

Nəhayət, etirazlar birbaşa Türkiyənin sözünü və mövqeyini açıq şəkildə deyən, dünyada heç bir dövlətdən və gücdən çəkinməyən prezidenti Rəcəb Tayyib Ərdoğana qarşı yönəlibdir. Bugünkü etiraz dalğası da İran siyasətçilərinin xarakterik xüsusiyyətini - susmaq, lazım gələndə içinin bütün paxırını açıb tökmək keyfiyyətini nümayiş etdirir. Sən demə, iranlılar R.T.Ərdoğanın başqa dövlətlərin daxili işlərinə qarışdığını, böyük dövlətçilik, Osmanlı imperiyasını bərpa etmək ideyasını daşıdığını yaxşı bilirlərmiş, amma sərf etmədiyinə görə bu barədə danışmırlarmış. İndi məqamı yetişib deyə, R.T.Ərdoğanı hər cür günahlarda ittiham etməyə qalxışıblar. Amma həmin məsələdə də sadiq, düz danışan deyillər. Çünki qeyd edirlər ki, İran və Türkiyə münasibətlərində münaqişəli məqamlar çox olub, hər iki tərəf həmişə həmin münaqişəli cəhətləri idarə edə bilib və münasibətlərin gərginləşməsinə yol verməyiblər. Deməli, bu dəfə də Türkiyə Prezidentini nə qədər "asıb-kəssələr" də bu hay-küy iki ölkə arasında münasibətlərə ciddi təsir göstərməyəcək.

Bir cəhəti də qeyd etmək lazımdır ki, bayatıya və onu qiraət edən hörmətli Prezident R.T.Ərdoğana qarşı etirazlar, bəzi radikal ekspertlərin ötəri qeydləri nəzərə alınmazsa, Azərbaycan Respublikasına qarşı etiraz kimi qələmə verilmir. İran tərəfi Azərbaycan Respublikasının xarici, o cümlədən İran siyasətinin Azərbay-

canın milli maraqlarına əsaslandığını, beynəlxalq hüquq prinsiplərinə dayandığını yaxşı bilirlər və bir bayatının, onun Bakıda təntənəli mərasimdə oxunmasının həmin siyasətə heç bir təsir göstərməyəcəyinə də tam əmindirlər. Azərbaycan Respublikası İran İslam Respublikası ilə əlaqələrini iki ölkə və onların xalqlarını birləşdirən ortaq cəhətlərə söykənən mehriban qonşuluq, faydalı və daim genişlənməkdə olan əməkdaşlıq əsasında qurur və həmin əməkdaşlığın hər iki ölkənin milli maraqlarına cavab verdiyin yaxşı başa düşürlər.

Bayatının və R.T.Ərdoğanın geniş şəkildə etirazlara məruz qalması, mahiyyət etibarı ilə nə İran-Türkiyə, nə də İran-Azərbaycan Respublikası arasında münasibətlərin gərginləşdirilməsinə yönəlməyibsə (biz bilirik ki, yönəlməyib), onda bu davam edən "iriçaplı" və genişmiqyaslı etirazlar kimə qarşı yönəlibdir. Fars dünyası "birini deyib birini gizlətməkdə" mahir olduğu üçün onun bu hərəkətlərini göründüyü kimi deyil, başqa məqsədlərlə edildiyi kimi nəzərdən keçirmək lazımdır. Bu halda soruşulur ki, həmin etirazlar və onların qızışdırılmasında ƏSAS MƏQSƏD nədir?

Ekspertlərdən biri qeyd edilən hadisə ilə bağlı münasibət bildirərkən yenidən köhnə nağılı təkrar etməyə başlayır. O, azərbaycanlıların linqvistik cəhətdən türkləşmiş, mənşəcə fars olduqlarını, türkdilli olmağın türk olmadığını, daha doğrusu türk irqindən, soyundan olmadığını xüsusi vurğulayır.

Türkiyə Prezidentinə və onun oxuduğu bayatıya etirazlar isə Cənubi azərbaycanlıların nə Türkiyə, nə də Şimali Azərbaycan türkləri ilə heç bir bağlılığı olmadığını bir daha diqqətə çatdırmaq MƏQSƏDİ güdür. Başqa sözlə, İran tərəfi və hökuməti iranlıların deyil, farsların nümayəndəsi və hökuməti olduğunu nümayiş etdirərək Cənubi Azərbaycan və bütövlükdə İran türklərinə qarşı yeni etnosid və linqvosid siyasətinə haqq qazandırmağa çalışacaqlar. Bunu biz Azərbaycanın Vətən müharibəsi günlərində İran hökumətinin Cənubi azərbaycanlılara qarşı görünməmiş təzyiqində müşahidə edə bilərdik. İran xüsusi xidmət orqanları, SEPAH-

ın əsgər və zabitləri, polis qüvvələri demək olar ki, hər bir azərbaycanlını və xüsusən gəncləri, ciddi nəzarət və təzyiq altında saxlayaraq onların iki nəfərinin bir yerdə Azərbaycanın hərb meydanında uğurlarına və Böyük Qələbəsinə sevinclərini nümayiş etdirmələrinə icazə və imkan vermirdilər.

Fars millətçilərini təmsil edən İran İslam Respublikasının milli siyasətində Cənubi azərbaycanlılara qarşı yeni təzyiqlərin və repressiyaların şahidi olacağıq.

Fars millətçiləri digər xalqlara münasibətdə, bir fərqlə, ermənilərə bənzəyirlər. Belə ki, ermənilər eyni ölkədə birgə yaşadıqları xalqlara və həmin ölkənin dövlət yaradan millətinə qarşı, eləcə də monoetnik dövlət yaratmağa nail olduqdan sonra, qonşu millətlərə qarşı özlərini nifrətlə tərbiyə edirdilər və edirlərsə, fars millətçiləri də eyni ölkədə birgə yaşadıqları milli və etnik azlıqlara qarşı nifrət hissi ilə tərbiyə olunurlar. Nifrət üzərində qurulan milli siyasət millətçiliyin subyekti üçün həmişə çox acı nəticələr vermişdir. Həmin gün gələndə fars millətçi ideoloqlar çox təəccüb edəcəklər ki, onların acınacaqlı vəziyyətə düşməsinin səbəbi nə olmuşdur. Həmin səbəbləri onlar bu gün öz əlləri ilə yaradırlar, çox çəkməz acı nəticələrini də görərlər.

İranın qonşularından heç kim ona qarşı ərazi iddiası irəli sürmür, lakin onlar qonşularını belə iddialarda ittiham edərək əsas təzyiqi İranın milli azlıqlarına qarşı yönəldirlər.

Nyutonun ikinci qanunu isə deyir ki, TƏSİR ƏKS-TƏSİRƏ BƏRABƏRDİR və özünü hər yerdə göstərir.

## 16. 14 dekabr 2020

**Panfarsistlər sevinsinlər ya ağlasınlar**

İran İslam Respublikasının mərkəzi saytlarından biri çox böyük həvəslə Azərbaycan Respublikasının paytaxtı Bakıda Qarabağın azadlığı uğrunda Ermənistan təcavüzkarlarına və işğalçılarına qarşı aparılmış 44 günlük müharibədə qazanılmış parlaq qələbəyə

həsr olunmuş Zəfər paradı zamanı Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Araz çayı ilə bağlı əzbərdən oxuduğu BAYATININ İran İslam Respublikasının Ərazi bütövlüyü, Milli təhlükəsizliyi və Suverenliyinə "dağıdıcı" təsirini azaltmaq üçün hakimiyyətin Təbrizdə Türkiyə konsulluğu qarşısında keçirmiş olduğu etiraz aksiyasından foto sessiya yayımlayıb. Fotolarda diqqəti çəkən ŞÜARLARDIR. Fotolarda görünən və təkrarlanan şüarların\yazıların hamısı burada qeyd olunur.

1. Türk, fars, azəri, İmam Hüseyn əsgəri
2. Qeyrətli Təbriz, Qeyrətli Azərbaycan
3. Yaşasın İran, Yaşasın Azərbaycan
4. Ərdoğan, 2016 kudetasın yaddan çıxatma
5. Nə Vyetnam, nə Suriya, nə Əfqandı bura, Ərdoğana deginən kəs səsun, ələme səbze Əbülfəzli nigahbandı bura
6. Nə Şimali, nə Cənubi? At bu çirkin sözləri, mülki İrandır, tamamən dünyaya elan elə
7. Azərbaycan Vətənim, İran yurdum
8. Azərbaycane canbaz, Xameneidən ayrılmaz
9. Azərbaycan oyaxdı, İnqilaba dayaxdı
10. Yaşasın Azərbaycan, Yaşasın İran
11. Did you remember 2016 july 15?

Bu təkrarlanan yazılarla bərabər fars dilində cəmi 3 yazı görünür. İkisi: Xamenei ilə bağlıdır - Xamenei Xomeyniye digər əst (Xamenei elə Xomeynidir) və Məqame moəzzəme Rəhbəri: "Ons və əlaqeye mən be Azərbaycan və Təbriz yek əlaqeye zati əst"(Böyük Rəhbər: Mənim Azərbaycan və Təbrizə xüsusi bir bağlılığım var) bir dəfə görünür. Üçüncüsü – Ərdoğan, İsrail peyvəndetan mübarək (İsrail, Ərdoğan birliyiniz mübarək) – bir neçə dəfə görünür.

Burada maraqlı cəhətlərdən biri İranın adının təkcə qeyd edilməməsidir. Azərbaycanlılar fürsətdən istifadə edərək öz daimi şüarları olan "Yaşasın Azərbaycan" şüarını təkrar etmişlər. Göründüyü kimi, yazıda İsrail sözü yazılır, halbuki İranda əksər

vaxtlar sionist sözündən istifadə edilir. Həmin şüarda kinayə və ya sevincin daha çox olduğunu demək çətindir.

Nəhayət, fars millətçiləri nə qədər təkrar etsələr də, Cənubi azərbaycanlılar türk deyil, faydası yoxdur. Onların saytında hər bir fars görür ki, təbrizlilər hakimiyyətin tədbirində iştirak etsələr belə, yenə türk olaraq öz dilinə üstünlük verirlər, yəni Azərbaycan elə Türküstandır.

## 17. 17 dekabr 2020

**Tutuquşu**

Görəsən bu Putini bir başa salan olacaqmı ki, keçmiş Dağlıq Qarabağ münaqişəsi etnik düşmənçilikdən, SUMQAYIT hadisələrindən deyil, ermənilərin xəstə illüziyalarından, cinayətkar, vəhşi, faşist əməllərindən sonra başlanmışdır. Hər dəfə keçmiş münaqişədən danışmağa başlayarkən sanballı görkəm alaraq məsələnin kökünü bilən adamlar kimi Sumqayıtın adını çəkir. Bəlkə, daha bəsdir.

## 18. 18 dekabr 2020

**Karların könlündəki**

Putin bu gün(18.12.2020) MDB dövlət başçılarının video iclasında çıxışı zamanı yenə təkrar edib ki, döyüşlər zamanı terrorizm təhlükəsi artmışdı.

“Имевшие место боестолкновения,… увеличили риски распространения террористической угрозы”.

Putin daha sonra dinlərin və məbədlərin qeydinə qalaraq deyib ki, onların (MDB dövlətlərinin) qarşısında, o cümlədən tarixi, dini və mədəni abidələrin qorunması və bərpası kimi vəzifə durur.

Əvvəl deyəsən, xristian, yəni erməni abidələrindən danışırdı, indi daha ümumi şəkildə deyir. Görəsən, bu 30 ildə bizim dağı-

dılmış şəhərlər, kəndlər, abidələrimiz bunların yadına niyə düşmürdü və düşmür, amma abidələrə (ermənilər nəzərdə tutularaq) qayğı göstərməyin vacibliyini vurğulamaq və təkrar etməkdən yorulmur.

İranın əsas hökumət və ya yarırəsmi (poliofitsioz) xəbər agentliyi "irna"nın Bakı ofisinin qeyd edilən iclas haqqında hazırladığı icmal:

Agentliyin saytında Putinin terrorizm təhlükəsi ilə bağlı dediyi fikir başlığa çıxarılaraq verilibdir. "Putin: Qarabağ münaqişəsi regionda terrorizmin genişlənməsi təhlükəsini gücləndirdi" (Monaqeşeye Qərebağ xətəre gostəreşe terrorism dər mənteqe ra təşdid kərd") Putin münaqişə yox, döyüşlərin risk yaratmasından "irna" isə ümumiyyətlə münaqişədən danışır.

Putin o yarımçıq fikirlə kifayətlənsə də, "irna" təhlükənin "ciddi" olduğunu əsaslandırmaq üçün Paşinyan kimi kütləvi informasiya vasitələrinin və Lavrovun nə vaxtsa dediyi fikirlərə əsaslanır.

Vətən müharibəsi getdiyi günlərdə və Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatmasından sonra da İran daim təkrar edirdi və fürsət düşəndə yenə də təkrar edir ki, Suriyadan regiona təkfiri yəni iranlıların müsəlman hesab etmədiyi (İran ancaq öz terrorçularını müsəlman hesab edir, digərləri yox) terrorçular gətirilir. Əgər Suriyadandırsa, demək Azərbaycana gətirilirdi və gətirilib. İran, məlumat mənbəyi etibarlı olmasa da, onların sayını da (2000-dən çox) göstərməkdən çəkinmir.

Bu kor yapalaqlara Ermənistan tərəfindən terroristlərin vuruşduğu, necə deyərlər dəlilli şəkildə isbat edilsə də, yenə tutuquşu kimi eyni sözləri təkrar edib, erməninin adını çəkməkdən yaman qorxurlar.

Əsasız iddiaları təkrar etməklə hər iki tərəf sadəcə olaraq Azərbaycana münasibətdə qərəzli mövqe tutduqlarını gizlətmirlər. Rusiya guya üstüörtülü, ümumi şəkildə, İran isə açıq-aşkar.

## 19. 27 dekabr 2020

**Cənubi azərbaycanlılara təklif və ya 44 günlük Vətən müharibəsi cənubi azərbaycanlıların gözü ilə**

Cənubi Azərbaycan saytlarından birinin bir neçə dəfə verdiyi məlumata görə Azərbaycan Respublikasında Vətən müharibəsi başlanan gündən Cənubi Azərbaycanın Araz çayı sahilinə yaxın yaşayış məntəqələri qeyri-ixtiyari olaraq döyüş əməliyyatları gedən bölgənin davamına çevrilmişdi. Belə ki, ora təsadüfi və ermənilərin qəsdən atdığı mərmi və raketlər düşürdü. Belə mərmi və raketlər çox zaman boş ərazilərə düşsə də, nadir hallarda dağıntıya səbəb olmuş, hətta yüngül xəsarət alan da olmuşdu. Bütün bunlara baxmayaraq həmin bölgənin əhalisinin bir qismi, xüsusən də uşaqlar və gənclər Araz boyu ərazidə gedən döyüşləri canlı izləmişlər. Məlum olduğu kimi, döyüşlərin bir istiqaməti 2020-ci ilin sentyabr ayının 27-dən Zəngilan rayonu və şəhərinin azad edilməsinə qədər (20.10.2020) Araz çayı sahilinə yaxın ərazidə getmişdir və həmin günlərdə Cənubi azərbaycanlılar döyüşləri canlı izləmişlər. Dəfələrlə polisin döyüşləri izləmə zamanı baş verə biləcək təhlükə barədə xəbərdarlığına baxmayaraq müharibə tamaşaçılarının sayı nəinki azalmamış, əksinə getdikcə müxtəlif bölgələrdən, xüsusi olaraq döyüşləri izləmək üçün gələnlərin hesabına, daha da artmışdır. Döyüşləri axşam və gecə qaranlığında izləmək daha maraqlı imiş, çünki mərmi və raketlərin uçuşu daha aydın görünürdü. Cənublular döyüş sahəsində real vəziyyəti bizdən daha tez görür və bilirdilər. Döyüşlərin intensivliyi səngiyəndə ermənilərin artıq geri çəkildiklərini, ərazilərin azad edildiyini görürdülər. Məsələn, qeyd edilən həmin məlumatlardan birində deyilirdi ki, ermənilər Zəngilan istiqamətində əks-hücuma cəhd etsələr də, azərbaycanlılar onları Ermənistanın dövlət sərhədinin arxasına çəkilməyə məcbur etdilər. Həmin məlumat bizdə bir neçə gündən, vəziyyət tam sabitləşəndən sonra verilmişdi.

Döyüşlərin müəyyən hissəsi Cənubi azərbaycanlıların gözləri qarşısında baş verirdi. Bizim döyüşləri kənardan bilavasitə izləmək imkanımız yox idi, yalnız rəsmi məlumatlar sayəsində müzəffər ordumuzun qələbələr qazandığını eşidir və məhv etdiyi texnika və canlı qüvvənin bir hissəsini televizorların ekranlarında görürdük. Doğrudur, müharibədən sonra qəhrəman əsgər və zabitlərimizin çəkdikləri videogörüntülər və danışıqları əsasında döyüşlər haqqında daha dolğun təsəvvür əldə etmək imkanı meydana gəlmişdi. Bizim düşmənin ayrı-ayrı texnikası və canlı qüvvəsinə endirilən dəqiq, öldürücü zərbələr və sonradan videogörüntülər və söhbətlər əsasında yaranan təsəvvürümüzlə hadisələrin bilavasitə müşahidəçilərinin təəssüratları arasında böyük fərq vardır.

Bu müharibənin və şanlı zəfərin Azərbaycan xalqının tarixinin mühüm bir səhifəsini təşkil etdiyini nəzərə alaraq Cənubi azərbaycanlılara bir təkliflə müraciət etmək yersiz olmazdı. Döyüş əməliyyatlarını daimi izləyənlər və onların arasında daha dəqiq müşahidə qabiliyyətinə malik olanlar və az-çox yazı yazmaq bacarığı olanlar həmin günlərdə Arazın o tayından gördükləri döyüşlərin salnaməsini yazsalar, həm Azərbaycan tarixinə, həm Azərbaycanın hərb tarixinə mühüm töhfə vermiş olar, həm də öz adlarını tarixdə əbədiləşdirmiş olarlar. Bu təklif əslində geniş bir mövzunu əhatə etdiyindən, həmin istiqamətdə hərəkət etmək müəyyən zəhmət və ən əsası vətənpərvərlik və milli qeyrət tələb edir.

Gələcək salnaməçilərə yardım məqsədi ilə onların nəyə diqqət yetirməsinin vacib olduğunu qeyd etməyi lazım bildik.

1. Hərbi əməliyyatlar hansı yaşayış məntəqələrində və hansı müddət ərzində müşahidə edilirdi;

2. Döyüş əməliyyatlarının müşahidəsinin dinamikası, yəni müşahidəçilərin sayı necə dəyişirdi;

3. Döyüş əməliyyatlarını izləyənlərin coğrafiyası (hansı məntəqələrdən gələnlər vardı), demoqrafiyası və cinsi) və sosial tərkibi (hansı təbəqəyə mənsubluğu) necə idi;

4. Döyüş əməliyyatını izləyənlərin hadisələrə münasibəti, keçirdikləri hisslər, arzu və istəkləri və sairə;

5. Hakimiyyət orqanları nümayəndələrinin Vətən müharibəsi, döyüşlərə və döyüşləri izləyənlərə, onların əhval-ruhiyyəsinə formal (rəsmi) və qeyri-formal (təklikdə, məmur kimi yox, bir azərbaycanlı kimi) münasibətləri;

6. Vacib maraqlı və əhəmiyyətli hesab edilən digər məqamlar

Belə nəzərə gəlir ki, qeyd edilən forma və məzmunda yazının meydana gəlməsi çox vacibdir, bununla tarixi hadisələrin yaddaşa köçürülməsinin əhəmiyyətini başa düşdüyümüzü nümayiş etdirmiş olarıq. Biz hadisələrdə iştirak etsək də, çox zaman onun tarixini qeyd etməyi unuduruq. Yəni gəldik, iştirak etdik, uğur qazandıq, müəyyən hisslər yaşadıq və az sonra unutduq, getdi. Sonralar həmin hadisələrin necə baş verdiyini ətraflı təsvir etmək üçün lazım olan mənbə tapa bilmirik.

Türklərin o qədər də faydalı olmamış, amma müəyyən səbəblərlə şərtlənmiş ənənəsinə - tarix yaratmaq, lakin onu yazılı yaddaşa köçürməmək ənənəsinə son qoyaq. Tariximizi başqalarının yazmasının bizim tarixi şüurumuza mənfi nəticələrini unutmayaq. Hər nə iş görsək, onu dərhal tarixin yaddaşına köçürək.

Cənubi azərbaycanlılar Vətən müharibəsində fiziki olaraq iştirak etməsələr də, ruhən iştirak etdikləri yaxşı məlumdur. Vətən müharibəsinin seyr etdikləri müəyyən hissəsinin o taydan tarixini yazmaqla, onun başqa yöndən görüntüsünü təsvir etməklə həm Azərbaycan tarixinə töhfə vermiş, həm də ruhi bağlılığı gücləndirmiş olarsınız.

Bu işdə sizlərə uğurlar arzu edirik.

## 20. 29 dekabr 2020

**“Mədəni” qərblilər**

AVROPA SİYASƏTÇİLƏRİ, BAŞA DÜŞDÜK, GÜNƏMUZD YAXUD QƏTNAMƏMUZD İŞLƏYİRLƏR, BƏS MƏDƏNİYYƏTÇİLƏR NİYƏ SİYASƏTLƏ MƏŞĞUL OLURLAR, ONLARIN DA MUZDA EHTİYACI VAR

İndi Azərbaycan kimə qarşı mübarizə aparsın, ədalətli qanunlar qəbul etməli olan, amma pulun qoxusuna beynəlxalq HÜQUQ sahəsində özlərini qanmaz yerinə qoyan Fransa, Belçika, Niderland GEYLƏRinə qarşı, yoxsa mədəni abidələri qorumaqla məşğul olmaq əvəzinə aldıqları pulun əvəzini ödəmək üçün TƏCAVÜZKARI müdafiə edən MƏDƏNİYYƏTSİZ YUNESKOÇULARAMI qarşı. ƏLAVƏ gəlir qoxusu bu başqasına dərs vermək iddiasında olan YARAMAZların ƏSL SİMASINI nə tez ortaya qoydu.

Vidadi Mustafayev

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ İRAN MEDİASINDA

Kompüter tərtibçisi: *Səbinə İmanova*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı: 60x84 $^{1}/_{16}$
Həcmi:24 ç.v.
Sifariş: 6
Tirajı: 200
Qiyməti müqavilə
əsasında

Red N Line MMC tərəfindən hazır diapozitivlərdən
istifadə olunmaqla çap edilmişdir.